AZƏRBAYCANIN GÖRKƏMLİ ADAMLARI

NƏSİMAN YAQUBLU

# MƏMMƏD ƏMİN RƏSULZADƏ

BAKI. GƏNCLİK, 1991.

Rəyçi filologiya elmləri doktoru,
professor *Şamil Qurbanov*

Redaktoru *Elmira Fərruxzadə*

**Y 15 Yaqublu N. Q.**
Məmməd Əmin Rəsulzadə. (Azərbaycanın görkəmli adamları). B.Gənclik, 1991. 308 səh.

Bu kitabda xalqımızın görkəmli oğlu Məmməd Əmin Rəsulzadənin həyat və fəaliyyətindən, Azərbaycanın müstəqilliyi uğrundakı mübarizəsindən danışılır. Kitabda M. Ə. Rəsulzadənin İranda, Türkiyədə, Azərbaycan Demokratik Respublikası dövründəki fəaliyyətinə geniş yer verilib. M. Ə. Rəsulzadənin müxtəlif dövrlərdə Stalinlə, Şaumyanla, Hitlerlə münasibəti də əsərdə öz əksini tapıb.

Kitabda M. Ə. Rəsulzadənin mühacirətdə çıxardığı jurnallara, Azərbaycan legionlarının təşkilindəki roluna geniş yer ayrılıb, onu tanıyan, hazırda Türkiyədə yaşayan dostlarının xatirələri toplanıb.

Y 4702060204 149-91
M 653(07)-91

ISBN 5 – 8020 – 0708 – 7

© Gənclik, 1991.

# YADDAŞ İŞIĞINDA

*«...Bir gün həyatınızı yazacaq bəxtli bir türk gənci, yaxud da şəxsiyyətinizi canlandıracaq bir türk sənətkarı, ömrünüzün hər dövrünü qavrayıb anladıqca «nə şərəflidir mənə ki, bu yaşamağa dəyər səhifələri canlandırıram» —deyə sevinəcəkdir, bunların əsərlərini oxuyan və ya seyr edənlər də sizi daima sonsuz məhəbbət, hörmət və rəhmətlə anacaqlardır».*

***MƏMMƏD ƏMİN RƏSULZADƏNİN***
***ANADAN OLMAĞININ***
***70-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ***
***DOSTU CƏFƏR KRIMƏRİN***
***ONA YAZDIĞI MƏKTUBDAN.***

Ömrünün qürub çağını yaşayan qoca ölümlə çarpışırdı. Qara nəfəsli ölümün iti dırnaqları işıqlı dünyadan aparmaq üçün ona sarı uzanmışdı. Gözlərində qəribə bir təlaş dolaşsa da ölümdən qorxmurdu. Amma tez-tez təngnəfəs olur, boğulur, sıxıntıdan qurtarmağa çalışırdı.

Ölüm yavaş-yavaş ona yaxınlaşırdı.

Qoca ölümdən qorxmurdu...

Dünyanın çox dəhşətlərini, zülmlərini görmüşdü. Uzaq Şimalın buzlu cəhənnəmində neçə il ömrü çürümüşdü. Günlərlə ac-susuz soyuq döşəmələrdə uzanan yüzlərlə dostlarından təkcə o sağ qalmışdı. Neçə igid dostunu itirmişdi! O günləri xatırlayanda həmişə əsəbiləşir, gözlərinə qaranlıq çökür, həyəcandan əsirdi. Ötənlərlə, yaşadığı çoxillik ömrüylə bağlı görüb şahidi olduğu hadisələrin hamısı ağrı-acı içində idi. Belə iniltili xatirələrin yalnız iki ilində güclü işıq alovu vardı. O işıq ötənlərin çox-çox uzaqlığından hərdən güclü şəfəq saçır, üzünü nura boyayırdı.

Ölüm yatağında çırpındığı anlarda həmin işığa can atırdı qoca. Lakin ölümün qara nəfəsi o həzin xatirə işığını getdikcə zəiflədir, qaranlığa boyayırdı.

Qoca yaddaşındakı işığı sönməyə qoymayıb ölümlə çarpışırdı.

Nəvə-nəticələri, qohumları, qonşuları qocanın dövrəsinə yığılmışdılar. Hamı onun əzab içində çırpınıb işıqlı dünyayla vidalaşmağına baxırdı.

Qəfildən qoca qəribə sözlər danışmağa başladı və çoxları bunu ölümqabağı sayıqlama kimi başa düşdü.

Qoca danışırdı:

— Götürün ordan 55-10-na zəng vurun!

Otaqdakılar təəccüblə bir-birlərinə baxdılar: Bakıda belə telefonmu var?

Qoca yenə dilləndi:

— 55-10 cavab vermirsə, 3-32-yə zəng vurun!

Otaqdakılar yenə təəccüb içində çiyinlərini çəkdilər.

Qoca hirsləndi:

— Onda 6-10-na zəng vurun, ola bilməz ki, cavab verməsinlər.

Hamı susurdu. Başı üzərində ölüm kölgəsi dolaşan, bükülüb yumağa dönmüş qocaya baxıb ürəklərində təəssüflənir, halına acıyır, sayıqladığını düşünürdülər.

Qoca bu dəfə sakit, yavaş-yavaş danışmağa başladı. İndi onun dediyi sözlərdə sayıqlamaq yox, güclü həqiqət işığı alovlanırdı:

— Bakının gözəl günləri idi. Nikolayevski küçəsi ilə getməyi xoşlardım. Hər yanda adamlar şən, üzügülər görünürdü. Bax o tərəfdə, Birjeva küçəsində Danimarka konsulluğu vardı. Ondan bir az aralıda, elə həmin istiqamətdə İsveçrə konsulluğu yerləşirdi. İtaliya konsulluğu isə Krasnovodski küçəsində idi. Mariyski 11-də «uşaq evi» vardı, bütün maddi köməyi hökumət edirdi. Parlament binası yanında «istiqlaliyyət muzeyi» yaradılmışdı.. Tez-tez gedib o muzeyə baxardıq. Adamların əyləncə yeri çoxdu. Primorski küçəsində «Təbəssüm teatrı», Dumski meydanda «Türk ocağı» yerləşirdi. Şəhərdə gör neçə kinoteatr vardı: Malakanskidə «Ampir», Vorontsovskidə «Mars», Olkinskidə «Fransız», Böyük Morskidə «Fenomen»... Gözəl günlər idi. Adamlar xoşbəxt, azad yaşayırdı. Hər şey özümüzünkü idi. Birjeva küçəsində, Yefimov qardaşlarının binasında «Modern» sirki vardı. Cavanlar hamısı ora axışardı...

Otaqdakılar heyrətlə qocaya qulaq asırdılar. Yox, bu sayıqlamağa oxşamırdı, işıqlı bir yaddaşdan süzülüb gəlirdi.

Qocanın üzündə xoş təbəssüm alovlanırdı;

— Çoxlu texnikumlar, peşə məktəbləri vardı. Qadın gimnaziyasında qızlar oxuyurdu. Onlarla cəmiyyətlər açılmışdı, Böyük Krepostnaya 47-də «Ukrayna Rada»sı, Milyuşinski 14-də «Estoniya milli soveti», «Zaqafqaziya almanları cəmiyyəti» vardı. Şəhərin həyatı qaynayırdı. Dünya həsəd aparırdı belə şəhərə. Dünyanın hər yerindən bu gözəl şəhəri görməyə gəlirdilər, o zaman qapılar da, sərhədlər də hər yana açıq idi. Adamlar istədikləri vaxt hər hansı ölkəyə gedə bilərdilər. Şəhərdə çoxlu tibbi, fəlsəfi, elmi dərnəklər fəaliyyət göstərirdi. Çoxlu xəstəxanalar, apteklər açmışdılar. Böyük Çəmbərəkənddə, Təzəpirdə, Şamaxınskidə, Bazarnıdakı müalicəxanalarda pulsuz müalicə olunurdular. Şəhərin məşhur həkimlərindən olan Ağa Əlizadə daxili xəstəlikləri, Məlik Sultanov dərini, Cəfər İlyas gözü yaxşı müalicə edərdi. Talışinski çox bilikli cərrah idi, Vodovoznu küçəsində əyləşirdi. Qarabəyov da yaxşı həkim idi, Telefonu 13-02; hamısının telefonu vardı... Şəhər cənnətə dönürdü, intəhası qoymadılar. Allah mərdiməzara lənət eləsin...

Qoca son sözləri şikayət və inilti dolu bir səslə dedi. Bayaqdan üzündə işıq dolaşan bu dünyagörmüş adamın gözləri kədərli halda harasa uzaqlara dikilmişdi. Bədəni hirs və həyəcandan əsirdi.

Evdəkilər qocanın bu əhvalından çox narahat olsalar da ürəklərindən qəribə istək də keçirdi: qoca danışsın, ötənlərdən söhbət etsin, bayaqkı telefon nömrələrinin kimin olduğunu söyləsin.

Qoca başı üzərində dolaşan ölüm kölgəsini özündən kənar edib yaddaşının xoş xatirələrini pıçıldayırdı:

Şəhərin düz mərkəzində «Mərkəz» mehmanxanası salınmışdı. Bəzəkli nömrələri olan bu mehmanxana elektriklə işıqlandırılırdı, Malakan küçəsində yerləşən «Kazino»da qalmaq üçün heç bir əziyyət çəkmək, get-gələ düşmək lazım deyildi. Mehmanxanadakı 23—95 nömrəli telefona zəng vurub yer sifariş vermək olardı. Hər cür şəraiti olan birinci dərəcəli «Metropol»un da öz gözəlliyi vardı. Hər qarışında qızıl neft qaynayan şəhər bollu, bərəkətli idi. Ürəyin istəyəni tapa bilərdin. Adamlar da səmimi, mehriban idi. Hələ o bəd ayaqlar gəlməmişdi, şəhərimiz xoşbəxtlik, var-dövlət içində alışıb-yanırdı. Olkinski küçəsində Axundovun məşhur Manufaktura-qalenteriya mağazası vardı. Burda həmişə istənilən rəngdə yaraşıqlı ipək və yun paltarlar, qadın geyimləri satılardı. «Rəfiyev qardaşları»nın Milyutin küçəsindəki mağazasında da hər şey olardı. Əvvəlcədən 47—48 nömrəli telefona zəng vurub alacağın malın orada olub-olmadığını da öyrənə bilərdin. Elə həmin Milyutin küçəsində yerləşən musiqi mağazasında qrammafon, potefon, pianino, müxtəlif alətlər satılırdı. Qızılı neftli şəhərimizdən Vətənimizin hər yerinə — Gəncəyə, Yevlaxa, Şamxora, Tovuza, Xaçmaza, Mingəçevirə qatarlar işlərdi. Amma qoymadılar. İnsan qanına susamışlar gəlib işimizi yarımçıq kəsdilər, minlərlə günahsızın qanını axıtdılar...

Qocanın həyəcan və əsəbdən sinəsi aramsız halda qalxıb-enirdi..

Otaqdakılar hələ də bir şey anlaya bilmirdilər. Əgər qoca öz cavanlıq dövründən — yetmiş il, səksən il əvvəlki Bakıdan danışırdısa, onda çox təəccüblü idi: Bakı o zaman doğrudanmı belə gözəl, varlı-dövlətli şəhər olmuşdu? Nəvələrindən biri bayaqkı hadisəni xatırladı: — Baba, o dediyin 3—32 kimin telefonu idi, kimə zəng vurmaq lazım idi.

Qoca gözlərini məchul bir nöqtəyə dikmiş halda dedi:

— Azad hökumətimizin Baş naziri Nəsibbəy Yusifbəylinin.

— Bəs 6—10 kimin telefonu idi?

— Hərbi nazir Səməd bəy Mehmandarovun.

Nəvəsi bir qədər fikirləşəndən sonra babasının az əvvəl həyəcan içində dediyi birinci telefon nömrəsini xatırlayıb soruşdu:

— Baba, bəs 55—10 kimin telefonu idi?

Qoca bu suala cavab verə bilmədi. Çalışıb bir söz demək istədisə də bacarmadı. Ölüm yatağında çırpına-çırpına qaldı. Gözləri qaranlıqlaşdığından hər yanı zülmət içərisində görürdü. İndi ona işıqlı görünən heç nə qalmamışdı. Ölüm qapıları astaca açılıb onu qaranlıq dünyaya dartıb aparırdı.

Babasını torpağa basdırandan çox sonralar da nəvəsi bir sirri öyrənə bilmirdi: görən babam 55—10-na kimə zəng etmək istəyirdi? 55—10 axı kimin telefonu olub?

## İLK «TƏHLÜKƏ»

Novxanı kəndinə xoş qədəmli bahar gəlirdi.

Kəndin hörmətli adamlarından olan axund Hacı Molla Ələkbərin evində iki övlad böyüyürdü: oğlu Məhəmməd Əmin və qızı Şəhrəbanu.

Adlı-sanlı axund ömür-gün yoldaşı Zal qızı Ziynətlə sakit həyat yaşayır, övladlarını böyüdürdülər. Oğluna yaxşı təhsil verib bilik adamı etmək axundun ən böyük arzusu idi. Oğlunun oxumağa olan həvəsi də onu sevindirirdi. Quranı mükəmməl oxuya bilən Məhəmməd Əminin dərin zəkası axundun diqqətindən yayınmırdı. Axund fikirləşirdi ki, indi zəmanə çox pisdir, şəhərin hər yerində hökumət əleyhinə söhbətlər danışılır, kimlərinsə gizli işlər gördüyünü deyirlər. Oğlunun belə işlərdən uzaq olub başqa yolla getməyini istəyirdi axund. Hələlik oğlunun hərəkəti, davranışı onun ürəyincə idi.

Bir gün qəribə hadisə baş verdi və axund bu söhbətdən çox narahat oldu.

...Günəşli bir yaz günündə Məhəmməd Əmin doğma kəndi Novxanını gəzib dolaşırdı. Qəfildən həyətlərin birindən kiminsə kədərli-kədərli oxuduğunu eşitdi:

— Gəl, ey gözü vətəndə qalan Hüseynqulu xan,
Sülaləsini nəzərdən salan Hüseynqulu xan.

Eşitdiyi bu kədərli el oxuması içərisində qəribə maraq oyatdı. Ayaqları sanki yerə mıxlanmışdı, gedə bilmirdi. Əslinə qalanda heç getmək də istəmirdi. Ürəyinə axıb-dolan, əhvalını başqalaşdıran belə qəmli oxumanın hardan baş alıb-gəldiyini bilmək istəyirdi. Qəribə idi, iki misralıq mahnıda nə böyük ağrı vardı! Bu iki misra qovulmuş, yurdundan ayrı düşmüş bir adamı çağırırdı. İnilti, şikayətlə dolu bu səs Hüseynqulu xanı səsləyirdi. Kim idi Hüseynqulu xan? Bəs mahnının ardını niyə oxumurdular?

Əyilib həyətə baxdı. Adını bilmədiyi, amma hərdən kəndin aralığında gördüyü nurani qoca yer əkirdi. Yorulduğundan belə söykənib dayanmışdı və arada kədərli avazla oxuyurdu.

— Gəl, ey gözü vətəndə qalan Hüseynqulu xan...

Qəlbinin lap dərinliyindən alovlanıb üzə çıxan maraq hissini boğub saxlaya bilmirdi. Qocaya yaxınlaşıb bu sirli oxumanın hardan baş alıb gəldiyini, niyə bu qədər ürəkparçalayan olduğunu bilmək istəyirdi. Bilmək istəyirdi ki, bu axı kimin ağrısıdır, bir şəxsin faciəsi, yoxsa çoxluğun dərdidir? Və nəhayət, qoca bu mahnını hardan eşidib, kimdən öyrənib?

Keçib həyətə girdi. Qoca səs eşidib geri döndü. Gördü ki, qarşısında yaraşıqlı bir oğlan uşağı dayanıb..

Məhəmməd Əmin qocanı görəndə özünü tamam itirdi. Gözlərindən yaş axan qocanın baxışları, sifətinin görünüşü, geyimi bayaq oxuduğu mahnının özü kimi kədərli idi.

Qoca oğlanın bu qəfil gəlişindən çaşan kimi oldu. Kirli ətəyi ilə gözlərini silib narazı halda soruşdu:

— Kimsən? Nə istəyirsən?

— Axund Hacı Ələkbərin oğluyam. Elə gəldim ki...

Dili dolaşdı. Gəlişinin məqsədini açıb deməyə çəkindi. Özündən çox-çox yaşlı olan bu adamdan birdən-birə hər şeyi soruşmaq düzgün olmazdı.

Sifətində hələ izləri qalan bayaqkı kədər ifadəsini yığışdırıb sakit halda gülümsündü:

— Hə, allah saxlasın, Axund necədir?

Bayaqkı həyəcanı çəkilib getmiş halda «Yaxşıdır» dedi.

Qoca həyəti əkməyindən, bu ilin bol məhsullu olacağından danışdı. Yaşı yüzdən çox olan qoca qıvraq idi, əlini işdən ayırmamışdı hələ.

Nəhayət, cəsarətə gəlib qocadan soruşdu: — Baba, siz bayaq kədərli-kədərli nəsə oxuyurdunuz. Bilmək istəyirəm ki, o Hüseynqulu xan kimdir elə?

Bu sualdan qocanın sifəti tutqunlaşdı və zorla üzünə qonmuş təbəssüm ifadəsi yoxa çıxdı. Gözlərində yenə bayaqkı ağrı kölgəsi dolaşmağa başladı. Bir müddət sakit dayanıb dillənmədi. Sonra astadan dedi:

— Belə şeyləri bilməyin hələ tezdir...

Qoca üzünü yana çevirib işinə başladı. Orda dayanmağın faydasız olduğunu bilib evə qayıtdı. Yol boyu maraq içində düşünürdü: Bu Hüseynqulu xan kimdir axı? Niyə onun adına qoşulan mahnını oxuduqca qoca ağlayırdı? Burda nə isə qəribə sirr var.

Axşam atası evə gələn kimi Hüseynqulu xanın kimliyini soruşdu. Axund oğlunun qəfil sualından çaşıb qaldı. Sonra oğluna üz tutdu:

Yenə nə eşitmisən?

Oğlu maraq dolu gözlərini atasına dikmişdi və onun həsrətində olduğu bir sirri açıb danışacağını gözləyirdi. Amma axund susurdu. Öz aləmində, düşüncəsində idi. Dünyanın əksər elmlərini öyrənib, sirrindən agah olan axund qəribə narahatlıq hissinə bürünmüşdü. Oğlunun bu marağında qorxulu bir şey olmasa da içərisində təlaş keçirirdi. Oğlu gözlərini ondan çəkmirdi.

Axund həmin günü oğluna heç nə demədi.

Oğlu min fikir içində yuxuya getdi, sabahı günü yenə yolunu həmin yerdən saldı. Qoca həyətin lap qurtaracaq küncündə əyləşib özünün dərdi, qayğısıyla düşünürdü. Kənardan bir oğlan uşağının həyətə girib ona sarı gəldiyini gördü. Məsafə azaldıqca oğlanın sifəti ona tanış gəlirdi. Nəhayət, tanıdı: Bu ki, axundun oğludu. Belə gəlməkdə xeyir ola?

Oğlan gəlib salam verdi, qocanın halını soruşdu. Sonra birbaşa mətləbə keçdi:

— Bilmək istəyirəm ki, Hüseynqulu xan kimdir və niyə dünən onun haqda oxuyanda ağlayırdın?

Qoca heyranlıqla oğlana baxdı və neçə illərin ona ərməğan etdiyi adam tanımaq səriştəsinə arxalanıb dedi: «Yox bu oğlanda nəsə var».

Qoca oğlanın sözünü yerə salıb qəlbinə dəymək istəmədi...

Məhəmməd Əminin hələ yaşının az vaxtlarında həmin qocadan və az sonra müxtəlif mənbələrdən öyrəndiyi sərt həqiqətlər aşağıdakılar idi...

Müstəmləkə Bakı. XIX əsrin əvvəllərində Bakı çar Rusiyası tərəfindən işğal olundu. Pyotrun ən böyük arzusunu sələfləri yerinə yetirdilər. Xəzər dənizi üzərində hökmranlığa sahib oldular. Bakı camaatı müstəmləkə siyasətinə asanlıqla boyun əymədi. Müqavimət hərəkatına qoşulub qəhrəmanlıqlar göstərdi. Dəfələrlə güclü düşmən həmləsinə məruz qalan bakılılar mərdlikdə sinə gərib dözürdülər. Xəyanətkar düşmən gəncəlilərin, başda Cavad xan olmaqla göstərdiyi qəhrəmanlıqdan sonra bakılıların igidliyinin şahidi oldu. İnsan qanına susamış bu cəlladlar şəhərə girəcəkləri günü səbirsizliklə gözləyirdilər. Başçılarını (Sisyanovu) öldürən bu camaatdan mütləq o qanın əvəzini çıxacaqdılar. Gəncədəki dərsi bakılılara da vermək lazım idi. Qoy birdəfəlik zülm çəkib sakit otursunlar. Qan hərisli canavarlar Gəncədə qadınları, uşaqları məscidə yığıb hamısını qılıncdan keçirmişdilər. Anaların ağ saçlarını qan gölməçəsində qırmızı rəngə boyamışdılar. Dilsiz-ağızsız körpələrin imdad diləmək ümidi ilə onlara uzanan balaca toppuş əllərini kəsmişdilər. Vəhşiliyin hər üzünü sınaqdan çıxarmış bu «şimallılar» indi Bakı üzərinə ayaq almışdılar. Qorxulu düşmən yavaş-yavaş şəhərə girir, evlərə ölüm nəfəsi saçır, adamları qanlı zəncirlə müstəmləkə əsarətinə bənd edirdi.

Şəhər əhalisi təslim olmur, son nəfəsə kimi döyüşmək istəyirdi.

Düşmən qüvvətli, həm də çox idi. Bir sürü ac yalquzağın qarşısında köməksiz insan nə edə bilər ki? Ac yalquzaq ona qüvvət verəcək, həmişəlik yağlı tikəsinə çevriləcək zəif ovundan əl çəkərmi? Hansı çətinlik bahasına olsa da, qarşısındakı ovdan heç zaman imtina edib yan keçməz! Köməksiz ov indi onun qanlı pəncəsində çırpınırdı. Yox, bu tikəsini nəyin bahasına olursa-olsun əlində saxlayacaqdı!

Əllərinə keçən fürsəti boşuna buraxmadılar. Şəhərdə güclü qırğın başladı, qan su yerinə axdı. Vuran qolları kəsdilər. Xalqın yaddaşına qanlı hadisələr həkk etdilər.

Amma xalq bütövlükdə qırılmamışdı, adətini, ənənəsini yaşadanları, ölənlərin pak ruhlarını yad edib yas saxlayanları qalmışdı. Dərdini ucadan danışa bilməyən adamlar pıçıltı ilə başlarına gələn faciələri bir-birinə söyləyirdilər. Qisas, intiqam hissinin bir gün gəlib yetişəcəyinə inamlarını itirməmişdilər. O gün gələcəkdi, mütləq gələcəkdi!

Baş verən bu dəhşətlərdən az sonra xalq yavaş-yavaş başı üzərindəki qorxu qılıncını kənarlaşdırmağa çalışırdı. Bu hələ gizli, zəif bir tərpəniş idi. İlk baxışdan hiss olunmayan bu hərəkətə bir istiqamət, təkan vermək lazım idi.

* * *

XX əsr Bakıda siyasi coşğunluq, inqilabi mübarizənin ən qızğın dövrü kimi qarşılandı. Çar istibdadı və mövcud qayda-qanun əleyhinə Bakının hər nöqtəsindən etiraz məşəli alovlanırdı. İstismarın hər formasına məruz qalmış xalq çar üsul-idarəsindən, sıxıntı, boğuntu mühitindən hər yolla uzaqlaşmağa çalışırdı.

Yeni əsr köhnənin yerinə gələndə onun on altı yaşı vardı. Qaynayan Bakı mühiti, gördükləri, eşitdikləri, oxuduqları onu belə qənaətə gətirmişdi: Xalqın taleyindən keçib-gedən XIX əsr camaata əsarət, kölə vəziyyətində yaşamaqdan başqa heç nə gətirməyib. Cəhalət, savadsızlıq, avamlıq, siyasi şüurca yetkin olmamaq xalqın düçar olduğu dəhşətli bəlalar idi. İndi bu xəstəlikləri sağaltmaq, hansı vasitə ilə olursa-olsun müstəmləkə çirkabından təmizləmək lazım idi.

Təzə əsr girəndə o müəyyən təhsil alıb bilik qazanmışdı. Öncə savada yiyələnmiş, sonra məşhur pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci rus-müsəlman məktəbində, bir müddət də Bakı Texniki məktəbdə oxumuşdu. Lakin onu ən çox siyasi mübarizə, xalqı qəflət yuxusundan oyadıb, düçar olduğu xəstəliyi anlatmaq istəyi maraqlandırırdı. Bu işdə ilk fəaliyyət addımı təşkilat yaradıb müəyyən adamları dövrəsinə yığmaqda görürdü.

Dünyanın birinci neft mərkəzi sayılan Bakıda çoxlu inqilabçılar, çar əleyhdarları toplaşmışdı. Onlar fəhlələr arasında geniş təbliğat işləri aparır, adamları tətilə, əmək haqqını artırmaq, iş saatını azaltmaq tələbi ilə çıxışlar etməyə çağırırdılar. Camaatı çar əleyhinə, monarxiya üsul-idarəsini devirməyə hazırlayırdılar. Hələlik təbliğatda yayılan bəyannamələr daha çox fəhlələrin yaşayışı, dolanışığı ilə bağlı tələblərə üstünlük verirdilər.

Bakıda ilk ən güclü etiraz tətili səkkiz il əvvəl olmuşdu. Həmin etiraz tətilində fəhlələrdən biri özünü saxlaya bilməyib ağacla polisi vurmuşdu. Sonra fəhlələri «sakitləşdirmişdilər».

XX əsrin ilk ili idi. Bakının havasından belə siyasi mübarizə iyi gəlirdi. İmperiya və monarxiya zülmü ilə barışmayanlar çar Rusiyasının əksər əyalətlərindən bu şəhərə toplaşıb dayaq yerləri yaradırdılar.

...1902-ci ildə on səkkiz yaşlı Məhəmməd Əmin Rəsulzadə ilk siyasi təşkilatını — «Müsəlman gənclik təşkilatı»nı yaratdı. Bu bir əsrə yaxın müstəmləkə rejimi altında inildəyən xalqın ağrılarını sağaltmağa çalışan ilk siyasi təşkilat idi. O vaxta kimi də mövcud üsul-idarəyə etiraz edənlər monarxiya qaydası ilə barışmayıb müxtəlif mübarizə formalarından istifadə etmişdilər. Daha çox qəzet yazıları və ədəbi əsərlərlə xalqı əsarətdən xilas etməyə çalışan çoxlu şəxsiyyətlər olmuşdu. Lakin vahid proqramlı, işıqlı məqsədə xidmət edən geniş formalı bir təşkilat yaratmaq hünərini ilk dəfə on səkkiz yaşlı Məhəmməd Əmin Rəsulzadə göstərdi.

Sonralar, lap sonralar qocalıb yaşa dolanda ömrünün on səkkizinci ilindəki o mühüm hadisəni belə xatırlayacaqdı:

«— O cümlədən mənim təşkil etdiyim, üzvləri müxtəlif rus litseylərində və digər orta məktəblərdə oxuyan azərbaycanlı türk tələbələrdən ibarət gizli bir

təşkilat da var idi. Bu təşkilat öz üzvlərinin milli hisslərini oyatmaq, rus məktəblərində tədris olunmayan türk dilini müstəqil surətdə öyrənmək, yerli ədiblərin əsərlərini oxumaq, onların çarizm əleyhinə yazılmış inqilab şerlərini əzbərləmək və arada bir rotaprinlə çap olunmuş bəyannamələr yaymaq, fəhlələr arasına gedərək azadlıq və inqilab fikirlərini onların arasında sistemli surətdə yaymaq kimi fəaliyyətlərdə bulunurdu. Təşkilatın rotaprinlə çıxan «Hümmət» adlı bir jurnalı da vardı».

Bu onun qurub-yaratdığı gizli bir təşkilat idi. Evlərində heç kimin bu haqda məlumatı yoxdu. Dünya görmüş atası axund on səkkiz yaşlı oğlunun hansı işlər gördüyünü bilsəydi, şübhəsiz ki, müəyyən ölçü götürərdi. Amma bu haqda atası heç nə bilmirdi. Yaratdığı gizli təşkilatdan yalnız əmisi oğlu Məmmədəlinin xəbəri vardı. Əmisi oğlu da onun yaratdığı təşkilatın üzvü idi. Təşkilatla maraqlananlar getdikcə çoxalıb artırdı. Bakıda fəaliyyət göstərən daha böyük inqilabi ocaqlar vardı ki, onlar Məhəmməd Əminlə xoş ünsiyyətə girmək, öz tərəflərinə bacarıqlı qüvvələr çəkmək istəyirdilər. Çünki mübarizə qrupunda sağlam qüvvələr nə qədər çox olsa, onda fəaliyyətin kəskinliyi də artır.

İlk siyasi mübarizə ili kimi yaddaşına həmişəlik həkk olunan 1902-ci il arxada qaldı.

1903-cü il...

Tiflisdə «Şərqi Rus» adlı qəzetin nəşr olunduğunu eşitmişdi. Qəzetin müsəlmanların ehtiyacından, dərd-sərindən bəhs edən, Rusiyada və Qafqazda baş verən hadisələrdən maraqlı yazılar çap etdiyini bilirdi. Uzun illər boyu çarlıq əsarətinin zülmü altında inildəyən və bütün inkişaf, tərəqqi qapılarının üzünə bağlandığı Azərbaycan xalqını silkələyib oyatmaqda qəzetin xidməti böyük idi. «Şərqi Rus»un birinci səhifəsində teleqraf xəbərləri yazılırdı. Bütün nömrələrdə isə dövrün ab-havasını özündə parlaqlığı ilə əks etdirən, geriliyi, cəhaləti güclü tənqid atəşinə tutan müxtəlif mövzulu felyetonlar dərc olunurdu.

Bir gün qəlbində xoş istək baş qaldırdı. İstədi ki, müsəlmanların sevimli qəzeti olan «Şərqi-Rus»a məqalə göndərsin. Bəs nədən yazmalı? Xalqın hansı dərdini, ağrısını ilkin üzə çıxartmalı, minlərlə adamı da bu bəladan qurtarmağa yönəltməli? Xalqın dərdi birdirmi, ikidirmi? Əsarətdə inildəyib, bütün hüquqlardan məhrum olan xalqın düçar olduğu xəstəliklərin hansının çarəsindən başlamalı? Dərdin çoxluğu insanı fəaliyyətdən salır. Əl-qolunu bağlayıb müti hala gətirir. Müntəzir vəziyyətdə boyun əydirir, ya da həyatın iztirablardan qaralmış qaranlıq küncünə atıb ahu-zar içində sızıldadır.

Elə ilk məqaləsini bu dərdlərin birindən, ondan ötrü əsarətdən qurtarmağın ilk işığı olan dildən yazmağı qərara aldı.

Uzun əsrlər boyu farslaşan, sonra da rus kəlmələriylə eybəcərləşib ulu gözəlliyini itirmək təhlükəsində qalan doğma türk dilinin saflığını qorumaq onun ən böyük arzusu idi. Yetmiş, səksən ilə yaxın idi ki, türk övladları «uşkollar»da özgə dil öyrənir, ana kəlmələrini unudub yaddan çıxarırdılar. Şanlı keçmişindən

getdikcə uzaqlaşıb bu yadlaşan adamlar evdə-eşikdə, çöldə-bayırda incə və saf türk lisanında deyil, rusca danışırdılar. Sanki ana türkcə kəlmə kəsməyi özlərinə ar bilir, yaxud da gerilik əlaməti sayırdılar. Bu, xalqın içərisini kəsən, varlığını tapdaq altına salan ən dəhşətli xəstəlik idi. Üzdə tez sağalacağına ümid bəslənilən bu dərd qorxulu viruslarını getdikcə geniş kütlələr arasına yayır, çarəsiz olurdu.

İlk məqaləsini yazmaqda məqsədi də bu qara tufanın qarşısını vaxtında almaq idi. Yazdığı məqaləni poçtla Tiflisə göndərdi. Sonra həyəcanlı günlər başlandı. Böyük səbirsizliklə yazısından soraq gözlədi. Bəzən gözləməkdən səbri tükənir, ümidsizləşirdi. Məqaləsinin unudulduğunu, yaxud bəyənilmədiyini düşünür, lakin içərisindəki inam işığını tam öldürmürdü. Hər dəfə gedib «Şərqi-Rus» qəzetini alır, əvvəl tələsik halda bütün səhifələri gözdən keçirir, göndərdiyi yazını görməyəndə məyuslaşır, sonra acgözlüklə çap olunmuş məlumatları oxuyurdu. Beləcə, baharın xoş günləri intizar içində yaşadığı ömürdən keçib gedirdi. Amma bir gün... Həmin gün sevincinin həddi-hüdudu yoxdu. «Şərqi-Rus» qəzeti onun göndərdiyi məqaləni «Bakıdan məktub» başlığı altında çap etmişdi.

Sonralar yaşa dolanda, yurdundan didərgin salınıb ömrünün qürub çağını yaşayanda ilk yazısının necə çap olunmağını belə xatırlayacaqdı: «Bakıda 1903-cü ilin baharı idi. Qaladibi parkının xiyabanında dolaşan gənclərlə bir yerdə idim. Hamısı rusca danışırdı. Ana dili olan türkcə yerinə pozuq da olsa ruscaya üstünlük verirdilər. Bu mövzu ilə bağlı rusca danışanları tənqid edən bir məqalə yazdım və Tiflisdə çıxan «Şərqi-Rus» qəzetinə göndərdim.

Mövzunun qəzetin adına və qayəsinə uyğun olmadığını düşünmədən günlərcə Tiflis poeması gözlədim. Bu yazının «Bakıdan məktub» başlığı ilə basıldığını görüncə duyduğum sevinci deyə bilmərəm. Bu sevinci ilk yazısı çap olunanlar yaxşı bilirlər.

Bu günə qədər davam edən mücadilələrimin başlanğıcı və çıxış nöqtəsi bu məqalə olmuşdur. Etiraf edirəm ki, başlanğıcda milliyyətçi olmaqdan çox, hürriyyətçi idim».

İlk məqaləsinin belə hörmətli qəzetdə çap olunmağı onun yazmaq və çarlıq əleyhinə, istibdad zülmünə qarşı mübarizə ehtirasını daha da coşdurdu. Yurddaşlarının getdikcə sıxlaşıb mövcud rejimdən yaxa qurtarmağa meylinin gücləndiyini də hiss edirdi. Amma xalqın ağrısı bir idimi, iki idimi?... Apardığı bu böyük mübarizə yolunda ilkin maneələrdən biri savadsızlıq idi. Məktəblərin olmamağı, ana dilində oxumağın qeyri-mümkünlüyü adamların gözünü bağlayır, inkişaf edib irəli getmək istəyini boğurdu. Xalqın cavanları elm öyrənmək, bilik qazanmaq əvəzinə geriliyi, cəhaləti möhkəm tutub saxlayan işlərlə məşğul idi. Adamların çoxunda isə övlad oxutmaq həvəsi belə yox idi. Atanın, ananın bir başlıca istəyi vardı: oğul bir işin qulpundan yapışsın, çörək pulu qazansın. Varını, dövlətini özgələr yeyən bu adamları qınamaq da olmazdı. Yoxsulluğun, ehtiyacın öz amansız qanunları var!

Amma içərisindən keçən bir istəyi - camaatı elmli, oxumuş görmək arzusunu təbliğ edib hamıya çatdırmaq istəyirdi. Elə bu niyyətlə «Müxəmməs» adlı bir şer yazdı. Şerdə elmdən danışır, dünyada hər şeyin onunla bağlandığını izah edirdi. Elmsiz tərəqqi, inkişaf da mümkün deyil. Elmə sahib olmadan düşdüyün qul əsarətindən xilas yolunu tapa bilməzsən. Elmin hünəri, bacarığı ilə bağlı qapıları açıb, qaranlıqları işıqlandırmaq olar.

Yazdığı şeri böyük ümidlə Tiflisə — «Şərqi-Rus» qəzetinə göndərdi. Yenə həyəcan və səbirsizliklə dolu günlər başlandı. İlk yazısını az əvvəl çap etmiş qəzet şerinə də işıq tutacaqdımı? Əslində onu ən çox narahat edən şerdə xalqa çatdırmaq istədiyi «elmdən qaçma, onu öyrən» fikri idi. Təşkilatında çalışan türk dostlarını həm də həvəsləndirmək, apardıqları təbliğat işində onlara dayaq duran qüvvələrin olduğunu bildirmək istəyirdi. Deməli, on səkkiz, on doqquz yaşında əsarət zəncirindən açılıb qurtarmaq istəyənlər tək deyil, xalqın ağrıları üçün yananlar çoxdur...

«Müxəmməs» şerinin qəzetdə çap olunacağını gözləyirdi... Günləri həyəcan içində yaşayırdı. İlk məqaləsinin işıq üzü görməyi ona qol-qanad vermişdi. İndi ikinci yazısının sorağında idi.

Baharın ən gözəl çağı olan bərli-bəzəkli may ayının ortalarında poçta gedib «Şərqi-Rus» qəzetinin gəlib-gəlmədiyini soruşdu. Növbəti nömrəni alıb elə oradaca səhifələri gözdən keçirdi. İlk səhifədə teleqraf xəbərləri verilmişdi. «Tiflisski listok» qəzetindən alınmış Qafqaz xəbərlərinin ardı çap olunmuşdu. Qəzetin üçüncü səhifəsində isə on doqquzuncu nömrədən davam edən bir yazı verilib. Yazıda həmişəki ağrı təsvir olunub: dövləti aliyə Rusiya qanunu ilə müsəlman ruhani sinfinə girən şəxs gərəkdir ki, Rusiyada təlim almış olsunlar. ...Bəs bizə molla kim, qəravət kim edəcəkdir!

Üçüncü səhifənin ikinci sütununda onun «Müxəmməs» şeri çap olunmuşdu. «Şərqi-Rus»un 18 may tarixli 20-ci nömrəsi də yaddaşına xoş xatirə kimi həkk olundu.

Ömrünün sonrakı kəşməkeşli illərində də az şer yazmadı. İçərisindən axıb gələn bu qəlb ağrılarının heç birində bütün şerlərə məxsus «gül, bülbül, bulud, yağış» sözlərini işlətmədi. Ürəyinin odu ilə isinmiş xoş avazlı misralardan yalnız xalqın ağrısı qopdu, dərdi eşidildi. Ömrünü bütövlükdə həsr etdiyi azadlıq yanğısı bu şerlərin mayası oldu. Qocalıb yaşa dolanda alınmış vətənindən uzaq düşüb, doğma yurdundan, istəkli balalarından tənha yaşayanda qəlbinin iniltisi və ömründən ötüb getmiş günlərin həsrəti ilə sonuncu şerini yazanda da hər istəyinin fövqündə tutduğu, azadlıqdan, istiqlaliyyətdən söz açdı. Bunlar sonralar, çox sonralar oldu.

Hələlik 1903-cü ildir. Bakıda az sonra təlatümə gələcək coşğun bir dənizin zəif çırpıntıları hiss olunur. Gizli təşkilatlar fəaliyyətdədir, siyasi coşğunluq hər yanda alovlanır. Çarı devirib yıxmaqdan ötrü müxtəlif üsullarla təbliğatlar aparır.

Məmməd Əminin fəaliyyət dairəsi getdikcə genişlənir. Dostları ilə çoxlu mütaliələr edir, inqilabi ruhlu yazılar oxuyur, mübarizə yolunda qətiyyətli olurdu.

1903-cü il Bakısının yadında qalan hadisələrindən biri Bibi-heybətdən başlanan tətil idi. Hələ aprelin 18-də qatarda Bakıya Balaxanıdan çoxlu fəhlələr gəlib toplaşmışdı: 15 minə kimi adam sakitcə gəzişib dağılışmışdı. Bu qarşıdan gələn nümayişin xəbərdarlığı idi.

Mayın 1-də 20 mindən çox adamın iştirakı ilə etiraz nümayişi keçirildi. Saat 12-də Tağıyev teatrının və Parapetin yanında çoxlu adamlar toplaşmışdı. Əllərində çarın karikaturalarını tutmuş adamlar inqilabi mahnılar oxuyurdular....

Bu, Bakıda əzilənlərin ən güclü etiraz səsi idi. Getdikcə alovlanan fəaliyyətinin ilk coşğunluq dövrünü Məmməd Əmin Rəsulzadə belə danışarmış:

....Evimizin küçəyə ayrıca bir qapısı açılan otağında arxadaşlarımla toplanardıq. Otaqdakı kitabxanadan faydalanır, türkcə çalışır, çarlıq əleyhinə danışır və hürriyyət məsələlərini müzakirə edirdik. Yazı və bəyannamələr yazar və onları yayardıq. Bu yazılar sonradan qəzet halına düşdü. Xoşuma gələn «hümmətül ical taklauc cibal»dakı «hümmət» sözünü bu qəzetə ad seçdim. İstibdad əleyhindəki bu çalışmalarımda bir milliyyətçilik yox idisə də, milliyyətçiliyə və istiqlalçılığa doğru gedən bir istibdad düşmənliyi vardı.

Çarlıq əleyhinə olan fikirlərimi ehtiva edən «Hümmət» bir dəfə atamın əlinə keçir. Yazımı tanıyır. Məni sorğu-suala çəkdi. Ona «bu bir yazıdır, sadəcə oxunmaq üçün yazdım, bomba da ola bilərdi və o zaman lazım olan yerlərə atardım» dedim. Gözləmədiyi bu cavab atamı çox hiddətləndirdi. Buna baxmayaraq, üzərində çox durmadı. Məni inandığım bir yolda öz fikirlərimlə baş-başa buraxdı... ».

Başçılıq etdiyi Hümmət təşkilatına sonradan yolları başqalaşan Nəriman Nərimanov, Məşədi Əzizbəyov və qeyriləri daxil idi. Təşkilatın «Hümmət» adı ilə bir qəzeti də çıxırdı. Sonradan həmin qəzet «Təkamül» adı ilə çıxmağa başladı. «Hümmət» təşkilatının fəhlələr arasında təsiri getdikcə artırdı. Bu da şübhəsiz ki, Bakıda o zaman fəaliyyət göstərən, amma prinsip etibarilə bir-birinə düşmən olan bolşevik və menşeviklərin diqqətini cəlb edirdi.

1903-cü ildən fikir ayrılığına başlayan bu qruplar mübarizə üsuluna və taktikalarına görə bir-birindən fərqlənirdilər. Menşeviklər də çarizmi devirmək istəyir və respublika üsul-idarəsini qurmağa çalışırdılar. Yeni qurulacaq sistemdə burjuaziyanı inkar etmir, zorakılıqdan uzaqlaşır, aşağıdan yuxarıya əsaslanan bir seçki yolu ilə demokratiyanı üstün tuturdular.

Bolşeviklərin yolu isə başqa idi. Marksizmin xəyalpərvər bərabərlik nəzəriyyəsi ilə zəhərlənmiş bu adamlar mövcud şəraiti, qanun-qaydanı, hər hansı bir zümrə ilə əlaqəyə girməyi qəbul etmir, yalnız proletar sinfinin hegemonluğunu təbliğ edirdilər. Onların fikrincə hakimiyyətə gələcək yeganə qüvvə proletariatdır. Çünki proletariatın zəncirdən başqa itirməyə heç nəyi yoxdur.

Hələlik Bakıda hər iki fraksiyanın təbliğatçıları və Məmməd Əminin başçılıq etdiyi «Hümmət» təşkilatı fəaliyyət göstərir. Hamısını yaxınlaşdıran bir yol var — çar hökumətini yıxmaq. Qalan sahələrdə fikir ayrılığı mövcuddur.

Elə həmin illərdə o, sonradan milyonlarla insanın qanını töküb, türk xalqlarının qatı düşməninə çevriləcək, otuz bir il hakimiyyət başında qalıb özünün qorxulu terror maşınını yaradacaq Stalinlə tanış olur...

Onları ilk dəfə əmisi oğlu Məmməd Əli tanış edir (20-ci il hadisələrindən sonra Məmməd Əli də vətənini tərk edib Türkiyədə yaşamaq məcburiyyətində qalır və yaxın münasibətdə olduğu Stalin hakimiyyət başına gələndə onun da ailəsinə işgəncələr verir).

Stalin 1904-cü ilin iyununda bolşevik təşkilatına başçılıq etmək üçün Bakıya gəlmişdi. Olduqca bacarıqlı və hiyləgər adam idi. Yüksək çalışqanlığı və sarsılmazlığı vardı. Dostları onu Koba adlandırırdılar. Sonrakı fəaliyyəti, əməlləri, tökdüyü qanlar bu adın ona nahaqdan verilmədiyini sübuta yetirdi, Koba gürcülərdə bir quldur dəstəsinin qəhrəmanının adıdır.

Əmisi oğlunu hələ qorxunc tirana dönməmiş Koba ilə necə tanış etdiyini, görüşdürdüyünü Məmməd Əli ömrünün səksəninci ilində — onların hər ikisinin artıq həyatdan köçdüyü bir zamanda belə xatırlayacaqdı:

—«O tarixlərdə çar rejimini devirmək üçün Qafqaziyada çalışan inqilabçı sosialistlər, bolşeviklər və menşeviklər ilə təmas halında idik. Bu partiyaların üçü də bizi öz tərəflərinə çəkməyə çalışırdı, biz onlara yanaşmırdıq. Günlərin bir günü Stalin məni və Məmməd Əmin bəyi dəvət etdi...».

Dünyanın ən zülmkar adamı kimi, böyük bir imperiyanı əsarətdə saxlayacaq adamla—Koba ilə olan həmin görüşünü isə Məmməd Əmin belə xatırlayarmış:

«— Bakı ətrafında yerləşən Balaxanı neft mədənləri tərəfdə bir zavodun fəhlələrinə məxsus evlərdən birində olduqca bəsit bir otaqda qarşımıza arıq, ortadan bir az hündür boylu bir şəxs çıxdı. Sadə geyimli bu zatın çopur-çopur olan üzünə diqqət etdim. Ciddi bir halda gülümsəyirdi. Bizi təbii və sərbəst bir əda ilə qarşıladı. Rusca danışığında gürcü ləhcəsi qüvvətli hiss olunurdu. Təbii xoş-beşdən sonra söhbət siyasi və sosial məsələlər üstünə keçdi...».

Stalinlə ilk görüş, ilk söhbət onun ürəyincə olmadı. Stalin söhbətində ümumən bolşeviklərin xarakterindən, ideya və məqsədlərindən axıb gələn fikirlərdən danışırdı. Proletariatın, yalnız bu sinfin hegemonluğa çevrilə biləcək qüvvə olduğunu söyləyirdi. Stalinin dediklərindən açıq-aydın anlaşılırdı ki, onlar mövcud yaşayış qaydalarını, şəraiti, cəmiyyətdə müxtəlif təbəqələrin olduğunu və yaşamaq haqqına sahibliyini nəzərə almır, yalnız romantik bir nəzəriyyənin torunda çapalayırlar. Onun əqidəsincə bu deyilənə başqa heç bir fikir əlavə etmək və marksizmdən axıb gələn mübarizə üsulunu son məqsədə—proletariatın hegemonluğuna aparan taktikasını dəyişmək olmaz. (Sonradan həyat amansız faktlarla təsdiqlədi ki, Lenin də, Stalin də, onların arxasınca gedən başqa bolşevik qrupları da proletariatın yox, öz hökmranlıqlarına can atırdılar. Nə Leninin, nə də

Stalinin rəhbərlik etdikləri dövrlərdə fəhlə fəhlə olaraq qaldı. Yenə zülm və əsarət altında inildədi. Hətta Leninin proletariatın müttəfiqi saydığı kəndlini hakimiyyətə yaxın qoymamaq haqqında dediyi sözlər də var).

...Stalinlə ilk söhbətdən Məmməd Əmin daxilən narazı qaldı. Bunun başlıca səbəbi də Stalinin bolşevizmin əhvalından irəli gələn bir sözü deməyi oldu.

Əmisi oğlunun Stalinlə söhbətdən ən çox narazı qaldığı o son sözləri Məmməd Əli belə xatırlayarmış:

—...Və onlara birləşməmizi təklif etdi. Biz ona bolşevik nəzəriyyəsi və ruhunun məmləkətimizin ruh və yaşayış tərzinə uymayacağını söyləyib təklifini rədd etdik. Çıxarkən bizə: bir rus adı söyləyib «Filan adam da bizi dinləmədi. Biz onu təmizlədik» deyə cavab verdi. Biz isə: «Nə bacarırsınızsa edin» deyib ayrıldıq.

Sonradan əlaqə saxlayıb görüşsələr də, müəyyən işlərdə birgə çalışmaları olsa da Stalinin bu xoşagəlməz hərəkətindən, xüsusilə də asanlıqla dediyi «aradan götürərik» sözlərindən Məmməd Əminin xoşu gəlmirdi. Stalinlə söhbətində içərisində çox sonralar da barışmadığı və özünün 23 ay başçılıq etdiyi hökumətdə həmişə uzaq saxladığı «hökmranlıq» səsi eşidilirdi. Proletar sinfinin hökmranlığı sözünü Stalin daha tez-tez və xüsusi vurğu ilə işlədirdi. Onun fikrincə indiki mütləq rejimi yıxıb, çar üsul-idarəsini devirməkdə yalnız proletar sinfi maraqlıdı və bu işdə hədsiz sədaqətə malikdir.

Stalinin dedikləri, düşündükləri o zaman bütün bolşeviklərin əzbərlədiyi belə hazır cümlələrdən ibarət idi.

Sonrakı mübarizə illərində Stalinə az köməyi dəyməmişdi. Fəhlələr arasında tibbi təbliğat apardığına görə dövlətlilər Stalini neft quyusuna atmaq istəmişdilər. Məmməd Əmin onu ölümdən xilas etmişdi. 1908-ci ilin martında həbs edilir. Elə həmin ilin sentyabrında onun gizli şəkildə həbsxanadan qaçırılmağını təşkil edənlərdən biri Məmməd Əmin olur.

Bir dəfə polislər Stalinin izinə düşmüşdülər. Həbs olunmaq təhlükəsi vardı. Novxanıya qaçıb gələn Stalini polislər burda da bərk axtarırdılar. Məmməd Əmin ondan öz köməyini əsirgəməmişdi. Evlərində neçə dəfə çörək kəsən bu adamı atasının axundluq etdiyi Novxanı məscidindəki minbərin altında gizlətmişdi. Minbərdə quran oxuyan axund sonradan bütün ailəsinə işgəncələr verib uzaq sürgünlərə göndərəcək bir cəlladın minbərin altında gizləndiyini hardan biləydi.

Həyat yoldaşı Maral arvad isə (Məmməd Əminin analığı. Anası Ziynət xanım vaxtsız vəfat etdiyindən atası ikinci dəfə evlənmişdi.) nəvələri ilə birlikdə Stalin cəlladları tərəfindən soyuq həbsxana divarları arasına atılanda şikayətlənə-şikayətlənə zəif ümid işığı ilə qaniçənlərə demişdi: «Gedin o bığlı oğlana (yəni Stalinə) deyin ki, Maral arvadı tutmuşuq. O adamı tutmuşuq ki, neçə dəfə sənin qabağına çay gətirib, çörək qoyub».

Yazıq arvad yana-yana demişdi bu sözləri. Qorxudan, ürküdən yox, insanlıq cildini itirib, sosializm adlı qanlı bir kəfənə bürünmüş dövrandan şikayətlənmişdi. Qoca qarını da həbsxanaya salardılarmı?

Hələliksə... hələlik o qanlı terror maşınını işə salacaq adam Novxanı məscidində, minbərin içində gizlənib ürəyinə kin-küdurət yığırdı. Bütün insanlardan qisas almaq, onları özünün əsarəti altında saxladıb, qula çevirmək planını düşünürdü. Bu məqsədə gəlib çatmağın yeganə yolu «proletariatdan», «əzilən sinif»dən istifadə etmək idi.

Axund minbərdə müqəddəs quranı oxuyur, adamları paklığa, xeyirxahlığa çağırırdı.

Əsrin cəlladı isə minbərin içində əyləşib kütlələri əzabla qırıb, işgəncə ilə öldürməyi düşünürdü.

Amma onu dəfələrlə ölümdən qurtaran bir adama —köhnə mübarizə dostu Məmməd Əminə də borcunu qaytaracaqdı. Bütün bunlar çox sonralar olacaqdı.

Qafqazda inqilabi coşğunluq artır, siyasi mübarizə kəskinləşirdi. İnqilab alovunun artmağı çar imperiyasını yaşadanların ümdə narahatlığına çevrilmişdi. Əsarətdən silkinib yaxa qurtarmaq istəyən Bakının odunu necə söndürməli? Bu işdə uzun illərin təcrübəsindən istifadə edilməlidir. Qafqaziyada imperiya boyunduruğuna ən asan yolla girən ermənilərdir. Qafqaz xalqları bu günə kimi də Rusiya əsarətində qalmaq əleyhinə üsyanlar edir, döyüşüb qan tökürlər. Hələ ötən əsrdən ermənilər gizli yollarla (sonra açıqdan-açığa) rus təbəəliyini qəbul etmək istəyində olduqlarını bildiriblər. Hələ xanlıqlar dövründən ermənilər dəridən-qabıqdan çıxır, rusların onların türk zülmündən qurtaracağına inanırlar. Çox geniş planları var. Əvvəl istəkləri Rusiyanın ətəyindən yapışıb türk əsarətindən qurtarmaq, sonra geniş ərazilər əldə etməkdir. Ermənilər həmişə çar Rusiyasının könüllü quluna çevrilməyin tərəfində dayanıblar. Və bu yolda hər cür xəyanət etməyə razılaşıblar.

Eyni zamanda Türkiyə ilə həmişə müharibə və çəkişmədə olan Rusiya ermənilərin «biz xristianıq» deyib qürrələnməyindən məhz öz məqsədi üçün istifadə edirdi. «Böyük Ermənistan» yaratmaq ideyası ilə xəstələnmiş erməniləri qızışdırmağın ən yaxşı yolu onlara torpaqlar vəd etmək idi. 1890-cı ildən fəaliyyət göstərən «Daşnaksütun» partiyası onların arasında geniş təbliğat aparır, özünə çoxlu tərəfdarlar toplayırdı. Əvvəllər Türkiyə torpaqlarına göz dikən ermənilər indi bu boş xəyallarına daha bir istək də əlavə etmişdilər — Azərbaycan torpaqlarına sahib olmaq. 1904-cü ildən başlayaraq «Daşnaksütun» partiyasının bu ümumi göstərişi ilə hərəkət edirdilər. Çar məmurları isə onları gizli şəkildə silahlandırırdı.

İndi yenə məqam gəlib çatmışdı və onlardan istifadə olunmalıydı. Azərbaycanın içərisində—Qarabağda onlar çoxluq təşkil edirdi və bu torpağı ələ keçirmək çoxdankı niyyətləri idi.

Qırğını başlamaq haqqında siyasi uzaqgörənliyi olmayan ermənilərə fitva verildi. İmperiya könüllüləri işə başladılar.

Erməni-müsəlman davası ucbatından evsiz-eşiksiz qalanlara köməkdən ötrü ianə dəftərləri açılır, pul-para toplanılırdı. İrandakı müsəlmanlar din qardaşlarının halına yanıb çoxlu yardım edirdilər.

Qırğın davam edirdi. Günahsız adamların qanı tökülürdü.

1905—06-cı il qırğınının ağrıları idi bunlar.

Belə bir zamanda tanınmış ziyalı Əhməd bəy Ağayev «Fədai» partiyası yaradıb xalqı qırğından qurtarmağa, erməni hücumundan qorumağa çalışırdı. Partiyanın Qarabağda, Şuşada, Gəncədə yerli komitələri yaradılmışdı.

Partiya imperiyanın qoruyub müdafiə etdiyi güclü və hiyləgər bir düşmənlə üz-üzə dayanmışdı. Hər cür silahları — hətta topları olan ermənilər imperiyanın çaldığı hava ilə oynayıb uzağı görmədən, özgə torpağına sahib olmaq istəyi ilə vəhşiliklər edirdilər.

Əhməd bəy Ağayevin başçılıq etdiyi «Fədai» partiyası həmin vaxtlar Qafqaz baş valisinə bir bəyannamə göndərdi. Ermənilərin qarşısını almağa çağırış ruhunda yazılmış bəyannamənin sonu bu sözlərlə bitirdi:

«Daşnak» firqəsi əmin olsun ki, heç bir vaxt biz öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoş güzəranlıq qurmasına yol verməzik».

Azərbaycanın bütün imkanlı adamları yuxarıdan ipi tərpədilən bu «oyuna» qarşı çıxırdılar.

Davam etməkdə olan dəhşətli hadisə Məmməd Əmini çox ağrıdır, əzab verirdi. Xalqın necə qüvvətli və hiyləgər bir düşmənlə üz-üzə dayandığını o yaxşı başa düşürdü. Çar imperiyasının belə dəhşətli siması açılanda, ermənilərin onun əl oyuncağına çevrilib istənilən xəyanətə hazır olduqlarını görüb anlayanda iyirmi iki yaşı vardı. Bu qorxulu siyasət oyunu Məmməd Əminin sonrakı fəaliyyətinin məzmunca başqalaşmağına böyük təkan verdi. Bu günə kimi tutduğu mübarizə yolundakı çox qaranlıqlara işıq düşdü. Xalqın düçar olduğu bəlaların haradan baş alıb gəldiyini tam genişliyi ilə anladı. Elə iyirmi iki yaşın düşüncəsi ilə baş verən qırğın haqda içəri ağrılarını yazıb qəzetlərdə çap etdirirdi. «İrşad»da çap olunmuş «Kənddə müsibət» məqaləsində yazırdı:

«...On bir aydır ki, biz bir-birimizi öldürməkdən, malını qarət, əmlakını təhriqdən usanmayırız. Heç bir tərəf öz qəbahətini qanmayıb göyü atəşfəşan kimi gah sakitləşib kahi nafeyi-ədavəti şöləvər ediriz.

Oktyabrın yeddisindən sonra bu qırğınların təkrarına hərgiz inanmayırdınız.

Lakin Gəncə və Tiflis hadiseyi ələməngizləri bizim fikrimizə müğayir olaraq müsibətlər üstünə təzədən qəm və ələm artırdılar. Xərabələrin, füqarələrin ədədi dəxi də artdı. Əmma ədib şəhidlərimizdən birisinin dediyi kimi bu vaqiələri qanuni-ətalət babindən hesab edib, bir növü özümüzə təskine qəlb verir. Əmma bu günlərdə yetişən xəbərlər ki, guya Qarabağda şuluqluq üz verib, bizi bu ümiddən dəxi salıyor. İmdi hər kəs əhvalata nikbinlik deyil, bədbinliklə baxırlar. Çoxları sülh və müsalimətdən qəti ümid edir, aləmi ədavət və qisasda cövlan edirlər. Çarəmiz nədədir? Din, ianə yerləri açıb vəhşiyanə mütəzərrir olanlara maddi kömək edəriz... Üçüncü əlac yazıçılar əlindədir. Yazıçılar lazımdır ki, nüfaqə bir cüzi də olsa xidmət edən məqalələrdən ibrazi-nifrət və narazılıq etsinlər. Bunu

bilməlidir ki, erməni müsəlman əlaqəsinə zərbi hərəkət verən idareyi-müstəbide-maziyyə oldusa da, amma bu qədər davam edib uzanmasına hamana nifaqpərəst yazıçıların təğrirati tərifayələri səbəb oldu. Hərgah erməni məsələsi panislamist kimi kitablar əvəzində məhəbbət və qardaşlığa çağıran rəsalələr nəşr etsəydilər bu qədər nahəq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmazdı; Bu qədər arvadlar dul, bu qədər uşaqlar yetim düşməz idi.

Ey vətəndaşlar! Bəsdir bu qədər həlakət! Bəsdir bu qədər qəflət!».

Məmməd Əmin qırğınla bağlı yazılarında ən çox bir şeyə diqqət yetirir: Günahkar kimdir? Günahı olmayan adamların qanını axıtmaqda hansı məqsəd güdülür! Və anladır ki, bu iş «şeytan» əli ilə yapılıb. «Şeytan» bu işi görməkdə öz məqsədini güdüb. Məqalələrinin birində isə hadisəni törədənlərin kim olduğunu açıqca yazıb xalqa çatdırır, düşməni tanımağa çağırır.

«...Budur, Qarabağ dağılmış, Zəngəzur talan olunmuş, yüzlərcə kəndlər yəğmayə getmiş... bu mənzərə görüləcəyi şərhə gələsi, qələmlə vəsf ediləsi iş deyil...

Hökumət isə öz işinə məşğul olub burasına heç diqqət belə etmiyor. Nə üçün də eləsin?!

Hər bir aclara, yalavaclara o kömək etməli olsa, bəs bu hərbi məhkəmələri, cəza dəstələrini kim tərtib etsin? Və bir də hökumətə «asiləri» sakit etmək məsələsi hər bir şeydən əvvəl, hər bir şeydən müqəddəm gərəkdir. Hökumət xarici məmləkətlərdən pul borc edib qarabağlılaramı xərc eləsin—anlamamışdı. Bir zamanda ki, əsl «məmləkət düşmənləri» sağ-salamat dura—hökumət gəlib belə cüziyyata baş qatacaqmı? Budur «şeytan» işinin nəticəsi! Budur «millətçilərin» səmərəsi, budur müxtəlif maskalar altında gizlənən zalimanə qəti rəhmanə işləri!»

İlkin dövründəki məqalələrində Məmməd Əmin həyatın müxtəlif sahələrinə toxunur. Cavan və səriştəsiz olmasına baxmayaraq ifadə tərzi qüvvətli, məntiqi kəsərlidir. Yazılarında çəkisiz, boş sözə rast gəlinmir. Ən tutqun və qaranlıq görünən problemə işıq salmağı, açıq gözlə baxmağı bacarır. Məqalələrində yalnız problemləri qaldırmır, eyni zamanda onların həlli yollarını göstərib ümumən fikrini ona yönəldir. Yazılarında dil rəvanlığı, axıcılıq var. Şerdən süzülüb gələn qəribə liriklik, pafosluq var məqalələrində. Bu da onun özünə məxsus publisistik üslubun formalaşdığını göstərir. Məmməd Əminin bu yazılarında müxtəlif mübahisəli məsələlərə müdaxiləsi də maraqlıdır. Mübahisələrin tam təfərrüatına bələd olduğundan hadisədən düzgün çıxış yolunu da göstərə bilir.

1906-cı il, Əhmədbəy Ağayevin redaktorluğu ilə «İrşad» qəzeti fəaliyyətə başlayır. «İrşad»ın fəal əməkdaşı və sonradan müvəqqəti redaktoru olan Məmməd Əmin qəzetdə çoxlu yazılar çap etdirir. Lakin ilkin vaxtlar çoxları «İrşad»ın çapına mane olur. Fikirlərini belə izah edirlər: bu qəzet araya nifaq salacaq. «İrşad»a hücumlar başlayır. Şəhərdə bəzi söz-söhbətlər yayıb «İrşad»ı gözdən salmağa çalışır və təkidlə deyirlər. Şəhərdə iki qəzetin çıxmağı nəyə lazım? Bu ümumi işə maneçilik törətməyəcəkmi? Əgər «Həyat» qəzeti nəşr olunursa, onda «İrşad» nəyə

lazım? Bəziləri isbat etməyə çalışır ki, bir yerdə iki qəzetin çıxmağı bir ölkədə iki hökmdarın ağalıq etməyi kimidir. Bu çəkişməyə, fikir ayrılığına, nəhayət, nifaqa gətirib çıxaracaq.

Məmməd Əmin qəribə fikirlər irəli sürən və bununla da əslində inkişafa mane olan adamlara qəzəblənir, onları qaranlıqdan həqiqət işığına çəkir. «Mocibi heyrət» (heyrətə səbəb) adlı məqaləsində yazır:

«...Əcəba nə üçün gərək qəzetə çox olduqcan nifaq artsın?

Bərəks, olar cərayit və ruznamələrin çoxluğu ittifaq, ittifad artıb, insaniyyət, həqqaniyyət, mədəniyyət tərəqqi etməlidir. Buna intifaatı çox olan millətlərin halı şahidi aşkardır.

Şəhərimizdə bir qəzet nəşr edilərək, millətimizə həyat bağışlandı. Həyat olandan sonra «İrşad» lazımeyi mədəniyyət olduğundan İrşadın zühuru məmlubi-təbii olmazmı?

Fikrimcə «Həyat» ilə «İrşad» sütunlarında yekditərinə intişam bəndləri yazılur isə, hərflər budur əlayiyi-nifaq deyə çığıracaqlar. Lakin xeyir, bu tənqidlər hərgiz qəbi, ədavətəngiz olmayıb, bəlkə həqiqəti faş etməklə bir asan yol, bir müstəqilzadır.

Ey Həyatçılar! Və ey İrşadçılar! Hər kəsdə nə nəqs, nə eybi var isə, özünə faş edin, tainki o eybdən, o nəqsdən müvərra olsunlar. Millətin ehtiyaclarını, dərdlərini tənqiddən keçirib ona ayinə olun. İntiqaddan əl çəkməyiniz, çünki tənqidsiz heç bir sənəd heç bir hirorət tərəqqi etməmişdir. Göstərin ki, müsadeyi əfkaridən nifaq degil, həqiqət, səadət və rəqqi çıxar».

Cəhalətin, geriliyin üzə çıxardığı ağrılar Məmməd Əminin yazılarından bir inilti kimi qopur. Millətin cavanları əyri yola düşüb el-oba dərdi çəkmirsə, əyyaşlıq və kefcilliklə məşğul olursa, xalq fəlakətə sürüklənmirmi?

Aydın fikirli ziyalılarımızın hamısı o illərdə xalqı avamlıq və gerilik bataqlığından dartıb çıxarmağa çalışırdılar. Əsrin əvvəllərində yaşayan az qələm əhli tapılar ki, bu dərddən içərisi narahat olmasın, alovlanmasın. Bu ağrıya hələ ötən əsrdə məruz qalan ziyalılarımızdan biri — Həsən bəy Zərdabi min bir müşkülatla «Əkinçi» qəzeti çıxarıb şikayətlə deyirdi: «Bəli, biz hamımız quluq və buna səbəb bizim ata-baba adətləridir. Xülasə, Məşriq-Zəmində azadlıq olmadığına, biz Avropa əhlindən geri qalırıq».

Əsrin əvvəllərində isə əksər ziyalılarımız üzünü xalqa tutub uca səslə, bağrı yanıqlı halda deyirdi: «Ey müsəlman qardaşlarım!» Yəni bu müraciətlə bildirmək istəyirdi ki, başın üzərində fəlakət dolaşır. Düşdüyün bəladan qurtarmaq yolunu tap. Cəmi xalqlar azadlığa qalxır, inkişafa başlayır, sən isə yatmısan. Ayılıb ətrafına nəzər sal, gör ki, aləmdə nələr baş verir, hansı tufanlar qopur, dəyişikliklər gedir. Ayılıb birdəfəlik anla ki, niyə səni saymayır, istismar alətinə çevirirlər, torpağının var-dövlətini özgələr yeyir, sən isə aclıq və səfalət içində inildəyir, bir kəlmə də olsun demirsən. Sanki bunu qəbul olunmuş qayda kimi qəbul edirsən! Aç gözlərini, diqqət et aləmə! Min bir dərdə mübtəla olmuş xalqın halına doğrudan da

yanıb acılasıdır. Özgə əsarətində sürünməyin nəticəsi deyilmi bu? Oğurluq, quldurluq, yalan danışmaq, adam öldürmək, cib kəsmək, yoldan keçəni soyub pulunu almaq və başqa çirkinliklər adamların çoxunun qanına hopmuşdu və çətin bu xoşagəlməzlikdən yaxa qurtarmaq mümkün olaydı. Elə bunun ucbatından Avropa ölkələrində bu xalqı azadlığa layiq görmürdülər. Onlar «islamidir, vəhşidir» deyirdilər.

Məmməd Əmin kimi ziyalılar isə bu damğanın ləkəsini silib aparmaqdan ötrü adamların öyrəşdiyi xoşagəlməzlikləri—söz gəzdirməyi, ara vurmağı, yalançılıq etməyi, oğurluğa qurşanmağı bir kənara atmağa çağırırdı. Ağrılı-ağrılı yazırdı:

«...Oğurluq, yalan danışmaq, yalan yerə şəhadət vermək, yalan yerə divanxanalarda «qurani şərifi ehtiramdan salmaq, yol kəsmək, cibgirlik, nahaq qanların tökülməsinə mübaşir və səbəb olmaq, qumar oynamaq, şərab içmək, zina etmək, böhtan demək, xəbərçilik—yəni iki müsəlman arasında fəsad salmaqdan ötrü söz gəzdirmək özgələrinin malın batil vədhi ilə yemək və başqa-başqa insaniyyət hüdudundan kənar, bəlkə hamısı biz əhali milləti islamda görünməsi, belə ki, dövləti həbsxanalarda əgər beş nəfər xaricdəndirsə, yüzlərlə bizdəndir. Bizləri ənzari mələt, xaricdə vəhşi insaniyyət libasında ari bir şey hesab edirlər».

Məmməd Əmini getdikcə narahat edib ağrıdan milliyyət məsələsidir. Millətinin hüquqsuz, qolu bağlı qula çevrildiyini indi o daha aydın başa düşür və bu dərdləri açıb izah edən yazılarında son dərəcə qəzəbli və qəti fikirli olur. Milliyyət mövzusundakı yazılarında bir sözü daha kəskinliklə işlədir: istibdad. Yəni bir nəfərin, yaxud bir qrupun kefi istədiyi kimi xalqı idarə etməsi. Bu ən zülmkar bir siyasətdir, adamları mənəvi böhrana sürükləyib məhv edir. Bu, ən qorxulu imperiya siyasətidir. İstəyini, arzusunu qırıb çilik-çilik edəndən sonra xalqı məhv etməyə nə var ki? Yaxud xalqın doğma dilində məktəbin olmaması, cəmiyyət açmağına, qəzet çıxarmağına icazə verilməməsi onun mənən ölümə gedib çıxması deyilmi? Xalqın ən zəif damarından yapışıb başını xırda işlərlə qatmaq və bu yolla öz hökmranlığını qoruyub saxlamaq çar imperiyasının başlıca siyasətidir.

Hələ XIX əsrin əvvəlindən azərbaycanlıları əsarətdə saxlamağın bütöv bir sistemini hazırlamış çar imperiyası indiyə kimi də bu hazır «gediş»lərdən istifadə edirdi. Bəs nə idi bu «hazır gedişlər?»

Ən qorxulusu müsəlmanların məzhəb ayrılığı—sünni, şiə söhbəti idi. Çar hökuməti azərbaycanlıların bu zəif yerindən bacarıqla istifadə edirdi. Lazım gələn anda baş qatmaq üçün bu söhbəti atırdı ortaya. Hətta bu işi qızışdırmaq, daima gərginlik altında saxlayıb çəkişdirməkdən ötrü iki ayrı-ayrı idarə yaratmışdı: 1) müftilik, 2) şeyxül islamlıq. Tiflisdə yaradılan bu idarələrin yanında «Ömər» və «Əli» adları verilən məktəblər də açmışdı.

Xalq uzun illər boyu mövcud haqlardan belə məhrum edilmişdi. Şəhər bələdiyyə məclislərinin (Qorodskaya duma) yarıdan çoxunu - əksəriyyət təşkil

edən azərbaycanlılar deyil, başqa millətlərin nümayəndələri təmsil edirdi. Bakıda, Gəncədə belə hallar mövcud idi.

Çar siyasəti azərbaycanlıları məhvə aparırdı. İstila etdiyi Qafqaziyada ikibaşlı siyasət oyunu oynayırdı. Qafqaziyadakı xristianlar orduya çağırıldığı halda, azərbaycanlılar bu hüquqdan məhrum idilər.

Azərbaycan türkləri çar əsarəti altında inildəyib bütün hüquqlardan məhrum edilmişdi. Əsrin sonlarına kimi, onları ana dilində nə bir məktəb açmağa, nə də nəşriyyat yaratmağı qoyurdular. (H. Zərdabinin «Əkinçi» qəzetini hansı əzab-əziyyət içərisində çap etməyi məlumdur).

Çar imperiyasının Azərbaycandakı siyasətində bir qorxulu istiqamət də vardı: köçürmə. Erməniləri Azərbaycan torpağına doldurub özünə dayaq yaratmaqla yanaşı Rusiyadan və Ukraynadan buraya minlərlə adamlar göndərirdi. Yalnız 1833-43-cü illərdə Rusiya və Ukraynadan köçürülənlərin hesabına Azərbaycanda 15—20 kənd yaradıldı. Altıağac, Mərəzə kəndləri 1840-cı ildə Astraxanka, Andreyevka, Slavyanka yaşayış yerlərini qurdu. Yalnız ötən əsrdə belə süni yolla məskunlaşdırılan rus mühacirlərinə 43861 hektar Azərbaycan torpağı ayrılmışdır.

Bu siyasətin hansı məqsədə yönəldiyi aydın idi. Azərbaycan türkləri öz doğma ocağından uzaqlaşsın, imperiyanı müdafiə edən qüvvələr bu mühüm strateji və iqtisadi əhəmiyyəti olan torpaqda məskunlaşsınlar.

Azəri türkləri belə qorxulu oyuna məruz qalıb məhv olmaq təhlükəsində idi.

İndi ağrılarından yazdığı milliyyətin faciəsini yaxşı görürdü. Bu qüvvətli selin qarşısını necə kəsməli? Necə etməli ki, getdikcə coşub məcrasına sığmayan dəli axınla sel milləti yuyub aparmasın.

Budur, Məmməd Əmin xalqının düçar olduğu imperiya zülmünə etirazını bildirir, onun əsl simasını açıb xalqa çatdırır:

«Rusiya məmləkətində hökm sürən istibdadın ən qədim və köhnə olan üsullarından biri budur ki, istibdad (yəni bir nəfərin, yaxud bir dəstənin keyfi istədiyi kimi ilən idarə) özünə tabe olan millətləri bir növ ilə yağılaşdırıb və tutuşdurub və belə müxtəlif millətlər arasına ziddiyyət və düşmənçilik salırdı...»

Daha sonra Məmməd Əmin siyasətin əsl mahiyyətini konkret faktlarla göstərir. Yazır ki, imperiya öz hökmranlığını qoruyub saxlamaqdan ötrü heç bir vasitədən çəkinmir. Polisiv köməyi ilə qətl və qarətlər düzəldib araya nifaq salır. Çünki belə olanda xalqın başı qarışır və o əsl düşməni ilə mübarizə apara bilmir. O zaman hökumət əziyyət çəkmədən sakitcə hökmranlığını davam etdirir, camaatı əsarətdə saxlayır. Məmməd Əmin bir məsələyə də diqqət yetirməyi unutmur. Xalqın öz içərisindən olan satqınları daha təhlükəli sayır. Belə adamlar şəxsi mənafeyi naminə camaata xəyanətlər edir, millətə əzab verirlər. Və haqlı olaraq belələrini «öz millətini, qövmini, hər bir əfz və namusunu satan rəyispər» adlandırır. Bu «rəyispər»lə qarşı-qarşıya durmaq daha qorxuludur, çünki o sənin öz içərindən çıxıb.

Məmməd Əmin imperiya siyasətini ifşa edib aşağıdakı sübutları göstərir:

«...Məktəblərdə, hökumət divanxanalarında, məhkəmələrdə qeyri-ictimai dairələrdə ancaq rus dili gərək işlənsin, tamam ibadətgahlar gərək rus ortodoks kilsəsinə mütih olsun və hərgiz, hər bir surətdə olsa da «basurmanlara» yadlara heç bir milli müsaidələr, məsəla ana dilində məktəb açmaq, cəmiyyəti-xeyriyyələr, geşadi və qəzetələr nəşrinə izn verilməsin, özgə millətlər hər bir padşahlıq qulluqdan, böyük qulluqlardan məhrum edilsin və bunların hamısından bu firqənin məqsədi odur ki, bacardıqca Rusiya dairəsində olan millətləri ruslaşdırıb, bacardıqca Rusiyanı qeyri məzhəblərdən paklandırsın».

Bu fikirləri işıqlandırıb qəzet səhifələrinə çıxaranda iyirmi iki yaşı vardı Məmməd Əminin. Və bu yaşda imperiya məmləkətinin iti caynağına ilişib əsir yaşayan xalqının ağrıları ilə yaşayırdı.

Az sonra etiraz səsini daha da ucaldır. Xalqını əsarətdə saxlayan ünvana üz tutur, onun daha eybəcər xarakterindən danışır. Və bu sözü rəngsiz-boyasız sözlərlə, sərt bir halda deyir:

«Bizim Rusiya hökuməti boş vədlər verməyə qoçaqdır».

1906-cı ildə, iyirmi iki yaşı olanda «Hümmət» təşkilatının «Təkamül» qəzetinə redaktorluq edirdi.

1907-ci ildir. Məmməd Əminin iyirmi üç yaşı var...

Bu dövrkü yazılarında şikayətlənib bir fikir də söyləyir. Deyir ki, camaatı idarə etmək elə adamlara tapşırılmalıdır ki, onlar bu işi bacarsınlar. Çünki çoxlarının işi bacarmamağı ucbatından xalq əzab çəkir, köməksiz vəziyyətdə qalır. «Cəmaət işinin başında oturanlar» vəzifələrini layiqincə yerinə yetirib aşağı təbəqələrin himayəçisi olmalıdırlar.

Bu dövrdə Məmməd Əminin diqqət yetirdiyi başlıca məsələ hürriyyətdir. İşıqlı və parlaq səslənən bu söz çar Rusiyasında necə görünür? Və ümumiyyətlə, monarxiya üsul-idarəsində, imperiya rejimində bu sözün işlənməsi düzgündürmü? Çünki Rusiya idarəsinin rəhbərləri gözdən pərdə asıb, adamları aldatmaqdan ötrü ağız dolusu hürriyyətdən danışırlar. Məmməd Əmin iti müşahidə və dərin məntiqli yazıları ilə Rusiyadakı hürriyyətin məzmunundan danışır, adamları əsl-həqiqətdən agah edir. Rusiyanın yuxarı dairələrinin hürriyyət sözünü işlətməyinin başaldadıcı oyun olduğunu deyir.

Bu yalnız kağızlarda yazılıb həyatda heç zaman görünməyən bir hürriyyətdir. Hürriyyət belə olmur. Hürriyyət azad olmaq deməkdir. Lakin gəlin görək mövcud qanunlar daxilində bu mümkündürmü? Hürriyyət yalnız quru sözdən ibarət deyil. O həyatda əməli halda görünməlidir. Hürriyyətin mənası dərindir. O, həyatın insan fəaliyyətinin müxtəlif sahələrində görünməlidir. Bu sözün işığı o qədər qüvvətli və parlaqdır ki, üstündəki qaranlıq pərdəni götürəndə bütün zülmətlərə işıq saçır. Rusiyada hürriyyət yoxdur. Buradakı hürriyyət qaranlıq pərdəyə bürünüb və hökumət heç zaman onun işığını camaata göstərməz. Çünki hürriyyət işığını görüb gözlərinə nur, qollarına qüvvət yığan adamlar ayağa qalxıb

ilkin olaraq bu işığın qarşısını tutanları yox edəcəklər. Bəs bu adamlar kimlər idi? Mövcud hakimiyyəti əlində saxlayan çar və onun məmurları. Deməli, bu halda hürriyyətdən danışmaq boş və mənasız bir şeydir.

Məmməd Əminin fikrincə beş formada hürriyyət var: Birincisi—söz azadlığı; ikincisi—mətbuat azadlığı; üçüncüsü—cəmiyyət və ittifaq azadlığı; dördüncüsü—vicdan azadlığı; beşincisi—malın və canın mühafizə olunması azadlığı.

Məmməd Əmin böyük ağrı ilə belə bir azadlığın Rusiya məmləkətində olmadığını deyir. Söz azadlığı insanın öz fikrini, düşündüklərini qorxub çəkinmədən, kimsədən ehtiyat etmədən açıb danışması deməkdir. Yaşadığı mühitdəki nöqsanları danışmalı, səbəblərini başa salmalısan. Hansı işlərdə narazı qaldığını açıq-aşkar bəyan etmək hüququn olmalıdır. Cəmiyyətdə baş verən bəlaların hardan axıb gəldiyini və nəhayət, bunun nicat yollarını xalqa deməlisən. Bu qaydaların mövcudluğu şəraitində söz azadlığı mümkündür: Rusiyada hökmranlıq edən sistem isə bunun əleyhinədir. Səsini azca ucaldıb, həqiqət sözünü azca hündürdən demək istəsən, polisin qəzəbli ayaq taqqıltılarını eşidəcəksən. Açıq fikir təbliğ etmək üstündə çarın buzlu şimala göndərdiyi adamlar az idimi?

Məmməd Əmin Rusiya məmləkətində yalnız adı çəkilən, əslində olmayan söz azadlığı haqqında yazırdı:

«İndi görək ki, hürriyyəti-kəlamın nəfi (xeyri) nədir. Bunu yaxşı qanmaqdan ötrü bir neçə misal gətirəlim. Məsələn, bir şəxs keçən müdhiş rus-yapon qırğınında camaatın canına, malına ziyan və zərər olmasını qanıb xalqı davadan qabaq başa salmaq istəsə idi, onu haman saat tutub cəzalandırardılar. Və yainki indiki zamanda Rusiyanın kəndləri aclıq bəlasına, fəhlələri işsizliyə, hibubaşın (ərzağın) və ən çox camaata lazım olan şeylərin ki, qənd, neft, tənbəki, çay və qeyriləri hesab olunurlar, bahalanmasının səbəbi kim və nə olduğunu qana və camaata başa salıb onlara çarə öyrətmək istəsə, haman saat Bilqeysin təxti kimi (Bilqeys—Yəməndə Səba şəhərinin hakimi) yox olacaq. Bir də xəbər tutacaqsınız ki, Sibirin filan şəhərindən xəbər gəldi...».

Məmməd Əmin Rusiyadakı söz azadlığının ümumi mənzərəsini belə yekunlaşdırır:

«Zakonların zahirinə baxırsan görürsən ki, bəli, yaxşı şeyə oxşayır. Amma içləri allah göstərməsin! Xülasə, bizdə bu tövr tilsimli sözlər çoxdur».

Məmməd Əminin fikrincə hürriyyətin mövcudluğunu şərtləndirən ikinci amil mətbuat azadlığıdır. Mətbuat azadlığı o vaxt mümkündür ki, hər kəs yazdıqlarını kiminsə maneçiliyi olmadan çap edə bilsin,

Bu haqda belə yazırdı:

— Hürriyyəti-mətbuat barəsində çox danışmaq lazım deyildir, çünki bir şəxs bir şeyi ki, bildi, haman şeyi kağıza da yazacaq, dildə də deyəcəkdir».

Məmməd Əmin hürriyyətin üçüncü əlamətini cəmiyyətlərin və ittifaqların yaradılıb sərbəst fəaliyyət göstərməyində görürdü. Cəmiyyətlərin yaradılmağı nəyə

görə vacib idi? Çünki adamların toplaşmaq yeri olardı və burada onlar siyasi fikir mübadiləsi edib, dərdlərini danışardılar. İttifaqlar da azad fəaliyyətə başlamalıydı. Müxtəlif sənət sahiblərinin öz ittifaqları olmalı idi. Lakin bu dövlətin mənafeyinə zidd olan, onun hökmranlığına maneçilik törədən qüvvələr idi.

Məmməd Əmin elə buna görə sərt həqiqəti yazırdı:

«Hürriyyəti-ittifaqı və cəmiyyəti də dövlət heç sevmir. Hürriyyəti-cəmiyyəti ona görə sevmir ki, o bilir ağıl-ağıldan üstün olar. Adamlar bir yerə yığışanda bir-birinin dərdindən xəbər tutub bir yerdə öz dərdlərinə əlac axtaracaqlar. Onda bunların qabağında davam eləmək olmaz...».

Hürriyyətin dördüncü əlaməti vicdan azadlığıdır. Rusiya məmləkətində zorakılığa əsaslanan qanunlar insanın düşüncəsini, əqidəsini, məzhəbini də zəncirləmişdi. Kimsə öz əqidəsini başqasına zorla sirayət etdirməməlidir. Kiminsə məzhəbi o birindən üstün tutulmamalıdır. Kimisə məcburi hansısa təşkilata, ya ittifaqa salmaq məcbur deyil. İnsan azad olmalıdır. Məmməd Əmin haqlı olaraq Rusiyanın bununla bağlı qüsurlarını tənqid edir. Göstərir ki, istək olmadığı halda qırğızın adını dəyişib İvan, ya Pavel qoymaq, yaxud onun müsəlmanlığını inkar edib xaçpərəst dəftərinə yazmaq adamları və xalqı təhqirdir. Hər şəxs əqidəsinin və düşüncəsinin, məzhəbinin və fikrinin azadlığına sahib olmalıdır. Bu adicə sahiblik hüququ deyil, onun yaşamaq haqqıdır. Din fərqinə varmaq, saxta qanun gücünə inandığından üz döndərməyə məcbur etmək, bu insanlıq haqqının tapdanmasıdır. Burda hansı vicdan azadlığından söz açıla bilər?

Məmməd Əmin yazırdı:

«Fikir, əqidə və məzhəb ürəkdə olan şeydir və onu da aradan nə həbs və nə öldürmək ilə çıxardıb atmaq olmaz. Adamı öz əqidəsindən çıxartmaq olar, ancaq söz ilə və o əqidənin puç olmağını ona qandırmaq ilə. Məsəla, bu ona oxşayar ki, dəvəni götürüb qoşasan karetə və ayaqlarını da bir cür bağlayasan ki, at kimi yerisin, deyəsən ki, bu atdır, vəhalanki, dəvə faytona qoşulub da dəvəliyində baqidir».

Beşincisi, malın və canın mühafizə olunmasıdır.

Hürriyyətin digər bir əlaməti şəxsiyyətin toxunulmazlığıdır. Hər kəsin hüququ qorunmalı, şəxsiyyətinə və heysiyyatına toxunulmamalıdır. Dövlət buna ciddi təminat verməlidir. Heç bir günah sahibi olmadığın halda müqəssir sayılıb tutulmamalısan, yaxud dövlət tərəfindən cəzaya məruz qalmamalısan. Mühakimə olunmadan, müqəssirliyin sübuta yetmədən sən toxunulmazsan.

Bu hüququn da Rusiyada tapdandığı haqda Məmməd Əmin yazırdı:

«...Məsəla, indi bizim Rusiyada adət olub, görürsən ki, evində oturmusan və heç bir şeydən xəbərin yox, jandarm əhatə edib axtarmaq istəyir. Və yainki görürsən ki, küçədə gedən yerdə bir neçə jandarm gəlib səni tutdu ki, sən bədgüman adamsan, öz bədgüman olmamağını sübut edincə bir neçə ay çəkir və özün də həbsdə qalırsan».

İyirmi üç yaşlı Məmməd Əmin Rəsulzadə yaşadığı cəmiyyətdə olmayan hürriyyəti belə görürdü.

Elə o yaşlarında da belə qənaətə gəlir ki, xalqı bu bəlalardan yalnız inqilab qurtara bilər. Çünki hökumət qoşunları hürriyyətə ziddir, insanın yaşamaq haqqını boğur, olan qanunlar isə fəaliyyətdən düşüb. Dövlət idarələrindən haqqını tələb etmək, işin düzələcəyinə ümid bağlamaq mənasızdır. Və qəti bir tərzdə deyirdi: «Yalvarmaq, yaxarmaq, kağızları qaralayıb divanxanaları gəzmək ilə bizim dərdimizə çarə olmaz»....

İyirmi üç yaşlı Məmməd Əmin mövcud yaşayış tərzinin kökündən dəyişilməyi istəyindədir. İçərisində baş qaldıran mübarizə ehtirası alovlanır, onu xalqın düşdüyü fəlakətdən qurtarmağa səsləyirdi. İnqilabi ruhlu, hürriyyət çağırışlı yazılar yazmaq, siyasi işlər görmək indi onun adi yaşayış tərzinə çevrilib. Bu yoldan geri çəkilməyi qeyri-mümkündür. Yüksək əqidə sahiblərinin hamısının tutulduğu, yaxşı mənada başa düşülən ideya fanatikliyi və bu fanatikliyin axırda gəlib son fikrə söykəndiyi «ölmək var, dönmək yox» prinsipi Məmməd Əminin iş fəaliyyətinə çevrilib.

1908-ci ildir. İyirmi dörd yaşlı Məmməd Əmin bir istəklə çırpınır. Xalqın ziyalıları, iş görməyə qadir olan bütün adamları bir hədəfə vursunlar. Mədəniyyətin, ümumi inkişafın yolu məhz bu birlikdən başlayır. Hərənin bir yana çəkilməsi xalqı parçalayır, onu gücdən salır. Yalnız birlik bu yoldakı çətinlikləri dəf etmək qüdrətindədir.

Məmməd Əmin həyatın ləngliyindən, hər yanda ətalətin, durğunluğun hökm sürməyindən narahatdır. Yaşadığı həyat onu sıxır, yaşadığı mühitin ölgünlüyündən tam bezmiş haldadır. Ölkün şəraitdən yaşamaq ləzzəti almaq olar ki?

İyirmi dörd yaşda gördüyü haqsızlıq çirkabı təmizlənmir ki, təmizlənmir. Üfunət qoxulu bu həyatın hər yerindən rüşvətxorluq yağır. Bakı şəhər duması xalqı aldatmaq işi ilə məşğuldur. Şəhəri idarə edənləri camaatın halı əsla düşündürmür, narahat etmir. Hamısı ciblərini pulla doldurmaqla məşğuldur.

Və nəhayət, iyirmi dörd yaşa qədər gördüyü, şahidi olduğu, müşahidə etdiyi çirkin həyatı təhlildən keçirib bu hökmü verir: «Həmişə zillətdə qalmaqdansa, birdəfəlik ölmək yaxşıdır».

Sonrakı mübarizə illərində — 1908-ci ilin dekabrında gəldiyi bu qənaəti ömrünün sonuna kimi əlində əsas tutdu, özünün həyat amalına çevirdi. Sürünə-sürünə yaşamağı qəbul etmədi və ağrılı-acılı bir həyat sürməyə məcbur oldu. Ömrünün sonrakı illərində də ona «çəkil bir yana, sakitləş» deyənlər az olmadı. Amma o, əqidə adamı idi və bu yoldakı təhlükələri əridib yox etməyə qadir idi. İstəyinə çatmaqdan ötrü son nəfəsinə kimi çarpışdı və xalqı zillətdən qurtarıb işıqlığa çıxarmaq üçün ürəyini məşələ döndərib başı üzərinə qaldırdı, qaranlıqları yara-yara irəlilədi. Bu ürək məşəlinin alovu haralarda görünmədi? İranda, Türkiyədə, Polşada, Almaniyada, Rumıniyada bu ürək alovlanıb işıq saçırdı, azadlıq və istiqlaliyyət sevgisi ilə içəriləri təşnə olub yanan Azəri türklərini

yaşadır, ümid və inamlarını artırırdı. Bir parça çörəyə möhtac olanda belə ruhdan düşməyib son arzusuna doğru yol gedirdi. Bu qərib və tənha yolda xalqı əsarətdən qurtarmaq istəyi içərisinə güc verir, başı üzərində alovlandırdığı ürək məşəlini sönməz edirdi. Hələ iyirmi dörd yaşında qəbul etdiyi «həmişə zillətdə qalmaqdansa birdəfəlik ölmək yaxşıdır» sözünə ömrünün axırına kimi—1955-ci ilin baharına on altı gün qalana qədər sadiq oldu.

1908-ci ilin dekabr ayında M. Ə. Rəsulzadənin «Qaranlıqda işıqlar» pyesi tamaşaya qoyuldu. Yazdığı bu əsərdə də istiqlaliyyət uğrunda mübarizəni təbliğ edirdi. Elə həmin ildə daha bir pyes—«Nagəhan bəla»nı yazır.

Bu dövrdə apardığı inqilabi mübarizədə milli istiqlaliyyət fikrini formalaşdırır, Azərbaycana «muxtariyyət» ideyasını irəli sürürdü.

Belə «qorxulu» fikirlər təbliğ edən adam diqqətdən kənarda qala bilməzdi.

İmperiya qılıncı korşalmamışdı və istənilən vaxt qalxıb enə bilirdi. Müstəmləkə rejimini qoruyub saxlamağa qadir olan bu qüvvənin sarsılmağına, çürüyüb yıxılmağına hələ müəyyən müddət gərəkdi.

Çar üsul-idarəsinin müdafiəçiləri bu «qorxulu» adamı təqibə başladılar. Məmməd Əmin Rəsulzadə doğma yurdunu tərk etmək məcburiyyətində qaldı.

Bu zaman ömrünün iyirmi dördüncü ilini başa vururdu.

Təqibdən yaxa qurtarıb pənah apardığı yer İran torpağı oldu.

Bir ağrı. 1907-ci ildən başlayaraq Çar Rusiyası hər cür azadlığı boğmaq, açıq fikirli adamları həbs etmək yoluna qədəm qoydu. Bu zərbəni daha çox hiss edən Azəri türkləri idi. Çar üsul-idarəsi bu adamların Türkiyəyə meylindən, xalq arasında İslam bayrağı altında türk birliyi fikrinin təbliğindən qorxurdu. Pantürkizm idealı Rusiyadakı türklər arasında kök atıb yayıla bilərdi. Despot üsuluna keçən çar imperiyası öncə türkləri əzməyə başladı. Despot rejiminə başçılıq edən Stolıpin imperiyanın türk dünyasına olan münasibətini belə bildirirdi:

«Rusiya müsəlmanlarının bir dildə qonuşan türk xalqına mənsub olmaları heç bir zaman nəzərdən uzaq tutulmamalıdır. Müsəlman burjuaziyasının istiqlalçı pantürkizm ideolojisi ilə zəhərlənməsi önlənməlidir».

## ARAZIN O TAYINDA

Araz sakit halda burula-burula axırdı. Günahkarcasına səsini içərisinə çəkib dinməzcə baş alıb gedirdi. Deyilənə görə peyğəmbər qarğışına tutulmuşdu. Araz! Bir zamanlar hay-küyündən qulaq batarmış. Peyğəmbər Arazın səsindən yata bilmirmiş. Qarğış edir çaya və o vaxtdan Araz sakit axmağa başlayır.

Yazıq Araz! Qara bəxtli Araz! Sənin də üzün gülmədi. Bütün günahları üstünə tökdülər, qınadılar, iki qardaşın baisisən dedilər! İçərində nələr çəkdiyini bilmədilər. Çaylar yağış yağıntısından, qarın əriməyindən, bulaqların

qaynamağından kükrəyib axar. Sən isə iki ayrı düşmüş qardaşın göz yaşından çoxalıb axdın.

Sənin də için ağlayır, ürəyin parçalanır, Araz! Axı kim istər ki, nifrət və qarğış yiyəsi olsun! Tutulduğun bu bəlalı mərəzdən qurtaran günün olacaqmı? İçərinə axan göz yaşların quruyacaqmı? Günahkar Araz, boynu bükük, içərisi dağ-dağ olan yazıq Araz! Neçə əsrin qəm möhnəti çiynindən götürüləcəkmi?

Günəşin şəfəqləri üstünə düşüb parlayır. Bu işıqlı şüalardan gözün qamaşır. Günəş işığını tamarzı halda udub canına çəkirsən. Axan suyundan tüstülənən evlərə bir ayrılıq, həsrət sərinliyi yayılır. Səni dövrəyə alan alnı qırış-qırış dağların intizardan, gözü yol çəkməkdən beli bükülüb. Dağlar da səni qınayır. Ayrılığın, həsrətin baisi bilirlər. Ayağını yerdən ox kimi üzüb o qaçan ceyrana bax! Boynu bükük halda sənə boylanır. Nədir istəyi? Niyə elə məlul-məlul dayanıb baxır? Bayaqdan xoş nəğməsiylə güllü-çiçəkli çölləri məst edib xoşbəxtlik yayan o bülbül, o kəklik, o turac niyə səni görəndə ah-fəğana başlayır? Sonsuz bir qəmə, kədərə batıb içərilərində susurlar. Hərdən sahillərinə ağ kəlağayılı, dağ laləsi kimi həyalı gözəllər gəlir. Şəffaf sularına baxa-baxa niyə ağ kəlağayılarını açıb qara örtürlər? Gözlərindən gilə-gilə yaş süzülüb parlaq sularına tökülür.

İçi qəm dəryalı, kədərli Araz! Ağrı-acıdan qıvrıla-qıvrıla çırpınan Araz!

Üstündən adlayıb keçən o cavan oğlana diqqətlə bax! Siması sənə tanış gəlirmi? Axı adam sərrafısan! Milyonlarla insan yola salmısan. İçərisində istiqlaliyyət odu alovlanan oğlanı tanımadınmı? O səni çəkdiyin ağrılardan, dərdlərdən qurtarmaq üçün gedir. Elindən, obasından didərgin salınan bu oğlan, sənin qara bəxtinə ağ işıq salmaq istəyindədir. Onu qoru, fəlakətlərdən gözlə! O elə məşəl yandıracaq ki, oduna sən də isinəcəksən. Başın üzərində dolaşan qara buludlar dağılıb gedəcək. Sağında və solunda təmiz havanı udanlar səni sevəcək, daha qınamayacaqlar. Hər iki tərəfində ötəri də olsa adamlar azadlıq havası udacaq, əsarət zəncirindən xilas olacaq.

Üstündən adlayıb keçən o işıqlı, nurlu simalı oğlana diqqətlə bax! O, parçalanmış xalqın yenə birləşəcəyi, eyni ürəkdə döyünəcəyi ümidindədir. O səni sevir, amma qınamır. O səni günahkar da bilmir, çünki günahsızsan. O əsl səbəbkara — bu ayrılıq toxumunu araya səpənə nifrət edir. Və onun əlindən baş götürüb sənə pənah gətirib. Gəlib ki, yenə güc-qüvvət toplayıb əsarət zəncirində inildəyənləri xilas etsin.

Onu qoru, fəlakətlərdən gözlə, Araz!

Qəribədir. Sanki bu xalq dünyaya əzab çəkmək üçün gəlib. Hansı zalımın qara nəfəsi dəymişdi ona? Zülmkar fələyin min oyunu var. Torpağını bol, sərvətini çox yaratmışdı. Amma bu sərvətin işığına toplaşanları da saysız etmişdi, Azəri yurdunun o tayında da, bu tayında da zənginliklər yatırdı. Başı bəlalı olmağın səbəbi elə bundan başlamırdımı? Dünyanın hansı qaniçəni bu varlı torpağa göz dikməyib! İndi torpağın üstü qanla qabıqlayıb! Torpağın rəngi qandan dönüb belə qaralıb. İnilti, ağrı-acı, yaşadığı əsarət həyatı torpağın vaxtsız, vədəsiz alnını

qırışdırıb, belini büküb. Uzun əsrlər boyu qılınc-qalxan səsindən, indi də atılan güllələrdən qulağı tutulub. Bu torpaq qəribə torpaqdır. Havası dəyən adamın içərisini odla, alovla doldurur. Qoluna sonsuz qüvvət, güc verir. Torpağın havasını udan hər kəs kiminsə əsarəti altında inləməyi, əzab çəkməyi sevmir. Yerin, göyün bütün istibdad zəncirini qırıb parçalamaq, önündəki aslan qayaları, sıldırım dağları yarmaq qüdrətində olur. Sirli, ecazkar torpaqdır bura. Atəşin, odun məkanıdır bu yerlər. Babəkin azadlıq istəyi ilə parlayan qılıncı bu yerdə qınından sıyrılıb. İyirmi iki il o qılınc zülmkar başlar kəsib, qara qüvvələri əsir halına salıb.

Yol gedirdi. Vətənindən, yurdundan ayrı düşmüş iyirmi dörd yaşlı gənc Azəri türkü içərisində istiqlaliyyət alovu ağrılı fikirlər içində əzab çəkirdi. Adamları zülmün, sitəmin qara pəncəli əlindən qurtarmaq yollarını düşünürdü.

Yolçusu olduğu tozlu-torpaqlı yol nəhayətsiz halda uzanır, sonu görünmürdü.

Cavan istiqlaliyyət yolçusu getdiyi yolun uzaqlığından, daşlı-kəsəkli olmağından qorxmurdu.

Yolçu yol gedirdi...

Məmməd Əmin Rəsulzadə İrana gəlib çatanda güney Azərbaycanında məşruyyət hərəkatı alovlanırdı, hər yandan azadlıq, hürriyyət sədaları göylərə yüksəlirdi. Xalq içərisində çoxdan közərən azadlıq işığını alovlandırıb ayağa qalxmışdı. O biri Azərbaycanda çar rejimi altında inildəyən xalq burada şah üsul-idarəsinin əzabını çəkirdi. Hakimiyyət başında türk əsilli Qacarlar sülaləsinin olmağına baxmayaraq xalq sıxıntılardan qurtarmaq, hürriyyət havasını udmaq istəyirdi.

Güney Azərbaycanı ayağa qalxmışdı.

Azəri türkləri məşrutə istəyi ilə alovlanırdılar.

İrandakı məşrutə hərəkatının başlanmağında güney Azərbaycanında baş verən hadisələrin az təsiri olmamışdı. Bakıda neft sənayesinin inkişafı, inqilabi şüurun yüksəlməsi, istibdad əleyhinə çoxlu təşkilatların yaranıb fəaliyyət göstərməsi, İrandan gəlib Bakıda çalışanlara güclü təsir edirdi.

Eyni zamanda İrandakı Azəri türklərindən müəyyən qrupu Avropa təhsili görüb geri qayıtmışdı və onlar təbliğatlar aparıb xalqın gözünü açır, şah zülmünə qarşı mübarizəyə çağırırdılar.

Məmməd Əmin Rəsulzadə məşrutə inqilabının belə bir alovlu vaxtında, gənc yaşlarında ikən mübarizəyə qoşulmuşdu. Burda onun Avropa təhsili görmüş ziyalı dostları vardı. İnqilab işinə hədsiz sədaqəti olan İran ziyalılarından Seyid Həsən Tağızadə, Hüseynqulu xan Nəvvab, Süleyman Mirzə, Seyid Məhəmməd Rza ilə fikir, əqidə yaxınlığı vardı. Məmməd Əmin Rəsulzadə bu adamlarla birlikdə çalışır, məşrutə hərəkatına köməklik göstərirdi. 1910-cu ildə İran ziyalıları ilə birgə İran demokrat partiyasının əsasını qoydular. Partiyanın orqanı kimi «İranenou» («Yeni İran») qəzeti nəşr edilməyə başladı. İyirmi altı yaşlı Məmməd

Əmin Rəsulzadə qəzetin baş redaktoru idi. Qəzeti redaktə etməklə yanaşı o, tez-tez məqalələr, şerlər yazıb çap etdirir, baş verən hadisələri izah edib xalqa çatdırırdı.

Məmməd Əmin Rəsulzadə qəzetçilik fəaliyyəti ilə işini məhdudlaşdırmırdı. Eyni zamanda kitablar yazıb çap etdirirdi. 1910-cu ildə Tehranda onun farsca «Tənqidi-firqeyi-etidaliyyun» adlı kitabı çap olunur. 1911-ci ildə isə Ərdəbildə yenə fars dilində «Səadəti bəşər» kitabını nəşr etdirir.

İran məşrutə hərəkatı dövründə Məmməd Əmin Rəsulzadə yorulmaq bilmədən çalışır, xalqın hürriyyət istəyinə bacardığı köməyi edirdi.

Onun bu fəaliyyəti haqda çox sonralar, məşrutə dövründə birgə çalışdığı, İran məclisinin bir zamanlar başçısı olmuş Seyid Həsən Tağızadə heyrətlə, məhəbbətlə aşağıdakı sözləri yazacaqdı:

«Rəsulzadə bütün ömrüm boyunca Şərq dünyasında rastlaşmadığım, mübaliğəsiz söyləyə biləcəyim fövqəladə namdar insanlardan biri idi. Məmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən, fədakar, mücahid və örnək bir insandı. Böylələrinə zamanımızda və hələ bizim tərəflərdə rastlaşmaq həmən-həmən imkansız olduğu kimi, bütün dünyada da rastlanmaz...

...Rəsulzadə İran inqilabının başlanğıc dövrəsində Bakıdakı İranlı hürriyyətsevərlərlə işbirliyi yaparaq kiçik istibdad dövründə Rəşt şəhərinə hərəkət etmişdi. Eyni ilin ortalarında Tehran zəbt ediləndə İranın başkəndinə gəlmişdi. Burada onun fövqəladə mühərrirlik qabiliyyəti meydana çıxdı və o, İran məşrutə və ikinci məclis dövrünün ən yaxşı və ən tanınmış qəzetəsi olan «Yeni İran»ın baş redaktoru oldu. Modern Avropa qəzetəçilik məsləkini İrana gətirən və gəlişdirən Rəsulzadədir».

İran od içindədir. Azadlıq, hürriyyət alovlu ölkənin hər yerini bürüyüb. Şah qaçıb gizlənib. Azəri türklərinin şanlı ocağı Təbriz hürriyyətsevərləri öz qoynuna alıb.

Dəstə-dəstə Təbrizə axışan adamlara—əsarətdən qurtarmaq ümidi ilə çırpınanlara baxırdı. Ayağı çarıqlı, başı çalmalı qoca hara gedirsən? Əsrlər boyudur ki, səni didib-parçalayan qara qüvvələri məhv etməyə olan ümidini itirmə! Dəstənin arxasınca ayaqyalın, başıaçıq qaçan Azəri övladı! Yaşamaq haqqın niyə tapdanır? Oxumaq, oynamaq, demək, gülmək çağlarında niyə səni qanlı süngülərə hədəf tuturlar? İnsanın ən böyük faciəsi parçalanmağı, ikiyə bölünməyi deyilmi? Xalqı belə işgəncəyə məruz qoymaqla ölüm nəfəsli quduzlar insanlıq haqqını tapdalamayıblarmı?

Düşünürdü. Min fikrin ağrısı içərisini qurd kimi gəmirirdi. Tez-tez boylanıb gözlərindən sevinc yaşları axıb tökülən fədailərə baxırdı. Neçə ilin qəm yükündən ağrı çəkən adamlar ucadan, məhəbbət dolu, birlik nəfəsli sözlər oxuyurdular.

Qara əllər xaincəsinə ona sarı uzanırdı.

Əvvəllər çoxlu güzəştə gedən, xalqın narazılığından ehtiyat edən şah İranlı və Osmanlı kürdlərindən ibarət topladığı ordu ilə məşrutə hərəkatını boğmağa başladı. Ayrı-ayrı Azərbaycan şəhərlərini talan edib məşrutə tərəfdarlarına işgəncələr verdi. Sonra məşrutə hərəkatının alovlandığı başlıca yerə — Təbrizə hücum çəkdi. Təbrizlilər ölümlə həyat arasında çırpınırdılar. Amma tək deyildilər və canlı döyüşlə onlara həyan olan, arxa duran qüvvələr vardı. Qüzey Azərbaycandan və Osmanlı milliyyətçilərdən toplanmış könüllü birliklər Təbrizli Azərilərin köməyinə gəldi.

Qarşıda nəhəng düşmən qüvvələri dayanmışdı. Adamları ruhdan salmaq, mübarizədən çəkindirməkdən ötrü məşrutə tərəfdarları arasında xain ruhlu təbliğatlar yayılırdı: Əgər təslim olsanız, Təbrizə və sizə toxunulmayacaq. Bunun nə məqsədlə edildiyini çoxları başa düşürdü.

Xalq bir də əsarət zəncirində boğulub inildəmək istəmirdi.

Hadisələrin içində olduğundan xalqın istəyinin, azadlıq mübarizəsinin coşğun ruhunu görürdü. Bu təlatümlü hürriyyət dənizinin şahə qalxan dalğaları onu qətiyyətli edir, xarakterini möhkəmlədirdi. İçərisində vahid Azərbaycanın azadlığı, parçalanmış xalqı nəhayət, birləşdirib birgə yaşamaq haqqına çatdırmaq istəyi yaşayırdı. O günün mütləq gələcəyinə inanırdı.

...Bir xalqı ikiyə parçalamış xain qüvvələr indi yaxınlaşmışdılar. Bir də bu xain qüvvələr niyə birləşməməliydilər ki? Bu xalqı bölüb parçalayan onlar deyildimi? Səksən üç il əvvəl bütöv bir xalqın taleyi ilə onlar oynamadımı? Kim vermişdi onlara bu haqqı? Xalqı parçalayıb, ikiyə bölüb onu alqı-satqı alətinə çevirərlərmi? Belə qanlı cinayəti edən qüvvələr indi ümumi dil tapmaya bilərdilərmi? Aparılan oyun hər ikisinin mənafeyinə uyğun gəlir, qazanclarını artırırdı. Hər ikisi varını, dövlətini, bütün sərvətlərini sümürüb sorduğu torpaqları niyə qoruyub əldə saxlamamalı idilər ki?

Beləcə, iki xəyanətkar qatil iti qılınclarını qaldırıb xalqın hürriyyət istəyi ilə düşünən başına endirdilər.

Rus konsulu çar Rusiyasının Azəri türkləri ilə dəfələrlə sınaqdan çıxardığı «qarşındakını tələsmədən, aldatmaq, parçalamaq, dilə tutmaq, guya səninlə dostluq edirəm üsulundan istifadə etməyə başladı. Rus konsulu mübarizə hərəkatının başında duran Səttar xana sülh təklif edəndə o demişdi: «Biz kimsəyə hərb açmadıq. Sadəcə millətimizi, vətənimizi, insani haqlarımızı mürtəcelərdən qoruyuruq».

Səttar xanın qətiyyətini görən rus konsulu yenə hiyləgər təklifə əl atmışdı, rus himayəsini qəbul etmək təklifini irəli sürmüşdü. Səttar xan ona belə cavab vermişdi:

«Mən və arxadaşlarım özümüzü başqasının bayrağı altında deyil, öz bayrağımız altında görmək istərik».

Məmməd Əmin Rəsulzadə bu söhbətlərdən qəti qənaətə gəlmişdi ki, çar imperiyası ilə şah üsul-idarəsi arasında fərq yoxdur. Hər ikisi qaniçən və

zülmkardır. Hər ikisi xalqları əsarət altında saxlamağa meyllidir. Hər iki üsul-idarə arasında fikir müxtəlifliyi və hətta düşmənçilik də olsa, azərbaycanlıların birləşmək istəyi güclənəndə, azadlıq hərəkatı genişlənəndə onlar ümumi dil tapıb yaxınlaşır. Məmməd Əmin Rəsulzadə çar imperiyasının bir xain istəyini də anlamışdı: imperatorluq hər iki Azərbaycanı ələ keçirməyə meyllidir.

Səttar xanın iki qüvvətli düşmənə qarşı apardığı mübarizəyə Türkiyədən də kömək gəldi. Məşhur Xəlil bəy bir dəstə millətçiləri başına toplayıb Səttar xanı müdafiə edirdi. Türkiyədən gələn qan qardaşlarını Azəri türkləri bağrına basır, göz yaşı içində qucaqlaşırdılar. Dar günün, çətin zamanın köməyini yalnız damarında eyni qanı axan, sinəsində eyni ürək döyünənlər edər.

Həmin görüşdə cəsur Xəlil bəy gözəl və şirin İstanbul ləhcəsiylə bu sözləri demişdi: «Arkadaşlar, qorxmayın, vurun. Arxanızda qardaşlarınız varıq. Qardaş yardımı davam edəcək. Məşrutə bayrağını yerdə qoymayın».

Məmməd Əmin Rəsulzadə xalqın bu coşğunluğunun birləşmək, bütün türk aləmi ilə əl-ələ vermək istəyinin şahidiydi. Səttar xanın cəsurluğunu, qəhrəmanlığını alqışlayırdı. Səttar xanın adına mahnılar qoşulur, igidliyi, cəsurluğu dillərdə dastan olurdu.

Lakin həyatın bir amansız məntiqi hökmü var: düşmən sayca çoxdursa, azın məğlubiyyəti labüddür. İgidliyin, cəsurluğun son dayanış yeri namərdin topalaşıb qabaq kəsməsidir. Mərdin, cəsurun igidliyini qiymətləndirən dövran çoxdan ötüb getmişdi. İndi zaman xainlərin, fırıldaq və bicliyi bacaranların idi. Mərdliyi gedən dünya indi başqa hava ilə nəfəs alırdı.

Şahın çar Rusiyası ilə birləşən qüvvələri məşrutə hərəkatını qan içində boğdu. Edamlar, qətllər, hürriyyət yolunda şəhid olanların axan qızıl qanı göylərin rəngini qızartdı. Azəri xalqının hürriyyət istəyi beləcə qanla boğuldu. Məşrutə hərəkatının tərəfdarları istibdada məruz qaldılar.

Belə vəziyyətdə İranda qalmaq təhlükəli idi. Məmməd Əmin Rəsulzadəni təkcə İran hökuməti deyil, həmçinin çar Rusiyası da axtarır, həbs etməyə çalışırdı. Çünki Məmməd Əmin Rəsulzadə adı həm İran, həm də çar Rusiyası üçün qorxulu idi. Böyük mühərrirlik və siyasi təbliğatçılıq bacarığı olan Məmməd Əmin Rusiyada və İranda mövcud quruluşa qarşı mübarizə aparmış, başına çoxlu adam toplamışdı. Onun həmfikirləri çox idi və xalqın müəyyən təbəqələri arasında güclü nüfuzu vardı. Belə adamları «zərərsizləşdirmək lazımdı».

Təzyiqin getdikcə artdığını və həyatının təhlükədə olduğunu görən Məmməd Əmin Rəsulzadə İranı tərk etməyə məcbur oldu.

* * *

Azadlıq yolunda şəhid olub, ömrü yarıda qırılanların ağrısı içərisini göynədə-göynədə İrandan ayrılırdı. Yol boyu görünən adamlara baxırdı. Hamısı qəm dəryasına batıb, fikirli halda başlarını aşağı salmışdılar. Sanki sağ

qaldıqlarına görə ölüb şəhid olanların pak puhlarından xəcalət çəkirdilər. Kişilərin beli bükülüb əyilmişdi. Qadınlar düçar olduqları dərdin ağrısı rəngində — qara çadraya bürünmüşdülər. Hər yanda ölgünlük hökm sürürdü. Həyat ölüm havasına bürünmüşdü. Ayaqyalın, başıaçıq uşaqlar boynu bükük halda dayanıb yol gözləyirdilər. Yetimliyin acısını indi-indi dadmağa başlayan bu kimsəsiz qalmış günahsızlar şəhid olmuş atalarının qayıdacağına, evlərinə dönəcəyinə hələ inanırdılar. Yazıqlar hardan biləydilər ki, o qüvvətli, o qəlbi işıqlı, halal zəhməti ilə hər gün bir parça çörək qazanıb onlara gətirən atalarını iki xain qüvvətin birləşməyi məhv etdi.

İçərisində bu ağrılar dolaşa-dolaşa, hürriyyət yolunda şəhid olanlara rəhmət oxuya-oxuya İranı tərk edirdi.

Məşrutə hərəkatı yolçusu olduğu azadlıq mübarizəsinə yeni təkan verdi. İran inqilabı sonrakı fəaliyyətində mühüm örnək oldu.

İndi üz tutub getdiyi məkan Türkiyə idi. Vətəndən qovula-qovula əzəmətli İstanbula gedirdi. Yalnız bu torpaqda təhlükədən qurtarıb, mübarizəsini davam etdirə bilərdi. Azərbaycanın çox ziyalıları indi İstanbula toplaşmışdı. Onlarla görüşüb birgə fəaliyyətə başlamaq lazım idi.

## İSTANBULDA İLK GÖRÜŞ

İstanbul! Gözəl İstanbul! Türk dünyasının azad şəhəri! Mərmərə dənizinin şəffaf suları ilə parlayan şəhər! Süleymaniyyənin, Aya Sofiyanın, Sultan Əhmədin hündür qüllələri ilə möhtəşəm görünən İstanbul! Gözəl hüsnünə baxanda ürək açılır, gizli də olsa içində həsəd aparırsan. Düşünürsən ki, xoşbəxtdir bu şəhər, ona görə xoşbəxtdir ki, əsarət altında inildəmir. Başı üzərində azadlıq günəşi gülümsəyir.

Hündür təpədə dayanıb İstanbulun gözəlliyinə baxırdı. Günəşin parlaq şəfəqləri buludsuz səmadan axıb evlərin, küçələrin, yavaşça ləpələnən Mərmərə dənizinin üstünə süzülürdü. Bu şəhərlə bağlı çox xatirələri olacaqdı. Bu şəhər qollarını açıb neçə kərə onu bağrına basacaq, qoynunda yaşamağa yer ayıracaqdı. İstanbulda onun yaxşılı-yamanlı günləri çox keçəcəkdi. Bəzən ehtiyac içində şəhərin daş küçələrini gəzib dolaşacaq, həyatın amansız acılığını dadacaq, sərt zərbələrə məruz qalacaqdı. Bu şəhərdə çoxlu dostları vətən həsrəti ilə alışıb yanacaq, həyatdan köçəcəkdilər. İndi dayanıb heyranlıqla baxdığı İstanbulun əksər küçələrində onun sonradan yaşayacağı və görəcəyi işlərin izi qalacaqdı. Ömrünün son günlərində, qürub çağında vətənini və yurdunu həmişəlik itirəndə son dəfə bu şəhərə gəlib ötənləri anacaq, itirdiyi dostlarını yada salacaqdı. Qurduğu azad hökumət devrilməyə məruz qalanda, vətəni işğal olunub düşmən tapdağı altında sızlayanda yenə İstanbula üz tutacaq, indi dayanıb baxdığı, amma tanımadığı küçələrin birində, o, istiqlaliyyət məşəlini yandıracaq, qəzet, jurnal çıxarıb mübarizəsini davam etdirəcəkdi. Və bir müddət yaşayandan sonra indi heyran

kəsildiyi İstanbulun qapıları onun da üzünə bağlanacaqdı. Çıxıb getmək məcburiyyətində qalacaqdı. İstanbulla bağlı dadlı-məzəli söhbətləri də olacaqdı. Qocalıb yaşa dolanda bir gün vaxtilə qovulduğu bu şəhərə gələcək. Dostlarını başına toplayıb İstanbul plovu ilə bağlı maraqlı söhbət də edəcəkdi. Bütün bunlar olacaqdı, çox sonradan olacaqdı. İndi isə dayanıb əzəmətli İstanbula baxırdı...

**Ağrılı bir səs.** Ana göz yaşları içində hönkürə-hönkürə oğluna baxır. Dünyaya gətirdiyi, boyunu sevə-sevə oxşadığı, böyütdüyü ciyərparasından imdad istəyir. Oğul əlindəki silahı—oxu ağsaçlı anasına tuşlayıb. Qarşısındakı bu ağ saçlı, köməksiz və göz yaşları içində inildəyən qadını öldürmək istəyir. Qadın həyəcanlı çırpıntı içərisində göz yaşlarını qara torpağa axıdıb tökür və oxla ürəyini nişan almış oğlana «sənin ananam» deyir. Oğlan heç nə anlamır. Ona süd verib böyüdən bu qadını da tanımır. Çünki əsarətdə saxlayanlar onu bir zamanlar indi üz-üzə dayandığı bu qadından — anasından zorla alıb aparanda dəhşətli xəyanət ediblər — oğlanın başını qırxıb dəvə dərisi ilə bağlayıblar. Gün vurub dərini qurutduqca şüuru, düşüncəsi ölüb, yaddaşını itirib, əslini, kökünü, kimliyini unudub. (Belə adamları manqurt adlandırıblar.) İndi manqurt oğlan yaddaşı itmiş halda doğma anasını oxla ölüm hədəfinə çevirib. Yazıq ana çırpınır, sızlayır, istəyir ki, oğluna kim olduğunu anlatsın. Ana ölümdən qorxmur, onun qorxduğu oğlunun kimliyini unutması, əslini, kökünü itirməsidir. Yaddaşı ölmüş, ulu soyundan həmişəlik qopub ayrılmış, manqurtlaşmış oğlan əzab çəkmədən oxu anasının ürəyinə sancır.

Ağ saçlı ana al qan içində yerdə qıvrılır. Oğlan sakitcə dayanıb baxır.

**Yaddaşsızlıq dərdi.** Sonradan dərdli-dərdli yazacaqdı ki, məhmətcikdən, hansı milliyyətdən olduğunu soruşanda cavab verə bilmir. «Məhmətcik, sən türksən» deyəndə, o təəccüb içində inanmadığı bir halda gözlərini döyür. Çünki məhmətciyə görə o müsəlmandır. «Məhmətcik, müsəlman sənin dinindir, bəs millətin nədir?» soruşanda Məhmətcik yenə duruxur və deyir: «Millətim də elə müsəlmandır». Məhmətcik hansı millətdən olduğunu bilmir.

Məhmətciyin günahı vardımı? Yazıq axı hardan eşidəydi kim olduğunu? Gözünü açandan başı qapazlı idi. Şüurunu, düşüncəsini elə dondurmuşdular ki, yalnız güclü bir işıqla isidib açmaq olardı. Məhmətciyi həmişə təhqir edib müxtəlif adlar vermişdilər. Gah «iranlı», gah «qara tatar», gah da sadəcə olaraq «müsəlman» demişdilər. Məhmətciyin şüurunu öldürüb, yaddaşını ona unutdurmuşdular. Bunu qəsdən etmişdilər ki, əslini, kökünü xatırlaya bilməsin, qul kimi müntəzir dayanıb, deyiləni yerinə yetirsin.

Məhmətcik millətinin kim olduğunu bilmirdi. Türk paşası: «Məhmətcik, sən də mənim kimi türksən» deyəndə o heyrət və sevinc içərisində qalmışdı.

XX əsrin əvvəllərində Azərbaycanda milyonlarla Azəri türkünün yaddaşı beləcə öldürülmüşdü.

**İnildəyən Azəri türkü.** Bu dərdi ondan qabaq duyub ağrıyanlar olmuşdu. Xalqının hüquqsuzluğunu, avamlıq və cəhalət içərisində boğulduğunu hələ ötən əsrdən şikayətlənib yazmışdılar. Xalqın hansı kökə bağlılığını oxuyub elm

qazanmış, açıq fikir sahibi olmuş çox ziyalılar əsrin əvvəllərində ucadan deməyə başlamışdılar. «Avam müsəlman» adı ilə təhqir olunan xalqı ayılmağa — «Şanlı Azəri türküsən» fikrini qəbul etməyə çağırırdılar. Demək istəyirdilər ki, gözün önündən qaranlıq pərdə asıblar, şöhrətli keçmişini ləkələyiblər. Unutma ki, dünənində yüksək mədəniyyətin—şairin, filosofun, saf əqidə adamların olub. İndi çar əsarəti və zülmü altında inildəsən də bunları yaddan çıxartma.

**İlk eşidilən səs.** Əsrin əvvəllərində imperiya əsarətində əzilən türkün haqqını, hüququnu müdafiə məqsədi ilə Nijni-Novqorod şəhərində Əli Mərdan bəy Topçubaşlının, İsmayıl bəy Qaspirallının, Yusif Akçoranın, Sədri Məqsudi və Fateh Kəriminin təşəbbüsü, fəaliyyəti nəticəsində «Rusiya Müsəlmanları İttifaqı» adlı partiya quruldu. Partiyanı yaratmaqda məqsəd əsarət altında inildəyən türkləri bir amal uğrunda birləşdirib irticaya qarşı mübarizə aparmaq, imperiya zülmündə əzilməkdən xilas etmək idi. Çünki çar Rusiyasında yaşayan türklər eyni kökdən olduqlarını bilmirdilər. Parçalanmış halda yaşayır, zəif qüvvə təşkil edirdilər. Bu qüvvələri oyadıb kimliyini bildirmək, başlıca düşmənə qarşı mübarizəyə hazırlamaq lazım idi.

İsmayıl bəy Qaspirallı həmin o illərdə türklüyün səsinin yenicə ucalmağa başladığı dövrdə — 1906-cı ildə demişdi:

«Ümumən türklərin əsli və nəsli birdir. Zaman və məkan ihtilafıyla şivə adətlərimizdə ihtilaf peyda olmuşdur. Bu ihtilaf bir-birimizi anlamayacaq dərəcəyə gəlməmişdir. Bundan sonra məktəblərimizi bir olan ədəbi lisanlarımızla hadim olacaq hala gətirmək lazımdır».

Bu görkəmli türk ziyalıları deyirdilər: məzhəb ayrılığının—yəni qəsdən imperiya tərəfindən ortalığa atılan sünni şiə söhbətinin—türklüyün birliyinə heç bir maneçiliyi yoxdur və ola bilməz.

Əli Mərdan bəy Topçubaşlı o zaman demişdi:

«Məzhəb müxtəlifliyi böyük əhəmiyyətli bir şey deyildir». Bu fərqlər Rusiya müsəlmanlarının ruhani işləmələri üçün ümumi bir müəssisə vücuduna dini nöqteyi-nəzərdən bir maneə təşkil etməz».

...Çar imperiyasının «ruslaşdırma», «türkçülüyü boğmaq» siyasəti iri sənaye şəhəri olan Bakıda daha kəskin hiss olunmuşdu. Bakı mühitində belə bir zamanda türklüyün işığını ilk yandıran Əli bəy Hüseynzadə olmuş, açdığı qəzetlə xalqa «sən türksən» fikrini aşılamağa çalışmışdı. Böyük insan Əli bəy Hüseynzadə hələ 1906-cı ildə öz fikrini belə ümumiləşdirirdi: «Türk qanlı, islam imanlı, firəng qiyafəli».

Getdikcə alovlanan, başına yeni fikirli adamlar toplayan bu türk ocağını çar imperiyası tezliklə boğub söndürmüşdü.

Həmin ocaq indi İstanbulda alovlanırdı. 1911-ci il idi.

Azad türk arzusu, fikri ilə yanan bu ocağın dövrəsinə yığılanlardan biri də Məmməd Əmin Rəsulzadə idi.

**«Türk ocağı»nda işıq.** İstanbuldakı «Türk ocağı»na dövrün görkəmli ziyalıları toplaşmışdı. Məmməd Əmin Rəsulzadə «Türk ocağı»nda görkəmli

ziyalılarla—Əli bəy Hüseynzadə, Əhməd bəy Ağa oğlu və başqaları ilə birgə çalışıb fəaliyyət göstərirdi.

Bu zamanlarda fəaliyyətə başlayan «Türk yurdu» dərgisində Məmməd Əmin Rəsulzadə «İran türkləri» başlığı altında bir sıra məqalələr yazır. Onun bu sıradan olan məqalələri böyük əhəmiyyətə malik idi. Çünki bu günə kimi İrandakı azərbaycanlıların türkçülük xüsusiyyətlərini belə geniş şəkildə əks etdirən yazı çap olunmamışdı. Parçalanmış Azərbaycanın Arazın o tayında ağrı çəkən türklərindən çoxları xəbərsizdi. Məmməd Əmin Rəsulzadə İran türklərinin səsini geniş türk dünyasına çatdıran ilk ziyalı idi.

Məmməd Əmin getdikcə müsəlman dünyasının böyük mütəfəkkiri Şeyx Cəmaləddin Əfqani ilə maraqlanır. Onun fikirlərini, fəlsəfi düşüncələrini öyrənir... Şeyx Cəmaləddin Əfqani hansı işıqlı ideyaları ilə Məmməd Əmin Rəsulzadənin diqqətini cəlb edirdi? İlkin olaraq milliyyət şüurunu oyatmağı ilə, milliyyətçiliyin təbliği ilə. Böyük mütəfəkkir bütün xoşbəxtliyi milliyyətin daxilində görürdü. Əfqani milliyyətçi fikirlərini bu məntiqlə yekunlaşdırırdı: «Milliyyət xaricində səadət yoxdur».

Məmməd Əmin Rəsulzadə Əfqaninin düşüncələri ilə tanışlığa qədər də milliyyətdən bəhs edən fikirlər irəli sürmüş, məqalələr yazmışdı. Millətlərin zülm altında inildəməyini və bu fəlakətin xoşagəlməz mənzərəsini əks etdirmişdi. Milliyyətin imperiya əsarətində azadlıq və hürriyyətdən kənar olduğunu və müxtəlif firqələrin milliyyət fikrinə münasibətini bildirmişdi.

Lakin indi Əfqanidən çox şey öyrənirdi. Əfqani ona milliyyət işində yeni ideyalar verirdi. Sonradan Əfqanidən öyrəndiklərini öz işində—Bakıdakı fəaliyyətində əsas tutacaqdı.

Həmin illərdə—«Türk ocağı»nda siyasi mübarizə əqidəsinin möhkəmləndiyi bir zamanda böyük islam mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin «Milli birlik fəlsəfəsi» əsərini farscadan türk dilinə çevirib «Türk yurdu» jurnalında nəşr etdirir.

«Türk ocağı»nda qızğın mübahisələr gedirdi. «Türkçülük» ideyasına əsaslanan bu ciddi fikir mübadiləsində Əli bəy Hüseynzadə ilə Ziya Gökalpın mövqeləri müxtəlif idi. Türk aləmində ilk dəfə olaraq «türkləşmək, islamlaşmaq və müasirləşmək» fikri irəli sürən Əli bəy Hüseynzadə «Osmanlı lisanını» qızğınlıqla müdafiə edirdi.

Ziya Gökalp isə Əli bəyin «türləşmək, islamlaşmaq və müasirləşmək» fikrini əsaslı şəkildə işləyib sadə türkcə yazmağı, danışmağı irəli sürürdü.

Məmməd Əmin Rəsulzadə Türkiyə mühiti ilə tanış olduğu ilk gündən buradakı bir qızğın mübarizənin tez-tez şahidi olurdu: Osmançılıq, yoxsa türkçülük?

Hələ ötən əsrin ortalarından başlanan bu söhbət indi də davam edirdi. Hər yerdə türk dili, türk düşüncəsi, türk əqidəsi əvəzinə «Osmanlı dili, Osmanlı əqidəsi» işlənirdi. Sanki çoxları türk sözünü işlətməyə qorxur, yainki bunu özlərinə

təhqir sayırdılar. Çoxları osmanlı sözü altında yüksək inkişafa, əqidəyə, düşüncəyə, nəzakətə malik şəxsi anlayırdı. Türkü isə bu qaydalardan uzaq sayırdılar. Bəziləri bu sözü cəmiyyətdə, həyatda işlətməyin qəti əleyhinə idi. (Əlbəttə, «Osmanlı lisanı» ilə «osmanlılığı» müdafiənin arasında da fərq var.).

Ziya Gökalpın dərin təhlil edib təkmilləşdirdiyi «türkçülük» ideyasının Məmməd Əmin Rəsulzadəyə böyük təsiri olmuşdu.

O, yazırdı:

«...Mərhumun (Ziya Gökalpın) «Türk yurdu»nda nəşr olunan türkləşmək, islamlaşmaq nə müasirləşmək» məqalələri məni vəcdə gətirdi. Bakıya getdim. Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsini müdafiə etməyə başladım. Türkçülüyü təbliğ üçün müharibə ərəfəsində çıxarmağa başladığımız «Açıq söz» qəzetinə Ziyanın sözlərini bir «şüar» götürdük. Daha sonra Ziyanın son zamanlarda «Türk millətindənəm, islam hümmətindənəm, qərb mədəniyyətindənəm» şəklində dediyi bu «şüar» türkçülük, xalqçılıq vəzifələri üzərində təşəkkül edən milliyyətpərvər «Müsavat» firqəsinin proqram müqəddiməsində yer tapdı. Rus istibdadında mütəfərrük xanlıqlar şəklində deyil, müttəhit və milli bir kütlə surətində nicat bulan Azərbaycan türklüyü, bu istiqlalını tərtəmiz edəcək bayrağa, əsri məfkurəsi ilə mütənasib bir məna vermək istəyirdi. Bu mənanı da «türkləşmək, islamlaşmaq və müasirləşmək» məfhumlarında buldu: Bayrağı mavi, yaşıl və al rəngli qumaşlardan yapdı».

Türkiyə həyatı, «türk ocağı»nda işıqlı düşüncə sahibləri ilə qarşılıqlı təmas Məmməd Əmin Rəsulzadənin türkçülük əqidəsini möhkəmləndirdi. İndi onu bir ciddi məsələ narahat edirdi: türkçülük ideyasını, yəni «ey xalq, sən kimsən, əslin hardandır?» fikrini yayıb genişləndirmək. Bu ideya xalq arasında təbliğ olunmazsa, onun oyanışı, hürriyyət istəyi ilə mübarizəyə qalxması mümkün deyil. Hər addımda hüququ tapdalanan xalqın kölə zəncirini qırıb atması yolunda ilkin hərəkət hansı soydan qopduğunu bilməsidir. Bunu xalqa çatdırmadan onu qəflət yuxusundan, dibinə endiyi bataqlıqdan qurtarmaq olmaz.

(Bakıya qayıtdıqdan sonra Məmməd Əmin Rəsulzadə bir çox yazılarında «Türk ocağı»nda tez-tez eşitdiyi və mübahisəsi hələ davam etməkdə olan «Osmanlı lisanı ilə» «Azəri türkcəsi»nə öz münasibətini bildirdi. «Şəlalə» jurnalında «Dil ictimai bir amil» və «Yeni lisançılar və türkçülər» adlı məqalələr çap etdirdi. Dil haqqında gedən söhbət, münaqişələr ona qol-qanad vermişdi. Sevinirdi ki, artıq Azəri türkcəsində danışmaq zamanı gəlib çatıb. 1915-ci ildə nəşr etməyə başladığı «Açıq söz» qəzetini də məhz ədəbi Azəri türkcəsi ilə çıxarırdı).

İndi ürəyi Bakını istəyirdi. Doğma yurduna getmək, öyrənib əxz etdiyi işıqlı fikirləri yaymaq  başlıca arzusu idi.

Amma vətən qapıları üzünə bağlanmışdı. Elinə, obasına qayıtmağa qoymurdular. O, çar imperiyasının düşməni idi və adı gizli hökumət dəftərində qeydə alınmışdı.

Doğma yurduna qayıtmaq həsrəti ilə çırpınanda iyirmi doqquz yaşı vardı. (Az sonra bu bağlı qapılar açılacaq, ona daha yeddi il də yurdu Azərbaycanda yaşamaq imkanı veriləcəkdi. Yeddi ildən sonra isə vətənin qapısı həmişəlik üzünə bağlanacaqdı. Bu soyuq və sərt həqiqətin getdikcə ona yaxınlaşdığını hələ hiss etmirdi. İndi üzünə bağlanmış vətən qapısının açılacağı ümidində idi).

...Birdən sanki möcüzə baş verdi. Vətənə qayıtmağına icazə verdilər.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə bağlı olaraq mühacirlər hökumət tərəfindən bağışlandı və Məmməd Əmin Rəsulzadə beş ilin ayrılığından sonra doğma elinə, obasına qayıtdı.

1913-cü il idi...

Hələ İstanbulda olduğu vaxtlar əmisi oğlu Məmməd Əli ilə məktublaşırdılar. Hər ikisi siyasi bir firqənin yaradılması ideyasını irəli sürürdü. Belə firqənin hansı quruluşda olmağı haqqındakı fikirlərini Məmməd Əmin yazıb əmisi oğluna çatdırırdı. Az sonra əmisi oğlu Məmməd Əlidən bir məktub aldı. Əmisi oğlu fərəh hissi ilə «Müsavat» adlı bir partiyanın qurulduğunu yazırdı.

1911-ci il idi.

Bakıda «Müsavat» adlı partiya yaradılmışdı.

**«Müsavat».** Əslində ərəb kəlməsi olan, «bərabərlik» mənasını ifadə edən bu yeddi hərfli sözü sonradan—1920-ci ildən başlayaraq qorxunc kabus kimi işlətməyə başladılar. Həyatda, cəmiyyətdə, insaniyyətlikdə, millətçilikdə bərabərliyi müdafiə edən «müsavat»a qızıl imperializm tərəfdarları ləkə yaxdılar, böhtan dedilər. «Müsavat» sözünü işlətmək ölümə bərabər tutuldu.

«Müsavat» eyni zamanda neçə azəri türkünün sevgili idealına çevrilib onu özünün vurğunu etdi, «Müsavat» neçə illər idi ki, zülm altında inildəyən türklüyün ümidinə çevrildi. Müsavat Azəri türklərinin başı üzərində üç rəngli, aylı, ulduzlu istiqlaliyyət atəşini yandırdı. Xalq sevdi, bağrı yanıq qəlbinə basıb bu bayrağın işığına toplaşdı. Gözlərdə sevinc alovlandırdı, ömürlərdə günəşə döndü müsavat. Əqidəsinin möhkəmliyi, dönməzliyi, sarsılmazlığı ilə müsavatçılar xalqın əbədi sevgisini qazandı. Bu işığı ürəklərinə yığanlar olmazın işgəncələrinə məruz qalsalar da, tutduqları yoldan dönmədilər. «Müsavat» xalqın ömrünə, gününə, yaşayışına iyirmi üç ay azadlıq gətirdi. Ona bütövlük, sarsılmazlıq, «sənin də yer üzündə yaşamaq haqqın var», «sən şanlı və böyüksən», «əsarətdə inildəməməlisən, bu zülmdən qurtarmaq, ağ günə çıxmaq bacarığın var» fikrini aşıladı. «Müsavat» yüz ildən yuxarı əsarət altında qalıb tarixi qaranlıqda yatan bir xalqı dünyanın iyirmi üç böyük dövlətinə tanıtdı. Dünyanın əksər ölkələri paytaxt şəhərinə — Bakıya elçilər göndərib səfarətxanalar açdı. «Müsavat» illərcə hüququ tapdanan xalqın oğullarının əyninə əsgər paltarı geyindirib onda Vətənin bütövlüyünü və onun keşiyində durmaq sevgisini oyatdı. İgidlərin qollarındakı qanlı əsarət zəncirini qırıb atdı və onun yerinə azadlığını qorumaq silahını bağladı. «Müsavat» neçə illər idi ki, xalqın qarlı-buzlu şimala daşınan qızılını, neftini, bütün sərvətini onun öz sahibi etdi. Xalq bolluq içində yaşamağa başladı. Hər cür inkişafı,

düşüncəsi, ətalətdən silkinib qurtarmaq cəhdi qırılan xalqa mənəvi sərvətini, mədəni tərəqqisini yüksəltmək imkanı verdi. O zamana kimi qorxulu səslənən türk dili məktəblərdə tədris olunmağa başladı. Xalqın övladlarının beyninə şimal düşüncəsi deyil, məxsus olduğu şərq mənliyi, şüuru yeridildi. Məktəblərdə oxuyanlar «İvan»ın, «Pyotrun» deyil, özünün şanlı tarixini öyrənməyə başladı. Babəkin azadlıq yolunda başının kəsildiyini, Xətainin bütöv Azərbaycan yaratdığını, Cavad xanın son nəfəsinə kimi vuruşub «ölmək var, dönmək yoxdur» dediyini eşitdi. «Müsavat» bolşeviklərin Azərbaycanı işğalından sonrakı zamanında da fəaliyyətini saxlamadı. Gizli işə keçib bəyannamələr yaydı. Xalqı dayanmamağa, mübarizə aparmağa səslədi. «Müsavat»ın yolunda ölüm atəşini köksünə qəbul edənlər, düşmənə boyun əyməyənlər oldu. Güllə qabağında, ölümün atəş saçan pəncəsinin uzandığı vaxtda fəxrlə, qürurla «bəli, müsavatçıyam» deyib minlərlə vətən övladı işıqlı həyata göz yumdu. Neçə qadın başına örtdüyü azadlıq rəmzi olan ağ kəlağayını qana boyayıb «müsavat»a məhəbbət və sədaqətlərini göstərdilər.

Qaranlıq gecələrdə qızıl imperializmin zəhərli toxumlarını yenidən azad Azərbaycan həyatına səpənlər xalqın minlərlə igid oğlunun ayağına ağır daş bağlayıb müsavatçı adı ilə dənizdə batırıb öldürdülər.

Zəkalı, sarsılmaz adamları şimalın buzlu cəhənnəminə göndərdilər. O soyuq buzlar arasında belə adamlar təslim olmur, mübarizə əzmini qırmırdı. Günlərlə ac-susuz qalır, etirazını bu yolla dünyaya çatdırır, müsavata sadiqliyini bildirirdilər. Solovkinin, Sibirin bu qorxunc ölüm dənizinin şahə qalxan soyuq suları isə minlərlə Azəri türkünü boğub məhv etdi. Son nəfəslərində belə bu adamlar «Yaşasın istiqlal», «Yaşasın müsavat!» dedilər.

Sənin, sənin adını çəkdilər, ey aydın hilallı, ulduzlu bayraqlı müsavat! Sənin qəlbində, içində çox böyük bir atəş alovlanırdı! Sənin o atəş işığın neçə insanı sevindirib özünə bağladı. Divarlarında ölüm qoxusu, tavanında işgəncə zəhəri, vəhşət hissi sürünən «Çeka», «Osobı otdel» binaları sənin işığınla dünyaya göz yumanların «Müsavat, müsavat» sözlərindən titrəyib silkələndi. Bu sözdən sonralar da qorxub onu Azəri türklərinin yaddaşından və əqidəsindən silib aparmağa çalışdılar. Amma bu ad yaşadı, inam və ümidləri qırılmağa qoymadı.

«Müsavat» bərabərlik deməkdir.

**Bir müsavatçının xatirəsi.** Onlar üç nəfər idi. Müsavatın işığını ilkin olaraq onlar yandırmışdılar. Sonradan hər üçü vətəndən – müsavatı qurduqları Bakıdan—doğma Azərbaycandan didərgin düşdülər. Onlardan yalnız biri sağ qalıb yaxın illərə kimi yaşadı. Onun da ömrü əzab içində, mənəvi sıxıntılarda keçdi. Yurdundan aralıda—qürbət eldə vətən həsrəti ilə çırpındı.

Amma yurdundan didərgin düşmüş bu qocanın səsi intizarında olduğu doğma yurdunun dağlarına yetişmədi. Eləcə içərisi ağlaya-ağlaya qaldı. Yalnız ömrünün sonunda—yüz yaşında olanda qapıları həmişəlik üzünə bağlanmış doğma

vətənindən—Azərbaycandan altmış iki ilin ayrılığından sonra görüşünə gələn oğlunu bağrına basdı və acı-acı hönkürdü..

Həmin qoca Məmməd Əmin Rəsulzadənin əmisi oğlu Məmməd Əli Rəsuloğlu idi.

Məmməd Əli Rəsuloğlu «müsavat»ın üç qurucusundan biri idi.

«Müsavat» partiyasının necə qurulmağı haqqında onun xatirələrindən:

«...1911-ci ilin bir son bahar günü idi. Arkadaşların gizli toplantı və müşavirə yeri olan rəhmətlik Abbas Kazımzadə bəyin mağazasının arxa odasında Abbas bəy ilə oturmuşduq. Arkadaşlarımızdan rəhmətlik Tağı Nağıoğlu bəy içəriyə girdi və bizə «gürcülərin, ermənilərin, rusların siyasi partiyaları var, bizim nədən olmasın. Biz də bir partiya quraq dedi». Bir neçə gün yapdığımız müzakirə və müşavirədən sonra «Müsavat» partiyasını qurmağa qərar verdik. Zatən o tarixlərdə İstanbulda olan Məmməd Əmin bəy də bizə yazdığı məktublarda siyasi bir partiyanın qurulmasının vacib olduğunu yazır, bu işdə hazırlıqlar içində olmamızı istəyirdi...

Böyləcə «Müsavat» partiyası qurulduqdan sonra partiyaya qəbul ediləcək arkadaşları təsbit etməyə başladıq. Bu da o zamankı dövrə görə zor bir işdi. Müsavat partiyasına ilk aldığımız arkadaşlar bunlardır: Vəli Mikayıloğlu (ikinci dünya hərbində İranı işğal edən Kommunist Ruslar tərəfindən Zəncan şəhəri ətrafında yaxalanaraq Rusiyaya gətirilmiş və güllələnmişdir), Seyid Hüseyn Sadiq (Azərbaycanın tanınmış ədəbiyyat və sənət adamı Sibirdə sürgündə olmuşdur), Əbdürrəhim bəy (Əcəli ilə ölmüşdür), Axund Yusif ləqəbi olan Yusif Ziya (Türküstanda basmaçılarla birlikdə Ənvər Paşa komitəsində bolşeviklərlə vuruşarkən şəhid olmuşdur), Seyid Musəvi (çarlıq rus ajanları tərəfindən şəhid edilmişdir)».

«Müsavat» partiyasının nüfuzu getdikcə artırdı. Partiyanın nəinki şimali Azərbaycanda və Qafqaziyada, eyni zamanda güney Azərbaycanda da şöbələri yaradılmışdı. «Müsavat»ın ilkin qəbul etdiyi proqram islam fikri üzərində qurulmuşdu və islami ideyalara daha çox üstünlük verirdi. Onun proqramında öz istiqlalını itirmiş müsəlman xalqlarına yardım və istiqlal qazanmış müsəlman məmləkətlərinə kömək fikri əsas yer tuturdu. İlkin proqramda türkçülük məfkurəsi qabarıq verilməmişdi. Bunun da səbəbi həmin məfkurənin yenicə formalaşmağa başlaması idi.

Sonradan «müsavat»ın proqramında dəyişiklik edib, ona türkçülük fikrini gətirən və partiyanın fəaliyyətini yalnız «islamla» məhdudlaşmaq xəttinə yönəldən Məmməd Əmin Rəsulzadə oldu.

Bu dövrdə «Müsavat» partiyası böyük işlər görürdü. Balkan müharibəsində Türkiyəyə yardım göstərmək təbliğatını aparırdı. Təbliğat öz işini görürdü. Çoxlu Azəri gəncləri könüllü halda Türkiyə tərəfindən vuruşmağa gedirdi. Adamlar qızıl, gümüş pul toplayıb türk xalqına yardım edirdilər.

«Müsavat» işləyirdi. Balkan hərbində Türkiyənin məğlubiyyətinə çalışan çar Rusiyasının siyasətini ciddi tənqid edirdi.

«Müsavat» fəaliyyətdə idi. Partiyanın üzvü Seyid Hüseyn gizli bir bəyannamə yazdı. Həmin bəyannamədə «müsavat» bütün Qafqaz müsəlmanlarını Osmanlı imperatorluğuna köməyə çağırdı. Bəyannamə gizli şəkildə çap olundu. Abbas Kazımzadə (Məmməd Əmin Rəsulzadənin yaxın dostu və onunla birlikdə Lahıcda həbs olunan «Müsavatçı») çap olunmuş bəyannamələri Tiflisə aparıb Qafqaz müsəlmanları arasında yayılması üçün poçt qutularına atıb sabahı günü geri dönmüşdü. Bəyannamələr Qafqaz müsəlmanları arasında böyük həyəcana səbəb olmuşdu.

İmperiya buyruqçuları yatmamışdı. Yayılan bəyannamələrin səsi onlara da gəlib çatdı. Bu gizli işləri görən kim olar? Xalqı ayıltmağa—türk dövlətinin varlığını qorumağa kim səsləyə bilər?

Axtarışa başladılar. Polis idarəsinin şübhəli adamlar dəftərində bir adamın adı dairəyə alınmışdı. Həmin adam çoxdan idi ki, Azərbaycandan çıxıb getmişdi. Amma bu onun sakit dayandığına, fəaliyyətdən qaldığına əsas verirdimi? Əvvəl İrana getmişdi. Amma hazırda Türkiyədə, İstanbulda yaşamağı haqda məlumatlar alınıb. Bu yalnız onun işi ola bilər.

...Polis düşünürdü.

— Əmisi oğlu Məmməd Əli Rəsuloğlu xatırlayırdı:

«Bu bəyannamə dolayısı ilə bir gecə mənim evimdə də axtarıldı. Axtarış aparan komissar müavini: «İstanbulda yaşayan qardaşın (Məmməd Əmin Rəsulzadəni nəzərdə tuturdu) tərəfindən sənə bir bəyannamə göndərildiyini və sənin də onu bütün Qafqaziyaya yaydığını deyirlər. Bu bəyannamə sizdə də tapılmadı».

«Müsavat»ın Qafqaziya türkləri arasında yayıb çar imperiyasını qorxuya salan bəyannamə aşağıdakı məzmunda idi:

«...Biliniz və agah olunuz ki, bizim yeganə çareyi-nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisindədir. Əgər biz indi də əvvəlki hissizliyimizdən vaz keçməzsək bu üzdən dünyanın gözü önündə həqq, insaniyyət və milliyyətimizi qaib edib əğyarə əcir, tabe və adətən əsirlikdə qalacağımıza şübhə edilməsin...»

«Cəmi aləm biliyor ki, bu müharibəyi xilafəti-islamiyyəyə malik olan Türkiyəyə açan Balkanın kiçik və ufaq hökumətləri deyildir. Zira, şir nə qədər zəif olsa da çaqqallar və tülkülər ona yaxın gəlməyə cürət edəmməzlər. Bu işləri işləyən insaniyyət və islamiyyət düşməni və «jandarmi-aləm» ləqəbi ilə müləqqəb olan Şimal ayısı Rusiya hökuməti-müstəbidəsidir ki, hər gün nə qədər ləvazimi-səhiyyə, ətibba, ianələr və könüllü adı ilə bölük-bölük nizamilər (yəni əsgərlər) göndəriyor».

«Şu saətdə bolqar, serb və qaradağlıların Nizami səflərində hədsiz-hesabsız rus zabitləri və topçuları mübarizə etməkdədir. Osmanlıların məğlubiyyəti həqqində çəkilən teleqraflar həpməğuldur. Bu surətlə onlar bir tərəfdən Rusiyadan

hərbə gedənlərə cürət vermək, digər tərəfdən də müsəlmanları qorxutmaq istiyorlar. Aləmi islamın başına gələn bəlaların əksərinə bəlkə də həpsinə şibu... və... hökuməti-müstəbidə səbəb olmuşdur. Digər məmləkətlərdəki islam qardaşlarımız can və mal ilə müavinətdə bulunduqları halda biz Rusiya müsəlmanları nədən bir ğəmad kimi donmuşuz!».

Yazılan bu sözlərdən çar Rusiyası bərk narahat idi. Əsarətdə saxladığı türklərin oyanmaq təhlükəsi vardı.

## DOĞMA BAKIDA

Bakıya 1913-cü ildə qayıtmışdı. Lakin diqqəti cəlb etməyib polisin nəzarətindən yayınmaq üçün bir ilə kimi başqa sahədə çalışdı. Əslində siyasi fəaliyyətini dayandırmamışdı, gizli şəkildə davam etdirirdi.

Bir qədər keçəndən sonra «İqbal» qəzetində işə başladı. «Dirilik» və «Şəlalə» jurnallarında maraqlı məqalələr çap etdirdi. Bu dövrdə yazdığı məqalələrdə türkçülük ideyasını əsas tuturdu.

Amma həyatı yenə sakit keçmədi. «İqbal» qəzetindəki bir məqaləsinə görə hərbi senzura ilə aralarında ciddi toqquşma oldu. Məmməd Əmin Rəsulzadəni həbs etdilər. Lakin bu həbs uzun sürmədi və bir aydan sonra azadlığa buraxıldı, həbsdən azad edilməyində «müsavatçı» dostlarının böyük köməyi oldu.

Təqiblərə, sıxma-boğmaya baxmayaraq Məmməd Əmin Rəsulzadə tutduğu mübarizə yolundan dönmürdü. Xalqının azadlıq və istiqlaliyyətə çatacağı ümidi ilə yaşayırdı.

Budur. Məmməd Əmin Rəsulzadə böyük təşkilatçılıq işi aparır. Birinci dünya müharibəsi artıq başlayıb. Müharibədə Qafqaz cəbhəsində hərbdən zərər çəkən müsəlmanlara yardım göstərmək üçün Bakıdakı Xeyriyyə Cəmiyyəti öz xeyirxah əlini uzadır. Cəmiyyətin işindən o da köməyini əsirgəmir. Elə bu məqsədlə həmin vaxtlar «Qardaş köməyi» adlı bir qəzet çıxarmağı öhdəsinə götürür. Qəzet elə birinci nömrədən sonra bağlanır. Bakıda «Müsavat»ın «Ədəb yurdu» adlı bir gizli klubu vardı. Məmməd Əmin Rəsulzadə həmin klubun fəal iştirakçılarından idi.

Amma bütün bu işlər onun yazmaq, istədiyini demək, ürəyindən keçənləri xalqa çatdırmaq alovunu söndürmürdü. Bakıda həmin vaxtlar az qəzet və jurnal çıxmırdı. Bu onun məqalələrini bu mətbuat orqanları böyük məmnuniyyətlə dərc edirdilər. Lakin onun öz dərdləri vardı. Və bu ağrısını artıq ürək qəfəsində saxlaya bilmirdi. Neçə illərdən bəri idi ki, o ürək qəfəsində çırpınan quşu açıb azadlığa buraxmaq, qol-qanad vermək istəyirdi. Həmin gün yaxınlaşmaqdaydı.

Nəhayət, çəkdiyi əziyyətlərin bəhrəsi olan «Açıq söz» qəzetinin nəşrinə icazə aldı.

1915-ci il idi...

**Türkün səsi. «Açıq söz».** Bu qəzet türk səsini ucadan xalqa eşitdirdi.

Məmməd Əmin Rəsulzadə bu haqda belə deyirdi: «Açıq söz» ilk dəfə olaraq o vəqtə qədər Qafqaziya müsəlmanı və yaxud tatarı deyilən xəlqin türk olduğunu sərahəqi və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı».

1915-ci il oktyabr ayının 2-si. Həftənin beşinci günüdür. Bakıda «Açıq söz» qəzetinin birinci nömrəsi çapdan çıxıb. Qəzetin baş mühərriri otuz bir yaşlı Məmməd Əmin Rəsulzadədir. Qəzetin adının altında yazılıb: «Siyasi-ictimai və ədəbi türk qəzetəsi». Çap olunduğu yer: Nikolayevski küçəsi, M. Ələkbərovun mətbəəsi, poçt № 357.

İlkin nömrədə Ömər Faiq Nemanzadənin, Xosrov bəy Sultanovun yazıları, Hüseyn Cavidin «Dün və bu gün» şeri verilib. Müharibədən, Qafqaz cəbhəsindən xəbərlər də qəzetdə çap olunub.

Qəzetin baş məqaləsini isə Məmməd Əmin Rəsulzadə yazıb.

«Tutacağımız yol» adlanan həmin məqalədə Məmməd Əmin Rəsulzadə yazırdı:

"Dəhşətlərinə şahid olduğumuz bu yol bir həqiqəti- əsrimizin milliyyət əsri olduğunu isbat etdi. «Dünyanın xəritəsi hərbdə dəyişəcək» — deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir. Dünya xəritəsinin alacağı yeni şəkilə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabərə heç şübhə yoxdur ki, vüzuh və rüsux peyda etmiş milliyyət məfkurələrində böyük təsiri var və olacaqdır.

Özünün lüzumunca bilib və istiqbal üçün müəyyən bir ideal (məfkurə) bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər...

Hər hansı qalib şərəf az-çox sürünclü bir dinclik vücuda gətirmək istərsə əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvəti milliyyəti—məfkurəsini ihmal edəməz! Bunun böylə olacağı arabir gələcəyin sülhü haqqında söz söyləyin...»

Məmməd Əmin Rəsulzadə baş məqaləni bu sözlərlə bitirir:

«...Xülasə, tutacağımız yolda önümüzə çıxacaq olanlara qarşı yeganə vasitəmiz olacaq «Açıq söz».

«Açıq söz» qəzeti xalqın ehtiyaclarından yazır, işıqlı fikirlər yayırdı.

1915-ci ilin oktyabr nömrəsində qəzetdə Məmməd Əmin Rəsulzadənin «Bizim ehtiyaclarımız» məqaləsi çap olunur. Məqalədə xalqın dörd başlıca tələbinin indiki şəraitdə vacibliyi göstərilir: 1) Aşağı sinifli məktəblərin açılıb milliləşdirilməsi; 2) Ruhani akademiyasının açılması; 3) dindarlar tərəfindən ruhanilərin seçilməsi; 4) Müsəlmanların aldıqlarının qaytarılması.

Məmməd Əmin Rəsulzadənin irəli sürdüyü bu tələblər dövrün tanınmış xadimlərindən olan Eynalı Sultanovu qane etmir. Eynalı Sultanov «Zaqafqasskiy reç» qəzetində çıxış edib Məmməd Əmin Rəsulzadəni tənqid edir. Göstərir ki, müsəlmanların çoxlu ehtiyacı olduğu halda nəyə görə cəmisi dörd tələb irəli sürülüb. Eyni zamanda Rəsulzadədən tələb edir ki, müsəlmanların siyasi hüquqları

məsələsini qaldırsın. Eynalı Sultanov məqaləsində tənqidi bir az da kəskinləşdirir və «Açıq söz»ün müsəlmanların ehtiyacına qorxaqcasına yanaşdığını deyir.

Eynalı Sultanovun bu mövqeyi Məmməd Əmin Rəsulzadəyə toxunur və «Açıq söz» qəzetində «Qoy cəsarətlilər desinlər» adlı məqalə ilə çıxış edir: «Biz Qafqaz müsəlmanları üçün ən başlıca və hər şeydən vacib olan dörd tələbi görürük. Ola bilsin ki, yenə belə vacib ehtiyaclarımız var. Əgər varsa, qoy cəsarətlilər desinlər».

Əlbəttə, bu onların arasında olan fikir müxtəlifliyindən doğan mübahisə idi. Amma Eynalı bəyin bir az tələsdiyini, qəzeti tənqid etməkdə «hövsələsizlik» göstərdiyini də demək lazımdır. Çünki Eynalı Sultanov qəzetin yalnız altı nömrəsindən sonra bu sözləri yazmışdı. «Açıq söz»ün fəaliyyətə başladığından isə heç bir ay da keçmirdi. Və bu müddət ərzində qəzetdən, yaxud bir məqalə müəllifindən xalqın bütün ehtiyaclarını qaldırmaq tələbini istəmək də düzgün deyildi. Şübhəsiz ki, M. Ə. Rəsulzadə haqlı olaraq heç olmasa ana dilində bir məktəbin açılmasını ön plana çəkirdi. Xalq doğma dilində oxumaq hüququndan məhrum idi və Məmməd Əmin Rəsulzadəni bu problem çox ağrıdırdı. Eynalı bəyə bir fikri də irad tutmaq olar: təzə fəaliyyətə başlayan, nəşrinə min əziyyətlə icazə alınan, cəmisi altı nömrəsi çıxan bir qəzetdə xalqın kəskin siyasi hüquqlarının birdən-birə, elə ilk addımdan qaldırılması mümkün idimi?

Məmməd Əmin Rəsulzadə «Açıq söz» qəzetindəki yazılarında yalnız Azəri türkünün deyil, ümumən çar imperiyasının əsarəti altında əzilən türklərin problemlərini qaldırır, lazım gələndə tənqidi fikrini bildirirdi. Türkləri cəsarətli olmağa, haqq işi uğrunda mübarizəyə çağırırdı. Məqalələrinin birində Türküstanın çarın əsarəti altına düşməyindən və əlli ildir ki, hüquqsuz halda yaşamağından danışır, «Türküstan əyaləti qəzeti»ni tənqid edir.

Budur, Türküstanın Rusiya təbəəliyini qəbulunun əlli illiyi tamam olur. Bu münasibətlə «Türküstan əyaləti qəzeti»nin baş məqaləsində yüksək bəlağət və təriflə türkmənlərin rus mədəniyyətini mənimsəməyindən və onların Rusiyaya sədaqətindən məhəbbətlə danışılır.

Məmməd Əmin Rəsulzadə qəzeti tənqid atəşinə tutur, həqiqəti yazmadığını söyləyir. Göstərir ki, belə lazımsız sözlərlə qəzeti doldurmaqdansa general-qubernator Kuropatkinin və onun generallarının bütün əyalətdə törətdiyi vəhşilikdən, amansızlıqdan, xalqa necə divan tutmağından yazsın. Onda hər şey üzə çıxacaq və bu «təbəəliyin» türkmən xalqının qanını tökməyi sübut olunacaq.

Türk xalqının əzilməsinə və bu istibdada göz yumulmasına Məmməd Əmin Rəsulzadə dözə bilmirdi.

1915-ci ilin dekabrında Məmməd Əmin Rəsulzadənin bir maraqlı məqaləsi çap olunur: «Hacının hədiyyəsi». Məqalədə tanınmış Bakı milyonçusu, xalqın böyük xeyirxahı Hacı Zeynalabdin Tağıyevin əliaçıqlığından, səxavətindən danışılır.

Peyğəmbərin anadan olması münasibətilə «İsmailiyyə» binasında təntənəli yığıncaq keçirilir. Dövrün qəbul edilmiş qaydalarına görə, əvvəlcə imperatorun adına xeyirxahlıq dolu sözlər deyilir, «Səfa» məktəbinin uşaqları xor oxuyurlar. Uşaqların oxumağını alqışlayırlar. İsmayılbəy Səfərəliyev elan edir ki, Hacı Zeynalabdin Tağıyev xəstə olduğuna görə burda iştirak edə bilmir və camaatın onu bağışlamağını xahiş edir.

Gecədə iştirak edə bilməyən Hacı öz xahişi ilə yazılan məktubu yığıncağa göndərir. Məktubu oxumaq Məmməd Əmin Rəsulzadəyə həvalə olunur. Məktubdan məlum olur ki, Hacı Bakıda yaşayan Kazan tatarlarına və dağıstanlılara əlli min manat peşkəş verib onlara iki məscid tikdirəcək.

Məmməd Əmin Rəsulzadə qəzetində xeyirxah Hacıdan böyük məhəbbətlə yazırdı:

«İsmailiyyə» binasında peyğəmbərin anadan olmağına həsr edilən həmin o təntənəli yığıncaqdan ən çox yadda qalan Hacının qiymətli məktubu idi. Bu məktub Qafqazın milli tarixi səhifələrini bəzəyən bu əmanətlə yanaşı dayanacaq. Məktubu imzalayan adamı isə xalq əbədi bir hörmətlə xatırlayacaq».

**Bir xoş xatirə.** Çox-çox sonralar, bu hadisədən neçə illər ötəndən sonra gedib Hacı Zeynalabdin Tağıyevin unudulmuş, yaddan çıxmış doxsan yaşlı qızı Sara xanımla görüşəcəyəm. Həmin o görüşümüzdə atasının Məmməd Əmin Rəsulzadəyə münasibətini soruşacağam. Sara xanım ötənlərin işığına boylanıb bu sözləri deyəcək:

«Atam Məmməd Əminin də, Nəsib bəyin də hörmətini saxlardı. Onların işinə, hökumət qurmağına sevinərdi».

**Ağrılı səs.** 1920-ci ilin Aprel fəlakətindən sonra hakimiyyətə gələn bolşeviklər Məmməd Əmin Rəsulzadənin adına hər böhtanı deyəcək, qara ləkələr yaxacaqdılar. Qızıl istibdadın hökmranlığa başladığı həmin o dövrdə yalançı bolşevik düşüncəsi ilə zəhərlənmiş azərbaycanlı komissarlardan biri—Mirzə Davud Hüseynov Məmməd Əmin Rəsulzadənin «Hacının hədiyyəsi» yazısına böhtan yıxıb, istehza ilə yazacaqdı:

«Məmməd Əmin Rəsulzadədən cənab Hacının məktub əmanətinin yerini soruşmaq maraqlıdır. Bəlkə o həmin məktubu Finlandiya sərhədindən qaçanda özü ilə götürüb və indi İstanbulda qızıl yeşikdə saxlayır».

Sonra bir mənasız söz də deyəcəkdilər Məmməd Əmin Rəsulzadə haqqında:

«...Ancaq Məmməd Əmin bu yığıncağa təsadüfi düşən sadə tamaşaçı kimi pərəstiş eyləmir, o bu heyətin fəal üzvü və Tağıyevin yaxın, xüsusi inandığı adam kimi məktubu xüsusi tonla, hisslə oxuyur».

Maraqlıdır, görəsən Hacı Zeynalabdin Tağıyevin yaxını olmaq günah işdirmi? Xalqın əlindən tutan belə xeyirxah adamları Məmməd Əmin Rəsulzadə həmişə qoruyub saxlayıb. Mirzə Davud Hüseynov kimi milli mənliyini itirənlər isə qocanı, ağsaqqallı, dövlətli, kasıb, kimi gəldisə gülləyə hədəf ediblər.

1916-cı il idi. «Açıq söz» qəzeti Azəri türklərinin ehtiyacından, dərdlərindən yazırdı. Qəzetin demək olar ki, hər nömrəsində Məmməd Əmin Rəsulzadənin məqaləsi çap olunurdu. İndi də Məmməd Əmin Rəsulzadəni Dövlət Dumasındakı vəziyyət narahat edir. Müsəlmanlardan ibarət deputat qrupunun müəyyən işlər görəcəyinə ümid var. Deputatlar da az fəallıq göstərmir. Müsəlman deputatlar Dövlət dumasında müxtəlif fraksiyaların—kadetlərin, oktyabristlərin, mərkəz qrupun yaratdığı «bloka» daxil olublar. «Blokun» qarşıya qoyduğu məsələ budur: ölkənin mərkəzləşdirilməsi üçün əhalinin əhvalını yüksəldib hökumətlə birləşmək lazımdır.

Məmməd Əmin Rəsulzadə müsəlman deputatların bu proqressiv əhvallı «bloka» daxil olmasını nəyə görə müdafiə edir? Səbəb budur: onların diqqətini müsəlmanların ehtiyaclarına yönəldib, müəyyən imtiyazlar əldə etmək, Rus ictimaiyyətinin «bloka» daxil olan bu açıq fikirli adamları, şübhəsiz ki, müsəlmanların müəyyən istəklərinə biganə qalmayacaqlar.

Məmməd Əmin Rəsulzadə bununla əlaqədar olaraq «Dövlət dumasının açılışı» məqaləsində yazırdı:

«...Müsəlmanlar nə istəyirlər?

İstəyirlər ki, müsəlman olduqlarına görə onları tapdalamasınlar. Onları müsəlman olduqlarına görə bürokratçılığa dözməyə məcbur etməsinlər.

Onların dili, dini hər cür təzyiqdən azad olsun.

Məgər müsəlmanların bu istəklərinin təmin edilməsi vətənin müdafiəsində dayanan və bundan sonra da hər vasitə ilə vətəni qoruyacaq vətəndaşların patriotluğuna mane olurmu?»

Məmməd Əmin Rəsulzadə Dövlət duması yolu ilə xalqa müəyyən hüquqlar verilməsi uğrunda öz yazıları ilə mübarizə aparırdı.

«Açıq söz» cəmiyyətin yaralarına toxunur, sağlamlıq, xilas olmaq yollarını göstərirdi. O əzilən, inildəyən müsəlmanın ağrısı ilə yaşayırdı. Qəzet istismarda olan Azəri türkünün səsini batmağa qoymur, ucaldırdı.

Məmməd Əmin Rəsulzadənin hürriyyət və millətçilik, türklük ruhu ilə yazılan məqalələri «Açıq söz»ün səhifələrini işıqlandırırdı.

«Açıq söz» artıq sarsılan, yıxılmağına cəmi bir il qalmış imperiya əsarəti ilə ciddi mübarizə aparırdı.

«Açıq söz» qəzetini xatırlayan adamlar həm də Məmməd Əmin Rəsulzadənin bütün ömrü boyu apardığı Azərbaycan davasının tərəfdarlarıdır:

**Süleyman Təkinər:**

«...«Açıq söz» bütün rus məhkumu türklərin də qurtuluş davasını təbliğ etmiş və yenə 1917-ci il ümumrusiya müsəlmanlarının Moskva konqresində onu müdafiə və qəbul etdirib, bütün məhkum türklərin qurtuluşunu hədəf tutmuşdur».

**Abdulla Battal Taymas:**

«M. Emin bəyi vaxtilə çıxarmış olduğu («Açıq söz») qəzetəsi vasitəsi ilə qiyabən də tanıyırdım. Bu qəzet kiçik həcmli olsa da, yeni bir ruh daşıyan fikir

qəzeti idi. Zəngin neft məmləkəti olan Bakıda «Həyat», «İrşad», «Təzə həyat», «İqbal» və bu kimi böyük həcmli qəzetlər də vardı. Ancaq bunlar «Açıq söz» kimi bir dava, bir əməl qəzeti sayılmazlardı».

**Mirzə Bala:**

«...Bu tərifə görə Rusiya imperatorluğu daxilindəki türklər, o cümlədən azərbaycanlılar, hakim rus millətiylə heç bir münasibəti və bağlılığı olmayan ayrı və müstəqil milli bir mövcudiyyətdir. Onlardan ayrı dilləri, ədəbiyyatları, xristianlıqdan başqa bir dinləri, adət və ənənələri, parlaq tarixi və mədəniyyət əsərləri ilə müstəqil milli varlıq olan bu türklərin qurtuluş davası Rəsulzadə tərəfindən toplu ələ alınmış və «Müsavat» partiyası ilə bu partiyanın orqanı olan «Açıq söz» qəzeti, bu hərəkatın ələmdarı olmuşdur».

**Abdul Vahab Yurdsevər:**

«Emin bəyin «Açıq söz»ü Azərbaycanda çıxan digər qəzetlərdən çox fərqli idi. Digər qəzetlərimiz ümumiyyətlə dini və bəzən də milli vəhdət fikri üzərinə məhəlli bir intibah hərəkəti vücuda gətirməyə çalışarkən, «Açıq söz» elmi bir tərzdə işlənmiş modern bir türkçülük cərəyanını təmsil ediyor və gərək siyasi, gərəksə ictimai sahələrdə açıq və mütəhhəs bir müğadilə proqramını irəli sürürdü.

Sırf gənc qələmləri yetişdirməkdən ötrü, Emin bəy «Açıq söz»də bir «açıq sütun» yeri ayırmışdı. Bu «açıq sütun» hal-hazırda məmləkət daxilində və xaricində Azərbaycan davasını sədaqətlə müdafiə edən bir çox mühərrirlərə məktəb vəzifəsini görmüşdür».

***

Ayağı çarıqlı, ürəyi atəşli Azəri türkü! Qəlb istəyinin həyatda işıqlanmağına az qalıb. Səni neçə illərdir ki, odlarda yandırıb cismini külə döndərən imperiya yıxılmaqdadır. Rişələri qırılıb çürüyən ağac torpaqda dayana bilərmi? Torpaq heç zaman zülm bitirmir! Torpaq toxum cücərdir. Qoynunda bəsləyib böyütdüyü toxumun qan hərisi kimi məzlumların canına daraşacağını hardan bilsin? Belə xəyanətkar bəhrə verən toxumun kökünü sonradan gec də olsa çürüdür torpaq.

...O gün yaxınlaşırdı. Xalqın qanını sorub işgəncə ilə içərisini dağlayan imperiya ağacı kökündən qopmuş halda yerə yıxılırdı.

Bu xəbəri eşitdiyi gün sevincindən qanadlanmışdı. Xalq əsarətin, istibdadın yırtıcı ağzından xilas olmuşdu. Türk xalqlarının qatı düşməni olan çar Rusiyası hökmranlığına son qoyulmuşdu. Üç yüz illik bir sülalənin hakimiyyəti bitmişdi. Bu əsarət qoxulu sülalənin qanlı qılıncı yüz ildən çox Azəri türklərinin başı üzərində oynamışdı. İmperiyanın qorxunc və heybətli toxumunu qanında gəzdirən bu çarlıq sülaləsi hansı oyunlardan çıxmamışdı? Necə qanlar töküb, faciələr törədib müstəmləkəçiliyini qoruyub saxlamışdı!

Budur, indi sona yetdi hər şey. Həyatda daimi nə var ki? İnsan da, hakimiyyət də, hökmranlıq da, yaxşı da, pis də hamısı bir gün gəlib axır nöqtəyə

çıxır. Zalım dünya yalnız «gəliş» tərəfdarı deyil ki, o «gedişi» də sevir, eyni məhəbbətlə də yola salır. Zalımlıq və qaniçənliyin qurtaracaq bir günü var. Amma insan, yazıq insan, dünyanın ömrüylə müqayisədə çox az yaşayan bu əzabkeş varlıq bir gün görə bilmir.

Düşünürdü. Qəribə hisslər, duyğular bürümüşdü içərisini. Eşitdiyi bu xəbər onu irəliyə, hələ qarşıdan tam çəkilib getməmiş qaranlıq duman qatını yox etməyə çağırırdı. Onu beş ildən çox böyüdüyü torpaqdan didərgin salan, günlərlə soyuq həbsxanada yaşadan bir rejim devrilmişdi. Amma çəkdiyi əzablara məhz bu günün şahidi olduğuna görə heyifslənmirdi. Daha da sevinirdi.

Məmməd Əmin Rəsulzadə çar imperiyasının yıxılmaq xəbərini eşidib sevinəndə 1917-ci ilin fevral ayı idi.

Elə həmin gündən «müsavatçı» dostlarını başına toplayıb qəti fikir irəli sürdü: Azərbaycana muxtariyyət verilməlidir. Bütün hüquqları indiyə kimi tapdanıb əlindən alınmış xalq muxtariyyət şəklində yaşamalıdır. Bu günə kimi yalnız milli mədəni hüquqlar qazanmağımız uğrundakı mübarizə indi milli-mahallı muxtariyyətlə aydınlaşmalıdır. Milli-mahallı muxtariyyət xalqı torpağının da sahibi edir.

**Bir şikayət.** Az sonra Məmməd Əmin Rəsulzadə bu işıqlı fikirlərinə görə hücumlara məruz qalacaqdı. Hələ yatmış, qəflət yuxusundan oyanmamış adamlar olacaqdı ki, onu günahlandıracaq, yeni tapdanmış hüquqların əldə olunması ilə kifayətlənmək istəyəcəkdilər. Bunu xalqın öz içərisindən çıxanlar edəcəkdi. Yuxarıdan çar imperiyasını devirib hakimiyyətə gəlmiş burjua-demokratik ruhlu ruslardan bir qrupu isə «bölünməz Rusiya»nı əllərində möhkəm saxlamağa çalışacaqdılar. Yeni hökumətin başında dayanan Kerenski ilə də çox sonralar ciddi mübahisələri olacaqdı. Sonrakı mühacirət dövründə Məmməd Əmin Rəsulzadə Kerenskini «Bölünməz Rusiyanı» müdafiə etməkdə günahlandıracaq, yazdığı əsərlərində onun ideyalarının müstəmləkəçilikdən başqa bir şey olmadığını sübuta yetirəcəkdi.

Onların arasında elə həmin ildən başlayan bu dava otuz ilə kimi davam edəcəkdi.

1917-ci ilin aprel ayında Bakıda Qafqaz müsəlmanlarının qurultayı oldu. Qurultay bütün Qafqaz müsəlmanlarının həyatında mühüm rol oynayan bir qərar çıxardı.

Bu haqda Məmməd Əmin Rəsulzadə özü belə yazırdı:

«—Bakıda nisanın 15-də ilk dəfə olaraq «qurultay namilə Qafqaziya müsəlman konqresi toplanıyor. Qurultay hər şeydən əvvəl və hər məsələdən daha qızğın bir surətdə azad Rusiyanın alacağı mətlub şəkli idarəni müzakirə etdikdən sonra aşağıdakı qərarı çıxarıyordu:

«A — Qafqaziya müsəlman qurultayı milli-siyasi məqsədə aid məsələni müzakirə edərək müsəlman qövmlərinin mənafeyini ən ziyadə təmin edən Rusiya

şəkli idarəsinin məhəlli federasion əsası üzərinə qurulu cümhuriyyət müctəmeyi-inam olduğunu qəbulə qərar verir».

«B — İslam dinində olan bütün qövmlərin ruhani və mədəni irtibatını nəzərə alaraq Qafqaziya müsəlman qurultayı bütün Rusiya müsəlmanları üçün vəzi qəvanin səlahiyyətinə malik ümumi bir idarə təşkilini lazım görür».

1917-ci ilin may ayı idi. Bakıdan hərəkətə başlayan qatar neçə gün idi ki, Moskvaya gedirdi.

Bu onun Moskvaya ilk gəlişi idi. Sonradan bu şəhərə yenə yolu düşəcək, hətta bir müddət burada mühacirətdə —nəzarətdə yaşamağa məcbur olacaqdı.

Sonralar həmişə nifrətlə yada salacağı, qızıl totalitarizmin yuvası adlandıracağı bu şəhərdə həmin ili mühüm bir qurultay keçirilirdi: Rusiya müsəlmanlarının qurultayı.

Bu qurultayda o, öz parlaq çıxışı, dərin zəkası, ağlı ilə hamını—qurultaya toplaşan 700 adamı heyrətdə qoyacaqdı. Əzilən müsəlman və türk dünyasının düşdüyü möhnət quyusundan çıxmaq və azad nəfəs almaq yolunu güclü məntiq və vahid ideya xətti ilə izah edəcəkdi. Qurultayda ona qarşı əks duranlar da olmuşdu. Yüzə kimi adam başqa mövqedə dayanıb, onun ideyasını qəbul etməmişdilər. Bəs nə deyirdi bu adamlar—islamçı-sosialistlər cəbhəsində duranlar hansı ideyanın tərəfdarı kimi çıxış edirdilər?

Bu adamlar yeniləşmiş Rusiyadan yalnız «milli-mədəni muxtariyyət» almaqla kifayətlənirdilər. Onların əqidəsincə Rusiya bu əsaslar üzərində, yəni bütün xalqlara öz mədəniyyətini, dinini inkişaf etdirmək imtiyazları vermək əsasında qurulmalıdır. Milli-mədəni muxtariyyətlə onlar kifayətlənirdilər.

Məmməd Əmin Rəsulzadə bu fikri qətiyyən qəbul etmirdi. O «milli-mədəni muxtariyyət» mübarizəsi dövrünün artıq ötüb keçdiyini yaxşı bilirdi. Çünki özü on beş illik siyasi mübarizəsində az belə tələblər irəli sürməmişdi. Xalqın doğma dilində məktəb açılması, qəzet, kitab çap edilməsi, fikir, düşüncəsinin boğulması halları ilə çox döyüşmüşdü. İndi yaxşı başa düşürdü ki, üç yüz illik bir monarxiya üsul-idarəsinin devrildiyi şəraitdə yalnız bu tələblə kifayətlənmək xalqın yenə əsarət altında inildəməyi deməkdir. Moskva Moskvalığında qalırdı. Dəyişən yalnız onun rəngi, bir də əyninə geydiyi paltar idi. İçəri hökmü, siyasəti yaşayırdı hələ. Məhkum xalqlar yenə onun tabeliyində can verirdi. Bəs əsarətdən qurtarmaq yolu nədən başlayırdı? Hansı yolla xalqı işığa çıxara bilərdi?

Torpaq, yalnız torpaq bu əsarətdən xalqı xilas edərdi. Torpağı özününkü olmayan xalq əsarət buxovundan da xilas ola bilməz. Xalq özü torpağını idarə etməlidir.

Bütün düşündüklərində və qəti proqram kimi irəli sürdüyü bu fikirdə «vahid və müstəqil Azərbaycan» ideyası formalaşırdı. Növbəti atacağı addım Rusiyadan tam ayrılıb müstəqil yaşayan «Azərbaycan» olacaqdı.

Hələlik bu işıqlı ideyasını muxtariyyət qazanmaqda görürdü.

«Müstəqil Azərbaycan» fikrini indi ortalığa atmaq olmazdı. Bundan ötrü hələ şərait yaranmamışdı. İndidən yatmış şiri oyadıb onu xalqın üstünə salmaq ağılsızlıq idi. Şirin içərisindəki «parçalamaq, hökm sürmək» istəyi ölüb getməmişdi. Şir təhlükəlidir, çox təhlükəlidir. Onunla oynamaq olmaz. İndiki şəraitdə şiri yalnız təmkinlə, yumşaq tədbirlə yola gətirmək lazımdır.

Ağıllı, siyasətcil adam idi. Hadisələrin gedişini izləyib məntiqi əsaslar çıxarmağı bacarırdı. Müxtəlif yerlərdə keçdiyi siyasi mübarizə məktəbi onu möhkəmləndirmişdi.

Hələ 1917-ci ilin mart ayında çar hakimiyyəti devriləndən az sonra Daşkənddəki dostlarından birinə məktub yazmışdı. Məktubda yazdığı sözlər onun uzaqgörən siyasətindən, bütün türklərə istiqlaliyyət qazandırmaq istəyindən xəbər verirdi. Məktubda yazırdı: «Bizim türklük davamızla birlikdə bir də Qafqasiya məsələsi vardır. Onsuz ötüşə bilmərik. Məsələ Rusiyanı parçalamaqdan ibarətdir. Ondan sonra biz özümüzü və bir-birimizi taparıq».

1917-ci ilin martında yazdığı məktubda Məmməd Əmin Rəsulzadə məntiqi siyasət irəli sürürdü: Rusiyanı parçalamaq! Bəs necə parçalamaq? Rusiyanı güc və zorla dağıtmaq mümkün deyil. Burda yeganə yol onu xalqlara muxtariyyət verməyə məcbur etməkdir. Ayrı-ayrı xalqların muxtariyyət şəklində yaşaması Rusiyanın parçalanmasına və tezliklə məhkum xalqlar üzərindəki ağalığına son qoyur.

...Buna görə də Rusiya İsveçrə sistemi halında ayrı-ayrı milli dövlətlərdən ibarət federativ bir cümhuriyyət olmalıdır. Məmməd Əmin Rəsulzadə Qafqaziya müsəlmanlarının Moskva qurultayında irəli sürdüyü bu fikrin qələbəsinə də nail oldu. Qurultayda iştirak edən 700 nümayəndədən 600-ü onun «muxtariyyət» ideyasına səs verdi. Qalan yüz nəfər isə razılaşmayıb etiraz etdilər. Səs çoxluğu ilə Məmməd Əmin Rəsulzadənin təklifi qəbul olundu.

Qurultayda onun fikrinə qarşı çıxıb, «milli dövlətlərə bölünmək Rusiya müsəlmanlarını parçalayacaq» fikrini ortaya atanlara Məmməd Əmin Rəsulzadə belə cavab vermişdi:

«—Bu hərəkət türk-müsəlman birliyini parçalamayacaqdır. Milli dövlətinə qovuşacaq olan hər bir türk eli coşğun bir türk irmağıdır. Bu irmaqlar yenə türklük dənizinə qədər axacaq və orda birləşəcəkdir.

Biz türkük və türklərin oğullarıyıq. Böylə olduğumuz üçün qürur duymalıyıq. Biz türkün mənliyindən bir türk kulturu yaratmaq istəyirik. Buna məcburuq. Rusiyadakı 30 milyon müsəlmandan 29 milyonunun türk olduğunu unutmamalıyıq. Rusiyadakı türk xalqı yüz illərdən bəri bölünmüşlərdir. Fəqət indi sadə birləşmə istəyində deyil, eyni zamanda öz milli mövcudiyyətini qəbul etdirmək istəyində olan niyyətlərini hayqırmaqdadırlar».

Qurultayda Məmməd Əmin Rəsulzadənin çıxışı alqışlarla qarşılandı. Bir qırğız şairi isə ona məhəbbətini bildirib çıxışına şer qoşdu.

Məmməd Əmin Rəsulzadənin Moskva qurultayında irəli sürdüyü daha bir fikir də hamının ürəyincə idi: Azərbaycan, Qafqaziya, Türküstan, İdil-Ural, Krım və Sibir türklərini birləşdirəcək bir türk federasiyonu yaratmaq.

Həmin o qurultayın iştirakçılarından biri olan professor Zəki Vəlidi Toğan sonradan bu sözləri yazırdı:

«...15—20 gün sonra Daşkənddən Moskvaya gəldik. Orda toplanan ümumrusiya müsəlmanları qurultayına azərbaycanlı Əli Mərdan bəy Topçubaşov rəyasət ediyordu. Emin bəy qonuşuyordu. Bütün konqreyə azərbaycanlıların hakim olduğu görünür və Azərbaycan liderlik edirdi. Emin bəyin sıx-sıx alqışlanan qayət sarih və sarih olduğu qədər də beliğ və həyəcanlı danışması 700 kişilik konqre əzasından 600-nü onun proqramı ətrafında birləşdirdi. Əgər 700 kişi içərisində Emin bəy və arkadaşları olmasaydılar, konfrans istiqlal və muxtariyyət tezisinə rəy verməzdi».

Rus məhkumu millətlərin qurtuluş liderlərindən biri olan Cəfər Seyidəhməd Krımər sonralar Məmməd Əmin Rəsulzadəyə göndərdiyi bir məktubda o hadisəni belə xatırlayırdı:

«Sizi şəxsən 1917-də, Moskva Konqresində tanımaq bəxtiyarlığına nail olmuşdum. Bütün Rusiya müsəlmanlarının xatirəsini daima rəhmətlə anacağı Əli Mərdan bəy Topçubaşovu da hörmətlə orada salamlamışdım. Bilxassə, Azərbaycanımızın siz əziz övladları, o qurultayın düşüncə və həyəcanına ən qüvvətli təsir göstərdiniz. Başçılıq etdiyim Krım heyəti də o dövrdə, sizlər kimi Rusiyanın federasion əsasında qurulmasına tərəfdardı. Bu görüş birliyi tezisimizi ən müvəffəqiyyətli şəkildə azərbaycanlı qardaşlarımızın təsbit və sizin ən yüksək həyəcan, müstəsna bir bəlağətlə müdafiə etmiş olmanız o sırada açıq ifadə edilməmiş olmasına rəğmən «Türk yurdu» ilə təşriki məsainizdən türkçülüyünüzə inanmış olan məni sizə yalnız fikrən deyil, ruhən də, qəlbən də bağlamışdı».

Qurultaydakı çıxışdan sonra Məmməd Əmin Rəsulzadə Rusiyadakı bütün türklərin hörmət və nüfuzunu qazanır. Elə bunun nəticəsi idi ki, Məmməd Əmin Rəsulzadə həmin ili Azərbaycan və Türküstandan Rusiya parlamentinə millət vəkili seçilir.

Məmməd Əmin Rəsulzadə bütün Rusiya əsarətində məhkum olan türklərin istiqlaliyyəti uğrunda çalışırdı.

**Bir xatirə.** Bir gün gələcək, Məmməd Əmin Rəsulzadə işıqlı həyatdan köçəcək. Həmin o matəm günündə İstanbul qəzetlərindən biri Məmməd Əmin Rəsulzadənin bütün əzilən türklərin qızğın mülafiəçisi olub, ömrünün sonuna kimi bu yolda mübarizə apardığını belə yazacaqdı:

«Məmməd Əmin Rəsulzadə rus əsarətindəki türklərin qurtulub birər milli dövlət quracaqları haqqındakı tezisini ideologiya halına gətirmiş və bütün ömrünü bu qayəyə həsr etmişdir».

Rus əsarətindəki türklərin yüksək inamını və məhəbbətini qazananda onun otuz üç yaşı vardı.

**«Müsavat»ın səsi.** Yaşıl ümidli «Müsavat» işləyirdi. Xalqın azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsinin işığına çevrilmişdi. Çar təqiblərindən yaxa qurtaran «Müsavat» indi açıq fəaliyyət göstərirdi.

Gəncədə isə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi «Türk ədəmi mərkəziyyət» partiyası böyük nüfuza malik idi.

Məmməd Əmin Rəsulzadə Nəsib bəy Yusifbəylinin bir neçə il əvvəldən— Nəsib bəy Gəncə bələdiyyə idarəsində çalışdığı zamanlardan tanıyırdı. Nəsib bəy dövlət işi ilə bağlı hər dəfə Bakıya gələndə «Açıq söz» qəzetinə baş çəkər, onunla görüşərdi. Nəsib bəyə milli qeyrətli, yüksək savadlı ziyalı olmasına görə böyük hörməti vardı. Nəsib bəy Bağçasarayda çıxan «Tərcüman» qəzetinin redaktoru İsmayıl bəy Qaspirallının qızı Şəfiqə xanımla evlənmişdi.

1917-ci ilin aprel ayında Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirilirdi. Qurultayda aralarında bir söhbət oldu. Razılığa gəldilər ki, «Müsavat»la «Türk ədəmi mərkəziyyət» partiyası birləşsin...

Məmməd Əmin Rəsulzadə bu partiyaların birləşdirilməsi işini Məmməd Əli Rəsuloğlu ilə Abbas Kazımzadəyə tapşırdı.

Məmməd Əli Rəsuloğlu xatırlayırdı:

«Türk ədəmi mərkəziyyət» partiyası ilə «Müsavat» partiyasının birləşməsi məsələsinin Nəsib bəylə görüşüb həll edilməsini Emin bəy Abbas bəylə mənə həvalə etdi. Nəsib bəylə bir mehmanxanada qaldıq. Bir sıra müzakirədən sonra bu iki partiyanın birləşməsi qərarını verdik. Partiyanın adı haqqında Nəsib bəy partiya adının «Türk ədəmi mərkəziyyət firqəsi müsavat» qoyulmasını təklif etdi, biz də qəbul etdik. Söhbət arasında Nəsib bəy: «Bu qədər uzun sözü kim söyləyəcək, ilk zamanlarda bu ad böylə gedər, bizim arkadaşlarımız da məmnun olarlar. Zaman keçdikcə qısalaraq «Müsavat» partiyası adını alar dedi. Həqiqətən də öylə oldu».

**Nəsib bəy Yusifbəylinin partiyası haqqında.** Hələ 1906-cı ildə Gəncədə «Dram cəmiyyəti» adı ilə gizli bir təşkilat yaradılmışdı. 1917-ci ilə kimi fəaliyyət göstərən bu təşkilat çarın devrilməsindən sonra «Ədəmi mərkəziyyət» adı ilə açıq fəaliyyətə başlamışdı. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi bu partiya fəaliyyətində hansı prinsipi əsas götürmüşdü? Partiyanın əsas məqsədi rus məhkumu olan türk ellərinin geniş məhəlli muxtariyyət qazanmağı idi. Partiya bununla əlaqədar Gəncədə böyük işlər görürdü. Həmin vaxtlar partiyanın işinə mane olan bir çox qüvvələr vardı. Ermənilər ruslarla dil tapıb (həmişə olduğu kimi) bir qrup yaratmışdılar. Sosialist əhvallı digər qüvvələr də «Türk ədəmi mərkəziyyət firqəsinə» qarşı mübarizə aparırdılar. Bunların içərisində ən qorxulu mövqe tutanı bir qrup qatı dindar idi. Onlar hər vasitə ilə Nəsib bəyi və onun partiyasını ləkələyib xalqın gözündən salmağa çalışır, belə şayiələr yayırdılar: «Nəsib bəy bir kitab yazaraq (firqə proqramına işarə edilirdi) bu kitabda artıq Qurani-Kərim əskimiş, şəriət bizi idarə edə bilməz deyir».

Qatı dindarları müdafiə edənlər də çoxdu. Əksəriyyəti belə fikir irəli sürürdü ki, əgər rus idarəsi yıxılıb dağılıbsa onda işlərimizi şəriətə görə aparaq.

Nəsib bəy bu çətin vəziyyətdən çıxmaq yolunu tapmışdı. Və demişdi ki, bundan sonra siyasət adamları din işlərinə, dindarlar da siyasət adamlarının işinə qarışmasın. Nəsib bəyin bu təklifi qəbul edilmişdi.

Məmməd Əmin Rəsulzadə dostu Nəsib bəyin çətinliklərini, hansı qüvvələrlə toqquşub, sıxıntılar keçirdiyini yaxşı bilirdi. Sonradan vətənindən didərgin düşəndə, azad Azərbaycan hökumətinin bütün rəhbərləri dünyaya göz yumanda, yalnız o sağ qalanda dostu Nəsib bəy Yusifbəylinin ölüm günündə xatirəsini yada salmaq üçün hər il Ankaradakı milli kultur mərkəzinə gələcək, Azəri gənclərinə «müsavatçı» dostundan ağrı və səmimiyyətlə danışacaqdı. Məqalələrinin birində isə Nəsib bəyin Gəncədəki o çətin, amma şərəfli fəaliyyətindən belə yazacaqdı:

«Nəsib bəyin Azərbaycan istiqlalındakı və istiqlal hərəkatındakı rolu sadə nazirliklə və baş vəkalətdə bulunduğunu söyləməkdə ifadə edilə bilməz. Onun hərəkatındakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox daha əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-ci ildə «Türk ədəmi mərkəziyyət xalq firqəsi» namiylə təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlayır. Azərbaycan ideyasını siyasi bir mətləb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir».

1917-ci ilin iyun ayında «Müsavat» partiyası ilə «Türk ədəmi mərkəziyyət» partiyası birləşib «Türk ədəmi mərkəziyyət partiyası müsavat» adlandı. Partiyanın mərkəzi Bakıda qaldı. Gəncədə isə bir şöbə olaraq fəaliyyətini davam etdirdi. Birləşmiş «Müsavat» partiyasının birinci qurultayını keçirib yeni proqramını qəbul etmək lazım idi.

Məmməd Əmin Rəsulzadəni indi ən çox narahat edən «Müsavat»ın iş xəttini dəyişən zamana uyğunlaşdırmaq idi.

«Müsavat» partiyasının ilk qurultayı 1917-ci ilin oktyabr ayında oldu. Qurultayda 500-ə yaxın nümayəndə iştirak edirdi. Qurultay 76 maddədən ibarət partiyanın yeni proqramını qəbul edirdi. Partiyanın proqramında bu məsələlərə üstünlük verilmişdi: 1) Dövlət və muxtariyyət; 2) Milli məsələlər; 3) Dini məsələlər; 4) Həqqi əhliyyət; 5) İqtisad və maliyyə işləri; 6) Torpaq məsələsi; 7) İşçi məsələsi; 8) Ədliyyə məsələsi.

«Müsavat»ın proqramında dövlət və muxtariyyət təşkilati məsələsi kəskin olaraq bu şəkildə qoyulmuşdu:

«Rusiya dövlətinin şəkli idarəsi, milli-məhəlli muxtariyyət əsası üzərinə qurulu xalq cümhuriyyətindən ibarət olmalıdır».

«Müsavat» partiyasının proqramı böyük tərəqqi və inkişaf proqramına bərabər idi. Burda illərdən bəri əsarətdə çırpınan xalqın arzu və istəkləri, yaşamaq haqqı, elm, bilik qazanmaq cəhdi qabarıq şəkildə verilmişdir.

..Beş yüz adamın iştirak etdiyi «Müsavat» partiyasının birinci qurultayında otuz üç yaşlı Məmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçilir.

İslami əsaslı müsavata türkçü bir quruluş verən Məmməd Əmin Rəsulzadə lideri seçildiyi partiyanın qurultayında deyir:

«Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşhis edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən bütün türklər bir millətdir. Təbii milli olduğu, milliyyətində yalnız dinlə deyil, başlıca din üzərinə müstənit hərsən təəssüs eylədiyi qənaətiylə biz bu günkü haliylə müttəfiq bulunan geniş türk dünyasının bir gün gəlib müttəhit və müttəfiq bir türk aləmi təşkil edəcəyinə inanırıq.

Milli istiqlala malik olmayan bir millət, hürriyyət və hərsini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal».

...Amma dünya dəyişmişdi.

«Müsavat»ın birinci qurultayının keçirildiyi vaxtda, istiqlaliyyət və hürriyyətə doğru daha inamlı addımlar atıldığı zamanda xalqın bütün istək və arzularını boğub məhv edəcək bolşeviklər hakimiyyətə gəlmişdi.

Kerenski hökuməti yıxılmış, Lenin hökmranlığa başlamışdı.

İlkin zamanlar Lenin hökuməti yağlı vədlər verir, məzmununa özünün heç zaman əməl etmədiyi dekretlər qəbul edirdi. Nəzəriyyədə hər fikri gözəl səslənən Lenin siyasəti həyatda tamam başqa şeyləri deyirdi. Xalqlara azadlıq vəd edən Lenin hökuməti əslində istismar və ətalətin yeni formasına — terror, qətl yolu ilə hakimiyyəti möhkəmlətməyə keçmişdi. Sakit və təmkinlilikdən uzaq olan, yalnız qışqırmağı, başaldadan, «eşq olsun», «urra» sədalarına üstünlük verən bolşeviklər Leninin liderliyi ilə adına «proletar, fəhlə, kəndli hökuməti» deyilən bir quruluşun möhkəmləiməyinə çalışırdılar.

Bolşeviklər qorxunc bir ideya ilə silahlanmışdılar. «Proletar və fəhlə-kəndli hakimiyyəti» adı altında gizlənib özlərinin hegemonluqlarını yaradırdılar. Sonrakı həyat təcrübəsi göstərdi ki, bu adamların əsas məqsədi əslində hakimiyyətə çatmaq idi. Əgər onların niyyəti azad və demokratik prinsiplərə əsaslanan quruluş yaratmaq idisə, onda nəyə görə «hegemonluq, vahid partiyalılıq, yuxarıdan idarə» ideyalarını irəli sürürdülər. Cəmiyyətin inkişafına, tərəqqisinə təkan verən qarşıdurmadan, fikir müxtəlifliyindən qaçır, uzaqlaşırdı bolşeviklər. Fikir ayrılığı olan yerlərdə güclü terror tətbiq edirdilər. İnsanların beynini yalançı vədlərlə, «işıqlı kommunizm»lə zəhərləyib özlərinin istismar alətinə çevirirdilər. İnsan ölümü onlardan ötrü adi yaşayış norması idi.

Axan günahsız qanların, həyatına qəsd edilən minlərlə insanın faciəsi Leninin öz qəddar xarakterindən baş alıb gəlirdi.

Məmməd Əmin Rəsulzadə Lenin başda olmaqla bolşeviklərin qorxunc oyuna başladıqlarını bilirdi. Bu oyunun ilk təhlükəsi erməni Şaumyanın noyabr ayında Bakıda yaradılan Bakı Xalq Komissarları Sovetinə sədr seçilməsi idi. Belə alınırdı ki, Bakı Petroqrad bolşeviklərinin—Lenin hökumətinin sərəncamına keçirdi.

Bolşeviklər vəziyyəti bir də onunla gərginləşdirmişdilər ki, hakimiyyəti ələ aldıqları gündən Kerenski dövründəki parlamenti buraxmış, hər yanda özbaşınalığa imkan yaratmışdılar. Belə vəziyyətdə onlar yalnız Bakının üzərində hakimiyyətlərini qurmağa çalışırdılar.

Məmməd Əmin Rəsulzadəni bir məsələ də narahat edirdi. Şaumyan hökuməti Bakıda fəaliyyətə başladığı gündən erməni daşnakları ilə sıx əlaqəyə girmişdi və silahlı ermənilərin şəhərdə sayı getdikcə çoxalırdı. (Bu çoxalmanın qanlı partlayışı bir neçə aydan sonra olacaqdı).

«Şaumyan hökuməti» bütün qüvvəsi ilə Azərbaycanın az əvvəl irəli sürdüyü «muxtariyyət» fikrini qəbul etmir, hətta buna istehza ilə yanaşırdı. Qurulan bu hökumət Bakının bütün sərvətinin Petroqrada daşınmasına xidmət edirdi.

Şəhərdə vəziyyət çox gərgin idi. Demək olar ki, ikihakimiyyətlik yaranmışdı: Bir yanda şəhər bələdiyyə idarəsi, digər tərəfdə «Şaumyan hökuməti» hökmranlıq edirdi. Köhnə hökumətdən qalan rus əsgərləri də yerli əhaliyə—azərbaycanlılara nifrət ruhunda idi. Bakı, başda Şaumyan olmaqla erməni daşnakların tabeliyinə keçirdi.

Məmməd Əmin Rəsulzadəni ən çox ağrıdan «bolşevik» ruhlu azərbaycanlıların Şaumyanın oyunlarına göz yumub ona inanması idi. Görən bu bolşeviklər erməni daşnakların silahlanıb Bakıda çoxaldığını görmürdülərmi?

Bakı təhlükədə idi.

Bir qorxulu vəziyyət də vardı. Belə şəraitdə gürcülər, ermənilər öz ordularını yaratdıqları halda, azərbaycanlılar kənarda qalmışdılar. Bunun da səbəbi azərbaycanlıların əsgərliyə götürülməməyi idi.

Bakının vəziyyəti ağır idi. Leninin ruhlandırdığı Şaumyan silahlı erməniləri başına toplayırdı.

Məmməd Əmin Rəsulzadə sonradan Bakının üzərində hökmranlıq qılıncı tutan Lenin—Şaumyan oyununu belə xatırlayacaqdı:

«...Qəribədir ki, «Müsavat» məfkurəsinə qarşı bu surətlə təhdidkar bir vəziyyət alan bolşevik hökumətinin Mavərayi-Qafqaziya mümməssili Şaumyanın cibində rus işğal ordusunun təxliyə edilən Türkiyə ərazisi üzərində erməni muxtariyyətinin elanına aid Lenin imzası ilə mumzi bir dekret bulunuyordu. Bu dekretlə Şaumyan əsrlərdən bəri məzlum erməni millətinin bəklədiyi amali-milliyyəni qüvvədən felə çıxarmaq üçün erməni müəssisə və təşkilatına yardım etməklə müvəzzəf idi».

**Qorxulu Şaumyan.** Şaumyan türk qanına həris bir erməni idi. Bütün ermənilərə məxsus keyfiyyətlər onda da cəmləşmişdi: xəyanətkarlıq, türk millətinə nifrət, qorxaqlıq, özündən güclüyə yaltaqlanmaq, Rusiyanın «könüllü» qulu olmaq. Şaumyan heç də sonralar Mikoyanın və bəzi millət qanını itirib xalqına düşmən çevrilmiş azərbaycanlı bolşeviklərin deyib təbliğ etdiyi «Bakı proletariatının xilaskarı» deyil, Azəri türklərinin qaniçəni idi. Şaumyan ermənilərə məxsus taktika ilə mübarizəyə başlamışdı. Hər şeyi təmkinlə edir, rusun xoşuna gəlmək

mövqeyindən, eyni zamanda «məzlum ermənilərə» nə isə qazandırmaq istəyindən çıxış edirdi. Üzünə gizli niqab çəkmiş bu qorxulu erməni hələ 1903-cü ildə Leninlə ilk dəfə görüşəndə içərisində bir ümid işığı yaranmışdı: Leninin ətəyindən möhkəm yapışmaq. Çünki o, Leninin sərsəm fikir və düşüncələrində ermənilərə çox şey qazandıracağını düşünürdü. Doğrudur, çar Rusiyası ermənilərə az himayədarlıq etmirdi. Amma bu quruluş sarsılmağa doğru gedir və arxalanmalı qüvvə Lenindir.

Təsadüfi deyil ki, Şaumyan öz hiyləgər fikirlərini, çarlıqdan tam ümid gözləmədiyini sonradan «Bakının erməni fəhlələrinə» məktubunda belə yazacaqdı:

«—23 il bundan əvvəl müəllimimiz Fridrix Engels bir nəfər erməni xadiminə məktubda yazmışdı ki, erməni xalqının azadlıq gəmisi öz məqsədinə çatmaq üçün gərək türk despotizminin sitsillası ilə rus despotizminin xarabası arasından çox ehtiyatla keçsin».

Şaumyan başqa erməni həmfikirləri kimi özünü Rusiyanı türklərdən qorumağa çalışan kimi göstərir. Bakıda tökdüyü nahaq qanlardan, minlərlə günahsız azərbaycanlının qətlindən sonra Rusiyaya məktublarının birində «əmi» adlandıracağı Leninə sevinclə belə bir teleqram da vuracaqdı: «Türkiyənin Bakı mərkəzini dağıtdıq».

Şaumyanda ermənilərə məxsus olan rusa yaltaqlanmaq hissi çox güclü idi. Mənliyini istənilən zaman ayaq altına salıb kiməsə «əmi», «dayı» deməyi və bununla yerini möhkəmlətməyi bacarırdı. Bütün ömrü boyu Leninin icraçı quluna çevrilən Şaumyan öz himayədarına, türk torpaqlarının ermənilərə verilməsində ona köməklik göstərəcəyinə razı olmuş adama və onun həyat yoldaşı Krupskayaya necə də yaltaqlanıb «əmi», «bibi» deyirdi: «Əziz bibi və əmi!

Sizin məktublarınız, məsləhət və göstərişləriniz həmişə mənim üçün hər şeydən əziz olmuşdur.

Bibi, sizin məktubunuz o qədər qarmaqarışıq yazılmışdır ki, mən ondan heç nə başa düşmədim. Əgər elə zəruri bir şey vardısa, gec deyilsə, xahiş edirəm təkrar edin. Çox təəssüf ki, belə oldu»,

Xəyanətkar Şaumyan «əmi»sinə, «bibi»sinə arxayınlaşıb çox fitnələr törədirdi. «Əmi»si onun bu yaltaqlıq və sədaqətini sonradan boş qoymayacaqdı. Onu istəyinə çatdırıb «məzlum xalqına» Azərbaycan torpaqlarını bəxşiş edəcəkdi.

Məmməd Əmin Rəsulzadə bu fitnəkar ermənini hələ çoxdan—1905-ci ildən tanıyırdı. Onun hansı əqidəyə malik olduğunu da yaxşı bilirdi. Hələ 1918-ci ildə Şaumyan onunla görüşüb qurduğu «oyuncaq» hökumətdə iştirakını təklif etmişdi. Məmməd Əmin onun istəyini rədd etmişdi. Əvvəla, yaxşı başa düşürdü ki, Şaumyan onu və «müsavat»ı istədiyindən bu təklifi etmir, məqsədi başqadır. Şaumyan «müsavat»ın xalq arasında geniş nüfuzundan çəkinir və bu qüvvənin təhlükəsindən sovuşmaq istəyirdi. Məmməd Əmin yaxşı dərk edirdi bu bic ermənini. Xəyanətkar Şaumyan şübhəsiz ki, Məmməd Əminə bu təklifi edəndə böyük bir inam hissi duymuşdu. Və Məmməd Əmini də o biri azərbaycanlı bolşevikləri —Nərimanovu, Əzizbəyovu aldatdığı kimi azdırıb yoldan çıxaracağını

düşünürdü. Amma fikrində bərk yanılmışdı Şaumyan. İndi o beyni, əqidəsi, millətinin varlığından uzaq, Leninin ətəyindən yapışıb ayağı dəyən yeri öpməyə hazır olan azərbaycanlı ilə yox, bütün türk dünyasının istiqlaliyyət və azadlığını hər istəkdən üstün tutan saf bir Azəri türkü ilə qarşılaşmışdı.

Şaumyan elə ilk söhbətdən Məmməd Əmin Rəsulzadənin ona «çəkilin Bakıdan gedin» fikrini çatdırmaq istədiyini anladı.

Məmməd Əmin Rəsulzadə həmin o qarışıq dövrdə — Oktyabr inqilabı deyilən çevrilişdən az sonra, noyabrın 15-də Şaumyanın Bakıda Qafqazın fövqəladə komissarı təyin olunduğunu görəndə daşın hansı məqsədlə atıldığını bilmişdi.

**Bir ağrı.** Hadisədən üç il sonra «Lenin-Şaumyan» oyununun əsl mahiyyəti açılacaqdı. Məlum olacaqdı ki, Leninin Şaumyanı Bakıya göndərməkdə başlıca məqsədi erməniləri, rusları türklərin bu iri sənaye şəhərinə doldurub «Türkiyə təhlükəsini» boğmaq və bir də neftə sahib olmaqdır. «Lenin-Şaumyan» oyununun bu fırıldaqçı niqabını yırtan isə Stalinin Məmməd Əmin Rəsulzadə ilə 1920-ci ilin noyabrında həbsxanadakı söhbəti oldu. Leninin bütün sirlərini və əsl simasını yaxşı bilən Stalin köhnə mübarizə dostu Məmməd Əmin Rəsulzadəyə həqiqəti deyir: «Bəli, haqlısınız, biz 1918-ci ildə buraya Şaumyanı göndərməyəcəkdik».

Şaumyan açıqdan-açığa Məmməd Əmin Rəsulzadənin və «müsavatçıların» üzərinə hücuma keçmişdi. «Əmi»sinin — Leninin Rusiyadan göndərdiyi silahlarla erməniləri silahlandırıb Bakının küçələrində gəzdirən Şaumyan əməlli-başlı azğınlıq edirdi.

Əli Mərdan bəy Topçubaşovun həmin o dövrdə dediyi bir söz Şaumyana çox təsir etmişdi. Bu sözdən içərisinə qorxu alovu dolmuş və həmməsləklərinə guya «ürək-dirək» verirmiş kimi demişdi:

«...İş nə yerdədir? Yoxsa sizi «gəlmələrin» müsəlman səltənətində ağalıq etməsinə yol verməyəcəyi ilə müsəlman bəyləri və kapitalistləri adından hədələyən c. Topçubaşov qorxutmuşdur?».

Şaumyanı ən çox qorxudan «müsavat» idi, onun lideri Məmməd Əmin Rəsulzadə idi. Bu ad onu həmişə qorxuya salır, həyəcanlandırırdı. Uşaqlıqdan «ağlama, türklər səsini eşidib qulağını kəsər» hədəsi ilə böyüyən Şaumyan Məmməd Əminin İran inqilabından keçdiyini, Türkiyə havasını udduğunu, milli qeyrətli coşğun bir Azəri türkü olduğunu yaxşı bilirdi. Başa düşürdü ki, Məmməd Əmin Rəsulzadə Leninin «proletariata azadlıq» ideyasının torunda çırpınan Nərimanovla, Əzizbəyovla və başqa aldanmış azərbaycanlılarla müqayisə edilə bilməz. Məmməd Əmin Rəsulzadə xalqın nicat yolunu Leninin ətəyində, Rusiyanın boyunduruğunda deyil, xalqın özündə tapırdı. Mübarizə yolunda sərt idi, möhkəm idi Məmməd Əmin. Şaumyan düşünürdü, fikirləşib çirkin əməlləri qarşısında qüvvətli sədd kimi dayanmış bu adamdan xilas yolu axtarırdı. Bu işdə ilkin addım «əmi»sindən —Lenindən öyrəndiyi təcrübə idi: yəni «əzilən fəhlə»nin, «əzilən xalqın» adından danışmaq.

...Məmməd Əmin Rəsulzadəyə ilk hücumunu belə başlayır Şaumyan:

«...Tutaq ki, Rəsulzadənin özü inqilabi qayda-qanunun bərpası naminə milli polkların təşkilində şəxsən iştirak etsin, tutaq ki, onun subyektiv niyyətləri büllur kimi safdır, lakin obyektiv surətdə onun fəaliyyəti əks nəticə verəcəkdir. Ona görə ki, sinfin siyasəti bu və ya digər şəxsiyyətin yaxşı niyyətlərindən deyil, sinfi mənafelərdən irəli gəlir.

Elə buna görə də «Müsavat» partiyasının nə kimi proqramı olmasına o qədər də əhəmiyyət vermirik».

Şaumyan getdikcə səsini ucaldır, Rəsulzadənin mövqeyini sarsıtmağa çalışır. Məmməd Əmin Rəsulzadənin «biz müsəlmanların muxtariyyəti olmayacaqdır» fikrinə qarşı özünün əsassız, məntiqsiz sözlərini deyir. Məmməd Əmin Rəsulzadə haqlı olaraq yazırdı ki, indiki Rusiyanın siyasəti bizim muxtariyyət qazanmaq istəyimizlə uyğun gəlmir. Buna görə də bu işdə tam inadkarlıq isə bizə olsa-olsa bir yığın xarabalıq verə bilər.

Şaumyan boş-boşuna hay-küy qoparırdı:

«...Yox, vətəndaş Rəsulzadə, Qafqazı xarabalığa biz deyil, siz çevirəcəksiniz. Siz artıq onu xarabalığa çevirirsiniz».

Məmməd Əmin Rəsulzadə «Lenin-Şaumyan» oyununun, bolşevik siyasətinin məkrli olduğunu, ermənilərin mənafeyinə xidmət etdiyini faktlarla sübuta yetirir.

Şaumyan isə əsəbiləşir, narahat olur ki, Məmməd Əmin Rəsulzadə yatan xalqı oyadır, çirkin işlərinin həyata keçməyinə mane olur. Deyir:

«Vətəndaş Rəsulzadə, sizə elə gəlir ki, bolşeviklərin Ermənistana və azərbaycanlılara münasibəti müxtəlifdir. Lakin siz dərindən və çox yanılırsınız».

Şaumyan gəmidə oturub gəmiçi ilə savaşırdı. Bu ikiüzlü erməninin necə həyasız xarakterə malik olduğunu Məmməd Əmin Rəsulzadə nifrətlə düşünürdü. Bakıda müəyyən qayda-qanun yaratmaq fikrini irəli sürən müsavatçılara və xüsusilə də ona qarşı Şaumyan qaraçılıq edib deyirdi:

«...Vətəndaş Rəsulzadə, indi sizin üçün də aydın olmalıdır ki, «qayda-qanun» deyəndə siz məhz burjua-mülkədar «muxtariyyət»ini, burjua Romanov qayda-qanunu nəzərdə tutursunuz. İndi sizin üçün də aydındır ki, siz polkları şahsevənlərə qarşı mübarizə üçün təşkil etmirsiniz, çünki onlar heç də sizə «bir yığın xarabalıq bahasına» qayda-qanun yaratmaqda mane olmurlar, əksinə bir yığın xarabalığın köməyi ilə öz qayda-qanununuzu yaratmaqda yardım göstərirlər».

Şaumyan açıqdan-açığa Bakını ermənilərin tam hakimiyyətinə salırdı. Yəqin ki, ermənilərin hamısının içərisində boş bir istək alovlanırdı: Böyük Ermənistan planımız baş tutur, Bakı əlimizə keçir.

Lakin müsavat işləyirdi. Məmməd Əmin Rəsulzadənin liderlik etdiyi bu milli ruhlu partiya əldən alınmış Bakını qaytarmaq, erməni və rus tör-töküntülərindən təmizləmək yollarını düşünürdü.

Azərbaycanlı bolşeviklər isə qardaşlığı, dostluğu təbliğ edir, Şura hökuməti romantikasından danışırdılar. Erməni və rusun bolşevizm libasına bürünüb Azərbaycan xalqına balta çaldığını yalnız ömrünün sonlarında başa düşən Nərimanov həmin qorxulu şəraiti belə «izah edirdi»: «Burda qalan rus, erməni, gürcü fəhlələri ilə birləşib bolşeviklərin məramnaməsi ilə hərəkət ediniz. Yoxsa bu «millətpərəstlər» sizləri bir-birinizdən ayırıb qüvvətinizi azaldacaqlar və bununla da sərmayədarlar üçün geniş meydan açacaqlar...».

O, bu sözləri yazanda 1918-ci il yanvarın 31-i idi.

Bu adamların günahı nə idi görən? Sonradan azad vətəni tar-mar olub Türkiyədə yaşayanda M. Ə. Rəsulzadə ağrılı-ağrılı, içərisi kəsilə-kəsilə deyəcəkdi: «Əcəba müsəlmanlığın, türk məhləsinin qəbahəti nə idi?».

Doğrudan, axı bu adamlar hansı cinayəti etmişdilər?

Ömrü, günü onsuz da əzab içində keçən cəfakeş bakılılar niyə ölüm alovuna atıldılar. Üzündə ismət, həya təbəssümü dolaşan o Azəri qızını niyə qətlə yetirdilər? Bu ağlayan, naləsi ilə daşı, divarı dindirən körpə niyə əlində süngü tutan adamı rəhmə gətirə bilmədi? Qarşısındakı insanın rəhm, mərhəmət hissi ölübmü? Yoxsa insanlıq cildinə girmiş bir şeytandır? Yox, o ermənidir. Türk qanına susamış ermənidir. O günlərlə ac-susuz qalmağı bacarar, bir damcı türk qanına dilini batırmasa yaşaya bilməz. Onun həyatının da, yaşayışının da mənası bu qanı tökməyindədir. Ona layla da çalanda, beşiyi başında nəğmə də oxuyanda bu sözlərlə oxşayıblar: «Türk qanı iç». «Böyü adam ol, insan ol» sözünün yerinə «türk qanı iç» deyiblər. O bütün ömrü boyu içərisindəki atəş yanğısını bu qanı içməyi ilə soyudub. O kinlidir, qorxuludur, türk qanına susamış bir varlıqdır. Gözlərində, sifətində əcaib nəzərə çarpmayan bir sehr var. Bu sehrlə səni aldadıb toruna salır, qan dənizində boğur. Səni görəndə gülümsünür. Halına yanan kimi göstərir özünü. Amma inanma bu iblisanə canlıya. O qorxuludur. Onün nəfəsindən ölüm qoxusu gəlir, intiqam atəşi saçır. Ondan həmişə gözlə özünü. Yerlərin, göylərin üstünü təhlükə buludu alıb, ümid yerin ona qalsa da, ölümü üstün tut, gedib kölgəsinə sığınma. O cani qəfil ölümlə də əzabdan qurtarmayacaq ki, rahatlanasan. Damcı-damcı qanını sorub, işgəncələr içində sızıldadacaq səni. Hər dəfə qanını sümürdükcə üzünə baxıb güləcək, «içərimin yanğısı soyuyur» deyib rahatlanacaq. Sən isə ağrıdan qıvrılacaqsan. Qan sorulan canının əzablarından yox, gözünlə gördüyün mənzərənin dəhşətindən, türk qanını içməklə rahatlanan adama inandığından ağrıyacaqsan. Elə bil şeytan qarğışı tutub səni. Bu kinli varlığa həmişə inanmısan. Ürəyinin yağını yedirtmisən, çörəyini yarı bölmüsən. O isə həmişə xəyanət edib, arxadan vurub.

Azəri türkü! Ondan qoru, gözlə özünü! O sənin düşmənindir! Həmişəlik, həmişəlik, necə ki, ömür edib yaşayırsan dünyada, bu həqiqəti dərk et, anla! Ehtiyat silahını heç zaman yerə qoyma!

Erməninin gözləri qan çanağına dönmüşdü. Ağlayıb, mərhəmət diləyən dilsiz-ağızsız türk körpəsinin fəryadından ürəyi sakitlik tapırdı. İndi onu əzabla

öldürəcəkdi ki, içərisindən tüstüsü qalxan qisas alovuna su səpilsin, yanğısı kəsilsin.

Əlindəki süngünü yavaş-yavaş, ürəyində sevinc hissi dolaşa-dolaşa körpənin qarnına soxurdu. Süngünün iti ucu körpənin ətinə toxunanda o daha da bərkdən ağlamağa başladı. Sünkü körpənin qarnına işlədikcə, göyərə-göyərə ağlayır, ağrıdan qırılırdı. Erməni qəsdən süngünü körpənin qarnına yavaş-yavaş soxurdu ki, o əzab çəksin. Çünki, o türk övladı idi!

Köməksiz uşaq birdən çırpınıb dayandı. Erməni əyilib baxdı. Körpənin nəfəsi kəsilmişdi. Erməni süngünü körpənin qarnından çıxarıb ucundakı qanı dili ilə yaladı və əhvalı xoş halda növbəti «ov»unu axtarmağa getdi.

Əhvalı ona görə xoş idi ki, türk qanı içmişdi.

Erməni bolluca türk qanı içib yanğısını söndürəndə 1918-ci ilin mart ayı idi.

Bakı qırğını başlanmışdı.

Məmməd Əmin Rəsulzadə sonradan ağrılı-ağrılı xatırlayırdı:

«Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməliyyatı Bakıda da tətbiq ediyorlardı. Əmələ va füqəra hakimiyyəti naminə «müsavat firqəsi ilə milli müsəlman şurasına» elani hərb edən «Bakı soveti» erməni alayları ilə biliştirak 10000-ə qədər müsəlman qətl etdi. Qətl edilənlər miyanında əksəri əmələ və füqəra sinfindən olmaq üzrə minlərcə qadın, cocuq və silah daşımalarına imkan bulunmayan ixtiyarlar vardı.

Bakı türk milliyyətpərvərliyinin mərkəzi idi. Rus partiyası bulunan bolşevik firqəsi bu mərkəzi dağıtmaq istiyordu. Bu xüsusda o, Rusiyanın türklərə qarşı ənənəvi bir müttəfiqi olan erməniləri buluyordu».

**Bakı qırğını.** Partlayış martın 17-də oldu. Silahlı ermənilər müsəlmanları qırmağa başladılar. Heç kimə rəhm etmədən məhəllələrə düşüb, qarşılarına çıxan azərbaycanlıları qətlə yetirirdilər. Qan su yerinə axırdı. Ölənlərin sayı yüzlərlə, minlərlə idi. Ermənilərin əlinə yaxşı fürsət düşmüşdü. Uşaqları, yenicə dünyaya gələn körpələri süngülərə taxıb göyə qaldırır, evləri gülləbaran edirdilər. Qadınları saçlarından bağlayıb çılpaq halda döyürdülər. Qocalara rəhm etmirdilər. 70-80 yaşlı adamları qətlə yetirirdilər. İyirmi beş yaşlı bir gəlini divara mismarlamışdılar. Adamlar evlərini-eşiklərini qoyub qaçırdılar. Üç gün davam edən bu qırğında 10000-dən artıq azərbaycanlı qırıldı.

Ermənilər toplardan atəş açır, adamları qorxudur, bununla da şəhəri tərk etməyə məcbur edirdilər.

Şaumyanın başçılıq etdiyi, Leninin alqışladığı, azərbaycanlı bolşeviklərin «Şuranı tanıyın» deyə təbliğ etdikləri Şaumyan hökuməti Azərbaycan xalqını vəhşicəsinə ölümə məhkum edir.

Bakı faciəsinin ağrılarını Məmməd Əmin Rəsulzadə heç zaman unuda bilmirdi. Həmişə bu hadisəni içərisi ağrıya-ağrıya danışardı. Bakı faciəsi həyatında qarşılaşdığı ikinci erməni xəyanəti idi. Amma ömründən qalan sonrakı illərdə də hələ neçə dəfə bu xəyanətkar iblislərlə üz-üzə dayanacaqdı. Xain

ermənilər onun çoxlu qan qardaşlarını, əməl dostlarını, «əmi»lərinin — Leninin köməyi ilə qanına qəltan edəcəkdilər.

Bakı faciəsinə içəridən inildəyir, ağrıyırdı.

**Şikayət səsi.** Hadisədən çox illər keçəcək. Günlərin bir günü Məmməd Əmin Rəsulzadəni tanıyanları soraqlayıb yaşlı qocalarla söhbət edəndə dəhşətli heyrət içində qalacağam: bu adamlar, ömrünün qürub çağını yaşayan qocalar həmin o mart faciəsindən nələr danışacaqlar! Danışdıqca da ömürlərinin bu ahıl çağlarında hönkür-hönkür ağlayacaqlar. İçərim dağlanacaq, ürəyimdə fikirləşəcəyəm ki, xəyanətkar ermənilərin diləgəlməz vəhşiliklərinin ağrısını yetmiş-səksən ildir ki, bu qocalar yaddaşlarından silə bilmir, eyni zamanda məcburiyyətdən susurlar. Çünki «əmi»ləri Leninin qurduğu hökumət həmişə onları qoruyub, iyrəncliklərinin üstünü örtməyibmi?

**Şahid sözü.** Əlisəttar Babayev, 84 yaşında:

«—Russko-tatarskoda 4-cü sinifdə oxuyurdum. Mart davası düşdü. Martın 17-də gecə saat 10-da qəfildən atışma başlandı. Zaman adlı birisi «Qarantiynı» küçədə evinin damına çıxıb pulemyotnan ermənilərin qabağını almışdı. Ermənilər arxadan dama çıxıb onu vurdular. Arvad-uşağını öldürdülər. Uşaqlarından biri qaçıb zibil qabına girdi. Bəlkə də indi sağdır... Əbdül vardı. Ermənilərlə atışdığı yerdə Məşədibəy (Əzizbəyov) gəldi və başladı qışqırmağa ki, atışmayın. Sonra Məşədibəy həyətimizdən bir ağ balışın üzünü göyə qaldırıb dedi: «Mir, mir!» (yəni sülh, sülh). Ermənilər ona fikir vermədilər, o isə qışqırırdı: Mən komissaram, mən komissaram... Gecəni qaçıb «Edisson» kino-teatrında gecələdik... Tatarskidə ermənilər neçə ev yandırmışdılar, içində də adamlar. Yanmış adamları qoymuşdular Təzə Pirin qabağına, arxası üstə, böyrü üstə, bir halda idilər ki... (Əlisəttar kişi bu sözləri deyəndə hönkürüb ağladı).

Qırğın qurtaranda Şaumyan məmnun halda yazırdı: «Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir».

Sonra xainlik və qəddarlıqla bildirir: «Əgər onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi, bütün qeyri-müsəlman ünsürləri tərksilah edilib qırılardı».

Şaumyan bu sözləri qırğından on üç gün sonra yazmışdı. Şad xəbəri yuxarıya—Leninə də çatdırmışdı. «Əmi»sindən isə belə bir cavab məktubu almışdı:

«Əziz yoldaş Şaumyan!

Sizin möhkəm və qəti siyasətiniz bizi sevindirir...»

Minlərlə insan qırğınına sevinən Lenin Şaumyana bu siyasəti davam etdirməyi məsləhət görür. Amma bu dəfə şeytan hərəkətlərini «ehtiyatlı bir diplomatiya» ilə birləşdirməyi lazım bilirdi.

Azərbaycanlı bolşeviklər isə başda Nəriman Nərimanov olmaqla Leninin, Şaumyanın birgə qurduqları bu qanlı çarpışmanın mahiyyətini anlamır, hələ də dostluqdan, birlikdən danışırdılar. Nərimanov yazırdı: «Erməni-müsəlman

davasının biabırçı qanlı səngərləri dağıdılıb üzərində bütün xalqların zəhmətkeşlərinin səmimi birliyi yaradılsın»!

Məmməd Əmin Rəsulzadə bolşevik əqidəli azərbaycanlıları başa sala bilmirdi ki, Şaumyan kimdir və onun məqsədi Azərbaycanı işğal edib, torpaqlarını Ermənistana verməkdir. Bu adamlar Məmməd Əmin Rəsulzadə ilə çəkişmələr aparır, onu «millətçi», «müsavatçı» adlandırırdılar. Özləri isə adlarını beynəlmiləlçi qoyub gözlərini Leninin, Şaumyanın ətəyinə dikmişdilər. Hətta bəziləri müsavatçıları məzəmmət edir, qırğının səbəbkarı sayırdılar. Belə qorxulu bolşeviklər ermənidən təhlükəli idi. Çünki ermənінin erməni olduğunu bilirsən, amma öz içərindən olanı tanımaq çox müşküldür.

Məmməd Əmin Rəsulzadəni ən çox ağrıdan elə bu içəridən olan «milli əqidəsizlər» idi.

Bakıda isə ermənilər sağa, sola at çapır, qırğından qazandıqlarını toy-bayram edirdilər.

Ah, kimsəsiz vətən. Gedirdi, içərisində ağrı yükü dolaşa-dolaşa gedirdi. Ürəyi, qəlbi parçalana-parçalana ağlayırdı. Göz yaşı içərisinə axırdı. Axan göz yaşları acı olduğundan içərisini göynədirdi. Tar-mar olurdu yurdu, qırılırdı xalqı, öldürülürdü adamlar. Vətəni kimsəsiz, yiyəsiz, zavallı bir günə düşmüşdü.

Düşünürdü. İçərisində qəm atəşi yana-yana düşünürdü. Yazıq vətən! Yadlar ayağı altında tapdalanıb bağrı qan olan vətən! Həqiqətlərinin boğulub, zülmətlərinin gurlaşdığı vətən! Hürriyyətinin əlindən alınıb, əsarət və istibdada hədəf seçilən vətən! Qanı axıdılıb, cinayətlərlə ölümə sürüklənən vətən! Bütün səadət qapıları üzünə bağlanıb qaranlıq vəhşətləri içərisində inildəyən vətən! Kədər və qüssəsinə, qəm və səfalətinə, şikayət və sızıltılarına məhəl qoyulmayıb ədavət qılıncları ilə başı kəsilən vətən!

Vətən möhnət və səfalətlər məzarlığına dönmüşdü. Vətənin oxuyan bülbülünü susdurub yerində bayquş uladırdı ermənilər. Xain bolşevik niqabını üzünə taxan bu qatillər yalnız Bakını deyil, Şamaxını, Qubanı, Zəngəzuru, Vedini, azərbaycanlıların yaşadığı yüzlərlə kəndi talayıb dağıdırdılar. Minlərlə adamı qətlə yetirib öldürürdülər.

Vətəni viran olurdu, xalqı günahsızcasına qırılırdı, Ağrı-acı içində bu bəladan xilas yolu axtarırdı.

Bir tanışının söylədiyini xatırlayanda isə bədəni gizildəyirdi: erməni süngüsü ilə öldürülüb zibilliyə atılmış bir zavallı cocuğu ac köpəklər parçalayıb yeyirmiş.

Neçə gün idi ki, bu dəhşətlərin ağrısı altında yaşayırdı. Düşünürdü ki, belə gedə bilməz. Bu bəladan xilas olmaq yolunu axtarıb tapmaq lazımdır. Rusiyadan heç bir ümid gözləmək olmaz! Nərimanlardan, Əzizbəyovlardan kar aşmaz! Onlar xalqın düçar olduğu bu faciənin hələ də qorxulu oyun kimi ortaya atıldığını anlamırlar. Qırılan xalqının, inildəyən cocuqların əsl qatilləri gözləri önündə

dayandıqları halda cəfəng sözlər danışır, tərəddüdlə deyirlər: «Yox, deyəsən bu sinif mübarizəsinə oxşamır!»

Heç zaman, heç zaman əsl düşməninizi tanımadınız! Düşmənin başlar kəsən qılıncının qabağında qolu bağlı dayanıb, «biz beynəlmiləlçiyik» dediniz. Düşmənin atdığı gülləyə, yağdırdığı ölüm atəşinə müntəzir dayanıb «biz bolşevikik, proletar sinfinin müdafiəçisiyik» dediniz. Milli hisslərin, millət varlığının hər şeydən üstün olduğunu dərk etmədiniz. Bir fanatik rusun boş ideyalarının arxasınca düşüb xalqınızın, millətinizin qırğınına sakit baxdınız, hərənizə bir vəzifə verib başınızı aldatdılar. Şaumyan kimi bir fitnəkar cibinizə komissar sənədi qoyub, başınızı göylərin puç romantikası ilə aldatdı, xalqınızı qırğına verdi. Siz isə ayılmadınız. Papağınızı qabağınıza qoyub fikirləşmədiniz ki, əgər bu torpaq, bu vətən, bu sərvət mənimdirsə, niyə ona sahibliyi Şaumyanla Lenin edir? Niyə xalqımın varını, dövlətini çapıb talayır və məndən bir kəlmə də soruşmurlar? Bəs bu qədər Leninin göstərişi, Şaumyanın «canfəşanlığı» ilə Bakıdan daşınıb aparılan dövlətin müqabilində xalq niyə ac-yalavac yaşayır, heç nə əldə edə bilmir!

Sizə həqiqətləri başa salmaq mümkün deyil. Neçə dəfə buna cəhd göstərdik, qəflət yuxusundan ayıltmağa, kənarda dayandığınız ölüm uçurumundan uzaqlaşdırmağa çalışdıq. Çəkilmədiniz. Beyniniz, düşüncəniz, əqidəniz «bolşevik» havası ilə zəhərlənmişdi. Zəhəri beyin qanından təmizləmək müşkül işdir.

Neçə dəfə dedik ki, Bakıda qurulan və sizin komissarları olduğunuz Sovetdə - o «Şaumyan hökumətində» niyə məsələ qaldırmırsınız, bəs ermənidən soruşmursunuz ki, əgər düz adamsansa, niyə ermənilərə silah paylayıb azərbaycanlıları yaxına buraxmırsan. Niyə bir kərə demədiniz ki, Bakıya yaxınlaşan qırğının hələ başlanmadığı dövrdə azərbaycanlıları qorumaq istəyən «Evelina» gəmisindəki müsəlman əsgərlərindən ibarət «Dikaya diviziya» əsgərlərinin tərksilah olunması haqqında əmr verməkdə Şaumyan hansı məqsədi güdür?

Soruşmadınız, demədiniz. Minlərlə adam qətlə yetiriləndən sonra da ayılmadınız. Yalnız tərəddüd içində sayıqlamağa başladınız: «deyəsən bu sinif mübarizəsinə oxşamır».

Amma müsavatçıları topa, tüfəngə tutdunuz. Az qaldı ki, Şaumyanın sözünə inanıb bu qırğının günahkarı kimi müsavatçıları ittiham edəsiniz. Beyninizə yalnız bir fikir salmısınız: müsavatçılar bəy, xan hökuməti, kapitalist hökuməti qurmaq istəyirlər. Daha düşünmürsünüz ki, bu xalqın qeyrətli bəyləri, xanları, «kapitalist damğasıyla» ləkələdiyiniz varlıları var. Və o bəylərin, xanların çoxu lazım gələndə xalqın ehtiyaclarına kömək edir, məktəblər açır, köməksizlərə əl tutur. Elə sizin neçənizi elə indi bəyənmədiyiniz bəylər, xanlar, kapitalistlər oxutmayıbmı? Milli hisslərdən, milli qeyrətindən uzaq olub ermənin, rusun dediyi ilə oturub-durandan sonra hansı bəy, hansı xan, hansı kapitalist sizi azərbaycanlı hesab edər və qurduğunuz hökumətlə razılaşar? Xalqı, milləti nahaq qırğına verilən bəy, necə razılaşsın, inansın ki, siz hələ də Şaumyanın çaldığına oynayırsınız?

Sizə vaxtında bir söz də dedik. Çatdırdıq ki, gürcülərin də, ermənilərin də milli qoşunları yaradılıb. Bəs azərbaycanlıların milli qoşunu yaradılmasına niyə təşəbbüs göstərmirsiniz? Niyə bu məsələ ortalığa atılanda Şaumyan qəribə cavab verib ki, ordu hissələri milli əsasda deyil, sinfi əsasda təşkil olunmalıdır. O zaman Şaumyandan soruşmaq lazım idi ki, məgər erməni ordusu sinfi əsasda təşkil olunubmu? Andronikin ordusunda ermənidən başqa bir millət varmı?

Bunu etmədiniz, susdunuz. Çünki beyniniz «biz beynəlmiləlçiyik» dumanı ilə örtülmüşdü. Gözünüzü «dostluq, qardaşlıq, fəhlə, proletariat» kimi düşüncə pərdəsi tutmuşdu. Həyata xalqımızın milli varlığı mövqeyindən və bu varlığın bütün hisslərdən üstün dayandığı fikrindən yanaşa bilmədiniz. Fitnəkar Şaumyan, siyasətçi Lenin sizi aldadırdı. Biri xalqına torpaqlar almaq, digəri yıxılmış imperiyanı bərpa edib, hökmran olmaq məqsədini güdürdü. Siz isə arada hər çalınana qol götürüb oynayırdınız. Məntiqsiz bir fikrin o zaman üçün qorxunc olan torunda çapalayırdınız: «biz beynəlmiləlçiyik».

Düşünürdü.. Ağrı-acı içərisində düşünürdü.

...Bəs bu bəlalardan hansı yolla qurtulmalı? Qurtuluş ümidi nədədir? Birdən içərisində çoxdan qığılcımları dolaşan bir istək alovlandı: Ayrılmaq! Azad bir dövlət olmaq! Yalnız bu yolla xalqı faciələrdən qurtarmaq mümkündür. Ayrılmaq! Azad olmaq! Ermənin, rusun min bir fırıldağından xalqı xilas etmək. Ayrılmaq! Ermənidən, rusdan həmişəlik ayrılmaq! Xalqın neçə illərdən bəri tökülən qanını axmağa qoymamaq, düşdüyü istibdad quyusundan onu çıxarmaq. Çörəyini, suyunu, udduğu havasını belə ermənidən, rusdan ayırmaq, təmizləmək, onun özününkü etmək! Neçə illərdən bəri xalqın şimala daşınıb talan edilən sərvətini özünə qaytarmaq. Özünün məktəbini açmaq, məhkəməsini qurmaq, hökumətini yaratmaq. Nə zamana kimi başımız rus kəndiri ilə bağlanıb açılacaq? Ayrılmaq! Bütün nicatımız, sevib əsiri olduğumuz, intizarında çırpınıb gözlədiyimiz hürriyyət adlı o sevgili cənnət də yalnız bu ayrılmaqdadır. Ayrılmaq olmasa, xoşbəxtlik suyundan içib bağrı yanıq ürəklərimizin yanğısını söndürə bilməyəcəyik. Vətən əhlini hər cürə zillət və möhnət burulğanından çıxarmağın yolu ayrılmaqdadır. Vətən övladlarının nigahına kəsilmiş bu zülməti qovub uzaqlaşdırmaq, ah-fəğan içində inləyən adamları səadətə çatdırmaq «ayrılmaq»la mümkündür. Qoy Azərbaycan adı hər yanı gəzib dolaşsın və cəmi ölkələr bilsin ki, indi dünyada rusun yumruğu və qapazı altında əzilən Azərbaycan deyil, müstəqil, azad torpağının, suyunun öz ağrısı olduğu bir Azərbaycan var. Uzun illər boyu müstəmləkə qaranlığında itib görünməz olan bu odlar yurdunu qoy hamı tanısın.

Ürəyində coşğun inam hissi yol gedir. İçərisini az əvvəl didib-parçalayan ağrılar indi azalmışdı. Beynində yalnız bir fikir alovlanırdı: Ayrılmaq! Azad Azərbaycan hökuməti yaratmaq!

Həyatın bütün çirkinliklərindən bezib intihar böhranı keçirən və qəfildən bu ölüm caynağından qopmaq işığını görən adamlar kimi iti, qətiyyətli addımlarla gedir və düşünürdü: Ayrılmaq! Xilas yolu yalnız budur.

Ayrılmaq! İçərisində tez-tez təkrarladığı bu səs sanki sərt qayalara dəyib səslənirdi: Ayrılmaq!

Tiflisin küçələri ilə addımlayır və adamlara baxırdı, Elə bil hamı onun bu sözünü alqışlayırdı: Ayrılmaq!

...Məmməd Əmin Rəsulzadə əvvəli böhranlı, sonu belə nəşəli fikirlər içində çırpınanda 1918-ci ilin may ayı idi.

## AZAD VƏTƏN

Çəkdiyin həqarətlərə bu gün son qoyulur, vətən! Neçə illərdir həsrətində olduğun istiqlal işığı axıb çöllərinə yayılır. Başın üzərində oynadılan qara qılınclar qatlanıb qınına qoyulur. Çöhrəndə dolaşan ağrı kölgələri çəkilib gedir. Gözündə istiqlal günəşindən axıb gələn işıq dolaşır.

Bu gün əsarət və istibdad möhnətindən qurtarıb işıqlı yola düşürsən. Elə bir yolun yolçusu olursan ki, istisini duymayan bəxtəvər günə çatmaz. Bu yolu keçməyən insan həyatın hansı xoşbəxtliyindən danışa bilər? İstiqlal məşəlini başın üzərində alovlandırmağa az qalır, lap az qalır.

Cəmi bir neçə saatdan sonra qeyrətli oğulların bir yerə toplanıb istiqlalını elan edəcək. Və dünyanın hər yerinə xəbərlər göndərib «Azərbaycan müstəqil və azad bir Respublikadır» deyəcəklər.

Bu gün 28 maydır! Bu xoş gün bütün azərilərin, əsarətdə olan türklərin milli bayramı kimi qeyd olunacaq. 28 may evlərə sevinc gətirəcək, bağlı qapıları açıb adamlara şadlıq, istiqlaliyyət sözünü pıçıldayacaq.

Elə bu gündən başlayaraq Azəri türkləri dünyanın hansı yerində olsalar belə 28 mayıs (28 may) gününü unutmayacaq, onu əziz gün kimi yaşadacaqlar. Evlərində 28 mayısın xoşbəxtlik rəmzi olan üç rəngli bayrağını müqəddəs əmanət kimi qoruyacaqlar. İldə bir dəfə onun dövrəsinə yığılıb istisini udacaqlar. 28 mayısın təbəssümlü çöhrəsindən nur alacaqlar.

28 mayısa nəğmələr qoşacaq, oxuyacaq, onu tərənnüm edib sevəcəklər! 28 mayıs Azəri türklərinə səadət, müstəqil dövlət varlığını bəxş edəcək. 28 mayıs məhkumluq üfunətində boğulan xalqın qaranlıq göylərində istiqlal ulduzu parladacaq. 28 mayıs Azəri türklərinin bəşəri hüquqlarını rədd edən mənfur qüvvələri qovub, xalqın vətəni haqqını qoruyacaq! 28 mayıs könüllərdə yanan bir məşələ dönəcək, gətirdiyi hürriyyət şəfəqlərini adamların ömrünə, gününə səpəcək.

Məmməd Əmin Rəsulzadə rəhbərdir. Mayın 28-i günündə Tiflis şəhərində dörd müsəlman partiyasının iştirakı ilə fövqəladə iclas keçirilir. İclas bir məqsədlə çağırılıb: mövcud, mürəkkəb vəziyyəti nəzərə alıb Azərbaycanı idarə etmək, Azərbaycan Respublikasının yaradıldığını bildirmək.

Sonra Milli şura heyəti və onun sədrini seçirlər. Milli şuranın sədri vəzifəsinə Məmməd Əmin Rəsulzadənin namizədliyi irəli sürülür. Seçkidə iştirak edən dörd partiyadan yalnız biri — «İttihad» partiyası etirazını bildirir.

Seçkidə iştirak edən partiyalar:

1. «Müsavat demokratik bloku» — 30 nəfər.

2. «Müsəlman sosialist bloku» — 7 nəfər.

2. «Rusiyada müsəlmanlıq ittihad» — 3 nəfər.

4. «Müsəlman sosial demokrat-menşeviklər partiyası» — «Hümmət» — 4 nəfər.

Gizli səsvermə yolu ilə—22 səs çoxluğu qazanıb Məmməd Əmin Rəsulzadə Azərbaycan milli şurasının başçısı seçilir.

Azərbaycan xalqının taleyi ona tapşırılanda otuz dörd yaşı vardı.

Azərbaycan hökuməti özünün istiqlal bəyannaməsini bütün xalqa və dünyaya elan edir:

1. — Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, cənubi və şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil bir dövlətdir.

2. — Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyəti olaraq müəyyənləşir.

3. — Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və xalqlar ilə dostluq münasibəti yaradır.

4. — Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqinə varmadan hüdudu daxilində yaşayan bütün vətəndaşların siyasi və vətəndaşlıq hüququnu təmin edir.

5. — Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bütün millətlərə sərbəst inkişafı üçün geniş imkan verir.

6. — Milli məclis toplanana kimi Azərbaycan idarəsinin başında ümumi səsvermə ilə seçilmiş milli şura və milli şura qarşısında məsul olan müvəqqəti hökumət durur.

Azərbaycan Respublikası yaradılmış, hökumət qurulmuşdu. Amma Azərbaycan paytaxtı Bakı Şaumyanın hökmranlığı altında idi.

Azərbaycan hökuməti başda Məmməd Əmin Rəsulzadə olmaqla Gəncəyə köçürdü. İşıqlı, nurlu simalı bu milli hökuməti quran adamlar necə həyəcan keçirirdilər! Necə gərginlik içində yaşayırdılar! Hamısının içindən bir ağrı keçirdi: Elan etdiyimiz, qurduğumuz bu hökuməti qoruyub saxlaya biləcəyikmi? Üç rəngli bayrağı indi düşmən yuvasına çevrilmiş Bakı üzərində dalğalandıracayıqmı?

Məmməd Əmin Rəsulzadə Bakıdan həyəcanlı xəbərlər alırdı. «Şaumyan» hökuməti istədiyi oyunlardan çıxır, xalqın sərvətini, Bakının neftini Rusiyaya daşıtdırırdı. Xalq yenə müdhiş vəziyyətə düşmüşdü. İndi Bakıda tək ermənilər deyil, onlara tərəfdar olan silahlı ingilislər də gəzib dolaşırdı. Hamısının məqsədi bir idi: Bakını Azəri türklərindən təmizləmək.

Budur, Şaumyan Rusiyaya — Stalinə teleqram göndərib:

«Bakıda və quberniyada bütün pambıq ehtiyatını müsadirə edirik ki, dərhal Rusiyaya göndərək».

Məmməd Əmin Rəsulzadə xalqın bu dağılan sərvətini qorumaq yollarını düşünür və qurduğu hökumətin hansı xain qüvvələrlə üz-üzə dayandığı fikri ilə ağrıyırdı.

Elə bu zamanlar «Şaumyan» hökumətinin azərbaycanlı komissarlarından biri olan Nərimanov Təzəpir məscidinin qabağında adamları başına toplayıb deyirdi:

«...Yenə sizə deyirəm. Şura hökumətinə canidildən tabe olub ona kömək ediniz ..».

Başqa bir quberniya komissarı Məşədibəy Əzizbəyov isə Bakı ətrafında «gördüyü» ermənilərin törətdiyi vəhşiliyi Şaumyana «doklad etməklə» məşğul idi.

Bakı od içində, səfalət, aclıq möhnətində boğulurdu. Bakını xilas etmək lazımdır. Bakı Azərbaycanın düşünən başıdır. Bu düşünən baş indi xainlərin əlindədir və onu istənilən vaxt kəsə bilərlər.

Düşünürdü milli hökumət başçısı. Düşünürdü və xilas yollarını axtarırdı. Bütün bu bəladan qurtuluş yolu ancaq bir yerə aparıb çıxarırdı: Türkiyə! Qardaş Türkiyə!

Məmməd Əmin Rəsulzadə Azərbaycan Respublikası elan olunandan altı gün sonra Batuma getdi. Batuma tək getmirdi, Xarici işlər naziri Məhəmməd Həsən bəy də onunla birlikdə idi. Danışıqların ümid verəcəyinə inanırdı. Dini bir, qanı bir türklər bu ağır günlərdə yəqin ki, kömək edərdilər. Bu torpaqda daha bəsdir xəyanətkar ayaqlar gəzdi. Hamısı adını xilaskar qoyub xalqı çapıb-talamaqnan məşğuldur.

Əgər Türkiyə xilaskarlıq işinə razılaşırsa, Azərbaycan hökuməti neftini də ondan əsirgəməz! Bəs indi nə haldadır Bakı? Nefti ruslara daşınır, camaatını isə ermənilər qırıb öldürür. Türklər öz qanımızdan, kökümüzdən, soyumuzdandır. Onlar bizi bu möhnətdən qurtarmalıdırlar. Türklərin bir zamanlar bütün dünyanı lərzəyə salmış şanlı, zəfər yürüşlü orduları var! Bu ordu həmişə xəyanətkarların, birinci olaraq ermənilərin gözünə ox kimi batıb. Onlar bu ordudan qorxublar. Onları Bakıdan təmizləyib, tör-töküntülərini Xəzərə tullaya bilən yeganə qüvvə türk ordusudur.

Məmməd Əmin Rəsulzadə bu fikirlər içində Batuma—türklərlə danışığa tələsirdi.

**Qorxaq Şaumyan.** Az keçəcək və türklər Azərbaycana kömək edəcəyini bildirəcək. Şaumyan qorxu içində çırpınıb vurnuxacaq və «əmi»si Leninə təcili teleqram göndərəcəkdi:

«Tiflisdən alınan bütün xəbərlər göstərir ki, türklər Bakı üzərinə hücuma hazırlaşırlar. Bizə təcili yardım lazımdır».

Türklər Məmməd Əmin Rəsulzadəni mehribanlıqla qarşıladılar. Və hamısı Azərbaycanın düşdüyü fəlakətdən xəbərdar idilər. Batumda Ədliyyə naziri Xəlil bəy ilə şərq orduları komandanı Vəhib paşa arasında hər iki dövlətin (Türkiyə, Azərbaycan) adından əhdnamə imzalandı. Bu əhdnamənin 4-cü maddəsinə əsasən

Azərbaycan hökuməti asayişin bərpası üçün Türkiyədən kömək istəmək haqqını qazanırdı.

Bakının xilasına az qalırdı...

Yaradılan milli hökumət Gəncəyə gəlmişdi.

1918-ci il iyunun 17-sidir. Gündüz saat ikidir. Milli şuranın sayca yeddinci—Gəncədə isə ilk iclası keçirilir. İclası sədr Məmməd Əmin Rəsulzadə açır:

«Əfəndilər, fövqəladə vəziyyət şəraitində, ağır və məsul bir vaxtda milli şuranın iclasını açıram. Bu günkü sualların müzakirəsində vəziyyətin fövqəladiliyini və məsuliyyətli olduğunu başa düşüb, hissə qapılmadan soyuqqanlılıq göstərməliyik.

...Sonra inanıram ki, şəraitin əhəmiyyətini nəzərə alıb irəli sürdüyünüz qərarlarda vətənin və millətin mənafeyinə üstünlük verəcəksiniz. Və bununla da patriotluğunuzu sübut edəcəksiniz».

Məmməd Əmin Rəsulzadənin sədrlik etdiyi bu iclas heç də sakitliklə keçmədi. Türk qoşunlarının Azərbaycana dəvət olunmasında müxtəlif mövqelər meydana çıxdı. Bəziləri çıxış edib göstərdilər ki, Nuru Paşa heç də Azərbaycan müstəqilliyini tanımaq istəmir. İclasda gedən o qızğın mübahisəni Aslan bəy Səfikürdski başladı.

Aslan bəy Səfikürdski;

«...Təəssüflər olsun ki, Paşa bizim soveti və hökuməti buraxıb, öz istədiyi bir hökumət qurmaq istəyir».

Məmməd Əmin Rəsulzadə onun dediklərinə müdaxilə edir:

«Paşanın bu işə heç bir qarışacağı yoxdur».

Aslan bəy davam edir:

«Qorxuram ki, həmin yol xalqı xilas etməsin və bizi bəlalarla üzləşdirib camaatda türklərə ümidsizlik doğursun».

Xarici İşlər naziri Məmməd Həsən Hacınski;

«Biz fikrimizi müəyyənləşdirmişik. Onlar yalnız hərbi işlərlə məşğul olacaqlar. Onlar həqiqətən də müstəqil Azərbaycan hökumətinin yaradılmasını istəyirlər».

Nəsib bəy Yusifbəyli;

«...Aydındır ki, Paşa və Osmanlı hökuməti müstəqil Azərbaycan hökumətinin qurulmağını istəyirlər. Onlar bizim işlərimizə qarışmaq fikrində deyillər...»

Aslan bəy Səfikürdski türklərin gəlməyinin əleyhinə deyildi, onu narahat edən Nuru Paşanın dövrəsindəki bəzi adamlardan şübhələnməyi idi. Və Aslan bəy yaxşı başa düşürdü ki, Azərbaycanın xilası, nicatı Türkiyədədir, türk ordusundadır!

Həmin o yığıncaqda, azad hökumətin Gəncədə, Azərbaycan torpağında keçirilən ilk toplanışında istiqlaliyyət nəfəsi ilə qanadlanan Məmməd Əmin Rəsulzadə hamını heyrətdə qoyan, dəfələrlə alqışlarla kəsilən parlaq bir çıxış etdi.

Bu çıxışı ilə adamların qəlbinə inam hissi doldurdu, başladıqları böyük işin əhəmiyyətindən danışdı. Və zaldakılar bu cavan, otuz dörd yaşlı adamın ağlına, məntiqinə, hadisələrin xarakterini düzgün anlamaq bacarığına heyran kəsildilər. Bildilər ki, onu hökumətin başçısı seçəndə yanılmayıblar.

Məmməd Əmin Rəsulzadə azad Azərbaycan hökuməti qurulandan sonra doğma torpağı Gəncədə keçirilən ilk iclasda bu sözləri söyləmişdi:

«Əfəndilər», hələ səhər iclasını açanda indiki şəraitin necə əhəmiyyətli olduğunu xatırlatmışdım. Qəbul etdiyiniz qərarların tarixi məsuliyyətinin dözülməz ağırlığını Fətəli xan Xoyskinin yaratdığı hökumətin çiyninə atdınız. Dünya müharibəsindən və Rusiya inqilabından doğulub, siyasi həyata ilk addımını atan Azərbaycan idealı hazırda sözlə deyilə bilməyən gərgin anlar keçirir. Bu yeni doğulmuş siyasi türk övladı böyüyüb yaşa dolacaqmı, başqa xalqlar arasında yer tutacaqmı? Yoxsa sısqa uşaq kimi məhv olacaq?...

...Əfəndilər, demək istəyirəm ki, Azərbaycan hətta indi Qafqazda ən azadlıqsevər və inqilabi respublika sayılan Gürcüstandan da xoşbəxt olacaq!...

...Əfəndilər! Mən sizdən özümə qarşı yalnız hörmət və ehtiram hiss etmişəm. İndi sizinlə, əziz yoldaşlarımla ayrılarkən mənə etibar etdiyiniz vəzifənin icrasındakı bəzi nöqsanları bağışlamağınızı xahiş edirəm. Əfəndilər, ayrılmaq zamanı yaxınlaşır və qardaş kimi bir-birimizdən ayrılırıq və ayrılıq məqamında inanırıq ki, allahın köməyi ilə tezliklə Bakıda—Azərbaycanın paytaxtında keçirəcəyimiz təsis yığıncağında görüşəcəyik. Azərbaycana eşq olsun! Türk xalqına eşq olsun!»

Ayrılıq məqamı gəlib çatmışdı. Qədim Gəncədən, Azərbaycanın istiqlalını elan etmiş və bu yolda canlarından keçməyə hazır olan dostlarından ayrılırdı. Hamısının gözündə sevinc, təbəssüm işığı parlayırdı. Göz yaşını saxlaya bilməyənlər də vardı. Bu adamlar vətənin azadlıq qapısı astanasında dayandığını görür və həyəcandan ağlayırdılar. Geriyə qayıtmaq istəmirdilər. Geridə bataqlıq, üfunət vardı. Ümid işığı qarşıda yanırdı. Onun istisinə tələsirdi hamı.

Ümidlə, məhəbbət və həyəcanla ona baxırdılar. Onun bu gedişindən çox şey asılı idi. Ölüm təhlükəsi altında qıvrılan, can verən vətəni o bu gedişiylə qurtara bilərdi.

Qucaqlaşıb ayrıldılar. Nəsib bəy, Fətəli xan, Məmməd bəy... İşıqlı, nurlu gözləri ilə ona «uğurlu yol» dilədilər, xeyir-dua verdilər.

Azad Azərbaycan hökumətinin başçısı Məmməd Əmin Rəsulzadəni Türkiyəyə—İstanbula yola salırdılar. İstanbulda Orta Avropa dövlətlərinin—yeni Almaniya, Avstriya, Macarıstan, Türkiyə və Bolqarıstanın iştirakı ilə Qafqaz məsələsini müzakirə üçün konfrans keçirilirdi. Bu konfransın Azərbaycan üçün böyük əhəmiyyəti vardı.

İstanbula gedirdi. İçərisində böyük ümidlə ona doğma olan bir şəhərə tələsirdi. İstanbulda ömrünün iki ili keçmişdi. Amma bu iki ilin xatirələri unudulmaz, yaddan çıxmaz idi. İstanbul mühiti ona çox şey öyrətmişdi. Türklüyün

təmiz havasını bu şəhərdə udmuşdu. O zaman böyük həsrətlə, içərisində qəribə qibtə hissi ilə İstanbulda yaşamışdı. Və həmişə də düşünmüşdü: türklər xoşbəxtdir, elə ona görə xoşbəxtdir ki, özgə əsarətinə düşməyiblər, öz torpaqlarının sahibidirlər. O zaman qəlbindən xoş istək keçmişdi: Elə bir gün olacaqmı ki, Azərbaycan da belə azad, hər istismardan uzaq ömür yaşayacaq?

Bunlar altı-yeddi il əvvəlin xatirələri idi. İndi hər şey dəyişmiş, zaman, şərait başqalaşmışdı. İndi ən böyük arzusu həyata keçirdi—Azərbaycan öz istiqlalını elan etmişdi. İlk müvəffəqiyyət də qazanılmışdı. Batumda Türkiyə dövləti ilə uğurlu danışıq olmuş və Türkiyə hökuməti Azərbaycana hərbi, əsgəri yardım göstərməyə razılıq vermişdi. İlk addım atılmışdı. Amma Bakı yadlar hökmranlığında əzab çəkirdi. Azərbaycanın düşünən başını düşmən məngənəsindən xilas etmək lazım idi.

İndi bütün ümid Türkiyəyə idi...

İstanbulda olanda xoşagəlməz hadisələr baş verdi. Məlum oldu ki, bolşeviklər hökuməti ilə Almaniya arasında Azərbaycanın varlığına qara bir xətt çəkən Brest-Litovsk sülhü (1918-ci il, 27 avqust) imzalanıb.

Həmin xəbər Məmməd Əmin Rəsulzadəni çox sarsıtdı. O, ağrılı-ağrılı düşünürdü: Demək Lenin niyyətindən əl çəkmək istəmir, köhnə Rusiyasının siyasətini yeridir. Çar imperiyasının əvvəlki qorxunc planlarını həyata keçirir. Azərbaycanı Rusiyanın ayrılmaz bir hissəsi kimi tanıyır. Müstəqilliyimizi qəbul etmək fikrində deyil. Dostu Şaumyanın hökmranlığına son qoyulub Bakıda. Amma bolşevik və daşnak tör-töküntüləri hələ Bakının sərvətinə ağalıq edirlər. İngilislər də gəlib Bakıya dolublar. Bakıda vəziyyət qarışıqdır. Şaumyandan əli üzülən Lenin isə Bakı neftini asan yolla əldə saxlamaq fikrindədir. Bəs nədir asan yol? Almaniya ilə dil tapmaq. Almaniya Bakı neftinə sahib olmaqda maraqlıdır. Onun bu istəyini asanlıqla həyata keçirmək olar. Bakı neftinin dörddə birini Lenin Almaniyaya vəd etməklə əslində Azərbaycan üzərindəki hökmranlığını bərpa edirdi. Yox, Leninə bu fitnəkar oyunu həyata keçirmək imkanı vermək olmaz. Qəti şəkildə vəziyyətdən çıxış yolu tapılmalıdır. İşin belə gedişi Azərbaycanın müstəqilliyini məhvə aparır. Bu almanlar da qəribə siyasət yürüdürlər. Gürcüstanın müstəqilliyini qəbul edirlər, Azərbaycanı isə Əhməd bəy demişkən «bir tənəkə qaz yağına satırlar». Yox, belə olmaz. Vəziyyətdən xilas olmaq gərəkdir.

...Bütün Türkiyədə narahatlıqdır. Hər yerdə gedən söhbətin yalnız bir mövzusu var: Brest-Litovsk sülhü. Türkiyə qəzetləri bu haqda yazır, geniş müzakirələr açırlar.

«İqdam» qəzeti 1918-ci il 2 sentyabr nömrəsində yazır:

«...Almaniya ilə Rusiya arasındakı müzakiratın nəticəsi ciddi bir həyəcan ortalığa çıxarıb....

...Bizim bu halda alman dostlarımızdan sorulacaq bir sualımız var:

— İndiyə kimi hərbi ümuminin ən ağır yükünə —cüssə və qüvvətinə nisbətlə Türkiyə yükləndi. Öylə olduğu halda, Türkiyə son hərblərdə yalnız öz

nöqteyi-nəzərini təqib etsəydi, hər halda neft yağından çox böyük mənfəətlər və bu günkü Rusiya ilə sülh sazişi məcburiyyətindən çox daha böyük və həyati məcburiyyətlərlə müttəfiqinin mənfəətini fəda eyləsəydi, əcəba məzur görüləcəkmiydi?»

Məmməd Əmin Rəsulzadə narahat və həyəcanlı günlər keçirirdi. Türkiyə hökuməti rəhbərləri ilə hər gün danışıqlar aparır, Azərbaycanı bu bəladan qurtarmağa çalışırdı. Faktlar bu oyunun Rusiya tərəfindən başlandığını sübuta yetirmişdi. Çünki Lenin hökuməti Türkiyəyə Qafqazdan çəkilib getməsi barədə işarə etmişdi.

Osmanlı dövləti Azərbaycanı müstəqil dövlət kimi tanıdığını bildirirdi. Amma bolşeviklər hökuməti hiyləgər siyasətə keçərək Almaniya ilə bazar açmışdılar. Azərbaycanı hərraca qoymuşdular. Belə razılığa gəlmişdilər ki, (Brest-Litovsk sülhünün sazişinə əsasən) Qafqazda «üçüncü bir dövlətin» ordusu olmamalıdır. (Şübhəsiz ki, türk qoşunları nəzərdə tutulurdu.) Almaniya Azərbaycanın bütün zəngin neft yataqlarının düz Kür sahilinə qədər Rusiyaya verilməsinə razılığını bildirir, bunun müqabilində Bakı neftinin yarısını ona göndərirdilər.

Brest-Litovsk sazişi belə təhlükəli sövdələşmə idi. Bakını itirən Azərbaycan yaşaya bilərmi? Xalqın ən böyük sərvəti neftdir. Onu isə neftdən məhrum edirlər. Axı Lenin hansı haqla Bakı neftinə sahib olmalıdır? Hər xalq özü öz müqəddəratını həll etməlidir deyən Lenin nə istəyir bu xalqdan? Niyə onu öz halına buraxmır? Bəs almanlar bu çirkin işə niyə qol çəkirlər? Axı Brest-Litovsk sazişində özləri bildirirlər ki, «hər millət öz müqəddəratını özü təyin etməlididir». Əl çəkmirlər, camaatı əsarət içində boğmaq istəyirlər. Yalnız bir əqidələri var: kiçik xalqlar azad yaşaya bilməz. Onlara həmişə hansısa böyük xalq himayədarlıq etməlidir. Bakının isə faciəsi neftindədir. Bu qızıl sərvət hamının gözünü qamaşdırır, onu özünün əsiri edir.

Düşünürdü. Narahatlıq, həyəcan içində çırpınırdı. Türk qəzetləri isə onu sakit buraxmır, vəziyyətdən çıxış yolunu necə gördüyünü soruşurdular. Hamının marağı onda—yeni qurulmuş azad Azərbaycan hökumətinin otuz dərd yaşlı başçısında idi.

Həmin vaxtlar Türkiyənin «İqdam» qəzeti Məmməd Əmin Rəsulzadənin mövqeyi barədə yazırdı:

«Almaniya ilə Rusiya arasındakı bu müqavilə dolayısı ilə ortaya çıxan məsələdə ən ziyadə əlaqədar olan Azərbaycanın şəhərimizdəki mürəhhəsi və Milli şura rəisi Rəsulzadə Məmməd Əmin bəyə mühərrirlərimizdən biri müraciət edərək fikrini sordu.

Məmməd Əmin bəy Almaniyanın Rusiyaya Azərbaycanın və Ermənistanın istiqlalını qəbul etdirməmiş olduğunu bir ağiz tələkki etməklə bərabər, bu əczə kail bulunmadığını, Almaniyanın Litva, Estoniya aqibətlərini təyin etdiyi şəkildə Rusiyaya qəbul etdirmiş olduğunu sənələrdən bəri uğratdığı daxili işləri ilə bitəp

düşən Rusiyanın və bu gün daxili, xarici iki atəş arasında qalan (Lenin) hökumətinin Rusiya ilə əlaqəsi çoxdan qurtarmış, Rusiya üçün israr edəcək durumda olmadığını bəyan etmişdir».

Brest-Litovsk sülhünə Məmməd Əmin Rəsulzadə Azərbaycan hökuməti adından etiraz bəyanatı yazdı. 1918-ci il iyulun 12-də İstanbuldakı Almaniya böyük elçiliyinə gedib, alman-rus anlaşmasına etiraz əlaməti olaraq bəyanatı təqdim etdi.

Məmməd Əmin Rəsulzadənin Azərbaycan hökuməti adından verdiyi bu etiraz təyinatı hadisələrin məzmununa və xüsusilə də Almaniyanın mövqeyinə təsir göstərməyə başladı. Türkiyə hökuməti Məmməd Əmin Rəsulzadənin bu bəyanatından sonra Almaniyanı müzakirə açmağa dəvət etdi. Türkiyə hökuməti çox cidd-cəhdlə Almaniyanı Azərbaycanın köməyinə çağırırdı.

Amma hər şey Bakıdan asılı idi. Bakı kimin ixtiyarında qalacaq? Bakının taleyi necə olacaq?

Məmməd Əmin Rəsulzadə doğma şəhəri Bakıdan hər gün intizarla yeni xəbər gözləyirdi. Gələn xəbərlər həyəcanlı, təşvişli idi.

**Bakı od içindədir.** Bakı od içində alovlanırdı. Daxili həyatında gərginlik, həyəcan hökm sürürdü. Bu şəhərin qızıl nefti onun taleyini həmişə qara boyadı. Qızılı neft Bakıya ağ gün gətirmədi, onu əsarət altında saxladı. Son yüz ildə Bakının bir dəfə də olsun üzü gülmədi, daima başı qılınclı oldu.

...«Şaumyan hökuməti» Bakıdakı hökmranlığını davam etdirirdi. Yenə ermənilər sağa, sola at çapır, istədiklərini edirdilər. Bakının sərvəti isə Şimala göndərilirdi. Azərbaycanlı bolşeviklər hələ Şura hökumətinin xalqa ağ gün gətirəcəyinə inanırdılar.

...Türk qoşunları Bakıya yaxınlaşırdı. Azərbaycan və Türkiyə hökuməti arasındakı Batum müqaviləsinə əsasən türklər Azərbaycana kömək edir, onu işğalçılardan təmizləyirdilər. Milli ordu yaradır, süvari milis qrupları təşkil edirdilər.

Türk qoşunları Bakıya yaxınlaşırdı.

Bu xəbər Şaumyanın kürkünə birə salmışdı. Qorxurdu ki, yenə gəlib qulağını kəsəcəklər. Əvvəl bic bir siyasət işlədir. Hökumət üzvlərinə, qarşısındakı müntəzir dayanan azərbaycanlı bolşeviklərə göstərişlər verir ki, xalq arasında ciddi təbliğat aparıb «müsavat»ı gözdən salsınlar. Çünki məhz onlar türkləri Bakıya dəvət ediblər. Özü isə camaat arasında belə şaiyələr yayır:

«Türkləri dəvət etmiş olan bəylər bütün köhnə qaydalara qaytaracaqlar, işğalçılıq siyasətindən müsəlman əhalisi müsibətlər çəkəcəkdir».

Bu sözləri Şaumyan deyir. Xalq isə inanmır. Bic erməninin fırıldaqlarını yaxşı bilirlər. Xalq türklərin—öz qan qardaşlarının yolunu gözləyir. Ümid, xilas yolu yalnız türk qoşunundadır.

Şaumyan narahatdır. Türklər yaxınlaşır Bakıya. Xalq ona nifrət edir. Bəs nə etməli? Ümid yeri var. Ümid işığı yenə yuxarıda—«əmi»sindədir. «Əmi»si hələ ona silah göndərir. Hələ ümid var. Tez əyləşib məktub yazır:

«Əziz Vladimir İliç!

Bu gün nəhayət, Ter-Qabrielyan gəldi və bizə 4 zirehli avtomobil, 13 aeroplan və bir çox başqa ləvazimat gətirdi. Bunların hamısı üçün sağ olun».

...Türk qoşunları ciddi müqavimətlə qarşılaşsa da irəliləyirdi. Bakıdakı silahlı ermənilər ümidlərini itirməyib döyüşürdülər. Şaumyan həyəcan içində çırpınırdı. «Böyük Ermənistan» ideyası təhlükə altında idi.

«Əmi»sinə təcili teleqram göndərdi:

«Cəbhədə vəziyyət pisləşir. Təkcə bizim qüvvələrimiz kifayət etmir. Rusiyadan güclü kömək lazımdır».

Amma Şaumyanın qışqırığı, hay-küyü nahaq idi. Türk qoşunları Bakıya girmək ərəfəsindəydi. Elə bu zaman... Qorxu və çaxnaşma keçirən bolşeviklərlə erməni daşnaklar arasında nifaq yarandı. Və təcili şəkildə bu qara, bir-biri ilə çəkişən qüvvələr ingilisləri Bakıya dəvət edib ikinci oyuncaq bir hökumət qurdular. («Sentrokaspi» hökuməti).

Türk ordusu xalqın ümidi, nicatı idi. Xalq türklərin Bakıya girəcəyini intizarla gözləyirdi.

«Müsavat» işləyirdi. Qeyrətli və cəsur müsavatçılar xalqın başı üzərində dolaşan təhlükəni sovuşdurmaq üçün gecəli-gündüzlü çalışır, şəhərdə yeni qurulmuş «Kaspi» hökumətinin fitnələrini izləyir, onların hərəkətləri, harda yerləşmələri haqda türk ordusuna məlumat çatdırırdı:

O ağır və həyəcanlı günləri Məmməd Əmin Rəsulzadənin əmisi oğlu Məmməd Əli Rəsuloğlu belə xatırlayırdı:

«Türk ordusu qərargahına xəritə, plan yetişdirmək üçün «Müsavat» partiyası bütün qüvvəsiylə çalışırdı. Hər gün dəniz və quru yolla türk ordusu qərargahı nəzdində bulunan arkadaşımız Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haqqında türk ordusu qərargahına lazımi məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə öyrənilməsinə heyrət edirlərdi...»

**Bir ağrı.** Yazıq Məmməd Əli! Əmin oğlu İstanbulda ağrı içində çırpınırdı, özün Bakıda. Sonradan bu xatirələrini göz yaşı içərisində danışacaqsan. Azad Azərbaycanı yaşatmaq üçün hər ikiniz ömrünüzü, gününüzü çürütdünüz. Amma nə sənin qədrin bilindi, nə də əmin oğlu Məmməd Əminin!

...«Müsavat» işləyirdi... Bakıda isə ermənilərdən, ingilislərdən, ruslardan ibarət silahlı qüvvələr vardı. Alınan məlumatdan aydın olurdu ki, şəhəri döyüşsüz verməyəcəklər.

Türklər isə inamlı idi..

Bakının alınması uğrunda qanlı döyüşlər gedirdi. Minlərlə şanlı türk oğlu Bakı döyüşlərində canını qurban verdi.

Sentyabrın 14-dən 15-nə keçən gecə türk qoşunları sürətli hücumla Bakıya girdilər. Düşmən təslim oldu. Bakı xain qüvvələrdən xilas edildi. Gecə saat üçdə başlanan bu əməliyyat qısa bir vaxtda türklərin qələbəsi ilə qurtardı.

Sentyabrın 15-i günü Qafqaz Müsəlman ordusunun komandanı general-leytenant Nuru Paşa Gəncəyə - Azad Azərbaycan hökumətinin başçılarına xoş xəbərli teleqram göndərdi:

«Allahın köməyi ilə Bakı şəhəri 15(9) 34-də, saat 9-un başlanğıcında bizim qoşunlar tərəfindən alındı».

*Qafqaz Müsəlman ordusunun komandanı*
*general-leytenant NURİ.*

Nuru Paşanın bu xoş xəbərli teleqramı hələlik Gəncədə əyləşən Azərbaycan hökuməti başçılarını hədsiz dərəcədə sevindirmişdi. Nazirlər sovetinin sədri Fətəli xan Xoyski Nuru Paşaya göndərdiyi təcili cavab teleqramında Azərbaycan xalqının və hökumətinin adından məhəbbət və minnətdarlığını belə bildirmişdi:

*«Qafqaz Müsəlman ordusunun komandanı Nuru Paşaya!*

*Xoşbəxtəm ki, xalqın adından siz əlahəzrətlərinə, xeyirxah türk oğullarına və Azərbaycan paytaxtını düşməndən azad edən inanılmış cəsur əsgərlərə təşəkkürümüzü çatdırıram.*

*Nazirlər sovetinin sədri*
*FƏTƏLİ XAN».*

Həmin günü Bakı camaatı sevincindən ağlayırdı. Neçə illik əsarət və zülmdən xilas olmuşdu Bakı. Erməni xəyanətinə, ingilis söyüşünə, rus nifrətinə— hər şeyə son qoyulmuşdu. İndi Bakının küçələrində kobud sözlər işlədib azğınlıq edən «yoldaş»lar, «arə»lər deyil, şirin, xoş İstanbul ləhcəsi ilə danışan türklər gəzişirdi. Qorxu, hürkü adamların canından çəkilib getmiş, rahat və xoşbəxt güzəran başlanmışdı. Sentyabrın 15-i günü bakılılar ilk dəfə olaraq gecəni rahat yatdılar. Çünki qabaqlar ermənilər, ingilislər istənilən zaman evə, həyətə soxula bilərdilər. İndi isə Bakını qoruyan canı bir, qanı bir, dini bir qardaşları vardı. Bakılılardan imkanı olanlar sevincindən, fərəhindən bu şanlı türk oğullarının ayağı altında qurbanlar kəsirdi.

Şad xəbəri İstanbulda eşitdi. Həmin o günü özü sonradan belə xatırlayırdı:

O zaman biz İstanbulda idik. Vüstayi Avropa dövlətlərinin iştirakı ilə toplanacaq konfransa iştirak üçün digər Qafqaziya Cümhuriyyətləri ilə bərabər Azərbaycan Cümhuriyyətini təmsil edən heyəti-müəxxəsə riyasətində bulunuyordu. O dövrün hərbiyyə naziri və baş komandan vəkili bulunan Ənvər Paşa həzrətləri telefon ediyorlardı:

- Əmin bəy, Bakı alındı!

Bu qısa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil, təsvir edəməm. O təsiri hələ unudammıyorom».

**Bir ağrı.** Həmin günü o da ağlayırdı. Minlərlə azərbaycanlı kimi onun da gözlərindən yaş süzülürdü. Sevincindən ağlamağa haqqı da vardı. Bu günün

intizarını azmı çəkmişdi? Bu günü azmı həyəcanla gözləmişdi? Amma o xəbəri eşidəndə keçirdiyi xoşbəxtlik hisslərini yalnız bu sözlərlə ümumiləşdirir: «O təsiri hələ unudammıyorom». Bəs səbəbi nədir ki, o böyük hadisəni yalnız bu sözlərlə bitirirdi? Çünki o bu sözləri yazanda ikinci il idi vətənini bolşeviklər gəlib talan etmişdi. Xalqının minlərlə oğlunun ayağına daş bağlayıb dənizə atmışdılar. Bakı yenə zülm və əsarət altında inildəyirdi...

Hələliksə, 1918-ci ilin sentyabr ayıdır. Məmməd Əmin Rəsulzadə İstanbuldadır. Bakının azad olunması xəbərini eşidəndən sakitlik tapmır. Türkiyə rəhbərləri ilə danışıqlar aparır, Almaniyanın Brest-Litovsk sazişindəki təhlükəli razılaşmasını, Leninin Bakı neftinə sahib olmağını ləğv etdirmək istəyir. Türkiyə siyasətçiləri bu işə biganə qalmırlar. Diplomatik sahədə qızğın «döyüş» gedir. Hansının üstün gələcəyi bir azdan məlum olacaq. Almaniyanın tutacağı mövqedən çox şey asılıdır. Nəhayət, xeyirxah türk diplomatiyası və Məmməd Əmin Rəsulzadənin böyük bacarığı Almaniyanın Azərbaycana yeni gözlə baxmağına maraq yaradır.

Elə həmin vaxt—1918-ci ilin sentyabr ayının 23-də Tələt Paşa ilə Almaniya arasında gizli protokol imzalanır. Almaniya Azərbaycanın müstəqil dövlət kimi yaşamasına razılıq verir. Tələt Paşa ilə imzalanan protokolda göstərilirdi ki, Türkiyə Azərbaycanı boşaldır, bunun müqabilində isə Almaniya Azərbaycanın istiqlalının Rusiya tərəfindən tanınmasını təmin edir.

Məmməd Əmin Rəsulzadə böyük ümid içində yaşayırdı: Almaniya Rusiya kimi qorxunc bir dövləti Azərbaycanı tanımağa razılaşdırsa bütün təhlükə sovuşub gedərdi. Hələlik hər şey ümidli, işıqlı idi. İndi qəlbindən yalnız bir istək keçirdi: Tezliklə Bakıya—bütün qara qüvvələrdən xilas olub azadlıq məşəli ilə işıqlanan doğma şəhərə getmək. Xəzərin istiqlaliyyət qoxuyan mavi sularını bağrına basmaq, xoşbəxt günlər yaşayan vətəni qayğılardan qurtarmaq.

Tələsirdi...

## AZAD AZƏRBAYCANDA

Bakıda xoşbəxtlik və bəxtəvərlik idi. Xalq azad həyat yaşayırdı. Türk əsgərlərinin şəhərə gəlişi hamını sevindirirdi. Türklərin gəlişinə şerlər yazılır, nəğmələr qoşulurdu.

Bu səs hər yerdə əks-səda verir, asimanlara yüksəlirdi. Bu səsi Azərbaycanın hər yerində ucadan təkrar edirdilər. Bu sözlə uşaqlar küçələrdə oynayır, körpələrin canından süngü yaralarının ağrıları çəkilib gedirdi. Bu sözlə balacalar yuxuya gedir, səhəri açırdılar. Erməni xəyanətindən neçə oğlunu, qızını itirib əli qoynunda qalan, bu günə kimi yalnız göz yaşı axıdıb ağı deyən analar indi az da olsa sakitləşib dillənirdilər: Sən gəl, sən!»

Minlərlə türk əsgəri Azərbaycanın istiqlaliyyəti yolunda canını qurban vermişdi. Xalq onların bu sədaqətini, qəhrəmanlıq və qardaş sevgisini əzizləyir,

ürəklərinin başında yer ayırırdı. Bakını təmizləmək üçün türk əsgərləri otuz altı saat düşmənlə fasiləsiz döyüşmüşdülər.

Vətən azad idi! Parlament binasında azad hökumət işə başlamışdı.

Hələ Gəncədə olarkən Azərbaycan hökuməti bir çox qərarlar qəbul etmişdi. Bu qərarların hamısı Azərbaycanın müstəqilliyi yolunda atılan ilkin addımlar idi. Çətin və gərgin vəziyyətdə olmasına baxmayaraq Azərbaycan hökuməti işləyirdi. Hökumətin Bakıya köçənə kimi qəbul etdiyi bəzi qərarlar:

1. 1918-ci il, 21 iyun. Azərbaycan bayrağını qırmızı materialdan, üstündə ağ aypara və qırmızı fonda ağ səkkiz guşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul etmək.

2. 1918-ci il, 27 iyun. Türk dilini Dövlət dili kimi qəbul etmək.

3. 1918-ci il, 12 iyul. Bakı vaxtını Azərbaycanın bütün hüdudlarında saat vaxtı kimi qəbul etmək.

4. 1918-ci il, 22 avqust. Xarici pasportların verilməsi səlahiyyəti qubernatorlara tapşırılır.

5. 1918-ci il, 20 avqust. Ağdaş qəzasını şəhər adlandırmaq.

6. 1918-ci il, 30 avqust. Yelizavetpol şəhərini Gəncə, Qaryagin qəzasını Cəbrayıl adlandırmaq.

7. 1918-ci il, 9 sentyabr. Azərbaycanın milli bayrağını yaşıl, qırmızı və mavi rəngli ağ aypara və səkkiz guşəli ulduzu təsvir olan bayraq kimi qəbul etmək.

Gözlərində sonsuz sevinc hissi Bakının küçələrini gəzirdi. Bakının azadlıq nəfəsinə bürünmüş küçələrində adamlar qayğısız, ağrı-acıdan kənar görünürdülər. Vətən azad idi, insanlar xoşbəxt idi!

Sevinirdi. Bu günü neçə il gözləmişdilər! Bu günün gəlməyindən ötrü nə qədər adam qurban getmişdi. Onların ruhu şad olsun! Məzarları nurla dolsun. Xalq, azad hökumət onları unutmayacaq!

Elə Bakıya gəlişinin ilk günündəcə hökumət nazirləri ilə söhbət etmiş və orda bu məsələyə toxunmuşdular. Razılaşmışdılar ki, qayğılardan uzaq olan kimi, mart hadisələrində həlak olan azərbaycanlıların, Bakının alınmasında canını qurban verən türk əsgərlərinin xatirəsini əbədiləşdirmək lazımdır.

Nikolayevski küçəsinə çatanda dayandı. Bir dəstə türk əsgəri sıra ilə keçib gedirdi. Kənarda dayanan adamlar məhəbbətlə onlara baxır, balaca uşaqlar isə özlərini əsgərlərə oxşadırmış kimi əllərini, ayaqlarını oynadırdılar.

Sonra məhəbbətlə türk əsgərlərinə baxdı. Rahatlıqla nəfəs alıb Nikolayevski küçəsi ilə parlament binasına tərəf gedirdi. Türk generalı Nuru Paşa ilə də danışmışdı. Paşa gileylənmişdi ki, azərbaycanlıları orduya götürmək, əsgəri təlim keçmək çox çətindir. Qayda-qanuna heç cürə əməl etmirlər. Paşanın dediklərində həqiqət vardı. Azərbaycanlılar hərbi xidmətə çağırılmadığından əsgəri qaydalara öyrəşə bilmirdilər. Amma hər şey yaxşı olacaq. Paşa da bu fikirdə idi.

İndi isə vətən azad idi. Azad vətənin xoşbəxtlik işığını yandıran yerə— parlament binasına növbəti qayğıları həll etməyə getdi.

## AZAD VƏTƏN

Sən vaxtında gəldin. Vaxtında bağlı qapıları açıb qaranlıqlara işıq saldın. Gəlişini necə intizarla gözləmişik, ey istiqlal! Ayağın dəyən hər qarış ana torpağımız gül-çiçəyə bürünür. Nə böyük qüdrətin, sehrin var, istiqlal! Sənin yalnız adını eşitmişdik. Uzaqdan xoş təbəssümlə çöhrənə baxıb xiffət çəkmişdik. İnana bilmirdik ki, o gülümsünən gözlərin bir gün bizə də şəfqətlə baxacaq. İşıqlı ürəyindən bizim də ellərə mərhəmət yağacaq. Bizi də yada salıb, bədbəxtliyimizə acıyacaqsan. Sənin bu xeyirxahlığını heç zaman unutmayacağıq. Dünyaya göz açan bütün övladlarımıza səndən danışacağıq. Beşikləri başında adına qoşduğumuz nəğmələri oxuyacağıq. Deyəcəyik ki, onlar da səni bizim kimi sevsinlər, ömrünə alqışlar desinlər.

Nə yaxşı ki, sən gəldin, ömrümüzə şadlıq gətirdin, ey istiqlal! Sənin mərhəmətinlə, bizə olan sonsuz məhəbbətinlə yaşayıb, azad dövran sürürük. İndi öz milli hökumətimiz var, milli qoşunumuz yaradılır. Bütün sərvətimiz özümüzünküdür. Neftimizi, pambığımızı, varımızı, dövlətimizi dünyanın istənilən ölkəsinə göndəririk. İndi nə rus, nə erməni, nə ingilis işimizə qarışa bilir. Özümüz, hər şeyi özümüz həll edirik. Qurduğumuz azad hökumətin sərhədlərini də müəyyənləşdiririk. O sərhəddən heç kim keçə bilməz. O sərhəddi türk qardaşlarımızla birlikdə əsgərlərimiz qoruyur. Rus, ingilis, erməni sərhədin o tayında qalıb. Bura bizimdir, bizim vətənimiz, yurdumuzdur. Bir kimsənin özümüzdən başqa burda hökmü yeriməz.

Azad Azərbaycanda xalq xoşbəxt, əsarət və istibdaddan uzaq ömür-gün sürürdü. Həyat gözəl, yaşamaq mənalı idi.

Dövrün qəzetlərindən:

«Yaxın günlərdə Konstantinopoldan türk tədris məktəblərində dərs demək üçün 17 müəllim gələcək. Çoxlu dərsliklərin də göndərilməsi gözlənilir».

Azad Azərbaycan qəzetləri öz xilaskarı haqqında məlumat verirdi xalqa:

«Müsəlman Qafqaz ordusunun Baş komandanı Farux Nuru Paşa dünən Yelizavetpoldan (Gəncədən) Bakıya qayıdıb».

Azərbaycan qəzetləri ermənilərin təslimini xəbər verirdi:

«Qarabağdan məlumat alınıb ki, çox da uzun sürməyən döyüşdən sonra ermənilər təslim olub silahlarını veriblər».

Xalq xoşbəxt yaşayırdı. Çünki o azad idi.

***

Məmməd Əmin Rəsulzadə həmin günü Baş nazir Fətəli xan Xoyski ilə söhbət edirdi. Baş nazir söhbət zamanı ermənilərlə dünənki görüşünü danışdı. Azərbaycan hökumətini təbrik etmək üçün Gəncədən bir qrup erməni gəlibmiş.

Ermənilər Azərbaycan hökumətini tanıdıqlarını, hökumətin işində canla, başla çalışacaqlarını bildirirdilər.

**Bic ermənilər.** Quyruqları qapı arasında qalan kimi azərbaycanlılara qardaş deyirlər. Elə ki, bir az başları dikəldi, arxadan xaincəsinə zərbə vurmağa başlayırlar. İndi səs eşidən kimi tez qaçıb gəliblər Bakıya. Azərbaycan hökumətinə and-aman edirlər ki, bəs sizinlə dostuq. qardaşıq. Bilirlər ki, indi onları müdafiə edən ruslar, ingilislər şəhərdən qovulublar. «Əmi»ləri gedibsə, onda kimə arxalanacaqdılar. Yenə bu xalqın ürəyi yumşaq, əli səxavətlidir. Yenə bu xalq onun tökdüyü qanı, etdiyi xəyanəti bağışlayacaq.

...Məmməd Əmin Rəsulzadə Fətəli xandan eşitdiyi bu söhbəti ağrı-acı ilə dinləyirdi. Ötənlərin, xüsusilə də mart qırğınının dəhşətli səhnələri gözü önündən çəkilib getmirdi. İndi xain ermənilər barışığa gəlmişdilər. İçərisi qəzəbdən alovlanırdı.

1918-ci il idi...

Həyat davam edirdi. Azad Azərbaycanda adamlar xoşbəxt ömür sürürdülər. Azərbaycan hökuməti yüksək enerji ilə işləyirdi.

Hökumətin ilk diqqət yetirdiyi işlərdən biri ermənilərin Azərbaycana vurduğu ziyanı ödəməkdir. Alınan məlumatlar çox acınacaqlı idi: 199 müsəlman kəndi yandırılıb, 135 mindən çox adam ya öz torpağından qovulub, ya da ki, öldürülüb. Hökumət ermənilərin bu cinayətləri ilə bağlı istintaq aparmaq üçün fövqəladə komissiya yaradıb.

Azad Azərbaycan hökuməti işləyirdi. Məmməd Əmin Rəsulzadə tez-tez Fətəli xanla, hökumət nazirləri ilə görüşür, məsləhətləşirdi. Fətəli xan hökuməti Azərbaycanın bütün sahələrində milliləşdirmə aparırdı. Bunlardan ən başlıcası Azərbaycandakı təhsil müəssisələrinin və neft sahələrinin milliləşdirilməsi idi. Biri xalqın mənəvi, digəri maddi sərvəti idi. Birincini həll etmək üçün Türkiyədən dərsliklər gətirilib müəllimlər dəvət olunması nəzərdə tutulmuşdu. Bundan ötrü Türkiyəyə bir qrup adam göndərmək nəzərdə tutulurdu.

Neftin istehsalı, daşınması ilə bağlı «Şaumyan» hökumətinin verdiyi bütün qərarları isə Azərbaycan hökuməti ləğv edir, milliləşdirirdi. Çünki bu günə kimi Azərbaycanın nefti müftə-müsəlləh Rusiyaya daşınır, əvəzində Lenin ermənilərə silah verirdi.

Azərbaycan hökuməti özünün 1918-ci il 24 sentyabr tarixli qərarı ilə bu israfçılığa son qoyurdu.

**İçimizdəki Denikinlər.** Azərbaycanın çörəyini yeyib, özgələrinin Bakıda hakimiyyətini istəyənləri Üzeyir Hacıbəyov belə adlandırırdı. Və göstərirdi ki, «İçimizdəki Denikinlər» xarici düşməndən qat-qat qorxuludur.

Məmməd Əmin Rəsulzadəni ən çox düşündürüb narahat edən bu «Denikinlər» idi. Azad Azərbaycan hökuməti qurulmuşdu. Xalq xoşbəxt ömür yaşayırdı. Yaxşı, bəs bu adamlar nə istəyirdi? Adını azərbaycanlı qoyan, bolşevik düşüncəsi ilə oturub-duranların nə idi məqsədi?

Bu adamların daxildə və Azərbaycandan kənarda Demokratik hökumət əleyhinə işlər görməyini eşidirdi. Məlumatlar çatdırılırdı ona. Məmməd Əmin Rəsulzadə bu adamların Leninlə yaxınlıq etdiyini, ondan imdad gözlədiklərini acı-acı düşünürdü. Xalq bu «Denikinlər»dən görən nə zaman xilas olacaq?

Xalqın içərisindən çıxan Denikinlər işləyirdi. Lenin onların başını aldadıb istifadə edir, Azərbaycanda müstəqil sovet Respublikası quracaqsınız deyirdi.

Budur, Nərimanov Həştərxandadır. Azərbaycanda Demokratik Respublikanın qurulmağını bilir. Amma narazıdır. Bəs fikri nədir Nərimanovun?

Xalq azad bir dövran yaşayanda, Azərbaycan Demokratik Respublikasının istiqlaliyyət havasını udanda Nərimanov nə işlə məşğul idi? Dostlarından birinin dedikləri:

«Biz «Hümmət» təşkilatında işləyən türk kommunistləri Həştərxana gəlib yoldaş Nərimanovu orada gördük. Burada azərbaycanlılar ilə tatar yoldaşlar Nərimanovun ətrafına toplaşaraq onun rəhbərliyi ilə firqə təşkilatını və Şura aparatını möhkəmlətməkdə idilər...»

1918-ci il idi. Azərbaycanda Demokratik Respublika qurulmuşdu. Nərimanov «Şura aparatını» möhkəmlədirdi.

Dadaş Bünyadzadə isə daha da «irəli» getmişdi. Özü bu haqda belə yazırdı:

«Mən İliçə xəbər verdim ki, Azərbaycanda iki cərəyan var: Bunlardan biri ondan ibarətdir ki, Bakı və Azərbaycan azad edildikdə müstəqil Sovet Respublikası yaratmaq lazımdır, ikinci cərəyan isə ondan ibarətdir ki, heç bir respublika lazım deyildir, Azərbaycanı quberniyalara bölmək və RSFSR-lə birləşdirmək lazımdır».

«İçimizdəki Denikin»lərin xəyanətkarlığı haqqında çox eşidirdi, çox. Bu adamların romantik ideallarından xalqa ağır zərbə dəyəcəyini görürdü. Xalqı yenidən uçuruma itələyən yalançı bolşevik fikirləri ilə yolunu azmış adamlardan nə yolla xilas olmalı?

Fikirlər ağrıdır, kəsirdi içərisini.

Xalq gözəl günlər yaşayırdı. Malının, dövlətinin, yerüstü sərvətlərinin sahibi idi. Kimsə daxili işlərinə qarışmır, kənardan müdaxilə yox idi. Qorxu hissi tamam çəkilib getmişdi. Bütün azad ölkələrdə olduğu kimi, adamlar istədikləri vaxt hara, hansı dövlətə getmək arzusunda olsaydılar, icazə verilirdi. İstədiyini kənara aparıb sata bilərdin. Kimsənin əlindən almağa ixtiyarı yoxdu.

Azad Azərbaycan qəzetləri yazırdı:

«Oktyabrın yeddisində Ədliyyə nazirliyi «Metropol» mehmanxanasından Babayevin Naberejnı küçəsində yerləşən evinə köçür».

Azad Azərbaycanın paytaxtı Bakıda çoxlu məktəblərin, gimnaziyanın olduğundan xəbər verirdi qəzetlər:

«Bakıdakı 3-cu kişi gimnaziyası xahiş edir məlumat verək ki, tədrisi davam etdirmək istəyənlərin və bütün siniflərə qəbulun yazılışı hər gün gimnaziyanın kanselyariyasında səhər saat 9-dan 1-ə kimi aparılır».

Azad Azərbaycan qəzetləri Bakıda teatrın, musiqinin yenidən fəaliyyətə başladığından yazırdı:

«Oktyabrın 4-də çətinliklə Bakıya gəlib çatan müsəlman qrupunun qüvvəsi ilə qış mövsümünün açılışı oldu. Öz sevimli aktyorlarını salamlamaq üçün çoxlu adam axışıb gəlmişdi. Amma təəssüflər olsun ki, «Mikado» teatrının yeri darısqal olduğundan oyun zalında yalnız gələnlərin bir hissəsi yerləşmişdi, qalanlarına isə ötənlərin dəhşətindən sonra istedadlı komiklərin, Hüseynzadə və Anaplinskinin və «Arşın mal alan»ın möcüzəli musiqisini eşidib ürəkdən istirahət etmək qismət olmadı».

Azərbaycanın azad, bəxtəvər günləri idi. Xalq varının, dövlətinin, qızılı neftinin sahibi idi. Rusun, erməninin, ingilisin ağalığına son qoyulmuşdu.

Azərbaycan Demokratik Respublikası fəaliyyətdə idi.

**İblis nədir?** İblis, bütün insanlara xain olan qüvvət! İblis! İnsanları içəridən gəmirən bir qurd! İblis! İnsan qanına susamış ac yalquzaq! İblis! Məzlumların, qolu qüvvətsizlərin qənimi! İblis! Bir parça çörək istəyi ilə yaşayanların ümidini qılınclayan! İblis! Evlərə girib yanan, ocaqları söndürən, çıxan tüstüsünü kəsən! İblis! Gülzarlıqları tapdalayıb viranəliyə çevirən! İblis! Xalqların qanı bahasına əldə etdiyi azadlığı ondan tutub alan!

Qorxuludur, məkrlidir, kinlidir İblis! Ondan özünü qoru, gözlə, ey başı bəlalı insan!

...İblis yavaş-yavaş Bakıya—onun başçılıq etdiyi azad Azərbaycana doğru irəliləyirdi. O hələ heç nə bilmirdi...

Səhər əhvalı yaxşı idi. Yeməyini yeyəndən sonra hayat yoldaşı Ümbül Banu xanım stolu yığışdırdı. Bir qədər sevimli qızı Lətifə ilə oynayandan sonra ayağa qalxdı. İşə getmək vaxtı idi.

Ümbül Banu xanım məhəbbətlə həyat yoldaşının arxasınca baxırdı. Ömür-gün yoldaşını seçməkdə bəxti gətirmişdi. Belə saf ürəkli insanı çətindir həyatda tapmaq. Böyük bir hökumətə başçılıq etsə də sadəliyini itirmirdi. Gecəsi də, gündüzü də Azərbaycanla bağlı idi. Bütün işlərin gərginliyi onun içərisindən keçirdi. Amma Ümbül Banu xanım ömür-gün yoldaşından ötrü narahat idi, bərk narahat idi. Məmməd Əmin demək olar ki, istirahət etmirdi. Bu onun səhhətinə ciddi təsir göstərirdi. Hərdən diqqətlə həyat yoldaşına baxır, gözlərinin ifadəsindən içərisində sonsuz ağrıların, narahatlığın dolaşdığını hiss edirdi. Qayğıkeş adam idi həyat yoldaşı. Xalq üçün işlədiyi bir yana, atasını, sevimli bacısını da unutmurdu. Həftədə bir dəfə Novxanıya gedib onlara baş çəkir, hal-əhval tuturdu.

Ümbül Banu xanım böyük məhəbbətlə sevimli həyat yoldaşının arxasınca baxırdı.

...Eşitdiyi xəbər Məmməd Əmin Rəsulzadəni bərk sarsıtdı. Bir müddət rəngi qaralmış halda dayandı. Sonra yavaş-yavaş özünə gəlməyə başladı.

Türkiyədən hərbi nazir İzzət paşa bir teleqram göndərmişdi. İzzət paşa yazırdı ki, müharibədəki məğlubiyyətlə əlaqədar Türkiyə ordusu noyabrın 16-na

kimi Bakıdan çıxarılmalıdır. Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və başqa hökumət nazirləri təəccüb içində qalmışdılar: Nə etməli? Vəziyyətdən necə çıxmalı? İzzət paşanın yazdığında yalnız bir ümidli söz vardı: «Biz məcbur olub yalnız bunu deyə bildik ki, arzu edən zabitlər türk ordusu ilə əlaqəni kəsib Azərbaycanda qala bilərlər».

Hökumət başçıları anlaşılmaz vəziyyətə düşmüşdülər. İngilis generalı Tomson qoşunu ilə tezliklə Bakıya girməli idi. Nə etməli?

Yenicə istiqlaliyyət havasını udan xalq əsarəti, müstəmləkəçiliyimi qəbul etsin? Uzun illərdən bəri yolunda minlərlə igidin qanı axıdılan azadlığı necə əldə saxlamalı?

Razılığa gəldilər ki, hər şey diplomatik danışıqlardan asılıdır. Yeganə çıxış yolu yalnız Tomsonla dil tapmaq, onu həqiqətlərə inandırmaqdır. Tomsonla danışıq üçün Əhməd bəy Ağayev, Nəsib bəy Yusifbəyov və Rafiyevdən ibarət bir heyət yaradıldı. Onlar hələlik Ənzəlidə olan general Tomsonla danışıq aparmalı, Azərbaycanın müstəqilliyinə onu inandırmalı idilər.

Məmməd Əmin Rəsulzadənin qəlbindən ümidli bir fikir keçdi: hər şey yaxşı olacaq! Azərbaycan öz müstəqilliyini saxlayacaq! Tomsonu razılığa gətirə biləcəklər.

...Məmməd Əmin Rəsulzadəni bir məsələ də ciddi narahat edirdi. Neçə etmək ki, türk zabitlərini Bakıda saxlamaq? Türkiyənin hərbi naziri İzzət paşa bu məsələyə razılığını vermişdi. İndi əsas iş asılı idi zabitlərin özündən. Zabitlər Azərbaycanda qalmaq üçün buranın vətəndaşlığını qəbul etməliydilər. Türk zabitlərinə ciddi ehtiyac var. Azərbaycan ordusuzdur. Savadlı, təcrübəli zabit kadrlarımız çox azdır. Nuru Paşanın məlumatına görə indiyə kimi azarbaycanlılardan cəmi 1500 əsgər toplanıb. Onlardan isə yalnız 500-ü Bakıdadır. 500 əsgər nə qüvvədir ki? Qarşıdan coşğun sel kimi ingilis qoşunları gəlir. Vəziyyət də çox pisdir. Bakının kəndləri ilə müqayisədə götürəndə əyalətlərdə adamlar uşaqlarını əsgərliyə vermir. Çar imperiyası elə balta çalmayıb ki, bu xalqa, indi yarası sağalmış olsun. Bəs nə etməli? Türk zabitlərini necə yola gətirməli? Bakının alınmağında, Azərbaycanın işğalçılardan təmizlənməyində minlərlə qurban vermiş türk ordusu indi Bakıdan çəkilir. Bəs zabitlər belə mürəkkəb və hər dəqiqə qanlı toqquşma gözləniləcək şəraitdə qalmağa razılıq verəcəklərmi?

Qaranlıq suallar içində çırpınır, vəziyyətdən çıxış yolu axtarırdı:

Məmməd Əmin Rəsulzadənin bu ağrılarını, türk zabitlərini Bakıda saxlamaq cəhdini əmisi oğlu Məmməd Əli Rəsuloğlu belə xatırlayarmış:

«...Nəhayət, türk ordusu Türkiyə hökumətinin müttəfiqlərlə yapdığı bir müahidə əsasında Bakıdan çıxmaq məcburiyyətində qaldı. Məmməd Əmin bəy türk ordusu komandanları nəzdində, bizi buraxıb getməmələri üçün onlardan çox xahişlər etdi və subayların rütbələrinin bir dərəcə yüksəldiləcəyini və əsgərlərə əlavə maaş veriləcəyini söylədisə də subaylar arasında olan bir ixtilaf nəticəsində çəkilib getməyi üstün tutdular».

Amma vəziyyətin mürəkkəbliyinə baxmayaraq, qoşunlar əslində Bakını ağır vəziyyətdə qoyub getmək istəmirdilər. Nuru Paşanın komandanlığında çalışan Qafqaz Müsəlman Ordusunun siyasi şöbə rəisi Cavad bəy deyirdi: «Türkiyə hökuməti güclü və qardaş Azərbaycan ordusu yaradılmasından ötrü heç bir vəsaitini əsirgəməyəcək. Ordu Azərbaycan dövlətinin ixtiyarında ehtiyacı olana kimi qalacaq».

Amma sonradan vəziyyətin mürəkkəbləşdiyini nəzərə alıb türk qoşunu Bakıdan çıxarılmışdı.

Məmməd Əmin Rəsulzadə Nuru Paşanın o zaman Bakıda qalmaq üçün hansı həyəcanlar keçirdiyini sonralar xeyirxahlıq və məhəbbətlə xatırlayarmış. Amma vəziyyət gərgin idi. Tomson Bakıya gəlirdi. Türk qoşunları isə Bakını tərk edirdilər.

Türk qoşunları gedirdi.

Bakılılar sakitcə, dərin kədər və qüssə içərisində dayanıb gedən qoşuna baxırdılar. Xilaskar ordu Bakıdan çıxırdı. Həmin o günü həyəcandan ağlayanlar, göz yaşı tökənlər də çoxdu. Hamının qəlbindən bir ağrı keçirdi: «Siz gedirsiniz, bəs halımız necə olacaq? Bizi kimin ümidinə qoyursunuz?»

Türklər gedirdi. Sabah Bakıya ingilislər girəcəkdi.

Məmməd Əmin Rəsulzadə və bütün Azərbaycan hökumətinin üzvləri həyəcan içərisində idilər. Tomson əvvəlcədən sifariş göndərib bir neçə yeri, o cümlədən «Metropol» mehmanxanasını əsgərlər üçün boşaltmaq əmrini vermişdi.

Şəhərdə qəribə ölgünlük vardı. Adamlar elə bil doğma bir səs üçün darıxır, onu eşitmək, elə hey dinləmək istəyirdilər:

Anam beni böyütdü, bu yollara göndərdi...

Yox, bu mahnı daha oxunmayacaqdı! Şanlı türk əsgəri Bakının küçələrində gəzib şirin ləhcəsiylə bu sözləri deməyəcəkdi. Sabahdan bu şəhərdə özgə mahnılar oxunacaqdı. Təkcə mahnılarmı oxunacaqdı? Kim bilir, bəlkə yenə günahsız qanlar töküləcəkdi...

Türklər gedirdi Bakıdan.

Sabah, noyabrın 17-də Tomson Bakıya gəlirdi. Tomsonun Bakıya gəlişini Məmməd Əmin Rəsulzadə belə xatırlayırdı:

«İxrac bilahadisə icra edildi. Azərbaycan bayrağı ilə müzəyyən körpüyə çıxan Tomsonu Xariciyyə naziri müavini salamladı. Müqabilində Tomson kəndisini hərbi-ümuminin xitamı və sülhün iadə etmək üzrə bulunduğu ilə təbrik etdi.

İki gün sonra komandanlığın əhaliyi-islamiyyəni məyus edəcək bir bəyannaməsi nəşr olunuyordu...»

Həmin bəyannamədə Tomson təhlükəli bir fikir irəli sürüb: «Rusiyadan qoparılmış Qafqaziyanın düşməndən təmizlənməsi üçün Ufada təşəkkül edən rus hökuməti ilə bir araya gəldiyini deyirdi»..

Vəziyyət qorxulu idi!

Məmməd Əmin Rəsulzadəni ən çox qəzəbləndirən Biçeraxovun hərəkətləri idi. İngilis ordusunda türklərə qarşı vuruşmuş köhnə çar zabiti Biçeraxov çox azğınlıq edir, hər yanda özünü «Bölünməz Rusiya»nın nümayəndəsi kimi aparır, aeroplanlardan bəyannamələr yayırdı. Şəhərə yaydığı bəyannamələrin birində deyirdi: «Sizlərə salam olsun, Rusiya vətəndaşları! Müttəfiqlərin köməyi ilə öz köhnə sərhədlərini bərpa edən böyük Rusiyamız artıq bir çox yerlərdə özünün yeni həyatını başlayır...».

Şovinist Biçeraxov! Canınızdan bu şovinistlik, özgə torpağında ağalıq, hökmranlıq hissi çəkilib getmədi! Həmişə Bakıya—bu qızıl neft səltənətinə əyalət şəhəriniz kimi baxdınız!

Məmməd Əmin Rəsulzadə hər gün Fətəli xanla, Nəsib bəylə, başqa hökumət nazirləri ilə məsləhətləşir, Tomsonla «dil tapmaq» üsulları axtarırdı. İndi hər şey—başlıca məsələ olan Azərbaycanın müstəqilliyinin saxlanması məhz Tomsonla uğurlu iş görməkdən ibarətdir.

Ruslar və ermənilər yenə şəhərdə azğınlıq edirdi: Azərbaycanı Rusiyanın bir parçası kimi təbliğ edən Biçeraxovun sözləri onları «ruhlandırırdı».

Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Azərbaycan hökuməti vəziyyətdən çıxmaq üçün Tomsonla danışıqlar aparırdı. Belə uğurlu danışıqlar getdikcə öz bəhrəsini verirdi.

Biçeraxovun Bakıda çevriliş etmək istədiyini eşidən Tomson ona 46 saat müddətində Bakını tərk etməyi əmr etdi.

Bakı qanında şovinistlik qaynayan, «Bölünməz Rusiya» xəstəliyinə tutulmuş təhlükəli bir adamdan xilas oldu. Amma ümumi əhval-ruhiyyə hələ gərgin idi.

İndi başlıca söhbət parlamentin açılışından gedirdi. Tomsonun müəyyən təzyiqi ilə «Koalisyon hökumət» yaratmaq razılaşdırılmışdı. Başqa millətdən olanlar da hökumət işində çalışa bilərdilər.

Amma sonradan məlum oldu ki, Bakıdakı «Rus milləti komitəsi» Azərbaycan parlamentinə nümayəndələrini göndərmək istəmir.

Getdikcə Məmməd Əmin Rəsulzadə və dostları Tomsona hər şeyi başa salır, rus şovinizminə onda da nifrət oyadırdılar.

Lakin razılıq alınmışdı. Tomson parlamentin açılışına icazə vermişdi.

Məclisin açılışı günü bir maraqlı hadisə baş verdi. Məmməd Əli Rəsuloğlunun xatirəsi:

«...Məclisin açılacağı gün Azərbaycan bayrağının məclisin binası üzərinə taxılması işi də bir məsələyə çevrildi. İngilis komandanı bizimkilərə: «Baxınız, biz nə zamandan bəri buradayız, heç bayraq sancdığımızı gördünüzmü? deyincə bizimkilər də: «sizin bayrağa ehtiyacınız yoxdur, bizim isə ən böyük arzumuz milli bayrağımızı taxmaqdır» şəklində cavab vermişlərdi. İngilis komandanı da bu sözü məqbul saymış, rus və erməniləri artıq həyəcanlandırmamaq üçün yalnız məclisin toplandığı günlərdə bina üzərinə bayraq taxılmasını xahiş etmişdi. Bizimkilər də bu

xahişi qəbul etmişdilər. Bu hal bir ənənə halını almışdı. Bayrağımızın taxıldığı gün hər kəs məclisin açıq olduğunu bilirdi. Məclisin açılacağı gün rus və ermənilərin fitnəsindən məclisi qorumaq məqsədiylə hindli müsəlman əsgərlər məclisdən çox uzaq küçə və caddə başlarında qruplar halında növbə gözləməkdə idilər. Hindli əsgərlər məsələni anlayaraq xalqımızı təbrik edirlərdi.

Məmməd Əmin bəyin o gün məclisin balkonundan: «Bir dəfə yüksələn bayraq bir daha enməz» sözü kəndlərdən, neft ocaqlarından şəhərə axın etmiş, dolub binanın hər yanını tutmuş xalqımız tərəfindən coşğun alqışlarla qarşılandı...»

**Bir xoş söz.** Həmin günü sən hamını heyrətdə qoydun! Həmin günü dediyin sözlər dalğa-dalğa, ildırım sürətiylə Azərbaycanın hər yerinə yayıldı. Adamlar səni daha da sevdi, daha da inandı. Sən həmin günü adamların qəlbində qırılıb çiliklənmiş ümidlərə can verdin, yaşatdın. Sənin xoş ahəngli səsin adamların qəlbinə yayılıb, onların azadlıq və istiqlaliyyət arzusunu coşdurdu. Dediyin o xoş məramlı sözlər adamların həmişəlik yaddaşına yazıldı. Elə həmin o gün dediyin «Bir dəfə yüksələn bayraq bir daha enməz» sözün sonralar xalqımızın həyat məramına, yaşayışının mənasına çevrildi.

Məmməd Əmin Rəsulzadənin Azərbaycan Milli Cümhuriyyəti parlamentinin ilk açılışındakı tarixi çıxış:

«Möhtərəm millət vəkilləri! Azərbaycan Milli Cümhuriyyətinin ilk parlamentosunu açmaq səadətinin, siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə iftixar edirəm (alqışlar) ...Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında bir böyük həqiqəti dəxi elan etmişdi. Bu həqiqət millətlərin hürriyyət və istiqlal haqları idi. Rusiya inqilabı təbiətində mövcud olan ruha sadiq qalaraq təbii yolu ilə inkişaf etsəydi, millətlərin hüququnun təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyanı bir an əvvəl təsis edəcəkdi. O vaxt təbii idi ki, Rusiyada yaşayan müsəlmanların siyasi həyatları digər məhkum millətlərlə bərabər, başqa bir yolda cərəyan edəcəkdi. Millətlər öz müqəddəratlarının təyinini pək səmimi bir surətdə Rusiya müəssisan məclisindən gözlərdilər. Fəqət Rusiyada inqilab və demokratizm naminə zühur edən bir istibdadın nə kimi xarabalıqlar yaratdığını bilirsiniz. İnqilab naminə hökümfərma olan anarşı və millətlərin hüquqi elanından sonra yürüdülən qəti mərkəziyyətçilik Zaqafqaziya millətlərini öz başlarının çarəsinə baxmağa sövq etdi. Zaqafqaziyadan Rusiya qurucu məclisinə seçilən millət vəlilləri, özlərini vəkil edən camaatın hüququnu Zaqafqaziyada Seymini təşkil və onun istiqlalını elan etməkdə gördülər.

Eyni məntiq nəhayət Azərbaycan əhalisi tərəfindən seçilən vəkillərin Şurayi Milli təşkilinə sövq, bu milli şura isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu (alqışlar...).

Biz azərbaycanlılar bütün mövcudiyyətimizlə öz müqəddəratımızı, öz istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərirsək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti paydar olur. Fəqət bunun üçün təkrar

ediyorum səbat, mətanət, fədakarlıq istər. İstər ki, biz özümüzün istiqlala layiq olduğumuzu isbat edəlim. Bu oldumu, sizi təmin edərim ki, kimsə haqqımızı təslim etməmək cəsarətində bulunamaz. Hankı vicdandır ki, istiqlalı istəyən və ona ləyaqətini isbat edən bir milləti qəhr etsin. (Alqışlar.)

Əfəndilər! Qafqaziya ehkamı ruhunda heç zaman hürriyyət və istiqlal fikri hakim olmamışdır. Hürriyyət fikrinin mümməssili (təmsilçisi) olan «Prometey» Qafqaziya dağlarında zəncirbənd edilmişdi. O daimi zəncirlərini qırmaq təşəbbüsündə idi. «Prometey»in ruhu Qafqaziyanın butün millətlərində vardır. Qafqaziya millətlərinin istiqlalı və sərabərlikdə müstəqil olaraq yaşamaları bir xəyali-beid (uzaq xəyal) deyildir. Qardaş millətimiz olan Şimali Qafqaziya, qapı bir qonşumuz ermənilər münadibati-dostanəmiz, bütün cüziyyata rəğmən, daimən səmimi qalan gürcülər bizə bir çox mədəni xidmətləri toxunmuş rus camaatının mühüm bir qismi ilə əl-ələ verərək Qafqaziyanın müqəddəratını, bu qitə üzərində yaşayan millətlərin arzusu vəchi ilə təmin edə bilirik (Sürəkli alqışlar, təkrar alqışlar, yaşa, var ol səsləri.).

Əfəndilər, bu gün Azərbaycanın paytaxtında məclisi-məbusan iftitahındayız (Millət məclisinin açılışını yapırıq). Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman öz sinəsində bir atəşi müqəddəs bəsləməlidir. Bu atəş əski zamandan bəri həqiqipərəstlərə rəhbər bir şöleyi-ümid və imam təşkil eyləmişdir. O atəş ki, bu gün də sərvət və zaman (dövlət, zənginlik) səbəbi və baisi təməddündür (mədəniyyətdir). Qoy bu atəş Azərbaycan övladlarının sinələrinə dolsun. Milyonlarla ürəyi bu atəş əbədiyyən sönməz bir məşəl təşkil edib də hürriyyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın! (Sürəkli və şiddətli alqışlar...)»

...Alqış səsləri eşidilir. Binanın içərisində də, çölündə də alqış səsləri göylərə qanadlanır. Alqış səsləri binanın divarlarında, Bakının küçələrində, evlərində, insanların qəlbində alovlanır. Hər yer səsinin sehrinə, məhəbbətinə bürünüb. Hər yandan adamlar ümid, şəfqət dolu gözlərlə sənə baxıb deyirlər: «Yaşa, var ol!».

Parlament binası üzərində üç rəngli bayraq dalğalanır. Bu bayraq türklüyün (qırmızı), islamın (yaşıl) və müasirləşməyin (mavi) rəmzidir.

Parlament binasına min bir əziyyətlə qaldırdığın o bayraq həmişəlik olaraq milyonlarla insanın qəlbində əbədi məskən saldı, yaşadı, ömür etdi. Ən ağır zamanda belə o bayrağa məhəbbəti, o üç rəngə sevgini ürəklərdən silib apara bilmədilər. Qaranlıq zülmətlərdə, həbsxanalarda, uzaq şimalın soyuğunda belə adamlar o bayraqdan danışdılar, onu xoş xatirə kimi andılar.

Günlərin bir günü isə Vətən göylərini qara dumanlar alıb, yanan günəşini söndürəndə, hamı qara geyinib bir küncdə qəmli sükuta batanda, əmin qızı Ümgülsüm xanım yaşıl bayrağın parlament binası üzərindən endirilib oraya bolşeviklərin tökdüyü günahsız qanlar rəngində qırmızı parça asılmağına dözə bilməyəcəkdi.

Əmin qızını ona görə həbsxanaya salıb işgəncələr verəcəkdilər ki, o həqiqəti bilirdi. Parlament binasının üzərinə min bir müşkülatla qaldırıb «Bir dəfə yüksələn bayraq bir daha enməz» dediyin o bayrağın həsrəti əmin qızının içərisini göynədirdi və dərdə dözə bilmirdi.

Sən isə eşidirdin, uzaq ellərdə çırpına-çırpına eşidirdin bu ağrıları: O bayrağı bir daha xalqın başı üzərində yüksəltmək üçün elləri, obaları gəzib, bütün insanları köməyə çağırırdın...

...Hələlik 1918-ci ildir və parlament binasının üzərində üç rəngli, aylı, ulduzlu Azərbaycan Demokratik Respublikasının bayrağı dalğalanır.

İngilis generalı Tomson getdikcə həqiqəti aydın başa düşürdü. Azərbaycan hökuməti rəhbərlərinin mövqeyi ilə razılaşırdı. Çünki Tomson Azərbaycanda koalisyon (müttəfiq) hökumətin qurulmağını, yəni başqa millətlərin də burda iştirakını tələb etmişdi. Demokratik hökumət bu tələbi yerinə yetirmişdi. Lakin Bakıdakı rusların mövqeyi başqa idi və onların hərəkəti Tomsonu acıqlandırırdı. Azərbaycanın müstəqilliyini qəbul etməyən, buranı Rusiyanın ayrılmaz hissəsi kimi tanıyan ruslara Tomson hirslə demişdi: «Rusiya yoxdur və nə zaman olacağı da məlum deyil».

Azərbaycanda Demokratik respublikanın koalisyon (müttəfiq) ruhda fəaliyyətini nəzərə alan Tomson dekabrın 29-da bütün azərbaycanlıların ürəyindən olan bir bəyanat verir:

«Xoyskinin rəhbərliyi altında koalisyon Azərbaycan hökuməti yaradıldığını nəzərə alıb elan edirəm ki, İttifaq komandanlığı bu hökuməti Azərbaycanın bütün hüdudlarında yeganə yerli qanuni hakimiyyət kimi tamamilə müdafiə edəcək». (Bu bəyanatın cəmi bir ay əvvəl «Bizim bildiyimiz Azərbaycan xalqının doğma bir cümhuriyyəti yoxdur, yalnız türk komandanlığının intriqası ilə təşəkkül etmiş bir hökumət var» deyən Tomson tərəfindən verilməsi Azərbaycan Respublikasının böyük diplomatik qələbəsi idi).

...Tomsonun bu bəyanatından sonra Məmməd Əmin Rəsulzadə və bütün hökumət nazirləri rahat nəfəs almışdılar. Məmməd Əmin Rəsulzadə isə demişdi: «İndi bütün şübhələr dağılıb getdi».

Amma Tomsonun bu bəyanatı hamının ürəyindən olmadı. Rus və erməni təşkilatları Tomsona etiraz etməyə başladılar. Biri şovinistlik, digəri isə xainliklə silahlanmış iki qüvvə Azərbaycanın müstəqilliyini tanımaq istəmir, ciddi fəaliyyət aparırdılar. Çalışırdılar ki, neft sahələrində aranı qatıb çaxnaşmalar yaratsınlar. Lakin... Məmməd Əmin Rəsulzadənin lideri olduğu «Müsavat» partiyasının üzvləri işləyirdi:

Əmisi oğlu Məmməd Əli Rəsuloğlunun xatirəsi:

«...Bu xəbəri duyan erməni və ruslar azərbaycanlıları zəif göstərmək üçün neft ocaqlarında çalışan işçi və ustalara, Xəzər dənizi gəmilərində çalışan dənizçilərə bir protesto yapdırmağa çalışdılar. Fəqət «müsavatçı»ların ciddi çalışmaları və propaqandaları nəticəsində bu hərəkətin qarşısı alındı. Bu işdə

Abbas bəy, Vəli bəy, Piri bəy, Abdulvahab bəy və adlarını indi xatırlayammadığım və sonradan bolşeviklər tərəfindən öldürülmüş, sürülmüş bir çox gənc arkadaşlarımızın böyük fədakarlıqlar göstərdiklərini ayrıca qeyd etmək istəyirəm. Bu surətlə ingilislər böyük bir önəm daşıyan neft ocaqlarında qüvvətin erməni və rusların deyil, Azəri türklərinin əlində olduğuna inanaraq, Azərbaycanı Azəri türklərinə təslim etməyə qərar verdilər. İngilis komandanlığında Fətəli xana: «Biz Qafqaziyada bu qədər kulturlu və çalışqan türk kütləsinin olduğunu təsəvvür etmirdik» demişdilər.

...Məmməd Əmin Rəsulzadə erməni və rusların təhlükəli iş görüb, Azərbaycan hökumətini zəiflətmək məqsədini güddüklərini bilirdi və bununla əlaqədar hökumətin ingilis komandanlığına etiraz bəyanatı verməyini vacib sayırdı.

Azərbaycan hökuməti tezliklə öz etiraz notasını bildirdi.

Həmin hadisəni Məmməd Əmin Rəsulzadə belə xatırlayırdı: hökumət bununla iktifa etmirdi. Komandanlığa verdiyi notada «səlahiyyəti-hürriyyət» komandanlıqca tanınmış bir Azərbaycan hökuməti var ikən düvəli-müttəfiqədən bulunmayan rus Biçeraxov ordusu ilə asayişi ümumiyyəyi müxəll olmaqdan başqa bir faidəsi mütəsəvvir bulunmuyan erməni məfrəzəsinin Bakıda bulunmalarına bir səbəb olmadığını bəyanla məzkur qitəati-əsgəriyyənin bir an əvvəl Azərbaycandan uzaqlaşmasını tələb eylədi. Bu nota üzərində Biçeraxov alayı 48 saatlıq bir möhlət zərfində Bakını tərkə məcbur olduğu kimi, erməni məfrəzələrinin inhilalı dəxi təqərrür etdi».

Biçeraxovun başçılıq etdiyi şovinist ruslar, xain ermənilər Bakını tərk edirdilər. Gedəndə içərilərindəki qəzəbi, kini gizlədə bilməyib azərbaycanlıları təhqir edir, bununla iğtişaş salmaq istəyirdilər. Xalq isə dözür, dayanır, bu xainlərin tez yox olmalarını istəyirdilər.

Bakıda ingilislər qalmışdı. İngilislər getdikcə Azərbaycanın işlərinə az müdaxilə edirdilər.

...Vəziyyətin gərginliyinə və mürəkkəbliyinə baxmayaraq azərbaycanlıların yaşayışında milli ruh «hər şey özününküdür» istiqamətində gedirdi. Hökumət işləyir, yeni qanunlar verir, nizam-intizam möhkəmlənir, iqtisadiyyat ölgünlük bataqlığından çıxarılırdı. Xalqın ərzaqla təminatı getdikcə yaxşılaşırdı. Yaxın rayonlardan Bakıya köməklik göstərilir, camaatın xüsusilə çətinlik çəkdiyi çörək ehtiyacı ödənilirdi. Əhalinin dolanışığının yaxşılaşmağı və bazarda bolluq olmağından ötrü sərbəst satışa imkan verilirdi.

Azad Azərbaycanda xalqın güzəranı daha da xoş olur, adamlar ana torpağındakı sərvətlərin ixtiyarını ələ alırdılar.

Xalq xoşbəxt idi. Çünki torpağının da, neftinin də, varının, dövlətinin də sahibliyini öz ixtiyarına vermişdilər.

Məmməd Əmin Rəsulzadə neçə gün idi ki, hökumət nazirləri ilə ciddi söhbətlər aparırdı. Qarşıda Azərbaycan hökumətini çətin sınaq gözləyirdi. Fransada Versal sülh konfransı keçiriləcəkdi, bunun üçün oraya gedən heyət

müəyyənləşdirilməliydi. Bu heyət Azərbaycanın müstəqilliyini xarici dövlətlərə tanıtmalı və onun hüququnu müdafiə etməli idi. Heyətə olduqca məsuliyyətli bir iş tapşırılırdı.

Versal sülh konfransına aşağıdakı heyətdə nümayəndələr göndərməyi qərara aldılar: Əli Mərdan bəy Topçubaşov, (heyətin başçısı), Əhməd bəy Ağa oğlu, Əkbər ağa Şeyxülislamzadə, Məhəmməd Həsən bəy Hacınski, Mir Yaqub Mehdizadə, Məhəmməd bəy Məhərrəmzadə, Ceyhun bəy Hacıbəyli.

Yanvarın əvvəllərində heyət yola düşdü. Böyük ümidlə, Azərbaycan istiqlalını dünyaya tanıtmaq istəyi ilə bu adamlar uzaq Parisə yollandılar.

Mehribanlıq və səmimiyyət hissi ilə ayrıldılar. Ayrılanda əməli və qayələri bir olan həmvətənlərinə baxdı. Demək istədi ki, indi bütün ümidlər sizədir. Azərbaycanın azadlıq səsini bütün dünyaya siz yaymalısınız.

Məmməd Əmin Rəsulzadə heyətin hansı çətin iş yerinə yetirəcəyini yaxşı bilirdi. Heyət indiyə kimi imperiya zülmü altında inləmiş, həmişə Rusiyanın bir əyaləti kimi yaşamış ölkəni müstəqil dövlət olaraq dünyaya tanıtmalı idi. Deməli idi ki, Azərbaycan Rusiyadan ayrılmış, özü öz müqəddəratını həll etməyə qadir olan bir ölkədir. Görən amerikalını, ingilisi, fransızı indiyədək azərbaycanlını «qara tatar» «avam müsəlman» kimi qəbul edən bu xalqları Azərbaycanın müstəqil bir dövlət kimi yaşaya biləcəyinə inandırmaq mümküm olacaqmı? Çar Rusiyası Azərbaycanın varlığını inkar etməklə onun beynəlxalq aləmdə məhvinə səbəb olub. Avropalı, amerikalı üçün yalnız sıldırım qayaları, yaşıl meşələri, sonsuz gözəllikləri olan Qafqaz var. Bir də onların bildiyi yalnız budur! Qafqazda — Rusiyanın bu əyalətində kiçik xalqlar yaşayır. Bu xalqlardan hansı birininsə ayrılıb -müstəqil dövlət halına keçməyini onlar qəbul edəcəkmi?

Amma inanırdı. İnanırdı ki, bu millətin imzası dünyanın bütün azad xalqlarının arasında görünəcək. Onlar inanacaq Azərbaycanın özünü yaşatmaq bacarığına. Bu xalqın düşünən başlı, saf əqidəli, milli qeyrətli oğulları çoxdur. Və başını köləlik zəncirindən təzəcə xilas etmiş bu xalq hələ çox işıqlı düşüncəli, yüksək istedad sahibi olan adamlar yetirəcək. Elə ingilis Tomsonu inandıran, öz kübar davranışı, yüksək məntiqi biliyi ilə onu heyrətdə qoyan bu adamlar olmadımı? Əhməd Ağa oğlunun, Fətəli xanın yüksək savadına Tomson necə də heyran kəsilmişdi? Yox, bu adamlarla hər işi görmək mümkündür.

Belə işıqlı ümidlər içində gedənləri düşünürdü.

**Gedənlərin ağrısı.** Versal müqaviləsinə gedənlər elə ilk günlərdən çətinliklə qarşılaşmışdılar. Əvvəlcə nümayəndə heyətini konfransa buraxmaq istəməmiş, günlərlə gözləməyə məcbur etmişdilər. Sonradan bunun səbəbi də müəyyənləşmişdi. Məlum olmuşdu ki, fransızlar Bakıdan gələn nümayəndələrə ingilis müstəmləkəsindən gələnlər kimi baxırlar. Sonradan nümayəndə heyəti ciddi danışıqlar aparıb Parisə getmək icazəsini almışdı. İşin belə həlli zamanı daha bir xoşagəlməz hadisə baş vermişdi. Həmişə əlində hazır bıçaq tutub onu azərbaycanlıya vurmaq istəyən ermənilər yenə qazan qaynatmışdılar. Fransızca

çıxan erməni qəzeti Əhməd bəy Ağa oğlunun əleyhinə əks təbliğat kompaniyasına başlamışdı. Əhməd bəy Ağa oğlunu Türkiyə parlamentinin üzvü, türk qəzetlərində «müttəfiqlər» əleyhinə çoxlu məqalələr yazmış jurnalist kimi təbliğ edib nüfuzdan salmağa çalışırdılar. Çünki bilirdilər ki, "Əhməd bəyin çox geniş diplomatik ustalığı, siyasi uzaqgörənliyi, danışıqları məharətlə aparmaq bacarığı var. Xain ermənilər bunu yaxşı bilirdilər. Və həmişə özgələrin kölgəsinə sığınmağı bacaran bu adamlar indi də fransızlara «əmi» deyib, azərbaycanlıları gözdən salmağa cəhd edirdilər. Xəyanət öz işini görmüşdü. Əhməd bəy Ağa oğlunu danışıqda iştirak etməyə qoymamışdılar. Əhməd bəy Ağa oğlunun əslən qarabağlı olması və Azərbaycan partamentinin deputatı seçilməsini təsdiq edən sənədlərlə yanaşı, Tomsonun verdiyi zəmanətin də göstərilməsindən bir fayda çıxmamışdı. Ermənilərin xain zərbəsi ucbatından nümayəndə heyəti çətin vəziyyətə düşmüşdü.

...Bütün bunları Məmməd Əmin Rəsulzadə Əli Mərdan bəy Topçubaşovun Azərbaycan hökumətinə (mart ayında) göndərdiyi məktubdan öyrənmişdi. Ermənilərin xəyanətkarlığı onu və bütün nazirləri dilxor etmişdi.

...Amma həyat davam edirdi.

Azərbaycan xalqı Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı altında azad həyat yaşayırdı.

Vətən varsa mən də varam! Vətən nəfəs alıb yaşayırsa, mən də yaşayıram. Vətənsiz yaşamağı neyləyirəm ki! Vətənsiz də insan olarmı? Vətənsiz insan həyat ləzzəti anlamaz! Daim içərisi ağrı ilə kəsilər, əzab-əziyyətdən yaxa qurtarmaz! Vətənsiz insanın üzü gülsə də ürəyi qan ağlar. Vətənin olmağından ötrü bəs nə gərək? Onu qorumaq, keşiyini çəkmək, yadlar hücumundan xilas etmək, başı üzərində kiminsə qılıncının parlamağına imkan verməmək. Və nəhayət, onun yolunda can əsirgəməmək, canı qurban vermək. Qurbansız, şəhidsiz Vətən azad olarmı? Vətənin azadlığa gedən yolu şəhidinin, qurbanının içərisindən keçir. Onların pak ruhu ilə Vətən istiqlaliyyətin qədir-qiymətini bilir. Vətən onlardan—o pak ruhlu şəhidlərdən başlayır. Vətənin torpağı da, suyu da, havası da onların istəklərindən, arzularından axıb gəlir. Bu həqiqətdir! Vətənin varlığını yaşadan həqiqətdir! Vətən onda azad olur, zülmətlərdən qurtarır! Və sən o şəhidli, qurbanlı Vətənə, o azad, başı üzərində istiqlaliyyət bayrağı dalğalanan Vətənə baxıb deyirsən: nə qədər ki, vətəndəyəm diriyəm.

İndi mən diriyəm! Çünki vətənim azaddır. Vətənimin göylərində üç rəngli bayraq dalğalanır. Çöllər, çəmənlər, güllər, çiçəklər bu bayrağın nuru ilə boy atır, böyüyürlər. Bu bayraqdan adamların üzünə təbəssüm qopur, qəlblərinə sevinc axır. Vətən azaddır, mən isə diriyəm! Vətənsiz diri də olmazdım, yaşamazdım!

Adamlar Azad Azərbaycanda xoşbəxt ömür-gün sürürdülər. Getdikcə hamıda Vətənin bütövlüyü, onu parçalanmağa qoymamaq fikri möhkəmlənirdi. Bu günə kimi adamlar, bütöv Vətən anlayışı işlətməmişdilər. Onlara görə vətən yalnız doğulub boya-başa çatdığın kənddir, obadır. İmperiya əsarəti, amansız çar siyasəti xalqın «bütöv vətən» anlayışını öldürmüşdü. İmperiyadan əvvəl isə adamlar

«xanlıqlar» xəstəliyindən yaxa qurtara bilməmişdilər. Qarabağ xanlığı, Şəki xanlığı, Naxçıvan xanlığı... Bunlar əslində xanlıq deyildi, xalqın parçalanması, dəstə-dəstə yaşayıb gücdən düşməsi idi. Elə bunun nəticəsi idi ki, çar qoşunları Azərbaycana hücuma keçəndə iki xan bir-birilə işbirliyinə gələ bilmədi. Hərəsi çəkilib bir yanda durdu. Tədbirli, siyasətcil düşmən hərəsini bir yolla təkləyib qanlı İmperiya pəncəsinə keçirtdi. Bəli, birləşə bilmədi xanlıqlar. Birləşə bilmədilər və məhv oldular. Çünki elə o zamanın özündə də «bütöv vətən» anlayışı yox idi. Bu xalqın bostanına ela qara daş atmışdılar ki, neçə əsrlər idi yalnız parçalanmaq, bir-biri ilə didişmək toxumu cücərdirdi. Xətai dövründə alovlanan «bütöv vətən» fikri yaddaşlardan silinib getmişdi. Çar imperiyası isə özünün iyrənc oyunları, xatalı hiyləgərlikləri ilə adamlarda vətən hissini öldürmüşdü.

...Budur, indi xalq azaddır. Xalqın azad qəzetləri, jurnalları «bütöv Azərbaycan»dan danışır, onun şanlı tarixini, işıqlı keçmişini təbliğ edir. Adamlara hər gün belə fikir çatdırırlar: sən nə qarabağlısan, nə naxçıvanlı, nə şəkili, şirvanlı, sən azərbaycanlısan! Bu adı həmişəlik yaddaşında saxla və onunla fəxr et!

Məmməd Əmin Rəsulzadəni indi bir məsələ narahat edirdi: milli ordunun Bakıya gətirilməsi. İngilislərin danışığından belə məlum oldu ki, onlar milli ordunun Bakıya gəlməyinə etiraz etmirlər. Az sonra isə məqsədlərini açıq etiraf edəcəkdilər ki, Bakıdan çıxıb gedirlər. İngilislərlə razılaşandan sonra ordunun Bakıya gəlməyinə göstəriş verdilər. (Çünki Tomson yalnız türklərin deyil, Azərbaycan ordusunun da çıxıb getməyinə göstəriş vermişdi.)

Budur, indi milli ordunun yenidən Bakıya gəlməyinə razılıq alınıb. Sabah Azərbaycan əsgərləri Bakıya gəlir.

1919-cu il aprelin 4-ü idi.

Aprelin 5-nə, milli qoşunun Bakıya gələcəyinə lap az, cəmisi bir gün qalırdı.

O isə qurduğu azad hökumətin milli qoşununu yaratmağın çətinliklərini, hansı maneələrin üzə çıxdığını və indinin özündəki əngəlləri acı-acı xatırlayıb düşünürdü.

...Rusiya imperiyasındakı türklər əsgərlik hüququndan məhrum idi. Yalnız Volqa boyunda yaşayan türkləri əsgərliyə götürürdülər. Ona görə də Azərbaycanın milli ordusunu yaratmaq söhbəti ortalığa çıxanda o, demək olar ki, anlaşılmaz vəziyyətdə qalmışdı. Ordusuz hökumət olmazdı. Ordu hökumətin dayağı, onu saxlayan qüvvədir. Mütləq ordu yaratmaq lazım idi.

Hələ 1917-ci ilin dekabrından Zaqafqaziya ərazisində ayrı-ayrı milli korpuslar yaradılırdı: erməni, gürcü, müsəlman. Müsəlman korpusunda yeganə nizami korpus — Birinci atlı tatar polku idi. Bu polku «dikiy» (vəhşi) diviziya adlandırırdılar.

Hökumət elan ediləndən sonra Gəncəyə köçdülər. Batumda Türkiyə nümayəndəliyi ilə danışıqlar aparanda əsas diqqəti milli ordunun yaradılmasına yönəltmişdilər. Türklər köməklik göstərəcəklərini bildirmişdilər. Və qısa bir

zamanda Gəncəyə gələn kimi nizamlı qoşun yaratmağa başladılar. 1918-ci ilin 11 iyulunda türk komandanlığı 1894-99-cu illərdə anadan olanları əsgəri xidmətə çağırır. Elə bütün çətinliklər, toqquşmalar, böhranlar da burda başlayır. Adamlar indiyə kimi görünməmiş hadisə ilə qarşılaşırdılar: Əsgərlik! Neçə ay evindən-eşiyindən ayrı düş! Kiminsə əmrində dayan, yarıac, yarıtox dolan! Bu kimə lazımdır! Biz uşaqlarımızı əsgərliyə vermirik. Uşağımı gözümdən kənaramı qoyacağam getsin? Uşaq saxlamışam ki, gedib güllə qabağında dayansın?

Adamlar belə deyirdi və uşaqlarını əsgərliyə vermək istəmirdilər. Vəziyyət çox dözülməz, acınacaqlı idi.

Məmməd Əmin Rəsulzadənin sözü:

«Bu üzdən ordu təşkili azərbaycanlılar üçün pək müşkül bir iş oluyordu. Fərəza, Rusiyadan ayrılmış Ermənistan və yaxud Gürcüstan hökumətləri nəşr eylədikləri bir əmrnamə ilə filan sənəsində rus ordusunda xidmət eyləmiş nəfər və zabitanı silah altına dəvət edincə on gün sonra yeni hökumətin ilk əsgəri-kadrosunu təşkil edən, hərbüzərb görmüş, barıt qoxumuş bir qüvvət vücuda gəliyordu. Azərbaycan isə bundan məhrum idi. Ordunu ordu edən zabitandır. Bu xüsusda dəki Azərbaycan məhrumiyyəti-tammə içində idi. Rusiya ordusunda xidmət eyləmiş zabitan pək məhdud idi...»

Türklər milli ordu yaradılmasında böyük işlər görürdü. Bu sahədə Nuru paşanın böyük əziyyətləri vardı. Tez-tez əyalətlərə gedən Nuru paşa adamlarla görüşündə həmişə bir şeyi—adamların uşaqlarını əsgərliyə verməsini təbliğ edir, bunu zərurət sayırdı. Nuru paşa Gəncədə hərbi məktəb açdırmışdı. Hərbi məktəbdə çoxlu fədakar azərbaycanlılar oxuyurdu.

Lakin orduda vəziyyət pis idi. Nuru paşa söhbətlərinin birində Məmməd Əmin Rəsulzadəyə əsgər toplamağın çətinliyindən ağrılı-ağrılı danışmışdı. Türklər Bakıdan gedəndən sonra bu işin daha qorxulu tərəfləri ilə toqquşmalı oldular. Məsələn, əhalisinin səkkiz mindən çoxu müsəlman olan Bakıdan 5000 əvəzinə 800 adam əsgərliyə verilmişdi. O böyüklükdə Qarabağ general qubernatorluğundan (yüz iyirmi min müsəlman əhalisi) 7200 əvəzinə, 1902 adam əsgərliyə götürülmüşdü. Şamaxıdan 1800, Kürdəmirdən 930 adamı əsgərliyə götürmək mümkün olmuşdu. Bakının kəndləri ilə müqayisədə bu iş daha qorxulu hal almışdı. Adamlar nəinki etirazını bildirir, uşaqlarını vermirdilər, eyni zamanda gələn adamlara hücumlar edir, xəsarət yetirirdilər. Qazax qəzasında ağır fəlakətlər olmuşdu. Kəndləri gəzib əsgərliyə uşaq yığan bir starşinanı öldürmüşdülər. Aslanbəyli, Kəmərli kəndlərində də hökumət və ordu nümayəndələrini yaxına buraxmırdılar.

Dözülməz hallardan biri də ordudan qaçmaq idi. Hərbi nazir Səməd bəy Mehmandarov gileylənib deyirdi:

«Əsgəri xidmətə çağırılanların hələ türklərin vaxtından ordudan qaçmaq halları indinin özündə davam etməkdədir. Bunun da kəskin səbəbləri vardır: pis yemək, geyimin, ayaqqabının verilməməsi və s...»

Lakin şərait çətin idi. Yüz ildən çox əsgəri xidmətdən məhrum olan xalqın ağrısını bir günə, bir ilə sağaltmaq mümkün deyildi. Bundan ötrü vaxt, uzunmüddətli zaman gərəkdi ...

Polkovnik Səlimov hökumətin adına verdiyi gizli raportda gileyli halda yazırdı:

«...Demək olar ki, bütün əsgərlər Azərbaycanın əyalətlərində yerli əhalinin hesabına dolanır, yarıac həyat sürürlər. Hətta belə böyük və varlı bir şəhər olan Bakıda əsgərlərə yemək tapılmır. Nə polkun, nə diviziyanın, nə də korpusların anbarları var. Əsgərləri həmişə «un şorbası» ilə yedirtmək olmaz ki! ...10-cu polkun çoxlu əsgəri çəkməsiz və corabsızdır. Ordunu yeməksiz, paltarsız, atsız və təchizatsız yaratmaq olmaz. Yarıac, paltarsız əsgər əlbəttə ki, evə qaçmaq istəyəcək.

Özümə mənəvi borc bilərək aşağıdakı fikirlərimi çatdırıram:

1) Günün şüarı ancaq bu olmalıdır: hər şey ordu üçün.

2) Kağızda deyil, rəsmi şəkildə bir korpus yaratmaq lazımdır.

3) Belə bir korpusun yaradılması və təminatı üçün vəsait əsirgəmək lazım deyil. Böyük Napaleon deyirdi ki, müharibə üçün üç şey lazımdır: 1—pul; 2—pul; 3—pul.

Ordunu yedirtmək, geyindirmək və bolşevikləri nəzərdən qaçırmadan hər cür xəstəliklərdən qorumaq lazımdır».

..Polkovnik Səlimovun məlumatında acı həqiqətlər vardı. Lakin Məmməd Əmin Rəsulzadəni ən çox ağrıdan Azərbaycanlı bolşeviklər idi. Orduda əks-təbliğat aparır, cavanları qaçmağa sövq edirdilər.

Orduda təchizatın da pis olduğunu bilirdi. Amma nə etmək olardı? Adamlardan məcburən pul yığmaq mümkün deyildi. Onsuz da məqam gözləyən xain qüvvələr bundan istifadə edərdilər. Digər tərəfdən silah alınması da çətinləşmişdi. İngilislər ikitərəfli oyun aparırdılar. Azərbaycanın müstəqilliyini tanısalar da, milli orduya çox az silah satırdılar. Əsgərlərin yaşayış yerləri də pis şəraitdə idi. Hər dəfə Mehmandarovla, ordu zabitləri ilə görüşəndə böyük inamla onlara təskinlik verir, deyirdi ki, dözün, hər şey yaxşı olacaq. Az sonra Azərbaycanın elə güclü ordusu yaranacaq ki, hamı ona həsəd aparacaq! Zabitlər dözürdü hər çətinliyə! Mehmandarov böyük sərkərdə idi! Milli ordunun möhkəmlənməyində çox xidməti vardı.

Ən çox giley-güzar ərzaqla təchizat sarıdan idi. Ucqar yerlərdə adamlar ərzağı gizlədir, əsgərlərə vermirdilər. İndiyə kimi yazıq, avam Azərbaycan kəndlisi harda eşitmişdi ki, əsgərə çörək lazımdır vermək, çünki o səni qoruyur. Kəndli bilmirdi bunları. Bu düşüncədən məhrum idi. Ondan ötrü yalnız bir yaşayış norması vardı: Azərbaycan kimin əlində olursa olsun, mənə dəxli yoxdur. Gündəlik çörəyim tapılsın.

Adamlar belə yanlış əqidənin əsirinə çevrilmişdilər. Ona görə də əsgəri sevmək, onu qorumaq, saxlamaq, bu sənin öz övladındır, keşiyini çəkir deyib kəndlini inandırmaq müşkül iş idi.

...Şəraitin çətinliyi, xalqın düşdüyü vəziyyətin ağırlığı hamısı onun içərisindən keçirdi. O bu hökumətin başçısı idi. Böyük iş götürmüşdü üzərinə. Bir də belə gün üçün azmı əziyyətlər çəkmişdi! Elə bu gün üçün çalışıb ömrünün neçə ilini qurban verməmişdimi? O gün gəlmişdi! Xalq azad idi! Amma azadlığı elan etməklə xalq zülmət dünyasından xilas olmur. Xalqa azadlığı onun yaşayışında, güzəranında göstərmək gərəkdir. Azadlığın ilkin qoruyucusu milli ordudur. Ordusu olmayan xalq ağacın qırılıb düşməkdə olan yarpağına bənzəyir. Hər zaman küləyin o yarpağı yerə salıb məhv etmək təhlükəsi var. O yarpağı əsən küləkdən qorumaq lazımdır. Külək əsməyə başlayırdı. Həm kənardan, həm də daxildən küləyi qızışdırıb daha da bərk əsməyə məcbur edirdilər.

Azərbaycan milli ordusu min bir çətinliklə üz-üzə dayanmışdı.

Budur, komandanlıqdan yenə narahat və qanqaraldıcı məlumat alınıb. Adamlar orduya verilən atın qiymətini qaldırıblar: əvvəllər bir atın qiyməti 3—5 min manat idi. İndi isə qaldırıb 15—25 minə çatdırıblar.

Ordu zabitləri narahatdır. Mehmandarov hökuməti yaranmış vəziyyətdən, qarşıya çıxan hər çətinlikdən vaxtında xəbərdar edir.

...O isə içərisində inam hissini öldürmür. Təmkinli dövlət başçısı kimi hərəkət edir. Düşünür ki, adamları inandırmaq, yalnız inandırmaq lazımdır. Adamlar bilməlidirlər ki, bu onun öz ordusudur, keşiyini çəkib düşməndən qorumaq üçün yaradılır. O inanmalıdır. Xalqın tezliklə bu həqiqəti qəbul edəcəyinə şübhə də etmir. O bu xalqı sevir, varlığı, həyatının mənası, yaşayışının idealı kimi xalqına vurğundur. Həm də bərk həyəcanlıdır, narahatdır. Düşünür ki, bu tarixi bir fürsətdir, bu imkanı əldən buraxmaq olmaz. Xalq çətinliklə əsarətdən qurtarıb, azadlığa çıxıb. Onun azadlığını təhlükə altında qoymaq olmaz. Bakıya maraq çoxdur. Kim bilir, neçə əjdaha ağzını açıb bu yağlı tikəni udmaq istəyir. O əjdahaların qarşısını ala biləcək yeganə qüvvə milli ordudur. Tələsmək, tələsmək gərəkdir.

Düşünürdü milli hökumətin başçısı. Ümidli, işıqlı, amma narahat günlər yaşayırdı.

Orduda isə bütün çətinliklərə baxmayaraq böyük işlər aparılırdı.

...Hələ 1918-ci ilin 6 noyabrında hökumətin qərarı ilə hərbi nazirlik yaradılmışdı. Nazirliyin bütün işlərini qurub qaydaya salmaq hərbi nazir, artilleriya generalı Mehmandarova tapşırılmışdı. Nəzərdə tutulmuşdu ki, 1919-cu ilin noyabrın 1-nə kimi ordunun mühüm hissəsi yaradılsın. Bu müddət ərzində üç polk heyətindən ibarət iki piyada diviziyası, artilleriya diviziyası və xüsusi hissələrin daxil olduğu teleqraf, atlı, pulemyotçu və polk artilleriyası dəstələri yaradılmalı idi. Sonradan isə tərkibində üç polk olan süvari diviziya, hava dəstəsi və dəmiryol batalyonu təşkil olunmalı idi.

Orduda iş gedirdi. Çətinliklərə, maneələrə, ərzağının verilməməsinə, suyunun kəsilməyinə, bolşeviklərin əsgərləri ordudan qaçırmaq təbliğatına baxmayaraq Azərbaycan əsgəri əlində silah Vətənin keşiyində dayanırdı.

Hərbi nazir Mehmandarov döyüşçülər və xalq üçün türk xalqının tarixindən bəhs edən kütləvi ədəbiyyatlar nəşr edilməyini lazım bilirdi. Mehmandarov yazırdı:

«...Biz müsəlmanlar yenicə şüurlu və yaradıcı həyata başlamışıq... Ona görə də ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqı və əsgərləri öz tarixi ilə tanış etməkdir... Bu şübhəsiz ki, xalqın milli hisslərini və türk irqinə məxsusluğu ilə iftixarını artıracaqdır».

General haqlı idi. Və düzgün olaraq bir şeyi də tələb edirdi: Türk xalqının görkəmli adamlarına, rəhbərlərinə xalqın ümumi razılığı ilə gələcəkdə heykəl qoyulmalıdır. Bu xalqın yaddaş tarixini möhkəmləndirəcəkdir.

... «Məhmətciy»in kim olmasını bilməməyi Azərbaycanın bütün işıqlı əməl sahiblərini ağrıdır, narahat edirdi. «Məhmətcik» özünün türk olduğunu, şanlı keçmişini, tarixini bilmirsə, onun Vətəni müdafiə etmək istəyi də olmayacaq. «Məhmətciyin» həqiqəti qavraması üçün onun ulu babalarının tarixindən danışan kitablar nəşr etmək lazım idi.

Orduda vəziyyətin çətinliyinə baxmayaraq dözüb dayanan mərd və cəsur azərbaycanlı oğullar çox idi. Pəncərəsiz, qapısız kazarmalarda yaşayan, çəkmənin olmaması ucbatından ayağına çarıq geyinmiş Azərbaycan əskəri Vətənini sevir, onu yağılardan qoruyurdu...

**Şahid sözü. Müsavatçı əsgər.** Hadisədən çox illər keçəcək və heç düşünməzdim də ki, günlərin bir günü tale məni bir müsavatçı əsgərlə görüşdürəcək. Müsavatçı əsgərlərdən ikisinin sorağını almışdım. Biri Sabirabadda, Ulacalı kəndində yaşayır. İkincisinin isə əmircanlı olduğunu, lakin artıq həyatdan köçdüyünü öyrənmişdim. Özü də danışıb söhbət edəndə həmişə deyərmiş ki, «Azərbaycan vaxtında» belə yaşayardıq, «Azərbaycan dövründə belə edərdik. Belə deyirmiş o qoca müsavatçı əsgər. Ömrünün iyirmi üç ayını yaşadığı o xoş zamanı necə dəqiq və düzgün ifadə edirmiş: «Azərbaycan dövrü». İndi bir daha inanırıq ki, bizim son iki yüz ildəki yaşayışımızda yalnız iyirmi üç aylıq «Azərbaycan dövrü» olub. Xalq azad olub, müstəqil yaşayıb: O dövrün işığı hələ ürəyində sönməyən qoca müsavatçı əsgər isə həmişə məhəbbətlə, həsrətlə deyərmiş: «Azərbaycan dövrü». Min bir çətinliyə baxmayaraq Azərbaycan hökumətinin milli ordusu yaradılırdı. Bu ordunun qəhrəmanlıq, cəsarət, vətən sevgili oxumalarını xalq eşidir, ürəyi iftixar hissi ilə dolurdu.

Sabahı hamı intizarla gözləyirdi. Sabah Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Demokratik Respublikasının milli ordusu Bakıya gəlirdi. Analar həsrətlə əsgər paltarı geyinib vətənin keşiyini çəkən oğullarını gözləyirdilər.

1919-cu il aprelin 4-ü idi. Milli Azərbaycan ordusunun Bakıya girməsinə bir gün qalırdı.

Özü sonradan belə yazırdı:

«Hökuməti milliyyə zamanında Bakının yaşadığı ən səmimi sevinc günlərindən birisi də bu idi».

Xoşbəxtsən, ey Azəri qadını! Xoşbəxtsən ki, oğlun əsgər paltarı geyib fəxrlə, vüqarla önündən keçir! Gözlərində təbəssüm, qollarında dağ qüvvəti Bakının küçələri ilə addımlayır! Oğlunun bu xoş gününə baxıb ağlayırsan. Ağlama, Azəri qadını, ağlama! Sevincdən, fərəhdən də olsa, ağlama! Azmı göz yaşı axıb! Azmı iniltilərin eşidilib! Azmı ağlar gündə saxlayıb, göz yaşını axıdıblar! İndi isə gül, Azəri qadını, gül! Gül ki, ürək sevincini bütün dünyalar eşitsin! Bütün cahan, külli ərz bilsin ki, azadsan! Və əyninə əsgəri paltar geymiş, əli silahlı mərd övladın səni qara qüvvələrdən qoruyur. Gül ki, sənin bəxtəvərlik səsindən dağlar, daşlar lərzəyə gəlsin, azad bir günə çıxdığını bilsin! Gül ki, sənə hər zaman xəyanət edib zülmətdə yaşadan, indi isə yurdundan qovulub təmizlənən işğalçılar səsindən qorxuya düşsünlər! Çünki sənin əli silahlı, mərd, cəsur övladın var. Gül, Azəri anası, gül!

Həmin günün ürəklərə bəxş etdiyi sevinci heç kim unutmayacaq. Əsgəri təlim keçib nizamla, hərbi qayda ilə Bakının küçələrindən keçən azərbaycanlı əsgərləri hamı məhəbbətlə salamlayırdı.

Bakı camaatı rahat nəfəs almağa başlamışdı. İndi onu qoruyan, fəlakətlərdən gözləyən bir qüvvəsi vardı. Özü də bu qüvvə onun öz doğma övladı idi. Adamlar xoşbəxt və azad dövran yaşayırdılar. Çünki xalqın bütün sərvəti öz əlində idi. Xalq torpağının da, neftinin də, bütün varının, dövlətinin də sahibi idi. Xalqın öz milli ordusu vardı, onun sərhədlərini düşmənindən qoruyurdu.

Sonradan hakimiyyətə gələn bolşeviklər Məmməd Əmin Rəsulzadəni və onun başçısı olduğu azad hökumətini bir şeydə günahlandıracaqdılar, daha doğrusu üstlərinə böhtan atacaqdılar ki, torpağı niyə kasıblara verməmişdiniz? Belə deyib «Demokratik» hökuməti ittiham edəcək, onu «bəyin, xanın» müdafiəçisi adlandıracaqlar. Sonralar Məmməd Əmin Rəsulzadə bu iftiraları eşidəndə acı-acı gülümsünəcəkdi. Deyəcəkdi ki, bu sözlər həqiqətdən uzaqdır, çox uzaqdır. Həqiqət isə başqa faktları ortalığa çıxarırdı. Hansı faktları?

Azərbaycan Demokratik Respublikası hələ fəaliyyətə başlamazdan qabaq Məmməd Əmin Rəsulzadənin lideri olduğu «Müsavat» partiyası 1917-ci ilin oktyabrında özünün proqramını qəbul etmişdi. Həmin proqramın «torpaq məsələsi» bölməsində qeyd olunurdu ki, «xəzinəyə, sabiq padşaha və padşah nəslinə mənsub xanədana, mülkədarlarla xüsusi maliklərə məxsus olan bütün torpaqlar pulsuz və əvəzsiz olaraq zəhmətkeş və rəncbər xalqa veriləcəkdir». Bu «müsavatçı»ların torpaq ilə bağlı həyata keçirmək istədikləri proqram idi. Və Azərbaycan Demokratik Respublikasının ilk günlərindən Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi hökumət bu işin həllinə başladı. Həmin vaxtlar hökumətin ilkin atdığı addım aralarında daim ziddiyyət olan iki sinfi - bəylərlə kəndliləri barışdırmaq cəhdi oldu. Çünki torpağın düzgün bölünməsində bu iki

sinfin arasındakı münasibətdən çox şey asılı idi. Parlament üzvlərindən bir neçəsi qəzalara göndərilirdi ki, bəylər və kəndlilər arasındakı ziddiyyəti aradan qaldırsınlar. Hökumətin gördüyü iş yaxşı da nəticələr verirdi.

...İngilislər getməyə hazırlaşırdılar. Tomson Azərbaycanda qalmağın əhəmiyyətsiz iş olduğunu anlamışdı. Bir də milli hökumətin qoşunu artıq Bakıda idi. İngilislər bu getmələri ilə bir başqa siyasi mənfəət də güdürdülər.

Məmməd Əmin Rəsulzadə bunu belə izah edirdi:

«Bittəb ingilislərin bu hərəkəti azərbaycanlıların qara gözlərinə aşiq olduqlarından irəli gəlmirdi. Zatən eşqin bir siyasət amili olduğu dastanı zamanların ibtidailiyi ilə bərabər çoxdan əfsanəyə qarışıb getmişdir. Burada eşq deyil, siyasi və iqtisadi mənfəətlər vardır. Bakı petrolunun müstəqil qafqaziyalı bir hökumət əldə bulunması və ələlümum qafqaziyanın Rusiyadan ayrılması ingilislərin işinə gəlirdi. Azərbaycan da bu keyfiyyətdən istifadə etməliydi. Hökuməti-milliyənin diplomasi müvəffəqiyyətləri bununla izah olunurdu».

...İngilislər getməyə hazırlaşırdılar. Bir zamanlar işğalçı kimi gələn, «biz belə hökumət tanımırıq» deyən ingilislər indi Azərbaycanın müstəqilliyini tanıyıb gedirdilər. Bu işdə Məmməd Əmin Rəsulzadənin yazdığı siyasi məqsədlərlə yanaşı, Azərbaycan hökumətinin bacarıqlı diplomatiyasının da mühüm rolu olmuşdu. Üç-dörd ay əvvəl Bakını Rusiyanın bir parçası kimi tanıyan, Ufada ağqvardiyaçılarla razılaşmaya gələn, ingilisləri bu qısa zamanda əsl həqiqətə inandırmaq asan iş deyildi.

...İngilislər getməyə hazırlaşırdılar. 1919-cu ilin may ayından yüklərini tutub yola düzələn ingilislər avqust ayında tamamilə Bakıdan çıxdılar. Gedəndə Milli hökumətə 26 milyon pul borclu qaldılar.

İstiqlal bayramı yaxınlaşırdı. Xalq böyük sevinc içərisində mayın 28-də azad Azərbaycan Respublikasının ildönümünü bayram etməyə hazırlaşırdı. Küçələrdə 28 mayın xoş görünüşünü özündə əks etdirən üç rəngli bayraqlar asılmışdı. Bunlar azadlıq bayraqları idi. Bu bayraqlar Azərbaycan xalqının işıqlı günə çıxdığından, istiqlaliyyət havası udduğundan xəbər verirdi. Azadlıq üçün nə gərək idi? Torpaq özününkü, sərvətləri özününkü, ordu, qoşun özününkü! Bunlar deyilmi azad insan yaşayışına yollar açan? Bütün Azərbaycan xalqı istiqlaliyyət bayramının gələcəyi günü gözləyirdi. O günə az qalırdı.

Həmin o xoş gündə, Azərbaycan istiqlalının ildönümü günündə—28 mayda «İstiqlal» jurnalı alovlu sözlər yazırdı:

«Bu gün milliyətimizin şənlik və şadyanalıq edəcəyi bir gündür. Bu gün milli bayramımızdır. Bu gün ən ali və şərəfli bir bayramdır. Azərbaycan istiqlalının aləmə bildirilmək üçün elan edilən günündən bir sənə keçir. Bu gün bayramdır, pək ali bir bayramdır. Hakimiyyəti-milliyyə sayiqəsi ilə surətnəzir olan bu böyük bayram heç şübhəsiz ki, ümum dostlarımızın, canla-başla çalışanlarımızın deyil, hətta Azərbaycan istiqlalı yolunda bütün varlıqdan məhrum edilən balalarımızı,

quçağında oğlanlarının başı kəsilən analarımızı belə şad ürək, fərəhli qəlb, yüksək ruhlarla sevindirəcək, güldürəcək, şən və məğrur edəcəkdir...»

Azad Azərbaycanda çıxan qəzetlər, jurnallar ondan, yalnız ondan, xalqı ağ günə çıxarmış aylı, ulduzlu örpəyə bürünmüş istiqlaliyyətdən yazırdılar.

«Azərbaycan istiqlalı elə qiymətdar, elə müqəddəs bir sevgilidir ki, hər şəkildə olursa-olsun, təcəssüm etdirilərsə, bütün azərilərin fərdənfərd ona sitayiş etməsi fərzi və təbiidir, zira onun yolunda verilən qurbanlar heç bir məbudun yolunda verilməmişdir. Ona fəda edilən qəhrəmanlar heç bir məqsədə fəda edilməmişdir. Ona eşq yetirən aşiqlər heç bir məşuqə üçün mümkün olmamışdır».

Azad xalq istiqlalının bayramı günündə rusun, ermənininin qurbanı olmuş, bu gün üçün canından keçmiş oğullarını da unutmurdu, onları böyük iftixar hissilə yad edirdi, Azərbaycanın istiqlaliyyəti yolunda, onu əsarətə salmaq istəyən çar Rusiyası ilə hələ yüz il əvvəl vuruşub həlak olan qəhrəmanlarını—Mirzə Məhəmməd xanı, Hüseynqulu xanı, Cavad xanı xalq məhəbbətlə yada salırdı. Azad xalq bu qənaətdə idi: istiqlalsız Azərbaycan, Azərbaycansız Azərilər daha yaşaya bilməz!

Həmin günü xoşbəxt ömür yaşayan xalq azad Azərbaycan hökumətinin otuz beş yaşlı başçısı, hamının məhəbbətini qazanmış Məmməd Əmin Rəsulzadənin sevinc, həyəcan dolu sözlərini eşidirdi:

«Azəri türkləri bu gün ilk dəfə olaraq böyük bir bayram saxlayırlar: istiqlal bayramı!

Bundan bir sənə əvvəl Zaqafqaziyanın müqəddarını həll üçün Tiflisə toplanmış olan müsəlman vəkilləri tarixin öylə bir anına təsadüf eləmişlərdi ki, yüz sənəlikdir, əsarətə yalnız yüksək bir amal nəticəsi deyil, eyni zamanda zəruri bir ehtiyac kimi xatimə vermək məcburiyyətində qalmışlardı.

Əvət, Zaqafqaziya millətləri bilməcburiyyə elanı-istiqlal etmişlərdi.

Bilməcburiyyə elani istiqlal!».

Milli hökumətin başçısı bu xoş gündə, bəxtəvər anlarda «istiqlalın» necə əldə olunmağından danışır, adamları istiqlal yolunda tökülən qanları unutmamağa çağırır. Mart qırğını, Bakı əsarəti, osmanlı türk qardaşlarımızın köməyi, ingilislərin gəlişi, Biçeraxovun azğınlığı, bunlar hamısı son bir ildə baş verən hadisələrdir. Amma bu bir ildəki hadisələr təsirsiz və izsiz qalmadı. Adamlarda «bu böhrandan, sıxıntıdan yaxa qurtarmağın yolu yalnız istiqlaliyyətdədir» fikrini möhkəmlətdi.

Məmməd Əmin Rəsulzadə o xoş istiqlal bayramını salamlayıb deyirdi:

«Hər nasılsa növzadımız bir yaşına çatdı! Bu bir ilin ərzində azərbaycanlıların verdikləri qurbanlara müqabil qazandıqları yalnız xaricin bizi müstəqil bir millət kimi tanımağa doğru və göstərdiyi bəzi təmailat deyil, ən böyük şeyi fikri hürriyyət və istiqlalın artıq milli bir fikir olduğu keyfiyyətidir».

Xalq istiqlalı asanlıqla qazanmamışdı. İstiqlal uğrunda böyük mübarizələr aparmışdı. İstiqlal günəşi vətənin başı üzərində asanlıqla parlamamışdı. Neçə qurbanlar bahasına o günəşin üzünü tutan zülmət buludları silib atmaq mümkün

olmuşdu. İstiqlaliyyət asanlıqla qazanılsaydı, onun qədir-qiyməti də bilinməzdi. Xalq canı qədər sevdiyi istiqlala canını şam kimi əritməklə gəlib yetmişdi. Ona görə də xalqı istiqlaldan, istiqlalı xalqdan ayırmaq olmazdı. Elə bu istiqlalın gücü ilə milli ordu yaradılmışdı.

Məmməd Əmin Rəsulzadə o xoş gündə fəxrlə deyirdi:

«...Bu alqışlar yalnız siyasi firqələrin nümayəndələrindən deyil, ağac tüfəngləri ilə «irəli, irəli!» deyə soqaqları dolaşan gənclərlə «Azərbaycan əsgərlərini» yaşar gözləri və «allah bədnəzərdən saxlasın» duası ilə ötürən camaətdən nəşeyi-istiqlalı dərk etmiş xalqdan gəlir».

Xalqın sevindiyi bu əziz və xoş gündə hökumət başçısı ona görə ötənləri xatırladır ki, adamlar istiqlaliyyətin təkcə gəlişini alqışlayıb işi bitmiş saymasınlar, onu qorusunlar, qara qüvvələrin xəyanətindən saxlasınlar. Çünki yaman gözlər dikilib istiqlalımıza və imkan gözləyirlər ki, vətən bağçasında bitən bu gülü qoparıb atsınlar, onu məhv etsinlər.

Məmməd Əmin Rəsulzadə yazırdı:

«Bundan altı ay əvvəl Azərbaycan məclisi-məbusanın açıldığı gün: «Bir kərə yüksələn bayraq bir daha enməz» demişdim.

O zaman içində bulunduğumuz zaman o qədər müşkül və o qədər pərxövf idi ki, yüksəltdiyimiz bayrağı pək də yüksəkliyə qaldırmayır, onu yalnız parlaman binasına münhəsir etdiribdə müdara (gözəl rəftar etmə) göstərmək məcburiyyətinə qalırdıq.

Bu məcburiyyətdən müntəsir olan bəzi bədbinlər «hanıya bir kərə yüksələn bayraq bir daha endirilməz!» deyirsiniz?— deyirdilər!

İştə qoy bu günkü gün milli bayraqlara boyanmış Azərbaycan paytaxtı o kimi bədbinlərin qəlbini təsfiyə etsin!

Bir sənəlik həyat həqiqətən də göstərdi ki, bir kərə açılmış Ləvan-hürriyyət bir daha bükülməz!».

Hökumət rəhbəri haqlı idi. Doğrudan da bir sənəlik azad həyat adamları tam ayıltmış, onların tarixinə, keçmişinə, yaşayışına özgə nəzər salmağa məcbur etmişdi. Xalq bilmişdi ki, onu bu kökə salan, istismar edib inkişaf yollarını bağlayan imperiyadır, xain düşmənlərin iyrənc siyasətləridir. Xalq yaxşı tanıyırdı düşmənini. Və indi qəti bir fikrə gəlmişdi: onlardan uzaq olmaq, yaxına buraxmamaq. Onlar istiqlal qənimidirlər!

**M. Ə. Rəsulzadə Versaldan nigarandır.** Neçə gündür ki, Parisdən Əli Mərdan bəy Topçubaşovun göndərdiyi məktub haqqında düşünür. Topçubaşovun göndərdiyi məktubdan aydın olur ki, Amerika prezidenti Vilson Azərbaycanın müstəqilliyini qəbul etmək fikrində deyil və müxtəlif bəhanələr gətirir. Vilson nümayəndə heyətinə bildirib ki, dünyanı xırda hissələrə bölmək istəmirik və yaxşı olardı ki, ümumi Qafqaz federasiyası yaradılsın. Vilson təklif edirdi ki, Beynəlxalq sülh konfransının təklifi ilə hansısa böyük dövlət sizi himayəyə götürsün. Amma sizin probleminiz «Rus məsələsi»ndən tez həll edilə bilməz.

Məmməd Əmin Rəsulzadə Amerika prezidentinin tərəddüd etməyindən çox narahat idi. Əgər prezidentin fikrini dəyişdirmək mümkün olmazdısa, Azərbaycanın müstəqilliyi də şübhə altına alınardı. Və indi bir hadisəni xatırlayırdı: hələ 1918-ci ilin noyabr ayının əvvəllərində Fətəli xan Xoyskinin imzası ilə Demokratik hökumət Amerika prezidentinə belə bir teleqram göndərmişdi:

«Üç milyon yarımlıq Azərbaycan-türk xalqı da cahan müharibəsinin bütün fəlakət və iztirabını dadmış, eyni zamanda müttəfiq orduları ilə birlikdə Karpat dağlarına qədər cəsarətlə yürümüş və qan tökmüşdür... İndi istiqlaliyyət arzusu ilə müstəqil bir dövlət qurmuşlardır.

...Yüksək şəxsinizə müraciət edərək, istiqlalımızın təsdiqi və... elan etmiş olduğunuz insani prinsiplər dairəsində millətimiz sizdən alicənab müzahərat gözlər».

Vilsona hələ o zaman teleqram göndərilib xahiş edilmişdi. Vilsonun o vaxtdan müstəqil Azərbaycan dövlətinin mövcudluğundan xəbəri vardı. Lakin... düşmən təbliğatı və onun tarixi mövqeyi təcrübəsi daha güclü idi. İndi Parisə toplaşmış ruslar Qafqazı «Bölünməz Rusiya»nın bir parçası kimi tanıtmaq istəyir, böyük dövlətlərə yanlış məlumatlar verirdilər. Bu ruslar Kolçakı hakimiyyətə gətirmək istəyirdilər. Ermənilər isə Türkiyə və Qafqaz Ermənistanından təşkil olunan «Vahid Ermənistan» proqramını irəli sürürdülər. Topçubaşov yazırdı ki, biz hətta Vilsonla görüşdə bir məsələyə də razılığımızı bildirdik. Dedik ki, keçmiş Rusiyanın borcunun Azərbaycana düşən hissəsini də ödəməyə razıyıq.

Topçubaşonun məlumat məktubundan aydın olurdu ki, Versal konfransında vəziyyət çox mürəkkəbdir. Azərbaycan hökumətinin nümayəndə heyətini çətin işlər gözləyir.

Məmməd Əmin Rəsulzadə dumanlı fikirlər içində Topçubaşovun göndərdiyi məlumatları götür-qoy edirdi.

**Məmməd Əmin Rəsulzadəni «içimizdəki Denikinlər» ağrıdır.** «İçimizdəki Denikinlər» sakit dayanmır, Azad hökumətin işinə mane olurdular. Orduda təbliğat aparır, cavanları əsgəri xidmətdən qaçmağa məcbur edirdilər. Məmməd Əmin Rəsulzadə azərbaycanlı bolşeviklərin bu düşüncəsiz və xəyanətkar hərəkətlərindən olduqca bərk qəzəblənirdi.

Bu adamlar xalqı niyə sakit buraxmırlar? Rusun, ermənin məqsədi aydındır. Bəs özümüzünkülər niyə xəyanət baltasını xalqa vururlar?

Suallar içərisini ağrıdır, didib-parçalayırdı, hökumət rəhbəri kimi ona bütün məlumatlar çatdırılırdı. Verilən məlumatlar həyəcanlı və dözülməz idi. Bir hadisəni xatırladı.

1918-ci ilin dekabr ayı idi. Bolşeviklərin təşəbbüsü ilə Bakıda fəhlə konfransı keçirilirdi. O da müsavatçı dostları ilə bu konfransda iştirak edirdi. İclasa gəlməkdə bir məqsədləri vardı. Bilmək istəyirdilər ki, axı bu bolşeviklər niyə camaatı rahat buraxmır. Konfransda bolşeviklər gülünc vəziyyətdə qaldılar. İrəli

sürdükləri—Bakıda tətilə başlamaq təklifi camaat tərəfindən qəbul edilmədi. Onların təklifini yalnız Tağıyevin fabrikində işdə tətilə başlamaq təklifi camaat tərəfindən qəbul edildi. Tağıyev isə cəza əlaməti olaraq bolşeviklərin fırıldaqlarına inandıqlarına görə onların on dördünü işdən çıxartdı. Sonra mərhəmətli və xeyirxah Hacının bolşevik fəhlələrə ürəyi yandı, yenidən işə qaytardı.

İndi acı-acı xatırlayırdı ki, konfransda açıqcasına məğlub olan bolşeviklər sonradan ona və müsavatçılara böhtan atıb deyirdilər ki, guya müsavatçılar qapıda dayanıb konfrans iştirakçılarının hərəsinə beş manat pul verib öz tərəflərinə çəkirmişlər. Ona görə də konfransda bolşeviklərin təklifi qəbul edilməmişdi.

Azərbaycanlı bolşeviklər ruslar və ermənilərlə əlbir işləyirdilər. Bu adamlar erməni Mikoyanın, Mirzoyanın torunda çırpınırlar. Bu torun iplərini bağlayan isə yuxarıda—Moskvadadır. Lenin yenidən erməniləri aldadıb Azərbaycanın canına daraşdırıb. Yenə şirin vədlər verib bu xainlərə. Azərbaycanlı bolşeviklər isə həmişə olduğu kimi yenə Leninə və ermənilərin şirin dilinə inanıblar. Mikoyan Bakıda iş qaydalarını pozmaq üçün may ayında tətillər təşkil etmək istəmişdi. Tətilin şüarları bu idi: «Bütün hakimiyyət fəhlələrə və kəndlilərə! Sovet Rusiyasına və sosialist inqilabına eşq olsun!».

Amma o yaxşı bilirdi ki, bolşeviklərin bu şüarı altında hansı istək gizlənib: sovet Rusiyasına neft göndərmək! Bu Leninin göstərişi idi. Mikoyan isə həvəslə tapşırığı yerinə yetirməyə çalışırdı. Quru sosializm ideyası ilə aldanmış bir qrup azərbaycanlını yoldan çıxarmağa nə var ki!

Tətilin qarşısını almaq üçün Əmək naziri Səfirkürdski aranı qatanları—Mikoyanı, Çurayevi, Qarayevi və Kovalı yanına dəvət edib ciddi söhbət aparmışdı.

Sonradan Səfikürdski acı-acı ona danışırdı ki, Qarayevi bu xəyanətkar rus və erməninin arasında görəndə nifrətdən bilmirdim nə edim.

Onu həyəcanlandıran bir başlıca məsələ də bu bolşeviklərin orduda apardığı təbliğat idi. Bolşeviklər azərbaycanlıları ordudan qaçmağa təhrik edirdilər.

**Bir şikayət.** Bu azərbaycanlı bolşeviklər milli hökuməti yıxıb Vətənlərini işğalçı XI orduya təslim edəndən sonra xəcalət çəkmədən qəzetlərdə lovğalanacaqdılar: bəli, biz orduda güclü iş aparırdıq. Hələ 1919-cu ilin avqust ayında hümmət təşkilatı tərkibində hərbi komissiya yaratdıq. Hərbi komissiya cavanları əsgərlikdən qaçmağa, xalqın uşaqlarını əsgərliyə verməməyə çağırmalı və bu sahədə ciddi iş aparmalı idi. Həmin vaxta qədər də biz işləyirdik. Amma ayrı-ayrılıqda fəaliyyət göstərirdik. Belə işin təqsiri az olurdu. Ona görə də təşkilat yaratdıq.

Ordudakı gərginliyi bolşeviklər getdikcə artırırdılar. Məmməd Əmin Rəsulzadə bu dəhşətli bəladan xilas yolları axtarırdı. Belə həyəcanlı fikirlər içində general Mehmandarovun 418 nömrəli gizli məlumatını xatırladı.

Hərbi nazir hökumətə məlumat verirdi: «İndi Azərbaycanın bütün ərazisində həm xalq, həm də döyüşçülər arasında təbliğat aparılır. Təbliğatçılar xalqın uşaqlarını əsgərliyə verməməyə, əsgərləri isə ordudan qaçmağa təhrik

edirlər. Xüsusilə Qazax qəzasında bu təbliğat güclü aparılır. Belə təbliğatın nəticəsi olduqca ciddidir. Gəncə qubernatorluğunun dediyinə görə, bütün Qazax uşaqlarını əsgərliyə verməkdən imtina edir».

Mehmandarov sonradan hökumət rəhbərliyinə şikayətlənib bolşeviklər haqqında ciddi tədbir görməyi söyləmişdi.

Generalın məlumatı narahat fikirlər içində saxlayırdı onu. Bəs kim idi bu adamlar? Daxili İşlər Nazirliyi onların kimliyini müəyyənləşdirmişdi. Budur onlar: Nərimanov, Mirzə Davud Hüseynov, Əliheydər Qarayev, Əhmədov və başqaları.

Bu adamlara qarşı qətiyyətli işə başlamaq lazım idi. Hökumət rəhbərliyi Daxili İşlər Nazirliyinə onlarla kəskin mübarizəyə başlamağı tapşırmışdı. İndi fikirləşirdi ki, belə də etmək lazımdır. «Bolşevikləşmiş» adamlara kəskin müqavimət göstərməli və ümumiyyətlə, onlar nəzarətə alınmalıdırlar. Ona görə də Daxili İşlər nazirinin az əvvəl verdiyi qərarı düzgün sayırdı:

«Müsavat Daxili İşlər nazirinin
q ə r a r ı

Şuşa şəhərinin müvəqqəti general-qubernatoruna

**N. Nərimanovun həbs edilməsi haqqında**
**Müvəqqəti general-qubernator X. Sultanova.**

Hərbi nazirin aldığı casusluq məlumatlarına görə bolşevik Nərimanov Bakıya gəlib, orada «Hümmət» partiyasının parlament üzvləri ilə, başlıcası isə Saniyev və Qarayevlə görüşmüşdür ki, Şuşa və Qazax qəzalarında camaat arasında, habelə imkan daxilində qoşun arasında bolşevizmi yaysın. Hərbi nazir təsdiq edir ki, bu cür təbliğat nəticəsində hazırda orduya çağırılanların sayı xeyli azalmışdır və qorxur ki, tamam heçə enə bilər.

Məlumat üçün bunu bildirməklə siz cənablarınızdan xahiş edirəm ki, Nərimanov sizin general-qubernatorluğunuzda peyda olsa, onun tutulması barədə sərəncam verəsiniz.

Bu barədə Gəncə qubernatoruna da mənim tərəfimdən teleqrafla məlumat verilmişdir.

Daxili İşlər naziri: X a s m ə m m ə d o v».

Onu ən çox Nərimanov narahat edirdi. O biriləri ilə müqayisədə Nərimanov həm təcrübəli, həm də geniş siyasi mübarizə məktəbini keçmiş bir adam idi. Nərimanov öz əqidəsindən—tutduğu yanlış yoldan əl çəkmirdi. Lenin onu inandırırdı ki, Azərbaycanda sovet sosialist respublikası qurulsa hökumətin müstəqil yaşamasına və xarici hücumlardan qorunmasına kömək edəcək. Bu vədlər Nərimanovda belə yanlış əqidə yaratmışdı: Azərbaycan sovet Rusiyası olmadan yaşaya bilməz.

Məmməd Əmin Rəsulzadə indi öz-özünə düşünür və Nərimanovun mövqeyini səhv kimi qiymətləndirirdi.

Budur, Nərimanov Azərbaycan hökumətinə məktub göndərib. 1919-cu ilin belə gərgin vaxtında Azərbaycan Demokratik Respublikasının böyük işlər gördüyü bir zamanda Nərimanov nə yazırdı?

**«MÖHTƏRƏM NƏSİB BƏY YUSİFBƏYOV CƏNABLARI!**

...Bütöv bir xalqın həyatı ilə, qızıl əsgərləri xarüqələr yaradan bütöv bir dövlətin həyatı ilə oynamaq olmaz, amma siz cinayətkarcasına bu cür oynadınız, qonşularınız isə sizi dar bir dalana soxaraq sizə gülürlər. Məsələn, Ermənistanı götürün. O daim İngiltərə ilə, indi də Denikinlə əlaqə saxladığı halda öz agentlərini Moskvaya göndərir və artıq orada sovetlərə tərəfdar olmaqdan danışılır.

Əgər Denikin tezliklə darmadağın edilərsə və Ermənistan sovetlərə tərəfdar olduğunu bildirərsə (bu məhz belə də olacaqdır), onda sizin vəziyyətiniz neçə olacaqdır?....

**N. NƏRİMANOV».**

Nərimanovun məktubda yazdığı bir söz də onu ağrıdırdı: «Qızıl əsgərləri xarüqələr yaradan bir dövlət». Nərimanov sovet Rusiyası haqqında deyirdi bu sözləri. Maraqlı idi. Əgər Nərimanov əsgərin xarüqələr yaratdığından danışır və bu fikri qəbul edirdisə, bəs onda niyə milli ordumuzdan Azərbaycanlı balalarımızı qovur, onları əsgərlikdən uzaqlaşdırır, xalq arasında «uşaqlarınızı əsgərliyə verməyin» deyib fəryad qoparır? Niyə, niyə bunları edir Nərimanov? Məgər Azərbaycan əsgəri «xarüqələr» yarada bilməzmi? Məgər «xarüqələr yaratmaq» yalnız rusun alnına yazılıb? Axı faktlar tamam başqa şeyləri deyir. Qısa bir zamanda milli ordumuz necə böyük qəhrəmanlıqlar göstərib? Lənkəranda kök atmış, öz hökmranlıqlarını davam etdirən rusları milli ordumuz susdurmadımı? On-on iki gün ərzində dörd yüz əlli kilometrlik bir yolu milli ordumuzun susuz səhralardan nizami bir halda gedib-gəlməyi, Lənkəran və Muğanda Demokratik hökumətin bayrağını qaldırmağı böyük hadisə deyilmi? Zəngəzurda, Qarabağda erməniləri susduran bizim milli ordumuz deyilmi? Ayağı çarıqlı, əyni cırıq paltarlı Azərbaycan əsgəri hansı çətinliklərlə qarşılaşmır? Amma dözür, dayanır Azərbaycan əsgəri. Çünki onun sinəsində vətən sevgisi, rusun əsarətindən xilas olmuş Azərbaycana vurğun bir ürək döyünür. O bu həqiqəti bilir və onun qorunmasında canını əsirgəmir. Nərimanov isə özgələrin cəsarətinə, «xaruqələr yaratdığına» inanır. Əgər sizin təbliğatlarınız olmasaydı, indi nə qədər Azərbaycanlı balası əsgəri paltar geyinib vətəni qoruyurdu.

Məmməd Əmin Rəsulzadə düşünürdü ki, Nərimanovun xalq arasında nüfuzu var. Xalq ona «həkim Nəriman» kimi hörmət edir, inanırdı. Ona görə də Nərimanovun dediyi sözlər çoxlarının əqidəsini dəyişirdi. Nərimanov həm də

yaradıcı ziyalı idi, əsərləri səhnələrdə tamaşaya qoyulur, sevilirdi. Nərimanovun inandığı Lenin siyasəti isə onun xalq arasındakı mövqeyinə uyğun gəlmirdi.

**Bir şikayət.** Məmməd Əmin Rəsulzadənin Nərimanov haqqında düşündükləri az keçməmiş düz olacaqdı. Və bu həqiqətə Nərimanov özü də inanacaq, təəssüf, peşmanlıq hissi ilə etiraf edəcəkdi. Nərimanov başa düşəcəkdi ki, o aldanıb.

Nərimanovun rəyi soruşulmadan Lenin Azərbaycanın adından danışanda, xalqın sərvətini, neftini istədiyi kimi bölüşdürəndə o zəif bir səslə deyəcəkdi: «Mı tak ne doqovorilis. (Biz belə danışmamışdıq). Amma Nərimanovu heç kim eşitməyəcəkdi. Çünki Nərimanov gücsüz idi. Nə olsun ki, özünü hökumət başçısı qoymuşdular? Bu ki, kağızda yazılmışdı. Real həyatda isə o gücsüz idi. Güclü, olmaq üçün, hökumət başçısının ordusu gərəkdi. Nərimanovun isə ordusu yox idi. Bakıda özünün bir zamanlar pərəstiş etdiyi, «xarüqələr yaratmağı» ilə qürrələndiyi rus ordusu vardı. Və Nərimanov bu ordunun əmri ilə oturub-dururdu. Nərimanovu müdafiə etməli olan milli ordu isə dağılmışdı.

Gərginliklərə, olmazın çətinliklərinə baxmayaraq milli ordu möhkəmlənir, əsgərlərin sayı çoxalırdı. Məmməd Əmin Rəsulzadənin ilham verdiyi Demokratik hökumət və qeyrətli «müsavatçı»lar xalqa həqiqəti başa salır, milli ordunu gücləndirirdilər. Nəzərdə tutulmuşdu ki, əsgərlərə əlli min dəst paltar almaq üçün xüsusi bir heyət İtaliyaya göndərilsin. Ordu möhkəmlənirdi. Bolşevik maneəsinə baxmayaraq xalq öz oğullarını Vətənin keşiyini çəkməyə göndərirdi.

...Xalq azadlığa çıxmışdı. Hər cür əsarətdən, sıxıntı, boğuntudan xilas olmuşdu. Hamı Azərbaycanın istiqlaliyyət qoxuyan dadlı günlərini yaşayırdı.

Qarşıdan xoşbəxt bir gün gəlirdi. Hamı o günü səbirsizliklə gözləyirdi.

1919-cu il idi. Sentyabrın 15-nə bir gün qalırdı.

..Sentyabrın 15-i günü azad Azərbaycan xalqı ona istiqlaliyyət səadəti ərmağan etmiş türk şəhidlərini yad edirdi. Keçən il bu zaman türk qoşunlarının köməyi ilə Bakı şəhəri rus, ingilis, erməni düşmənlərindən azad edilmişdi. Yüzlərlə türk əsgəri Bakının azad olunması uğrunda gedən qanlı döyüşlərdə həlak olmuşdu. Xalq onları hörmətlə dəfn edib, xatirələrini əziz tuturdu.

Budur, Bakı camaatı Çəmbərəkənd qəbiristanlığına axışır. Onları azad etmiş türk şəhidlərinin məzarını ziyarətə gedirlər. İndi bura xalqın müqəddəs bildiyi yerdir.

Həmin günü Azərbaycanın çox yerində şəhid qəbirlərini ziyarət edirdilər. Xalq torpağını işğalçılardan azad etmiş türk şəhidlərinin məzarını Şamaxıda, Qarabağda, Naxçıvanda və başqa yerlərdə qoruyub hörmətlə saxlayırdı.

Həmin o günü azad Azərbaycan hökumətinin başçısı Məmməd Əmin Rəsulzadə Çəmbərəkənd məzarıstanlığına toplaşmış həmvətənləri qarşısında çıxış edir. Otuz beş yaşlı dövlət başçısı deyir:

«Ey hür Azərbaycanın hür vətəndaşları! Əziz millətdaşlar!... Böyük bir hiss, milliyyət və qardaşlıq hissilə uzaq yollardan qoşaraq bizi xilasa gələn və öz

ölümləri ilə yeni bir türk dövlətini yaşadan bu böyük insanları yad edərkən sizi bir az düşündürmək istəyirəm. Rus əmələsi millətlərin haqqı istiqlalını elan edər. Bu mümkündür. Fəqət, bir türk istiqlalının təhəqqüqünü rus əmələsindən gözləmək əbəsdir. Sinfi məfkurələrin öz qüvvət və sayələrinə bağlı olduğu kimi, milli məfkurələrin təhəqqüqü də milli qüvvətlərin sayı və hümmətlərinə bağlıdır.

Bunun üçündür ki, millətlərə hakkı-istiqlal elan edən rus kommunizmi Azərbaycan istiqlalına müncər olunca, türk düşmanı ünsürlərlə yaxınlıq etdi, başımıza qanlı mart hadisəsini gətirdi. Bizə muxtariyyət vermək deyil, xarabazar vermək istədi. Bu qızıl və qanlı qüvvəyə qarşı milli istiqlalımızın həqiqi müdafiə olaraq bizə Xızr kimi gələn qüvvət hankı qüvvət idi?! Bu qüvvət Rusiya əmələsi deyil, türk ordusu idi. Milli bir qüvvət idi!

Əvət, Azərbaycan milli hürriyyət və istiqlalının yeni türk dövlətinin vücudu üçün bu gün böyük məzarları başında hüznlə üzərində diz çökdüyümüz bu böyük insanlara borcludur!

Bu böyük şəhidlər kimi, biz də fədakar olacaq, hürriyyətimizi, milli vəhdət və istiqlalımızı, canımızı verərək müdafiə edəcəyik!»

Məzar başına toplanan xalq öz rəhbərinin səsinə qoşularaq and içir.

Azad Azərbaycanın hər yanında türk şəhidlərinin xatirəsi yad edilir, məhəbbət, hüzn dolu sözlər eşidilirdi.

Xalq azad idi va öz xilaskarını yada salır, məzarı başında onun qanı bahasına qazanılan istiqlalını qoruyub saxlayacağına and içirdi. Hökumət başçısı da xalqla birlikdə bu and yerinə gəlirdi. Azad xalqın istəyindən başqa, özgə kimsənin hökmü işləmirdi burda. Amma…

**Şikayət səsi.** Amma bir gün gələcəkdi ki, hər şey dəyişəcək, dövran başqalaşacaqdı. İndi azadlıq gülü bitən torpaqdan ah-fəğanlar yüksəlməyə, inilti qopmağa başlayacaqdı. Azərbaycanı işğal edən bolşeviklər qanlı istibdad köynəyini əyninə geyinib yalnız «hürriyyət» deyən Azəri türklərini deyil, eyni zamanda torpaqda sakit uyuyan türk məzarlarını da qılınclayacaqdılar. Qorxu və əsarətdə yaşayan xalqa Çəmbərəkəndə gedib türk şəhidinin məzarını ziyarət etmək qadağan olunacaqdı. Qorxacaqdı bolşeviklər. Qorxacaqdılar ki, adamlar o məzar üstə gedəndə içərilərinə güc, qüvvət yığıb bu işğalçılara qarşı qiyam qaldırar, qanlı teştlərini onların başında sındırarlar.

Amma xalq unutmayacaqdı o şəhidləri. Məzarları üstə gedə bilməsələr də, kənardan baxıb onların azad məfkurə atəşini ürəklərinə yığacaq, yadlar ayağı altında inildəyən, məzarıstanlıqda sönməz bir şölə kimi daima tutuşub yanan şəhidləri qəlblərində yaşadacaqdılar. O məzarlar üstündə içdikləri andı isə unutmayacaqdılar. İçəriləri alışa-alışa qisas gününü gözləyəcəkdilər.

...O məzarlardan biri hazırda Şamaxı rayonunda qalmaqdadır. Görünür bu qərib türk şəhidinin məzarını dağıtmağı təsadüfən unudublar.

**M.Ə.Rəsulzadə qaçqınlar haqda düşünür.** Gələn xəbərlər ürək açmırdı. Neçə dəfə Ermənistan hökumətinə təklif olunmuşdu ki, qırğın dayandırılsın.

Amma ermənilər bildiyini edirdi. Zəngəzurda, Vedidə Andranik qocalara, körpələrə belə rəhm etmirdi. 400-ə yaxın azərbaycanlı qorxudan qaçıb məscidə girmişdi. Andronikin adamları onlara rəhm etməyib, içərisindəkilərlə birlikdə məscidi yandırmışdılar.

Günahsız ölənlərin acı taleyi ağrıdırdı onu. Vəziyyətdən isə yeganə çıxış yolu vardı: Milli ordunun köməyi ilə Andronikin vəhşiliyinin qarşısını almaq.

Azərbaycan qaçqınlarla dolu idi. Evləri-eşikləri dağılmış bu adamlar güc-bəla ilə canlarını qurtarıb qaçmışdılar. Amma nə yaşayış yerləri vardı, nə də güzəranları.

Hökumət onlara köməklik göstərirdi. Amma çatdırmaq qeyri-mümkün idi. Qaçqınlar bir idimi, iki idimi? Minlərlə qaçqın acınacaqlı, səfalət dolu həyat yaşayırdı.

Başçılıq etdiyi milli hökumət imkanı daxilində kömək edirdi. Onların vəziyyətini yaxşılaşdırmaqdan ötrü çoxlu vəsait ayırmışdı. Amma bunlar xalqın düçar olduğu faciə ilə müqayisədə az idi, çox az idi.

Milli hökumətin qaçqınlarla bağlı son vaxtlarda gördüyü işləri xatırladı:

1) Gəncə dairəsində 21908 qaçqın var. Bu qaçqınlara 18000 pud taxıl verilib. Qaçqınlar üçün Gəncədə 3, Gədəbəydə 1, Qazaxda 1 pulsuz yeməkxanalar açılıb.

2) Şamaxı dairəsində 26877 qaçqın var. 18241 pud taxıl verilib. 13-dən çox yeməkxana yerləri açılıb.

3) Nuxa dairəsində 51000 qaçqın var, 1730 pud taxıl da oraya göndərilib. Lənkəranda, Qarabağda da qaçqınların sayı çox idi. Vəziyyət hər yandan dumanlı görünürdü.

Amma hökumətin çətinlikdən qorxmayıb ağıllı planlar həyata keçirib işləməyi onu az da olsa sakitləşdirirdi. Hökumətdə milli qeyrətli, Azərbaycanın varlığını hər şeydən üstün tutan adamlar çox idi. İmkanları nəyə çatırdısa edirdilər. Düşünürdü ki, Azərbaycanın xarici ticarət əlaqələri möhkəmlənsə, satılan neft ilə qaçqınların halını tez bir zamanda yaxşılaşdırmaq olar. Bütün qayğılar hamısı birdən çıxmışdı ortalığa və heç birinin həllini gecikdirmək olmazdı. Yaranmış şərait hökumətdən çox şey tələb edirdi. Hökumətin isə imkanı az idi.

Qaçqınların halı ağrıdırdı onu. Başçılıq etdiyi hökumətin ciddi çalışmağına baxmayaraq hələ də azərbaycanlılar yaşayan kəndlərdə Andronikin atdığı güllə səsləri, körpə iniltisi, insan fəryadı eşidilirdi.

**M. Ə. Rəsulzadə Versaldan nigarandır.** Versaldan məktublar gəlirdi. Amma məktublarda narazılıq, giley-güzar, ümumi münasibətin gərginliyi hiss olunurdu. Nümayəndə heyəti çətin, çox çətin bir vəziyyətdə qalmışdı. Azərbaycanın müstəqilliyini tanıtmaq istəyən nümayəndə heyətinə iki tərəfdən təzyiq göstərilirdi: Bir yandan ermənilər, ikinci tərəfdən ruslar. Konfransa gəlmiş ruslar nə istəyirdi? Onlar yenə də köhnə fikirlərində qalmışdılar: Rusiyanın əvvəlki sərhədlərini qorumaq.

Məmməd Əmin Rəsulzadə Əlimərdan bəyin göndərdiyi məktubdakı sözləri acı-acı xatırlayırdı: «Burdakı rus nümayəndələri—Lvov, Sazonov, Çaykovski, Maklakov və b. bizim müstəqilliyimizdən əsəbiləşir, coşurlar, razılaşmaq istəmirlər. Haqqımızda deyirlər ki, yalnız biz nümayəndə heyətimiz müstəqil Azərbaycan şüarını irəli sürürük. Lakin Azərbaycan xalqı özü Rusiyadan ayrılmaq istəmir. Çünki onlar rusları sevirlər».

«Şovinist ruslar!» deyə ağrılı halda fikirləşirdi, şovinistliyinizdən əl çəkmirsiniz. Gör bir iddialarına bax! Azərbaycan xalqı ayrılmaq istəmir. Axı hansı haqq ilə Azərbaycana sahib durmaq istəyirsiniz? Niyə bu xalqın hüquqlarını tapdalayırsınız. Yüz ildir ki, bu xalqın qanını sorub içdiniz, bəs etmədimi? Yüz ildir xalqın malını, dövlətini, sərvətini daşıyıb soyuq şimala apardınız, doymadınızmı? Bu xalqdan niyə əl çəkmirsiniz? İndi də gedib orda—sülh konfransında Azərbaycanın tanınması işinə mane olursunuz!

Əli Mərdan bəy məktubunda ermənilərdən də şikayətlənirdi, yazırdı ki, ermənilər köhnə fikirlərindən— Türkiyə və Qafqazdakı ermənilərdən ibarət olan «vahid Ermənistan» ideyalarından əl çəkmirlər. Və hətta açıqca deyirlər ki, əgər bizim bu fikrimiz qəbul edilməzsə, onda Denikinin tərəfinə keçəcəyik.

Ermənilərin bu hərəkətinə o təəccüblənmirdi. Çünki ermənilər nə zaman öz ağıllarına, düşüncələrinə güvənib yaşamışdılar ki? Həmişə kiminsə ətəyindən yapışıb yaşayıblar. Bu artıq onlarda adi yaşayış normasına çevrilib.

Əli Mərdan bəy məktubunun sonunda işıqlı sözlər də işlədir, Azərbaycan hökumətinin ümidini qırmırdı. Yazırdı ki, amma biz hər yerdə müstəqil Azərbaycandan, onun yaşayıb fəaliyyət göstərməsindən danışır, xariciləri bu həqiqətə inandırmağa çalışırıq.

...Məmməd Əmnn Rəsulzadə isə Versaldan nigaran idi, çox nigaran idi. Həmişə intizar içində o uzaq şəhərdən xoş xəbər gözləyirdi.

**M. Ə. Rəsulzadə hökuməti Denikinlə mübarizədə.** Denikin Rusiyanın köhnə hüdudlarını özünə qaytarıb, yenidən Qafqazı əsarət altına almaq istəyirdi. Dağıstana təcavüz edən Denikin Azərbaycana qarşı işini ehtiyatla aparırdı. Azərbaycanın ordusu vardı və bu qüvvətə qarşı döyüşmək üçün Denikin əvvəl kəşfiyyatçılarından istifadə edirdi. Kəşfiyyatçılar Azərbaycan hökumətindəki vəziyyəti və ordunun quruluşunu, sayını, əsgərlərin əhval-ruhiyyəsini ona çatdırırdılar. Azərbaycanda casusluq işini Denikin ordusunda əks kəşfiyyat idarəsinin rəisi Çernışev aparırdı. Maraqlı idi ki, şovinistlik, Azərbaycanı yenidən əsarətə almaq fikri Çernışevin beynini elə dumanlandırmışdı ki, o hər şeyi unudub arvadı Smıslovanı da qatmışdı bu işə. Özgə torpağını zəbt eləmək istəyi ailə namusundan və şirinliyindən vacib idi Denikin zabiti üçün.

Demokratik hökumətin Daxili İşlər Nazirliyi bu casuslara qarşı ciddi tədbirlər görməyə başlamışdı. Nəhayət, əks kəşfiyyat idarəsinin rəisi Çernışevi tutdular. İstintaqda məlum oldu ki, Denikinin kəşfiyyat idarəsi Azərbaycanda bu işi görməli imiş:

1) Silahlı qüvvələri, heyəti, təchizatı müəyyənləşdirmək;

2) Hərbi xarakterli tədbirlər görmək;

3) Xalqın həm Demokratik hökumətə, həm də «Bölünməz Rusiyaya» münasibəti;

4) Hökumət öz nüfuzunu saxlamaq üçün hansı fəaliyyəti aparır.

Çernışevin məhkəməsində bir dözülməz fakt da çıxdı ortalığa—demə Çernışevə əks kəşfiyyatını aparmaqda bəzi Azərbaycanlılar da köməklik göstərirmiş.

Çernışev istintaqda özünü qəribə aparır və Azərbaycanı öz ərazisi sayırdı. Məhkəmənin qərarı ilə hər ikisi Azərbaycan ərazisindən qovulub çıxarıldı. Azərbaycanda o zaman Denikini istəyən çoxlu adamlar vardı. Rusların demək olar ki, hamısı Denikinin gəlib Azərbaycanı istila etməsini istəyirdi. Çünki Denikin çarlıq dövrünün ağalığını yenə onlara qaytaracaqdı. İndi isə onların hökmranlığı getmişdi.

Az keçməmiş Denikin Dağıstanı və Dərbəndi tutdu. Azərbaycan hökumətinin başı üzərini təhlükəli buludlar aldı. Onda Azərbaycan hökuməti düşmənə qarşı birgə mübarizə aparmaq üçün Gürcüstanla qarşılıqlı müqavilə imzaladı, 3 il müddətinə 10 maddədən ibarət olan bu müqavilə müdafiə xarakteri daşıyırdı.

Azərbaycanlılar Denikin istilasına məruz qalmış dağıstanlılara hər vasitə ilə kömək edirdilər. Azərbaycan hökuməti o zaman Dağıstana müddətsiz və faizsiz olaraq 50 milyon manat, Azərbaycan büdcəsinin səkkizdə biri qədər pul verdi. Bu pul ingilis lirəsi ilə hesablananda 2 milyon yarım pul edirdi.

Məmməd Əmin Rəsulzadə yazırdı:

«Denikinə qarşı mübariz bulunan Dağıstana yardım üçün Nuri paşa təşkilatına hər növlə yardımda bulunmuşdur. Dağıstan hökumətinin Denikin intriqa və təcvüzü üzərinə inhilalı dağıstanlılar qədər Azərbaycanı dəxi mütəəssir eyləmişdir. Dağıstanın Denikin istilasına məruz qalması məclisi-məbusanda, əfkari-ümumiyyədə qeyri-qabil təsəvvür, bir həyəcan doğurmuş və qardaş dağlıların istixlası üçün zaman və məkanın müsaidə eylədiyi tədabiri-ittixazinə təvəssül edilmişdir».

Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Azərbaycan hökuməti Denikin təhlükəsini aradan qaldırmaq üçün ciddi tədbirlər görürdü.

Azad Azərbaycan hökumətinin qərarlarından:

I. 1919-cu il avqustun 11-də parlament Azərbaycan vətəndaşlığı haqqında qərar qəbul etmişdir;

Milliyyətindən, dinindən asılı olmayaraq Azərbaycan ərazisində ya özü, ya da valideynləri doğulub boya-başa çatmış keçmiş Rusiya imperiyasının adamları Azərbaycanın vətəndaşı sayılırlar.

Azad Azərbaycan hökuməti elmin, təhsilin inkişafına böyük diqqət yetirirdi. 1919-20-ci tədris ilində Dövlət universitetinin təşkili və yaradılması üçün dövlət büdcəsindən 5 milyon manat pul ayrılmışdı.

Azad Azərbaycan hökuməti 1919-cu il oktyabrın 30-da mətbuat haqqında qanun qəbul etmişdi, həmin qanunun məzmunu:

Müəyyən mətbəənin, qəzetin, jurnalın açılması üçün hökumətin heç bir qarışacağı yoxdur, yəni sərbəstlikdir. Ümumi müşahidə vəzifəsi hökumətin İşlər idarəsində mətbuat üzrə Baş müfəttişə tapşırılır. Qəzet, jurnal, mətbəə açmaq istəyən adam aşağıdakı məzmunda bir ərizə yazır və bununla da icazə alıb fəaliyyətə başlayırdı. Ərizə bu şəkildə olmalı idi:

1) Adı, atasının adı, familiyası; yaşadığı yer,

3) Açacağı qəzetin, jurnalın adı.

3) İşə qəbul edəcəyi adamların sayı.

Azad Azərbaycan hökumətinin qərarı ilə 1919-cu il noyabrın 15-də Dövlət universitetinin açılışı olmuşdu. Bütün parlament üzvləri açılışda iştirak edirdilər. 1094 tələbədən 297-si azərbaycanlı idi. Başqa millətlərin—yəhudilərin, rusların, polyakların, gürcülərin, almanların, yunanların da uşaqları uiversitetdə oxuyurdu.

Azad Azərbaycan hökuməti xaricə 100 tələbə göndərmişdi:

10 nəfər İngiltərəyə, 23 nəfər İtaliyaya, 45 nəfər Fransaya, 9 nəfər Türkiyəyə. Baş verən hadisələrlə ədaqədar qalanları Rusiyaya göndərilmədi. Tələbələrə hər ay Azərbaycan hökuməti 400 frank pul verirdi.

Azad Azərbaycan hökuməti türk dilinin qayğısına qalırdı.

Bakıda, Gəncədə, Şuşada, Nuxada, Zaqatalada, Qazaxda yaşlılar üçün türk dilində axşam kursları açılmışdı.

Azad Azərbaycan hökuməti respublikanın hər yerində azad satış elan etmişdi.

Vətən azad idi, xalq xoşbəxt yaşayırdı. Əsarətdən, istibdaddan uzaq olan bu Odlar yurdunda adamların güzəranı getdikcə yaxşılaşırdı. Xalqın varlısı da, kasıbı da ümumi bir məqsədə—Azad Azərbaycanın xoşbəxtliyinə çalışırdı.

**Şahid sözü.** Sara Zeynalova, 90 yaşında.

O zamankı Azzrbaycan yaxşı yadımdadır. Atam Hacı Zeynalabdin Tağıyev hökumətin işinə köməklik göstərirdi. Hökumətin əsgərləri üçün pulsuz yüz min metr ağ parça vermişdi. Bir hadisə də yadımdadır. Bir dəfə Nəsib bəy atama zəng etdi ki, bəs Amerikadan hökumətimizin dəvəti ilə qonaq gəlib. İcazə versəniz, sizin evdə onları qəbul edərdik. Atam icazə verdi. Amerikalılara böyük qonaqlıq verildi. Nəsib bəy, Fətəli xan atama çox hörmətlə yanaşırdılar. Məmməd bəyin adını da atam tez-tez işlədirdi.

**M. Ə. Rəsulzadə hökumətini dünya dövlətləri tanıyır.** Həmin günün sevincini də heç zaman unutmayacaq. Ömründən çox illər ötüb keçəcək və qurduğu azad hökumətin 23 aylıq dövründən danışanda o xoş günü ayrıca qeyd edəcək. Özü də bu sözləri deyəndə yalnız sevinməyəcək, həm də böyük iftixar hissi

keçirəcək. Sonradan yurdu işğal olunanda, özü isə qürbət ellərdə dolaşarkən yüksək kürsülərdən, xaricin radiolarından mehriban səsi eşidiləcək. O bu mehriban səsi ilə hamını sehrləyib o günün xoşbəxtliyindən danışacaq. Eşidənlər, həqiqətdən agah olanlar «əsir olmuş yurdunu» geri qaytarmağa çalışan və bu yolda çırpına-çırpına qalan azadlıq fədaisinə baxıb köks ötürəcəkdilər. Halına acısalar da, kömək əllərini uzada bilməyəcəkdilər. Çünki onun yurdu qan qoxuyan dəmir zindana salınmışdı. O zindana yaxınlaşmaq mümkün deyildi. O zindan qorxunc bir əjdaha kimi adamları kamına çəkib udurdu. O isə həmişə ağrı-acı içərisini kəssə də, minlərlə güllələnib qətlə yetirilən həmyerlilərinin iniltisini uzaqdan eşitsə də uca səslə deyəcəkdi: «O zaman Cümhuriyyətimizi dünya dövlətləri tanımışdı». Ömrünün sonlarında, amansız ölümün sərt addımlarla ona yaxınlaşdığı vaxtda «Amerikanın səsi» radiosu ilə doğma xalqına müraciət edib o xoş günü onlara bir daha xatırladacaqdı:

«...Bütün bunların nəticəsində idi ki, cümhuriyyətimizin istiqlalı Avropa dövlətləri ilə Birləşik Amerika tərəfindən tanındı. Onları təqibən bir çox böyük dövlətlər daha istiqlalımızı tanıdılar. Türkiyə ilə İran  Azərbaycanla münasibətə gəldilər. Aralarında dostluq və qardaşlıq müahidələri imzalandı. 12 yanvar 1920-ci il cümhuriyyətin dövlətlər tərəfindən tanınması günü idi. Bu günü Azərbaycan xalqı candan bayram etdi. Haqlı idi. Bu həqiqətən böyük bayram idi...»

...Hər gün işə gələn kimi Nəsib bəyə zəng vurub intizarla soruşurdu: «Əli Mərdan bəydən bir xəbər yoxdur ki?» Həmişə də istəyirdi ki, Nəsib bəydən həsrətlə gözlədiyi bir xəbər eşitsin. Budur, həmin xəbər gəlib çatıb: Azərbaycan Cümhuriyyəti müstəqil bir dövlət kimi Dünya dövlətləri tərəfindən tanınıb. Bu xəbəri eşidəndə qanadlı bir quşa dönüb uzaq Parisə uçmaq, Əli Mərdan bəyi və dostlarını bağrına basmaq istəmişdi. Bu səadətin əldə olunmağında azmı əziyyətlər çəkmişdilər? Düz bir ildir ki, evlərindən aralı düşüb çətin bir işlə—yüz ildən çox imperiya zülmü altında inildəyən, adı dünya xəritəsində olmayan bir ölkəni böyük dövlətlərə tanıtmaqla məşğuldurlar. Özü də necə mürəkkəb bir şəraitdə, saysız-hesabsız maneələrin, qüvvələrin təzyiqi altında. Ermənilər, ruslar nümayəndə heyətini nüfuzdan salmaqdan ötrü hansı işləri görmürdülər? Qəzetlərdə, jurnallarda Azərbaycan əleyhinə yazılar verir, ərazi iddialarını irəli sürürdülər. Ermənilər yalandan hay-küy qoparıb Azərbaycanlıların onları qırdıqlarını deyirdilər.

Amerikanın, İngiltərənin, Fransa və başqa dövlətlərin əvvəllər «müstəqil Azərbaycan» hökumətini tanımaq fikri yoxdu. Nümayəndə heyəti isə çalışırdı ki, heç olmasa böyük dövlətlərdən biri ilə əlaqəyə girib, özünü müdafiə etmək təminatı alsın. Amerika, İngiltərə bəzi səbəblərə görə bu söhbətə razılıq verməmişdi. İtaliya hökuməti isə yalnız iqtisadi əməkdaşlığa razılığını bildirirdi.

Əli Mərdan bəyin yazdığı məktublardan bir şikayət qopurdu: Azərbaycan haqqında adamlarda məlumat yoxdur, Azərbaycanı tanımırlar. Amma ermənilər haqda az-çox bilirlər. Xaricilərdən biri Azərbaycan nümayəndə heyətinə demişdi: ermənilər hər yerə yayılıblar, hər yerdə onları müdafiə edirlər, sizi isə yox. Bundan

ötrü təbliğat aparmaq lazımdır. Təbliğat işi isə gedirdi. Nümayəndələr Azərbaycanla bağlı materiallar hazırlayıb fransız jurnallarında çap etdirir, Azərbaycanın tarixi, iqtisadiyyatı, maliyyə vəziyyəti ilə bağlı kitablar, bülletenlər nəşr edib yayırdılar. Budur, çəkilən zəhmətlər bəhrəsini verdi. Azərbaycan dünya dövlətləri sırasına qəbul edildi.

Hadisə belə olmuşdu. 1920-ci il yanvarın 12-də Fransa Xariciyə Nəzarəti binasında təntənəli surətdə fransız Kambon tərəfindən bu xoş xəbər Azərbaycan və Gürcüstan nümayəndələrinə çatdırılmışdır. Fransız Kambon demişdir:

«Bundan sonra Azərbaycan ilə Gürcüstan cümhuriyyətlərinə müstəqil və özünə hakim dövlətlər kimi baxılacaqdır».

Hadisədən yeddi gün sonra—yanvarın 19-da hər iki cümhuriyyət nümayəndələrinin iştirakı ilə Böyük Dövlətlər Ali Şurasının fövqəladə bir iclası olmuşdur. İclasa sədrlik edən Klemanso tanıtma hadisəsinin əhəmiyyətindən danışdıqdan sonra Ali şuranın Qafqaz nümayəndələrinə ölkələrinin ehtiyac və istəklərinə bəyan etməyi üçün söz vermişdir. Hadisənin böyük beynəlxalq əhəmiyyəti vardı və bu tanınma qərarı Azərbaycanın dünya dövlətləri ilə sərbəst şəkildə siyasi və iqtisadi əlaqələrini təmin edirdi.

Dünənə kimi çar Rusiyasının qanlı pəncəsində boğulan Azərbaycanı indi dünyanın 23-ə kimi dövləti tanıyırdı.

Həmin hadisəni eşidən hər bir azərbaycanlı sevinir, şadlıq edirdi. Milli hökumətin otuz altı yaşlı başçısı Məmməd Əmin Rəsulzadənin xoşbəxtliyi isə müqayisə olunmaz idi.

Azad Azərbaycan hökuməti elan edirdi:

«Əsgəri mükəlləfiyyətini bitirən sıravi əsgərə ayda 50 manat, yefreytora 60 manat, kiçik unter zabitə 70 manat, unter zabitə 90 manat, feldfebelə isə 120 manat maaş verilsin.

Azad Azərbaycanda teatrı çox sevir, maraqlı tamaşalara baxırdılar. Tamaşaların çoxu xalqın qəhrəmanlıq dolu şanlı keçmişini, türk dünyasının əzəmətini əks etdirirdi. Milli hissləri həmişə coşğun olan Cəfər Cabbarlı «Bakı müharibəsi», «Yulduz, yaxud Trablis müharibəsi» kimi tarixi əsərlərini yazıb tamaşaya qoyur.

Azad Azərbaycanda adamların boş vaxtının maraqlı keçməsi üçün hər imkan yaradılmışdı. Tez-tez tanınmış aktyorların iştirakı ilə yaddaqalan gecələr keçirilirdi. Azad Azərbaycanda çıxan «Azərbaycan» qəzetinin məlumatı:

«Türk ocağı» binası (Haşımovun evi).

A. M. Şərifzadə və Ə. A. Anaplinskinin axşamı.

Cümə axşamı. 1920-ci il martın 25-də Azərbaycan Dövlət truppasının artistləri A. M. Şərifzadə və Əbülhəsən Anandinskinin toyu münasibəti ilə təntənəli axşam təşkil edilir.

Bu axşamda bütün rus, azərbaycanlı və Dövlət teatrı artistləri iştirak edəcəklər.

Qonaqların gəlişi saat 9-da başlanır. Dəvətnaməsi çatmayanlar bunları teatra daxil olarkən ala bilərlər.

Azad Azərbaycanda vətənin istiqlaliyyətindən təkcə şairlər ilhama gəlmirdi. Xalqın sinəsi nəğməli bəstəkarları da milli mahnılar yazırdılar.

**Şahid sözü.** Rüstəm Hüseynov, 82 yaşında.

«İndiki kimi yadımdadır. Bakkommunanın dövründə çox aclıq idi. Amma Cümhuriyyət zamanında bolluq oldu. O vaxt mən yetimlər evində yaşayır, «russko-tatarskoe» məktəbində oxuyurdum. Milli ordunun kadet korpusu bizim yaşadığımız yerin yaxınlığında—indiki 134 nömrəli məktəbin binasında yerləşirdi.

Biz də əsgərləri yamsılayırmış kimi sıraya düzülüb onlar kimi oxumağa başlayırdıq. Bolşeviklər gələndən sonra hər şey yığışıldı...»

Yaxınlaşan fəlakət hələ hiss edilmirdi.

## İBLİS QORXULUDUR

İblis içərisindəki kini, xəyanəti iti qılınca döndərib gəlirdi. İblis qana susamışdı və o qanı içməyincə sakitləşməyəcəkdi. İblis qorxuludur, canlı insan cildinə girmiş şeytandır. İblis yaxşı yaşamağa can atmaz, amma özgələrini də gözü götürməz, maneçilik törədər. İblis qorxuludur, çox qorxuludur.

...Məmməd Əmin Rəsulzadə təəccüb içərisində qalmışdı və tez-tez deyirdi: «Əcəba neyçün?»

Rusiyada möhkəmlənməyə başlayan Lenin hökumətinin Azərbaycanın daxili işlərinə müdaxiləsi bir hökumət başçısı kimi onu çox narahat edirdi. Məmməd Əmin Rəsulzadə Rusiyanı ayrıca dövlət kimi tanıyır və onunla mehriban qonşuluq münasibətində yaşamaq fikrindəydi. Hökumətin gələcək xarici siyasətində də buna başlıca diqqət yetirmək nəzərdə tutulurdu. Hökumət Rusiyanın heç bir işinə mane olmur, müstəqil dövlət kimi yaşayırdı. Amma indi Rus hökuməti təhlükəli siyasətə keçmişdi.

Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi milli hökumət Rusiyanın başladığı oyunun ilk rəsmi təhlükəsini 1920-ci il yanvarın 2-də hiss etdi. Bu günə kimi də Lenin özgə bostanına daş atırdı. Amma ilk rəsmi hərəkət məhz o nəhs gündə oldu. Rusiyanın Xarici İşlər Naziri Çiçerin Azərbaycan hökumətinə bir bəyanat göndərmişdi...

Məmməd Əmin Rəsulzadə o bəyanat haqqında:

«Çiçerin Azərbaycan və Gürcüstan cümhuriyyətlərinə telsiz teleqrafla göndərdiyi notasında bu hökumətləri, ricət edən Denikin ordusunu tamamilə məhv etmək üçün silah arkadaşlığına dəvət ediyordu. Bu nota cümhuriyyətlərin istiqlalını tanımaq və müxadinət müahidəsi əqdini istəməkdən ziyadə əhaliyi hökumət əleyhinə təhrikdən ibarət olan bir propağanda hökmündə bulunuyordu».

Qəribə idi ki, Çiçerinin bəyanatında xüsusi hökm duyulurdu. Çiçerin sanki öz tabeliyində olan, onun qanunları ilə yaşayan bir hökumətlə danışırdı. Bu isə

Məmməd Əmin Rəsulzadəni və milli hökumət nazirlərini bərk acıqlandırırdı. Baş nazir Fətəli xan Xoyski bu bəyanata mənfi cavab verib Çiçerinin üstünə göndərmişdi.

Denikin ordusu məğlub olurdu. Amma təhlükə sovuşmurdu.

İndi Denikindən də təhlükəli bir qüvvət olan bolşeviklər hərəkətə gəlmişdilər.

Məmməd Əmin Rəsulzadə yaranan vəziyyət haqqında belə düşünürdü:

«Denikin ordusunun bu surətdə inhilalı və Qafqaziya cümhuriyyətlərinə ilticası nəticəsində şübhəsiz ki, Azərbaycan ən müdhiş bir təhlükəyi adladıyordu. Fəqət, eyni zamanda da atəşdən çıxıb alova düşüyordu.

Denikinin yerinə indi Lenin qüvvəti qaim olmuşdu. Bu da bir rus qüvvəti idi».

Məmməd Əmin Rəsulzadə Leninin niyyətini yaxşı başa düşürdü. Hələ «Şaumyan hökuməti» dövründən Leninin Bakı neftinə vurğunluğunu bilirdi. Lenin Rusiyanın Bakı nefti olmadan yaşaya bilməyəcəyi qənaətində idi. Ona görə də qurduğu hökuməti yaşatmağın ilkin çıxış yolunu Bakının neftində görürdü. Sözü ilə işi heç zaman uyğun gəlməyən Lenin Azərbaycanı ələ keçirmək, Bakı neftinə sahib olmaqdan ötrü müxtəlif hiyləgərliklər edirdi. Dostu Şaumyandan əli çıxan Lenin indi bir qrup Azərbaycanlıya vəd edirdi ki, Azərbaycanın müstəqilliyinin qorunmasından ötrü guya Rusiya narahatdır. Ona görə də Çiçerinin adı ilə göndərdiyi bəyanatlarda Lenin Azərbaycanın müstəqilliyinin qorunmasından danışır.

Amma Məmməd Əmin Rəsulzadə Leninin bu niyyətini yaxşı başa düşürdü. Bilirdi ki, Lenin yalnız Bakı neftini ələ keçirmək istəyir.

**Bir ağrı.** Sonradan üzə çıxan faktlar Məmməd Əmin Rəsulzadənin haqlı olduğunu sübut etdi. Məlum oldu ki, Lenini Bakının nefti narahat edirmiş və hansı vasitə ilə olursa-olsun bu zəngin sərvəti ələ keçirməyə çalışırmış. Faktlara müraciət edək.

1920-ci il martın 17-də Lenin Orconikidzeyə bir teleqram göndərir: «Bakını ələ keçirmək bizə olduqca vacibdir».

Lenin hələlik neft sözünü işlətmir. Çünki fikirləşir ki, birdən azərbaycanlı bolşeviklər də duyuq düşərlər. O yalnız bir şeydən danışır: guya Bakını almaqda məqsədi orda hakimiyyəti fəhlə və kəndlilərə verməkdir.

Məmməd Əmin Rəsulzadə onun niyyətini başa düşür, amma «sosializm» toruna düşən bəzi şəxslər isə yox.

Bakının işğalından, XI ordunun şəhərə girməyindən və artıq təhlükənin sovuşduğundan rahatlanan Lenin uca bir səslə çirkin məqsədini etiraf edib həqiqəti deyəcəkdi. Özü də elə ucadan deyəcəkdi ki, hamı eşidəcəkdi o səsi.

Lenin aprelin 29-da, Bakı neftinin ələ keçirilməsindən cəmi bir gün sonra bu sözləri deyəcəkdi:

«Dünən Bakıdan məlumat almışıq. Məlumatda göstərilir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılığa doğru gedir. Məlumdur ki, sənayemiz yanacaqsız qalıb. Budur, indi xəbər göndərilib ki, Bakı proletariatı Azərbaycan hökumətini devirərək, hakimiyyəti ələ keçirib. Bu o deməkdir ki, biz indi elə bir iqtisadi baza ələ keçirmişik ki, o bizim bütün sənayemizi dirildəcək».

Vəziyyət getdikcə gərginləşirdi. Məmməd Əmin Rəsulzadə Azərbaycan hökumətinin indi Denikindən də təhlükəli bir qüvvə ilə üz-üzə dayandığını başa düşürdü. Yalançı şüarla silahlanmış Lenin hökuməti Azərbaycanda gizli oyunlar təşkil edirdi. Lenin bu gizli oyunlarını yalnız beyni korşalmış azərbaycanlı bolşeviklərlə deyil, eyni zamanda ona həmişə boyun əyib qulluq göstərmiş ermənilərlə də həyata keçirirdi. Bu xalq həmişə azərbaycanlılara xəyanət etməyə hazır idi. Bu xalqın Şaumyanları ölmüşdüsə də, ondan betər xainləri—Mikoyanları, Mirzoyanları var idi və yaşayırdılar.

Ermənilər Rusiya bolşeviklərinin göstərişi ilə bu xəyanətə Azərbaycan xalqı üçün ən əziz bir gündə—Novruz bayramı günündə başladılar. Həmin günü adamlar Azad Azərbaycanda Novruz bayramını ürək açıqlığı ilə qeyd edirdilər. Belə bir vaxtda ermənilər yurdumuzu talana başlamışdılar.

Hadisəyə Məmməd Əmin Rəsulzadə belə ağrıyırdı:

«Bayram gecəsi—Novruz bayramı Şişə şəhərinin yaxınlığında vaqe «Xankəndi» deyilən əsgəri qəsəbə bayrama məxsus bir zövq içində zabitan məhfəli-əsgəridə gecəyi keçirməklə məşğul. Əsgərlər axşamdan bayram şənliklərinə məşğul olduqdan sonra istirahətə dalmış, uyuyur. Bu əsnada ətraf göylərdə məskun erməni ustası bu gecəyi məxsus ehzar etdikləri süngülərlə mücəhhəz olduqları halda gecə ilən bir basqın icra ediyorlar. Ansızın yapılan bu gecə basqınını müdhiş bir plan üzərinə tərtib edilmişdi...»

Məmməd Əmin Rəsulzadə haqlı idi deməkdə ki, «bir plan üzərinə tərtib edilmişdi». Plan isə ondan ibarət idi ki, hökumətin başı bu işlərə qarışsın, milli qoşun Bakıdan uzaqlaşdırılsın.

Məkrli plan uğurla həyata keçirilirdi.

Fəlakət yaxınlaşırdı.

Məmməd Əmin Rəsulzadə həyəcan keçirirdi. Fətəli xan istefa verib. Onun yerinə gələn Məmməd Həsən Hacınski yeni kabinə təşkilində ləng işləyir, tərəddüdlü mövqe tutur. Həm Türkiyə, həm də Rusiya ilə dostluq mövqeyi tutan bir hökumət qurmaq istəyir.

Bolşeviklərin təhlükəsi getdikcə artırdı. Məkrli plan həyata keçirilirdi; guya XI ordu Türkiyəyə köməyə gedir.

Ortalığa atılmış bu son şüar Məmməd Əmin Rəsulzadəni olduqca təşvişə salmışdı. Bu qorxulu siyasət idi. Düşünürdü ki, əgər bolşeviklərin məqsədi Türkiyəyə köməkdirsə, onda niyə Bakıya girirlər, Anadoluya getmirlər? Yox, bu kömək deyil, Bakını ələ keçirməyin yoludur. Doğrudan, Türkiyənin vəziyyəti indi ağırdır. Düşmən qüvvələr Türkiyəni parçalamaq fikrindədir. Türkiyənin bir

hissəsini bolqarlara, digər hissəsini ermənilərə vermək istəyirlər. Trakiyadakı hadisələr də qorxuludur. Türklərin İstanbuldan tam qovulub çıxarılmasından danışılır. Fransızlar, yunanlar, ingilislər hər tərəfdən Türkiyəni dövrəyə alıblar. Türkiyəyə kömək lazımdır! Amma necə? Yaranmış vəziyyətdən Rusiya bicliklə istifadə edir. Qırmızı bayrağını qaldırıb ki, guya Türkiyəyə köməyə gedir. Bu hiyləgərlikdir. O bilir ki, Azərbaycanlılar heç zaman qardaş Türkiyənin xilasından köməyini əsirgəməz, lazım gəlsə canını qurban verər. Öz işğalçı ordusunu Bakıya salıb, Azərbaycanı əsarətə almaq üçün gözəl imkan düşüb əlinə. İndi öz Azərbaycanlı bolşeviklərinin köməyi ilə Bakıda yanlış təbliğat yayır və adamları milli hökumətə qarşı qaldırmaq istəyir. Türkiyədə milli Azərbaycan hökumətindən narazılıqlar başlanmışdı. Əsl həqiqəti bilməyən türklər gileylənirdilər ki, bəs Azərbaycan hökuməti niyə bizə köməyə gələn ordunu öz ərazisindən buraxmır?

Budur, Türkiyə hökumətindən etiraz teleqramı gəlib:

«Azərbaycan hökumətinin ən təhlükəli zamanlarında bir çox qan bahasına qurtaran və ona mövcudiyyət verən Osmanlı və Anadolu türk ağabəyləri hər tərəfdə düşmənlə pəncələşərkən düşmənlərimiz əleyhinə əzim bir hərbə girən bolşevik ordularının önünə Azərbaycanın bir səd olması və ya bitərəf qalıb laqeyd dayanması bütün aləmi-islamın səbəbi izmihlalı olacaq və azərbaycanlılar əbədiyyən ləkələnəcək və zatən özünə də bu dünyada hakkı həyat qalmayacaqdır. Bu gün Anadolunun xilası üçün bolşevik ordularıyla əl-ələ verərək hərəkəttən başqa bir çarəmiz qalmamışdır. Türkü və islamı əbədiyyən yaşatmaq bu fürsəti qaib etməklə olacaqdır. Azərbaycanın şərəfli bir iş yapacağı və yaxud üç yüz əlli milyon islamın həyat və namusunu boynuna alacağı dəqiqələri yaşıyoruz. Bolşeviklərlə müttəfiqən hərəkətiniz və bu suratlə Anadolu türkləriylə birləşməyə çalışmanızı ümid ediyor və intizardayız.

Kolordu komandanı:
KAZIM QARABƏKİR»

Vəziyyətdən çıxış yolu görünmürdü. Hər yandan qara buludlar çökürdü Azərbaycanın üstünə.

Məmməd Əmin Rəsulzadə həyəcan içində çırpınır və xalqı hər tərəfdən dövrəyə almış bu zülmət pərdəsini yırtıb demək istəyirdi: siz həqiqəti bilmirsiniz. Həqiqətdən uzaqda, çox uzaqda dayanmısınız. Həqiqəti bilmək istəyirsinizsə, onda üzünüzü Leninə tutub bircə dəfə soruşun. Soruşun ki, əgər bu qoşun Türkiyəyə köməyə gedirsə, bəs onda niyə Bakıya girir? Türkiyəyə gedən yol ki, Bakıdan keçmir.

Amma Məmməd Əmin Rəsudzadənin dediyi bu həqiqəti nə türklər qəbul edirdi, nə də Bakının özündəki bəzi qüvvələr. Azərbaycanlı bolşeviklər isə xalqın zəif damarından yapışıb bu məkrli planı həyata keçirirdilər.

Fikirli və dilxor vəziyyətdə evə gəldi. Sifəti qaralıb qorxulu hala düşmüşdü. Ümbülbanu xanım həyat yoldaşını bu vəziyyətdə görəndə ciddi hadisə baş verdiyini anladı.

İçərisindən ağrılar qopur, ürəyini sızladırdı. Sevimli qızları Lətifə ilə Xalidə mehribanlıqla atalarını qucaqladılar. Həmişə övladlarının belə mehribanlığından rahatlıq tapsa da, indi hissiz, hərəkətsiz idi. Lətifə də, Xalidə də atalarının bu vəziyyətinə təəccüblənən kimi oldular. Ataları həmişəki adama oxşamırdı.

Sevimli qızları belə düşünməkdə haqlı idilər. Həqiqətən də o, həmişəki adama oxşamırdı. Ürəyi qan ağlayırdı. Ataları xalqının əldən getməkdə olan azadlığının ağrısına tutulmuşdu.

Yaxınlaşıb beşikdə sakit-sakit yatan oğlu Rəsula baxdı. Körpə dünyanın bütün qeylü-qalından xəbərsiz halda beşikdə yatırdı. Sevimli oğlunun üzündə xoş bir təbəssüm vardı. Əyilib astadan oğlunun üzündən öpdü. Və yazıq körpə heç ayıq da olsa bilməyəcəkdi ki, bu, mehriban atasının son öpüşləridir və o, az sonra ata məhəbbətinə, ata öpüşünə həmişəlik həsrət qalacaqdı.

**Bir ağrı.** Heç Məmməd Əmin Rəsulzadə də bilməyəcəkdi ki, bir gün gələcək, indi mehribanlıqla bağrına basdığı sevimli oğlu onun adı ilə qətlə yetiriləcək. İnanmazdı ki, günlərin birində oğlu böyüyüb on doqquz yaşına çatanda, boylu-buxunlu, yaraşıqlı bir igid görkəmində olanda «bolşevik qatillər» onu yatdığı yerdə həbs edəcək, qaranlıq zindana salacaqdılar. Qaranlıq zindanda min bir işgəncələr verəndən sonra, «sən müsavat hökumətinin başçısının oğlusan, xalq düşmənisən» deyib güllələyəcəkdilər. O dəhşətli sorğu-sual zamanında isə Rəsul qorxmadan, çəkinmədən özünü qətiyyətli aparıb ötkəm də cavablar verəcəkdi. Rəsulun bu qorxmazlığını görənlər ürəklərində fikirləşəcəkdilər: «Qoçun oğlu qoç olar». Hadisənin şahidi olanlar ürəklərində fikirləşdiklərini yalnız əlli üç il keçəndən sonra, qorxu-hürkünün tam çəkildiyinə inanıb mənə danışacaqdılar.

..Məmməd Əmin Rəsulzadə isə oğlunun belə cəsarətindən xəbərsiz halda dünyaya göz yumacaqdı.

Vətənin başı üstündə qara buludlar dolaşırdı. Vətəni xilas etmək lazım idi. Amma necə? Hansı yolla?

Tələsirdi. Nəsib bəy Yusifbəylinin mənzilinə tələsirdi. Saat doqquzda bütün partiya liderləri orda toplaşıb vəziyyəti müzakirə edəcəkdilər.

Aprelin 27-si idi. 26-sı gecəsində XI ordu artıq Azərbaycan hüdudlarını keçmişdi.

Saat doqquzda partiya liderləri Nəsib bəyin evinə toplaşdılar. Müxtəlif fikirlər irəli sürüldü. Şəfi bəy Rüstəmbəyli isə deyirdi: gəlin hökuməti Gəncəyə köçürək və oradan bolşeviklərə qarşı mübarizə aparaq. Şəfi bəyin təklifi qəbul olunmadı. Belə qənaətə gəldilər ki, ən yaxşısı Bakıda qalıb hökuməti qan tökmədən bolşeviklərə verməkdir. Ciddi fikir ayrılığını görüb partiya liderləri belə razılaşdılar: Cümhuriyyətin taleyini parlamentin çıxaracağı qərarla müəyyənləşdirmək lazımdır.

Aprelin 27-də saat 12-də parlamentin son iclası oldu.

Hərbi nazir Mehmandarovun vəziyyət haqqındakı məlumatından və mövqeyindən də çox şey asılı idi. Amma təcrübəli general bütün imkanlarından istifadə etmişdi. Bakıda qalan cüzi bir qüvvə ilə 60 minlik düşmən ordusunun qarşısını almaq olmazdı. Hərbi nazir açıqca elan etdi ki, onun ordusu müqavimət göstərmək imkanına malik deyil.

«Sosialist» və «İttihad» partiyaları açıq şəkildə hökumətin sovetlərə verilməsini müdafiə etdilər. «Əhrar» partiyası da bolşeviklərə etirazı olmadığını söylədi.

Vəziyyət başqalaşmışdı. Yaxınlaşan təhlükə adamların möhkəmliyini sarsıtmış, fikirlərini dəyişmişdi. Həmin matəm libasına bürünmüş Demokratik hökumətin son iclasında yalnız o sərt mövqe tutdu. Hamı inandı ki, Məmməd Əmin Rəsulzadə mübarizə yolundan dönmək fikrində deyil, əksinə, son nəfəsinə kimi döyüşmək əzmindədir. Adamlar şahidi oldular ki, həyatını Azərbaycanın istiqlaliyyəti yolunda qurban verməyə hazır olan hökumət başçısı təslim olmaq istəmir. Həmin o məşum gündə, yurdunun düşmən həmləsinə məruz qaldığı ərəfədə qorxmadan, çəkinmədən yaxınlaşmaqda olan bolşeviklərə nifrətini və mövqeyini belə bildirdi:

«Əfəndilər, mötəcazir bir ultumatum qarşısında qalmışıq. Burada təslimdən bəhs edirlər. Fəqət əfəndilər, təslim nə demək? ...Kimə tərki mövqe edirik?... Bizə deyirlər ki, hüdudunuzu keçən ordunun başında Nicati adında bir türk komandanı durmuşdur. Rusiyadan gələn bu mötəcaviz ordu təmin edirlər ki, həyat və məmat müğadiləsində qalan Türkiyəni xilas üçün gedir.

Əfəndilər, Türkiyə Azərbaycanın xilaskarıdır. Amali milliyyətimizin təbcil eylədiyi müqəddəs bir məmləkətdir. Onun xilasına gedən qüvvəti biz məmnuniyyətlə istiqbal və teşyi edərik. Fəqət bir şərtlə ki, bu qüvvət bizim hürriyyətimizi, istiqlalımızı çeynəməsin. Halbuki, əfəndilər, bizə sormadan hüdudumuzu keçən hər hansı bir qüvvət, dostumuz deyil, düşmənimizdir!

Duyduğumuz bu propaqanda düşmən propaqandasıdır. Bizi iğfal ediyorlar. Yalandır. Gələn ordu rus ordusudur. Fərzən komandanı bir türk olsa da yenə rusdur. İstila ordusudur. Onun istədiyi 1914-cü il hüduduna qayıtmaqdır. Anadolu imdadına gedəcək bəhanisiylə yurdumuza girən bu işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Qızıl Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim, ultumatumu qəbul etmək zillətinə qatlanmağa ehtiyac yoxdur. Bu mötəcaziranə ultumatumu rədd etməliyik...

İstiqlalımızı göz bəbəyi kimi müdafiəyə qərar verən bir məclisə dinlədiyi bu ultimatumu qəbul etmək, hökuməti öz əliylə dost kisvəsinə bürünmüş düşmənə təslim etməkdir. Biz buraya millətin iradə və arzusuyla gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır…

...Dediyin sözlər hamının ürəyindən idi. Adamlar yenə səni sevir, inanır, arxanca da gəlməyə hazır idilər. Çünki görürdülər ki, başı bəlalı Vətənin yolunda necə həlak edirsən özünü. Ondan qeyri bir idealın, səadətin yoxdur. Vətən istiqlalı

ilə yaşayıb nəfəs alırsan. Elə buna görə hamının məhəbbəti vardı sənə. Amma dövran dəyişmişdi. Dəyişən şərait insanı çox şeyə məcbur edir...

Məmməd Əmin Rəsulzadə çıxışında açıqca bildirirdi ki, son nəfəsinə kimi bolşeviklərlə vuruşmağa hazırdır, lakin o biri partiyaların imtina etdiyi şəraitdə «müsavat» partiyası bu çətin vəzifənin məsuliyyətini üzərindən götürür.

İndi son ümid, vətəni bu bəladan qurtarmağın son çıxış yolu Azərbaycanlı bolşeviklərin göndərdiyi ultimatuma qalırdı. Onlar göstərirdi ki, hakimiyyət ruslara deyil, azərbaycanlı kommunistlərin ixtiyarına keçir. Bu məsələni dəqiqləşdirmək, bolşeviklərlə görüşmək üçün bir «komissiya» yaradıldı. Bolşeviklər isə Behbud bəy Cavanşirin mənzilində oturub cavab gözləyirdilər. Azərbaycanlı bolşeviklər tez-tez Behbud bəyin evinin pəncərəsindən çölə boylanaraq «xoşbəxt» dəqiqələrin başlanması intizarında idilər. Hamısının içərisindən qəribə sevinc hissləri keçirdi. Onlara isə xalqın malını, sərvətini çapıb-talayıb Rusiyaya göndərdiklərinə görə Lenin bir ötəri «pay» verəcəkdi. Yəni göndərdiyi təşəkkür məktubunun sonunda yazacaqdı: «Kommunist salamı ilə». Bu «kommunist salamı» sözünü isə azərbaycanlı bolşeviklər müqəddəs yerdən göndərilən quran kimi qarşılayacaqlar.

Başqa çıxış yolu qalmamışdı. Parlamentdə yaradılan «komissiya» bolşeviklərlə görüşüb aşağıdakı şərtlərlə hakimiyyəti onlara v e r d i :

1. Rus ordusu Bakıya girmədən dəmir yolu ilə Anadolu imdadına gedəcək.

2. Azərbaycan istiqlal və təmamiyyəti-mülkiyyəsi hər növ, təərrüz və qüyuddan məsun qalacaq.

3. Azərbaycan ordusu olduğu kimi qalıb inhilal etdirilməyəcək.

4. Azərbaycan firqəsi siyasiyyəsi-hürriyyət və sərbəstlərini mühafizə edəcəklər.

5. Sabiq rical, əzayi-hökumət və məbusandan kimsə cürmisiyası ilə ittiham edilməyəcək.

6. Kəmali-sərbəsti ilə toplanacaq Azərbaycan şuraları hökumətinin şəkli-idarəsini təyin qılacaq idi.

..Sonradan bolşeviklər bu şərtlərin heç birinə əməl etmədilər.

XI ordu Bakıya girirdi. Yolda hərbi nazir Mehmandarovun göndərdiyi bir teleqramı tutub saxladılar. Bu azad Azərbaycanın paytaxtı Bakıdan göndərilən son hökumət teleqramı idi. Bu teleqram göndəriləndə hələ Bakı işğal olunmamışdı, ümid işığı tam sönməmişdi.

Hərbi nazirin milli ordumuza son ümidini yaşadan t e l e q r a m :

«Hərbi sənəddir. Növbədən kənar. Birinci diviziyanın rəisinə. Gəncə.

Bolşeviklər Yalama stansiyasına hücum edib irəliləyirlər. Xudatı tutublar. Vəziyyət gərgindir. Əmr edirəm: Elə bu gün Qızılburuna Qazaxdan bir, Gəncədən də bir batalyon göndərin... Sabah batalyonların gələcəyini gözləyəcəyəm.

№ 1417. 1920-ci il, 27 aprel.
G E N E R A L MEHMANDAROV».

Bu son teleqram idi. Amma teleqram ünvana gedib çatmadı. Bir də hər şey gec idi artıq.

XI ordu qarşısına çıxan nə vardısa dağıdıb Bakıya girirdi. Milli hökumətin yüzlərlə əsgərini yolda öldürüb şəhid edən ordu amansız intiqam ilə Bakıya girirdi.

Həmin günü Bakıya tələsən bir adam da vardı. O bu günü böyük səbirsizliklə, həsrətlə gözləmişdi. İndi o gün gəlib çıxmışdı. Azəri türklərinin qanını hərisliklə içməyə tələsən bu adam Anastas Mikoyan idi.

Erməni qatillərini növbəti qəsdə hazırladığına görə gecikib Bakıya iki gün sonra—aprelin 30-da gələcəkdi.

## YOXDUR HƏQİQƏT!

Yoxdur həqiqət! O həqiqət varsa üzündən qanlı niqabı götürüb gözümə görünsün! O həqiqət varsa zülmün qılıncını başım üstdə oynatmasınlar! O həqiqət varsa iti pəncələri ilə bağrımı söküb parça-parça etməsinlər! O həqiqət varsa sinəmə dağlar çəkib gözümdən qanlı yaşlar axıtmasınlar! Yox, yoxdur həqiqət! Mən o həqiqətin varlığına inanmıram. Əgər o həqiqət varsa qaranlığı dağıdıb işıq saçsın!

...Gecənin qaranlığı ilə evə gedirdi. Ümidləri qırılmış, arzuları doğranmış keçmiş hökumət başçısı yol gedirdi. Gedirdi və içərisi hönkürürdü. Hər şey, hər şey bitmişdi. Yurdu yenidən talan olunur, özgələrin əsarəti altına düşürdü. Yüzillik isti torpağından yenicə baş qaldıran istiqlaliyyət gülünü zülmkar əllər qoparıb atırdı. İnsan iniltisindən, göyə yüksələn fəryadlardan təzəcə dinclik tapmış torpağın qara günləri başlayırdı. Vətənin azadlıq qapılarına qanlı qıfıllar asılırdı. Neçə müddət idi ki, başı üzərində üç rəngli bayraq dalğalanan xalq qanlar içində boğulmaq ərəfəsində idi.

Yol gedir və düşünürdü: hər şey, hər şey qurtardı. Bu gələn rus ordusudur. Vətənimi istila etmək üçün gəlir. Bu gələn qoşun heç zaman Bakıdan çıxmayacaq. Bu qoşunu yalnız zorla, qüvvətlə qovmaq mümkündür. Sabahdan qoşun şəhərə girirdi.

**Bir ağrı.** İllər keçəcək və o, müxtəlif ölkələrdə çıxaracağı jurnalların hamısında «27 apreli» matəm günü kimi elan edəcəkdi. Həmin günü qara haşiyəyə alıb, Azərbaycanın matəmidir deyə bildirəcəkdi. Sonralar isə hər il «aprelin 27-də» ona matəm teleqramları göndərib, xalqın ağır dərdinə - istiqlalının əldən getməyinə kədərləndiklərini bildirəcəkdilər.

...Aprelin 28-də Bakının küçələri XI ordu əsgərləri ilə dolu idi. Ədəbsiz halda Bakının küçələrinə yıxılıb uzanmış bu «sarı əsgərlərə» nifrətlə baxırdı. Kənardan, kənardan dayanıb bu ağrını çəkirdi. «Gizli müsavat»ın tapşırığını yerinə yetirməyə məcbur idi. «Gizli müsavat» ona üzə çıxmamağı tapşırmışdı. Yox, o fəaliyyətindən qalmamışdı. O yenə işləyirdi, xalqını qanlı işğaldan qurtarmaq yollarını düşünürdü. O biri partiyalar təslimçilik mövqeyi tutmuşdu. Amma onun

ilhamçısı, lideri olduğu «Müsavat» fəaliyyətdə idi. Bu yolu axıracan gedəcəkdi, son nəfəsinə kimi mübarizəsini aparacaqdı. Ömrü harda qırılsa, orda da dayanacaqdı. Fikrində qətiyyətli idi! İnanırdı ki, az keçməmiş indi bolşeviklərə ümid edənlər tezliklə aldandıqlarını başa düşəcək, onlara təqdim edilən siyasətin iç üzündən agah olacaqlar. O zaman adamlar yenə onun qaldırdığı üç rəngli bayrağın dövrəsinə yığılacaqlar.

Çünki bu haqq bayrağı, azadlıq, istiqlaliyyət bayrağıdır. Çünki bu bayraq təmizdir, büllur çeşmə kimi safdır. Bu bayraq minlərlə Azəri türkünun qanından yaranıb. Düşünürdü öz-özünə: o bayrağı son nəfəsimə kimi göylərə qaldırıb enməyə qoymayacağam. Qoy indi rusların qırmızı bayrağını öpüb gözlərinə qoysunlar, hər yerdə «Yaşasın inqilab» qışqırsınlar. Vaxt gələcək, zaman yetəcək, onlar da peşiman olacaq, aldandıqlarını biləcəklər. O qırmızı bayraq onların da başını kəsib nahaqdan qanını axıdacaq. Biləcəklər, əsl həqiqəti biləcəklər. Amma onda gec olacaq. Budur, indi parlament binasına yığılıb «Ura» sədalarını göylərə yüksəldirlər. Hətta Leninə muştuluq xəbəri də göndəriblər ki, bəs müstəqil Azərbaycan sovet sosialist Respublikasının müvəqqəti hərbi inqilab komitəsi xalqın istəyi ilə hakimiyyəti ələ alır, müsavat hökumətini xalqın düşməni sayır. Sovet Rusiyasının bütün düşmənləri ilə əlaqəsini kəsir. Altdan da imza qoyublar: Nərimanov, Mirzə Davud Hüseynov, Musabəyov, Əliheydər Qarayev...

Mayın 3-də Parlament binasından üç rəngli bayrağımızın yerinə özünüzünkünü asdınız. Heç bilirsinizmi həmin günü nə oldu? Heç bilirsinizmi xalq həmin günü necə ağlayıb fəryad qopardı? Siz o bayrağı tərpətməklə xalqın ürəyini yaraladınız. İnildədi, fəryad qopardı xalq. Ah-naləsindən göylər silkələndi, yerlər yarıldı. Xalqın içərisi nifrət və qəzəb alovu ilə doldu sizə qarşı. İndi həmin od yanıb hər yanı bürüyür. Onu söndürə bilməyəcəksiniz, gücünüz çatmayacaq!

Bəli, endi bayrağımız. O üç rəngli azadlıq müjdəçisi vəhşicəsinə qoparılıb ayaqlar altına atıldı. O vicdanımız, namusumuz, qeyrətimiz idi. Namusu, qeyrəti, ayaq altında tapdanan xalqın qəzəbini yatırmaqmı olar? Bura gəlməkdə məqsədiniz hamıya aydındır. Buraya sərvətimizi soymağa gəlmisiniz. Əgər elə olmasaydı gələndən iki gün sonra qızıl neftimizi gəmilərə yükləyib Rusiyaya daşımazdınız!

Bakıya girəndə yüzlərlə biçarə Azərbaycan əsgərini qətlə yetirib öldürdünüz. Nə idi onların günahı? Onlar ki, öz vətənlərini qoruyurdular! Görün necə namərdsiniz ki, altmış min qoşunla qarşınızda dayanan min nəfərə güllə atmısınız, neçə günahsızı yolda al qanına boyamısınız. Bunu xalq bağışlayarmı?

Sanki xalqa göz dağı verirsiniz. Yüzlərlə şəhidini tapdalayıb üstündən keçir, üç nəfər ölən əsgərinizi Bakının küçələrində musiqi çaldırıb təntənə ilə basdırırsınız. Özü də harda? Azərbaycan torpağında.

Hələ o yoxdur. Hələ o gəlməyib. O gələndə ayrı dəm-dəstgah olacaq. İşğalçı əsgərlər sıraya düzüləcək, göyə salam atəşi yağdıracaq, yalançı şüarlarla vağzalı bəzəyəcəklər. O isə vaqondan düşən kimi süni bir halda gülümsəyib deyəcəkdi: «Sizi qırmızı Moskva adından təbrik edirəm». Sonra heç nəfəsini dərmədən Şərqin

xilaskarına teleqram vuracaqdı ki, bəs «Qızıl Ordu özünü yaxşı aparır, əhvali-ruhiyyə inqilabidir. Mənim şəxsimdə əhali Sovet Rusiyasını səmimiyyətlə alqışlayır».

«Mənim şəxsimdə»... Bu xəstəlikdən yalnız ömrünün sonunda yaxa qurtaracaqsan. Onda gec olacaq. O zaman biləcəksən ki, aldanmısan. Bakıda minlərlə adamı qətlə yetirdilər, ayaqlarına daş bağlayıb dənizə atdılar, quyulara doldurdular. Sən isə susurdun. Amma xəbərin var idimi ki, cəllad Pankratov, xain Mikoyan hansı əməllərdən çıxır, necə nahaq qanlar tökür? Heç bir dəfə də olsun Mikoyandan Bakıya niyə gəldiyini soruşdunmu? Dedinmi ki, məqsədin nədir? Maraqlandınmı ki, niyə Mikoyan ömrü boyu yaltaqlandığı rus əsgərlərini yanına salıb gecələr evlərə hücum çəkir, adamların qızıl üzüyünü, qızıl sırğasını, altununu, gümüşünü oğurlayıb aparır? İndi hər yerdə «müsavatı» damğalayır, onlar «bəy, xan hökuməti» qurmuşdular deyirsiniz. Böhtan atır, adımıza ləkə yaxırsınız. Xalq üçün gördüyümüz işlərin hamısını ləkələmək istəyirsiniz. Əgər qurduğumuz hökumətdə savadlı, əsilli-nəsilli, ziyalı bəy, mülkədar vardısa, bunun nəyi pis idi. Elə onların savadının, bacarığının hesabına qısa bir zamanda hər sahədə milliləşdirmə apardıq, böyük işlər gördük. Bəs siz nə edirsiniz? Rus və erməni soyğunçularını doldurmusunuz Bakıya! Hamısına da fövqəladə səlahiyyətlər verilib. İndi Bakının ağası Pankratovdur. Pankratov erməni mafiyası ilə Çikoyanla, Atarbəyovla əlbirdir. Bəs nə iş görür bu adamlar? Adam öldürür, evləri soyurlar. Niyə bir dəfə dəfə olsun soruşmursunuz ki, axı biz müstəqil respublikayıq. Pankratov, Mikoyan nə ağalıq edir burda? Soruşmursunuz...

Amma biz sakit dayanmayacağıq. Gecəli-gündüzlü çalışıb fəaliyyətimizi davam etdirəcəyik. Xalqı düşdüyü müsibətdən qurtaracağıq. «Müsavat» yenə üç rəngli bayrağını xalqın başı üzərində dalğalandıracaq! Müsavat işləyir. Müsavat fəaliyyətdədir.

...Məmməd Əmin Rəsulzadə Bakıda fəaliyyətə başlayan «gizli müsavat»ın ilhamçısı idi.

«Gizli müsavat» işləyirdi.

## «Gizli müsavat»

Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi «Müsavat» partiyası elə aprelin 27-si gecəsindən fəaliyyətə başladı.

Hökumət bolşeviklərə məcburən veriləndən sonra sədaqətli müsavatçılar - Mirzə Bala ilə Əbdül Vahab Yurdsevər onun evinə gəldi. Məmməd Əmin Rəsulzadə onlara lazımi məsləhətlər verib təlimatlandırdı. İşi hansı sahədə aparmağı, necə mövqe tutmağı dedikdən sonra ayrıldılar. Hamısı bilirdi ki, Məmməd Əmin Rəsulzadə nəzarətə götürüləcək və onun geniş fəaliyyətinə imkan verilməyəcək. Ona görə «müsavat»ın təşkilatı quruluşunda müəyyən dəyişiklik lazım idi.

Məmməd Əmin Rəsulzadə ilə görüşüb ayrılandan sonra Cəfər Cabbarlının şəhər kənarındakı evinə gəldilər. Cəfər Cabbarlı, Mirzə Bala, Əbdül Vahab Yurdsevər, Məmməd Sadıq Quluzadə və Məmməd Həsən Baharlı birlikdə gizli partiyanın ümumi mərkəzini yaratdılar.

Əbdül Vahab Yurdsevərin yazdığı:

«Partiya mərkəzi qurulduqdan sonra vəzifə bölgüsünə başlanmış və komisyonların təşkilinə keçilmişdi. Emin bəyin də razılığı ilə gizli təşkilatın başına Mirzə Bala Məhmətzadə gətirilmişdi. Müavini sifətilə Bakı komitəsinin təşkili mənə tapşırılmışdı. Bakı və onun xaricində, Azərbaycanın digər bölgələrində köhnə «müsavat» komitələrini canlandırmaq və yenilərini qurmaq vəzifəsi Məmməd Sadıq Quluzadəyə verilmişdi. Təşkilat məsrəflərini ödəmək işi Məmməd Həsən Baharlıya həvalə olunmuşdu. Ümumi mərkəzin Baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi. Bu vəzifə bölümünə görə ümumi mərkəz yanında tədricən ilgili komisyonlar da qurulmuşdu. Bu komisyonlar aşağıdakılardır: 1. Siyasi işlər komisyonu; 2. Təşkilat və propaqanda komisyonu; 3. Maliyyə komisyonu.

Fəaliyyətə başlamamızdan bir-iki ay sonra köhnə parlament üzvü Rəhim Vəkilli də Ümumi mərkəz üzvlüyünə cəlb edilmiş və siyasi İşlər komisyonunun başına gətirilmişdi.

Azərbaycanın müxtəlif yerlərində təşkilat qurmaqda heç bir çətinlik çəkməmişdik... Hamısı mal və can da daxil olmaqla hər şeylərini vətən yolunda fəda etməyə hazır olduqlarını ifadə edirlərdi».

Məmməd Əmin Rəsulzadənin ilhamçısı olduğu «Gizli müsavat» işləyirdi. Xalq isə sevirdi «müsavatı».

Ümidləri yalnız «müsavata» — onun ideya rəhbəri olan Məmməd Əmin Rəsulzadəyə idi.

«Gizli müsavat»ın demək olar ki, bütün təşkilatlarda adamları vardı. «Gizli müsavat» «İstiqlal» adlı bir qəzet də çıxarırdı. 1923-cü ilin ortalarına qədər çıxan bu qəzetin 19 nömrəsi çapdan çıxmışdı. «Gizli müsavat» xalqın tarixi ilə bağlı önəmli günlərdə müxtəlif bəyannamələr çap edib yayırdı. 1923-cü ildə «Müsavat» təşkilatının gizli mətbəəsində çap olunub xalq arasında yayılan bəyannamələrdən biri aşağıdakı məzmunda idi:

## «MÜSAVAT»IN GİZLİ BƏYANNAMƏSİ

Vətəndaşlar! Millətdaşlar!

Bu gün 27 apreldən üç il keçir. Üç il bundan əvvəl rus ordusu «İnqilab» və «Kommunizm» şüarıyla vətənimizə soxulmuşdur. Qəssablar yerli Azərbaycan türklərindən əldə etdikləri ajanların yardımı ilə məmləkətə girmişlərdir. Bu gün hər kəsə aydın və məlumdur ki, 27 aprel faciəsi kommunistlərin hər yerdə bağırdıqları kimi Azərbaycan kəndli və fəhlələrinin inqilabı deyil, sadə rus ordusunun vəhşicə bir istilasıdır. Yüz il bundan əvvəl çarlıq Rusiyası eyni vəhşətlə Azərbaycan

xanlıqlarını işğal edib Rusiyaya birləşdirmişdi. O zaman Azərbaycan-türk xalqı Sisyanovların kirli çəkmələri altında inləyirdi.

27 Aprel faciəsi ilə Azərbaycan ikinci dəfə olaraq rus ordusunun yeni Sisyanovu olan Orconikidzenin idarəsi altına girirdi. Nəticə hər iki halda eyni idi. O zaman Azərbaycan-türk xalqının arzu və iradəsi qanlara qərq edilirdi. Bu dəfə daha müqəddəs istiqlal haqqından əl çəkmək istəməyən Azərbaycanın on minlərlə dəyərli övladları Gəncə, Qarabağ, Zaqatala, Şamaxı, Göyçay və başqa qəzalarda güllələnirdi. O zaman Azərbaycan-türk xalqı bütün hürriyyət və haqqını itirdi, bu dəfə daha Azərbaycan-türk xalqı üçün hürriyyət və haqq deyilən şeylərdən bir əsər qalmışmıdır?

...Bilirsinizmi ki, 27 aprel faciəsindən sonra nə qədər oxumuşlarımız, çalışanlarımız, gənclərimiz, subay və əsgərlərimiz, kəndli və işçilərimiz Xəzər dalğalarına qurban olmuşlardır.. 27 apreldən sonra edamlar, həbslər son günlərə qədər davam edir, qurbanlar eyni vətənsevərlərdir.

Nikolay Rusiyası ilə Lenin Rusiyası arasında fərq yalnız bundadır ki, o zaman cahangirlik siyasəti başçısının adı Nikolay, indiki cahangirlik siyasəti başçısının adı Lenindir. O zamankı zəncirlərin rəngi qara, indiki zəncirlərin rəngi isə qırmızıdır.

Azərbaycan-türk xalqının fikri və arzusu ilə hesablaşan varmıdır? İndiki Şuralar hökuməti Azərbaycan-türk xalqını təmsil edirmi? Buradakı başçıların yüzdə yetmişi özgələrdən ibarət deyilmi? İndiki Şuralar hökuməti Azərbaycan-türk xalqı adına hansı haqla söz söyləyir? Oradakı başçıların yalnız yüzdə otuzu türk və müsəlmandır ki, onlar da Azərbaycan-türk xalqı ilə əsla əlaqədar olmayan, vicdanını, namuslarını, vətən və millətlərini Rusiyaya satmış alçaqlardan ibarətdir.

Süni şəkildə qurulan Şuralar hökuməti nə üçündür? ...Bu Şuraların vəzifəsi yalnız Rusiyanın istilasını qorumaq üçün deyilmidir?

Bundan sonra artıq kimi aldadacaqlar. Bütün dünya həqiqəti görməkdədir. Rusiya əvvəlki hüdudlarında olduğu kimi qurulmuşdur. Vətənimizin Muğan kimi bol məhsullu çölləri və çəmənləri ayrılıb rus kəndlilərinə verilir. Öz geniş torpaqlarını yabançılara imtiyaz sürətiylə verən Rusiya Azərbaycanın Muğan çöllərinə yüz minlərlə rus kəndlisini doldurub yurdumuzu hər zaman üçün rus ölkəsi halına gətirmək istəyir. Bütün dünyanın həsrətlə baxdığı Azərbaycan nefti Rusiyaya daşınır və bu gün öz neftiylə bütün dünya qarşısında iftixar edən Odlar yurdunun paytaxtı Bakı Moskvadan izn almadan bir pud neftə belə sahib ola bilmir. Təsəvvür edin ki, Bakı neftə möhtacdır. Neft Moskvada daha ucuz qiymətlə satılmaqdadır. Neftimiz Rusiyanın öz malı və milli sərvəti halına gətirilmişdir. 28 mayda Azərbaycan-türk xalqı istiqlalını elan etməklə öz sevimli və şəfqətli anasının qoynunda azad bir türk mədəniyyəti qurmaq, azad bir sənət, türk ədəbiyyatı, türk həyatı yaratmaq istəyirdi. Buna əngəl olmaq Rusiyanın yeni üsuludur. Azəri türkləri yaxşıca bilirlər ki, rus bayrağını qızıl rəngə boyayan türk

xalqının axıtdığı qanlardır. Azərbaycan-türk xalqının məsumanə axan qanından yüksələn milli intibah rus ağalığının son məzar daşı olacaqdır.

Ey türk xalqı, səni hürriyyətə qovuşduracaq və bəxtiyar yaşadacaq, qanlı mücadiləyə bütün qüvvətinlə hazırlaş. Səni bu mücadilə qurtaracaqdır. Azərbaycan istiqlalını bir dəfə qurdun, ikinci dəfə də qurmaq bacarığına sahibsən. Düşmənini tanı, milli intibahını yüksəlt, haqq səninlədir!...

Yaşasın Azərbaycan istiqlalı!
Yaşasın üç rəngli bayrağımız!
Məhv olsun rus cahangirliyi!

*Mərkəz heyəti.»*

«Gizli müsavat» xalq arasında belə ruhlu bəyannamələr yayır, onları mübarizəyə çağırırdı. «Gizli müsavat» işləyirdi. Xalq kömək edir, inanır, yardım göstərirdi ona. «Gizli müsavat» təşkilat üzvlərindən hər ayın başında beş ya on altı manat (imkana görə) alıb özünü maliyyələşdirirdi. Adamlar da vardı ki, evinin əşyasını bazarda satıb «Gizli müsavata» yardım əlini uzadırdı. Elə həmin o pullar ilə Məmməd Əmin Rəsulzadənin xaricə qaçmağı təşkil olundu.

Bakıda ölgünlük idi. İşğalçı rus əsgərləri küçələrə döşənib acgözlüklə evlərə baxır, gecənin düşməyini gözləyirdilər ki, girib soyğunçuluq, oğurluq etsinlər. Bakı bütövlükdə onların əlinə keçmişdi. Qətllər, ölümlər Bakıda günü-gündən artırdı.

Gözü yaşlı, ürəyi yaralı adamlar həsrətlə köhnə parlament binasına baxır, o üç rəngli bayrağın həsrətini çəkirdilər.

Məmməd Əmin Rəsulzadənin ağrılı sözləri:

«Vürudunun ilk günlərində «ixtilalın qansız olduğuna» təəssüf edən bu xunxar qüvvət artıq cəlladlıq zövqünü tətmin üçün fürsət bulmuşdu. Yalnız üsyan zühur edən yerlərdə deyil, üsyan ilə əlaqədar olmayan yerlərdə dəxi qurşuna düzülənlərin hədd və hesabı yox idi..»

Günahsız insanlar «müsavat»çısan, «millətçi»sən, adı ilə güllə hədəfinə çevrilirdilər.

Çölə baxırdı. Rus əsgərləri gülə-gülə küçədən keçib gedirdilər. Adamlar dərin matəm içində görünürdü. Əsəbi və dilxor halda ona çatdırılan bolşevik qəzetlərinə baxdı.

Budur, 1 may münasibətilə yazırlar:

«Yoldaş fəhlələr və vətəndaşlar! Bütün küçələr və meydanlar qırmızı bayraqlarla, yoldaşlarımızın azadlıq yolunda tökdüyü qanla doludur...

Rusiya proletariatı və kəndlilərinin Qırmızı Sovet ordusunun köməyi ilə biz Azərbaycandakı istismarçıları—kapitalist və mülkədarları rədd etdik»...

Yazılan sözlərə acı-acı gülümsünürdü. Azadlıq yolunda tökülən qan! Yox, qan elə tökülmür. O azadlıq yolunda deyil, kiminsə torpağını işğal etmək uğrunda tökülən qandır. Və sizin təntənə ilə Azərbaycanda basdırdığınız o rus əsgərləri işğalçıdır!

Qəzetlərə baxırdı. Bədəni əsəbdən titrəyə-titrəyə, içərisi kəsilə-kəsilə qəzetlərə göz yetirirdi.

Yazırdı q ə z e t l ə r :

«...Biz inanırdıq. Bilirdik ki, alçaq müsavat rejimi son günlərini yaşayır…

...Azərbaycan müsavatı erməni daşnaklarının ekiz qan qardaşıdır!»

Yazılanları oxuduqca ayağının altından az qalırdı yer qaçsın.

Qəzetin o biri nömrəsində Azərbaycan əsgərlərinə bolşeviklərin müraciəti verilmişdi. Mirzə Davud Hüseynovla Çingiz İldırımın imza qoyduqları müraciətdə əsas fikir budur: hücumu dayandırın!

Qəzetdə bir məlumat da verilmişdi: yalnız mayın 1-də Rusiya «Buniyad» gəmisi ilə 67,528 pud neft; «Rus» gəmisi ilə 128722 pud neft göndərilib; «İsgəndəriyyə» gəmisi ilə 76691 pud mazut yola salınıb.

Acı-acı düşündü: «Azərbaycanın sərvətini talan edirlər!»

Əlləri titrədiyindən qəzetin içəri səhifəsini açıb oxuya bilmədi. Oxuduğu hər məlumat ürəyinə ox kimi sancılıb, içərisini ağrıdırdı. Qəzetdə yenə bir müraciət verilib. Diqqət etdi. Bir müsavatçı əsgərin öz yoldaşlarına müraciəti idi. Hər sözündən yalan iyisi gələn müraciəti dilxor vəziyyətdə oxumağa başladı:

«Yoldaş əsgərlər! ...Satılmış müsavatçılar bizi aldadıb deyirdilər ki, bəs biz vətənə, millətə xidmət edirik və onlar bir də deyirdi ki, əgər bu yolda həlak olsanız, yeriniz müqəddəslər arasında olacaq.

...Yoldaşlar, bu istismarçılar daha yoxdur!

Kommunizm ideyasına eşq olsun!

İnqilab rəhbərləri olan Leninə və Trotskiyə eşq olsun!»

Nifrətlə qəzetdə yazılan müraciəti oxuyub düşün «Yox, Azərbaycan əsgəri heç zaman bu sözləri yazmaz. İnanmıram ki, bir vaxtlar əlində silah tutmağı ilə sevincindən gözləri yaşaran şanlı Azərbaycan əsgəri xəyanət yolunu tutsun. Bu yalandır. Həqiqətdən uzaqda dayanan bir böhtandır. Mən sizə inanmıram. Bakını işğal etsəniz də Azərbaycan əsgərindən qorxursunuz. Çünki o silahını yerə qoymayıb hələ. O əsgər sizə hələ çox qan udduracaq. O əsgər yuxularınıza haram qatacaq, xalqının talanan sərvətinə görə qanınızı axıdacaq. Onunla asanlıqla bacarmayacaqsınız. O əli silahlıdır. İstiqlaliyyətin nə olduğunu bilir. Sizin yalan bicliklərinizə inanmayacaq. Ondan ötrü yalnız bir həqiqət mövcuddur: Vətənin istiqlalı! Əgər bircə il də geciksəydiniz, Azərbaycan əsgəri ilə bacara bilməzdiniz. O qüvvətli və sayca da çox olacaqdı. Amma onun çoxalıb qüvvətlənəcəyindən qorxub Vətənimə hücum etdiniz. O əsgər sizi bağışlamayacaq. Gözlərində istiqlal alovunu söndürsəniz də ürəyində bir məşəl yanacaq, sizə nifrət yağdıracaq. Ayağı çarıqlı, əyni cırıq kürklü Azərbaycan əsgəri, ümidim sənədir. Bu gün sınaq meydanıdır. Xalqımın vuran qolu, qüvvətisən. Xalqın nahaqdan axıdılan qanını yerdə qoyma! Susdur düşmənin qəflət gülləsini!»

...Həyəcanından, hirs və qəzəbdən bir yerdə dayana bilmirdi. Otaqda tez-tez o baş - bu başa gəzişirdi...

Amma özü bilmirdi ki, belə hirslənməyi, əsəbiləşməyi, içərisindən keçən ağrılar hamısı onda ömrünün sonuna kimi əzab çəkəcəyi şəkər xəstəliyini artırırdı. Şəkər xəstəliyi otuz ildən də çox incidib, narahat etdi onu. Bu hadisələr hamısı onun içərisindən keçib gedirdi. Və şübhəsiz ki, acı təsirini də göstərirdi.

...Sabah Lahıca yola düşməli idi. Bakıda qalmaq olmazdı. Vəziyyət təhlükəli idi. Onu ciddi halda axtarır, mütləq ələ keçirməyə çalışırdılar. «Gizli müsavat»ın işini Lahıcdan idarə edəcəkdi. Lahıclı dostu Ağabala Qasımov sabah onu yola salacaqdı...

..Azərbaycan od içində idi. Xalq rusların işğalını qəbul etmirdi. Yenidən o xoşbəxt dövrana—Azərbaycan Demokratik Respublikası dövrünə qayıtmaq istəyirdi.

Azərbaycan əsgəri silahını yerə qoymurdu. Bolşeviklərə qarşı ilk böyük üsyan 1920-ci ilin may ayında Gəncədə baş verdi.

## GƏNCƏ QAN İÇİNDƏDİR

Məmməd Əmin Rəsulzadənin qaldırdığı üç rəngli bayrağın azadlıq sevgisindən güc almış Azərbaycan əsgəri əlində silahı möhkəm tutub şimal rusunun gəlib şərqdə - doğma torpağında onu əsir etməsinə razılaşmırdı. Milli ordu hələ qalırdı və mübarizəsini davam etdirməkdəydi.

1920-ci il mayın 26-da milli Azərbaycan ordusunun Gəncə alayı Gəncə şəhərində rus ordusuna qarşı üsyana qalxdı. Gəncə alayının 250 nəfərlik bir dəstəsi Şəki alayının müəyyən qüvvəlеriylə birləşib üç minlik rus qüvvəsinə qarşı döyüşə girdilər. Milli ordu əsgərləri böyük cəsurluq göstərib düşməni məğlub etmiş, Gəncəni işğalçı ruslardan təmizləmişdilər. Xalqın fədai oğulları da dəstələr yaradıb milli ordu əsgərlərinə köməklik göstərirdilər. Həftələrlə davam edən bu döyüşdə rus ordusu 8500 nəfər tələfat verdi. Nəhayət, 20 min əlavə rus qoşunu şəhərə yeridildi, Gəncəni başdan-başa talan edib dağıtdılar. Kişiləri, qadınları, südəmər körpələri, cavan qızları qətlə yetirdilər. Verilən qurbanların sayı on minlərlə idi. Gəncə ermənilәri ilə birləşən ruslar azərbaycanlıları qırıb məhv edirdilər.

**Şahid sözü.** Məmməd Altunbəy. Əsli gəncəlidir. Sonradan Türkiyədə yaşayıb. 1987-ci ildə İstanbulda vəfat edib. Onun Gəncə üsyanı haqda xatirəsi:

«…Birdən müdhiş çığırtılar qopmağa, anaların fəryadı Gəncəni sarsıtmağa başladı... Biz başımızı geriyə çevirdiyimiz zaman dəhşətdən donub qaldıq. Gözlərimizə inanmadıq. Ermənimi, rusmu olduqlarını anlaya bilmədiyimiz iki əsgərin havaya qaldırdıqları süngülərin ucunda iki balaca cocuq çırpınırdı. Mən gözü qızmış o əsgərlərin süngü tutan əllərindən yerə qan sızdığını gördüm.

...Küçələri belə gül-çiçək qoxuyan gözəl şəhərimiz Gəncəyə ayaq basdığımız andan etibarən küçələrin hamısı minlərcə insan cəsədləri ilə dolmuşdu. Haraya baxsaydın insan cəsədi görünürdü. Şəhərin iç mənzərəsi məzarlıqdan fərqlənmirdi. Küçələrdə cəsədlərin üzərindən adlayıb keçirdik.

Yüzlərlə insanın başı kəsilmişdi!

Gözləri çıxarılmış, qulaqları, burunları kəsilmiş, lüt soyundurulmuşdu insanlar!

Qarınları süngülərlə dəlik-deşik edilmiş, başları daşa vurularaq beyinləri çölə çıxmışdı adamların!

Yüzlərlə uşağı, gənci gah daşlarla parçalamış, gah da güllə ilə öldürmüşdülər!...»

...Gəncədə bu faciəni rus əsgərləri ilə ermənilər törətmişdi.

Vəhşi xislətli ordu bu nahaq qanları tökmüşdü. Bəlkə elə buna görə idi ki, o dəhşətli faciədən sonra Gəncəlilərin ən ağır qarğışı belə olurmuş:

«Rusla yatıb erməni ilə qalxasan!

Rusdan dostun, ayıdan postun ola!

Rusun zülmünə uğrayasan!»

Məmməd Əmin Rəsulzadə Gəncə üsyanını belə xatırlayırdı:

«Çarizmin qəddar generalı Knyaz Sisyanova parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərdi. Ruslar burada diviziyalarını itirdilər. Bakıdan kömək gəldi. Digər tərəfdən də Gəncə erməniləri qiyamçıları arxadan vurmağa başlayınca şəhər süqut etmək məcburiyyətində qaldı…»

Gəncədə günahsız xalqın qanı axıdılanda, Məmməd Əmin Rəsulzadə Lahıc dağlarında gizlənib xalqını rus əsgərinin qanlı süngüsündən qurtarmağa çalışırdı. Nərimanov isə bu vaxt Moskvaya aşağıdakı məzmunda məktub göndərmişdi.

«Əziz Vladimir İliç!

Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbsə alınmışdı. Müsavatçıları görməyə gözləri yoxdur… Sovet Rusiyası olmadan Azərbaycan yaşaya bilməz... Onlar Rusiyanı sevirlər…

Kommunist salamı ilə,
N. NƏRİMANOV».

## LAHIC DAĞLARINDA

Lahıca gedirdi. Vətəni talan olmuş, yurdu qan ağlayan istiqlal yolçusu Lahıca gedirdi. Hər gün eşitdiyi inilti, fəryad səslərindən ürəyi qan ağlayan fədakar «müsavatçı» indi Lahıca üz tutmuşdu. İstiqlad məşəli indi Lahıcdan alovlanacaqdı.

Lahıca müsavatın ilk qurucularından olan sədaqətli dostu Abbasqulu Kazımzadə ilə gedirdi. Qalan işləri təşkil edən isə lahıclı dostları Ağabala Qasımov idi. Ağabala Qasımov yüksək təhsil görmüş bir ziyalı idi. Lahıcda onların evində qalacaqdılar.

Gəlib Şamaxıya çatdılar. Buradan Lahıca faytonla gedəcəkdilər. Faytona minəndə faytonçu diqqətlə, olduqca diqqətlə ona baxdı. Məmməd Əmin Rəsulzadə faytonçunun belə qəribə baxmağından təəccübləndi. Çünki faytonçuya onların

kimliyi haqqında heç nə deyilməmişdi. Təsadüfi müştəri kimi faytona minib Lahıca getməli idilər.

**Bir haşiyə.** Sonradan hadisənin nə yerdə olduğunu biləndə dünyagörmüş faytonçu etiraf edəcəkdi: mən ömrümdə ilk dəfə idi ki, elə işıqlı, nurlu sifəti olan adam görürdüm. Necə ağıllı baxışı, mədəni davranışı vardı! Hiss olunurdu ki, çox da səliqəli adamdır.

Lahıcda Atabala Qasımovun «ərəbəmi» adı ilə məşhur olan qardaşıgildə qalırdı. İlk günlər bu evdə yaşadı. Evin zəngin kitabxanası vardı. Kitabxananı Ağabala Qasımov yaratmışdı. Məmməd Əmin Rəsulzadə bu kitabxanadan götürdüyü «Şahnamə» əsərini də burada oxudu. «Şahnamə»ni oxuyandan sonra «Əsrimizin Səyavuşu» əsərini yazdı. Oxunaqlı, ağrılı, təsirli bir üslubla yaratdığı milli hökumətin - Azərbaycan Demokratik Respublikasının aqibətini Səyavuşun acı taleyinə yaxın gördü. Min bir müşkülatla yaranıb çiçəklənən, çox yaşamadan boğulub məhv olan Azərbaycan Cümhuriyyətinin taleyindən danışdı.

«Əsrimizin Səyavuşu» əsərini sonradan Türkiyədə ona çatdırdılar. Həmin adama dərin minnətdarlığını bildirdi. Amma adını çəkmədi. Fikirləşdi ki, çekistlər həmin adamı tapıb incidərlər.

Lahıcda qaldığı ilk gündən ciddi işə başladılar. Hər gün Abbasqulu Kazımzadə ilə vərəqələr, bəyannamələr yazıb müəyyən adamlara çatdırırdılar. Əsas iş bu idi: mübarizəni dayandırmaq olmaz. Xalq ruhdan düşməməlidir.

Onlar tez-tez baş verən hadisələr haqqında məlumat çatdırırdılar. Gətirilən xəbərlər ürəkaçan deyildi. Bolşeviklər hər yerdə şübhələndikləri adamları güllələyir, sorğusuz-sualsız qətlə yetirirdilər. Azərbaycanın əksər rayonlarında üsyanlar başlamışdı. Zaqatalada, Şəkidə, Salyanda, Lənkəranda xalq ayağa qalxıb, işğalçıların rədd olub getməsini istəyirdi. Bolşeviklərin terror maşını isə amansızcasına əzib məhv edirdi günahsızları.

Lahıcda o hər gün işləyirdi. Qaldığı evin qapısı həmişə bağlı olurdu. Ehtiyat edirdilər ki, evdəkilərdən kimsə qapını açıb onların nə işlə məşğul olduğunu görə bilər. Çünki məlumat çatdırılırdı ki, Məmməd Əmin Rəsulzadə ciddi axtarışdadır.

**Bir haşiyə.** Günlərin bir günü Lahıca gedib Məmməd Əmin Rəsulzadəni evlərində saxlayan adamların oğul-uşaqlarını tapıb söhbət edəcəyəm. Həmin adamlardan biri belə deyəcək:

«Balaca uşaq idik. Bizi o biri tərəfdəki otağımıza sarı buraxmırdılar. Deyirdilər ki, ora yaxın düşmək olmaz. Bir gün marağımı saxlaya bilmədim. Gedib qapının deşiyindən içəri baxdım. Gördüm ki, iki nəfər kişi qabaqlarına çoxlu kağızlar qoyub nə isə yazırlar».

Lahıca işləməyə, xalqın ruslara qarşı mübarizəsinə başçılıq etməyə getmişdi. Və bu çətin işi bütün bacarığı ilə həyata keçirirdi. Amma gün gələcəkdi ki, onun həbsə alıb Bakıya gətirəcəkdilər. Hüquq işindən bixəbər olan, yalnız «Leninə eşq olsun!» deməyi bacaran bir müstəntiq istintaqa başlayıb ona gülünc sual verəcəkdi: «Dağlarda dolaşırdınız, orada yaxalandığınız zaman nə

düşünürdünüz?». O zaman küt müstəntiqə onun əsl həqiqəti anlamayacağına görə belə cavab vermişdi ki, «hadisələri müşahidə edirdim». Müstəntiq inanmayacaqdı, israr edəcəkdi ki, «ola bilməz ki, siz orada fəaliyyətsiz qalırdınız?». Müstəntiqə nə iş gördüyünü demək istəməmişdi. Çünki müstəntiq ağıllı adam olsaydı ona bu sualı verməzdi. Fikirləşərdi ki, özünün «müsavat hökumətinin ruhu» adlandırdığı bir adam sakit dayanardımı heç?

Amma köhnə mübarizə yoldaşı Stalinə Bakı həbsxanasındakı görüşündə əsl həqiqəti deyəcəkdi: «...Bu vəziyyətdə bizə əlverişli vaxt gəlincəyə qədər gözləmək lazım gəlirdi. Müstəntiqinizin anlamadığı şey bir «ətalət» deyil, bir «intizar» idi. Sovet işğalını tanımayaraq yenidən fəal mübarizəyə başlamaq haqqını saxlamaqla əlverişli bir şərait yaranıncaya qədər gözləyəcəkdik».

...Lahıcda vəziyyət getdikcə gərginləşirdi. Çatdırılan məlumatlardan aydın olurdu ki, izinə düşüblər. Əvvəlcə təhlükədən sovuşmaq üçün gah məscidə, gah Məşədi Salman deyilən birisinin evində qaldı. Beş-altı yerdə qalandan sonra Lahıcdan çıxmağı qərara aldı. Qonaqpərvər Lahıcın iki etibarlı adamı onunla Abbasquluya bələdçilik edirdi. Amma satqın öz işini görmüşdü. Məlumatı çatdırmışdı lazımi yerə...

Qaraməryəmdə onları həbs etdilər. Bələdçiləri buraxdılar. Onları isə geri qaytardılar.

Bərk yağış yağırdı. O da, Abbasqulu da möhkəm islanmışdı. Əli silahlı əsgərlər onları qabaqlarına qatıb aparırdılar. Uzaqdan başı dumanlı Lahıc dağları görünürdü. Dağlara baxdıqca içərisindən qəribə hisslər keçirdi. Düşünürdü ki, hələ o dağlara bu əsgərlərin ayağı dəyməyib. Bəlkə heç dəyməyəcək də. O dağlar hələ əsarətdə deyil, azaddır. Ona görə də o dağlar bu yağışın dumanında, sərtliyində belə xoşbəxt görünürlər. Azadlıqda olandan sonra qarın, tufanın nə qorxusu? Ayrılırdı başı dumanlı dağlardan. Həsrətlə, sızıltılı ürək ağrısı ilə yaşıl libaslı dağlardan ayrılırdı. Arxadan isə əsgər tüfəngləri tuşlanmışdı üstünə.

Bu onun dağlarla son görüşü idi. Vətəninin bu gözəl guşəsinə bir də heç zaman ayağı dəyməyəcəkdi. Ömrünün bundan sonra yaşayacağı otuz beş ilini tikanlı məftillərin o üzündəki qürbət ölkələrdə dayanıb həsrətlə yurduna, onun əzəmətli dağlarına baxacaqdı.

Az keçəndən sonra ruslar Məmməd Əmin Rəsulzadənin indi həsrətlə baxdığı o dağları da gəlib alacaqdılar.

Onların hər ikisini Bakıya — Azərbaycanın fövqəladə hakimi və cəlladı Pankratovun hüzuruna gətirdilər. Pankratovun ixtiyarında «Osobı otdel» deyilən bir terror maşını vardı. Bu terror maşını günahsız Azəri türklərinin qanı ilə işləyirdi. Bu maşın yalnız insan qanı axıtmaq üçün yaranmışdı.

## PANKRATOV. «OSOBI OTDEL». STALİN

Bu qorxunc varlıq haqqında Məmməd Əmin Rəsulzadə yazırdı:

«Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi. ÜK məmurunun füzulluğu o dərəcəyə bulmuşdu ki, Azərbaycan komissarları rəisi bulunan Nəriman Nərimanovun özünü belə toaqif eyləmişlərdi».

Pankratov körpəyə, qocaya, yaşlıya, cavana rəhm etməyən bir cəllad idi. Pankratov dünyaya adam öldürmək, nahaq qan tökmək üçün gəlmişdi. Doğrudur, onun qana hərisliyini iki xəyanətkar erməni—Mikoyan və Atarbəyov (erməni olduğunu söyləyirlər) daha da coşdurur, Azəri türklərinə onda nifrət oyadırdılar. Mikoyan Şura hökumətinin adından Bakı əhalisinin əmlakını müsadirə edirdi. Ona bu işlə əlaqədar rəsmi vəzifə də verilmişdi. Atarbəyov isə Zaqafqaziya işləri üzrə (çox güman ki, inqilabi tribunallar, «osobı otdel» məsələləri üzrə) Leninin köməkçisi idi. Bu iki xain qüvvə həm öz səlahiyyətlərindən, həm də azərbaycanlı bolşeviklərin sadəlövhlüyündən istifadə edib Pankratovu qızışdırırdılar. O zaman «osobı otdel»ə Mikoyanın ciddi-cəhdilə çoxlu erməni doldurulmuşdu. Çünki Mikoyan Azərbaycan xalqından qisas almaq gününün gəlib çatdığını bilirdi. Ermənilər isə «qanuni yolla» şura hökumətinin adından gözü baxa-baxa minlərlə günahsız azərbaycanlını qətlə yetirirdilər.

Amma Pankratov «təhsilini» lap yuxarıdan almışdı. Onun «ilham pərisi», qanadlandığı qüvvət Moskvada yaşayırdı. Bu adam Lenin idi. Sonradan üzə çıxan faktlar Leninin qəddar terrorçu olduğunu təsdiqlədi. Heç də uzağa getməyək, Leninin öz yazılarına, altından qol çəkdiyi qan qoxulu hökmlərinə diqqət y e t i r ə k.

1. «Məsləhət görürəm ki, müvəqqəti olaraq öz içərinizdən rəislər təyin edəsiniz, heç kimdən soruşmadan və səfehcəsinə süründürməçiliyə yol vermədən qəsdçiləri və tərəddüd edənləri güllələyəsiniz.

**V.İ.Lenin».**

2. «...Məhkəmə gərək terroru aradan qaldırmasın.

Kommunist salamı ilə

**LENİN».**

3. «...Xüsusilə də həlledici, nümunə olan piterdə, şiddətli və kütləvi terrora həvəs oyandırmaq lazımdır.

Salam! **LENİN».**

Bəli, hər xəta Lenindən gəlirdi. Lenin salamı da terrorla verirdi. Lenin hakimiyyəti «proletar və kəndlilərə» vermək pərdəsi altında çar Rusiyasının başqalaşmış, donunu dəyişmiş imperiya siyasətini həyata keçirir, əvvəlki sərhədləri bərpa edirdi. Pankratov kimiləri isə öz müəllimlərindən - Lenindən aldıqları terror nəzəriyyəsini indi Bakıda təcrübədən çıxarırdılar.

Bakıda çox güclü terror qurğusu hazırlanmışdı. 1920-ci il aprelin 28-də Bakının XI ordu tərəfindən işğalından sonra mübarizəyə qalxanları aradan götürməkdən ötrü üç qanlı təşkilat Azərbaycanda fəaliyyətə başladı: 1) «On birinci ordunun, Pankratovun başçılığında olan xüsusi şöbəsi «Osobı otdel», 2) Azərbaycan çekası. 3) On birinci ordunun inqilabi tribunası.

Bu təşkilatlardan ən qorxulusu Pankratovun başçılıq etdiyi «Osobı otdel» idi. «Osobı otdel» sorğusuz-sualsız istədiyi adamı güllələmək, öldürmək hüququna malikdi.

**Bir ağrı.** Amma təşkilatların hər üçünü birləşdirən bir amal da vardı: Xalqın malını, dövlətini, qızılını talan edib oğurlamaq. O zaman on birinci ordunun inqilabi tribunal məhkəməsinin başında Hacı İlyas adlı birisi vardı. Qəddar, qansız adam idi. Yüzlərlə günahsız azərbaycanlını qətlə yetirmişdi: Hacı İlyasın azğınlığı, tökdüyü nahaq qanlar o yerə gəlib çatdı ki, axırda onu da tutub silkələdilər.

Məlum oldu ki, minlərlə azərbaycanlını qətlə yetirən bu qəddar inqilabi tribunal sədri özünü ordu ilə birlikdə Bakıya soxub ki, var-dövlət qazansın. Özü də saxta adla. Aydınlaşdı ki, o müsəlman və türk deyil. Bakı bolşeviklərini aldadırmış ki, türkəm. Adını da yalandan yazdırıbmış. Adı Hacı İlyas yox, İlya imiş. Odessalı tələbə olan bu rus İlya günahsız xalqı heç nədən qanına qəltan edirdi. Həbsxanada olanda İlya qışqırırmış ki, mən də başqa kommunistlər kimi hərəkət edirdim, onlar da mənim kimi adamları soyduqdan sonra öldürərdilər.

Hacı İlyasın evini axtaranda ordan öldürdüyü adamların ağızlarından sökdüyü qızıl dişlər, barmaqlarından çıxartdığı brilyant üzüklər tapıldı.

1920-ci ildə Bakıya gəlmiş XI ordunun arasında xalqa divan tutan çox belə «Hacı İlyaslar» — İlyalar vardı.

Məmməd Əmin Rəsulzadə neçə gündür ki, Pankratovun nəzarəti altında — «Osobı otdel»də yatır. Dostu Abbasqulu Kazımzadə də yanındadır. Ötən hər dəqiqə ömürdən sayılır. Onu hər zaman gəlib aparıb güllələyə bilərlər. Yoldaşları, xüsusilə də Abbasqulu çox narahatdır. Budur, onu aparmağa gəliblər. Hamı həyəcanlıdır. Çünki belə vaxt aparılan adamları sağ buraxmırlar. Abbasqulunun halı lap pərişandır. Qorxur ki, dostunu güllələsinlər.

...Məmməd Əmin Rəsulzadəni Pankratovun hüzuruna aparırlar. Bu yol ona tanışdır, bir dəfə də bu dəhlizlə istintaqa aparılıb. Pankratovun yanında bir şəxs dayanıb. Diqqətlə, çox diqqətlə baxır ona. Bu adam kimdir görən? Həmin adam iki addım irəli atıb ona sarı gəlir, əlini uzadıb deyir:

- Yoldaş Rəsulzadə, tanımadınızmı, Stalin...

Bəli, indi tanıyır onu. Köhnə mübarizə dostu Kobanı yaxşı tanıyır.

**Bir haşiyə.** Stalinin Məmməd Əmin Rəsulzadəni həbsxanada gəlib görməyi, onu xilas etməyi haqqında bəzi söhbətlər danışılır. Bir çoxu deyir ki, Stalin Bakıya məhz Rəsulzadəni xilas etmək üçün gəlmişdi. Amma Məmməd Əmin Rəsulzadə Stalin haqqındakı xatirələrində buna heç bir işarə vurmur. Stalin özü isə belə deyir: «Buraya gəlincə məhbus olduğunuzu öyrəndim».

Bəzi faktlar isə Stalinin Bakıya hökumətin tapşırığı ilə gəldiyini göstərir. Çünki o zaman (1920-ci ilin 6 noyabrında) Oktyabr inqilabının bayramı qeyd olunurdu. Stalin həm də Bakı şəhər sovetinin plenumunda iştirak edirdi.

Bəzi mənbələrdən isə başqa bir məlumat öyrənmişdim. Məmməd Əmin Rəsulzadə həbs olunanda «gizli müsavat»ın tapşırığı ilə Ağabala Qasımov Vladiqafqaza gedib Stalinə məlumat çatdırır. Və Stalin də keçmiş mübarizə dostunu — onu neçə dəfə ölümdən qurtarmış Məmməd Əmini xilas etməyə gəlir.

Türkiyədə olanda bu sonuncu faktı Məmməd Əmin Rəsulzadənin dostlarına söylədim. Onlar təəccüblə: «Sən bu faktı hardan bilirsən?» dedilər.

Stalinin göstərişi ilə Pankratov çölə çıxır. Köhnə mübarizə dostları tək qalır. Və aralarında açıq, yalnız həqiqət faktlarını üzə çıxaran söhbət gedir. Stalin Məmməd Əmin Rəsulzadəyə bildirir ki, vəziyyətiniz çox ağırdır. Azərbaycanlı kommunistlərin bir qismi güllələnməyinizi, digəri isə ömürlük həbsxanada qalmağınızı məsləhət görürlər. Amma mən bunların heç birini rəva bilmirəm və məqsədim sizi xilas etməkdir, Stalin məsləhət görür ki, onunla birlikdə Moskvaya getsin, çünki azərbaycanlı kommunistlər onu sakit buraxmayacaqlar.

Məmməd Əmin Rəsulzadə Stalinlə söhbətində çox məsələlərdən danışdı. Stalinə sübut etdi ki, siz haqqımızı, istiqlalımızı tapdayıb buraya gəlmisiniz. Böyük millətlərdən kömək gözləməyin də faydası yoxdur. Çünki onlar Türkiyə ilə düşmən vəziyyətindədir. Siz isə «Türkiyəyə kömək» şüarını irəli sürüb xalqımızı əsarətə aldınız.

Məmməd Əmin Rəsulzadə Stalinə çox həqiqətləri söylədi o görüşdə. Bir saata kimi aralarında danışıq getdi. Həmin o danışıqda Stalin Məmməd Əmin Rəsulzadəyə bir söz də dedi: «Nəriman bizimlə yox, biz Nərimanla anlaşdıq».

...Məmməd Əmin Rəsulzadə «dörd divar arasından» çıxmağa razı olub Stalinin təklifini qəbul edir. Stalin isə Pankratovu içəri çağırıb deyir: «Bura bax, bu adamı qaranlıq bir mətbəxdə saxlayırsınız, dərhal onu münasib bir otağa köçürün və ailəsinə də onunla görüşmək imkanı verin».

Pankratov Stalinin göstərişini yerinə yetirir. Məmməd Əmin Rəsulzadəni balkonlu, münasib bir otağa köçürürlər. Bir neçə gündən sonra Stalinlə birlikdə Moskvaya yola düşürlər. Yola düşməzdən qabaq ailəsi ilə görüşmək imkanı verilir.

## DUSTAQ BAKI

Bakı matəm içindəydi. Bakı dərdli, hüznlü bir görkəmə bürünmüşdü. Bakı düşdüyü əsarət məngənəsində çırpına-çırpına qalmışdı. Bakı son yüz ildə ikinci dəfə idi ki, düşmən istilasına məruz qalırdı. Bakını ikinci dəfə idi ki, azadlıq işığından alıb zülmət qaranlığa atırdılar. Bakı dərd çəkirdi, Bakı ağlayırdı. Bakı altıncı ay idi ki, yatmırdı, yuxusuz qalmışdı. Bakı yata bilmirdi gecələr. Gündüzləri birtəhər yola versə də gecələri oyaq qalırdı. İnsan iniltisi, günahsızların fəryadı, qışqırığı qəlbini söküb parça-parça edirdi. Bakının hər gecəsində yüzlərlə övladını

aparıb qətlə yetirir —ayağına daş bağlayıb dənizə atır, güllə hədəfinə çevirirdilər. Bolşeviklərin şəhəri istila etdiyi bir il müddətində Bakıda öldürülənlərin sayı qırx yeddi minə çatmışdı.

Bakı yas içindəydi, ağlayırdı. Qətlə yetirilən günahsız oğullarının matəminə bürünmüşdü.

Ürəyi qan ağlaya-ağlaya dağılmış yurduna baxırdı. Keçən il bu zaman indi getdiyi küçələrdə Azad Azərbaycan dövlətinin başçısı kimi addımlayırdı.

Birdən ürəyindən qəribə gizilti keçdi: O əsgərlər indi nə edir? Ömürlərindən ötən o xoş günü yada salırlarmı! Bilirlərmi ki, niyə onları min bir əzabla əsgərliyə aparırdıq. Bu günün dəhşətini görməməkdən ötrü çalışırdıq. Yox, o əsgər həqiqəti bilir. Bilməsə idi əlindəki silahla hələ də düşmənə qarşı vuruşmazdı. O əsgər indi dağlara çəkilib daşlar, qayalar arasında işgəncəli həyat sürür, amma vuruşur, son nəfəsinə kimi xalqının keşiyində dayanır. Sonra fikirləşdi ki, yazıq əsgərlər İtaliyadan milli hökumətin aldığı iyirmi beş min dəst paltarı əyninə geyə bilmədi. O paltar işğalçı XI ordu əsgərlərinə qismət oldu. Onlar onsuz da haram tikə yeməyə öyrəşiblər. Ayağı çarıqlı Azərbaycan əsgəri isə dağlarda «alınmış yurdu»nun geri qaytarılması yolunda döyüşür.

Ürəyi qan ağlaya-ağlaya matəmə bürünmüş Bakıya baxırdı. Bakının küçələrində həmişə dinləməkdən zövq aldığı, qanadlandığı o iftixar dolu sözləri eşitmirdi: «Azərbaycan, Azərbaycan, səndən ötrü can verməyə cümlə hazırız». Yox, bu sözlər daha oxunmurdu. Bu sözləri oxumaq qadağan olmuşdu.

Diqqətlə, olduqca diqqətlə baxırdı talan olunmuş Bakının küçələrinə. Bir qrup XI ordu əsgəri səs-səsə verib oxuyurdular: «Bizim Leninimizə eşq olsun!».

Əsəbi halda başını yana çevirdi. İstəmədi onların o saxta sədalarını eşitsin. O bu sözlərə nifrət edirdi. Bütün varlığı, əqidəsi, düşüncəsi ilə nifrət edirdi.

..Qohum-əqrəba evdə onu gözləyirdi. Hadisəni eşidib vidalaşmağa gəlmişdilər. Otaqdakılardan yalnız birini ilk dəfə idi görürdü. Bu onun iki aylıq oğlu Azər idi. Lahıcda olanda balaca oğlu dünyaya göz açmışdı. İndi balaca Azər sakit halda yatırdı. Sevimli oğlunu qucaqlayıb bağrına basdı. Uşaq atasının öpüşlərindən ayılıb ağlamağa başladı. Yazıq körpə hardan biləydiki, atası bu anda nələr çəkir?

Bu, Məmməd Əmin Rəsulzadənin sevimli oğlanları Rəsulla, Azərlə, qızları Lətifə, Xalidə ilə, həyat yoldaşı Ümbülbanu xanım və başqa qohumları ilə son görüşü idi. Övlad şirinliyini də bundan sonra yaşayacağı otuz beş ildə bir də dadmayacaqdı. Həmişəlik olaraq ailə səadətindən məhrum olurdu. Ayrılıq ağır oldu. Evdəkilər göz yaşlarından boğula-boğula onu yola salırdılar. Amma bu görüşün son olduğunu bilmirdilər.

Vağzala gəldilər. Stalin Orconikidze ilə vaqonda oturmuşdu. Görüşdülər. Az sonra Nərimanov gəlib çıxır və soruşur: - Bəs Abbasqulu hanı? Cavab verirlər ki, Abbasquluya getməyə icazə verməyiblər. Nərimanov təəccüblənir ki, axı biz

onun da getməyinə razılıq vermişdik. Məmməd Əmin Rəsulzadə deyir: «Siz demiş ola bilərsiniz, ancaq fakt meydandadır, icazə verməmişlər».

Bu sözü deyib Nərimanova baxdı. Düz gözlərinin içinə baxdı. Demək istədi ki, müstəqil Sovet Azərbaycanı qurmuşam desən də, buranın öz ağaları var.

...Qatar astadan hərəkətə başladı. Bu qatar ayrılıq qatarı idi. O bu qatarla bir də geri dönməyəcəkdi. Qatar onu həmişəlik doğma elindən, obasından alıb aparırdı. Sevimli şəhəri Bakını al qan içində qoyub gedirdi.

Qan dənizində boğulan doğma Bakısında əlli doqquz «seçmə» azərbaycanlının siyahısı Pankratova güllələnmək üçün verilmişdi.

Qan dənizində çırpınan sevimli şəhərinin indi hər yerində xain erməni Mikoyanın səsi eşidilirdi:

«Yoldaş Şaumyan bu göstərdiyimiz cəhətlərdən başqa yumşaq, təmiz, şərəfli və olduqca gözəl xarakteri ilə də fərqlənirdi. Onunla hər bir adam işləməyə hazır idi... Onun xatirəsi həmişəlik olaraq qəlbimizdə yaşayacaq!».

Mikoyan bu sözləri Bakının yüksək kürsülərindən Azərbaycana car çəkəndə Məmməd Əmin Rəsulzadə soyuq həbsxana divarları arasında çırpınırdı.

Bakıda Şaumyanın mart qırğınını unutmayan xalq bu sözləri eşidib içəridən qırıla-qırıla qalırdı.

Bakıdan, sevimli şəhərindən kədərlə, qüssə ilə ayrılırdı.

## QAN ATƏŞLİ MOSKVA

Bundan sonrakı həyatında adını həmişə nifrətlə çəkəcəyi bu şəhərə ikinci dəfə idi ki, gəlirdi. İndi Moskva bolşevik Moskvası, proletar Moskvası idi. Qanlı terrorun yuvasına çevrilmiş bu şəhərin yerində Leninin, Trotskinin şəkilləri asılmışdı.

Stalinin məsləhəti ilə ilk günlər vaqonda qaldılar. Stalin onların yeməyini verməkdən ötrü bir aşpazı da orada saxlatdı. Üç gündən sonra Stalinin katibinin mənzilində onlara yer ayırdılar. Sonra da ümumi yeməkxanadan hər gün bir qab şorba alıb içə bilmələri üçün «İşçi dəftəri» adlı şəhadətnamə verdilər.

Moskvada yaşayışı ağır keçirdi. Doğrudur, Stalin köhnə dostunu unutmur, yada salırdı. Amma ümumi güzəran çətin idi. Moskvada qış idi. Havalar sərt və soyuq keçirdi. Ayağında isə hələ Lahıc dağlarında geydiyi nazik ayaqqabı vardı. Ayaqqabısının olmaması ucbatından şəhərdə məşğul olduğu kitabxanaya min bir əzabla gedib-gəlirdi.

Bir gün eşitdi ki, Amerika fəhlələri Rusiyadakı fəhlələrə satmaq üçün bir gəmi ayaqqabı göndəriblər. Əmisi oğlu Məmməd Əli ilə birlikdə ayaqqabıların satılacağı yerə—«Suxarovkaya» getdilər. Pulları çatmadığından əlavə bir neçə iynə, bir qədər tikiş sapı, bir az da duz verib ayaqqabını aldılar.

Məmməd Əmin Rəsulzadənin acı xatirəsi:

«...Nəhayət, ayaqqabıları aldıq. Böyük bir sevinc içində evə dönürdük. Mən öndə, Məmməd Əli arxada addımlayırdıq. Məmməd Əlinin səsini eşitdim:

— Bura bax, bu yürüş ancaq bayram hədiyyəsi alan uşaqlarda olur!»

...Moskvada maraqlı hadisələrlə üzləşdi. Bir gün yanına üç azərbaycanlı tələbə gəldi. Bu tələbələr o zaman Moskvada yeni yaradılmış «Şərq xalqlarının Kommunist Universiteti»ndə oxuyurdular. Onlar Məmməd Əmin Rəsulzadəyə qəribə təklif etdilər. Dedilər ki, universitetin «Şərq ellərində inqilab hərəkatları» kafedrası boşdur. İstəyirik ki, siz orda professor işləyəsiniz. Məmməd Əmin Rəsulzadə təklifi qəbul etmir. Tələbələr təəccüblənib səbəbini soruşurlar. O özünə məxsus ciddiliklə deyir:

- Ola bilməz, çünki müəllimlə tələbə arasında hər şeydən əvvəl səmimiyyətin olması vacibdir: Mənim söylədiklərimi siz daim etirazla qəbul edəcək və əcəba, bu müsavatçı hadisələri doğru şərh edirmi?» deyə düşünəcəksiniz. Mən də həmişə «söylədiklərimi, əcəba, bu kommunistlər tam bir etimadla dinləyirlərmi?» deyə fikirləşəcəyəm. Odur ki, nə məndən sizə yaxşı müəllim, nə də sizdən mənə yaxşı tələbə ola bilməz.

Moskvada bir əhvalat da başına gəlir. Stalin və Çiçerinin göstərişi ilə xarici İşlər komissarlığından bir məmur gəlib onun tərcüməçi sifətiylə Əfqanıstandan gələn heyəti qarşılamağını xahiş edir. Məmməd Əmin Rəsulzadə qəti etirazını bildirir. Tərcüməçi məmur təəccüblənir:

— Şərqdən gələn qonaqları sovet hökuməti adından qarşılamaq bir şərəfdir. Niyə bu fürsətdən istifadə etmirsiniz?

O zaman həqiqəti məmura başa sala bilməmişdi. Və şura hökumətinin də məmuru anlaya bilməmişdi ki, azad bir dövlətin başçısı olmuş adam indi gedib düşməninə adi tərcüməçilik etməz.

Bu «xatadan» da belə sovuşdu Moskvada.

Moskvada qəribə şayiələr dolaşırdı: Rəsulzadəni guya Nərimanovun yerinə (Azərbaycan SSR Komissarları Sovetinin sədri) qoyacaqlar. Bu söhbətə dilxor olub belə cavab vermişdi:

— Siz ağlınızı itiribsinizmi? Bu qeybətlərə necə qulaq asırsınız?... Doktor Nərimanın yerinə bir müsavatçı Rəsulzadənin gətiriləcəyi necə söhbət mövzusu ola bilər?

1921-ci ildə başına min bir oyun açılan Azərbaycanda əlifba məsələsi ciddi müzakirə olunurdu. İki müxtəlif fikir irəli sürülürdü: birinci qrup ərəb hərflərini latınla dəyişmək, ikinci qrup isə ərəb hərflərini saxlayıb müəyyən islahatlar etmək istəyirdi.

Bu müzakirəyə münasibətini bildirmək üçün bir məqalə yazıb, millətlər komissarlığının nəşri olan «jizn natsionalnostey» qəzetində çap etdirdi. Məqalədə latın hərflərinə keçmək fikrini müdafiə edirdi.

..Amma məqaləsində qısa dəyişiklik edilmişdi. Cəmiyyəti getdikcə ölgünləşdirib romantik düşüncələrinin əsirinə çevirən bolşevik qəzetçilər onun da

yazısını standart qəlibə salıb axırda bu cümləni əlavə etmişdilər: «Əlifbanın islah edilməsi fikirlərimizin kommunizmi müvəffəqiyyətlə yaymaq niyyətindən irəli gəlir». Məmməd Əmin Rəsulzadə etiraz əlaməti olaraq qəzetə narazılıq dolu məktub göndərmişdi. Amma məktub çap olunmadı.

Stalin köhnə dostu Məmməd Əmin Rəsulzadəni unutmurdu. Yaşayışı, vəziyyəti ilə maraqlanırdı. Hər dəfə görüşəndə aralarında canlı, amma müxtəlif baxışlardan, mövqelərdən irəli gələn söhbətlər olurdu:

Stalinlə Moskvada, ayrı-ayrı görüşlərdə aralarında olmuş söhbət dialoq:

**Stalin:** Azərbaycanda bir az hökmranlıq etdiniz. Amma çox dərin bir iz buraxdınız. Bu izlə hələ mübarizədəyik... Xüsusilə ziyalılarınız millətçilik ruhu ilə aşılanmışlar... Sizcə bu millətçilik təsirinin əsas amili nədir?

**Məmməd Əmin Rəsulzadə:** Millətçilik deyilən hadisə insan cəmiyyətinin öz varlığını müdafiə etməkdən başqa bir şey deyildir. Fərdlərdə nəfsin müdafiəsi təbii və qanuni olduğu kimi, milli kollektivin öz xüsusiliklərini müdafiə etməsi də təbii bir hadisədir.

**Stalin:** Broydamın təklifini qəbul etməmisiniz. Niyə şərqi öyrənən cəmiyyətə daxil olmaq istəmədiniz?

**Məmməd Əmin Rəsulzadə:** O elmi deyil, siyasi bir cəmiyyətdir. Üzvlərinin əksəriyyətinin kommunist olması şərti var.

**Stalin:** Kamenevin başçılığı altında Rusiya inqilab hərəkatını tədqiq edən bir cəmiyyət var. Tədqiqlərini nəşr etmək üçün bu cəmiyyət bir jurnal da çıxarır. Siz bu jurnalın redaksiyasına girsəniz, sizin üçün də yaxşı olar. Sovetlərdəki türk ellərini tədqiq edər, redaksiya adından müxtəlif yerlərə tədqiqat üçün səyahətlərə gedərsiniz. Bu minvalla müsavatçı fikirlərinizi yayar və yerlərdə özəklər də təsis edərsiniz.

**Məmməd Əmin Rəsulzadə:** Üzünə mənalı-mənalı baxdım, içimdə Azərbaycan xalq danışığında «aldada bilməzsən» mənasını verən «keçəl suya getməz» təbirini təkrarlayaraq Stalinə «yeni iltifatı» üçün təşəkkür edərək dedim ki, mən özümə sadiq adamam. Nə özümü, nə də başqalarını aldatmaq istəmirəm.

**Stalin:** Qəribə insandır bu Rəsulzadə. İdealizm ona mane olur. Mütəvəkkilanə oturub durur. Heç bir arzusunu, heç bir ehtiyacını dilə gətirmir.

**Stalin:** Mamed Saltan kimdir?

**Məmməd Əmin Rəsulzadə:** Mamed Saltanmı? Bu adı harada gördünüz?

(Stalin həmin adı haradan öyrəndiyini xatırlaya bilmir).

**Stalin:** Yoldaş Rəsulzadə, siz Kaşqar proletariatını tanıyırsınızmı?

**Məmməd Əmin Rəsulzadə:** Orada proletariat nə gəzir?

**Stalin:** Axmağın biri gəlib özünü mənə Kaşqar proletariatının nümayəndəsi kimi təqdim etdi, - belə bir proletariatdan xəbərim yoxdur,— deyə onu rədd etdim.

Məmməd Əmin Rəsulzadə keçmiş mübarizə dostu Stalinlə Moskvadakı söhbətlərindən onun terrora olan əvvəlki həvəsinin daha da artdığını hiss edir.

Stalin Məmməd Əmin Rəsulzadənin terrorun faydasız olmağını izah edəndə deyir:

—Yox, — dedi, — yanılırsınız, terrorun, üstəlik kütləvi terrorun tarixdəki rolu mühümdür. Biz bolşeviklər təbii ki, şəxsi terroru qəbul edə bilmərik. Bunun faydası yoxdur. Bu eserlərin sistemidir. Fəqət kütləvi terror tamamilə başqa şeydir, onu qəbul və tətbiq edirik. Bir adamı öldürməkdən, əlbəttə, bir şey çıxmaz. Çoxlu adamı birdən öldürməli ki, kütləvi bir təsir olsun.

Məmməd Əmin Rəsulzadə Stalinin bu sözlərini eşidəndə şübhəsiz ki, təəccüb hissi keçirmirdi. Çünki o hələ çoxdan bolşeviklərin çirkin ideyasını başa düşüb onlardan ayrılmışdı. İndi dövran gəlib çatmışdı və bolşeviklər çoxdan həsrətlə gözlədikləri terrora başlamışdılar. Amma Stalin bu terrordan hələ narazı idi. Ürəyi istəyən o qanlı terroru az sonra ölkənin mütləq hakimi olanda həyata keçirəcəkdi.

Getdikcə onsuz da nifrət etdiyi Moskva mühitində qala bilmirdi. Doğma Azərbaycanında xalqı qırılırdı. O isə burda işsiz, fəaliyyətsiz qalmışdı. Doğrudur, Stalinin köməyi ilə işlə təmin olunmuşdu, Millətlər komissarlığında mətbuat müvəkkili işləyirdi. Amma belə yaşaya bilməzdi. Əsarətdə inləyən xalqını xilas etməliydi. Nəhayət, «Gizli müsavat»dan xəbər gəlib çatdı: Moskvadan—qanlı terror yuvasından qaçıb getmək lazım idi. Bəs necə? Onun necə qaçması planını «Gizli müsavat» əvvəlcədən hazırlamışdı.

Məmməd Əmin Rəsulzadənin qaçmaq planını hazırlayanlardan birinin, «Gizli müsavat» təşkilatı başçısının müavini Əbdül Vahab Yurdsevərin xatirəsi:

«Müsavat partiyasının gizli mərkəzi komitəsinin ən mühüm təşəbbüslərindən biri M. Ə. Rəsulzadəni Moskvadan qaçırmaq olmuşdur. Əvvəlcə bir yoldaş vasitəsi ilə, sonra isə sabiq parlament üzvü, mərhum Rəhimbəy Vəkilovu və Bakı əsgəri təşkilatının rəisi, şəhid yoldaşımız doktor Dadaş Həsənzadəni bir qədər pul ilə Moskvaya göndərmək sürətiylə M. Ə. Rəsulzadə ilə təmasda olmuşlar. Məmməd Əmin Rəsulzadəyə təklif olunmuşdur ki, elmi-tədqiqat adı ilə Leninqrada getsin. Onun oradan rəhmətlik tatar maarifçilərindən Musa Cərullah Bigiyevin müyəssər yardımı ilə və qayıqla Fin körfəzi üzərindən üzərək Finlandiyaya qaçırılması təmin edilmişdir».

M. Ə. Rəsulzadə əvvəlcə Finlandiyanın Helsinki şəhərinə gəldi. Burdakı tanışları onu böyük sevinc və həyəcanla qarşıladılar. Elə həmin gün onun şərəfinə bir böyük çay ziyafəti verildi. Sonra özü çıxış etdi. Hərarətli sözlər söylədi. O zamanlar Helsinkidə olan Peterburq imamı Lütfi İshaqi əfəndi də Məmməd Əmin Rəsulzadə haqqında çox səmimi sözlər söylədi.

Helsinkidə olduğu zaman Parisdəki köhnə dostları ilə əlaqə saxladı. Az keçməmiş ona pasport hazırlandı, dəvət göndərildi. Fransada bir müddət qaldıqdan sonra Türkiyəyə keçdi.

«Gizli müsavat» Məmməd Əmin Rəsulzadənin əmisi oğlu Məmməd Əli və dostu Abbasqulu Kazımzadənin də xaricə qaçmasına şərait yaratmışdı.

Məmməd Əli Rəsuloğlunun xatirəsi:

«Məmməd Əmin Rəsulzadə bəyin Avropaya keçməsi təmin olunandan sonra milli müsavat partiyasının yeraltı (gizli) təşkilatı bizim də dəniz yolu ilə İrana keçməmizi planladı. Plana görə bir türkmən qayıqçı tapıldı. Amma bizlərin kim olduğu ona bildirilmədi. Başqa adlarla qayığa mindik. Danışığımıza çox diqqət edirdik. Bir-birimizə müraciətimiz də başqa adlarla idi. Türkmən qayıqçı Xəzərin dalğaları ilə bəlkə yüzlərlə dəfə üzləşmiş mahir, işinin ustası olan bir adam idi. Biz danışırdıq, o da qulaq asırdı. Təhlükə keçib getmişdi. Güney Azərbaycan sahillərinə çıxmaq üzrə idik. Yalnız kürək çəkən, qonuşmalarımıza bəzən bığaltı gülümsəyən bu mahir mərd türk övladı birdən dilləndi. Hamımıza öz adımızla müraciət edərək müvəffəqiyyətlər dilədi. Emin bəyi nəzərdə tutaraq «məndən də kişiyə çox-çox salam söyləyin» dedi. Heyrətdən donub qaldıq».

## İSTANBULDA

İstanbula gəlib çıxanda 1922-ci il idi. Az sonra nəşr edəcəyi «Yeni Qafqaziya» jurnalında Stalinə geniş məzmunda açıq bir məktub yazacaqdı.

Məmməd Əmin Rəsulzadə İstanbula gəldiyi ilk gündən Azərbaycan istiqlalı uğrunda mübarizəyə başladı. 1923-cü ildə İstanbulda Məmməd Əmin Rəsulzadə «Azərbaycan respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti», «Əsrimizin Səyavuşu», «İstiqlal məfkurəsi və gənclik» kitablarını çap etdirir. 1923-cü ilin iyun ayından onun redaktorluğu ilə «Yeni Qafqaziya» məcmuəsi nəşrə başlayır.

**«Yeni Qafqaziya».** Jurnalın ünvanı: Cığaloğlu küçəsi, Amdı mətbəəsi. Jurnal hər on beş gündən bir nəşr olunurdu. Abunə şəraiti: illik qiyməti 120 quruş; altı aylığı 60 quruş; xaricdə bir nüsxəsi 5 quruş. Ədəbi-ictimai və siyasi bir jurnaldır. Jurnalın ilk nömrəsinin başlığında yazılıb: Məsləkimizə müvafiq yazılır, məmnuniyyətlə qəbul və nəşr olunur.

1923-cü il, iyulun 26-sı. «Yeni Qafqaziya» jurnalının ilk nömrəsi çapdan çıxıb. Yüzlərlə yurdundan qovulmuş, bolşevik istilasına dözməyib Azərbaycandan didərgin düşmüş Azəri türkləri sevincdən ağlayıb göz yaşı tökür. Yox, ümid işığı sönməyib, işğal olunmuş vətənlərini geri qaytaracaqlar. Onlar yalqız deyillər. Söykəndikləri, arxalanıb inandıqları dağ kimi qüvvət var. O «Yeni Qafqaziya»dır! O dağıdılmış hökumətlərinin başçısı Məmməd Əmin Rəsulzadədir! O burdadır, onların arasındadır, işləyir, fəaliyyət göstərir, yenidən istila olunmuş yurduna azadlıq aparmaq əzmindədir.

Vətənlərindən qovulmuş mühacirlərin gözlərinə işıq gəlir, qolları qüvvətlənir. Bu gün sanki qanad açıb uçurlar. İki ildir ki, susan bir səs yenidən ucalmağa başlayıb: «Yeni Qafqaziya»da onların sevimli vətənlərinin, indi bolşevik işgəncəsində inləyən yurdlarının nəfəsi dolaşır.

Jurnalın lap birinci səhifəsində hamısının yaxşı tanıdığı, ürəkdən sevdiyi Məmməd Əmin Rəsulzadənin «Atəş çalan prometey» (proqram məqaləsi əvəzinə) yazısı çap olunub.

Məmməd Əmin Rəsulzadə «Yeni Qafqaziya»nın ilk nömrəsindəki məqaləsində yazırdı:

«İlk nüsxənin baş məqaləsi proqram məqaləsi olmalı idi. Burada məcmuəmizin təsisi ilə təqib etdiyimiz məqsəd şərh olunmalı idi.

Mövzumuzu düşünərkən Qafqaziya, bu gözəl məmləkət bəhri — Xəzər ilə Qara dəniz arasındakı bu tarix bərzəx, əski yunanlıların altun-yük deyə təbil etdikləri bu zəngin ölkə gözümüzün önündə canlandı. O, pək zəngin keçmişi ilə və hətta çox parlaq istiqbalı ilə məxiləmiz qarşısında sərt bir keçid yapdı.

Bəhri—Xəzər sahilindən başlayan ilk mənzərə qüvvətli bir aydınlıq təşkil edirdi. Bu səmalara doğru yüksələn bir atəş idi. Azərbaycan isminin mücəmməsini təşkil edən atəş, o atəş ki, mədəniyyəti bəşəriyyət ilk əvvəl onun yaxdığı ocaq başında təsis edilmiş. O atəşi müqəddəs ki, «prometey» özünü çalaraq, yer üzünə qaçırdığı üçün hələ əzab çəkməkdə, cəsarət və üsyanının cəzasını görməkdədir.

Məlum olduğu vəch ilə prometey, apollon mənzuməsindən əsatiri bir ilahədir. Atəşi səmalardan çalaraq insanlara gətirdiyi üçün Zevs tərəfindən Qafqaziya dağlarında zəncirbənd olmuş və bir siyah qartal onu didməyə müvəkkəl olmuşdur.

Bu qartal hər gün zavallının köksünü dələrək ürəyini parçalarsa da, Prometey təkrar kəsbi-afiyət edər, təkrar parçalanar.

Əsatir, atəşi-sariqi bulunan bu üsyankar aləhyi atəş yurdu Azərbaycana nazil bulunan Qafqaziya dağlarında deyil, başqa yanda zəncirbənd etmiş olseydi, onu bulub təkrar buraya gətirməli idi. Çünki Qafqaziyanın tarixini, son əsirdəki güzəran edən əhalini və bir xassə indiki vəziyyətini tərmiz etmək üçün bundan daha bir rəmz bulunmaz.

Zevsin haqqı vardır. Asimanlardan çalınan atəş yerə gəlincə özünə rəqib çıxmış, insanlar ona tapınmış, özünü təqdis eləmişlərdir.

Tarixi-qədimin təqdis elədiyi atəşə məmaili-əsr hazırın elan elədiyi şey neftdir.

Atəşpərəstlik dövrünün ən böyük atəşgədələri Qafqaziyada—Azərbaycanda bulunduğu kimi, neftpərəstlik əsrinin ən səhal ocaqları da buradadır.

Prometeyi didən xunxar quş bir əsrdən bəri Qafqaziyanın köksünü didən və cigərini parçalayan Rusiya imperiyasının doğrusu, dəxi bir qartal deyilmidir?

Prometey təkrar parçalanır, təkrar afiyət kəsb edirdi. Qafqaziya əqvamı da, zaman-zaman hərəkətə gəlir, zindəki əsəri göstərir, təkrar ikibaşlı rus qartalına qarşı zəbun oluyorlardı...»

Məmməd Əmin Rəsulzadə elə ilk məqaləsindəcə jurnalın məqsədini, ideyasını bildirirdi: düşmənə qarşı mübarizəni davam etdirmək! «Yeni Qafqaziya»da əsarət altında əzilib inildəyən Azərbaycanın ağrıları eşidilirdi.

Məmməd Əmin Rəsulzadə «Yeni Qafqaziya»dakı məqalələrində bir fikrinə həmişə sadiq qalıb təkrar edirdi:

«Qafqazlıların məqsədi Rusiyadan ayrılmaqdır. Heç bir düşüncəli qafqazlının ağlına belə bir fikir gəlməməlidir ki, qırmızı Rusiyadan ayrılıb ağ Rusiyaya birləşsin».

Məmməd Əmin Rəsulzadə fikrini bir az da sərt halda oxuculara çatdırırdı: İlanın ağına da lənət, qarasına da.

«Yeni Qafqaziya» azadlığı əlindən alınıb əsarətə salınmış Azəri türklərinin ümidi, pənahı idi. Bu jurnal azad Azərbaycanı yaşadırdı öz səhifələrində. Hərdən ötən günlərdən o üç rəngli bayrağın Bakı küçələrini bəzədiyi xoşbəxt dövrandan danışır, arzuları boğulub ölməyə qoymurdu. Çalışırdı ki, azərilər inansınlar, inansınlar ki, o istiqlal günəşi Vətəninin başı üzərində yenə gülümsəyəcək. Yenə bəxtəvər ömür yaşayacaq.

Bununla bərabər «Yeni Qafqaziya» od içində alışıb yanan Azərbaycandan dəhşətli xəbərlər verirdi. Vətəni çapılıb talan olur, insanlar nahaqcasına qətlə yetirilirdilər.

«Yeni Qafqaziya»nın səsi azərbaycanlı bolşevikləri və hər əmrinə müntəzir dayandıqları şura hökumətini çox narahat edirdi. Bu sərt həqiqətlər yazan azadlıq carçısını susdurmaq yollarını axtarırdılar.

Məmməd Əmin Rəsulzadə İstanbulda jurnal çıxarıb, Azərbaycanın ağrılarını bütün dünyaya çatdırırdı.

Bakıda isə bolşeviklər onu nifrətlə yad edir, adına, ünvanına böhtanlar yağdırırdılar.

Azərbaycan günahsız qanlar dənizində boğulurdu. Hər gecə yüzlərlə gənci gəlib aparır, güllələyir; ayaqlarına daş bağlayıb dənizə atırdılar. Xəzər dənizi insan cəsədləri ilə dolu idi. Bakının mahir üzgüçülərindən biri Xəzər dənizində saysız-hesabsız insan cəsədi gördüyünü dəhşətlə adamlara danışırmış.

Bolşeviklər Bakıda baş qaldıran hər kəsi gecə ilə aradan götürürdülər. Bakılıların var-dövlətini Mikoyan gəlib yığırdı, düşünən başları isə yerli bolşeviklərlə Pankratov, bir də «Osobı otdel»in erməni çekistləri qırıb öldürürdülər. «Osobı otdel»in guya şura hökumətinə qulluq göstərən erməniləri əslində azərbaycanlılardan qisas alırdılar. Bu xain ermənilər şura hökumətinin havadarı kimi çox təhlükəli oyuna girmişdilər: Azərbaycan Demokratik Respublikasının keçmiş başçılarını aradan götürmək. Tiflisdə bu işi uğurla həyata keçirmişdilər. Ermənilərdən biri Fətəli xan Xoyskini arxadan güllə ilə vurub öldürmüşdü. Həsən bəy Ağayevi də «Osobı otdel»in erməni çekistləri güllə ilə vurmuşdular. Onun yanında olan bir aktyoru elə qorxutmuşdular ki, o bütün ömrü boyu susub bir kəlmə də danışmamışdı.

Bakıda isə xalqı əsarətdən qurtarmaq istəyən müsavatçılara qarşı güclü işlər görülürdü:

Qəzetlər yazırdı:

«Müsavatçılar» hökuməti devirməyə çalışır, təşkilatlarını genişləndirirlər. Hökumət «müsavatçı»ların bu təşəbbüslərini xəbər almış, başçılarını yaxalamış və özlərindən bir daha sovetlər əleyhinə çalışmayacaqlarına dair söz alaraq özlərini sərbəst buraxmışdır. Halbuki sonra «müsavatçılar» arasında təkrar bir fəaliyyət və hərəkət olduğu sezilmiş və kəşf olunan gizli bir mətbəədə hökumət əleyhində bir qəzetə çap olunduğunu aşkar etmişdir».

Azərbaycanın qanını soran, minlərlə övladını güllələtdirən Kirov da Məmməd Əmin Rəsulzadənin İstanbuldakı fəaliyyətindən narahat olub yazırdı:

«Düşmənlərimiz, şübhəsiz ki, bu konfransı bizim qədər böyük bir diqqətlə təqib edirlər. Rəsulzadənin yazılarını qana-qana oxuyan düşmənlər əllərini «müsavat» vicdanı üzərinə qoyaraq qəbul etməlidirlər ki, gözlədikləri şey Azərbaycanda yoxdur».

İstanbulda isə Məmməd Əmin Rəsulzadə yorulmadan çalışır, yurdunu bolşevik işğalçılardan xilas etmək istəyirdi. İndi növbəti bir jurnalı çapa hazırlayırdı.

**«Azəri türk».** Jurnal 1928-ci ildə İstanbulda, Sultan Əhməddə nəşr olunur. Jurnalın abunə şəraiti illiyi 200 quruş, altı aylığı 110 quruş, bir nüsxəsi 10 quruş, xaricdə bir nüsxəsi 10 quruş; jurnal on beş gündən bir çap olunur. Ədəbi-ictimai, elmi və siyasi, milliyyətçi bir məcmuədir.

Məcmuənin baş məqaləsini Məmməd Əmin Rəsulzadə yazıb. «Tutacağımız yol» adlı baş məqalədə o, yazırdı:

«Məcmuəni bundan 4-5 il əvvəl başqa şərait daxilində çıxarmış olsaydıq, tutduğumuz yolu kafi surətdə izah edə bilmək üçün bəlkə daha ziyadə təfsilat vermək ehtiyacı hiss edərdim. Fəqət indi bizdən əvvəl vüqu bulan nəşriyyat və bu nəşriyyat sayəsində ehzar olunan bir mühiti nəzərə alaraq tutduğumuz yolun pək qısa cümlələrlə izah oluna biləcəyinə ümid edirik.

Gedəcəyimiz yol əski zaman şairlərinin iftixar etdikləri kimi «Rəhi-narəbdə» (getməyən yol) deyildir. Əksinə, bu yol çox müşkül və tikanlı olmaqla bərabər, gedilmiş şanlı bir yoldur. Bu həqq yolu və millət yoludur. Bir yol ki, Avropa 18, bir xassə 19-cu əsrdə getmişdir. Bir yol ki, müasir şərq hal-hazırda o yolla salik olmuşdur. Bir yol ki, sabiq Rusiya imperatorluğu daxilində yaşayan məhkum millətlər, dəxi o yola girmişlərdir. Bir yol ki, savarisi milliyyət hədəfi istiqlaldır!

«Azəri türk» hərbi-ümuminin nəticəsində bilfeli istiqlal mücadiləsinə atılan və illərdən bəri böyük bir eşq və hərarətlə izlədiyi cümhuriyyət qayəsinə irmiş bulunan, fəqət milli istiqlalı təkrar səqdəyə uğrayan bir türk elinin, Azəri türk xəlqinin daha müstəlah ismilə «Azərbaycan cümhuriyyətinin» həyat və müqəddaratı ilə əlaqədar bir məcmuədir.

Bu səhifələrdə türklüyün pək mühüm bir qismini qanlı irqin gəzidə bir ilini təşkil edən bir məmləkətin bulunduğu vəziyyət yaşadığı əsarət təsvir olunacaq və

bu ölüm vəziyyət içərisində, müxalif ənasirə rəğmən, söqi-təbii ilə inkişaf edən, milli həyat və bu həyatın ibraz etdiyi xilas və nicat cümləlləri təsbit olunacaqdı.

...«Azəri türk» Azərbaycan türkçülüyünun əsaslarını təhlil edəcəkdir. Yəni türk hirsi Avropanı bir üsul ilə təzhib edərkən xəlq ilə səmimi bir irtibad və müvanisəd cığırından qətiyyən sarpmayacaqdır. Xəlqçi bir türkçülükdən ibarət olan bu məslək əsrin mükəmməl texnikini xəlqin səmimi duyğu ehtiyaclarını tətmin üçün qollanacaqdır. O, bir tərəfdən xəlqin zövqünü, fən və sənətdən anlayacaq bir radəyə gətirməyə səy edəcək, digər tərəfdən də fəni ilə sənəti xəlqin zövqünü oxşamaq yolunda istixdam (işə götürmək) etmək fikrini tərvic edəcəkdir.

Mədəni istiqaməti bu olan Azərbaycan türkçülüyünün siyasi cəbhəsi isə, Azəri türklüyünü digər türk ellərindən uzaqlaşdıran hər dürlü tədbirlərə qarşı qoymaq, hər türk iltibatını təxribxar təsirdən mühafizə etməkdir.

«Azəri türk» xəlqçidir»...

Məmməd Əmin Rəsulzadənin nəşr etdiyi «Azəri türk» baş məqalədə yazdığı kimi xəlqçilik ruhu aşılayan bnr məcmuə oldu. Sevindi, oxundu «Azəri türk». Mühacirətdə yaşamaq məcburiyyətində qalan azərbaycanlılar bu dərgini də özlərinə mənəvi dayaq bildilər.

Məmməd Əmin Rəsulzadə Türkiyədə çırpınır, əsir vətənini qanlı totalitarizmin, terrorçu bolşeviklərin pəncəsindən qurtarmağa çalışacaqdır.

Vətənində isə qırğın, terror davam edirdi. Vətəni al qan içində çabalayıb can verirdi: Yox, ölmürdü Vətən, hələ qalırdı, yaşayırdı...

Azərbaycanın başı bolşeviklərin qanlı qılıncı ilə parça-parça edilmişdi. Sinəsi parçalanmış Azərbaycanın axıtdığı qan çölləri, düzləri qırmızıya boyamışdı. Minlərlə günahsız bolşeviklərin amansız terrorunun qurbanına çevrilmişdi.

Qəzetlər yazırdılar:

«Daxildəki və xaricdəki «müsavatçılar», sovet hökuməti əleyhinə yeni bir təşəbbüslərə keçmişlərdir. Bizdə son illərdə «müsavat» partiyası əleyhinə kəskinliklə mücadilə edilməmişdir. «Müsavat»ın indiki halda sovet hökuməti üçün nə kimi bir təhlükə təşkil etməyə başladığını kafi dərəcədə təqdir etməmişlərdir. Bu təhlükə keçən illərdə yox idisə də indi vardır. «Müsavat» partiyasına qarşı ən kəskin bir hücuma keçməlidir».

Bolşeviklər Məmməd Əmin Rəsulzadənin Türkiyədəki fəaliyyətindən narahat olub həyəcanla sovet mətbuatında hay-küy qoparırdılar:

«Düşmənlərimizin başında şübhəsiz, «müsavat» partiyası durur. Məmməd Əmin Rəsulzadə Avropaya qaçdıqdan sonra, Azərbaycan inqilab əleyhdarları onun ətrafına toplanaraq irtica fəaliyyətlərinə başlamışlardır. Fürsət tapdıqca fəhlə-kəndli sovet hökumətinə zərbə endirməyə çalışırlar. Xaricdə Məmməd Əmin Rəsulzadənin başına toplanan milliyyətçilərin içəridəki tərəfdarlarını əzmək lazımdır».

Azərbaycanlı bolşeviklər Məmməd Əmin Rəsulzadənin fəaliyyətindən ona görə qorxuya düşmüşdülər ki, o, xalqı yeni mübarizəyə səsləyirdi.

Məmməd Əmin Rəsulzadə Bakıda fəaliyyətdə olan «gizli müsavat»a istiqamət verir, Azərbaycanda baş verən hadisələrə münasibətini bildirirdi.

Məmməd Əmin Rəsulzadənin ilhamçısı olduğu «gizli müsavat» Azərbaycanda fəaliyyətdə idi.

«Gizli müsavat»ın 1927-ci ildə Bakıda yaydığı bəyannamələrdən birində yazılırdı:

«Əziz arkadaşlar!

Son zamanlarda milli iftira siyasətinə qarşı yapılan kommunist propaqandası bu cərəyanın getdikcə ciddiləşdiyini və həyati bir əhəmiyyət qazandığını göstərir. Şərq məmləkətlərindəki milli istiqlal hərəkətlərini təhrik və təşviq etmək siyasətilə Avropa imperializmini təhdid edən qızıl rus imperializmi, artıq öz əsarəti altındakı millətlərin gözlərini bağlaya bilməz, ayağının altındakı zəminin möhkəmlənməkdə olduğunu görür. Sovetlər Birliyini təşkil edən millətlər milli istiqlal şüarıyla canlanır, sovet rejimini də çar rejimi qədər mənfur bir idarə olduğu zehinlərdə yerləşir. Bu xilaskar fikrin Azərbaycandakı təmsilçiləri, düşmənin də təsdiq etdiyi qüvvə sizsiniz arkadaşlar!

Azərbaycan istiqlal bayrağını yüksəldən «müsavat» firqəsi tarixin sövqü ilə bu müqəddəs şüar üçün ölən qəhrəman nəslin aləmdarlığını yapmaq şərəfi ilə mübahidir. Azərbaycan istiqlal hərəkətinin «müsavatçılıq» və bu hərəkət qəhrəmanlarının «müsavatçı» adı ilə anılması bir təsadüf deyildir. Sibiriyanın tunduralarında, Çeka məhbəslərinin qaranlıq zirzəmilərində, Xəzər dənizinin qanlı sularında məhv olan və vicdansız cəlladların amansız güllələrinə kökslərini hədəf edən qəhrəmanların yüzdə doxsanı «müsavatçı»dır. Bu da təbiidir. Çünki «müsavat» milli Azərbaycan demokratiyasını təmsil edən bir partiyadır.

Azərbaycan hərəkatı isə milli və demokratik bir hərəkatdır. Milli demokrat hərəkatını təmsil edən ən idealist zümrə, istiqlal şəhidləri içərisində ən şanlı yeri almış gənclikdir. Bu gəncliyin milli istiqlal şüarı altında birləşdiyini, qızıl düşmən vəhşicə diş qıcırtısıyla anır.

Arkadaşlar! «Müsavat» firqəsi heç bir zaman milli davası inhisar altına almaq iddiasında olmamış, tarixi düşmənə qarşı, millətin mücadiləyə hazır bütün fədakar qismi ilə birlikdə olduğunu daima etiraf və hər zaman tərvic etmişdir.

Bolşevik mətbuatını diqqətlə oxusanız görərsiniz ki, düşmənin ən çox qorxduğu bu fikirdir.

Dövrün tarixi əhəmiyyəti və yaşadığımız mücadilə günlərinin ruhu iqtizasını nəzərə alaraq Milli Azərbaycan Mərkəzi təşəkkül etmiş və bu mərkəz adına Azərbaycan xalqı birləşməyə, toplaşmağa və qəti mücadiləyə hazırlanmağa dəvət olunmuşdur. Eyni zamanda Azərbaycan, Dağıstan və Gürsüstan təmsilçilərindən mütəşəkkil «Qafqasiya İstiqlal Komitəsi» də bütün qafqasiyalıları birlik və mücadiləyə çağırır.

Ey vətənin xilasını istəyən Azəri! Bu dəvətləri qəbul et. Çünki vətənin xilası birlikdə və təəzzüvdədir.

Sən də ey canını hür və müstəqil Azərbaycan yolunda fəda edən firqəçi qardaş! Bu birlik və təəzzüvü qolaylaşdırmaq üçün əlindən gələni əsirgəmə. Hər dəfə olduğu kimi bu dəfə də vətəni işdə təşəbbüsü əlinə al, birlik və mücadilə bayrağını yüksəlt və bil ki, böyük ideal naminə verdiyimiz qurbanların yeganə mükafatı ancaq qələbədir. Qələbənin ən böyük mənbəyi isə birlik və yenə birlikdir...

Yaşasın birlik! Yaşasın istiqlal! Yaşasın Azərbaycan Cümhuriyyəti! Məhv olsun istila!

*«Müsavat» partiyası Mərkəzi Komitəsi.*
*Diş ölkələr bürosu».*

**İstanbulda.** Yurdunun, vətəninin talan olunmağına, minlərlə qanı bir qardaşının məhv edilməyinə ürəyi ağrıyıb parçalansa da, inamını itirmirdi. Qaldırdığı mübarizə bayrağını başı üzərindən endirmirdi. Yox, o bu yoldan çəkilməyəcəkdi. Son nəfəsinə kimi istiqlal uğrunda döyüşəcəkdi. O inanırdı ki, üç rəngli bayraq yenə azərilərin başı üzərində dalğalanacaq. Vətəninin düşmən tapdağı altında inildədiyini Bakıdakı müsavatçı dostlarından, ona çatdırılan bolşevik qəzetlərindən öyrənirdi. Hələlik sərhədlər tam bağlanmamışdı, əlaqələr vardı. Türkiyəyə, İrana gəlib-gedən tacirlər də bu işdə köməklik göstərirdilər. Elə bu yolla ailəsinə də hərdən yardım əlini uzadırdı. Arada məktublaşırdı da ailəsi ilə. Əlbəttə, açıq imza ilə yox, başqa adlarla.

..Amma vətəndən aldığı xəbərlər dözülməz idi. Bolşeviklər nəinki yurddaşlarını güllələyirdilər, eyni zamanda vətənin torpağını ermənilərə verməyə başlamışdılar.

Ermənilər əsas Qarabağı ələ keçirməyə çalışırdılar. Bu işdə onlara yaxından kömək edən azərbaycanlıların qəddar düşməni olan Kirov idi. «Kirov—Myasnikyan» birliyi Qarabağı ermənilərin xeyrinə həll etməli idi.

Bir də azərbaycanlı bolşevikləri aldatmağa nə vardı ki? Yaxşı bir vəzifə təklif etsən hər təhlükə sovuşub gedəcək. Vəzifə ondan ötrü millətdən, vətəndən, torpaqdan irəlidir. Ermənilərin, rusların əli ilə Nərimanovun adına yağ-pendir zavodu[1] verdirib indi özlərinə torpaq alırdılar. Doğrudur, Qarabağın verilməyində Nərimanov etiraz edir, amma bu işi həll etməyə nə var ki? Bu xalqın Əliheydəri, Çingiz İldırımı sağ olsun. Onların əli ilə vurub Nərimanı uzaqlaşdırmaq lazımdır. Onda Nəriman başa düşər ki, rus-erməni birləşməsinə qarşı çıxmaq nə deməkdir.

Ermənilər istəklərinə nail oldular. Azərbaycanın öz torpağında bir muxtar vilayət yaratdılar. Bu onların qələbəsi idi. Bu qələbəni təmin edənlər isə Kirov, Myasnikyan, bir də Azərbaycanın milli hisslərini itirmiş hökumət başçıları idi. Onlar niyə qətiyyət göstərib soruşmurdular Lenindən: Axı sən bizə müstəqillik vəd etmişdin. Torpağımızın bütövlüyünü qoruyacağını demişdin. Bəs niyə verdiyin

[1] 1922-ci ildə Ləkidəki yağ zavoduna Nərimanovun adı verilmişdir.

sözə əməl etmirsən? Lenin əməl etmirdi vədinə. Bu göz qabağında olan aşkar fakt idi. Yaxşı, azərbaycanlı bolşeviklər niyə ayılmırdılar.? Özləri qətiyyətsiz, cəsarətsiz idilər. Bəs onda niyə xalqın ayağa qalxan qeyrətli oğullarının siyahısını yazıb «Osobı otdelə», «Çeka»ya verib güllələdirdilər? Həqiqəti ki, onlar bilirdi.

Məmməd Əmin Rəsulzadə aldığı bu məlumatlardan əsəbiləşir, xalqın dəhşətli bəlaya düçar olduğunu düşünürdü. Güllələnənlərin, qətlə yetirilənlərin sayı minlərlə idi. Axı rus nə bilir ki, azərbaycanlı vətənpərvər harda nə işlə məşğuldur? Satqınlıq edən, onları ələ verən, o yazıqların ayağına daş bağladıb Xəzərin sularına atdıran sizsiniz, siz!

İçərisini ağrı-acı kəssə də ruhdan düşmürdü, mübarizəsini davam etdirirdi. İndi yeni bir jurnal nəşr etməyə hazırlaşırdı.

**«Odlu Yurd».** 1929-cu il, 1 mart, «Odlu Yurd» jurnalının ilk sayı çapdan çıxıb. Baş məqalənin müəllifi, jurnalın baş mühərriri Məmməd Əmin Rəsulzadədir. Müəllif «Çöhrəmiz» adlı məqaləsində yazır:

«O sizə yabançı olmasın gərək!

«Odlu yurd»! Bu iki söz türkcə kəlmənin «Azərbaycan»ın müqabil olduğunu söylərsək, məsələ yarı-yarıya anlaşılmış olur.

Yarı-yarıya deyirik, çünki hal-hazırda bir deyil, iki Azərbaycan vardır. Rus istilasına pərdəlik rolunu oynayan «qızıl Azərbaycan» ilə qəlbində hürriyyət və istiqlalın sönməz odunu daşıyan milli Azərbaycan!

«Odlu yurd» milli Azərbaycan fikrinin mürəvvici olaraq intişar edir. Bu intişarı ilə o özündən əvvəl «Yeni Qafqasiya» ilə «Azəri türk» məcmuələri tərəfindən gedilmiş ideal yolunu boylanmaq əzmindədir.

Qızıl istilanın tökdüyü məsum qanlarla söndürmək istədiyi bu ideal, bu müqəddəs ad, Azərbaycan torpaqları altında şəkli bulunan oda bənzər.

Gah yanar bir dağ, gah parlayan bir iz, çox kərə atəşindən bir sütun və daima bəyaz şölələrlə tutan bir nur halında həyata saçaqlıq və işıq verən bu maddi atəş kimi «Od yurdu» gənclərinin iztirabı çarpan qəlblərini saçaqlarıyla isidən və işığıyla parladan bu mənəvi atəş daha söndürülməz bir atəşdir: hürriyyət və istiqlal atəşi.

Qəzetimizin başında Azərbaycanın əski, yeni maddi çox bulunan işıq və odlarını göstərən lövhədə bu hər tərəfə nur saçan, bir ulduz şəklində göstərilmişdir. Səkkiz guşəli ulduz, milli Azərbaycan ulduzudur.

Bu ulduz hilalı ilə birlikdə mavi, qırmızı və yaşıl rənglər üzərinə gəlincə milli Azərbaycan bayrağını təşkil edər.

Milli Azərbaycan bayrağı—işdə bizim çöhrəmiz!

...İstiqlal işdə Azərbaycan milliyyətçilərini məşğul edən ən aktual bir məsələ!

...İstiqlal milli hakimiyyət xaricində var deyildir.

...Müstəqil millət demək, xalq hakimiyyətinə dayanan milli dövlət deməkdir.

...Taktikamızda daha real və metodik olmaq istərik!

...Milli hakimiyyəti uğrunda çarpışan, çalınmış istiqlalını geriyə almaq üçün çalışan bir millət çöhrəsi!»

...Məmməd Əmin Rəsulzadə «Odlu yurd»u nəşr etməyi ilə milli istiqlal uğrunda apardığı şanlı mübarizəsinin dayanmadığını sübuta yetirirdi. «Odlu yurd» işğala məruz qalan ana Vətənin, azadlığını itirmiş Azərbaycanın ağrılarından danışırdı. «Odlu yurd» Azərbaycanın tarixinə qara bir gün kimi daxil olmuş 27 aprelin Azərilərin matəmi kimi qarşılandığından danışır.

## 27 APREL MATƏM GÜNÜDÜR

Bu gün 27 apreldir. Azəri türklərinin matəm günüdür. Bu gün o gündür ki, Vətənin azadlıq qapıları işğalçıların əli ilə bağlanıb. İstanbuldakı azərilər matəmə bürünüblər. Hamı göz yaşı içindədir. Hamı ürəyindən qara qanlar axa-axa ömürlərindən istiqlaliyyət işığını alıb aparanlara lənətlər yağdırır. 27 aprelin gəlməyi ilə bu adamların işgəncəli bir həyatı başladı. Günahsız ölümlərə, haqsız təhqirlərə, üzüntülü təqiblərə dözə bilmədi bu adamlar! Doğma yurdlarını, dədə-baba ocaqlarını söndürüb çıxmağa məcbur oldular.

Yox, bu adamlar öz həyatlarını təhlükədən qurtarıb vətəni tərk etməmişdilər. Onları bu ellərə çəkib gətirən bir istək vardı: çalışıb bir iş görmək, vətəni işğalçılardan qurtarmaq, əsarətdə inildəyən yurdlarının ağrısını bütün dünyaya çatdırmaq.

27 aprel günüdür. Bu gün Azəri xalqının matəmidir. Minlərlə yurddaşı kimi o da matəm içindədir. Həmin günü çıxardığı «Odlu yurd» jurnalını dərin hüzn əlamətini bildirən qara rəngli haşiyəyə aldırıb: Ona inanıb ümidlərini itirməyən, onu özlərinə mənəvi dayaq bilən və indi Azərbaycana yas tutan həmvətənlərinə bu sözləri çatdırır:

«27 aprel! Azərbaycan cümhuriyyətinin istila edildiyi bu qara gündə «Odlu yurd» azərbaycanlı oxucularına böyük bir təəssüflə başsağlığı verir. Bir türk cümhuriyyətinin istiqlalına qıyıldığı bu gündə «Odlu yurd» bütün türk cümhuriyyətçilərinə başsağlığı verir! O demokratiyanın təhqir edildiyi bu gündə səmimi demokratlara ürək təəssürlərini izhar edir!

Bu candan təziyət və təəssürlərini bəyan edərkən «Odlu yurd» yaşayan Azərbaycan nəslinin təziyət qəbul edəcək nə şəhidlər babasına, nə qəhrəmanlar anasına, nə igid ərlərini qeyb etmiş gəlinlərə, nə qara gözləri yollarda qalmış qardaşlara, nə dudmanı sönmüş ailələrə və nə yurdundan olmuş mühacirlərə malik olduğunu çox əla bilir!

Qızıl rusluqla yapılan bu mücadilənin sabahkı zəfəri «Odlu yurd»ca mühəqqəqdir: çünki o görür ki, Xəzərin qanlı sularından tutaraq, şairin «buzlu cəhənnəm» dediyi Sibiriya tundralarına qədər yayılan qəhrəmanlar məfkurənin

yolunda yürüyərkən, qanlı çekistlərdən qorxmayaraq, böyük məqsədə doğru ölüm çənbərindən keçməyin yolunu bilirlər!

Bunu bilən bir milləti bu günkü matəmi ilə təziyət etdiyimiz halda sabahkı bayram ilə də təbrik edə bilərik!».

Məmməd Əmin Rəsulzadə «Odlu yurd»un alovlu dili ilə həmvətənlərini matəm günündə belə ruhdan düşməməyə çağırırdı.

Azəri türkləri matəm içindəydi. Adamlar vətəndən uzaqlarda qara gün münasibətiylə bir-birlərinə ürək-dirək verir, dərdlərinə şərik olurdular. Adamlar ümidlərini itirmirdilər. İnanırdılar ki, bir gün gələcək, doğma yurdlarını indi əsir etmiş şimal buzları Azəri türkünün od nəfəsi ilə əriyib məhv olacaq. O zaman xalq yenidən azadlığa çıxacaq, o işıqlı binanın üstündən endirilən üç rəngli istiqlal bayrağı yenidən Azəri türklərinin başı üzərində dalğalanacaq. Xalq inanırdı buna. Xalqı yaşadan elə bu inam, bu istək idi.

İstanbulda Azəri türklərinin matəmi idi. Matəm libasına bürünmüş «Odlu yurd»u Məmməd Əmin Rəsulzadə qara haşiyələrə almışdı. Bu ümumxalq kədəri demək idi.

27 aprel matəm günü idi. Bu qara gün özüylə xalqa işgəncələr, ölümlər, nahaq qanlar gətirmişdi. 27 aprel qara qılıncını şimşək kimi çaxdırıb ananı baladan, bacını qardaşdan, insanları yurdundan, yuvasından ayırmışdı. 27 aprelin gəlişi ilə bolşeviklər haqqı, ədaləti, doğru-düzgünü sevən xalqa qızıl yalanlar gətirmişdilər. Xalq bu yalançılara nifrət edə-edə yaşamağa məcbur olmuşdu. Məhz o qara matəm günündə bolşeviklər xalqın istiqlal qapılarını bağlayıb sizə «azadlıq gətirmişik» deyib Demokratik Azərbaycanı özününküləşdirməyə—sovetləşdirməyə başlamışdılar. 27 aprel günündən Azərbaycanın igid oğulları şəhid edildi, Xəzərin sularında boğuldu, Sibirin soyuq sürgünlərində donduruldu, qanlı «Çeka» həbsxanalarında qətlə yetirildilər. 27 aprelin vətən qapılarını açdığı gündən yurdun malı, dövləti, sərvəti talandı, uzaq şimala göndərildi. Xalq qanlı terrora, işgəncəli istismara məruz qaldı. İnsan qanına susamış bu quduz canavarlar körpəyə, qocaya belə rəhm etmədən, zorla ölüm qəfəsinə salırdılar. Bunlar hamısı o qara gündən—27 apreldən başladı.

Məmməd Əmin Rəsulzadənin «Odlu yurd» jurnalı 27 aprel matəmində ağrılı yazılar verirdi:

«Bu gün Azərbaycanın parlaq, laciverd səmasında dalğalanan üç rəngli müəzzəz bayraq düşmüş və qarələrə bürünərək Azəri gəncliyinin qəlbinə gömülmüşdür.

Bu gün Moskvanın xəyanətkar əlində parlayan xəyanət bıçağı yaşamaq haqqını və qabiliyyətini hər vasitə ilə isbat edən Azərbaycan xalqının bağrına saplandı.

Hər azərbaycanlı bu tarixi düşməni tanıyır. Namuslu bir fərd yoxdur ki, 27 aprel fəlakətini unuda bilsin. Rusiya 27 nisan zərbəsi ilə Azərbaycanın həyatını əbədiyyən məhv edə bilmədi. Qızıl Rusiya bu təcavüz siyasətilə qafqasiyalıların

gözünü açdı və bununla özünün Qafqasiya dağları arxasına atılacağı böyük günün müvəffəqiyyətini təmin etmiş oldu».

«Odlu yurd» 27 aprel matəmində Bakıda «gizli müsavat»a bir müddət başçılıq edib, qızıl istilaya qarşı mübarizə aparmış qeyrətli Azəri türkü olan Mirzə Balanın ağrısını çatdırır xalqa:

«...Bu qara günü nə üçün müntəzəm surətdə hər il xatırlayırıq? Və nə üçün bu günü heç bir zaman unutmayacağıq? Çünki bu gün hürriyyət və istiqlalımızın müqəddəs timsalı olan bayrağımız endirilmiş, onun yerini qanlı rus bayrağı tutmuşdur. Çünki bu gün ilk türk cümhuriyyəti vəhşi bir istilaya uğramışdır. Çünki bu gün müqəddəs və bəşəri bir prinsip olan «millətlərin təyini müqəddarat haqları» ayaqlar altında çeynənmişdir. Bu gün yaşamaq istəyən, hür və azad yaşamaq istəyən bir millətin inkişaf yolu üzərinə həyat mənbəyi üzərinə çox qaba və çox vəhşi bir qüvvət oturaraq bizə yaşamaq yolunu qapamış, gözəl və cənnət vətənimizi cəhənnəmə çevirmişdir».

Həmin günü o matəm ağrısına büründüyü zaman dünyanın müxtəlif şəhərlərindən teleqramlar alırdı. Yüzlərlə, minlərlə Azəri türkü Azad Azərbaycan hökumətinin keçmiş başçısının ağır dərdinə şərik çıxdığını bildirirdi.

## MATƏM TELEQRAMLARI

*Paris, 27 aprel,* İstanbulda Rəsulzadə Məmməd Emin bəyə: Milli Azərbaycan cümhuriyyətinin qızıl imperialistlər tərəfindən istila edildiyi bu gündə Parisdəki Azəri vətən sevənləri adından sizi və bu vasitə ilə də bütün istiqlalçı vətəndaşlara candan təziyət edirik.

*M u s t a f a; Mir Yaqub.*

*Varşava, 26 aprel,* İstanbulda M. Emin bəyə: Milli matəmimizin ildönümü münasibətilə yas və əliminizdə iştirak edir, düşmənə qarşı olan kinlərimizin bir qat daha qüvvətlənməsini təmənna edirəm.

*İsrafil.*

*Berlin, 27 aprel,* Emin bəyə: Almaniyada «Azərbaycan istiqlal komitəsi» və Almaniyadakı bütün məhkum milliyyətçi azərilər istiqlal uğrunda mücadilə edən əziz vətəndaşlarının milli matəminə iştirak və bir an əvvəl istiqlala qovuşmağını cani könüldən arzu edirlər.

*İstiqlal komitəsi.*

*Təbriz, 26 aprel,* İstanbulda «Odlu yurda»: Milli müsibətimizin ildönümündə Təbrizdəki azərilər milli acıya bütün mövcudiyyətləri ilə iştirak edirlər.

*Hulusi.*

*Tehran, 26 aprel.* İstanbulda Emin bəyə: hər 27 aprel istilaçı rusluğa qarşı kinimizi bir qat daha artırır və bizi bir qədəm daha istiqlala yaxınlaşdırır. Qəhr olsun istila.

*M. Əli.*

*Ankara, 27 aprel,* İstanbulda Məmməd Emin bəyə: Ankaradakı məhkum Azərilər adından, 27 apreldə millətimizin duyduğu ağılara şərik çıxır və ən yaxın zamanda bu qanlı istiladan əziz Azərbaycanımızın qurtulmasını təmənna edirəm.

*Bayqara.*

*Adabazarı, 27 aprel.* İstanbulda Rəsulzadə Məmməd Emin bəyə: 27 aprel münasibəti ilə vəhşi istilaçılara olan kin və intiqam hisslərimi bildirirəm. Milli mücadiləmizdə bu məşum günün müsbət bir rol oynamağını arzu edirəm.

*Kərim.*

*Amasiya, 27 aprel,* İstanbulda Məmməd Emin bəyə: Milli matəmimizin ildönümü olan 27 aprel istilaçılara qarşı qəlbimizdəki kin və intiqam hisslərini alovlandırarkən istiqlal üçün yapdığınız mücadiləni hörmət və diqqətlə izləyirik.

*Amasiyadakı məhkum Azərilər adından.*

*Yasin.*

*Trabzon, 27 aprel,* İstanbulda «Odlu yurda»: Milli qayəmizin mürəvvici olan «Odlu yurd» vasitəsi ilə bu qara gündə millətimizin matəmlərinə Trabzonda yaşayan Azərilər adından şərik çıxırıq.

*Nağı.*

*Bir məktub:*

Məmməd Əmin Rəsulzadənin adına əskişəhərdən göndərilmişdir:

«27 aprel məşumu münasibəti ilə sizin və oradakı bütün qardaş və vətəndaşların təəssüratına bütün varlığımla şərik çıxıram.

Bu günkü gün Azərbaycan təkrar rus əsarətinə girmişsə də, sevgili cümhuriyyətimizin parlaq istiqbalı adına inamı tam olanlar üçün istiqlalımız mənən mövcuddur və yaşamaqdadır.

Yaşasın hür və müstəqil Azərbaycan!».

*H. NURİ.*

Məmməd Əmin Rəsulzadə «Odlu yurd» jurnalında Azərbaycanın istismar olunub Rusiyaya daşınan neftindən, qazından, başqa sərvətlərindən də ürək ağrıdan məlumatlar çap edirdi. Budur, cəmi yeddi il ərzində (1920—1927) Bakı neftindən 150 milyon manat gəlir əldə olunub. O gəlirin 25 milyon manatına neft ehtiyacları üçün xaricdən materiallar alınıb. Qalan 125 milyon manat Rusiyanın kassasına keçib. Bəs yazıq Azəri xalqı bu qızıl neftinin müqabilində və qazanıb? Nə qazanacaq! Terror, ölüm, hədə. Bu idi biçarə camaatın qazancı. Aldığı bir məlumat Məmməd Əmin Rəsulzadəni lap əsəbiləşdirmişdi. Yığıncaqların birində gənclər Əliheydər Qarayevi sorğuya tuturlar ki, niyə Azərbaycanın nefti Rusiyaya daşınır? Əliheydər Qarayev duruxub cavab verməmiş, sonra isə «müsavatçı»larla mübarizəni genişləndirməkdən danışmışdı.

İndi Əliheydərin bu hərəkətini fikirləşdikcə hirslənir, bir yerdə qərar tuta bilmirdi. Azərbaycanın canına daraşmış bu adamlar Pankratovdan, Mikoyandan da qorxulu deyildimi? Bir nəfər haqqında da eşitmişdi, Azərbaycan «Çeka»sında

işləyirdi. Əsl adı Baba idi. Amma xalq ona «altıbarmaq» deyirdi. Belə cəlladlar xalqını qırdırır, rusun, ermənin in güdazına verirdilər.

«Odlu yurd»da isə Azərbaycandan alınan ağrılı məlumatlar çap olunurdu. Yazıq xalqın başına hansı oyunlar açılmırdı?

Məmməd Əmin Rəsulzadənin baş mühərriri olduğu *«Odlu yurd»* Azərbaycanda baş verən hadisələr haqda yazırdı:

**«Qanlı icraat»**

**Terror bütün dəhşəti ilə davam edir.**

Bu ilin iyunun 18-si gecəsində adları aşağıda qeyd olunan vətəndaşlar Çeka tərəfindən öldürülmüşlər:

**1. Əhmədbəyli İbrahim; 2. Eyvazlı Zülfüqar; 3. Dadaş Vəfalı; 4. Hacızadə Əhməd; 5. Mirzə Həsən; 6. Nəsir Hüseyn oğlu: 7. Xasay Süleyman oğlu; 8. Molla Yunus və s.**

Qətl edilən bu vətəndaşlardan başqa aşağıdakı məhbuslar da aclıqdan və xəstəlikdən ölmüşlərdir: **1. Mir Əhmədli Əbdül Əli; 2. Məşədi Abdulla; 3. Molla Həsən; 4. Qaraş Səid Mahmudlu.**

**«Salyan süngüsü»**

Bakı vilayəti Salyan qəzasında «Salyan süngüsü» adı altında çalışan gizli bir təşkilatla əlaqədə aşağıdakı vətəndaşları cəzaya məhkum etmişlər: 1) Zabitlərdən Şirin Baba 10 il Solovkiyə sürgün edilib; 2) Zabitlərdən Sultan Əziz 10 il Solovkiyə sürgün edilib; 3) Məşədi Xəlil 10 il həbs; 4) Sultan bəy 8 il həbs; 5) İsmayıl Lütvəli 6 il həbs; 6) Talışlı Rüstəm 8 il həbs.

Bu təşkilat milli istiqlal fəaliyyətində ittiham olunmuşdur.

**Gizli təşkilat**

Keçənlərdə Murtuza adlı birisinin Bakıda «Çeka» tərəfindən qətl edildiyini xəbər vermişdik. İndi məlum olur ki, bu adam kommunist ikən milli müxalifətə keçmiş və mətbəə təsis edərək sovet hökumətinə qarşı nəşriyyata başlamışdır. Özü ilə bərabər Murtuzanın kommunist olan səkkiz arkadaşı da güllələnmişdir.

**«Kollektivləşmənin» səmərəsi**

Aldığımız məlumata görə Gəncə qəzasının Yaqublu və Qaraçay kəndləri kollektivləşmə və kənd «zənginlərini» tutmaq əleyhinə vüqu bulan üsyan nəticəsində Qızıl Ordu hissəsi tərəfindən tamamilə təhqib edilmişdir. 500-ə yaxın

çoluq-cocuq Gəncə küçələrində səfalətə məhkumdur. Ümumiyyətlə, Gəncəyə və Bakıya kəndlərdən yüzlərcə ac və çılpaq qadın və uşaq dolmaqdadır.

### Gəncədə iğtişaşlar

Verilən məlumata görə Gəncədə mühüm iğtişaşlar olmuşdur. İğtişaş zamanı mahut basma və yağ emalatxanaları yandırılmışdır.

### Həbslərin səbəbi

Aldığımız məlumata görə qeyd etdiyimiz həbs, sürgün və qətllər kəndli hərəkatı ilə əlaqədar olduğu kimi eyni zamanda fevral ayında Bakıda baş verən böyük yanğınlarla dəxi əlaqədardır. Tevkiflərdən əvvəl Bakı stansiyası yanında bir emalatxana, dəmiryolu körpüsü yanındakı sabun fabrikası, Suraxanıda iki neft məntəqəsi, Ramanada bir neft məntəqəsi, Balaxanıda üç məntəqə, Bibiheybətdə iki məntəqə yandırılmış olduğu kimi Bakı-Batum neft borusu da partladılmış və o sıralarda çeka rəisi Bağırova Bakı Darülfünunun tələbələrindən Həmzə bəy tərəfindən bir bomba atılmışdır.

### Solovkiyə

Aldığımız məlumata görə Azərbaycan kəndlərindən min kişi martın sonlarında Solovkiyə sürgünə göndərilmişdir. Doqquz yüz kişidən ibarət digər bir kəndli dəstəsi Sibirə sürgün edilmişlər.

Bakıda icra edilən son həbslər zamanı 120 orta məktəb tələbəsi həbs edilərək Solovkiyə göndərilmişdir. Bunlar sovet hökumətinin kəndlilərə qarşı yapılan məzalimə qarşı protesto nümayişi yapmaqda ittiham olunmuşlar.

### Solovkidə

Aldığımız son məlumata görə Solovkidə olan müsavatçılar üç qrupa ayrılmışlar. Bunlardan bir qismi Solovkidə saxlanmış, ikincisi Kəmə göndərilmiş, üçüncü qismi digər bir yerə aparılmışdır.

### Kommunistləri öldürürlər

Lənkəran qəzasından bizə yazırlar:

Bu maydan etibarən Azərbaycanın digər qəzalarında olduğu kimi Lənkəran qəzasında da kommunistlərə qarşı ümumi terror hadisələri müşahidə edilməkdədir. İyun və iyul ayları əsnasında Lənkəran qəzası daxilindəki kommunistlər qətl

edilmişlər... Bu kommunistlər qismən idarələrdə vəzifələri başında, qismən də yolda səyahətdə ikən öldürülmüşlər.

Bir növü epidemiya halını alan bu hərəkət nəticəsində kommunist məmurlar bir kənddən digər kəndə getməyə qorxurlar. Buna bənzər hərəkətlər digər kəndlərdə də vardır.

29.7.1929. Vətən balası.

## Dağlara çəkilən bir «kommunist»

Lənkəran qəzasında milliyyətçilikdə ittiham olunaraq bir dəstə müsavatçılarla birlikdə təvkif edilmək istənən yerli kommunistlərdən Əli Cavadlı adında bir kommunist yanına bir neçə arkadaş alaraq dağlara çəkilmişdir.

Əli Cavadlının dəstəsiylə hökumət məfrəzləri arasında qanlı toqquşmalar cərəyan etmişdir.

## Azərbaycanda vəziyyət

Azərbaycanda hərəkət edən partizanlardan ən qüvvətlisi «Axsaq Teymur» dəstəsidir... Qarabağ, Quba, Şamaxı, Lənkəran dağları ilə Bakı ətrafında hərəkət edən və get-gedə digər dəstələri də ətrafına toplayan bu təşkilat üzərində şüarlar yazılı milli Azərbaycan bayrağı daşıyır. Bayraqda yazılan şüardan bəziləri bunlardır: «Bizim beşillik planımız kommunistlərin məhv edilməsi, rusların Azərbaycandan çıxarılması, Azərbaycanın və Azərbaycan xalqının hür və müstəqil edilməsidir», «Beşillik planımızı iki ayda icra edilim!».

Azərbaycanda vücuda gələn böylə bir vəziyyət kommunistləri, xüsusilə Azərbaycan kommunistlərini qorxuya salmışdır. Moskvanın aciz uşaqları olan onlara qarşı daha çox və daha şiddətli kin mövcud olduğu hər yerdə nəzərə çarpmaqdadır..

Bütün müxalifət və müqavimət hərəkətlərinin «müsavat» bayrağı və «müsavat» şüarları altında kommunizmə qarşı istilaya və rusluğa qarşı olaraq inkişaf eyləməsi istilanın onuncu ili sonlarında Azərbaycanın Moskvaya verilən növbəti töhfələrindən biri deyil də nədir?!

## Şəki və Zaqatalada üsyan

Şəki və Zaqatalada əhali üsyan edərək kommunistlərlə məsul sovet məmurlarını öldürmüşlər. Dağıstanlılar və gürcülər də azərbaycanlılarla birləşmişlər. Onların sayı üç minə yaxındır. Bunların əleyhinə Gəncə ilə alman koloniyası arasında işləyən avtobuslarla dördüncü qızıl alayı göndərilmişdir. Alay ruslarla azərilərdən ibarət imiş. Şiddətli döyüş əsnasında Şəki və Zaqatala türk qadınları cocuq və yavruları ilə bərabər əsgərlərin qarşısına çıxmışlardır. Alayda

olan türk əsgərlər bu mənzərə qarşısında silahlarını rus nəfərlərinə çevirərək top və miralyozlarla bərabər üsyançılara birləşib rusları tamamilə qırmışlar. Üsyan etmiş əhalinin başına keçən əsgərlər Şəki şəhərinə sahib olmuşlardır. Şəhər iki gün milliyyətpərvərlərin əlində qalmışdır. Şəki üzərinə göndərilən rus qüvvələri ilə döyüşdə şəhərin bir qismi tamamilə dağıdılmışdır.

## EDAMLAR, EDAMLAR

### X. Rəfibəyli

Məşhur vətənsevən Əli Əkbər Rəfibəylinin oğlu Xudadat bəy Azərbaycanın işğalı üzərinə Gəncədə vali ikən həbs olunmuş, Gəncədə zühur edən üsyan əsnasında edam edilmişdir. Fədakar bir millət adamı idi.

### General Tlexas

İşğal əsnasında Bakı vali ümumisi olan Murad Gəray Tlexas bolşeviklər tərəfindən mühakimə edilərək edama məhkum olunmuşdur. Murad Gərayın bolşevik məhkəməsi hüzurunda göstərdiyi mətanət bütün Azərbaycan xalqı arasında hörmətlə yad edilməkdədir.

### Vəsilə xanım

Azərbaycan müəllimələrindən Vəsilə xanım xocası Əhməd bəyə qarşı göstərdiyi bir əlaqədarlıq üzündən edam edilmişdir. Milli Azərbaycan ordusu zabitliyində çalışan Əhməd bəy Şəki-Zaqatala üsyanını idarə etmişdir. Üsyanın yatırılmasından sonra tutulan Əhməd bəyin mühakiməsi əsnasında edam qərarı oxunarkən məhkəmə salonunda hazır dayanan Vəsilə xanımın xocasına xitabən «qorxma!» deyə qışqırması özünün də südəmər körpəsindən ayrılaraq edam olunmağına səbəb olmuşdur.

### Dadaş Həsənzadə

İstiladan sonrakı gizli mücadilə hərəkatını idarə edən Dadaş Həsənzadə rus çekistləri tərəfindən şəhid edilmişdir.

### Bolşevik zehniyəti

Bu hadisə çoxdan xatirimdədir. Heç unuda bilmirəm…

Keçən gün tanıdıqlarımdan birinin uşağı məktəbdən evə dönməmişdi. Araşdırıb arayandan sonra məktəb uşağını «QPU» dan tapmışlar. Səbəbi həm

gülməli, həm də faciəlidir. Sən demə, uşaq düşündüyü zaman qeyri-ixtiyari olaraq tez-tez 28...28... 28... deyə qaralarmış. Bunu eşidib uşağı «müsavatçılıq» adı ilə ittiham etmişlər. Təsəvvür edirsinizmi ki, 13-14 yaşında bir uşağı...

Nədənsə bolşeviklər burada tamamilə obyektivist mühit nəzəriyyəsi tərəfdarı kəsilmişlər:

—Madam ki, - demişlər uşaq daima 28, 28, 28 deyə düşünür, demək ailəsi mütləq «müsavatçı»dır və uşaq da onların təsirində «28» demişdir.

İndi güləcəksiniz ki, nə münasibətlə? Fəqət heyrətlənmək lazım deyil. Anladıram: «QPU» belə izah etmişdir məsələni:

—28, 28, 28 May deməkdir. O da ki «müsavat» bayramıdır. Madam ki, bu uşaq «28» demişdir, demək anası, atası mütləq «müsavatçı»dır.

Yazıq atasını da «QPU»ya götürmüşlər.

Fikirləşmişlər ki, o mütləq milliyyətçi olduğunu etiraf edəcək və 28 may bayramı qeyd olunan yeri və iştirak edən adamları da söyləyəcəkdir. Ondan sonra buraxacaqlarmı—deyə soruşmaq istədim.—Xeyir,—yalnız ondan sonra o zavallını öldürəcəklər.

*Bakı, Daşdəmir.*

Məmməd Əmin Rəsulzadənin İstanbulda nəşr etdiyi «Odlu yurd» xalqının ağrılarını əks etdirən belə yazılar verirdi. «Odlu yurd» bolşevik əsarəti altında işgəncələr çəkən vətəninin qəmli səsini eşitdirirdi dünyaya. «Odlu yurd» bu məqsədə xidmət edir, bu yolda çalışırdı. Məmməd Əmin Rəsulzadə vətəni ilə əlaqəsini kəsməmiş, müəyyən vasitələrlə məktublar, xəbərlər alır, oradakı mübarizə hərəkatına istiqamətlər verirdi.

## İNTİQAM

Vətəni nahaq qanlar içində boğulurdu. Vətəni bolşeviklərin qızıl süngüsü, odlu atəşləri ilə dəlik-deşik edilirdi. Xalq istiqlaliyyətinin əldən getməyi ilə razılaşmırdı. Mövcud rejimə qarşı etiraz səsini ucaldırdı. Amma adamları haqq-nahaq gülləyə hədəf tuturdular. Bu bolşevik siyasətini o hələ çoxdan, köhnə mübarizə dostu Stalinlə ilk tanışlıqdan hiss etmişdi. Stalin o zaman terrorun əhəmiyyətindən böyük «məhəbbətlə» danışmışdı. Leninlə Stalinin aralarında olan yaxınlıq da buradan irəli gəlirdi. Hər ikisi qatı terror tərəfdarı idi. Hər ikisi terrorla nəfəs alırdı. Lenin ilk illər qanlı terroru həyata keçirməyə həmişə Stalini göndərirdi. Stalin onun tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirirdi. Sonra zaman dəyişdi. Stalin hakimiyyəti ələ keçirdi. Və indi vaxtilə ona Moskvada dediyi ideyasını—«xalqı kütləvi qırmaq» istəyini həyata keçirir.

Düşünürdü Məmməd Əmin Rəsulzadə, acı-acı düşünürdü. Düşünürdü ki, Stalinin bütün sovetlər birliyində davam etdirdiyi qanlı terror hərəkatından Azərbaycan daha çox əziyyət çəkir. Ona görə ki, Azərbaycanın öz içərisində də Stalinlər çoxdur. Bir yandan Moskvadakı köhnə tanışı Stalin, digər tərəfdən xalqın

içərisində olan və onun həmişə nifrət etdiyi Stalinlər. Kim idi bu Stalinlər? Bağırovlar... Xalqının başını «Osobı otdel»lərin, «Çeka»ların cəllad kötüyündə kəsən bu qəddar canilər Moskvadakı Stalindən min qat qorxulu və dəhşətli idilər. Azərilərin başı üzərində kinli «Stalinlər» də qılınc oynadırdı—bu, ermənilər idi. Xalqın günahsız oğullarını ermənilər istintaq edir, sorğu-suala çəkir, sonra da güllələyirdilər. Ermənilər bic və hiyləgər idilər. Özlərini rusların gözünə soxa bilirdilər. Sovet hökumətinin müdafiəçisi adı ilə Bakıya doldurulan ermənilər əslində Azəri türklərindən qisaslarını alırdılar.

Şimalın soyuq buzlarında «müsavatçı»ları işgəncəli ölümə məhkum edirdilər. Müsavatçılar aclıq edir, etirazlarını bildirirdilər. Amma bu günahsızları eşidən kim idi? Solovki dəhşətlərini görənlərdən təsadüfən sağ qalıb Türkiyəyə gəlib çıxanlar da olmuşdu. Ona müsavatçıların cəsarətindən, dözümündən danışırdılar. Düşərgədəkilər heyrət edirmiş müsavatçıların qeyrətinə. Əlli iki günə kimi aclıq edənlər olub müsavatçılardan. Müsavatçıları at yerinə işlədib, arabaya qoşurmuşlar, gecəli-gündüzlü soyuq meşələrdə işgəncələrə məruz qoyurmuşlar. Amma dözüb dayanırmışlar, etirazlarını çörəksiz, susuz qalmaqla bildirirmişlər müsavatçılar.

Onun yaratdığı və indinin özündə belə əlaqəsini kəsmədiyi «müsavat»ın adı ilə yüzlərlə yurddaşını soyuq şimal sürgünündə dəhşətlərə məruz qoyurdular. «Müsavatçı»ların hünər və qeyrətindən eşitdiyi söhbətlər onu həm ağrıdır, həm da qədbini coşdururdu. Yox, yurddaşlarım unutmayıb o ötən günü. O ötən günün istiqlaliyyət şəfəqi hələ onların ürəyindədir. Bu şəfəqi ürəklərdə boğub məhv etmək olmaz. Bu azadlıq şəfəqidir. Bu xalqın hür düşüncəsi, hür amalıdır. Hürriyyət alovunu görəni qaranlıq zülmətdə boyun əyib yaşamağa məcbur etmək olarmı? Bu mümkündürmü? O insan daima, hər zaman üstünə çökmüş qaranlığı, ürəyinin odu ilə əridib hürriyyət günəşinə boylanacaq. Çünki ona yaşamaq gücü verən həmin o günəşdir. İndi müsavatçılar uzaq Sibir cəhənnəmində o günəşə boylanır. Günlərlə ac qalıb əzab çəkir, amma boyun əyib yaşamağa razı olmurlar. Onlara sürünə-sürünə yaşamaq yox, hürriyyət günəşinin istisi gərəkdir. Onların vətənini qızıla, gümüşə də boyasalar, müsavatçılar bu gözqamaşdırıcı yaşayışı qəbul etməyəcəklər. Onlara qızıl, gümüş yox, azad və əsarətdən uzaq olan Vətən gərəkdir. O vətəni görüb yaşayıb müsavatçılar. O Vətəni özləri qurmuşdu. Özləri xoşbəxtlik işığı ilə nurlandırmışdı. Azad vətəni gəlib işğal edənlər indi hansı əsasla onları «müstəqilliyə» inandıra bilər. Əlli iki gündür acdır müsavatçılar. Bakıda xalqa çatdırılıb bu məlumat.

Dözün müsavatçılar, dözün. Bu şücaət və yurda sədaqətinizi xalq unutmayacaq. Xalqın indi qaranlıq qəfəsə salınmış ürəyində yaşayırsınız. Gün gələcək ki, o qəfəsin qapılarını açıb dustaq ürəkləri azadlığa buraxacaqlar. Məhbəsdən azadlığa buraxılan o işıqlı ürəklər ilkin olaraq qanadlanıb sizin yanınıza uçacaqlar. Şimalın buzları arasında donub daşlaşmış məzarlarınızı qucaqlayıb öpəcək, acı göz yaşları tökəcəklər. İnanın bu həqiqətə müsavatçılar,

inanın. İnanın ki, elə də olacaq. Bu azad bayrağımızı bir dəfə xalqın başı üzərində dalğalandırdıq. Onun nəyə qadir olduğunu bütün dünyaya sübut etdik. O bayrağı yenə xalqın başı üzərinə qaldıracağıq. «Müsavatçı» adından bolşeviklər qorxur, tir-tir əsirlər. Niyə? Nədən ötrü? Çünki müsavatçı azad və milli hökumətimizi qurmaq istəyir. Çünki müsavatçı rusun və erməninin hökmü ilə idarə olunan bir quruluşa boyun əymir. Döz, döz bu işgəncələrə, müsavatçı! Gün gələcək ki, o əzablardan inildəyən ruhun şad olacaq. Sənin halına, işgəncələrinə ağrıyırıq. Əslində hamımız eyni gündəyik. Yurdu, vətəni işğal olunan, elindən, obasından uzaq düşən adamın halı necə olar? Hamımız, hamımız ağrı içindəyik. Vətənimiz yanır, alovlanır qəzəb və kindən. Vətənimizdə indi dünyaya yenicə göz açan körpə də intiqam deyir. Çünki dünyaya gələn körpəyə ana südü verərlər, bolşevik süngüsü yox. Dağılır evlərimiz, xaraba qalır şəhərlərimiz, kəndlərimiz. Amma xalq susmur, sinəsini atılan güllələrə hədəf tutub istiqlaliyyəti yolunda vuruşur. Bolşeviklər bacarmır onlarla. Çünki hər zaman özlərinə qarşı kin, nifrət hiss edirlər. Belə vəziyyətdə onlar çox davam gətirə bilməzlər. Döz o ağrılara müsavatçı, döz. Ağrılarına son qoyulan gün mütləq gələcək!

Məmməd Əmin Rəsulzadə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla, onların yaratdığı təşkilatlarla sıx əlaqə saxlayırdı. Bu təşkilatların da başlıca vəzifəsi Azərbaycana yenidən azadlıq haqqı vermək idi. Azərbaycan Demokratik Respublikasının səlahiyyətli nümayəndəsi olan Əli Mərdan bəy Topçubaşov hələ 1920-ci ilin sentyabrında Millətlər Cəmiyyətinə Azərbaycanın işğal olunması məlumatını çatdırsa da bir faydası olmamışdı. Sonradan Məmməd Əmin Rəsulzadə ilə birlikdə mühacirətə çıxan, amma ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar dəfələrlə Millətlər Cəmiyyətinə müraciət edib kömək istəmişlər. Budur, Məmməd Əmin Rəsulzadənin Baş redaktoru olduğu «Odlu yurd» jurnalı azərbaycanlıların Millətlər Cəmiyyətinə müraciətini dərc edib:

«Azərbaycanın Millətlər Cəmiyyətinə müraciəti.

Parisdə məhkum Azərbaycan Cümhuriyyəti heyəti tərəfindən millətlər cəmiyyəsi rəisliyinə sentyabrın 8-də aşağıdakı bəyanatla müraciət edilmişdir.

Millətlər Cəmiyyəti məclisi rəisinə:

..Azərbaycan milləti böyük məclisin məsaisini məmnuniyyətlə salamlar və millətlər cəmiyyətinin xidmətinin təhəqqüqü ilə bütün bəşəriyyətə səadət gəlməsi ümidini izhar edər.

Fəqət, eyni zamanda Cenevrədə birləşmiş olan millətlər təmsilçilərinə müraciət edərək Azərbaycan xalqının məruz qaldığı ələm və nəqabilə nəzəri diqqətinizi cəlb etmək istəyirik.

Parlamentin səlahiyyətdar rəyi ilə və arayi-ümumiyyə əsası üzərinə 1918-ci il 28 mayda elan olunan Azərbaycan Demokratik Cümhuriyyəti iki il müddətində hakim və müstəqil bir hökumət halında yaşamış və 1919-cu ildə müttəfiqlər məclisi alisincə, digər millətlər tərəfindən tanınmışdır. Azərbaycan milləti daxili hərbin bütün Rusiyada hakim olduğu o dövrdə müstəqil və sərbəst hökumət

həyatını tənzimə müvəffəq olmuş və müstəqil bir dövlət halında yaşamaq istedadını isbata müvəffəq olmuşdur.

Fəqət 1920-ci ilin aprelində rus bolşevikləri Azərbaycanı istila etdilər və qeyri-bərabər hərbdən sonra qızıl ordu məmləkəti əsgəri işğalı altına aldı. Azərbaycan bu qayda ilə sosialist sovet şuralar ittihadına cəbrən birləşdirilmiş oldu. Bu işğalı kütlə-kütlə edamlar təqib etdi və o vaxtdan bəri Azərbaycan rus bolşeviklərinin təsiri altındadır... O vaxtdan bəri Azərbaycanda üsyanlar davam edir; çünki Azərbaycan milləti hürriyyətini təkrar istibdada və əcnəbi müstəbidlərin boyunduruğundan qurtulmağa qətiyyən əzm etmişdir. Bu üsyanlar hər dəfə Moskva idarə məmurları tərəfindən əllərindəki qızıl ordu qüvvətləri sayəsində görülməmiş bir qəddarlıqla dəf edilmiş və bu surətlə bolşeviklər ilahi və bəşəri bütün haqlar xilafına olaraq Azərbaycan millətini əsarət altında saxlamaqdadırlar.

Millətlərin həyatını sülhü ədalət əsasları üzərinə sırf yaşamaq və sərbəstcə inkişaf etmək üçün müğadilə aparan kiçik Azərbaycan millətinin çəkdiyi ələmə qarşı laqeyd qalacağınızı zənn etmirik.

Millətlər Cəmiyyətinin nəzəri diqqətinin dünyanın bu guşəsinə yönələcəyinə və ali məclisin Azərbaycan millətinə və onun haqlı tələbatına mənəvi himayəsini göstərəcəyinə ümid edirik...

**Azərbaycan heyət rəisi vəkili:**
**Mir Yaqub.**
**Ümumi katib:**
**Abbas Atam Əlibəyli**

## DUSTAQ VƏTƏN

Vətən bolşeviklərin zülmü altında inildəyib əzab çəkirdi. Vətənin qara rəngli torpağı övladlarının axıdılan qanından boyanıb qırmızıya dönmüşdü. Vətəndə onun adını çəkmək, «müsavatçı» sözünü işlətmək bolşevik gülləsini dinməzcə köksə qəbul etmək demək idi. Vətəndə bolşeviklər onu və ilhamçısı «müsavat»ı qorxunc əjdaha kimi təbliğ edirdilər. Xalq həqiqəti bilirdi, amma qanlı terror, edamlar çoxlarını susmağa məcbur etmişdi.

1926-cı ildə dustaq vətəndə qoca atası axund Hacı Əli Əkbər rəhmətə gedəndə şəhərə çoxlu adam toplaşmışdı. Camaatın iğtişaş qoparacağından qorxub adamları dağıtmışdılar. Bakı camaatı arasında böyük hörmət sahibi olan atasını Novxanı qəbiristanlığında dəfn etmişdilər. Acı xəbərə ağrımış, içərisi ağlamışdı. Kim bilir, son hadisələr baş verməsəydi, oğlu elindən, obasından didərgin düşməsəydi, yazıq axund hələ neçə il ömür sürərdi? Düz altı il idi ki, oğlunun adına min bir böhtan, təhqir deyilən həyatda axund uzun ömür sürə bilərdimi? Oğlu kimə neyləmişdi? Kimə pisliyi keçmişdi? Günahı nə idi? O ki, xalqı azadlığa çıxarmışdı, adamlara ki, yaxşılıq etmişdi! Budurmu insanlığa edilən yaxşılığın savabı. Yox, axund hadisələri gözəl başa düşürdü. Xalqın, camaatın sevimli oğlunu

necə istədiyini bilirdi. Bəlkə də oğulsuz yaşadığı ömrünün son altı ilində yeganə təsəllisi bu idi. Amma yazıq axund ömrünün sonlarında əzab çəkdi. Çarpayıda uzanıb sakitcə gözlərini divara zillədi. Ürəyindən çox keçdi ki, kaş indi bu zülmət qapısı açıla və sevimli oğlu içəri girib yanında əyləşə, sonra da əlini atasının gözünə qoya və axund həyatdan rahat köçə. Amma bunların heç birisi olmurdu və hər dəfə qapı açılanda axund intizarla qapıya boylanır, orda sevimli nəvələrini— Rəsulu, Azəri, Xalidəni görürdü. Axund oğul həsrəti ilə həyata göz yumdu. Axund dünyadan narazı və nigaran getdi. Axund bolşeviklərə nifrət edib getdi dünyadan. Bolşeviklər onun xalqını qırmış, azadlığını əlindən almış, sevimli oğlunu yurdundan didərgin salmışdılar.

...Bolşeviklər «müstəqil şura Azərbaycanı» pərdəsinə bürünüb qətlləri, edamları günü-gündən artırırdılar. Azərbaycan qan içində boğulurdu.

Bolşeviklər qəzetlərdə «müsavatçı»lara böhtanlar yaxırdılar:

«Müsavat» partiyasının fəaliyyəti nəticəsində Azərbaycanda proletar inqilabı Rusiyaya nisbətlə 2,5 il gecikmişdir».

Azərbaycanlı bolşeviklər Azərbaycan hökumətinin keçmiş başçısını, varlığı ilə onları həmişə qorxuda saxlayan Məmməd Əmin Rəsulzadəni də «unutmurdular»:

«Bu suallar çox lazımlıdır, çünki hazırda müsavatçılar başda liderləri Məmməd Əmin Rəsulzadə olmaqla İstanbulun bütün küçələrində qışqırırlar ki, guya Azərbaycanın həqiqi müstəqilliyinin müdafiəçisi olublar və hələ çar dövründən bu ideyanı irəli sürüblər».

## 28 MAY – İSTİQLAL GÜNÜDÜR.

Bu gün bayram günüdür. Azərbaycanın istiqlaliyyət elan etməyinin on bir illiyi tamam olur. Düz on bir il əvvəl o, indi həyatdan köçmüş çoxlu dostları ilə fikir birliyinə gəlib Azərbaycanın müstəqilliyini elan etdi. O zaman 1918-ci il mayın 28-i idi. İndi isə 1929-cu il mayın 28-dir. Rəqəmləri tutuşdurub qəribə hisslər keçirdi. Elə bir hər şey dünən olmuşdu. Bu on bir ilin zaman məsafəsini düşündü. Bu on bir ildə ölən, itən, işgəncələr çəkən bir idimi, iki idimi? Düşündü ki, bəlkə də 28 may olmasa idi, heç bu qədər qan tökülməzdi. 28 mayın elan edilməyi ilə xalq azad yaşaya biləcəyinə inandı. Milli ordusunu yaratdı, sərvətinin sahibi oldu. Bu inamı görəndən sonra xalq torpağının özgələr tərəfindən işğalı ilə razılaşmadı. Amma, yox, 28 may günahkar deyil. O sadəcə olaraq Azəri türkünə azad yaşamaq haqqını başa salmışdı. Nahaqdan, çox nahaqdan o istiqlal gününə indi şər atırlar.

İstanbulun daş küçələri ilə gedirdi. Gedirdi ki, yurddaşları ilə birlikdə Azərbaycanın milli bayramı olan 28 mayı bayram etsin. Azad hökuməti quranlardan kim qalmışdı ki? Nəsib bəy faciəli surətdə öldürülmüş, Fətəli xan, Həsən bəy Tiflisdə xain ermənilərin gülləsi ilə qətlə yetirilmişdi. Amma onların və

minlərlə bu yolda şəhid olmuş Azərilərin ruhunu şad etmək lazım idi. 28 mayın odunu külə döndərmək olmaz. Qoy bu od İstanbulda alovlanıb bütün cahana işıq saçsın. Elə bir işıq ki, onun şəfəqini Azərbaycanı qan dənizində boğan bolşeviklər də görsün. Bilsinlər ki, o istiqlal gününü qanlı terrorla boğa bilməzlər. O gün ürəklərdə, Azərilərin içəri dünyasında yaşayır.

Bu da şəfəq küçəsi 60. «Odlu yurd»un yerləşdiyi bina. Məhz burada mühacirətdə yaşayan azərbaycanlılar «28 may» bayramını qeyd edəcəkdilər. Azərbaycanlılardan başqa türküstanlı, qafqasiyalı və ukraynalı qonaqlar da bayrama dəvət olunmuşdular.

Əvvəlcə Azərbaycan istiqlal marşını oxudular. Gözlərdə yaş, ürəklərdə qürbət elin həsrəti bu azadlıq nəğməsinə büründülər. Sonra ona - Azərbaycan milli şurasının rəisi Məmməd Əmin Rəsulzadəyə söz verdilər.

Əvvəlcə bütün toplaşanları milli bayram münasibətilə təbrik etdi. Sonra dəvət olunmuş qonaqlara təşəkkürünü bildirdi. Sonra 28 mayın yalnız mühacirətdə olan Azərilərin deyilən, eyni zamanda qızıl rus rejiminə qarşı hazırda mübarizə aparan yurddaşların da qəlbində əziz bir gün kimi yaşadığını dedi.

Çıxışında beynəlxalq siyasi vəziyyəti təhlil edib Rusiya daxilindəki iqtisadi və siyasi böhranlardan danışdı. Şərq ölkələrinin böyük rəhbəri olan qardaş Türkiyə cümhuriyyətini salamlayıb dedi:

«Qəhrəman Türkiyənin nail olduğu istiqlal şərəfi eyni yoldan gedən bizlərə da müqəddərdir, 28 may bu vəd olunmuş günü bizə bütün parlaqlığı ilə xatırladan böyük bir gündür! Bu günün mislində hür və məsud vətəndə yaşadığımız parlaq istiqlal anlarını nəzərimizdə canladaraq ondan aldığımız ilham ilə hər türlü fədakarlığa hazır olaraq istiqlala böyük bir əzm və ümidlə yürüyəlim... Yaşasın istiqlal!» (Alqışlar).

Nitqinin sonunda neçə illər idi ki, həmişə sadiq qaldığı bir ənənəni də unutmadı. Xahiş etdi ki, hamı ayağa qalxıb istiqlal şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etsin. Hamı ayağa qalxıb azadlıq münəvvərlərinin xatirəsinə böyük ehtiramlarını bildirdilər.

Bayramın açılışından sonra gənclər tərəfindən hazırlanan üç rəngli milli Azərbaycan bayrağının Məmməd Əmin Rəsulzadəyə təqdim mərasimi oldu. Bu mərasim olduqca həyəcanlı keçdi. Dilşad xanım köksü üzərində sərili tutduğu üçrəngli bayrağı Rəyasət kürsüsünə tərəf aparırdı. Sürəyya xanım da onun arxasınca gedirdi. Bayrağın Məmməd Əmin Rəsulzadəyə verilməsi anında Sürəyya xanım çox həyəcanlı, hamının gözünü yaşardan sözlər söylədi:

— Möhtərəm Emin bəy!

Bu gün Azərbaycan tarixinin qaranlıq könüllərə istiqlal nurunu səpən, təmiz vicdanlara qurtulmaq inamını təlqin edən ən xoş səhifələrindən biridir.

Azəri gənci bu müqəddəs günün yüksəldiyini bütün qəlbi ilə yaşayır. Xain düşmən tam sinəmizdən vurdusa da, istiqlal üçün çırpan ürəklərimizi susdurammadı və susdura bilməz. Bu gün bütün gənclik bir müztərib qəlb kimi

çırpınaraq intiqam gözləyir. Onun yeganə qayəsi vətənimizi o qızıl pəncədən qurtarmaq, onu yenidən müstəqil yaşatmaqdır...

O zaman biz də bütün cahana qışqıracağıq ki:

— Azərbaycan yalnız və yalnız Azərilərindir!

Yaşasın müstəqil Azərbaycanımız!»

Bu həyəcanlı sözlərə dözə bilmirdi. Yox, göz yaşı tökmürdü. Eləcə ağlayırdı. İçəridə, qəlbinin dərinliyində, xəlvəti bir yerində ağlayırdı. İstəmirdi göz yaşını görsünlər. Bu adamları yaşadan onun inamı, möhkəmliyi idi. Göz yaşı ümidsizliyə salardı onları. İçərisi ağlaya-ağlaya, gözlərində qəribə həyəcan dolaşa-dolaşa Dilşad xanımdan üç rəngli ipək bayrağı aldı, şiddətli alqış sədaları altında dedi:

«İstiqlalımızla bərabər olaraq yaşadığımız məsud gündə «bir dəfə yüksələn istiqlal bayrağı bir daha enməz» demişdim. İstiqlalımızın uğradığı müvəqqəti infisalı əbədi inkişaf şəklində görən düşmən bu şüarı istihfafla qarşılayır. Sürəyya xanımın istiqlalçı Azərbaycan gəncliyi adından bu ruhları tutuşduran müqəddəs həyəcanla gətirdiyi bu bayraq onlara verilmiş ən müşküt bir cavabdır. Əvət vətəndaşlar, əvət ey vətənin idealist gəncliyi, bayrağımız enməmiş, o inamlı Azəri gəncliyinin əlindədir. Çox çəkməz o əl onu təkrar Azərbaycan üfüqlərində ehtizaz etdirər. Yaşa şanlı bayrağınla, ey Azərbaycan gəncliyi!»

Sonra söz qonaqlara verildi. Onlar da alovlu sözlər deyib Azəriləri istiqlal bayramı münasibəti ilə təbrik etdilər.

İndi də söz qətiyyətli «müsavat»çı Mirzə Balaya verilir. Mirzə Bala Məmməd Əmin Rəsulzadənin və «Odlu yurdu»un ünvanına göndərilən teleqramları oxuyur. Parisdən, Varşavadan, Trabzondan, Rəştdən, Berlindən, Tehrandan azərbaycanlı mühacirlər çoxlu təbrik teleqramları göndəriblər.

## TƏBRİK TELEQRAMLARI

**Paris** — İstiqlal gününüzü təbrik edir və ürəkdən salamlayıram.

*Mir Yaqub Əkbər Ağa*

**Varşava** — Tarixi günümüzü təbrik edir və istiqlal mücahidlərinə candan salamlar yollayıram.

*Mustafa*

**Ankara** — 28 may bayramı münasibəti ilə Sibiriyalarda çürüyən və Azərbaycan dağlarında qan axıdan qəhrəman mücahidlərimizə atəşin təbrik və müvəffəqiyyətlər.

*Bayqara.*

**Berlin** — Almaniyada yaşayan azərbaycanlılar 28 may gününü bütün vətəndaşlara arzulayır.

*Almaniyada Azərbaycan İstiqlal Komitəsi.*

Təntənəli bayramın sonunda Məmməd Əmin Rəsulzadə toplaşanlara təşəkkürünü bildirəndən sonra onları mayın 30-da keçiriləcək milli Azərbaycan gecəsinə dəvət edir.

İstanbul. 1929-cu il, 30 may. Milli Azərbaycan gecəsi.

«Birləşmiş fransız» salonunda «Odlu yurd» məcmuəsinin təşəbbüsü Məmməd Əmin Rəsulzadənin müdirliyi ilə təntənəli bir surətdə «Milli Azərbaycan gecəsi» keçirilirdi.

Yurdundan, vətənindən ayrı düşmüş Azərilər gecəyə gəlirdilər. Gələn tək onlar deyildi. Türkiyə türklərindən, İstanbulda yaşayan ukraynalı və dağıstanlılardan, türküstanlı və kazanlılardan ibarət mühacirlər də buraya dəvət olunmuşdular.

Gələn qonaqları Azəri gəncləri qarşılayır, qapı ağzında duran Azəri qızlarından ibarət olan bir heyət gələnlərin köksünə göy, qırmızı və yaşıl rəngli milli Azərbaycan bayrağını göstərən bir nişan taxır, Azərbaycanın gerbini və gecənin proqramını təqdim edirlər.

Gecədə 600-ə yaxın qonaq iştirak edir. Çoxları yer olmadığından ayaq üstə dayanıb.

Saat doqquz tamamda pərdə açılır və Türkiyə ilə Azərbaycan Demokratik Respublikasının qoşa bayraqları görünəndə hamı əl çalıb alqışlamağa başlayır. Şiddətlə alqışlanan türk «istiqlal marş»ından sonra otuz nəfərdən ibarət qızlı-kişili «Azərbaycan istiqlal marşı»nı oxudular. Salondakılar səmimiyyət və həyəcanla qarşıladılar bu marşı.

Marşlardan sonra səhnəyə göy, qırmızı və yaşıl rəngli paltar geymiş qızlar—Süheyla, Gültəkin və Məlahət çıxdılar, gələn qonaqlara xoş gəldin etdilər.

Sürəyya xanım Azərbaycan istiqlalı və mücadiləsini təsvir edən alleqorik bir məsəl söylədi və hamı tərəfindən bəyənildi. Xalid bəy Gültəkinin «Anama» şerini ifa etdi.

Bu qərib mühacirlərin fəryadı, nalə səsi gedib çatırdımı anaya? Ananı dustaq vətəndə terrorçu bolşeviklər rahat buraxırdılarmı! Qoyurdularmı ki, yazıq ana heç olmasa balasının dərdini dinləsin! Ana dustaq vətəndə inildəyib şikayətlənirdi, bala isə qürbət ellərdə. Bolşeviklərin, qanlı şura hökumətinin insanlara verdiyi pay bu idi. Bu qanlı rejim özünün sərt, insaniyyətdən uzaq siyasətinə hələ sadiq idi. Nə idi bu siyasət? Ananı baladan ayırmaq, qardaşı bacının gözü qarşısında güllələmək, ixtiyar qocanı cavan yanında söyüb təhqir etmək, gecələr dinc əhalinin evinə girib oğurluq etmək, varını, dövlətini tutub almaq. Bu idi bolşeviklərin Azərbaycana gətirdikləri yaşayış tərzi.

...Salondakılar bu qəmli şerin sədası altında hıçqırır, ötənləri xatırlayır, ana nəfəsindən uzaqlığın acısına göynəyirdilər.

Şerdən sonra Gültəkin, Süheyla və Məlahət xanımlar «bayrağa dua» rəqsini ifa etdilər. Rəxşəndə xanım «Bayrağım və istiqlalım» şerini ifa etdi. Dilşad xanımla Fəxriyyə xanım bayraqla rəqs edərək Əli ustanın «Vətən həsrəti» adlı

şerini söylədilər və bu hamının xoşuna gəldiyindən bir də təkrar etdilər. Sonra Məmməd Fərzəli bəy segah oxudu. Balaca Əli ilə balaca Gültəkin «Mustafa Kamal rəqsi»ni oynadılar. Rəqs zamanı, Dilşad xanımın «Buzlu cəhənnəm»dən bir parça oxuması da çox həyəcanlı qarşılandı. Bu həm də şimalın soyuqlarında işgəncələrlə həyata göz yuman «müsavatçılar»ın əziz ruhuna bir hörmət əlaməti idi.

Dilşad xanımdan sonra Həmzə bəy tütəkdə son dərəcə gözəl bir Azəri Havası çaldı. Dilşad xanım pianoda «Azərbaycan» rəqsini çaldı və Həsən bəy oynadı. Sonra Həsən bəy və Rəhim bəy «Şamilin duası» rəqsini ifa etdilər.

Təntənəli gecə saat üçə kimi davam etdi. Gecə bitəndən sonra hamı bir-bir Məmməd Əmin Rəsulzadəyə yanaşır, Azərbaycanı yaşadan bir bayram keçirdiyinə görə minnətdarlıqlarını bildirirdilər.

Gecədən qəribə hisslərlə ayrıldı. İçərisində bu günə kimi çətinliklə qoruyub saxladığı vətən həsrəti indi göynəyir, getdikcə onu haldan salırdı. Vətən yadlar əlində idi. Qoymadılar, qoymadılar xalqı yaşadaq, bir ağ günə çıxaraq. Axı hər şeyi xalq üçün edirdik. Heç cürə anlamadılar, başa düşmədilər bizi. Gəlib yurdumuzu viran qoydular. Evlərimizdən çıxan tüstünü kəsdilər, ocağımızı söndürdülər. Nədir bu adamların günahı? Salona diqqət edirdim. Azərbaycan sözü eşidilən kimi hamısı acı göz yaşı tökürdü. Belə adamlar niyə vətənlərindən qovulmalı, didərgin düşməlidir? Amma bu adamları yaşatmaq lazımdır. Onların sabaha inam hissini öldürmək olmaz. Hərdən belə təntənəli axşamlar keçirib onlardakı həyat eşqini söndürməməliyik. Bu xalq yaşamalı, iztirablara dözüb dayanmalı, vətən qapılarının tezliklə açılacağına inanmalıdır. Bilməlidir ki, Vətənimiz Azərbaycanın başı üzərindən əsarət və müstəmləkəçilik buludu tezliklə çəkilib gedəcək, xalqımız yenə istiqlaliyyət bayrağını ucalara qaldıracaq!

...Ən çətin anlarda belə inamını itirmirdi. Heyrət ediləcək dərəcədə inamı, çətinliyə dözmək bacarığı vardı. İçərisində nə qədər ağrılar gəzib dolaşsa da, adamlarla danışanda hər şeyi unudur, böyük inam və qüvvət mənbəyinə çevrilirdi. Adamlar onun yanına Azərbaycandan bir xəbər öyrənməklə yanaşı güc, qüvvət də almağa gəlirdilər. Bir kəlmə sözü ilə tanışlarının, yurddaşlarının sınan ümidini birləşdirir, uzun ömür verib yaşadırdı. Mehriban, həlim xasiyyəti vardı. Onunla söhbətdən adamlar məmnun qalırdılar. Heç zaman kənar söhbətlər etməz, kiminsə haqqında danışmazdı. Belə şeyləri sevmir, nifrət edirdi. Onun yalnız bir söhbəti vardı: Azərbaycan. Həmişə bu söhbəti etməyi xoşlayardı. Həyatdan, adamlardan heç nə istəmirdi. Onun istədiyi Azərbaycan idi. O öz Azərbaycanını istəyirdi. Və o işıqlı günə —sevimli vətənini yadlar əlindən alacağına inanırdı. Elə onu yaşadan, ürəyinə təpər olan bu inam idi. Zaman keçdikcə gözlərinə dərin kədər pərdəsi çökürdü. Bu onun içəri ağrısı idi, Vətəninin həsrəti idi. Sevimli uşaqlarından ötrü ürəyinin başı göynəyirdi. Sevimli oğlanları Rəsulu, Azəri, istəkli qızları Lətifəni, Xalidəni necə də görmək istəyirdi! Amma bu istəyini, həsrətini kimsənin yanında danışmazdı. O istəmirdi ki, yurddaşları onu ağlayan, acıyan, ah-uf edən görsünlər.

Bu onlara da təsir edər, düşkünlük yaradardı. Bu qürbət eldə yaşayanlar ümidlərini ona bağlamışdılar. O isə dözüb dayanırdı. Heç zaman ağır şəraitin quluna çevrilmirdi. Mütləq bir çıxış yolu axtarıb tapırdı.

Vətənindən isə ölüm nəfəsli xəbərlər göndərilirdi ona. Adamları güllələyir, günahsızcasına qətlə yetirirdilər.

...Onun özünü isə çətin bir sınaq gözləyirdi. Xain əllər indi ona sarı uzanırdı. Çoxdan idi ki, dünyaya car çəkdiyi istiqlal səsini boğmağa çalışırdılar. İndi deyəsən o məqam gəlib çatmışdı, istəklərinə yetişirdilər.

## ATATÜRK NARAZIDIR

Yox, o heç zaman türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkdən narazılıq etməyəcəkdi. Heç zaman onun haqqında xeyirxahlıq və səmimiyyətdən başqa bir söz deməyəcəkdi. Ölkədən çıxıb getməyini tələb etdiyinə görə də Atatürkə olan hörmət və səmimiyyətini itirməyəcəkdi. Dövrün, şəraitin belə olduğunu biləcəkdi. O, xırda hisslərlə yaşayan adam deyildi, onu böyük işlər, ən başlıcası isə Azərbaycanın taleyi maraqlandırırdı.

Türkiyədə vətənini müdafiə etməsi, məcmuələr çıxarıb bütün dünyaya səs salması köhnə mübarizə dostunu, indi vətənini əsarətdə saxlayan Stalini, bolşeviklər hökumətini narahat edirdi. Getdikcə cəsarətli oğullarını qırıb, xalqı öz rejimlərinə tabe etdirdikləri Azərbaycanda Məmməd Əmin Rəsulzadənin səsi yenə eşidilirdi. Bu səs onları qıcıqlandırır, yerindən edirdi. Bu səsdən qorxur, həyəcan keçirirdilər. Bu səsin ən yumşaq eşidilməsi xalqı üsyana, azadlıq mübarizəsinə çağırış idi. Bu səsi boğmaq, kəsmək lazım idi. Bu səs boğulsa, Azərbaycandan ötrü narahatlıq keçirməyə dəyməzdi.

Budur, belə imkan yaranıb. 1931-ci ildə Türkiyə ilə Sovetlər Birliyi arasında imzalanan dostluq müqaviləsinin gizli bir bəndi də bundan ibarət idi: Türkiyədəki mühacirlər ölkədən çıxarılsın, sovet hökuməti əleyhinə təbliğat işi aparmasınlar.

Atatürkün xəbərini çatdırmışdılar ona. Başqa yol yox idi. Türkiyədən çıxmalı idi. Türkiyəni belə bir addım atmağa məcbur edən səbəbləri başa düşürdü. Dövrün, şəraitin mürəkkəbliyi Türkiyəni Sovetlər Birliyi ilə yaxınlığa məcbur edirdi. Bu yaxınlıq heç də Atatürkün Rusiyaya, yaxud kommunist rejiminə məhəbbətindən irəli gəlmirdi. Yox, Atatürk kommunist rejiminə nifrət edirdi. O həmişə türk və milliyyətçi olmağın tərəfində dayanırdı. O, türk şərəfi və heysiyyətini hər şeydən yüksək tuturdu. Bir dəfə Ankaradakı rus elçiliyindəki görüşdə Rusiyanın baş elçisi Qaraxan Türkiyə əleyhinə bəzi sözlər danışmışdı. Atatürk sovet diktatoru Stalini hədəfə alaraq Qaraxana ağır ittihamlar demişdi.

Bəli, Atatürk milliyyətçi idi və kommunizmə nifrət edirdi. O deyirdi:

«Burası unudulmamalıdır ki, türk aləminin ən böyük düşməni kommunistlikdir. Hər görüldüyü yerdə əzilməli!»

Atatürk onun və yurddaşlarının Türkiyədən çıxıb getməyini tələb edirdi. Və getməkdən başqa bir çıxış yolu yox idi.

...Amma o incimirdi Atatürkdən. Atatürk haqqında həmişə məhəbbətlə danışırdı. Sonradan yazacağı bir məqalədə isə Atatürk haqqında bu sözləri deyəcək, onu «qurtulan şərqin simvolu» adlandıracaqdı:

«XX əsrin şərqi, XIX əsr qərb tarixinin qeyd etdiyi Amerika ihtilalı ilə fransız inqilabını bir həmlədə yapmaq zərurətindədir. Mustafa Kamalın böyüklüyü, işdə tarixin bu zərurətini qavrayışındadır. Bu şömüllü dahisi ilə türk milliyyətçiliyinin şanlı başbuğu, eyni zamanda qurtulan şərqin simvoludur!».

Türkiyədən ayrılırdılar. Türkün ikinci bir qapısı üzlərinə bağlanırdı. Birincisini bolşeviklər zorla, süngü gücü ilə bağlamışdılar. İkincisini isə bicliklə, siyasətlə, başqasının əli ilə qapayırdılar.

Türkiyənin həmişə doğmalıq gördükləri torpağından ayrıldılar. Başı müsibətlər çəkmiş müsavatçılarla birlikdə o və əmisi oğlu Məmməd Əli tozlu-torpaqlı yolla üz tutub qərib ölkələrə gedirdilər. Hamısı düşkün, fikirli, xəyallı. Hamısı taleyin bu acı hökmünə içəridə ağrıyırdılar. Vətəndən qovulmuş müsavatçılar sonu, bucağı görünməyən qara bir yolla baş alıb gedirdilər.

İstiqlal yolçuları! Yurdundan, obasından qovulmuş zavallılar, bu nə haldır düşmüsünüz? Nakam Azərilər, hara belə gedirsiniz? Sizi hər yerdən qovurlar, yaşamaq haqqınızı əlinizdən alırlar! Hara, hara gedirsiniz? Vətəninizi al qan içində, oğullarınızı başı kəsilən vəziyyətdə qoyub hara gedirsiniz? Siz ki, haqqınız, azadlığınız yolunda çalışırsınız. Demək, haqqını tələb etmək azəri türkünə qadağan olunub. Qəribə məntiqdir!

Türkiyədən çıxanda xoşagəlməz hadisə baş verdi. Onların hamısına Trakiyadan çıxıb getməyə icazə verdikləri halda, əmisi oğlu Məmməd Əlini Suriyadan çıxarmaq istədilər. Nəhayət, onu da dostlarından ayırmadılar.

Hər ikisi bir-birinə bağlanmışdı. Hər iki əmioğlunun bir yaşayış amalı vardı – Azərbaycanı azad etmək! Elə bu istək onları bir-birinə daha da qırılmaz tellərlə bağlayırdı.

***

Berlində kəsilməyən səs: «İstiqlal». O öz mübarizəsini davam etdirirdi. Azəri türklərinin yanıq ürəklərinə yenə ümid toxumu səpirdi. Almaniyada yeni bir qəzeti çapa hazırlayırdı. Bu qəzet əsarət altına alınmış azərbaycanlıların ağrısını, tapdanan hüquqlarını geniş kütlələrə çatdırmalıydı.

«İstiqlal» qəzeti, 1932-ci il, 10 yanvar. Bu gün Almaniyada yaşayan azərbaycanlılar doğma vətənlərinin qürbət eldə ucalan səsini eşidirlər. Bu səsi ucaldan adamı da tanıyırlar. Həmin adam düz on dörd il əvvəl onların başı üzərində üç rəngli istiqlaliyyət bayrağını dalğalandırıb «bir dəfə yüksələn bayraq bir daha enməz» demişdi. Bu çoxdan, lap çoxdan olmuşdu. O zaman vətənləri azad idi,

xoşbəxt də yaşayırdılar. Sonra tufanlar qopdu, xain düşmən onların yurdunu işğal edib özlərini çöllərə saldı. Yox, onlar məhv olmadı, min bir çətinliyə dözüb dayandılar. Ona görə dözüb dayandılar ki, xalqı yaşatsınlar, uzaq ellərdə qarşılarına çıxan hər kəsə işğal olunmuş vətənlərindən danışsınlar. Və həmişə belə də etdilər.

Onun səsini isə həmişə eşidirdilər. Türkiyədə nəşr etdiyi jurnallara abunə yazılır, çap olunan kitablarını alıb acgözlüklə oxuyurdular. Çünki onun yazılarında əzab çəkən Vətənin—Azərbaycanın ürəyi çırpınırdı. Onunla əlaqələrini kəsməmişdilər. İstanbulda yaratdığı milli mərkəzdən daima xəbər tuturdular. İstanbuldakı Azərbaycan milli mərkəzi mühacir Azəri türklərinin qurtuluş ocağı idi.

İndi budur, o qədər işi görən adam Türkiyədən çıxmağa məcbur olub. Hadisənin necə olduğunu, daşın kim tərəfindən atıldığını yaxşı bilirlər. Amma Azərilər Polşada, Almaniyada, Fransada yaşayır və onu sevirlər. Polşa hökuməti Türkiyədən çıxan Azəri mühacirlərinə sığınacaq verib. Almanlar isə böyük səmimiyyət və xeyirxahlıqla onların qəzet, məcmuə çıxarmalarına imkan yaradır.

Həmin günü Almaniyadakı mühacir Azəri türkləri «İstiqlal» qəzetinin ilk nömrəsini böyük həyəcanla oxuyurdular. Elə qəzetin ilk səhifəsində onun—azad hökumətlərinin keçmiş başçısı Məmməd Əmin Rəsulzadənin səsini eşidirdilər. Məmməd Əmin Rəsulzadə «Kəsilməyən səs» məqaləsində yazırdı:

«Mütaliənizə təqdim olunan bu qəzet müqəddəs bir mübarizənin müdafiəçisi üçün yüksələn bir səsi mədəniyyət dünyasına çatdırmaq üçün nəşr olunur.

Milli Azərbaycan istiqlal mübarizəsinin səsi! — budur bizi həyəcanlandıran səs!

Bu gün Berlindən eşitdiyimiz bu səs on ilə yaxın idi ki, İstanbuldan gəlirdi və nə qədər təbii idi. Gənc bir türk vətəninin, istilaya uğramış bir türk millətinin qəsb edilmiş haqqını və haqlı istiqlalını müdafiə etmək üçün türkcə çap olunan mətbuat orqanına qardaş Türkiyədən daha münasib sığınacaq yeri təsəvvür etmək olarmı?!

Yabançı rus istilasının qırmızı terroru altında boğucu bir qəmginliklə oxunacaq bu məqalənin azərbaycanlı münəvvərlərdə yaradacağı təsir bu sətirləri yazarkən bizi xüsusən düşündürür. Heyrət dolu gözləri görürük—soruşur: —Görən nə olub?!

—Türkiyə cümhuriyyət hökumətinin qərarilə İstanbulda nəşr edilən «Odlu yurd», «Azəri türk», «Yeni Türküstan» jurnalları və «Bildiriş» qəzeti bağlanmışdır.

...Bizi heyrət içində qoyan bu həqiqətə indi düşmən sevinir. Bolşeviklər, ruslar məmnundurlar. Niyə də məmnun olmasınlar? Boğduqları gənc türk milliyyətçiliyi, cümhuriyyətçiliyi və xalqçılığının etiraz edən səsi artıq eşidilməz olmuşdur. O səs ki, sovet rejiminin, onun yürütdüyü məlun siyasətin iç üzünü faş edir və bolşevik saxtakarlarının üzünə çırpırdı. Bəli, onlar məmnun ola bilərlər:

milli, müasir xalqçı türk cümhuriyyətində milli, müasir, xalqçı Azərbaycan istiqlalçılıq məfkurəsinin səsi boğulmuşdur!

Budur, yaşadığımız dövrün acı həqiqəti, tarixin istehzası.

Heyf bu dövrə!

Lakin bütün bunlara baxmayaraq onlar yollarından dönmür, mübarizələrindən əl çəkmirlər. Mübarizələri haqdır, buna inanırlar və bu inama güvənirlər.

...Azərbaycan istiqlal mübarizəsi olduğu kimi davam edir. Çeka zirzəmiləri mücahidlərlə dolur, məhbus dəstələri Solovki istiqamətdə hərəkət edir. Kəndlilərdən təşkil olunmuş partizan dəstələri mübarizəni davam etdirir, yeni nəsil isə istila rejiminin güclənməsinə baxmayaraq, milli idealın arxasıycan gedir.

Bununla bərabər Azərbaycanın mübarizəsini bir an da dayanmadan bütün dünyaya çatdırmaq ehtiyacındayıq, Türkiyənin öz taktikasını dəyişəcəyini gözləyən müddətdə Azərbaycan hərəkatı təbii ki, səsi kəsilmiş qala bilməz!

Bu gündən etibarən burda nəşrinə başladığımız qəzet məhz bu kəsilməyən səsin ifadəsidir! Məqsədi budur: «Kəsilməyən səs!»

Məmməd Əmin Rəsulzadə qəzetin proqram məqaləsindəki fikrini axıra kimi də davam etdirirdi. 1934-cü ilə kimi Berlində çap olunub yayılan bu qəzetdə yalnız Azəri türkləri deyil, eləcə də bütün dünya ictimaiyyəti Azərbaycanın iztirablarını eşitdilər. Məmməd Əmin Rəsulzadə sovetlər birliyinin Azərbaycana tətbiq etdiyi siyasətin, qayda və qanunların iç üzünü açıb göstərir, sərt tənqid atəşinə tuturdu. Onun «İstiqlal»dakı yazıları Azərbaycanı işğalda saxlayan sovet rejiminə qarşı daima alışmağa hazır olan bir od idi. Ona görə də Sovet çekistləri, bu qanlı rejimin qoruyucuları hər vasitə ilə Azərbaycanı Berlindəki istiqlal odundan qoruyurdular. Odu üfürüb alovlandırmaq bacarığında olan vətənpərvər Azəri türklərini isə həbsxanalarda işgəncələrə məruz qoyur, Solovki buzlaqlarında ölümə məhkum edirdilər. Bolşeviklər Məmməd Əmin Rəsulzadənin Türkiyədən çıxarılmağına çox sevinmişdilər. Axı onları narahat edən, vəzifə stollarını silkələyən səs boğulmuşdu! O səs daha İstanbuldan eşidilməyəcəkdi!

Amma şadlıqları uzun sürmədi və yedikləri haram tikə boğazlarında qaldı. Yenidən, yenidən o səs eşidilməyə başlamışdı. Özü də bu dəfə daha sərt və güclü dəlillərlə onların saxtakarlığı, fırıldaq və ikiüzlülüyü dünyaya çatdırılırdı. Narahat idi bolşeviklər, narahat idi bu istiqlal səsindən.

Lakin onların əli Almaniyaya çatmayacaqdı. Polşada da bu rejimə dərin nifrət vardı. Məmməd Əmin Rəsulzadənin bu ölkələrdə ucaltdığı istiqlal səsini onlar necə çalışsalar da batıra bilməyəcəkdilər. O səs eşidilib yuxularına haram qatacaq, rahat yaşayışlarını pozacaqdı.

Budur, «İstiqlal» qəzeti Məmməd Əmin Rəsulzadənin «Açıq diplomatiya» yazısını çap edib. Müəllif bolşeviklərin növbəti siyasətini — açıq diplomatiya fikrini irəli sürməyinin daxili saxtakarlığını izah edir. Göstərir ki, onlar həmişə zahirən demokratik, azadlıq pərdəsinə bürünmüş şüarlar irəli sürüb əslində

özlərinin istibdad qanunlarını yeridirlər. Onlara inanmaq olmaz. Sovet rejiminin müdafiəçilərinə bel bağlamaq düzgün deyil. Bolşeviklər bütün Sovetlər Birliyində hürriyyət şüarını irəli sürür, fəhlə-kəndli hökumətinin mövcudluğundan danışırlar. Amma həqiqətdə isə ölkədə yalançı fəhlə-kəndli hakimiyyətinin pərdəsinə bürünmüş Stalin diktatorluğu vardır. Məmməd Əmin Rəsulzadə yazırdı:

«...Qırmızı imperializm özünün əsl qayəsini təşkil edən dünya inqilabından əl çəkməyib. Planlaşdırdığı beşillik planı yerinə yetirmək üçün onun hər cür müvəqqəti sakitliyə ehtiyacı vardır ki, sırf təcavüz məqsədi güdən bu sənaye planını müvəffəqiyyətlə başa çatdırsın. Bu məqsədlə də o indiki şəraitdə sülhsevər maskası taxır və buna da müvəffəq olur».

..Azərbaycan od içindədir. Vətənindən həyəcanlı xəbərlər çatdırılır ona. Qanlı istila rejiminə qarşı güclü iğtişaş və üsyanlar davam edir. Ona bir məlumat da çatdırıblar: bu ilin baharında (1932-ci il) Azərbaycanda bolşevik rejiminə qarşı güclü üsyan olacaq. Azərbaycanlı vətənsevərlər üsyana ciddi hazırlaşırlar. Əlbəttə, o qanlı terror siyasətindən yaxa qurtarmaq üçün üsyanı qəbul edir. Və deyir ki, indiki şəraitdə üsyan mübarizənin ən münasib yoludur. Amma Məmməd Əmin Rəsulzadə bu işdə tələsməməyi məsləhət görür və Azərbaycanda üsyana hazırlaşanların diqqətini bir məsələyə yönəldir: silahlı mübarizənin bəzi zəruri şərtlərinə. Hansılardır bu zəruri şərtlər? Silahlı üsyana başlamağın hansı cəhətlərini nəzərə almalı?

Məmməd Əmin Rəsulzadəyə görə Azərbaycanda silahlı mübarizə aşağıdakı şərtlərə uyğunlaşdırılmalıdır. O yazırdı:

«...Bunlardan birincisi, bütün Qafqaz xalqlarının müştərək hərəkatıdır... Lakin müvəffəqiyyətin ikinci şərti də var. Bu da silahlı müqavimət və mübarizə həmlələrinin strateji anlara uyğunlaşdırılmasının zəruriliyidir. Bolşevik hökumətinin başı xarici və daxili, mühüm bir hərb və ya ixtilal ilə məşğul olmasa, partizanlarımızın hər hansı bir çıxışının müvəffəqiyyətsizliklə nəticələnəcəyini görməmək mümkün deyil».

Məmməd Əmin Rəsulzadə Azərbaycan üsyançılarına bir fikri də çatdırır: vaxtından əvvəl çıxış etməklə düşmənin qurduğu provakasiyaya getməməli! Ona görə ki, vaxtından əvvəl çıxış olarsa onda düşmən arxa cəbhədə ona mane olub, hər qüvvəni məhvə çalışacaq.

Məmməd Əmin Rəsulzadə mövcud vəziyyətin belə dərin təhlilini verməyi bacarırdı. «İstiqlal» isə onun ağıllı və məntiqli fikirlərini düşməndən qisasa hazırlaşan yurddaşlarına çatdırırdı.

Yurddaşları isə Vətəndə əzab çəkir, terrorçu qüvvə qarşısında gücsüz qalırdı. Haqsızlıq, təhqir və mənəvi sıxıntılardan bezib cana doyan Azəri türklərinin çoxu bolşevik işğalında inildəyən Azərbaycanda tab gətirə bilmir, azad yaşayış istəyi ilə qürbət ölkələrə üz tuturdu. Otuzuncu illərdə bu mühacirlərin sayı həddindən artıq çox idi. Türkiyədə, Almaniyada, Polşada, Fransada sığınacaq tapan bu qərib azərbaycanlıların hamısı vətən həsrəti ilə alovlanırdılar.

Məmməd Əmin Rəsulzadə Vətənini tərk etmək məcburiyyətində qalmış yurddaşlarına bir istəyini çatdırırdı. Elm, bilik qazanan bu mühacirlərə Vətən borcunu unutmamağı təlqin edirdi. Deyirdi ki, hər bir azərbaycanlı mühacir harda və nə işlə məşğul olursa-olsun o vətənini unutmamalı, vətənpərvərlik dərsini öyrənməlidir.

Məmməd Əmin Rəsulzadə ziyalı mühacirlərə üz tutub deyirdi:

«Sadə texniki mütəxəssisi həmişə tapmaq olar. Bu ehtiyacını bir millət müvəqqəti olaraq əcnəbilərə müraciət etməklə təmin edə bilər. Lakin heç vaxt xaricə müraciət edərək bir vətənpərvər, bir milliyyətçi və bir istiqlalçı olmaq olmaz!».

Məmməd Əmin Rəsulzadə hələ Azərbaycan Demokratik Respublikasının yarandığı gündən milliyyətçi və imperializmi yaşatmaq, Rusiyanın çar dövründə işğal olunmuş ərazilərini saxlamağa çalışan ruslara qarşı nifrət ruhunda idi. Hələ 1919-cu ildə azad Azərbaycan dövlətinin mövcud olduğu vaxtda millətçi Denikin bir şüar irəli sürürdü: «Bölünməz Rusiya!» Denikinin «bölünməz Rusiya» qılıncı ilkin olaraq Dağıstanın sinəsinə sancılmışdı. Növbəti hücumunu isə Bakıya etməyə çalışırdı Denikin. Rusiyanın çar dövründəki ərazilərində yenidən hökmranlıq fikrinə düşmüşdü.

İndi həmin o Denikin «ac rus»ları başına yığıb xaricdə—mühacirətdə fəaliyyət göstərirdi.

Məmməd Əmin Rəsulzadə Denikin siyasətinin riyakar olduğunu sübuta yetirir, «Bölünməz Rusiya» ideyası altında hansı xəyanətlərin yatdığını göstərirdi. Çünki Denikin həmin vaxtlar özünü Polşanın halına yanan kimi göstərib deyirdi: «Polşa üçün ən yaxşı yol təkrar gələcək yeni Rusiya ilə konfederasiyaya girməkdir!» Məmməd Əmin Rəsulzadə isə Denikinin bu fikrinə etiraz edib bu «konfederasiyanı» təkrar Rusiyanın əlinə düşmək adlandırırdı.

Məmməd Əmin Rəsulzadə Denikinin «Bölünməz Rusiya» ideyasına qarşı çıxıb yazırdı:

«...Lakin biz əminik: bolşevizm yıxılınca — siz bunu istəsəniz də, istəməsəniz də fərqi yoxdur — Rusiya parçalanacaq və dünyanın bu geniş qitəsindəki əsir millətlər bu dəfə artıq əbədi qurtulacaq, öz müqəddəratlarının sahibi azad və müstəqil olacaqlar!»

Məmməd Əmin Rəsulzadə Azərbaycanın istiqlalı uğrunda apardığı mübarizədə həmişə Qafqaz xalqlarının birliyi ideyasını irəli sürüb. Onun fikrincə, Rusiya əsarətində əzab çəkən türk xalqları birgə mübarizəyə qalxmasa, qələbə əldə olunmaz. O böyük iftixar hissi ilə yazırdı ki, Azərbaycan istiqlalçılığı Rusiya əsarətindəki türk xalqlarının önündə gedib. Amma bu xalqlar niyə məğlub olur, azadlıq qazana bilmir? Məğlubiyyətin səbəbi nədir?

Məmməd Əmin Rəsulzadə «İstiqlal» qəzetində çap etdirdiyi «ortaq bir gün» adlı yazısında məğlubiyyətin səbəbini belə izah edirdi:

«...Türk xalqları arasında birlik hazırlığı, təşkilat və rabitənin zəifliyi üzündən yarımçıq qalmışdı. Bu dəfə bolşevizm şəklində zühur edən rusluq yenidən bu qardaş xalqları istila etmişdir.

Bu istilaya qarşı illərdən bəridir ölüm-dirim mübarizəsi aparan türk xalqları artıq büllurlaşmış bir proqrama malikdirlər. Əllərində milli istiqlal bayrağı vardır. Onlar bu bayraq altında çarpışır, onun zəfəri üçün iztirab çəkirlər...»

O bütün ömrü boyu bu təşkilata nifrət etdi. Bu təşkilat onun neçə dostuna, məslək yoldaşına, minlərlə günahsız yurddaşına ölüm gətirdi. Adamların düşüncəsini də dəmir məngənəyə aldı bu təşkilat. Bu təşkilatın ilk ilhamçısı Lenin olmuşdu. Adamları xaincəsinə, gizli şəkildə öldürmək! Onun ideyasına qarşı etiraz edənləri aradan götürmək! Cəmiyyətdə diktatorluğu təmin etmək! İnsanları həmişə qorxuda saxlamaq! Lenin o qorxulu təşkilatı yaratmaqda bu məqsədi güdürdü. 1918-ci ildən fəaliyyətə başlayan bu qanlı terror maşını qısa bir zamanda milyonlarla günahsız insan qanı axıdıb, cəmiyyətdə «təmizləmə» işi apardı və Leninin hakimiyyətini möhkəmlətdi. O qanlı terror maşını 1920-ci ilin Aprel işğalından sonra Azərbaycana da gəlib çıxdı. Elə ilk gəlişindən qanlı tikanlarını xalqının canına daraşdırdı. Bu terror maşınının qəribə iş rejimi vardı. Gündüzlər, işıqlı havada gözə görünməzdi. Deyib-gülən, günəşli hava udan adamların ağlına belə gəlməzdi ki, kinli gözlərin nəzarəti altındadırlar. Bəzən evdə pıçıltı ilə gedən söhbəti də bu terror maşını eşidə bilirdi. Çox güclü «eşitmə» qabiliyyəti vardı! Bu terror maşını ən çox qaranlığı sevirdi. Qaranlıqda necə böyük həvəslə işə başlayırdı. O enerjisini zülmət gecələrdən alırdı. Onun insan qanı ilə hərəkət edən motoru yalnız qaranlıqda, insanların küçələrdə gəzib dolaşmayan vaxtında işə düşürdü.

Bəli, bu terror maşını insanların ömrünə həmişə ağrı-acı gətirmişdi. Adamları izləmək, psixləşdirmək, «yavaş ölümlə» məhvə aparmaq da bu qorxulu təşkilatın üsullarından biri idi.

O zaman bu təşkilat «QPU» (Dövlət siyasi İdarəsi) adlanırdı.

Məmməd Əmin Rəsulzadə 1933-cü ildə «İstiqlal» qəzetində yazırdı:

«...Qırmızı imperializmin qanlı istilası altında qanlı vətənimizdə milli hiss və müqavimət qüvvələrini qan və atəş içində boğmaq işindən bir an belə əl çəkməyən bu təşkilat həm də milli istiqlal fikrinin sovet sərhədləri xaricindəki mübarizələrini də vurmaq niyyətindədir.

...Bu agentlərin məqsədi mühacirlər arasında nüfuz və hörmət sahibi olan şəxsləri hər cür yollarla mənən öldürmək, onların ətrafındakı adamları siyasət yoluyla ləkələmək, müxtəlif qrup və zümrələr arasına nifaq salmaqdan ibarətdir.

...Yaşadığımız mühacirət həyatının ağır şərtləri içində çox vaxt obyektiv vəziyyətə göz yumaraq subyektiv amillərin təsiriylə hərəkət edən vətəndaş çox kərə zahirdə haqlı görünən sözlər arxasında gizli qəsdlər olduğunun fərqinə varmır. O özü də istəmədən, bir də baxırsan ki, QPU-nun kim bilir neçənci əldən atdığı tələyə düşür.

İnam və intizam—QPU-nun işini nəticəsiz qoyacaq şüar budur!».

..Amma bir gün gələcəkdi ki, QPU-nun (indiki «DTK»-nin) dişləri ona da qıcanacaqdı. Həqiqət və istiqlaliyyət sözünü ucadan deyib Sovetlər Birliyindəki məhkum xalqları duyuq salan bu adamı da aradan götürmək istəyəcəkdilər. Lakin bu dəfə dişləri sərt qayaya toxunub ovulacaqdı.

...Böyük Vətən müharibəsindən sonra Məmməd Əmin Rəsulzadəni izləməyə başladılar. Stalini artıq köhnə mübarizə dostunun taleyi narahat etmirdi. O öz təkhakimiyyətliyini qurmuş, müharibədə qələbə çalmışdı. Köhnə mübarizə dostu isə ona çox mane olur, qurduğu rejimi dağıtmağa çalışırdı. Məmməd Əmin Rəsulzadə ciddi axtarışda idi.

Bir gün yanına gəlib-gedən dostu Heydər Atak bir nəfər azərbaycanlının onunla görüşmək istədiyini bildirdi. (1946-cı ildə Məmməd Əmin Rəsulzadə Almaniyada yaşayırdı və onun qaldığı yer bir neçə dostuna məlum idi). Məmməd Əmin Rəsulzadə Heydər Atakdan bir söz də eşitdi: həmin adam onu görməkdən ötrü çox canfəşanlıq göstərir. Nəhayət, tamam başqa bir yerdə görüşdülər. O adam ürəyiyananlıq göstərib deyirdi ki, bəs sizin adınızı çoxdan eşitmişəm və şəxsən görüb tanımaq istəyirdim. Ayrılandan sonra Məmməd Əmin Rəsulzadə Heydər Ataka demişdi: «Bu adamdan gözüm su içmədi». Hadisədən bir ay keçməmiş onu Amerika Kəşfiyyat idarəsi həbs edir. İstintaqda məlum olur ki, Almaniyaya onu Məmməd Əmin Rəsulzadəni öldürməyə göndəriblər. Bu dövlətin tapşırığıdır....

Yox, onu aradan götürə bilmədilər, öz əcəli ilə öldü. Daha doğrusu, aradan götürməyi bacarmadılar. İşini ehtiyatla tuturdu. Qaldığı yeri, mənzili tez-tez dəyişir, ehtiyatsızlığa yol vermirdi. Təsadüfi deyil ki, Stalin kimi bir adam həmişə ona hörmətlə yanaşmış, bacarığına heyrət etmişdi. Stalin kimi bir adamı ölümdən qurtarmış, həbsdən qaçırmışdı. Ona görə də Stalin onu toruna sala bilmirdi. Çünki köhnə mübarizə dostu hər sahədə ondan qabiliyyətli və yüksək idi. Dəfələrlə ölümdən qurtaran, həyatın min bir tələlərindən yan keçməyi bacaran Məmməd Əmin Rəsulzadəni yox etmək asan iş deyildi. O tarixin yetişdirdiyi yeganə şəxsiyyətlərdən idi. Stalin bunu yaxşı bilirdi. Ona görə də 1946-cı ildəki baş tutmayan bu «həmlə»sindən sonra çəkilib yerində oturdu.

...«İstiqlal» Azəri türklərinin tapdanan haqqını müdafiə edir, ağrı və işgəncələrini dünya xalqlarına çatdırırdı.

**«Qurtuluş» jurnalı.** 1934-cü ildən başlayaraq Məmməd Əmin Rəsulzadə Berlində «Qurtuluş» jurnalını nəşr edir. «Qurtuluş» aylıq məcmuəsi «İnsanlara hürrriyyət, millətlərə istiqlal!» şüarı ilə çıxırdı. «Qurtuluş» imperiya əsarətində əzilən Azərbaycanın həyatını əks etdirirdi özündə.

Berlin, Çarlottenburq—2. Bu ünvanda Azərbaycan Milli Qurtuluş hərəkatının orqanı olan «Qurtuluş» məcmuəsi çap olunur.

Məcmuənin ilk sayı 1934-cü ilin noyabrında çap olundu.

Amma məcmuənin ilk sayı qara haşiyəyə alınmışdı. Azəri türklərinə dərin kədər üz vermişdi. Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti yolunda böyük

işlər görmüş Əli Mərdan bəy Topçubaşov dünyadan köçmüşdü. Azərbaycanın dünyanın iyirmi üç dövlətinə tanıdılmasında böyük xidmətləri olmuş, Vətəni işğal ediləndən sonra mühacirətdə— Fransada yaşamağa məcbur olmuş Əli Mərdan bəy artıq həyatda yox idi. 1920-ci ilin Aprel fəlakətindən sonra Əli Mərdan bəy dəfələrlə millətlər cəmiyyətinə müraciət etmiş, qanuni haqlarının, müstəqilliklərinin istila olunduğunu söyləmişdi. Və tələb etmişdi ki, millətlər cəmiyyəti səlahiyyətindən istifadə edib işə qarışsın. Amma eşidən olmamışdı Əli Mərdan bəyi. Bu böyük insan vətənindən, yurdundan nigaran getdi.

Məmməd Əmin Rəsulzadə Əli Mərdan bəyin ölümünə ağrıyıb yazırdı:

«...Əli Mərdan bəy yürütdüyü siyasətin fikirçisi olmaqdan ziyadə, işçisi idi. Onun bütün həyatı tətbiqatda, həm də milli davanın vəkilliyi kimi, məsuliyyətli işlərin tətbiqatında keçmişdir...

...Mərhum Əli Mərdan bəyin Azərbaycan hərəkatındakı yeri, işdə bu xülasədakı taktikası həyatının əvvəlindən sonuna kimi hizmət etməsi ilə bəllənmişdir.

Bir millətin siyasi tarixində bu dərəcədə mühüm və davamlı bir yer tutan adam üçün öldü desələr inanmayınız!

— Əli Mərdan bəy ölməmişdir!»

Əli Mərdan bəyin ölümü münasibəti ilə onun adına müxtəlif yerlərdən teleqramlar g ə l i r d i :

### Göndərilən matəm teleqramları

*«Milli Azərbaycan mərkəzi rəisi hörmətli Rəsulzadə M. Emin bəyə*

Rəis bəy əfəndi!

- Millətimizin keçirdiyi bu kədərli çağlarda milli çalışanlarımızdan Əli Mərdan bəy Topçubaşlının ulu tanrının hüzuruna çağırılması bu günə kimi aldığımız yaraların üzərinə yenidən bir yara artırdı. 72 illik səmərəli ömrünün böyük bir qismini millətinin səadəti uğrunda sərf edən böyük mərhumun xatirini istiqlalçı Azəri nəsli dərin hörmətlə anacaqdır....

...Sizə və təmsil etdiyiniz milli təşkilata ulu tanrıdan təsəllilər təmənna edirik.

**Berlin 8. 11. 34.**

*Almaniyada Azərbaycan İstiqlal Komitəsi rəisi: Hilal Müşti»*

*«Milli Azərbaycan mərkəzi rəisi Rəsulzadə Məmməd Emin Əfəndiyə.*

Hörmətli bəy əfəndi!

Əli Mərdan bəy Topçubaşovun Parisdə vəfat etdiyindən böyük bir təəssüflə xəbər tutduq.

Azəri vətənsevərləri üçün kədərli bir hadisə olan Əli Mərdan bəyin ölümü dolayısı ilə sizin şəxsinizdə Azərbaycan milli mərkəzinə kədərləndiyimizi bildirir və ümumazərbaycanlıların matəmində iştirak edirik.

**Varşava. 12. 11. 34.**
*Lehistanda yaşayan*
*Azərilər adından»*

...Əli Mərdan bəy də rəhmətə getdi. Daha kim qaldı ki? Azad parlamentin işığını tutanlar köçürdülər dünyadan. Hiss edirdi ki, getdikcə təklənir. Ətrafı azad Azərbaycanı birgə qurduğu adamlardan seyrəlir. Həyat amansızdır. Rəhmsiz və qəddardır. Kimsənin halına yanmır, insandan üzü dönəndə həmişəlik dönür. Təklənirdi həyatda. Dostları, doğmaları bir-bir dünyadan köçüb gedirdi. Amma o qalırdı. O hələ yaşayacaq, mübarizəsini dayandırmayacaqdı. O yenidən xalqını azadlığa çıxaracaqdı. O zaman yüzlərlə, minlərlə vətəndən nigaran gedən dostlarının ruhu şad olardı. Elə bir günü görsə, işıqlı dünyadan nigaran getməzdi. Bu təklənmək onu qətiyyən sındırmır, ruhdan salmırdı. İçərisində böyük inam hissi vardı.

«Qurtuluş» jurnalındakı Azərbaycanla bağlı məlumatlar ən çox sovetlər birliyində rusca çap olunan qəzetlərdən götürülürdü. Başqa vasitələrlə aldığı xəbərlər də ürəkağrıdan və iztirablı idi. Bir məlumata isə çox ağrımışdı: Eşitmişdi ki, Gəncə şəhərinin adını dəyişib Kirovabad qoyublar. Bu xəbəri eşidəndə acı-acı düşünmüşdü ki, bolşeviklər Azərbaycanda çar imperiyasının siyasətini yürüdürlər. Çar imperiyası Gəncəni işğal edəndə adını dəyişib Yelizavetpol qoymuşdu. Bolşeviklər işğaldan bir müddət sonra bu gözəl şəhərə Kirovun adını vermişdilər. Özü də gör kimin—Kirovun! Kimdir axı bu Kirov? Azərbaycanın qanını içən bir cəllad deyilmi? Ermənilərlə əl-ələ verib Azərbaycanın torpaqlarını parçalamaqla məşğul olmayıbmı? Gəncə üsyanında minlərlə günahsızın qətlə yetirilməsində onun iştirakı olmayıbmı? İndi gətirib günahsız qanlar axıtdığı bir şəhərə onun adını verir, xalqı içəridən kəsib doğrayırlar.

Elə bu ağrı ilə də başçılıq etdiyi «Qurtuluş» məcmuəsində belə bir məlumat vermişdi:

«...Yenə eyni siyasət təkrarlanır. Rus hakimiyyətinin bir nişanəsi olmaq üzrə, Gəncəyə türk qatili Kirovun adı verilir».

«Qurtuluş»da o Stalin hakimiyyətinin qanlı siyasətini açıb göstərirdi. Sovetlər birliyindəki mövcud rejimin istismarçı xarakterindən danışırdı.

Məmməd Əmin Rəsulzadə «Stalinin hakimiyyəti» məqaləsində yazırdı:

«Fəhlə və kəndli hökuməti. Çalışanların məmləkəti. Proletar diktatorluğu. Kommunizm hakimiyyəti. Bolşeviklərin ağalığı.

Bütün bunlar sovetlər ittifaqı deyilən məmləkət üzərində fərdi hakimiyyətlərini quran qanlı avanturistlərin keyfi istibdadlarını qapamaq üçün tullanılan bir ulduzlu cümlələrdir..

Daha Lenin sağ ikən sezilən bu hərəkət kommunist peyğəmbərinin ölümündən sonra iqtidarı əlinə alan Stalin zamanında isə daha sürətlə irəlilədi. Başda kommunist partiyası içərisindəki qarşı gəlmələri təpələyən bu hərəkatın

kommunizmin Trotski kimi ən böyü simalarını belə xaricə qovan kəskinliklə bütün qruplara üstün gəldiyini bilirik».

Məmməd Əmin Rəsulzadənin Polşa xalqının qəhrəman oğlu Yozef Pilsudskiyə böyük hörməti vardı. Azəri mühacirlər Türkiyədən qovulandan sonra məhz Polşada, Pilsudskinin vətənində sığınacaq tapmışdılar. Pilsudski çar Rusiyasından xalqını qurtarmaq yolunda mübarizə aparmış bir vətənpərvər idi. Polşa xalqı  mübariz oğlu ilə haqlı olaraq fəxr edirdi.

Amma amansız əcəl belə vaxtda Pilsudskini sevimli xalqından ayırdı. Bütün Polşa xalqı matəm içindədir.

Məmməd Əmin Rəsulzadə Pilsudskinin ölümünə ağrıyaraq yazırdı:

«Lehistan qaralara bürünmüş, lehlilər milli bir matəm yaşayır.

Milli qəhrəman marşal Pilsudski həyata vida etmişdir.

Bu böyük adam Leh vətənsevərliyinin, xalqca təqdis olunan parlaq bir timsalı idi.

Bir timsal ki, tabutu önündə ayrılıq nitqi söyləyən rahib onun haqqında: «Tanrı onu özünə bənzədərək yaratmış və qəhrəman başına krallarınkindən də şərəfli bir tac qoymuşdur» demişdir.

Məmməd Əmin Rəsulzadə «Qurtuluş» məcmuəsindəki bu yazısı ilə Azəri türklərinin Polşa xalqının matəminə şərik çıxdığını bildirirdi.

«Qurtuluş» öz səhifələrində Azərbaycandakı vəziyyətlə bağlı çoxlu məlumatlar verirdi. Məmməd Əmin Rəsulzadə Vətənində baş verən hadisələri böyük həyəcanla izləyirdi. Onun başçılıq etdiyi «Qurtuluş» məcmuəsi Azərbaycandan müxtəlif xarakterli xəbərlər nəşr edirdi.

«Qurtuluş» məcmuəsində Azərbaycanla bağlı çap olunan bəzi xəbərlər:

**«Kolxozlarda yanğın**

Goranboy nahiyəsinin Borsunlu kəndindəki «sosializm» kolxozu 10 martda Əsgər Məmməd oğlu adlı bir qolçomaq oğlu tərəfindən dağıdılmışdır. 7 iş heyvanı və bir inək yanmışdır. Qoyunlar məhv olmaq təhlükəsi altındadır. Sinif düşməni qaçmışdır».

**Oğru müdir**

1919-cu ildən bəri Azərbaycan Kommunist Partiyasının fəallarından olan və son zamanlarda Azərbaycan ipəkçilik sənaye müdirliyində çalışan Heydər Tahirov oğurluq etdiyi üçün Azərbaycan Kommunist Partiyası nəzarət komissiyası tərəfindən partiyadan atılmağa və işdən qovulmağa məhkum edilmişdir. Oğru müdir tam 110.000 manat «mənimsəmişdir», Tahirov məhkəməyə cəlb ediləcək.

**Qışmı, yazmı?**

Azərbaycan sovetlərinin 8-ci qurultayında oxuduğu raporlida Rəhmanov demişdir ki: «sənayemizdə anekdotik bir hal vardır, qış paltarlarını qışda, yaz paltarlarını isə yazda vermək əvəzinə əksinə olur. Məsələn, Azərbaycan paltar sənayesi bu il qışın əvvəlində satışa 25.000 yaz paltarı vermişdir».

**Azərbaycan tarixi**

Sovetlər Birliyinin Elmlər Akademiyasının Azərbaycandakı şöbəsi Azərbaycan tarixinə aid «elmi» bir əsər nəşrinə qərar vermişdir. Əsər iki hissədən ibarət olacaq. Birinci hissə qədim dövrü əhatə edib tac xanlıq dövrünə (18-ci əsrə) qədər gələcək, ikinci qisim isə Azərbaycanın Rusiya çarizmi tərəfindən istilasından çarizmin yıxılmasına qədər olan dövrü əhatə edəcək. Kitabın yazılmasında Bakı, Moskva, Leninqrad, Tiflis və Yerevan «alimləri» iştirak edəcək. Və təbii olaraq hər sahədə olduğu kimi burada da da sinif savaşı və proletar diktatorluğu, marksizm və materializm baxışlarından hərəkət ediləcəkdir. Qızıl «professor»lardan Vəli Xuluflunun vaxtı ilə iddia etdiyi kimi, türklərin Azərbaycana, İraq, Suriya və Anadoluya yayılıb müstəqil dövlətlər qurmağa başlamalarına «türk vəhşəti» adı veriləcəkdir.

**Don Kixot**

Azərbaycan kitab evlərində təhqiqat aparılarkən oxuyucuların əsasən hankı əsərləri çox oxuduqları da araşdırılmışdır. Nəticədə məlum olmuşdur ki, Azərbaycan oxuyucusu kommunist təbliğatı nəşrindən çox klassik Avropa əsərlərinə həvəs etməkdədir. Bu əsərlər arasında «Don Kixot» ən çox oxunan bir kitab olub.

**Yeni əsərlər**

Bütün Sovetlər Birliyi Elmlər Akademiyasının Azərbaycandakı şöbəsi aşağıdakı yeni əsərləri nəşr etmişdir: «Azərbaycan quşları», «Azərbaycanın balıqları», «Azərbaycanın dekorativ bitkiləri...»

Məmməd Əmin Rəsulzadəni «Qurtuluş» jurnalında çap etdiyi bu məlumatlar 1934-35-ci illər Azərbaycanının hansı «yüksəliş»də olduğunu aydın göstərirdi.

**«Prometey» birliyi.** Məmməd Əmin Rəsulzadənin fəaliyyəti, istiqlal mübarizəsi bu təşkilatla sıx bağlıdır. «Prometey» təşkilatı Sovetlər Birliyindəki bütün rus olmayan millətləri birləşdirir. Hələ 1916-cı ildə rus olmayan duma

deputatları Lozanna şəhərində bir konfrans çağırmışdılar. Həmin vaxt yaradılan qrup «Prometey» təşkilatının sələfi sayıla bilər.

«Prometey» təşkilatı 1928-ci ildə Məmməd Əmin Rəsulzadənin təşəbbüsü və Polşa hökumətinin köməyi ilə yaradıldı. «Prometey» təşkilatı rus olmayan millətlərin siyasi mübarizəsini istiqamətləndirirdi. «Prometey» təşkilatında ilk vaxtlar aşağıdakı xalqları təmsil edən partiyalar toplaşmışdı: gürcü sosialistlər, azərbaycanlıların «müsavat» partiyası, Krım tatarlarının «milli firqəsi», türküstanlıların «Milli Türküstan Birliyi» və müxtəlif Şimali Qafqaz və tatar qrupları. Erməni qrupları təşkilatda türk tatarların çoxluğunu görüb yaxın durmadılar.

«Prometey» təşkilatının Parisdə orqanı olaraq «Prometey» jurnalı çap olunurdu. Məmməd Əmin Rəsulzadə jurnalda yazılar, məqalələr dərc etdirirdi.

Ümumiyyətlə, Məmməd Əmin Rəsulzadənin fəaliyyət dairəsi yalnız Azərbaycanla məhdudlaşmırdı. O Rusiya əsarətində əzab çəkən bütün xalqların, o cümlədən türklərin mənafeyinin müdafiəçisi kimi çıxış edirdi.

1934-cü ildə isə Jordaniya, Rəsulzadə Şimali Qafqaz nümayəndələri Brüsseldə Qafqasiya dövlətləri birliyi üçün konfederasiya sazişi imzaladılar.

Məmməd Əmin Rəsulzadə çətin bir şəraitdə düşmənlə mübarizə aparırdı.

...1936-cı ildə Varşavada Milli Müsavat partiyasının qurultayı keçirildi. Qurultaya başqa ölkələrdən də qonaqlar çağırılmışdı. Burada müsavatçılar partiyanın xaricdə və Azərbaycan daxilində yürüdəcəyi siyasəti, taktika və strategiya əsaslarını işləyib hazırladılar. Yeni proqramda irəli sürülən başlıca məqsədlərdən biri də bu idi: Müstəqil Azərbaycan Xalq Cümhuriyyətini rus istilasından qurtarmaq və onu qeydsiz və şərtsiz müstəqil bir dövlət halında yaşatmaq.

Məmməd Əmin Rəsulzadə yenə «müsavat»ın lideri və ilhamçısı olaraq qalırdı. «Müsavat»ın yeni proqramını da işləyib hazırlayan, müasir şəraitdə mübarizə istiqaməti verən özü idi.

...1938-ci ilin mart ayı idi.

Gecəni yata bilmədi. Elə gözlərini azca yuman kimi onu boğmağa başlayırdılar. Tez-tez də gözünə qan gölməçələri görünürdü. Yataqda çırpına-çırpına qalmışdı. Bu nə hal idi keçirirdi? Bəlkə uşaqların başına bir iş gəlib!

Gecəni nahaqdan belə həyəcanlar keçirmirdi. Həmin o günü köhnə mübarizə dostu Stalinin qatil cəlladları on doqquz yaşlı oğlu Rəsulu güllələmişdilər. Rəsulu «sən müsavatçı Məmməd Əmin Rəsulzadənin oğlusan» deyib qətlə yetirmişdilər.

Həmin günü özündə deyildi. Halsız və pərişan gəzib dolanırdı. Elə tez-tez öz-özünə deyirdi: Evdə nə isə olub.

Evdə çox faciələr baş vermişdi. Bütün ailəsini həbs edib uzaq Qazaxıstana sürgün etmişdilər. Cavan oğlunu isə güllələmişdilər. Vəfalı həyat yoldaşı Ümbülbanu xanım soyuq Qazaxıstanın ölüm düşərgələrində «oğul» deyib fəryad

qoparır, nalə çəkirdi. Oğlu Rəsulun güllələnməyinə dözə bilmirdi. Cəmi iki il sonra oğul deyə-deyə bağrı çatlayıb öləcəkdi. Oğlu Azər, qızı Xalidə göz yaşı töküb analarını dəfn edəcəkdilər. Sonra qızı Xalidə itkin düşəcəkdi. Digər qızı Lətifə isə başqa yerdə sürgündə işgəncələr çəkəcəkdi. Amma həyat yoldaşı Ümbülbanu xanım həmişə onun haqq işi uğrunda mübarizə apardığını söyləyəcəkdi.

...Bəli, Vətənində faciələr başlamışdı. Qanlı 1937-ci ilin qara tufanı əsir, minlərlə günahsızı ölümə məhkum edirdi. Köhnə mübarizə yoldaşı Stalin vaxtilə ona dediyi, ürəyindən keçən böyük istəyi həyata keçirirdi—adamları kütləvi halda qırırdı. Bu qırğın vətəni Azərbaycan üçün deyildi. Xalq onsuz da 1920-ci ildən bəri on yeddi il idi ki, qırılırdı.

Stalin qanlı terror maşınını işə salmışdı. Aldığı bir məlumata isə acı-acı gülürdü: Vaxtilə şura hökumətinin əlindən tutub Azərbaycana gətirən bolşeviklər özləri qurduqları quruluşun qurbanına çevrilmişdilər. Düz on yeddi il idi ki, «biz müstəqil Şura hökuməti qururuq» deyib xalqının günahsız qanını axıdanlar qurduqları tora düşmüşdülər. Xalqın başını kəsdiniz siz! Anaları ağlar qoydunuz, körpələri ana nəvazişindən məhrum etdiniz, minlərlə azərbaycanlını Xəzər dənizinə atıb boğdunuz. Adamları doğma elindən didərgin saldınız. Hamınızın vicdanında nahaq tökülən yüzlərlə insan qanı var. Budur, özünüzün indi qanı axıdılır. Bəs nə bilmişdiniz? Belə də olmalı idi. Vaxtında sizə demişdik ki, bu hökumətə inanmayın. İşğalçı və qaniçəndir. Hərənizə bir vəzifə verib başınızı aldatdılar. Əvvəl sizi qızışdırıb Nərimanovun üstünə saldılar. Çünki son vaxtlar Nərimanov aldandığını başa düşmüşdü. Nərimanov ayılmışdı. Ayılmışdısa demək onu uzaqlaşdırmaq lazım idi. Bu işdə sizdən istifadə etdilər. Moskvanın və ermənilərin təşviqi ilə başladınız bir-birinizi didib-parçalamağa. Moskvaya da bu lazım idi. Baş qarışıbsa, onda Azərbaycanın malını, sərvətini daha rahat dağıtmaq olar. Və dağıdırdılar da. Budur indi öz başınız vaxtilə itilədiyiniz qılıncın tiyəsi altındadır. Sizi o günahsızların ahı tutdu beləcə. Nahaq qan yerdəmi qalar? O anasız qoyduğunuz körpələrin, qardaşını güllələdiyiniz bacıların ahı tutmayacaqdımı sizi? Bu törətdiyiniz cinayətlərin qarşısında ən asan ölümdür. Stalini yaxşı tanıyıram. Onunla azmı yaxınlıq etmişəm. O fanatik adamları sevmir. Boşboğazlıq edən, «şüarçılıq» yaşayışına aludə olanlardan xoşu gəlmir Stalinin. Onun hər bir işi hakimiyyətini möhkəmlətməyin xatirinə edilir. Siz isə «eşq olsun» və «kommunist salamı ilə» sözündən başqa heç nəyi qəbul etmədiniz. İndi tələyə düşmüsünüz. Belə də olmalı idi. Amma heyif, çox heyif o güllələdiyiniz adamlardan. Çox heyif azad xalq cümhuriyyətimizdən. Çox heyif!

...1937-38-ci illərdə Stalin günahsız insanlarla yanaşı minlərlə belə fanatik bolşeviki qətlə yetirdi.

...1939-cu ildə Polşanın sovet qoşunları tərəfindən işğal edilməyi ilə əlaqədar olaraq Məmməd Əmin Rəsulzadə bu ölkəni tərk etdi.

İkinci dünya müharibəsi başlanmışdı.

## HİTLERLƏ ÜZ-ÜZƏ

Onun yalnız bir mübarizə amalı vardı: Azərbaycanın müstəqilliyi. O bu yolda döyüşüb inamından dönmürdü. Hansı iş təklif olunsa da, harda söhbət düşsə də bir fikri irəli sürürdü: Azərbaycan müstəqil dövlət olmalıdır. Çoxları təəccüblənir, heyrət içərisində onun dönməzliyinə, cəsarətinə pərəstiş edirdilər. Bəzən həyatı təhlükədə qalır, amansız ölüm lap yaxınlığında dayanırdı. Belə dəhşətli anlarda da sözündən dönmür, «Azərbaycan» davasını davam etdirirdi.

Türkiyədəki dostları onun haqqında böyük məhəbbətlə danışır və həmişə də bir söz deyirdilər. Danışırdılar ki, Emin bəy hansı şəraitdə olusa-olsun, sakitcə bir kənarda oturardı. Elə ki, söz Azərbaycandan düşdü, o qızmış şirə dönər, alovlanırdı. Onun bu halı qarşısında hamı təslim olardı. O, Azərbaycan davasını hər kəsə dərin məntiqlə, sübut və dəlillərlə başa salıb qalib gəlməyi bacarırdı.

Bütün dünyanı qorxuya salan Hitler də Məhəmməd Əmin Rəsulzadənin «Azərbaycan davası» ilə bacarmadı.

Məhəmməd Əmin Rəsulzadə Hitlerlə üz-üzə gəlməzdən qabaq hələ 1933-cü ildə yazırdı ki, hitlerçilik hər şeydən əvvəl kommunizm demaqogiyasına qarşı çıxış etmək üçün yaradılmış bir ideyadır. O faşizm kimi öz müxaliflərindən diktatorluq fikrini götürmüş, lakin aradakı beynəlmiləlçiliyi millətçiliklə əvəz etmişdir.

Hitler millətçi idi və o insanları irqlərə bölürdü. Amma Məhəmməd Əmin Rəsulzadə Hitlerlə yaxınlıqda bir məqsəd güdürdü: düşmənin düşməni ilə dostluq etmək. Bu sözün altında hansı fikir yatırdı? Məhəmməd Əmin Rəsulzadə Hitlerin kommunizmə, kommunist rejimə sonsuz nifrəti olduğunu bilirdi. Hələ Almaniyada yaşadığı zaman Hitler tərəfdarlarının kommunistlərə sonsuz nifrətini hiss edirdi. Hitler hakimiyyət başına gələn kimi kommunistlərə amansız divan tutmuşdu. İndi Hitler yer üzündən kommunizmi silib yox etmək istəyir, dünyada rus hökmranlığına son qoymağa çalışırdı. Onun vətəni Azərbaycanı isə ruslar işğal etmişdi. Deməli, qan içində boğulan yurdunu xilas etmək imkanı yaranmışdı. Amma sonradan Məhəmməd Əmin Rəsulzadə Hitlerin Qafqazla, Azərbaycanla bağlı fikirlərini biləndən sonra onun təkliflərinə qarşı çıxdı. Bu hadisə müharibənin ortalarında baş verdi.

1941-ci il idi. Hitler böyük sürətlə Moskvaya doğru irəliləyirdi. Müharibədə çoxlu əsirlər alınır və əksəriyyəti sorğu-sualsız güllələnirdi. Hitlerin yəhudilərə münasibəti pis idi. Yəhudilərə qarşı amansız idi Hitler. Bəs Azərbaycanlıları günahı nə idi? Müharibənin ilk aylarından yüzlərlə azərbaycanlı yəhudi adı ilə qətlə yetirilmişdi.

Məhəmməd Əmin Rəsulzadə bu məlumatı eşitdiyi andan narahat olmağa başlamışdı. Onu ən çox ağrıdan aldığı bir xəbər oldu: almanlar min beş yüz azərbaycanlını güllələyəndən sonra onların yəhudi olmadığını bilmişdilər.

Vəziyyət acınacaqlı idi. Xilas yolunu axtarıb tapmaq lazım idi. Yazıqların, binəvaların günahı nə idi axı? Kürəyinə Stalinin iti külüngü söykənmiş biçarə

Azəri türkü necə geri gönsün, almana güllə atmasın? Qurtarmaq, yazıqları xilas etmək lazım idi.

Məhəmməd Əmin Rəsulzadə böyük gərginlik və həyəcan içərisində idi...

...1941-ci ildə Məhəmməd Əmin Rəsulzadə Hitlerin «Şərq Nairliyi» tərəfindən Almaniyaya dəvət olundu. Bu onun böyük nüfuza malik olduğunu göstərirdi. Bəs Şərq Nazirliyi niyə məhz Məhəmməd Əmin Rəsulzadəni dəvət edir, onunla birgə işləmək istəyirdi? Şərq Nazirliyinin məqsədi nə idi?

*Hitlerin «Şərq Nazirliyi»*. Hitlerin «Şərq Nazirliyi» 1941-ci ilin iyununda yaradılmışdı. Nazirliyin başında Rozenberq dayanırdı. Nazirlik üç bölmədən ibarət idi: siyasi, idarə və iqtisadi. Siyasi bölmədəki Qafqaz şöbəsinə professor von Mende başçılıq edirdi. Professor von Mende bir dəfə Polşada olarkən çoxlu türk tatarın səhvən «aşağı təbəqə» dərəcəsinə bölünüb güllələndiyini eşitmişdi və nazir Rozenberqə çatdırmışdı. Rozenberq də öz növbəsində Hitlerə məlumat vermişdi. Deməli, nazirlik bu anlaşılmazlıqdan narahat olmağa başlamışdı. Türklərin, müsəlmanların yəhudilərlə - «aşağı təbəqəyə» mənsub olanlarla dəyişik salınıb güllələnməyi yaxşı nəticələr verməzdi...

Von Mende Məhəmməd Əmin Rəsulzadəni böyük səmimiyyətlə qarşıladı. Və ilk söhbətdən onunla işləmək istədiyini bildirdi. Von Mendeyə Məhəmməd Əmin Rəsulzadənin şəxsiyyəti haqqında bəzi tanışları da məlumat vermişdilər. İndi üzbəüz oturub söhbət edirdilər.

Amma Məhəmməd Əmin Rəsulzadə von Mende ilə söhbətində öz fikrini açıqca bildirdi: o zaman birgə işləməyə razı olaram ki, Almaniya Azərbaycanın müstəqilliyini tanımağa razı olsun!

Hitlerin isə böyük neft mənbəyi olan Azərbaycan haqqında fikri başqa idi.

Von Mende Hitlerin məqsədindən xəbərdar idi.

Von Mende eyni zamanda onda xoş təəssürat oyadan Məhəmməd Əmin Rəsulzadəni da kənarda qoymaq istəmirdi.

Von Mendenin təklifi yeni deyildi. Almanlar bir dəfə Məhəmməd Əmin Rəsulzadəyə birgə işləmək təklifini etmişdilər. O bu təkliflə yalnız bir şərtlə razılaşacağını bildirmişdi: o da Azərbaycanın müstəqil dövlət kimi tanınması idi. O zaman söhbət baş tutmamışdı və o çıxıb getmişdi. Məhəmməd Əmin Rəsulzadənin belə vəziyyətdə Almaniyadan çıxıb getməsi narahatçılıq doğurmuşdu. Odur ki, Drezdendəki məktəblərin birində dosentlik işinə onu da dəvət etmişdilər. Lakin Məhəmməd Əmin Rəsulzadə razı olmamışdı.

Budur, yenidən Almaniya hökuməti birgə işləməyə dəvət edir.

Məhəmməd Əmin Rəsulzadə von Mende ilə söhbətində bir məsələdən narazılığını bildirdi. Dedi ki, azəri türklərini yəhudilərlə eyniləşdirib güllələyirlər.

(Bəzi məlumatlarda deyilir ki, Məhəmməd Əmin Rəsulzadə yəhudilərin də türklər kimi sünnət olunduğunu və onları bir-birindən fərqləndirməyi sübuta yetirmək üçün Hitler hökumətindən qüds müftisi əl-Hüseynin Almaniyaya dəvət olunmağını xahiş edib. Əl-Hüseyn Almaniyaya gətirilib və yəhudilərlə

müsəlmanların sünnət olunmağındakı fərqi Hitlerə başa salıb. Bu hadisədən sonra almanlar azərbaycanlıları yəhudi adı ilə güllələməyi dayandırıblar.)

Azərbaycanlıların nahaq güllələnməyinin qarşısını almaqda Türkiyə hökumətinin də Hitlerə təsiri böyük olmuşdu.

Qüds müftisi Əl-Hüseyn Məhəmməd Əmin Rəsulzadənin təhriki ilə Almaniyaya gətirildi. Məqsəd Hitlerə anlatmaq idi ki, azərbaycanlılar yəhudilərdən nə ilə fərqlənir. Qüds müftisi bir neçə azərbaycanlıdan «kəlmeyi-şəhadətini» oxumağı tələb edəndə onlar gözlərini döyüb baxırlar. Məhəmməd Əmin Rəsulzadə hörmətlə müftiyə deyir:

- Axı bunlar kəlmeyi-şəhadətlərini haradan bilsinlər? Rus qoyubmu ki, kəlmeyi-şəhadət öyrənsinlər!

Almanlar Hitlerin göstərişi ilə əsirlərdən təşkil olunmuş legionlar yaradırdılar. Məhəmməd Əmin Rəsulzadə legionlar yaradılmasının əleyhinə deyildi. Çünki legionların yaradılması azərbaycanlıların bir yerdə cəmləşməsinə imkan verirdi. İkinci bir səbəb də yenə azərbaycanlıların vəziyyətinin yaxşılaşmağı ilə bağlı idi. Çünki legoinlar yaradılana qədər azərbaycanlıları qruplara bölüb müxtəlif yerlərə göndərirdilər. Kim bilir orada hansı çətinliklərlə qarşılaşırdılar. Bir də Almaniyada həddindən çox hərbi əsirlər var. Yalnız müharibənin başlanğıcından noyabrın 1-ə kimi almanlar tərəfindən iki milyondan çox keçmiş qızıl ordu əsirləri toplanmışdı. Hətta Rozenberq bu rəqəmin 3,6 milyon olduğunu söyləyirdi. Belə vəziyyətdə ayrıca legionun yaradılmasına ehtiyac vardı.

Hitler legionlar yaradılmasına 1941-ci ilin sonlarında razılıq vermişdi.

Əvvəlcə əsirləri milliyyətlərinə görə ayıran komissiyalar təşkil edildi. 500 – 600 adamı birləşdirən 25 – 30–a yaxın komissiyalar bu işlə məşğul olurdular.

1941–ci ilin dekabr ayında Rozenberq Hitlerə türk legionlarının təşkil edilməsinin vacib olduğunu söyləmişdi. Rozenberqin plan və təklifindən razı qalan Hitler 1941–ci ilin dekabr ayının 22–də rəsmən türküstanlı, gürcü və qafqasiyalı müsəlman legionların yaradılması əmrini vermişdi. Qafqasiyalı müsəlman legoinu sonradan azərbaycanlı və şimali Qafqasiyalı legion olmaq üzrə iki yerə ayrılmış, 1942–ci il baharın sonlarında Volqa tatarlarının legionu təşkil edilmişdir.

İlk legionların qərargahı əsasən Polşada yerləşirdi. Azərbaycan legionuna əvvəlcə qrup halında başçılıq edirdilər: Abbas bəy, Atam Əlibəyov, Fətəlibəyli Düdənginski və Fuad Əmircan.

Yaradılmış hərbi legionda azərbaycanlıların sayı 70 minə yaxın idi. Azərbaycan legionunda «Boz qurd», «Aslan» kimi batalyonlar vardı. Legionda «Azərbaycanla» yanaşı «Hücum» adlı bir qəzet də çıxırdı.

Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan legionunda hörməti çoxdu. Onu sevir, ona inanırdılar təsadüfi deyil ki, həmin vaxtlar legionun orqanı kimi çıxan «Azərbaycan» qəzetində şair Daşqın Məhəmməd Əmin Rəsulzadəyə «Əfəndim» adlı bir şer ithaf etmişdi. Şerdə bütün həmyerlilərinin Rəsulzadəyə səmimi duyğularını verməklə yanaşı, zülm və işgəncəni əldə tutan sovet

kommunist rejimini, onun qanlı icrasını, internasionallaşdırma adı altında yürüdülən qəddar ruslaşdırma siyasətini, milli mədəniyyətinə, inkişafına mane olmağını da böyük istiqlal liderinə çatdırıb deyirdi.

...Fətəlibəyli Düdənginski müharibənin ilk illərindən əsir düşmüş və Hitlerə müraciət edib legion yaratmaq istədiyini bildirmişdi. Düdənginskinin bu təklifi əvvəllər şübhə ilə qarşılanmışdı...

Məhəmməd Əmin Rəsulzadənin Düdənginskiyə böyük hörməti vardı. Əsli Naxçıvanın Düdəngə kəndindən olan mayor Fətəlibəyli Moskvada hərbi Akademiyanı qurtarmış, sonra da almanların tərəfinə keçmişdi.

Düdənginskinin Məhəmməd Əmin Rəsulzadəyə böyük hörməti vardı. O, Məhəmməd Əmin Rəsulzadənin azərbaycanlı əsirləri xilas etmək üçün hansı işlər gördüyünü yaxşı bilirdi. Məhəmməd Əmin Rəsulzadə o zaman legionların təşkilindən sonra Berlindəki milli Azərbaycan Komitəsində çalışırdı. Bu komitənin başlıca vəzifəsi milli Azərbaycan davasını alman hökumətinə qəbul etdirmək idi. Çünki Hitlerin Azərbaycan haqqındakı planlarını Məhəmməd Əmin Rəsulzadə qəbul etmirdi. Hitlerin planı belə idi ki, müharibədən sonra Bakı birbaşa Berlinə tabe olunacaq, Azərbaycan xanlıqlar dövründə olduğu kimi əyalətlərə bölünəcək, başda isə almanlar oturacaq. Məhəmməd Əmin Rəsulzadə Hitlerin bu fikri ilə razılaşmır, ona görə də ciddi mübarizə aparıb Azərbaycana müstəqil dövlət hüququ qazandırmaq istəyirdi.

Düdənginski Məhəmməd Əmin Rəsulzadənin çətin bir işlə məşğul olduğunu yaxşı bilirdi. Məhəmməd Əmin Rəsulzadəyə 1943–cü ilin mayında yazdığı məktubda qeyd edirdi:

“Mərhaba, çox hörmətli Məhəmməd Əmin!

Əziz yurdumuz Azərbaycanın yorulmaz hürriyyət mücahidi olan sizi cəbhədəki bütün əsgərlərimiz adından salamlayıram.

...Qəzetimizdə (Berlində çıxan «Azərbaycan» qəzeti) Milli Azərbaycan Komitəsinin təşkil olunduğunu oxudum. Bu məni sevindirir. Biz cəbhədəki əsgərlər şübhə etmirik ki, Milli Komitəmizin başçıları arasında hamımızın sevimlisi, legionumuzun qurucusu Babayev Beydullah olacaqdır.

Biz irəlidə də millətimizin hürriyyəti uğrunda fədakarlıqla vuruşacağıq.

Cəbhədəki bütün əsgərlərdən salam. Sizə yaxşı sağlamlıq arzulayırıq. Sizin : A. Düdənginiski Fətəlibəyli”

Fətəlibəyliyə o sonralar da hörmətlə yanaşıb, xətrini istəyirdi. İkinci dünya müharibəsindən sonra mayor Fətəlibəyli Münhendə amerikalıların xərci ilə təsis edilən «Qurtuluş» radiosu Azərbaycan şöbəsinin şefi oldu. Azərbaycanın ağrılarını radio dalğalarında bütün dünyaya çatdırdı. Məhəmməd Əmin Rəsulzadə 1954–cü ildə vəhşicəsinə qətlə yetirilən vətənpərvər həmyerlisi haqqında bu sözləri yazacaqdı:

"Qurtuluşu mühəqqəq olan hür və müstəqil vətəndə adları şan və şərəflə anılacaq qurbanlar arasında indi xatirəsini andığımız mərhum da (Fətəlibəyli) olacaqdır".

Azərbaycan legionunun «Azərbaycan» adlı bir qəzeti çıxırdı. Qəzetə Fuad Əmircan başçılıq edirdi. Sonradan Məhəmməd Əmin Rəsulzadə qəzeti ciddi tənqid etmiş, ona yeni istiqamət vermişdi. Çünki qəzetdə Azərbaycanın tarixi və bəzi şəxsiyyətlərin mövqeyi düzgün işıqlandırılmırdı.

Almaniyada başqa xalqların da milli komitələri də çalışırdı. Amma Məhəmməd Əmin Rəsulzadənin fəaliyyət göstərdiyi milli Azərbaycan komitəsi bunların arasında birinci olaraq öz qurultayını çağırdı.

1943–cü il, noyabrın 6–sı. Berlinin məşhur Kayzerhof mehmanxanası. Böyük təntənə ilə milli Azərbaycan komitəsinin qurultayı keçirilir. Qurultayda Rozenberqlə yanaşı Qüds müftisi Əl-Hüseyn də iştirak edirdi. Qurultay xüsusi bir qərar çıxarır.

Məhəmməd Əmin Rəsulzadə sonralar o qurultayı belə xatırlayırdı:

Bu vəsiqənin 5 maddədən ibarət olan ana xətlərini 21 noyabr 1943–cü il tarixli 47 nömrəli «Azərbaycan» qəzetindən nəql edirəm:

«1943–cü il noyabrın 6–da Berlin şəhərində toplanmış cəbhədə vuruşan əsgərlərimizin və vətəndən xaric Azərbaycan siyasi mübarizələrinin nümayəndələrindən ibarət milli Azərbaycan qurultayı, mayor Fətəlibəylinin məruzəsini və bu ətrafda olan çıxışları dinlədikdən sonra qeyd edir ki:

1. 1918–ci il 28 maydan 1920–ci il 27 aprelə qədər davam etmiş Milli Azərbaycan hökuməti dövrü şanlı tariximizin ən parlaq səhifəsini təşkil edir.

2. Vətənimiz bolşevik istilasına uğradıqdan sonra keçən bu 23 illik müddət içərisində millətimizin istər vətən daxilində və istər yad ellərdə apardığı şanlı və qanlı mübarizə yalnız bu istiqlalın bərpası uğrunda olmuşdur.

3. Qurultay bu ağır şərait daxilində aparılan mübarizədə canlarını vətənin azadlığı uğrunda fəda etmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edir.

4. Dünyanı sarsıdan bu ikinci cahan müharibəsi nəticəsində müqəddəratımızın həllinə və istiqlalımızın bərpasına sarsılmaz bir inamımız vardır. Bunun isə ilk şərti əzəli və əbədi düşmənimizin məhvindən ibarətdir. Bunun üçün də mənafeyimiz bizi bu gün bolşevizmə qarşı qəti döyüş aparan və tarix boyu türk xalqlarının dostu Almaniyaya bağlamışdır.

5. Qurultay əsrlər boyu olduğu kimi bu gün də Azərbaycan xalqı ilə Qafqaz qonşuları və qardaş Şimali Qafqaz, Türküstan, Edil-Ural və Krım xalqları ilə eyni qayə idea birliyi müşahidə edir və onlarla işbirliyini zəruri sayır..."

Məhəmməd Əmin Rəsulzadə mübarizəsindən geri çəkilmir. Azərbaycanın istiqlaliyyəti uğrundakı yolundan dönmürdü. Bütün vasitələrdən istifadə edib Azərbaycan müstəqil olmalıdır fikrini təbliğ edən Rəsulzadə azad vətənin unudulmamağına çalışırdı.

Amma Hitler onunla razılaşmırdı hələ.

...Həmin o qurultayda da Rozenberqə bir neçə tənqidi söz deyildi. Bu tənqid də Almaniyanın Azərbaycan haqqındakı planı ilə bağlı idi. Bu tənqiddən sonra arada bir soyuqluq yarandı. Rozenberqin köməkçisi Alfred Meyer ortalığa çıxıb soyuqluğu aradan qaldırmaq, yenidən mehriban ünsiyyət yaratmaq, söhbəti şirinləşdirmək məqsədi ilə dedi: Mən öndə gedən azərbaycanlıları ən gözəl qızların və ən yaxşı rakının (içki) olduğu öz əyalətimə - Vestfapenə dəvət edirəm...

Məhəmməd Əmin Rəsulzadə Hitlerin Azərbaycan haqqında olan planı ilə razılaşmırdı. Hitlerin siyasəti ilə ikinci bir narazılıq da yaranmışdı artıq. Bu da legionlara Hitlerin münasibəti ilə bağlı idi. Məhəmməd Əmin Rəsulzadə Azərbaycan legionlarının başqa xalqlara qarşı vuruşması əleyhinə idi. O Azərbaycan legionunun öz istiqlaliyyəti uğrunda mübarizə aparan xalqlara qarşı silah çevirməyinin qəti əleyhinə idi. Onun fikrincə Polşa, Yuqoslaviya, Çexoslavakiya və digər xalqlar azadlıq uğrunda döyüşürlər. Çünki onların ölkəsi işğal olunub. Vətəni işğaldan xilas etmək yolunda vuruşan bu adamlara azərbaycanlı nəyə görə güllə atmalı idi?

1943–cü ildə Azərbaycan legionu qarşısında belə bir bəyannamə ilə də çıxış etdi. Bu o zaman üçün böyük cəsarət idi. Hitlerin qulağı eşitdiyi halda belə sözlər demək ölümə bərabər idi.

Amma o qorxmurdu. O həyatından, vətənindən ötrü yaşayırdı. Öz ömrünü başa vurmuşdu. Yaşayışını da, həyatını da çoxdan bir amala – Azərbaycanın istiqlaliyyəti uğrundakı mübarizəyə qurban vermişdi. O vətəni Azərbaycanın və onun bu qərib diyarda yaşayan övladlarının başına od hərisi pərvanə kimi dolanırdı. Doğma torpağı işğal olunan, vətənsiz qalan yurddaşları onun çırpınan qəlbi idi. Hərdən bu adamları söhbətə tutur, vətənində baş verən hadisələri öyrənirdi. Günahsız qətlə yetirilənlərin acı taleyinə ağrıyırdı. Bir hadisənin də şahidi olurdu. Görürdü ki, əsir düşən azərbaycanlıların hamısının gözündə bir qorxu dolaşır. Bəziləri isə çox-çox uzaqda olan Almaniyanın özündə belə Stalinin adı çəkiləndə həyacanlanır, təşvişə düşür. Söhbəti dəyişməyə çalışır. Vəziyyəti belə görəndə sınırdı, ağrıyırdı. Düşünürdü ki, qanlı terror rejimi adamları gör necə hala salıb? Stalinin məqsədi də elə bu idi. Vaxtilə Moskvadakı söhbətlərinin birində ona demişdi ki, kütləvi terrora keçib, xalqı tərbiyə etmək lazımdır. Budur Stalin arzusuna çatıb. Tərbiyə edib xalqı. Yalnız terrorlamı istəyinə nail oldu? Bu işlə o Lenin təliminə çox əsaslanmışdı. Yalnız fiziki yolla yox, mənəvi terrorla da adamları özünə tabe etmək lazımdır. Bəs nədən ibarət idi bu mənəvi terror? Adamlarda yalançı və saxta bir inam – kommunuzm inamı yaratmaq. Qoy adamlar bütün yaşayışını, həyatını, gözəl ömür sürmək istəyini bir kənara atıb bu xam xəyalın arxasında sürünsünlər. Onsuzda kommunizmin qurulması mümkün deyildi. Əgər belədirsə lap yaxşı. Adamlar mümkün olmayan bir istək ardınca gedəndə, ona pərəstişlə yanaşanda sən də sakitcə hakimiyyət taxtında əyləşirsən. İndi qarşısında dayanan bu cavanları bəs nə yolla tərbiyə edib Stalin? Mənəvi terrorun daha hansı üsulundan istifadə edib! Nifrətlə, həmişə nifrətlə dilinə gətirirdi bu sözü: pioner,

komsomol. Bunlara həmişə tələ deyərdi. Bolşeviklərin tələləri. Cavan uşaqları bu tələyə salıb məhv edir, beyinlərinə yalançı vədlər yığıb «işıqlı bir sabahın» qaranlığını doldurub buraxırdılar.

... Qarşısında dayanan yurddaşlarına baxdıqca ürəyi ağrıyırdı və indi həyatda olmayan Azərbaycan əsgərlərini xatırlayırdı. Milli hökumət zamanında o əsgərlərlə də beləcə üz-üzə dayanıb söhbət etmişdi. Onların məğrur baxışı, coşğun sözləri indiki kimi yadındadır. O adamlar bolşevik tələsi görməmişdilər. Azad vətənləri, hökümətləri, milli orduları vardı. Onlar azad mühitin havasını udan gənclər idi və əllərindəki silahla qorxu, hürkü bilmədən Vətənin keşiyini çəkirdilər. Bu gənclər isə işğal olunmuş torpağın havasını udmuşdular. O Azad Azərbaycandakı əsgərlərlə söhbətini xatırlayanda ürəyi sızlardı. Düşündü ki, indi onların çoxu yoxdur həyatda. Qalanları isə soyuq həbsxanalarda işgəncələr çəkir. O günlər isə ötüb keçmişdi...

İndi qaşısında dayanan bu azərbaycanlıların hamısı ondan ötrü doğma idi.

Bir hadisəni də xatırladı. Yenicə gətirilən əsgərlərdən biri çox diqqətlə baxırdı ona. Onun azərbaycanlı olduğunu əsirlər bilmirdi hələ. Rus dilində əsirdən ad-familyasını, milliyətini, haralı olduğunu soruşdu. Birdən əsir Azərbaycan dilində dedi: mən o yerdənəm ki, siz orada olmusunuz. Soruşdu ki, harda görmüsünüz məni? Əsir onu Lahıcda, qonşularının evinda hərdən balkona çıxan zaman gördüyünü və indi də unutmadığını dedi. Bu qəribə hadisədən çox mütəəssir olmuşdu.

Bu əsirləri sevirdi, onlardan ötrü çox narahat idi və çalışırdı ki, Vətəndən qürbətdə yaşayan Azərilər sıxıntıdan, ehtiyacdan uzaq olsunlar.

Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan legionuna müraciəti Hitlerin xoşuna gəlmədi. Göstəriş verdi ki, Məhəmməd Əmin Rəsulzadə Almaniyadan qovulsun.

Məhəmməd Əmin Rəsulzadənin bu bəyanatı öz istiqlaliyyəti uğrunda müübarizə aparan xaqlar tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Elə bu bəyənatın nəticəsi idi ki, 1944-cü ildə Polşada üsyan edən almanları güllə yağmuruna tutan polyaklar azərbaycanlıları görən kimi pəncərələrdən üstlərinə gül-çiçək atmışdılar.

(Azərbaycan legionunun əsgərləri alman hərbi formalarını geyirdilər. Amma qollarında emblemin içində alman hərfləri ilə «Azərbaycan» yazılırdı).

Məhəmməd Əmin Rəsulzadə Almaniyanı tərk etməyə məcbur olanda 1943-cü ilin sonları idi.

Daha bir qapı da üzünə bağlandı.

Rumıniyada ona sığınacaq yeri tapılmışdı.

Həmdullah Sübhi Tanrıövər etibarlı dostdur.

Həmdullah bəylə çoxdan - hələ 1911-12-ci illərdən dostluq edirdilər. O zaman «Türk ocağı»nda birgə çalışırdılar. Aralarında dərin səmimiyyət vardı. Həmdullah bəy köhnə dostunun - Məhəmməd Əmin Rəsulzadənin Hitler hökuməti

ilə münaqişəsini eşidən kimi kömək əlini uzatmışdı. Məhəmməd Əmin Rəsulzadəni öz yanına çağırmışdı. Həmdullah bəy o zaman Türkiyənin Buxarestdə baş səfiri idi.

Rumıniyaya gələndən sonra da Məhəmməd Əmin Rəsulzadə fəaliyyətindən qalmadı. Yenə azərbaycanlı əsirlərin taleyi ilə maraqlanır, Berlindəki «Azərbaycan» qəzeti ilə əlaqə saxlayırdı.

Amma vəziyyət dəyişirdi. Almaniyanı müharibədə məğlub olmaq təhlükəsi gözləyirdi.

Sovet qoşunlarının Rumıniyaya yaxınlaşmağı ilə əlaqədar olaraq Məhəmməd Əmin Rəsulzadə Buxarestdəki Türkiyə səfirliyinin qonaq evindən çıxmağa məcbur olur. Türkiyə səfiri yaxın dostu Həmdullah bəy Ankaraya, o isə Vyanaya gedir.

Vyanada «İmperial» mehmanxanasında bir müddət qaldıqdan sonra Almaniyaya - Amerika hökumətinin nəzarətində olan Batı bölgəsinin kiçik bir şəhərinə gedir. Az keçməmiş yenidən fəaliyyətə başlayır.

... 1945-ci ildə Məhəmməd Əmin Rəsulzadə yenidən Almaniyaya keçdi. Artıq Hitler məğlub olmuşdu. Hər yan sovet əsgərləri ilə dolu idi. Olduqca təhlükəli vəziyyət yaranmışdı. Stalin əsirlərin geri qaytarılmasına çalışırdı. Bu qorxulu idi. Stalin onları sakit buraxmayacaqdı. Azərbaycanlı əsirlərin çoxu «müharibə qurtardı» deyib sevincək halda vətənə-Azərbaycana tələsirdilər.

Amma o, köhnə mübarizə dostunun xarakterinə yaxşı bələd idi. Stalinin bu adamları qətlə yetirəcəyini bilirdi.

Bu yazıq cavanları xilas etmək lazım idi. Onları göz görə-görə ölüm düşərgəsinə göndərmək olmazdı.

Məhəmməd Əmin Rəsulzadə böyük gərginlik keçirir, vəziyyətdən çıxış yolu axtarırdı. İçərisini yalnız bir fikir ağrıdırdı: azərbaycanlı əsirləri xilas etmək! Çoxları ilə söhbət edib saxlamaq istəmişdi. Amma faydası olmamışdı. Azərbaycanlı əsirlərin əksəriyyəti bu fikirdə idi: evə gedirik: Ata-anamızı, qohum-qardaşımız üçün darıxmışıq. Bir də müharibə qurtarıb. Daha nə təhlükə olacaq ki?

Məhəmməd Əmin Rəsulzadə onlara həqiqəti başa sala bilmirdi. Stalin isə əsirləri geri alırdı. Amerika, İngiltərə heç bir maneçilik törətmirdilər. Hər gün minlərlə əsiri qatarlara doldurub Vətənə aprırdılar. Qatarlarda gedən əsirlər fəlakətdən xəbərsiz halda «Vətənə gedirik» deyib sevinirdilər.

Az keçməmiş Sovetlər birliyindən ölüm fəryadları göylərə yüksəldi. Stalinin cəllad kötüyü yenə qımızı qana bulanmışdı. Amerikadan alınıb aparılan əsirləri Stalin rəhmsizcəsinə ölümə məhkum edirdi.

Yüzlərlə azərbaycanlı Stalinin ağzından saçan ölüm alovunda əriyib torpağa dönürdü.

Xilas etmək, yazıqları xilas etmək lazımdır! Məhəmməd Əmin Rəsulzadə bir qrup azərbaycanlını başına toplayıb əsirləri xilas etmək yollarını axtarır. İlkin addım Amerika, İngiltərə hökumətlərinə göndərdiyi bəyanatlardır. Qalib

dövlətlərin rəhbərlərinə başa salır ki, Stalin sizdən alıb apardığı əsirləri vəhşicəsinə güllələyir. Bu işə mane olmaq lazımdır...

**Bir şikayət.** İkinci dünya müharibəsindən sonra Stalinin əsirlərə qarşı amansız mövqeyi və qəddarlığı az keçməmiş başqa dövlətlərə də məlum oldu. Həmin vaxtlar inglislər Stalinin bu qəddarlığından, əsirləri gecə güllələnməyindən bəhs edən «Dünya alovlar içində» adlı film çəkmişdilər. Həmin film 1948-ci ildə Türkiyədə də göstərilmiş və xalqın böyük qəzəbinə səbəb olmuşdu. Filmdə Azəri türklərinin də necə qəddarlıqla qətlə yetirilməyi göstərilirdi. Film cəmisi bir dəfə göstəriləndən sonra yığışdırıldı.

Məhəmməd Əmin Rəsulzadə azərbaycanlı əsirləri xilas və onların geri dönməməsini təmin etmək Azərbaycan Demokrat Birliyi adlı bir cəmiyyət qurmağı lazım bildi. Tezliklə cəmiyyət fəaliyyətə başladı. Elə həmin vaxtlar Məhəmməd Əmin Rəsulzadə azərbaycanlı əsirlərə müraciət qəbul etdi. Həmin müraciəti Azərbaycan Demokratik Cəmiyyəti azərbaycanlı əsirlər arasında yaydı.

Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Demokratik Cəmiyyəti adından azərbaycanlı əsirlərə müraciəti:

«Əziz mücahidlər! 6 ildir davam edən ikinci cahan hərbi artıq sona yetdi: hərb almanların məğlubiyyəti, qərb müttəfiqlərinin zəfəri ilə nəticələndi. Bizim mücadiləmiz isə davam edəcək, çünki müqəddəs vətənimizi işğal altında tutan sovet komunist rejimi müttəfiqləri yanında yer almaq imkanına sahib oldu.

Yurddaşlar! Müqəddəs Vətənimizin bolşeviklər tərəfindən istilasından 21 il sonra ələ keçən bir fürsəti işin başlanğıcında bəzi səbəbləri zühur edən xətalara rəğmən yaxşı qarşıladınız və əldə silah əbədi düşmənə qarşı yaman döyüşlər verdiniz. Vətən övladlarından şəhidlərimiz oldu, yerləri behişt olsun, hamısını hörmətlə yad edirik.

Hərb qəhrəmanı gənclər?

Siz tələsməyin, araqızışdıranların təbliğatlarına inanıb geri dönmək kimi tələsiklik qəbul etməyin.

Vətəndaşlar, məlumunuz olsun ki, sizlər ostministirlikdə işlədiniz, legionlar qurdunuz, cəbhələrdə silahlı cəng yapdınız, milli təşkilat yaratdınız, qəzet və jurnal buraxdınız, xalqımız üçün şərəfli xidmətlər göstərdiniz, qəhrəmanlıqlar yaratdınız, dəvətə inanmayın, çünki hamınız onlara görə vətən xaini və hərb günahkarı sayılacaqsınız, bunun cəzasını hamınız bilin. Vətən həsrətinə köks gərin. Olduğunuz ölkələrdən ayrılmayın, milli təşkilatlarımız ətrafında birləşin, bundan aldığınız güclə də mücadilənizi davam etdirin. Eski nəsl bu davanı 26 ildir belə yürüdür. Ana vətən Türkiyə də sizin arxanızdadır. Hər zamankı kimi ayıq olun. Özünüzə müvəqqəti yaşayacağınız bir ölkə seçin. Biz sizin Türkiyəyə hicrət etmənizə kömək edərik, fəqət Amerikayada gedə bilərsiniz, orası da elə lap yaxşı ictima sistemi olan məmləkətdir.

Yurddaşlar, yurdumuza dönənə qədər yaşayacağınız ölkələrdə sizə bəxtiyar olmanızı dilər. Bu vəsiqə ilə qısa adı "ADB" olan Azərbaycan Demokrat Birliyi ətrafında birləşməyə çağırırıq.

**Azərbaycan Demokrat Birliyi.**
**"Münhen.1946-cı il"**

Məhəmməd Əmin Rəsulzadənin azərbaycanlı əsirləri qurtarmaqla bağlı apardığı işlər öz bəhrəsini verirdi. Əsirlərin müəyyən hissəsi geri dönməyə tələsmirdi.

Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə Türkiyə-Azərbaycan cəmiyyəti də yarandı. Bu cəmiyyət azərbaycanlıların Türkiyəyə getməyini təmin edirdi.

O zaman Misir kralı Fərrux Almaniyaya gəlmişdi. Məhəmməd Əmin Rəsulzadə onunla əlaqə yaradıb azərbaycanlılara yardımını xahiş etdi. Kral Fərrux 600-ə yaxın azərbaycanlını özü ilə Misirə apardı.

Məhəmməd Əmin Rəsulzadə belə vasitələrlə azərbaycanlıları təhlükədən qurtardı.

Nəhayət, təhlükənin tam sovuşmağı təmin edildi. 1948-ci ildə Amerika hökuməti ilə Stalin arasında sərinlik yarandı. Elə həmin vaxtlar Ruzveltin həyat yoldaşı Amerika senatına müraciət edib əsirlərin zorla sovet hökumətinə göndərilməməsini tələb etdi.

**Bir əlavə.** Vəziyyətin gərginliyinə, imkanın məhdudluğuna baxmayaraq o əsas işini unutmurdu. O, iyirmi altı il idi ki, Azərbaycan davası adlanan siyasi mübarizəni davam etdiridi. Belə çətin şəraitdə apardığı mübarizəyə sadiqliyini bir daha sübut etdi. 1947-ci ildə Münhendə Məhəmməd Əmin Rəsulzadə 33 səhifəlik «Azərbaycan tarixindən» kitabını nəşr etdirdi. Kitabın çapı ilə bağlı bütün əziyyətləri Azərbaycan Demokrat Birliyinin üzvləri - Əhməd Yaşad, Məhəmməd Kəngərli, Heydər Atak çəkdilər. Amerikalılar kitabın çapına mane olurdular. Ona görə də Əhməd Yaşadın fəallığı ilə kitab Hannover şəhərində çap olundu. Amma kitabda Münhendə nəşr edildiyi göstərildi. Azərbaycan Demokrat Birliyinin üzvləri kitabı bütün Avropadakı azərbaycanlılara yaydılar.

Məhəmməd Əmin Rəsulzadə bu kitabında da xalqının şanlı tarixindən söz açmaqla yanaşı, doğma yurdunun bolşeviklər tərəfindən işğal olunduğunu qeyd etdi.

Məhəmməd Əmin Rəsulzadəyə 1947-ci ilin sonlarında Türkiyəyə-Ankaraya qayıtmağa icazə verildi. Bu razılığın da alınmasında dostu Həmdullah Sübhi Tanrıövərin böyük rolu oldu. Həmdullah bəy o zaman Türkiyə hökumətində hörmətli şəxslərdən sayılırdı.

Türkiyəyə gəldiyi ilk vaxtlar əmisi oğlu Məhəmməd Əlinin qaldığı mənzildə yaşayırdı. Məhəmməd Əmin tək deyildi. Polşada evlənib həyat qurduğu Leyla xanım (əsil adı Vandadır) da onunla birlikdə Ankaraya gəlmişdi. Məhəmməd Əlinin mənzili çox darısqal idi. İki balaca otaqda dörd adam yaşayırdı. Amma dözürdülər. Həyatda azmı çətinlik çəkmişdilər? Hansı xoş gün görmüşdülər ki?

Qırx ildən çox idi ki, ömürləri, günləri belə yaşayışda keçmişdi. Amma ruhdan düşmürdülər. Vətənin istiqlaliyyəti uğrunda mübarizələrini davam etdirirdilər.

Məhəmməd Əmin Rəsulzadə Ankaraya gəldiyi ilk gündən yurddaşlarının taleyi ilə maraqlandı. Əsas gördüyü iş başqa ölkələrdən gələn azərbaycanlıları Türkiyədə yerləşdirmək idi. Çoxları Türkiyədə heç kimi tanımır. Hara gedəcəyini bilmirdi. Məhəmməd Əmin Rəsulzadə onlara kömək edir, mənəvi dayaq olurdu.

**Bir ağrılı xatirə.** Bir gün gələcək, onun sorağı ilə Türkiyəyə gedəcəyəm. Məhəmməd Əmin Rəsulzadənin dostlarını axtaranda 1947-ci ildən sonra Türkiyəyə gələnlərlə də rastlaşacağam. Kimi dindirib onun haqqında söz soruşacağamsa, göz yaşı görəcəyəm. Hamısı ağlayıb bu sözü deyəcək: o bizim əlimizi çörəyə çatdırdı. Allah onun qəbrini nurla doldursun!

## ANKARADA

Məmməd Əmin Rəsulzadə Türkiyədə azərbaycanlılara kömək göstərir, Almaniyadakı dostları ilə sıx əlaqə saxlayırdı. Onlara məktublar yazır, məsləhətlər verir, azərbaycanlıların Türkiyəyə gəlməyini təmin edirdi. Çünki Türkiyə hökuməti yalnız 1948-ci ildən azərbaycanlı əsirləri qəbul etməyə başladı. Məhz həmin ildə 3680 azərbaycanlı əsirin ölkəyə gəlməyinə Türkiyə hökuməti icazə verdi. Bu razılığın alınmağında Məmməd Əmin Rəsulzadənin böyük xidməti vardı. İtaliyada, İsveçrədə, Fransada və başqa ölkələrdə daima qorxu altında yaşayan, hər an Stalinə təslim olunacaqlarından qorxan zavallı azərbaycanlı əsirlər yalnız Türkiyəyə gələndən sonra rahat nəfəs aldılar. Və burada Məmməd Əmin Rəsulzadənin qayğısı altında yaşadılar.

...1948-ci ildə azərbaycanlı əsirlərin Türkiyəyə gəlməsinə icazə veriləndə Məmməd Əmin Rəsulzadə Almaniyadakı dostu Heydər Ataka məktub yazıb bildirirdi:

«Əziz vətəndaş Heydər!

19. 12. 47 tarixli məktubunuzu aldım.

Hər şeydən əvvəl təbriklərinizə təşəkkür edir, yeni ilin sizə sədadətli olmasını candan dilərəm. Hökumət Avropadakı azərbaycanlıların Türkiyəyə alınmasına qəti qərar verdi. Bir az sonra sizlərin köçürülməsinə başlanacaqdır. İlk baharda bu işin başlayacağına ümid edirəm.

...Bizimkilərdən bir qismi İtaliyadan Misirə getmişdir. Türkiyəyə gəlmək istəyənlər mütləq türk pasportlarını gözləməlidirlər.

Çap etdiyiniz kitabçadan bir neçə nüsxəni almaq istəyirik. Sizə qəzetlər göndəririk. Yeni materiallar da göndəriləcəkdir. Antikommunist aksiyalarda iştirak ediniz. Fəqət iç qayəmizi əsl istiqlal qayəsi olduğunu da unutmayın.

*Salamlarla: M. Emin.*
*Ankara. 2. 1. 48.»*

Türkiyəyə gələn azərbaycanlıların sayı getdikcə çoxalırdı. Məmməd Əmin Rəsulzadəni indi bir fikir narahat edirdi: bu adamları bir təşkilat ətrafında birləşdirmək. Gələn azərbaycanlıların toplaşacağı ünvan olmalıdır. 1949-cu ilin əvvəlləridir. Məmməd Əmin Rəsulzadə yaxın dostları ilə Azərbaycan kültur dərnəyini yaratmağa çalışır. Bu vaxta kimi əsas işləri dostlarının evində görürdülər. Belə şəraitsizlik onları çox narahat edirdi. Maddi imkansızlıq da təsirini göstərirdi. Azərbaycanlılar yenicə gəlirdilər Türkiyəyə və hamısı da ehtiyac içində, evsiz-eşiksiz, pulsuz-parasız...

Amma o həmişə vəziyyətdən çıxış yolu tapmağı bacarırdı. Ən pis günlərində belə, ac-susuz qalıb ağır həyat keçirsə də, həmişə doğma Azərbaycanı yaşatmağı unutmurdu. Doğma Azərbaycanı ilə nəfəs alır, onunla yaşayırdı. Onun havası da, suyu da Azərbaycan idi. O həyatda çox şey itirmişdi. Vətənindən, ailəsindən, oğlundan, qızından məhrum olmuşdu. O yalnız bir istəklə ömür sürürdü: Azərbaycanı yaşatmaq! Qürbət ellərdə onun istisini sönməyə qoymamaq. Türkiyədə yaşadığı illərdə sonradan geniş maddi imkanı olan, hökumətdə yüksək vəzifədə çalışan dostları ona çox təkliflər etmiş, dolanışığını yaxşılaşdırmaq istəmişdilər. Biri ticarət dükanı açmaqla, biri geniş torpaq sahəsi verməklə bu mehriban adama əl tutmağa çalışmışdılar. O razılaşmamışdı. Onun yalnız bir əqidəsi, yaşayış amalı vardı: Azərbaycan! Yaxın dostlarından biri, İranın keçmiş milli məclisinin başçısı Ağa Seyid Həsən Tağızadə onun haqqında belə yazırdı:

«—Nə Bakı hökumətində tacsız bir sultan mövqeyində olanda və nə də İstanbulda ayda bir lirə ilə yaşadığı günlərdə öz əqidəsindən əsla dönməmişdi!»

...Nəhayət, uzun əziyyətlərdən sonra 1949-cu ilin fevral ayının 1-dən «Azərbaycan kültur dərnəyi» fəaliyyətə başladı. Dərnəyin ilk toplantısında doktor İbrahim Bədəl böyük coşğunluqla Məmməd Əmin Rəsulzadənin Dərnəyin fəxri Başkanı (sədri) seçildiyini elan etdi. (Məmməd Əmin Rəsulzadə ömrünün sonuna kimi Dərnəyin fəxri sədri olaraq qaldı).

Dərnəyin Yönətim Quruluşu vəzifəsi aşağıdakı qurucular tapşırıldı: 1. Məmməd Altunbəy; 2. Həmdi Ataman; 3. Əziz Alpaut.

Bu adamlar Dərnəyin ilk qurultayı çağırılan kimi tam səlahiyyətlə Dərnəyin işini aparacaqdılar.

Azərbaycan Kültur Dərnəyinin nizamnaməsinin əvvəlinci maddələrində onun nə məqsədlə yaradıldığı şərh olunurdu:

**«AZƏRBAYCAN KÜLTUR DƏRNƏYİ NİZAMNAMƏSİ:**

Maddə 1 — «Azərbaycan Kültur Dərnəyi» adı ilə bir dərnək qurulmuşdur. Dərnək siyasətlə uğraşmaz. Mərkəzi Ankaradadır. Şöbəsi yoxdur.

M a d d ə 2 — Dərnəyin qayələri bunlardır:

a) Azərbaycanı, onun tarixini, kültürunu dərləmək, işləmək və yaymaq;

b) Kitab, dərgi və qəzet olaraq çap etmək və mədəniyyət yığıncaqları tərtib etmək;

v) Möhtac Azərilərə maddi və mənəvi köməklik göstərmək».

Azərbaycan Kültur Dərnəyinə 18 yaşını bitirmiş hər bir türk üzv ola bilərdi. Dərnək üzvlərindən ən azı iki adam ona zəmanət verməliydi. Dərnəyə girərkən 250 quruş giriş pulu verilir, ildə 1200 quruşa qədər üzvlük haqqı alınırdı. Dərnək nizamnaməsinin qəbul etdiyi 41 maddə onun fəaliyyətini müəyyənləşdirirdi.

Birinci maddədəki «Dərnək siyasətlə uğraşmaz» sözü də nahaqdan yazılmamışdı. Bu sözün mənasının açılması Məmməd Əmin Rəsulzadənin hansı çətinliklər şəraitində Azərbaycan davasını apardığını sübuta yetirir.

İkinci dünya müharibəsindən sonra Türkiyəyə gələn Azəri türklərinə ölkə daxilində siyasi işlər görməyə icazə verilmirdi. Və hələ otuzuncu illərdə Məmməd Əmin Rəsulzadəni məhz siyasi fəaliyyətinə—Sovetlər Birliyi əleyhinə olan mübarizəsinə görə Türkiyədən çıxmağa məcbur etmişdilər. İndi yenə beynəlxalq aləmdə vəziyyət gərgin idi. Ona görə də Məmməd Əmin Rəsulzadənin əvvəlki kəskinliklə siyasi mübarizəyə başlaması mümkün deyildi.

**Bir haşiyə.** Türkiyədə olanda Məmməd Əmin Rəsulzadənin dostları həmin dövrün çətinliyini xatırlayıb deyirdilər: «Biz o zamanlar siyasi mübarizəmizə qol götürüb oynamaqdan, milli adət-ənənələrimizi təbliğdən başladıq». «Qol götürüb oynamaq deyəndə yalnız mədəniyyət işləri ilə məşğul olmağı nəzərdə tuturdular.

Lakin Məmməd Əmin Rəsulzadə siyasi fəaliyyətindən qalmırdı. Böyük çətinliklər qarşısında dayansa da siyasi işlə məşğul olurdu. Bu siyasi mübarizəsi Azərbaycanın istiqlaliyyətinə xidmət edirdi.

1951-ci ildə dekabrın 10-da Ankaradan dostu Fuad bəyə göndərdiyi məktub:

«Möhtərəm Fuad bəy!

Məktublarınızı aldım. Sabah sizə məktub yazacaqdım. Əkbərağanın hərəkətinə təəccübləndim...

İndi vaxtımız itməsin deyə, sizə buradakı nüsxələri çap etmək üçün müsavat partiyasının bir deklorasionunu göndərirəm. Türkcə və ruscasını. İngiliscəsini də bu günlərdə göndərəcəyəm.

Bəyannamənin məzmunu ilə oradakı vətəndaşları tanış ediniz. Doktor Kəngərliyə bu xüsusda yazmışdım.

Türkcəsini bizim hesabımıza ayrı bir kağız üzərində 100-150 ədəd çap edin. Bir miqdarını buraya göndərməyi təmin edin.

*Candan salamlarla: M. Emin.*

Ankara. 10. XI. 1951».

Məmməd Əmin Rəsulzadə fəaliyyətindən qalmırdı. «Azərbaycan davası» mübarizəsini aparırdı. İndi başlıca istəyi var: bir məcmuə çıxarmaq. Çünki qəzetsiz, jurnalsız geniş təbliğat işi qeyri-mümkündür. Mütləq bir təbliğat orqanını nəşr etmək lazımdır!

Məmməd Əmin Rəsulzadənin 1952-ci ildəki bu narahatlığını Türkiyədəki yaxın dostu Feyzi Aküzüm belə xatırlayır: «Məmməd Emin bəy hər vasitə ilə dünya siyasəti qarşısında Azərbaycanın səsini eşitdirəcək, kommunizmin dünyaya gətirəcəyi fəlakəti anladacaq bir təbliğat orqanına ehtiyac olduğunu çətin də olsa maddi sıxıntılar içində yaşasa da mütləq lazımlı sayırdı. Bu məqsədlə Yenişəhr Sakariyə caddəsindəki evində Dərnək işləri ilə bağlı bir toplantı keçirdi. Bu toplantıda mən də vardım. Emin bəyin giriş sözündən sonra necə bir təbliğat orqanı çıxarılması ilə bağlı uzun söhbətlər və qarşılıqlı fikirlər irəli sürüldü.

Bülleten olsun? Kitabça olsun? Həftəlik və ya 15 günlük qəzetə olsun, yoxsa müntəzəm bir dərgi?

Bir xeyli müzakirədən sonra Emin bəyin tövsiyəsi ilə aylıq bir dərginin çap olunması razılaşdırıldı. Sonra dərgi hansı adla çıxarılacağı müzakirə olundu. İrəli sürülən adlar arasında Qurtuluş, Odlu vətən, Dirilik, İstiqlal kimi indi xatırlaya bilmədiyim daha bir çox adlar vardı. Mən isə: «Madam ki, Dərnəyimiz Azərbaycan kültur dərnəyidir, o halda Dərnəyin adını daşıması baxımından dərginin adının «Azərbaycan» olması lazımdır. Bu ad Dərnəyin qayəsinə, çalışmalarına, hər kəs tərəfindən mənimsənilməsinə daha uyğun düşər»—dedim. Bununla əlaqədar Məmməd Emin bəy diqqətlə mənə baxdı və «mən də Feyzinin fikrinə şərikəm, Dərginin adı Azərbaycan olsun!» — dedi».

Tezliklə dərginin ilk nüsxəsinin hazırlığına başlandı.

**Bir ağrı.** Türkiyədə olanda gedib Feyzi bəylə görüşdüm, Feyzi bəy dərgini hansı maddi çətinliklərlə çıxardıqlarını, Məmməd Əmin Rəsulzadənin bu işdən ötrü necə əziyyətlər çəkdiyini xatırlayıb ağladı.

Ankara. 1952-ci il, aprelin 1-i. Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Kültur Dərnəyinin orqanı olan «Azərbaycan» dərgisinin ilk nüsxəsi çapdan çıxıb. Dərginin üz səhifəsində bu sözlər yazılıb: «Birlik dirilikdir», «Türkləşmək, islamlaşmaq, müasirləşmək». Elə dərginin üz səhifəsində Azərbaycanın xəritəsi verilib. Xəritədə «O Azərbaycanın», onun bir vaxtlar başçılıq etdiyi Azərbaycan cümhuriyyətinin xəritəsi verilib. Doğrudur, 1952-ci ildə bu xəritədəki Azərbaycandan bir iz qalmamışdı. Vətən işğal olunmuş, torpaqları qana boyanmışdı. Yurdun güllü-çiçəkli bağlarını, büllur bulaqlı, başı qarlı dağlarını isə şura hökuməti ermənilərə sovet hədiyyəsi kimi pay etmişdi. Bəli, dağıdılmışdı, viran olmuşdu torpağı. Bu ağrıların hamısını bilirdi. Bu ən yaralı yeri, ürək ağrılı xatirəsi idi. Amma indi «O Azərbaycan»ın, 23 aylıq cümhuriyyət Azərbaycanının xəritəsini çap edirdi ki, ümidlər, inamlar ölməsin, yaşasın. Bir gün gələcək ki, o torpaqlar yenə Azərbaycanın olacaq. Bu ümidi yaşatmaq istəyirdi adamlarda.

...«Azərbaycan» məcmuəsi Anafartalar caddəsində—Azərbaycan Kültur Dərnəyinin yerləşdiyi binada çıxarılırdı. Qiyməti 25 quruş idi.

Dərginin elə ilk nömrəsində Məmməd Əmin Rəsulzadə vətəni Azərbaycan haqqında oxuculara məlumat verir, bu gözəl məmləkətin tarixindən, bu günündən danışırdı.

O yazırdı:

«Doğuda Xəzər dənizi, qüzey Qafqasiya, Batıda Gürcüstan ilə Ermənistan və güneydə İranilə sərhəddir. Başı qarlı dağlarla, bəzi yerlərində okean səthindən aşağıda yerləşən burası türlü bitkilərlə, heyvanlar baxımından çox çeşidli bir mənzərəyə malikdir».

Məmməd Əmin Rəsulzadə vətəni Azərbaycanın şanlı tarixini, tanınmış ziyalılarını bir daha Azəri türklərinə xatırladırdı. Doğma yurdunun şanlı keçmişindən danışan alovlu vətənpərvər Azərbaycan cümhuriyyətini, istiqlal bayramı olan 28 may gününü də yada salırdı. Məqaləsinin sonunda bir sərt həqiqəti də unutmurdu:

«...Velikorusiya daxilində cərəyan edən daxili hərbdən müzəffər çıxan bolşeviklər Yaxın Şərqdəki qarışıq durumdan və hərb sonu Avropasındakı vəziyyətdən istifadə edərək qızıl ordunun üstün qüvvətləri ilə sərhədi keçib 27 aprel 1920-ci ildə Azərbaycanı işğal edərək qanlı üsullarıyla cümhuriyyəti sovetləşdirirlər».

«Azərbaycan»ın ilk nömrəsindəcə qərib mühacirlərin vətən həsrəti ilə çırpınan ürəklərinin ağrısı duyulur.

Mühacirlərin çoxu ilk dəfədir Türkiyəyə gəlib. Ölüm təhlükəsi başları üstündən sovuşan bu adamlar bir müddət sevinsələr də, az keçməmiş vətənin ayrılığına dözə bilmir, intizar dolu səslə doğma ananı, qardaşı, bacını yada salırlar. Məmməd Əmin Rəsulzadə ondarın halını yaxşı bildiyindən dərginin ilk sayında vətən, ana həsrətli şerlərə çox yer verir.

Məmməd Əmin Rəsulzadənin çıxardığı «Azərbaycan» jurnalı az sonra yalnız acılı xatirələrin, vətən həsrətli şerlərin deyil, eyni zamanda kəskin, siyasi ruhlu məqalələrin çap olunduğu bir orqana çevrildi.

**«O Azərbaycanın» səsi.** Bir gün qəribə hadisə baş verdi. Neçə il idi ki, həsrəti ilə yaşadığı «O Azərbaycan»ın səsini eşitdi. Hə, elə o Azərbaycanın, ömrünün unudulmaz iyirmi üç ayını yaşadığı vətəninin səsinə qulaq asdı. Evindəki yarısınıq kresloda əyləşdiyi zaman birdən radioda Üzeyir Hacıbəyovun «Koroğlu» operasından üvertüranın səslənəcəyi elan olundu. Üvertüranın elə başlanğıcından halı başqalaşdı, oturduğu kresloda çırpınmağa başladı: Yox, bu «O Azərbaycanın» səsidir. Bu o vətənin nəfəsidir. Üzeyir bəy bu musiqini qızıl imperializmin dəmir məngənəsi arasında yazsa da o Azərbaycan düşünüb. Başqa cür də ola bilməz.

Üzeyir bəy heç zaman o azad vətəni unuda bilməzdi. O vətəndə yaşadığı zaman böyük işlər görmürdümü? Xalqı üçün çalışmırdımı? Üç rəngli bayrağımızdan ilhama gəlmirdimi? Yazılarında vətənimizi satmaq istəyənlərə nifrətlər yağdırmırdımı? Yox, ola bilməz. Ola bilməz ki, Üzeyir bəy o vətəni unutsun, üç rəngli bayrağı yaddan çıxarsın. Gör neçə ildən sonra o keçmiş günü xatırlayıb, istisini yaşadıb içərisində. Yox, Üzeyir bəy bu musiqini bolşevik Azərbaycanının adına yazmayıb. O istəyib ki, bu yolla da olsa, xalqa «o vətən»i xatırlatsın. Bu musiqi əzilən xalqımın işğalçılara nifrət zərbəsidir. Bu musiqi

ilə Üzeyir bəy yurdunu işğal edənlərə üsyan qaldırıb. İntiqam, intiqam deyir bu səs! Yurdunu müstəmləkə əsarətində inildədənlərə qarşı qisasa çağırır. Xalqı qanlı terror rejimindən qorxmamağa, bir gün haqq qapısının açılacağına inandırır. Başqa cür də ola bilməz. O Azərbaycanı görən minlərlə günahsızın ölümünə Üzeyir bəy sakit dayana bilməzdi. Bu onun silahıdır. Bu onun döyüş yoludur. O hamımız kimi yanıb ağrıyıb, içərisindən alovlanıb. İtirilmiş vətəninin intizarı ilə qovrulub. Amma geri çəkilməyib. Bu qanlı düşməni yox etmək yollarını düşünüb. Yəqin son sözü, son kəlməsi o Azərbaycan olub. Üzeyir bəyə bolşeviklərin verdiyi o orden-medallar onun qəlbindəki Azərbaycanımızı silib apara bilmədi. İndi həyatda yoxdur o. Amma xalqa o Azərbaycanın nəfəsini verib getdi…

Radiodan «Koroğlu»nun əzəmətli sədaları yayılırdı otağa. Kresloda çırpınır, nəfəsi çatmayan adamlar kimi əzab çəkirdi. Kreslo sınıq olduğundan (evində cəmisi iki kreslo vardı) cırılmış oturacağından saman ovulub yerə tökülürdü. Radioda «Koroğlu»nun—«O Azərbaycanın» səsi eşidilirdi. O isə kresloda ürəyindən yaralı halda çırpınırdı: Qoymadılar, dağıtdılar yurdumu. Xəyanətkarlar xain əlləri ilə vətənimi talan etdilər. İndi hər yanda «Lenin, Stalin» qışqırırlar. Xalqı həqiqətdən uzaq ediblər. Yalançı şüarlarla vətənimin sərvətini çəkib aparırlar. Hər yanda dünənki quldurun birinə «Ata Stalin» deyirlər. Dünyaya gələn hər Azəri türkünə ata, ana kəlməsini yox «Stalin» sözünü öyrədirlər. Qanlı terror rejimi ilə xalqın azadlıq hissini boğub öldürürlər. Amma yox, o ölməyib. Üzeyir bəy bir daha sübut etdi, bütün Azəri türklərinə çatdırdı ki, sənin azad vətənin olub. Yenə o vətənə istiqlaliyyət gətirməyə qadirsən! Bu istəyini heç zaman boğma! O gün gələcək, o azadlıq bayrağı yenə vətənin başı üzərində dalğalanacaq. Demək Üzeyir bəy bu neçə ili ağrı çəkib susurmuş. Tökülən qanlardan ehtiyatlanırmış. Sonra dözə bilməyib səsini ucaldıb, bəsdirin, bu xalqı az qırın deyib. Bu xalqın da yaşamaq haqqı var. Bu xalq Cavad xanlar, Koroğlular yurdudur. Bu xalqın Koroğlu ürəkli oğulları birləşib ayağa qalxsa, bacara bilməyəcəksiniz. Hamınız coşan tufanın sərt nəfəsiylə yox olub gedəcəksiniz. Bu xalq Koroğlu ruhludur. O ruhu ürəklərdən silib aparmaq olmaz. Hər gün yüzlərlə vətənpərvərlərimizi öldürsəniz də, yerinə başqası gələcək, sizə qarşı daha da kinli olacaq! Demək susmayıb, mübarizəsini aparıb Üzeyir bəy!..

...Leyla xanım otağa girəndə dəhşətə gəldi. Həyat yoldaşı kresloda yaralı quş kimi çırpınırdı. Tez ona sarı atılıb həyəcanla soruşdu:

— Emin, Emin, sənə nə olub! Şəkərinmi qalxıb? Pismi hiss edirsən özünü? Axı birdən-birə nə oldu sənə?

Leyla xanım səhv etmirdi. On beş ilə yaxın idi ki, birgə yaşadığı həyat yoldaşının şəkər xəstəliyi vardı və keçirdiyi həyəcan vəziyyətini ağırlaşdırmışdı. Amma Leyla xanım radioda musiqi sədası kəsildiyindən bir həqiqəti öyrənə bilməmişdi: Ömür-gün yoldaşının şəkəri birdən-birə qalxmamışdı, həyatda dünyalar qədər sevdiyi bir insan ona həmişə məhəbbətlə danışdığı «O Azərbaycan»ın səsini eşitmişdi...

...Az keçməmiş Məmməd Əmin Rəsulzadə Üzeyir Hacıbəyov haqqında bir məqalə yazıb «Azərbaycan» jurnalında çap etdirdi. Böyük bəstəkar haqqında o yazırdı:

«Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli sonra özü-özünü yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropa mənası ilə otoritəsinin hər kəsə tanıtmış bir kompozitor olmuşdur. Yazıq ki, bolşevik rejimi Azərbaycanın bu müstəsna zəkasını da öz diktatorluğu altına almış və onu bayağı mənfəətləri üçün sümürdükcə sümürmüş və verdiyi bir taqım rəsmi və siyasi vəzifə və ünvanlarla onu «mənimsəmişdir».

Fəqət beyhudə, dəmir pərdənin arxasında özünə süni marşlar yazdırılsa da, Moskvada omuzu diktatorun əliylə oxşadılsa da, tabutu başında Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dursalar da Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kültürundan və Azəri türk tarixindən kimsə ayıramaz!

**«Azərbaycan davası»nın ağrıları.** Türkiyədəki həyatı və apardığı «Azərbaycan davası» sakitliklə keçmirdi. Azərbaycanlıların heç də hamısı onun fikir və ideyalarını, mövqeyini sakit qarşılamırdı. Hələ otuzuncu illərdə ona qarşı çıxan qüvvələr vardı. Bəziləri hökuməti bolşeviklərə sakit verməkdə onu günahlandırırdılar. Bir neçə adam irad tuturdu ki, bolşeviklər Bakını tutandan sonra hökuməti Gəncəyə köçürüb orda mübarizəni davam etdirmək lazım idi.

Bir qrup azərbaycanlı isə Məmməd Əmin Rəsulzadənin zəif fəaliyyət göstərdiyini tənqid atəşinə tuturdular. Hələ 30-cu illərdə ünvanına kəskin tənqidi sözlər deyilməyə başlandı. Elə həmin vaxtlar İstanbulda iki nəfər azərbaycanlı «Yıxılan dütlər» adlı kitab buraxıb onun mövqeyini pislədi. Məmməd Əmin Rəsulzadəni bir şeydə də günahlandırırdılar. Guya başçılıq etdiyi «Müsavat» partiyası milli mübarizədən kənarda dayanıb və onun üzvləri arasında çəkişmələr gedir.

Bu azərbaycanlılar nahaqcasına günahlandırırdılar Məmməd Əmin Rəsulzadəni və ona əsassız olaraq irad tuturdular ki, vətənimiz Azərbaycanı bir ovuc bolşeviklərə parlamentdə hədiyyə etdiniz. Bəs bu adamlar hansı fikri irəli sürür və Məmməd Əmin Rəsulzadədən o zaman necə mövqe tutmağını tələb edirdilər? Birincisi, bolşeviklərə qarşı müqavimət göstərmək lazım idi. Onda tökülən qanlar bahasına düşməni məhv etmək olardı. İkincisi, əgər düşmənə ciddi müqavimət göstərsəydi, düşmən arxasında olan Şimali Qafqazdakı qardaşlarımız ayağa qalxacaqdılar. Və nəhayət, sonuncusu: az sonra marşal Pilsudskinin zərbəsinə məruz qalan Qızıl Moskva bütün Qafqasiyadan çəkilməyə məcbur olacaqdı. Moskva bütün Qafqasiyadan çəkilməyə məcbur olacaqdı.

Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi «Müsavat»ın Polşadakı fəaliyyət dövrü də haqsız tənqid olunurdu. Göstərilirdi ki, Polşa hökumətinin maddi yardımına baxmayaraq müsavatçılar müsbət iş görmədilər, müharibə başlananda azərbaycanlı mühacirlərdən ibarət olan milli bir təşkilat yaradıb köməyimizə çatdırmadılar. Müharibə zamanı isə guya azərbaycanlılar arasında fərq

qoyulurdu: bolşevik əsiri olanlar və milli ruhlu olanlar. Məmməd Əmin Rəsulzadənin yaratdığı Milli Azərbaycan Mərkəzinin işini də tənqid atəşinə tuturdular ki, guya düşərgələrdəki əsirlərəköməklik göstərmirdi. (Əlbəttə, bu adamların çoxu siyasi dünyagörüşünün zəifliyi üzündən bu iradları tuturdular və bəziləri onun Hitlerlə Azərbaycan müstəqilliyi davasından xəbərsiz idilər. Bu sözü yazanların bəziləri Stalin rejimində böyüyüb, Rəsulzadənin azad Azərbaycan ideyasından xəbərsiz adamlardı.)

...Bu adamlar bir nahaq irad da tuturdular Rəsulzadəyə: demaqogiya məqalələri ilə Kremli yıxmaq olmaz. Göstərirdilər ki, bunun üçün ciddi təşkilatlar yaratmaq lazımdır.

Münhen şəhəri, 1952-ci ilin dekabr ayı. Azərbaycan milli birliyinin orqanı olan «Azərbaycan» məcmuəsi. Almaniyadakı bir qrup azərbaycanlı məcmuəyə açıq məktub göndəriblər. Açıq məktubda Məmməd Əmin Rəsulzadəni günahlandırırlar. Hansı dəlillərlə?

Açıq məktubdan bəzi fikirlər :

«Müsavatçı»ların bu qorxaqlığı baxımsızlıq uğrunda axıdılan bütün qanları, çəkilən bütün zəhmətləri heçə çıxardı, bütün Qafqasiyanın qapılarını Moskvaya açdı. Millətimizi misli görünməmiş min bir işgəncələrlə dolu, hələ də bütün şiddətiylə davam edən əsarətə soxdu. Əgər müqavimət göstərilsəydi ilk gündən bolşeviklər tərəfindən güllələnənlərin qanı ilə belə düşməni məhv və Azərbaycanı qorumaq olardı...»

Göründüyü kimi bu adamlar parlamentin hökuməti döyüşsüz bolşeviklərə verməkdə yalnız Rəsulzadənin başçılıq etdiyi müsavat partiyasını günahlandırırlar. Halbuki, həmin vaxt cümhuriyyət hökumətində çoxlu partiyalar vardı və aprelin 27-də o faciəli gündə bütün partiyalar hökumətin döyüşsüz bolşeviklərə verilməyini müdafiə etdi. Məmməd Əmin Rəsulzadə bildirdi ki, belə halda onun başçılıq etdiyi müsavat partiyası məsuliyyəti üzərinə götürüb təkbaşına bolşeviklərlə döyüşə bilməz.

Azərbaycanlı mühacirlər açıq məktublarında Məmməd Əmin Rəsulzadənin ünvanına tənqidi daha da sərtləşdirirdilər:

«...1943-cü ilin noyabrına kimi, yəni qurultaya qədər ömür sürən M. Ə. Rəsulzadə komitəsi başında Rozenberqin dayandığı «Şərq Nazirliyi» hesabına Adlon mehmanxanasında yaşayırdı. Hitler Almaniyasından heç bir iş görmədən, heç bir cəbhədə çarpışmadan para çəkən M. Ə. Rəsulzadə və onun müridləri oldu. Alman radiosunda: «Azərbaycanlılar böyük xilaskar Hitlerin tərəfinə keçiniz»— deyə qışqıran M. Ə. Rəsulzadə komitəsinin katibi Hilal Münşi idi.

On altı nəfər azərbaycanlının imzaladığı bu açıq məktub həqiqətdən kənar idi, çox kənar idi. Bunu yalnız hissə qapılıb yazılmış məktub adlandırmaq olar.

Almaniyada çıxan «Azərbaycan» jurnalında Məmməd Əmin Rəsulzadənin ünvanına daha bir tənqidi yazı çap olunmuşdu. Bu məqaləni imzalayanlar daha yüksək səviyyəli azərbaycanlılar idi.

1952-ci ildə Münhendə, Azərbaycan jurnalında çap olunmuş, kollektiv ərizə şəklində yazılmış «Acı həqiqətlər» məqaləsi də təəssüf doğurur. Həmin məqalədən bəzi qeydlər:

«...1934-cü ildən heç bir müsavat təşkilatı yoxdur. Müsavat partiyasının keçmiş lideri Məmməd Əmin Rəsulzadə şəxsən öz adından çıxış edə bilər, amma olmayan partiya adından deklarasiya buraxmaq, ictimai fikri aldatmaq deməkdir.

Bununla əlaqədar olaraq cənab Rəsulzadə bizim keçmiş tariximizi təhrif edir. Heç bir hüququ və səlahiyyəti olmadan özünü «Azərbaycan milli şurasının nümayəndəsi» adlandırır... Təəccüblüdür ki, cənab Rəsulzadə hansı haqla özünü «milli şuranın sədri» adlandırır?

Amma pərəstişkarları onu «Azərbaycan milli respublikasının» prezidenti adlandırır və o bunu nə qadağan, nə də inkar edir, əksinə, daha da xoşuna gəlir.

Çox yaxşı olardı ki, cənab Rəsulzadə Azərbaycanın siyasi rəhbəri adı ilə özünə qanunsuz rütbələri mənimsətməsin və bir jurnalist kimi sağlam düşüncəli həmvətənlərinin birliyinə çalışsın...»

Kollektiv məqaləni yazanlar:

Polkovnik C. Kazım bəy, 1920-ci ildə Gəncədə bolşeviklərə qarşı üsyanın rəhbəri və üçüncü Gəncə polkunun komandiri:

İdris Yaybulaq. Azərbaycan ordusunun keçmiş zabiti;

Doktor Həsən Əli, keçmiş prokuror;

Sultan Vəkilli, hüquqşünas;

Xosrov Mirzə Qacar, keçmiş süvari diviziyanın komandiri və Gəncə üsyanının iştirakçısı;

Əli Şəmşirli, Gəncə şəhərinin keçmiş başçısı;

Şəfi Aran (Rüstəmbəyli), parlamentin keçmiş üzvü, nazirliyin məsləhətçisi, «Azərbaycan» (rusca) qəzetinin redaktoru və «müsavat» partiyasının keçmiş büro üzvü.

Almaniyadan göndərilən «Azərbaycan» jurnalındakı bu yazıları ürək ağrısı ilə oxudu. Adına, ünvanına haqsız tənqidlər yazılmışdı. Amma bu adamların heç birindən incimirdi. Onların vəziyyətini, belə qızğın ehtiraslarının səbəbini yaxşı başa düşürdü. Bu adamlar vətənlərini itirmişdilər. Doğma el-obadan kim bilir, bəlkə də həmişəlik ayrı düşmüşdülər. Vətəni itirmək ağrısına hamı tab gətirə bilmir axı. Bir də bu adamların çoxu Hitlerin müharibədə qalib gəlib Azərbaycanı azad edəcəyinə ümid bəsləyirdilər. İnanırdılar ki, bu mütləq olacaq və yenidən amansız bolşeviklərdən təmizlənmiş vətənə qayıdacaqlar. Amma müharibə Hitlerin məğlubiyyəti ilə başa çatdı və Sovetlər Birliyində kommunist rejimi, Stalin diktatorluğu daha da nüfuzlanıb möhkəmləndi. Vətənin qapıları mühacirlərin üzünə daha da möhkəm bağlandı. İkinci tərəfdən dünyanın ən böyük dövlətləri artıq Stalin hökuməti ilə hesablaşırlar. Bu halda mühacirlər əsəbi hal keçirir, psikir, bəziləri isə ruhdan düşür. Vətənə qayıtmaq ümidini itirirdilər. Belə halda yenə acığını özününkündən çıxmağa çalışır və onu günahlandırırlar. Yox, o bu

adamların heç birindən incimirdi. Onların halını başa düşür və haqsız tənqidlərinin çox da dərinliyinə getmirdi. (Bəlkə elə buna görədir ki, Rəsulzadənin mühacirət dövründəki onlarla yazılarının içində bir dənə də olsun mühacir həmyerlisinin adı çəkilən, tənqidi söz deyilən məqaləsi yoxdur). Yox, o belə işlərdən uzaq adam idi. Onun mübarizəsi xırda intriqalardan, umu-küsülərdən uzaqdı. Onu yalnız bir məsələ düşündürüb narahat edirdi: Azərbaycan davası! Azərbaycan istiqlaliyyəti!

**Bir əlavə.** Türkiyədə olanda Məmməd Əmin Rəsulzadənin dostları ilə görüşüb bu söhbətə də münasibətlərini soruşdum. Məmməd Əmin Rəsulzadənin yaxın dostlarından olan doktor Məhəmməd Kəngərli dedi:

—Bu adamların hamısı axırda gəlib Emin bəyin ətrafında toplaşırdılar. Görürdülər ki, onun apardığı mübarizə düzgün istiqamətlidir.

**Stalin öldü, lakin imperiya qalır.** Stalinin ölüm xəbərini Türkiyədəki azərbaycanlı mühacirlər böyük sevinclə qarşıladılar. Hamı şadlıq içində düşünürdü: yəqin Azərbaycan azad olacaq. Mütləq bir şey olmalıdır. Belə davam etməz. Hətta o zaman bu qanlı diktatorun ölümünə sevinib şer yazanlar da olmuşdu:

Stalin öldü, indi cəhənnəm yolundadır...

Mühacir azərbaycanlı gənclərdən bir qrupu onun yanına gəlmişdi. Hamısı xoşbəxtliklə gülümsünürdülər. Fərəhli bir halda soruşdular:—Hə, Emin bəy, Stalin öldü, Azərbaycan azad olacaq, eləmi?

O acı-acı gülümsünüb vətən həsrəti ilə yanan bu cavanlara baxdı:

—Yox,— dedi, — Azərbaycan azad olmayacaq hələ. Stalin ölsə də, imperiya sağdır, yaşayır. Bu imperiya dağılmayınca Azərbaycan azadlıq qazana bilməyəcək. Bu imperiya tezliklə də dağılmayacaq. Ona görə ki, hələ yenidir, güclüdür. İmperiyanın dağılmasından ötrü onun içəridən çürüməsi, ovulub yerə tökülməsi gərəkdir. Bunu isə bir qədər gözləmək lazımdır.

1953-cü ildə Türkiyədəki mühacirlər arasında bir canlanma, hərəkət oldu. Siyasi coşğunluq hər yerdə özünü göstərirdi.

Elə həmin ili Məmməd Əmin Rəsulzadə hələ 1922-ci ildə yaradılmış Azərbaycan milli mərkəzini yenidən təşkil etdi. 25 nəfərlik bir mərkəz qurdu. Mərkəzin işinə çoxlu cavanları cəlb etdi. Bu yeniləşmə, cavanların işə gətirilməyi milli mərkəzin canlanmağına səbəb oldu. Məmməd Əmin Rəsulzadə cavanları milli mərkəzin işinə cəlb etməklə sanki yeni nəslə mübarizə estafetini təqdim edirdi.

**Ömrün 70-ci ilində.** Daha qocalıq öz işini görmüşdü. Əvvəlki qaynarlığı, coşğunluğu indi azalmış, hərəkətləri ağırlaşmışdı. Çoxdan əzab çəkdiyi şəkər xəstəliyi də onu haldan salırdı. Amma içərisindəki «Azərbaycan davası» ehtirası sönməmişdi. O bu mübarizəsini davam etdirirdi. Hərdən xarici ölkələrə gedir, xarici radio verilişlərində çıxış edir. Hər ilin 28 mayında isə mütləq doğma xalqına müraciət edər, o ötən günü — istiqlal bayramını yada salardı. Vətənindən məlumat alırdı. Ən çox xəbər çatdıran dostu Fuad bəy idi. Fuad bəy Ankara radiosunda

işləyir, Almaniya və başqa ölkələrin təbliğat vasitələri ilə əlaqə saxlayırdı. Azərbaycan haqqında öyrəndiyi məlumatları ona çatdırırdı. Vətənində eşitdiyi xəbərlər ürəkaçan deyildi. Orda həyat başqalaşmış, adamlar dəyişmişdi. O Azərbaycanın adamlarından çox az bir qismi yəqin ki, sağ qalardı. Qalanlarını öldürüb məhv etmişdilər. İndi adamlar özgə əhval-ruhiyyədə idi. Hamı başını aşağı salıb sakitcə həyatını yaşayırdı. Onun və dostlarının mübarizə apardıqları azad Azərbaycan yəqin ki, indi heç ordakıları düşündürmürdü də. Onların yalnız bir vətəni vardı: Sovetlər birliyi. Onların çoxuna milli hökumət qurmaq, ayrıca dövlət olmaq fikrini demək də, anlatmaq da şübhəsiz çətin idi. Çünki bu adamlar elə hisslərdən məhrumdur. Hamısı «ümumi kommunizm evi»nin sakinləridir. Onlarda günah yoxdur. Təbliğat öz işini görmüşdü. Adamların düşüncəsini elə dəmir qəfəsə salmışdı ki, onu açıb çıxarmaq, sağlam fikir anlatmaq qeyri-mümkün idi. Köhnə mübarizə dostu Stalin istəyini həyata keçirib köçmüşdü bu dünyadan. Nə idi bu istək? Xalqı kütləvi terrorla tərbiyə etmək. Və Stalin xalqı «tərbiyə etmişdi». Hamı başıaşağı, sakit, milli hissi ölmüş vəziyyətdə idi. Doğma yurdu işğalçılardan təmizləmək cəsarəti çəkilib getmişdi, hamı olmuşdu «Stalin zəmanəsinə layiq insan». Elə bu tərbiyənin təsiri idi ki, ikinci dünya müharibəsində özünü «Stalin uğrunda» deyib tankın altına atanlar, sinəsini güllə qabağına tutanlar olurdu. Gör kimin yolunda canlarını qurban verirdilər? O quldurun, mal, pul oğurlayanın, minlərlə günahsızın qanını axıdanın yolunda ölümə gedirdilər. Əlbəttə, adamlarda nə günah? Gör neçə il xalq döyüşdü, mübarizə apardı, nə qədər üsyanlar qopardı? Amma məğlub oldular, bacarmadılar. Çünki həm düşmən qüvvətli idi, həm də öz içərisindən xainlər çox oldu. Əgər öz içərisindəkilər satmasaydı, düşməni məğlub etmək olardı. O satanların da aqibəti acı oldu. Stalinin tələsindən yaxa qurtara bilmədilər. «Xalq düşməni» adı ilə qətlə yetirildilər. Bəs onlar bilmirdimi ki, müdafiə etdikləri bu qanlı quruluşun terror maşını bir gün də onların özünə qarşı çevriləcək. Saxta quruluşun aqibəti də puçluqla qurtarır. Budur, indi danışıq gedir ki, Stalinin adamlarını «təmizləyirlər». Belə də olmalıdır. Hər gələn adam özündən əvvəlkini didib parçalayacaq. Və axırda, lap sonda imperiya yıxılacaq. Bu mütləq olacaq.

...Vətəni haqqındakı məlumatlardan bir şeyi də öyrənirdi. Xalqın düşməni Şaumyanın, Kirovun adını məktəblərə, idarələrə veriblər. Belə olanda acı-acı vətənin istiqlaliyyəti yolunda canlarını qurban etmiş «o Azərbaycanın» adamlarını düşünürdü. Fikirləşirdi ki, indi yəqin Fətəli xanın, Yusif bəyin, minlərlə başqa vətən oğlunun sümükləri soyuq məzarda sızlayır. Doğma yurdun bu halına dözmək olarmı?

Ailəsini, uşaqlarını, qohumlarını xatırlamaq da ona çətin idi. Ümumiyyətlə, bu haqda söhbət etməyi xoşlamırdı. Kim bir söz soruşurdusa, ailəsindən söhbət açmaq istəyirdisə tez əsəbiləşib deyirdi: «Qapayın, qapayın o söhbəti». Bir xarici jurnalist ondan müsahibə götürəndə əl çəkməmiş, dönə-dönə sual verib ailəsi, uşaqları haqqında soruşmuşdu. Məcbur olub kədərli bir halda jurnalistə demişdi:

«Bilirəm ki, onları da on minlərlə azərbaycanlı kimi Sibirə göndəriblər». Başqa heç nə deməmişdi jurnalistə.

Bəli, o bu haqda danışmağı xoşlamırdı. Bu onun ən yaralı yeri idi. O bu söhbətlərdən həmişə uzaq qaçırdı. Sevimli həyat yoldaşını, dörd istəkli balasını yada salmaq çətin idi, çox çətin idi ona. Onların sağ qalmağına da ümidi az idi. Çünki o cəhənnəm dünyasına—Sibirə gedənlər nadir halda sağ qayıda bilərdi. O zaman ailəsini də İstanbula—yanına aparmaq istəmişdi. Lakin evdən etiraz etmişdilər. Həyat yoldaşı çox mehriban qadın idi. Həm də onun doğmaca əmisi qızı idi. Hərdən acı-acı onu da bir daha görməyəcəyini düşünürdü. Dörd uşaqla tək-tənha qalmaq, onları saxlayıb böyütmək asanmı iş idi? Yox, o bunların heç birini xatırlamaq istəmirdi. Ona görə xatırlamaq istəmirdi ki, ürəyi parçalanırdı. Bu qəlbinin yaralı yeri idi. İndi hər şey ötüb keçmiş, ailəsi də, sevimli uşaqları və nahaqdan gülləyə hədəf tutulan dostları, həmvətənləri, hamısı «o Azərbaycan»da qalmışdı. O xatirəni açıb tərpətmək istəmirdi. Bu onun üçün ağır idi, çox ağır.

Amma bir xasiyyəti də vardı. «O Azərbaycan»ın hökumət başçılarının matəmində, qətlə yetirildiyi gündə Milli Kültur Dərnəyinə gələr, cavanları başına toplayıb həmin adamlardan, onların xalqa gördüyü böyük işlərdən danışardı.

Milli Kültur Dərnəyində hamı sevirdi onu. Mehriban və səmimi, xeyirxah adam idi. Çoxları söhbətlərinin vurğunu idi. Dərin zəkası, güclü məntiqi vardı. Savadlı, bilikli insan kimi hamı ona pərəstiş edirdi.

Ankaradakı yaşayışı çox da yüksək səviyyədə deyildi. Ankara milli kitabxanasında məmur işləyir, ayda 150 lirəyə qədər maaş alırdı. O pulun da 40-50 lirəsini kirə haqqına verirdi. Evi Ankarada, Sakariyə caddəsində zirzəmiyə oxşayan bir yerdə yerləşirdi. Evində zəngin şərait də yoxdu: Bir dəmir çarpayı, iki kreslo, stol vardı. O sadə yaşamağa adət etmişdi. Otuz ildən də çox belə «köçəri» həyat yaşamışdı.

...70 yaşı tamam olurdu. Yetmiş illik ömründə çox hadisələrlə üz-üzə gəlmiş, neçə təsadüflər sayəsində ölümdən qurtarmışdı. Budur, hər şey arxada qalıb. İndi yetmişinci ili ömründən yola salır. Ömrünün yetmiş birinci ili necə olacaq? Onda bir dəyişikliklə qarşılaşacaqmı? Vətənində adamlar yaşadıqları qəfəsdən çıxmağa cəhd edəcəkmi?

Anadan olmağının yetmiş illiyi münasibəti ilə ona saysız-hesabsız teleqram gəlir, məktublar yazılır. Hamı onu ürəkdən təbrik edir, uzun ömür arzulayır.

Uzaq Argentinadan gələn bir təbrik məktubu da maraqlıdır. «O Azərbaycan»ın bir zaman keşiyində dayanmış milli ordu əsgərləri onu unutmayıb, yada salıblar:

«Hörmətli Məmməd Əmin Rəsulzadə!

Əziz və möhtərəm ustadımız!

Argentinadakı «Qafqasiya birliyi»nə mənsub azərbaycanlılar 70-ci doğum ildönümünüz münasibəti ilə sizə səmimi təbriklərini göndərərkən bütün həyatınız

boyunca istiqlal uğrunda çalışdığınız əziz vətənimiz Azərbaycana tezliklə qovuşmağınızı candan təmənna edər və sizə uzun ömürlər, səadətlər dilərlər.

Dünyanın ən gözəl ölkələrindən biri olan Azərbaycanın 28 may 1918-ci ildə olduğu kimi, təkrara azərbaycanlılara aid olduğunu bir daha elan etmənizi görmək istərik.

İmperialist Rusiyanın əsarəti altında yaşayan Azərbaycanın və bütün Qafqasiyanın ən yaxın bir zamanda düşmən zülmündən qurtarmasını və vətən səmalarına təkrar üç rəngli bayrağımızı yüksəltmə fürsətini qazanmağınızı Ulu Tanrıdan arzu edirik.

Biz Azərbaycan əsgərləri, vətənimiz Azərbaycanın və Qafqasiyanın hürriyyəti və istiqlalı uğrunda yapdığınız savaşa son damla qanımıza qədər sadiq olacağımıza sizə söz veririk, möhtərəm Emin bəy!

Argentinadakı azərbaycanlılar adından
*Vəli Yadigar.*
*Musa Yusifzadə*».

**Sonuncu Novruz bayramı**. Türk elinə xoş qədəmli Novruz bayramı gəlmişdi. Torpağın rəngi açılmış, gülü, çiçəyi min bir ətir qoxuyurdu. Hər yanda yaşıl səmənilər gülümsəyir, nəğməli quşlar səs-səsə verib ötüşürdülər. Yurda bahar gəlmişdi! Əlində bayram xonçası, noğulu, şəkəri ilə azad türk elinin qapısını açmışdı Novruz.

Novruz bayramını çox sevirdi. Hələ uşaqlıq illərində doğma yurdu Novxanıda bu bayrama böyük hazırlıq görərdilər. Novruz bayramını doğma kəndində hamı sevinclə qarşılardı. O zaman qayğısız dünyanın qəmindən uzaqda idi. O günlər çoxdan, lap çoxdan ömründən ötüb getmişdi. O günlər bir də qayıtmazdı geri...

Yurdunda böyük məhəbbətlə qeyd olunan Novruz bayramı belə yaddaşında qalmışdı onun:

«Bu bayramda hər şey yenilənir, uşaqlara mütləq yeni paltarlar geydirilir; Uşaqlarını sevindirmək üçün ən kasıb ailələr belə bütün imkanlarını sərf edərlər. Türkiyədəki şəkər bayramı kimi Azərbaycandakı Novruz bayramı da üç gün davam edər. Çərşənbə günlərində tonqal deyilən atəşlər yaxılır və gənclər bu atəşlər üzərindən atılar, əylənərlər...»

Beləcə həsrətli Novruz bayramını xatırlardı qürbət eldə. Novruz bayramında «Kos-kosa» oyunundan danışır və deyərdi ki, bayram günü uşaqlar dəstələr yaradıb ailədən-ailəyə gedərdilər.

Novruz bayramını otuz üç il idi ki, qürbət ellərdə keçirirdi. Novruz bayramında həmişə bir xoş hadisəni xatırlardı: 1919-cu ilin Novruz bayramını. O zamanı xatırlardı ki, onda Azərbaycan azad idi. Vətən azad idi. Həyatında, güzəranında milli Azəri türkü ruhunu yaşadan xalq Novruz bayramını hər cür qadağanlardan, qorxu-ürküdən uzaq bir bayram kimi qeyd edirdi.

O xoşbəxt günü indi ömrünün yetmişinci ilində ürək ağrısı ilə belə xatırlayırdı:

«Müstəqil Azərbaycan hökuməti zamanında Novruz milli bir bayram olaraq rəsmən qeyd olunurdu. O gün bütün millətlə bərabər dövlət müəssisələri də çalışmazdı. Hökumətcə mərasim yapılaraq ordunun keçid rəsmi icra olunurdu. Bu münasibətlə Azərbaycan Kültur Dərnəyinin tərtib etdiyi 21 mart tarixli toplantıda 1920-də icra olunan Novruz rəsmi keçidinin bir xatirəsi anıldı».

Hər dəfə Novruz bayramı qeyd olunanda vətəninin indiki halını xatırlayır, oradakı adamların Novruz bayramını geniş və ürəkaçıqlığı ilə qarşılaya bilmədiyini düşünürdü. Və acı-acı deyirdi:

«...Hürriyyət və istiqlal aşiqi çağdaş azərbaycanlılar da bu günun Zöhhak rejimi, yəni «QPU» idarəsinin eyni zülm və təqibatına məruz qalır. Novruz bugünkü sovet əsiri Azərbaycanda dəxi məmnun günlərdəndir. Gözəl bir tətbiqi və təbii qurtuluş bayramı olduğu üçün novruz mənədilmişdir».

Sonra Məmməd Əmin Rəsulzadə qəribə müraciətlə ömrünün bu qocalıq, ahıl çağında ulu tanrıya üz tutur, ondan kömək diləyir, bu Novruz bayramı günündə ona arzusunu yetirir:

«Ey qəlbləri və gözləri dəyişdirən, ey gecə və gündüzü yaradan, ey hal və şərtləri başqalaşdıran Allah, bu günkü yaşayışımızı daha xoş bir dolanışığa çatdır!».

Ankara. 1954-cü il, 21 mart. Bu gün Azərbaycan Kültur Dərnəyi Yönətim Kurumunun dəvəti ilə 21 mart Novruz bayramı münasibəti ilə Dərnək binasında gözəl bir toplantı keçirilir. Salona çoxlu qonaqlar toplaşıb.

Toplantını Abdul Vahab Yurdsevər açır. Novruz bayramının ruh və mənası haqqında geniş məlumat verir.

Sonra söz Kültur Dərnəyinin fəxri başqanı Məmməd Əmin Rəsulzadəyə verilir. Bu onun sonuncu Novruz bayramıdır. O bir daha bu sevimli bayramın havasını udmayacaq. Hələlik hər şeydən xəbərsiz və amansız əcəldən uzaqda dayanıb Novruz bayramından, onun doğma vətəni Azərbaycanda necə keçirilməyindən danışır.

Lap axırda isə Azərbaycan musiqisindən parçalar çalınır, rəqslər olur. Evə qayıdanda bütün yol boyu yurdunda keçirdiyi Novruz bayramını və bir də doğma Azərbaycanını düşünürdü.

Ankara. 1954-cü il, 27 aprel. Bu gün matəm günüdür. Azəri türklərinin matəmidir. Elə bu qara gündə Vətənin istiqlaliyyəti məhv edilib. Yurdun səadət qapıları bağlanıb, fəlakətli günləri başlanıb. Xalq hürriyyət nurundan məhrum edilib.

Bu gün matəm günüdür. Azəri türkləri yas içindədir. İki gün əvvəl isə Kültur Dərnəyinin təşəbbüsü ilə Azəri türklərindən bir qrupu Əsri məzarıstanlığına gedib istiqlal şəhidlərinin əziz ruhlarına fatihə oxutmuşlar.

Azərbaycanın milli matəm günü olan 27 apreldə ona çoxlu başsağlığı məktubları və teleqramları göndərilib:

Çox hörmətli Emin bəy!

Bundan 34 il əvvəl vətənimiz Azərbaycanın qızıl ruslar tərəfindən işğal hadisəsini dərin ürək acısı ilə anarkən, təkrar istiqlala qovuşacağımıza inanırıq.

*Tehran, 27 aprel, 1954.*
*Vətənsevər və istiqlalçı*
*Azərilər adından.*

Hörmətli Məmməd Emin Rəsulzadə!

Bu anda qəlblərimiz hüzn və iztirab içində əzilərkən yeganə təsəllimiz 28 maydır. Bu ümid və inamla əziz şəhidlərimizin mənəvi hüzurunda hörmətlə əyilir, sizə və dərnək arkadaşlarımıza başsağlığı göndəririk.

*Amasiya, 27 aprel, 1954.*
*Yasin Keyhan.*

Hörmətli Məmməd Emin Rəsulzadə!

27 aprelin 34-cü ildönümünü əziz şəxsiyyətinizdə bütün vətəndaşlarıma təziyət edir, hörmətlərimi çatdırıram.

*İstanbul, 27 aprel 1954.*
*Əli*

**Stalin haqqında xatirələri.** 1954-cü il may ayının 21-də İstanbulda gündəlik çıxan böyük «Dünya» qəzeti Məmməd Əmin Rəsulzadənin Stalin haqqında xatirələrini çap etdi, Stalin haqqında xatirələri bütün Türkiyənin marağına səbəb oldu və çoxları kimliyini öyrənmək istəyirdi. XX əsrin ən qəddar cəlladı bütöv imperiya yaradıb ona otuz bir il başçılıq etmiş diktatoru belə yaxından tanıyan Məmməd Əmin Rəsulzadə kimdir?

Hələ Stalin haqqında xatirələri çap olunmazdan qabaq «Dünya» qəzeti 1954-cü il 18 may nüsxəsində yazıların çıxacağı anonsunu və Məmməd Əmin Rəsulzadənin bir fotosunu dərc edərək altda bu sətirləri yazmışdı:

«Rəsulzadə Məmməd Emin bütün həyatı boyunca gərək kültur və sosial sahələrdə, gərək siyasi sahədə Azərbaycan türklüyünün hür və müstəqil dövlət yaşayışına hazırlamaq, yetişdirmək və dolğunlaşdırmaq üçün gecəli-gündüzlü insan taqətinin fövqündə bir qeyrət sərf etmişdir. Rəsulzadə Məmməd Emin Azərbaycan dövləti fikrinin və istiqlal eşqinin canlı bir timsalı, sönməz bir məşəlidir.

Azərbaycanın gənc istiqlalçı nəsli Emin Rəsulzadəni 20-ci əsr Azərbaycan istiqlal savaşının ən canlı simvolu olaraq tanımaqdadır. Onun hər əsərində, hər şüarında istiqlal yolunun silinməz izləri və aydınladıcı işıqları sezilir».

«Dünya» qəzeti 28-ci nömrəsində (1954-cü il iyunun 20-ə qədər) Məmməd Əmin Rəsulzadənin yazılarını «Bir türk milliyyətçisinin Stalinlə ihtilal xatirələri» başlığı ilə çap etmişdi.

Həmin o günlərdə bütün Türkiyədə onun xatirələrini oxuyur, Stalinlə bu qədər yaxın olmuş bir «türk milliyyətçisindən» danışırdılar. O zamana kimi bəlkə də çoxları Məmməd Əmin Rəsulzadənin «Azərbaycan davası»ndakı mübarizəsinin kimlərlə toqquşmasını bilmirdilər. Çünki o heç zaman özü haqqında danışmağı sevməzdi. Bəziləri isə Məmməd Əmin Rəsulzadəni; «iki il milli hökumətə başçılıq etmiş şəxs» kimi tanıyırdılar. Amma indi çoxları təəccüb içində qalmışdı. Əsrin ən böyük cəlladı Neronu ilə birgə iş görmüş, yaxınlıq etmiş və Azərbaycanın müstəqilliyi uğrunda bu qədər iş görmüş şəxsi yaxşı tanımayıblar. Bəli, vardı beləsləri. Və indi sərt faktlar qarşısında donub qalmışdılar.

Amma ondan ötrü qopan bu hay-küy adi bir hal idi. Onu Stalinlə yaxın tanışlığının belə maraqla qarşılanması qəti maraqlandırmırdı. O Stalinlə bağlı xatirələrini də belə reklam və səs-küy üçün yazmamışdı. Onun öz ağrıları vardı. Bütün gördüyü işlər, yazdığı adi sözlər belə bu ağrını sağaltmağa xidmət edirdi. Bu ağrı Azərbaycan ağrısı idi. Onu hər zaman göynədir, içərisini sızladırdı. O əsarətdə qalan vətənini xilasa çalışır və bütün şüurlu həyatını da bu işə sərf edirdi. Stalin haqqındakı xatirələri də əslində apardığı «Azərbaycan davası»nın davamı idi. O xatirələrin çox həqiqətləri üzə çıxaracağını düşünürdü. Bu xatirələrdə məqsəd Stalinlə necə tanışlığını, görüşüb, söhbətlər etdiyini oxuculara çatdırmaq deyil, əsasən Azərbaycanın hansı xəyanətkar üsullarla işğalını geniş ictimaiyyətə demək idi. Çünki Stalin o zaman bolşeviklər hökumətində yüksək səlahiyyətə malik deyildi, hər iş, hər fitnə və Azərbaycanı işğal planı ondan yox, Lenindən, bir də çar imperiyasının əvvəlki torpaqlarını yenidən Rusiyaya qaytarmaq istəyən millətçilərdən başlayırdı. Məmməd Əmin Rəsulzadə bu faktları Stalinin dilindən oxuculara çatdırır, onları acı həqiqətə inandırır. Azad bir dövlətə bolşeviklərin qanlı təcavüzündən xəbər verir.

O, Stalin haqqındakı xatirələrini 1953-cü ildə yazmışdı. Lap çoxdan da yazıb çap etdirə bilərdi. Amma bir şeyi diqqətdən qaçırmamışdı: Stalinin hələ sağ qaldığını və əlində möhkəm iftira, böhtan yayan təbliğat maşınının olduğunu. Olsun ki, onun yazdığı xatirələri diktatoru olduğu dövlətin mənafeyi baxımından Stalin qəbul etməyəcək, hər yana səs-küy yayacaq ki, bunlar düzgün deyil, belə söhbətlər olmayıb. Onda bu xatirələri təsir gücü, maraq dairəsi azalardı. Geniş ictimaiyyətdə şübhə yaradardı. Maraqla oxusalar da, həqiqət faktlarına əhəmiyyətsiz yanaşırdılar.

O Stalinə nifrət edirdi. Onun haqqında danışanda bu münasibətini açıqca bildirərdi. Stalini «türk xalqlarının cəlladı» adlandırardı. Bir zaman yaxın olmağına, evlərinin çörəyini yeməyinə, bir neçə dəfə onu ölümdən qurtarmağına baxmayaraq Stalini sevməzdi. O yaxşı bilirdi ki, dünənki bir quldur hansı yolla hakimiyyət başına gəlib. Həmin hökumətin də hansı üsulla qurulduğunu bilirdi. Ümumiyyətlə, bu sistemin bütün daxiliyyatından yaxşı xəbərdar idi. Çünki bir zaman onun özü də bu sistemi qurmaq istəyən sosialist bolşeviklərlə yaxınlıq etmişdi. Amma sonradan bunların «diktatorluq və terror»la nəfəs aldığını, bu yolla

hakimiyyətə keçmək istədiyini biləndə onlardan uzaqlaşmışdı. Stalin isə Leninin ideyalarından qanadlanan bu qanlı sistemi möhkəmləndirdi, özünün diktatorluq aləminə çevirdi. Heç şübhəsiz ki, Stalin onun yanında «işıqlı kommunizmdən», yaxud «sosializmin» təntənəsindən danışmazdı. Çünki Məmməd Əmin Rəsulzadənin bu sözlərə yalnız güləcəyini düşünərdi. O Məmməd Əmin Rəsulzadənin sosializmin və proletar diktaturasının «mahiyyətini» dərindən dərk etdiyini bilirdi. Bilirdi ki, Məmməd Əmin Rəsulzadə Lenin və onun bu adlar altında, hakimiyyət başında qalmaq istəklərini yaxşı anlayır. Yox, Stalin Məmməd Əmin Rəsulzadəni yaxşı tanıyırdı. Stalinin ona böyük hörməti vardı. Həmişə mehribanlıqla danışar, müraciətlərində də səmimi olardı. O türk millətindən olan yeganə azərbaycanlı idi ki, Stalin onu ölümdən qurtarmışdı. Minlərlə türkü «uf» demədən qətlə yetirən Stalin Məmməd Əmin Rəsulzadənin taleyindən narahat olmuşdu. Öz keçmiş dostuna borcunu qaytarsa da hər halda elə bir qəddar adamın Məmməd Əmin Rəsulzadəni unutmayıb terror maşınından salamat çıxarmağı adi iş deyildi.

Stalinin Məmməd Əmin Rəsulzadəyə rəğbəti vardı. Deyilənə görə, 30-cu illərdə bir görüşdə Məmməd Əmin Rəsulzadənin ünvanına kimsə kəskin sözlər deyib. Stalin acıqlanıb ki: «Tanımadığın adam haqqında elə sözləri danışma!»

...Məmməd Əmin Rəsulzadə Stalin haqqında xatirələrini yazıb çap etdirməklə özünün «Azərbaycan davası»nı davam etdirirdi.

**Ankara. 1954-cü il, 28 may.** Bu gün Azərbaycan istiqlalının otuz altıncı ildönümüdür. Otuz altı il bundan əvvəl Azərbaycan azad dövlət elan edilmişdi. Az keçməmiş xalqın başı üzərində üç rəngli bayraq dalğalandırılmışdı.

Düz otuz altı il idi ki, o harda olursa-olsun bu günü yad edir, toplantı keçirib həmvətənlərini başına yığır, 28 mayın istiqlaliyyət günü olduğundan danışır. Deyirdi ki, bu yüksək, şanlı bir gündür. Elə bəşəri istəkdir ki, biz Azərilər həmişə ona doğru can atmışıq və son nəfəsimizə kimi də yolunda vuruşacağıq.

28 may bayramı Ankaradakı Azərbaycan Kültur Dərnəyi tərəfindən qeyd olunur. Cümə günü saat altı radələrində Dərnək üzvləri və qonaqlar binaya toplaşırlar. Əbdül Vahab Yurdsevər 28 mayın böyük tarixi əhəmiyyətindən danışır.

...Sonra söz ona verilir. Bu onun sonuncu 28 may bayramıdır. Otuz altı il əvvəl isə dostları ilə birlikdə indi işığına toplaşdığı günü xalqın tarixinə qızılı hərflərlə həkk etmişdilər.

Otuz altı ilə əvvəl olmuşdu bu hadisə.

O adamlar da həyatda yox idi, hamısı köçüb getmişdi. Çoxunu isə qətlə yetirmişdilər. Sağ qalan o idi yalnız. Və o vaxtdan bəri mərhum dostlarının, azad Azərbaycanı quranların ruhunu şad etməkdən ötrü həmişə bu bayramı keçirirdi. Onların adını yad edir, gənclərə xatırladırdı.

28 mayın 36-cı ildönümü bayramında yenə onun hamını sehrləyən alovlu sözləri eşidilirdi:

«28 may 1918-ci il milli Azərbaycan hərəkatının ən böyük günüdür. Bundan 36 il əvvəl milli şura tərəfindən Azərbaycanın istiqlalı elan olunmuşdu; Bu tarixdə türk və müsəlman aləmində ilk dəfə milli xalq hakimiyyətinə dayanan bir cümhuriyyət qurulmuşdur.

Yüz il əvvəl ayrı-ayrı 9 xanlıq halında çarlığın hakimiyyəti altına düşən Azərbaycan Birinci Dünya hərbi nəticəsində çökən Rusiya imperatorluğunun zülmü altından siyasi bir bütün, bir millət, bir dövlət olaraq qalxdı...»

28 may bayramında xalqın həm vətənpərvər oğullarını, həm də xəyanətkar adamlarını gənclərə tanıdırdı:

«Parlamentə və hökumət xaricində Firidun Köçərlilər, Piri Mürsəlzadələr, İslam Qabilzadələr, Mirzə Abbaslar, müəllimə Vəsilə xanımlar, Kazımzadə Kazım bəylər, Rəfibəyli Xudadat bəylər, şair Hüseyn Cavid ilə Əhməd Cavadlar, gənc zabitlərdən Ağa Kərim Əlizadə, Ağa Səlim Rəhimzadə, Salman Rəhimzadə, İbrahim Axundzadə, doktor Dadaş Həsənzadə və sairləri kimi qurbanlarımız və şəhidlərimiz vardır. Azərbaycan cəlladı Bağırovun bir hesabatında qeyd olunduğu kimi 52-dən çox qanlı xalq üsyanlarında fədakaranə ölən minlərcə igid partizanlarımızı unutmayalım. Gənc ordumuzun şəhid komandanları Həmid Qaytabaşıları, Süleyman Paşaları, Tlexas Murad Gərayları, İbrahim Ağaları, Səlimov Həbib bəyləri və bir çox digərlərini də xatırlayalım.

Adları və xatirələri hamımıza əziz olan Fətəli xan, Nəsib bəy, Həsən bəy, Səməd Paşa, Əbuzər bəy, Məmməd Bağır bəy, Müseyib, Murtuza bəy, Rəhim bəy və sairə kimiləri ilə bərabər düşmən tərəfinə keçmiş və milli iradəyə xəyanət etmiş Qarayevlər, Qarabəyovlar kimi bədxahlar da parlamentdə üzv olmuşlardır...

...Bunu bilməliyik ki, davamız üç kişinin aparacağı bir dava qısır bir dava deyildir. O nəsildən nəslə dövr edən bir davadır. Təcrübəli böyükləri ilə dəliqanlı gənclərini qopmaz ideal və fikir birliyi ilə bir-birinə sıx bağlayan bir davadır».

...O 28 may günündə dediyin sözlər hamının qəlbini coşdurur, «Azərbaycan davası»nı, yəni vətənin istiqlaliyyət mübarizəsini aparmağa ruhlandırır. Ona görə də sözlərini qurtaran kimi sürəkli alqış sədaları eşidilir. Hamı sevir səni, özünə mənəvi dayaq, ümid yeri bilir.

Kültur Dərnəyinə toplaşanlar 28 may bayramını yalnız ağrılı sözlərlə qeyd etmirlər, axırda Azərbaycan musiqisindən parçalar səslənir, rəqslər, oyunlar keçirilir, qonaqlara Azərbaycan qaydasınca tez-tez çay verilir.

Saat doqquzda toplantı qurtarır. 28 may bayramı beləcə başa çatır. Bu sonuncu isqiqlaliyyət bayramıdır ki, təntənə ilə yola salır. Bir daha 28 mayın xoşbəxt çöhrəsini bu Kültur Dərnəyinə gəlib yad etməyəcək.

Almaniya. Münhen şəhəri. «Qurtuluş» radiosunun Azərbaycan şöbəsi. Yanvar ayıdır. «Qurtuluş» radiosu Məmməd Əmin Rəsulzadənin yazdığı bir məqalənin mətnini Azəri türklərinə çatdırır. Yazıda mühüm hadisədən – Azərbaycan Cümhuriyyətinin böyük dövlətlər tərəfindən tanınmasından danışıl ır. Yazıda Azərbaycan şivəsini mühafizə edib. Fikirləşib ki, bəlkə yazdığı sözlər

dəmir qəfəsi dəlib içəri keçəcək və əsir həmvətənləri həqiqət sözünü eşidəcək. Amma ümidi az idi, çox az idi buna. Yaxşı bilirdi ki, indi dustaq vətənindəki azərbaycanlıların başı qarışıb kommunizm qurmağa. Və həqiqət işığından bu bixəbərlər kommunizmin zirvəsinə doğru elə inamla irəliləyirlər ki, onları tutub saxlamaq mümkün deyil. Yaxşı bilirdi bolşeviklərin qanlı terror süzgəcindən keçmiş Azəriləri indi yalnız bir problem düşündürür: beşillik plan, — «Vətən»ə Moskvaya çoxlu yağ göndərmək, Rusiyaya müftə göndərilən neftin hasilatını çoxaltmaq, lazım gələndə ermənilərə torpaq vermək. Bu idi yurddaşlarını düşündürən, narahat edən. Qalan istəkləri çoxdan qara parçaya büküb atmışdılar quyunun dibinə. O milli hisslər bağlamasını quyudan çıxarıb açmaqmı olardı? Buna kim cəsarət edərdi? Açardın, cəzanı da alardın. Açardın, elə həmin andaca «gözə görünməzlər» — Pankratov «osobı otdelinin» layiqli davamçıları —«DTK» işçiləri səni terror maşınının qanlı çarxlarına salıb parça-parça edərdilər. Ona görə də adamlar susur və keçmişin həqiqətləri haqqında düşünmək belə istəmirdilər.

O, vətənindəki vəziyyəti yaxşı başa düşürdü. Bu haqda məlumatı vardı. Amma həqiqətin işığını az da olsa o adamlara yetirmək istəyirdi. Düşünürdü ki, qoy onun səsini eşidəndə lap radionu bağlasınlar, qorxudan qaçıb gizlənsinlər. Eybi yox, təki olsun. Təki bilsinlər ki, onların dünənində bir işıqlı dövr — «o Azərbaycan» dövranı olub. Çünki bu həqiqəti eşidə-eşidə axır hərəkətə gəlib qaranlıq qəfəsdən çıxmağa çalışacaqlar.

…«Qurtuluş» radiosu onun sözlərini azərbaycanlılara çatdırır:

«Bundan 36 il əvvəl 1918-də dörd Qafqasiya cümhuriyyətinin istiqlalı elan olunmuşdu...

Cümhuriyyətlərin Dövlətlər tərəfindən tanınması Qafqasiyalı xalq kütlələrində böyük bir sevinc doğurdu. Azərbaycan ilə Gürcüstanda bütün xalq günlərlə şadlıq nümayişləri etdi.

Millətin bu ümumi sevincinə şərik olmayan ancaq bir zümrə vardı: bolşeviklər sözdə millətlərin azadlıq və istiqlallarına hörmət etdiklərini elan edən və Lenin ilə Stalinin imzalarıyla «millətlər istərlərsə, Rusiyadan ayrılıb tamamiylə müstəqil dövlətlər qura bilərlər!» deyən bunlar işdə əksinə hərəkət etdilər. Qızıl ordunun üstün qüvvətləriylə Qafqasiya cümhuriyyətlərini basdılar və zorla sovetləşdirdilər.

Az bir zaman içində əldə silah olaraq müdafiəyə qalxan xalq kütlələrini vəhşiyanə bir surətdə əzdilər. Milli dini və məhəlli nə qədər müəssisə varsa namusunu yıxdılar. Sovetlərin hər tərəfində qurduqları, tarixdə misli görünməmiş istibdad rejimini burada da bərpa etdilər....

Yalan və aldadıcı şüarlarla məmləkətə girən bu zülmkarlar əvvəlcə bu yalanlara uyan yerli kommunistlərdən bir çoxunu dəxi, suyu sıxılmış limon kimi, sonradan bütün işlərdən atdılar. Sözdə hər nə qədər bir «Sovet Azərbaycan cümhuriyyəti» varsa da, həqiqətdə bu cümhuriyyət sovet imperatorluğunun hər haqq və səlahiyyətdən məhrum bir vilayətindən başqa bir şey deyildir. Sovet

Azərbaycanındakı bütün idarələr Moskvadan gələn əmrlərə və oradan göndərilən amirlərə tabedir...

...Lakin dünyadakı bütün azad insanlar və millətlərlə bərabər haqq və səlahiyyətə sahib olmaqdan siz qətiyyən məyus olmayın. Azadlıq və insanlıq haqları bütün dünyada qalib olacaq və o zaman siz də 1918-ci ildə olduğu kimi, yenidən azad olacaqsınız.

O gün uzaq deyildir!»

Məmməd Əmin Rəsulzadə isə ömrünün bu son aylarında ağrıdan qıvrılır, fəryad qoparır, yatan Azəriləri oyatmağa çalışır, gözləri önündəki qaranlıq pərdəni qaldırmaq istəyirdi. İndi də xalqının görkəmli ziyalısı, yazıçısı Mirzə Fətəli Axundov haqqında həqiqətləri həmvətənlərinə çatdırır.

Almaniya. Münhen şəhəri. «Qurtuluş» radiosunun Azərbaycan şöbəsi, 1955-ci il, fevral ayı.

Məmməd Əmin Rəsulzadənin Azərbaycan xalqına çatdırdığı son sözlər. Bu sözlər Mirzə Fətəli Axundovun ölümü münasibətilə yazdığı məqalədən götürülüb və radioda oxunmuşdur:

«...Mirzə Fətəli «Şərq istibdadı»nın yumşaldılmasını istəyirdi. Halbuki bolşeviklərin qurduqları diktatorluq rejimi ən geniş fantaziyaları belə kölgədə buraxan bir dəhşət və vəhşət tablosu ərz etməkdədir. Bu tarixdə rastlanmayan bir zülm və mütləqiyyət rejimidir.

Mirzə Fətəli, Batı Avropa mədəniyyətini idealizə edirdi. Sovetlər isə burjua adını verdikləri bu mədəniyyətə arxalarını çevirmiş, ona amansız bir hərb elan etmişlərdir.

..Kommunizmin ana fikri olaraq tərvic olunan allahsızlıqdan bəhs edilərkən bolşeviklər çox dəfə Mirzə Fətəlinin adını anırlar. Onun ateistliyindən bəhs açırlar. Bu bir iftiradır. Bu yalana əsla inanmayın. Mirzə Fətəli yuxarıda söyləmiş olduğumuz kimi, Allah fikrinə, yəni mütləq həqiqət idealına qarşı qətiyyən mübarizə etmirdi. Onun mübarizə etdiyi şey inam və düşüncəyə mane olan sxolastik təfəkkür tərzi idi. Bu növü düşünüş tərzi indi bütün sovetlərdə hakimdir...».

* * *

...Ankarada, Sakariyyə caddəsində yaşayanlar bir nurani sifətli adamın hər gün həyətdə gəzişdiyini görürdülər. Çoxları onun kim olduğunu bilmirdi. Amma kədərli baxışından, qəmgin görünüşündən həyatda çox əziyyətlər çəkdiyini hiss edirdilər. Qoca ömrünün son günlərini yaşayırdı. Ömrünün yaşıl ağacının yarpaqları saralmış, indi yavaş-yavaş tökülməyə başlayırdı. Həyətdə gəzdiyi yerdə birdən dayanır, uzun müddət fikrə gedir, kədərli gözlərini harasa—lap uzaqlara dikib baxırdı. Görənlər bəzən təəccüblənirdilər, qocaya nə olub ki, belə qəmli-qəmli dayanıb fikrə gedir. Amma adamlar acı həqiqətdən xəbərsiz idilər.

Bilmirdilər ki, bu qocanın ürəyi vətənindən—indi əsirlikdə qalan yurdundan nigarandır. Hərdən beləcə dayanıb fikrə getməyi də özündən asılı deyil. Bu vətən ağrısı, yurd ağrısıdır ki, birdən içərisindən qopub sızlayır və onu tərpənməyə qoymur.

Ankarada, Sakariyyə caddəsində yaşayanlar tez-tez həyətdə dayanıb dərin fikirlərə gedən bir qoca görürdülər. Bu qoca ömrünün son günlərini yaşayırdı. Amma qoca həyatdan, dünyadan narazı köçürdü. Haqqın, həqiqətin həmişə ayaq altda tapdandığını görürdü. Azad Türkiyənin havasını udub yaşasa da qocanın ürəyində otuz beş il idi ki, ayrı düşdüyü vətən həsrəti, Azərbaycan dərdi alovlanırdı.

Qoca ömrünün son günlərini yaşayırdı...

*Doktor Məhəmməd Kəngərli*: Vəziyyəti qəfildən pisləşdi. Ölümündən təxminən bir həftə əvvəl həyat yoldaşı Leyla xanımla bizə qonaq gəlmişdilər. Əhvalı yaxşı idi. Gedəndən iki gün sonra Leyla xanım zəng vurdu ki, bəs Emin bəyin şəkəri qalxıb, vəziyyəti pisdir. Aparmışıq xəstəxanaya.

*Professor Əhməd Qaraca:* Ölümündən bir gün əvvəl martın 5-də Əbdül Vahab Yurdsevər, doktor Həmid Yaşad, doktor Həmid Ataman və mən getdik xəstəxanaya—Emin bəyi yoluxmağa. Görüşdü bizimlə. Yataqdan azca qalxıb balınca dirsəkləndi. Gümrah görünürdü. Dedi ki, operasiya olmalıyam, amma şəkərim imkan vermir. Sonra Həmid bəydən dərnək haqqında soruşdu, Vahab bəyin jurnala nə yazdığı ilə maraqlandı. Biz otaqdan çıxanda da hiss olunurdu ki, vəziyyəti yaxşıdır.

Gecə əmim oğlu Bəhman Turan (doktor idi) evə gəlib dedi ki, Emin bəyin vəziyyəti ağırlaşıb. Şəkər qomasına girib, halı çox pisdir...

1955-ci il, martın 6-sı. Ankara universitetinin tibb fakültəsi xəstəxanası. 2-si daxiliyyə klinikası. Otağa çoxlu adam toplaşıb. Leyla xanım, Məmməd Əli Rəsuloğlu, Əbdül Vahab Yurdsevər, Kərim Odər, İbrahim Bədəl, Heydər Atak. Məhəmməd Kəngərli və başqaları həyəcan içində dayanıb ölüm yatağına düşmüş xəstəyə baxırlar. Xəstə ölümlə çarpışır. Ölümün qara caynaqları ona sarı uzanıb. Xəstə son gücünü, qüvvətini toplayıb istəyini, arzusunu bir ünvana çatdırmaq istəyir. Otaqdakılar xəstəyə baxır, onun huşsuz vəziyyətdə olduğunu, yoxsa nə isə düşündüyünü bilmək istəyirdilər.

Xəstə ölümün addım səslərini getdikcə yaxından eşidir və ən böyük arzusunu qəlbinin hələ sönməmiş hərarətiylə doğma yurduna—vətəni Azərbaycana göndərirdi:

— Ey Azəri gənci! Bu ölüm ayağında, son nəfəsimdə üzümü sənə tuturam. Eşit ağrılarımı, dediklərimi yaddaşına köçür.

Neçə əsrlər boyudur ki, uca Qafqaz dağlarında bir ağ quş zəncirlənib. O quş hər zaman çırpınır, çırpınır, zənciri qırmaq istəyir. Amma gücü çatmır. Zəncir çox bərkdir. Ağ quşu zəncirlənmiş halda da sakit buraxmırlar. Qara dimdikli qartallar hər dəfə gəlib onun sinəsini parçalayır, qanını axıdıb gedirlər. Amma o quş ölmür,

dözüb dayanır, özünə qüvvə toplayır. Ağ quş qüvvətlənən kimi qara qartallar yenə üstünə hücum çəkir. Ağ quş inildəyir, əzab çəkir. Ağ quşun fəryadından yer, göy də davam gətirməyib ağlayır, göz yaşı tökür. Ağ quşu hamı sevir, çünki o mehriban və səxavətlidir. Amma heç kəs ağ quşa kömək əlini uzada bilmir. Çünki qara qartallardan qorxurlar. Qara qartallarda nə mərhəmət var, nə də xeyirxahlıq. Onlar dünyaya yalnız işgəncə verməyə gəliblər. Qara qartal özü xoşbəxt yaşamağa can atmaz. Qara qartal başqasının da səadətini arzulamaz. Qara qartal halal çörəyi yeməz. O həmişə ağ quşun sinəsini parçalayıb qanını içməklə dolanar. Bir gün qəribə hadisə baş verdi. Yaxın yurddaşlarımızla toplaşıb min bir müşkülatla, əzab-əziyyətlə ağ quşu xilas etməyə getdik. Qara qartallar bizi görüb üstümüzə hücum çəkdilər. Qanlı çarpışmalar oldu. Qartallar vəhşi caynaqları, dimdikləri ilə bədənimizi deşik-deşik etdilər. Amma biz qorxu-hürkü bilmədən ağ quşu xilas etmək istəyilə həvəslənib zərbələrə dözürdük. Ağ quş onu əsarətdən qurtarmağa gəldiyimizi görüb həyəcanlanır, qanadlarını sərt qayaya bağlamış zənciri dartıb qırmaq istəyirdi. Ağ quşun bu çırpıntısı bizə sanki qüvvət verirdi. Axır ki, döyüşdə qalib gəldik. Qara qartalları qovub uzaqlaşdırdıq. Ağ quşun qanlı zəncirlərini qırıb azadlığa buraxdıq. Heç bilirsənmi ağ quş əsarətdən qurtulmağına necə sevinirdi?! Neçə il idi ki, bağlı qanadlarını bütün genişliyi ilə açıb mavi səmalarda xoşbəxtliklə uçur, bizə azadlıq nəğməsi oxuyurdu. Ətrafdakı bütün canlılar ağ quşun azad olub xoşbəxtliklə qanad çalmağına sevinir, ona gözaydınlığı verirdilər. Güllər, çiçəklər təbəssümlənib ətir və rayihələrini ətrafa yayır, ağ quşun gəlişini pişvaza çıxırdılar. Adamlar bəxtəvərlikdən ağlayıb göz yaşı tökür, «ağ quş, ağ quş» deyib onu səsləyir, xoşbəxt ömür arzulayırdılar.

...Amma bu xoşbəxtlik uzun sürmədi. Qara qartallar qüvvə toplayıb yenə ağ quşun üstünə hücum çəkdilər. Bu dəfə hamı ayağa qalxdı, sevimli ağ quşu qorumağa çalışdılar. Amma bacarmadılar. Çünki qara qara qartallar sayca çox və güclü idi. Minlərlə insanın qanı axıdıldı ağ quşun yolunda. Axıdılan qandan iri gölməçələr yarandı. Qartallar hücum çəkib hər yanı dağıtdılar; evləri, eşikləri yandırdılar, körpələrə, qocalara belə rəhm etmədilər. Ağ quşu əsarətə alıb yenidən sərt qayalara zəncirlədilər. Yenidən sinəsini parçalayıb qanını sormağa başladılar.

Ağ quş indiyə kimi də qayalara zəncirbənd olub ağrıdan inildəyir. Qara qartallar hələ də ağ quşun sinəsini didib-parçalayırlar…

Ey gənclik! Ey Azəri gənci! Eşit sözlərimi! Son ümidim, qüvvətim sənsən! Arzumu, istəyimi sənə deyib gedirəm!

Eşit, dinlə məni! O qayalara zəncirbənd olan, sinəsini Qara qartallar parçalayıb qanı axıdılan ağ quş sənin Vətənindir! O ağ quş Azərbaycanımızdır! İndi ağrıyır, əzab çəkir. Onun qanadlarını sərt qayalara bağlayıb uçmağa qoymurlar! Amma inanıram, inanıram ki, sən o quşun zəncirlərini qırıb parça-parça edəcək, azadlığa buraxacaqsan! Bunu mütləq edəcəksən!...»

...Xəstə ölümlə çarpışırdı. Otaqdakılar həyəcan içində dayanıb ona baxırdılar:

*Məhəmməd Kəngərli:* — Tez-tez alnına tər gəlirdi. Biz da dəsmalla alnının tərini silirdik.

—Xəstə son gücünü, qüvvətini toplayıb istək və arzusunu uzaq vətəninə— ona müqəddəs olan bir ünvana çatdırırdı:

—Azəri gənci! Eşit sözlərimi! Söz ver ki, sən yenə ayağa qalxacaq, üstündəki qorxu kölgəsini kənar edəcək, xalqın istiqlaliyyəti yolunda dönməz olacaqsan! Azəri gənci, bir şeyi də unutma! O azad vətəni quranda, istiqlaliyyət carçısı olan ağ quşu azadlığa buraxanda, bu yolda qanı tökülənləri həmişə xatırla, yada sal. Azad vətən onların məzarıstanlığından başlayır! Bu həqiqəti həmişəlik dərk et! Bilirsənmi ki, o dustaq vətənində niyə şəhid adı çəkilmir? Bilirsənmi ki, niyə ordakı şəhid qəbirlərini dağıdıb məhv etdilər? Həqiqət izini itirməkdən, azadlıq istəyini yaddaşlardan silməkdən ötrü belə amansız oldular. Amma sənə inanıram, inanıram ki, nahaq qanı yerdə qoymayacaq, düşməndən qisas alıb şəhid olanların ruhunu şad edəcəksən! İndi son vəsiyyətimə qulaq as: «Ey gənclik, sənin öhdəndə böyük bir vəzifə var: səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla yüksəldərək dedi ki:

—Bir kərə yüksələn bayraq bir daha enməz!

Əlbəttə ki, sən onun ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya qazi, ya da şəhid olacaqsan!

—Qəfildən xəstə hərəkətsiz oldu. Bayaqdan asta-asta döyünən ürəyi həmişəlik dayandı. Otaqdakılar hönkürtü ilə ağlamağa başladılar. Saat 22.45 dəqiqə idi.

*Doktor Məhəmməd Kəngərli:* — Ağlayırdıq, hamımız ağlayırdıq. Ağlamamaq mümkün idimi? Emin bəy kimi insanı itirmişdik... Onun dediyi son söz Azərbaycan oldu. Sonra mələfəni üstünə çəkdik. Üstünü ağla örtəndə son dəfə Emin bəyə baxdım. Sifəti həmişəki kimi nurlu və işıqlı idi...

Daxiliyyə klinikasında azərbaycanlı mühacirlər acı-acı ağlayırdılar. Hamının gözündən ürəyinin ağrısı olan yaş tökülürdü.

*Heydər Atakın acı xatirəsi*: — Ağır dərd hamımızın belini qırmışdı. Hər şeyi unudub ağlayırdıq. Birdən otaqda Leyla xanımı görmədim. Ürəyimə nə isə damdı. Tez Əbdül Vahab bəylə, Həmid Atamanla birlikdə klinikadakı otaqları axtarmağa başladıq. Otaqlardan birinin qapısı möhkəm bağlı idi. Qapını açıb içəri girdik və gördüyümüz mənzərədən donub qaldıq: Leyla xanım otaqdakı qazı açıb özünü zəhərləyib öldürmək istəyir. Tez onu xilas etdik.

Leyla xanım sevimli həyat yoldaşı Məmməd Əmin Rəsulzadənin ölümünə dözə bilmirdi.

...Gecə səhərə kimi yanında qaldılar. Hamısı halsız, pərişan, ağır dərd içində. İçəriləri ağrıya-ağrıya heç zaman unutmayacaqları o böyük insana son borclarını verirdilər.

Ankara radiosu martın 7-də gecə saat 22.45-də Məmməd Əmin Rəsulzadənin vəfatı xəbərini bütün dünyaya yaydı.

1955-ci il, 8 mart. Ankaranın Hacı Bayram Camisi. Məmməd Əmin Rəsulzadənin dostları onun tabutu başında fəxri qarovulda dayanıblar. Ankara şəhər valisi Kəmal Aygün də başsağlığı verməyə gəlib.

Saat 12.30-da cənazəni Hacı Bayram camisindən götürüb Əsri məzarıstanlığına aparmağa başladılar. Cənazənin önündə Azərbaycan Kültur Dərnəyi, İdil-Ural türkləri, Cəfər Seyid Əhməd Krımər, Krım türkləri, Yardımlaşma dərnəyi, Milli kitabxana, Dil və tarix-coğrafiya fakültəsi, türk kitabxanaçılar Dərnəyi, Qarslı yüksək təhsil tələbələrinə Yardım Dərnəyi, Azərbaycan külturunu yaşatma dərnəyi, Atamanlar, Araslılar ailəsi, hür polşalılar və Ankaranın keçmiş Polşa səfiri, Qəzetçilər cəmiyyəti, polşalı dostları, Əmlak və Kredit bankı, hakimiyyət qəzeti tərəfindən göndərilən çələnglər vardı. Çələngi aparanların arxasınca polis dəstəsi, polisdən sonra mərhumun tabutu və tabutun arxasında onun yoldaşı, dostları gedirdilər.

Tabut Ankara Ədliyyə sarayına qədər əllər üstündə daşınaraq burada maşına qoyuldu. Sonra tabutu Əsri məzarıstanlığının 156 ada 12 parsel nömrəli qismində açılan məqbərin yanına gətirdilər.

Göz yaşları içərisində dəfn mərasimi başlandı. Qara tabutu qaranlıq məzara endirəndə dözə bilmirdilər. Elə bir insanı necə qıyıb qara torpağın ağuşuna verəydilər. Amma amansız taleyin acı hökmünə baş əyməmək mümkün deyildi. Tabut qara və soyuq məzara tapşırıldı. Hönkürtülər, ağlaşma səsi Əsri qəbiristanlığını titrədirdi. Dözmək çətin idi, çox çətin idi bu əbədi vidalaşmaya dözmək. Torpaq öz övladını qoynuna alırdı. İnsanın ömrü, günü harada keçirsə keçsin, son dayanışı, açacağı son qapı torpaqdır.

Adamlar ağlayırdı, göz yaşı tökürdü. O qara torpağa basdırmalı adam deyildi axı!

Məzarı başında ilk sözü Əbdül Vahab Yurdsevər söylədi (Əbdül Vahab Yurdsevər də 1920-ci ildən sonra Azərbaycandan getməyə məcbur olmuşdu):

«Əziz arkadaşlarım!

Bu gün son yarım əsrlik türk tarixinin ən böyük və ən nurlu simalarından birini torpağa təslim edirik. Məmməd Əmin Rəsulzadə əlli ildən çox siyasi, ictimai, elmi, ədəbi çalışmaları, türklük və Azərbaycan istiqlalı uğrundakı qəhrəmanca savaşları ilə bu yüksək ünvana və şanlı mərtəbəyə çatmışdır. Emin bəy türk ulusunu qurtuluş yoluna təşkilatlandıran parlaq bir istiqbala doğru götürənlərdən biridir. Onun adı şanlı bir mübarizə simvoludur. Onun həyatı sönməz bir məşəldir. Onun yolu istiqbal və zəfər yoludur.

Emin bəyin böyüklüyü və yüksəkliyi ölümündən sonra daha bir qüvvət halında yaşamasında və əsərləri ilə bütün bir milləti yaşatmasındadır. Torpağa verdiyimiz onun vücududur. Başımızda və qəlbimizdə yaşayan onun ölməz böyük ruhudur.

Emin bəy çətin vəzifəsini yerinə yetirmiş və pak, açıq bir alınla istiqlal şəhidlərimizin hüzuruna çıxmaqdadır. Özünə haqdan rəhmətlər və sizlərə də səbir və mətanət diləyirəm».

Sonra söz professor Əhməd Cəfəroğluya verildi:

«Vücudunu bir gün göz yaşları içində Anadolunun əziz torpaqlarına əmanət etdiyimiz böyük ustad Məmməd Əmin Rəsulzadə milli hürriyyət və istiqlal uğrunda əlli ildən bəri şanla və şərəflə apardığı çətin mübarizə yoluna gənc yaşlarında Bakıdan başlayaraq Tehranda və İstanbulda eyni sövq və həyəcanla davam etmiş, hadisələrin seyrinə təkrar Azərbaycana dönmüş, orada yandırdığı müqəddəs qurtuluş məşəlini 1917-ci ildə Moskvada toplanan türk və müsəlman nümayəndələrinin tarixi qurultayına qədər götürmüş, orada inamı ilə qəlbləri tutuşdurmuş, dönüşündə Azərbaycanın rus zülmündən qurtuluşunda və istiqlalını elan edişində baş rolu oynamış, bolşevik istilasından sonra yenə yurdunu tərkə məcbur qalaraq Avropa məmləkətlərinə çıxmış...

Nə şərəfli bir həyat!

Cənabi haqq onu rəhmətlərinə qərq etsin və bizlərə də ona layiq olmağa nəsib etsin!»

Sonra türküstanlılar adından Məmməd Əmin Rəsulzadənin ən yaxın və köhnə dostlarından olan Tahir Çağatay danışmışdır:

«Bu gün türkçülərimizdən, qurtuluş başçılarımızdan Azərbaycan istiqlal hərəkatının banisi və rəhbəri, böyük, ustad Rəsulzadə Emin bəy fani dünya və onun sakinləri olan biz fanilərlə vidalaşır. Bu vidalaşmada biz fanilər ağlarkən Azərbaycan istiqlalının və türk qurtuluş hərəkatlarının əziz şəhidləri onu qarşılamaq və cənnəti əlada özünü gözləyən mümtaz məqamına mərasimlə götürməyə hazırlanırlar.

Azəri qardaş, ağlayırsan, qan ağlayırsan, haqlısan. Çünki qeyb etdiyin qiymət böyükdür. Yalnız burası sənin üçün bir təsəlli qaynağı olacaqdır ki, bu itkinin acısını, kədərini təkbaşına deyil, bütün türklüklə birlikdə daşıyacaqsan. Bu gün bütün inamlı türklük bir bütün olaraq ağlamaqda və matəm tutmaqdadır. Bu gün qoca Türküstanın otuz milyonluq türk xalqı sənin yanında yer almış kimidir.

Sənin böyük ruhun qarşısında əyilərək bütün qüvvət, qüdrət və səmimiyyətimizlə sənin göstərmiş olduğun yoldan ayrılmadan yüyürəcəyimizə söz veririk...»

...Həmin o günü Ankaranın Əsri məzarıstanlığında hönkürtü ilə ağlayan yetmiş üç yaşlı bir qoca da vardı. Bu ağır itki ona olduqca pis təsir etmişdi. Bu ölümdən sonra həmin qoca özünü dünyada tək-tənha hiss etdi. O adam Məmməd Əmin Rəsulzadənin əmisi oğlu Məmməd Əli Rəsuloğlu idi... Vətənsiz qalmış Məmməd Əli indi də əmisi oğlunu itirmişdi. Elə bu ağrıdan yanaraq deyərdi: «Keşkə mən öleydim, Emin bəy yaşayaydı».

...Axşamüstü matəm içində yananlar Azərbaycan Kültur Dərnəyinə toplaşdılar. Məmməd Əmin Rəsulzadənin xatirəsinə ilk matəm yığıncağı keçirildi.

Dərnəyin idarə heyətinin sədri Həmid Ataman Məmməd Əmin Rəsulzadənin apardığı «Azərbaycan davası»ndan danışdıqdan sonra Süleyman Təkinər, Əhməd Cəfəroğlu, Əbdül Vahab Yürdsevər çıxış etdilər....

**İstanbul matəm içindədir.** İstanbuldakı Azərbaycan külturunu tanıtma dərnəyi matəmə bürünüb. Matəm yığıncağını professor Əhməd Cəfəroğlu açır. Sonra hüznlü çıxışlar başlayır.

*Mirzə Bala bəyin çıxışı:*

«Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri Məmməd Emin Rəsulzadə 1955-ci il 6 mart gecəsi Ankara universiteti xəstəxanasında həyata göz yumdu...

...Milliyyətçi, istiqlalçı, demokrat və inqilabçı Rəsulzadə «İnsanlara hürriyyət, millətlərə istiqlal!» deyə dünyaya göz açdı və yenə «İnsanlara hürriyyət, millətlərə istiqlal» deyə həyata göz yumdu.

O prinsipə sədaqətin, məfkurəyə bağlılığın və bu yolda fədakarlıq, əzm və səbatın da bir timsalı idi. Çünki o tam mənasilə fəzilət sahibi, kamil bir insan idi.

Onun bizə yadigar qoyduğu böyük milli məfkurənin gerçəkləşməsi və Azərbaycanın yenidən istiqlala qovuşması uğrunda müqəddəs mübarizəyə eyni əzm və səbat ilə davam edəcəyimiz haqqındakı andımızı təkrarlayır, əziz xatirəsi önündə hörmətlə baş əyirik».

*Süleyman Təkinərin ağrısı:*

«Vaxtsız ölümüylə hamımızı dərin bir kədərə bürümüş olan milli Azərbaycan hərəkatının şanlı lideri Məmməd Əmin Rəsulzadə mərhum, bəşər tarixinin nadir, müstəsna şəxsiyyətlərindən idi...

Mərhum Rəsulzadə hər şeydən əvvəl bir Azərbaycan istiqlalçısıdır, lakin böyük tarixi həmlələr və hərəkatlarla dolu olan Azərbaycan istiqlal hərəkatının hər səhifəsi onun şərəfli adıyla sıx-sıxıya bağlıdır və o bu hərəkatın bir nömrəli mübarizi idi.

Mərhum Rəsulzadə böyük bir xalq xadimi idi, onun xalq xidmətində keçən mərhumiyyət dolu həyatının gələcək nəsillər üçün daima ən yaxşı bir örnək olacağına əsla şübhə edilməməlidir.

...Bu yaşanmağa dəyər səhifələri canlandırmaq həqiqətən bir səadət olacaq və bu səadətə çox, həm də həddindən çox türk gəncləri can atacaqlar».

*Həmdullah Sübhi bəyin sözləri:*

«Xanımlar, əfəndilər!

Ustadı uzun illərdən bəri tanıyıram. Onunla məmləkətin həm daxilində, həm də xaricində bərabər çalışmışıq. Eminlə «türk yurdu»nda, «türk ocağı»nda, Ankarada və Buxarestdə bir yerdə olmuşuq....

Çox qiymətli arkadaşımızı itirdik. Bədbəxt türk elləri bizə çox qiymətli övladlar göndərdi: Qaspirallı İsmayıl, Əli bəy Hüseynzadə, Ağaoğlu Əhməd, Yusif Akçora, Cəfər Seyid Əhməd, sədri Məqsudi və daha bir çoxları... Emin bəy

bunlardan biri idi... Türk millətləri üçün onların hürriyyət və istiqlalları yolunda can verənlərin röyaları təhəqqüq edəcəkdir».

*Sədri Məqsudi bəyin çıxışı:*

«Arkadaşlar!

Biz yaşda olanlara, 50 il özüylə bir ideal uğrunda bərabər çalışmış olanlara həyata göz yuman arkadaşı haqqında söz söyləmək çox çətindir. Məndən yeni bir şey gözləməyin. Biz də Rəsulzadənin tarixi qiymətini tanıyanlardanıq... Möhtərəm, rəhmətlik arkadaşım Rəsulzadə tanrının türklük aləminə göndərdiyi bir ərməğan idi».

*Cəfər Seyid Əhməd Krımər bəyin çıxışı:*

«Əziz qardaşlarım!

...Rəhmətlik əziz dostum Emin bəyi 1912-ci ildə «türk yurdu»da Cəmaləddin Əfqani haqqında yazdığı məqaləlәriylə tanıdım, 1917-ci il Moskva konfransında gördüm. Dostluğumuz bu tarixdə başladı.

Əziz arkadaşlar!

Tarixin gedəcəyi yolu sezənlər, onun dilədiyi işi görənlər tarixin malıdırlar. Emin bəy bu yolu seçdi, həyatının sonuna qədər bir an belə bu yoldan ayrılmadı. Fəaliyyəti və əsərləri ilə o tarixdə qaldı.

İslamda təcəddüd hərəkatını, türkçülük idealının işlənməsini, Azərbaycan istiqlalını, Qafqasiya millətlərinin konfederasionunu məhkum millətlərin qurtuluş davalarını incələyəcək olan tarix mütləq Emin bəyi tapacaqdır.

O bu surətlə özünü əbədiləşdirdi...

Artıq tarixin olan Emin bəy nə qəbrə sığar, nə də ona öldü deyilə bilər. Mübarək ruhunu da daima olduğu kimi hörmət və məhəbbətlə salamlaram».

*Professor Zəki Vəlidi bəyin nitqi:*

«Vaxtsız ölümü hamımızı matəmlərə qərq etmiş mərhum Emin bəy haqqında mən də xatirələrimi ərz edəcəyəm.

Biz Rusiya əsiri türklər 1917-ci il inqilabına qüvvətli bir zümrə olaraq girdik. Bunu təmsil edən Emin bəy oldu.

Rusiyada inqilab başlandıqdan sonra Azərbaycan türk ədəbiyyatı mərkəziyyət «müsavat» partiyası proqramı bizə gəldi. Emin bəyin göndərdiyi proqram və məktub Peterburqda bomba kimi partladı.

...Əgər bu mühit əzizləri seçən bir mühit olsaydı, mən mərhum Emin bəyin əziz olaraq seçilməsinə rəy verərdim. Bu günə qədər onun əleyhinə olanlar tövbə etməlidirlər: Yoxsa allah günahlarını bağışlamaz!

Emin bəyi öldükdən sonra da yaşatmaq üçün azərbaycanlılar onun yolunu davam etdirməlidirlər!».

*Abdulla Battal Təymasın nitqi:*

«Emin bəy yalnız azərbaycanlılar üçün deyil, bütün türklər üçün böyük bir dəyərdi. Ölümü də bütün türklük üçün böyük bir dərddir. O inandığı mübarizə uğrunda hər şeyini, ailəsini, rahatlığını, səhhətini, nəhayət, həyatını fəda etmişdi.

Özü də nadir olan bir idealist idi. O bu dünyadan ayrılmışsa da tarix səhifələrimizdə, beynimizdə və qəlblərimizdə daima yaşayacaqdır.

Emin bəy bir cəmiyyət xadimi idi. Cəmiyyətimizi yaşatmağa və səadətə çatdırmağa çalışanlardandı.

Emin bəyin apardığı mübarizə və ideal ölməyəcəkdir, yaşayacaqdır, dayanmayacaq, irəli gedəcəkdir.

Bu dünyadakı yerində rahat-rahat yat, əziz dostum M. Emin bəy!».

*Doktor Əhməd Naim bəyin nitqi:*

«Çox kədərliyəm, böyük bir insanın vəfatını duyan adam necə danışa bilər? O yalnız azərbaycanlıların deyil, türküstanlıların da lideri idi. İlk məqaləni onun «Açıq söz» qəzetinə yazmışdım. Dərdlərimizi ona danışır və ondan məsləhət alırdıq. Türküstanlılar bu böyük acıya candan yanırlar».

## TÜRKİYƏ QƏZETLƏRİ MATƏM İÇİNDƏDİR

*Ankarada çıxan «Dünya» qəzeti:*

«Sovet əsarətindəki türk ellərinin qurtuluş hərəkatı liderlərindən sabit Azərbaycan milli şurası və Azərbaycan istiqlal davasının ələmdarı «müsavat» partiyasının rəisi Məmməd Əmin Rəsulzadənin vəfatı dərin bir təəssüf doğurmuşdur.

Məmməd Əmin Rəsulzadə keçən il qəzetimizdə «Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri» başlığı altında öz xatirələrini çap etdirmiş və bu yazı seriyası böyük bir maraq doğurmuşdu».

*Qarsda çıxan «Birlik» qəzeti:*

«O Azərbaycan davasını qəlblərə nəqş etmiş bir qəhrəman və mütəfəkkir olaraq əbədiyyən yaşayacaqdır. Onun sonsuz mübarizəsi Azərbaycan davasını bütün hür millətlərin şüuruna yerləşdirmişdir.

Davası uğrunda yazdığı yüzlərlə əsəri dünya kitabxanalarında yer almışdır. O Azərbaycan qurtuluş davasının bayrağı idi. O bayraq bütün türklüyün qəlbində dalğalanacaqdır. Türk tarixinin böyüklər səhifəsində yerini alan M. Ə. Rəsulzadə əbədiyyən yaşayacaqdır.

Bütün ömrünü ailə və uşaqlarının davası yolunda fəda etdi. Ən çətin mübarizələrə girdi, iztirablar çəkib diyar-diyar dolaşdı və hər yerdə hər zorluğa qarşı davasını müdafiə edərək daha da irəli apardı.

Bu gün göz yaşları içində əbədi istirahətgahına göndərilərkən davası yolunu aydınladan işıq qəlblərdə yanmaqda və özünü yaşatmaqdadır».

*Qarsda çıxan «Qars» qəzeti:*

«7 mart saat 22-də telefonun səsi acı-acı ötür; Ankaradan gələn titrək bir səs... Ankara müxbirimiz hıçqırığa bənzər boğuq bir tonla kəsik-kəsik yazdırır: «Məmməd Əmin Rəsulzadə bu gecə saat on birə on beş dəqiqə qalanda yatmaqda

olduğu tibb fakültəsi klinikasında vəfat etdi». Xəstəliyini soruşduq. Cavab verdi: «Şəkər». Müxbir daha danışa bilmədi.

Türk aləminin böyük simalarından biri, yetmiş bir illik həyatının böyük qismini siyasi mübarizədə keçirmiş olan qəzetçi, mühərrir, ədib, dövlət adamı, hürriyyət və istiqlal mücahidi qoca türk Azərbaycan istiqlalı uğrunda apardığı əlli illik mübarizənin meyvələrini görmədən köçüb getmişdir».

...Həmin o matəm günlərində Türkiyənin «Zəfər», «Xalqçı», «Vətən», «Sabah» və «Hakimiyyət» qəzetləri Məmməd Əmin Rəsulzadənin şəkil və tərcümeyi-halını dərc etmişdir.

## İRAN QƏZETLƏRİNDƏ

*Tehranda çıxan «Aram» qəzeti:*

«Bundan bir neçə gün əvvəl dünyanın ən böyük hürriyyət aşiqlərindən və kommunizmin ən amansız düşmənlərindən birisi dünyaya göz yumdu. Tam 35 ildən bəri rus imperializminə qarşı mübarizə aparan Məmməd Əmin Rəsulzadə Azərbaycan milli şurasının rəisi və müsavat partiyasının qurucularından biri idi.

...Onun ölümü insanlıq üçün böyük faciə sayılmaqdadır. Bu münasibətlə mərhumun yaxın dostlarına başsağlığı verməklə bərabər Rəsulzadənin kommunizmə qarşı açmış olduğu mərhəmətsiz hərbə davam edəcəklərinə ümid edirik».

*Tehranda çıxan «İrani Ma» qəzeti:*

«Bu ilin martın 6-da tam otuz beş il kommunist rejimi əleyhində və öz yurdunun hürriyyəti uğrunda mübarizə aparmış Qafqasiya istiqlal komitəsinin lideri Məmməd Əmin Rəsulzadə dünyadan köçmüşdür.

Məmməd Əmin Rəsulzadə sadəcə kommunist rejiminin mərhəmətsiz düşməni olmaqla qalmayıb, eyni zamanda iyirminci əsrin tanınmış ədib və bilicilərindən biri idi.

...Hürriyyət davasının ən böyük mübarizi və kommunizmin ən mərhəmətsiz düşmənlərindən olan Rəsulzadənin ölümü bütün antikommunist dünya adamlarında dərin təəssüf oyatmışdır».

## ALMANİYADAKI «QURTULUŞ» RADİOSUNUN MATƏM XƏBƏRİ

1955-ci il, 9 mart

Azərbaycan milli qurtuluş hərəkatının və «Müsavat» partiyasının lideri Məmməd Əmin Rəsulzadə mart ayının 6-da Türkiyənin paytaxtı Ankarada 71 yaşında vəfat etmişdir. Mərhum Rəsulzadənin şəxsində biz Azərilər ən böyük siyasət adamlarımızdan birini, istedadlı bir jurnalistimizi va atəşli hürriyyət mübarizimizi itirmiş oluruq. Bu sadəcə bizim üçün deyil, eyni zamanda Kremlin

məhkumu bütün millətlər və o cümlədən Qafqasiya xalqları və xüsusilə Sovetlər Birliyində yaşayan bütün müsəlmanlar üçün böyük bir itkidir...»

## MATƏM MƏKTUBLARI, MATƏM TELEQRAMLARI

«Azərbaycan milli mərkəz başqanına polşalıların «Prometey» qrupu istiqlal uğrunda mübarizə aparan Azərbaycan və Qafqasiya qardaş millətləri ilə birlikdə Məmməd Əmin Rəsulzadənin ölüm kədərinə qoşulur.

Milli Polşa Emin bəyin şəxsində səmimi bir dostunu itirmişdir. Onunla böyük dostluğumuz müştərək «Prometey» fikrini qavrayış zəmini üzərində və «fərdlərə hürriyyət, millətlərə istiqlal uğrunda» yorulmadan aparılan mübarizə sahəsində yaranmış və davam etmişdi.

Emin bəy həyatının və qələminin məhsulu olan əsərlərində və dostlarının qəlblərində əbədi surətdə yaşayacaqdır.

*Polşalıların «Prometey» klubunun sədri:*
*Setsel.*
*(16 mart, 1955)».*

«Azərbaycan milli mərkəzi!

Möhtərəm bəylər!

Lideriniz Məmməd Əmin Rəsudzadənin ölümü biz ukraynalıları son dərəcə pərişan etdi. Bu münasibətlə başsağlığımızı ərz edirik. Təəssüfümüz ona görə sonsuzdur ki, mərhum hər zaman Ukrayna millətinin böyük dostu olmuş və bizimlə daima yaxınlıq etmişdir. Başsağlığımızın mərhumun ailəsinə bildirilməsini xahiş edirik.

*D ə r i n hörmətlə:*
*Pan-Amerikan Ukrayna konfransı, direktor:*
*Doktor V. Şandor—Nyu-York».*

«Azərbaycan jurnalı yazı heyətinə, əziz və möhtərəm vətəndaşlarım, milli mübarizimiz Məmməd Əmin bəyin ölüm xəbərini dünən böyük bir kədərlə öyrəndim; Bütün Azəri mühacirətinin hiss etdiyi böyük kədərə candan iştirak edirəm. Mərhumun ailəsinə, Məmməd Əli bəyə və hamınıza dərin kədərimi bildirirəm.

İtkiniz nə qədər ağır olmuşsa da Məmməd Əmin bəyin uzun illər boyunca heç durmadan yürütdüyü milli davamızı davam etdirməliyik. Başınız sağ olsun!

*Hörmətlə: Ceyhun Hacıbəyli.*
*(Paris)».*

«Azərbaycan Dərgisinə!

Parisdə yaşayan bütün azərbaycanlı həmyerlilərimizlə birlikdə Məmməd Əmin Rəsulzadənin vəfatına dərin kədərimizi bildirir və ailəsinin kədərinə şərik oluruq.

*Şeyxülislam. (Paris)».*

«Azərbaycan Kültur Dərnəyi sədrinə!

*Ankara*

Böyük türklük aləminin milliyyətçi liderlərindən birini də möhtərəm Rəsulzadənin şəxsində itirmiş olmaqla kədərimiz sonsuzdur. Yolunu davam etdirməklə təsəlli tapa bilərik. Hamımızın başı sağ olsun!

*Doktor Həbib Əkinçi doktor Hüseyn Dağıstanlı».*

«Leyla Fəsulzadə

*Ankara*

Emin bəyin vəfatı xəbəri bizi çox kədərləndirdi. Dərdinizə candan şərik olur, sizlərə uzun ömürlər diləyirik.

*Doktor Mirzalı (Elbistan)»*

*M. Ə. Rəsuloğlu*

*Ankara*

Böyük matəminizdən kədərləndiyimi bildirirəm.

*Xalid Tanrıqulu».*

«Məmməd Əli Rəsulzadə bəy

*Ankara*

Böyük liderimiz hörmətli Məmməd Əmin Rəsulzadənin ölümünü radiodan eşitdim. Ələm və iztirablarınıza göz yaşlarımla qoşuluram.

*Q a r s, Qiyas Alkazak».*

«Hörmətli Leyla Rəsulzadə

*Ankara*

Sevgili Emin ölümü hamımız üçün böyük bir matəmdir. Acılarınıza candan şərik olur, tanrıdan səbir diləyirik.

*Gülnar və Mahmud Saoryurdlu».*

..Bütün türk elləri yas içindəydi. Dünyanın bütün hürriyyət və azadlıq sevən adamları matəmə bürünmüşdü. Uzaq-uzaq ellərdən saysız-hesabsız matəm məktubları, teleqramları axıb gəlirdi Ankaraya. Yalnız bir yerdən səs soraq yox idi: Vətəni Azərbaycandan!

Bəs 1955-ci ilin matəm günlərində Vətəni Azərbaycanda xalqın başı nəyə qarışmışdı ki, onun ölümünə səslənmirdilər?

Bəli, o zaman xalqı bərk məşğul idi. Xalq çörəyini, suyunu belə unudub böyük sürətlə kommunizmə gedirdi. Öz «şanlı əməlləri» ilə fəhlə sinfinin tarixinə «parlaq» səhifələr yazırdı. Xalq səhərdən axşama kimi çalışıb beşillik planı üç-dörd ildə yerinə yetirirdi. Xalqın başına dəvə dərisi çəkib onu manqurtlaşdırmış, kökündən, soyundan uzaq salmışdılar. Doğma anasını tanıya bilməyib, oxla vurub öldürən manqurt ona bir zamanlar azadlıq və istiqlaliyyət işığı gətirmiş adamı xatırlaya bilərdimi? Xeyir, bu qətiyyən mümkün olan iş deyildi! Xalq «işıqlı kommunizmə» gedirdisə, Məmməd Əmin Rəsulzadəni nədən ötrü xatırlayıb yada salmalı idi ki?

...Amma həmin vaxt, 1955-ci ilin o matəmində uzaq Qazaxıstanda qəribə hadisə baş verdi...

Qazaxıstan. Dövlət Təhlükəsizliyi Komitəsində. Bir gün cavan və yaraşıqlı bir adamı ölüm nəfəsi saçan bu qorxulu yerə çağırıb diqqətlə ona baxdılar. Dedilər:

— Xəbərin varmı ki, atan Məmməd Əmin Rəsulzadə Türkiyədə vəfat edib! Onun ölümünə sevinirsən, yoxsa kədərlənirsən? Həmin adam Məmməd Əmin Rəsulzadənin oğlu Azər idi.

## AİLƏSİNİN FACİƏSİ

**Anası Maral xanım acından öldü.** Maral xanım Məmməd Əmin Rəsulzadənin ögey anası idi. Əsl anası Ziynət xanım vaxtsız vəfat etdiyindən atası Maral xanımla həyat qurmuşdu. Maral xanım onların çox əziyyətini çəkmişdi. Məmməd Əminə və Şəhrəbanuya həmişə doğmalıq göstərmişdi.

1937-ci ildə onu da həbs etdilər. Yazıq arvad Stalini nəzərdə tutub onu həbs edənlərə deyirdi: — Gedin o bığlı oğlana deyin ki, Maral arvadı həbs etmişik. O adamı həbs etmişik ki, onun evində sən neçə dəfə çörək yemisən.

28 gün qatarda sürgünə gedən Maral arvad yolda çörək yemədi. Elə hərdən qəndi suya batırıb sümürürdü. Dindar adam idi. Qazaxıstana çatanda da çörək yeməyib. Deyib mən ac qalaram, amma kafirlərin çörəyini yemərəm. Bir müddət Bakıdan gətirdiyi əncir qurusu ilə dolanandan sonra Maral arvad acından öldü.

**Həyat yoldaşı Ümbül Banu xanımın bağrı çatladı.** Ümbül Banu xanım Məmməd Əmin Rəsulzadənin həyat yoldaşı olmaqla bərabər doğmaca əmisi qızı idi. 1937-ci ildə Rəsulu, sonra da gəlib özünü və qalan uşaqlarını həbs etdilər. Günahsız qadını üzüntülü sorğu-suala tutdular:

İstintaq materiallarından:

Deyin görək həyat yoldaşınız Məmməd Əmin Rəsulzadə hazırda harada yaşayır?

«— Həyat yoldaşım Məmməd Əmin Rəsulzadə 1920-ci ildən xaricdə— Türkiyənin Konstantinopol şəhərində yaşayır.

—Həyat yoldaşınızla bu müddətdə əlaqəniz olubmu? Olubsa necə?

—1929-cu ilə qədər mən onunla məktublaşırdım. 1934-cü ildə isə ondan 18 dollar məbləğində göndərilən pul kağızı aldım. Bundan sonra heç bir yazışmamız olmadı.

—Nəyə görə ərinizlə yazışmağa son qoydunuz?

—Yazdığı məktublarda həyat yoldaşım uşaqlardan narahat olduğunu bildirirdi və uşaqları təhlükədə qoymamaq üçün biz onunla məktublaşmamağı qərara aldıq...

Bu sorğu-sualdan az sonra «NKVD» serjantı erməni Bağdasarovun təqdimatı və erməni serjantı Markaryanın razılığı ilə Ümbül Banu xanım uşaqları

ilə birlikdə Qazaxıstana sürgünə göndərilir. Amma sürgünə gedəndə ürəyi Bakıda—həbsxanada işgəncə çəkən oğlu Rəsulun yanında qalır.

Yazıq qadın uzaq Qazaxıstanda çəkdiyi ağrılara, xüsusilə Rəsulun dərdinə dözə bilmir. «Rəsul» deyə-deyə bağrı çatlayıb ölür.

Ümbül Banu xanım 51 yaşında faciə ilə dünyadan köçəndə 1940-cı il idi.

Amma sədaqətli qadın həmişə həyat yoldaşı Məmməd Əmin Rəsulzadənin haqlı yolda olduğunu deyər, onu müdafiə edərdi.

**Qızı Lətifə soyuqdan donub öldü.** Lətifə M. Ə. Rəsulzadənin ilk övladı idi. 1912-ci ildə anadan olmuşdu. Atası ilə son dəfə görüşüb ayrılanda 8 yaşı vardı. 1930-cu ildə Lətifə ailə həyatı qurdu. Üç qızı dünyaya gəldi. Az keçməmiş atasını, anasını, qardaş və bacısını itirən Lətifənin öz faciəsi başladı. Əvvəl həyat yoldaşını, sonra da özünü və uşaqlarını həbs etdilər. Lətifə iki qızı ilə birlikdə soyuq Qazaxıstana sürgünə göndərildi. (Balaca qızı Sona uşaq sanatoriyasında olduğundan onu götürə bilmədilər: Amma qızın sonrakı taleyindən bu günə kimi də heç bir məlumat əldə olunmayıb). Lətifə uzaq Qazaxıstan soyuğuna və işgəncəli şəraitə dözə bilmədi. 1944-cü ilin soyuq yanvar gecəsində qızı Evşənlə birlikdə həyata göz yumdu. O biri qızı 13 yaşlı Firuzə səhər yuxudan ayılanda sevimli anasını və bacısını ölmüş gördü....

**Kiçik qızı Xalidə itkin düşdü.** Məmməd Əmin Rəsulzadənin kiçik qızı Xalidəni də ailəsi ilə birlikdə Qazaxıstana sürgünə göndərdilər. Sürgündə nənəsi Maral xanımı, anası Ümbül Banu xanımı qürbət torpaqda dəfn etdi. Sonra yazıq qızın öz faciəsi başladı. 1940-cı ildə anası dünyadan köçəndən sonra 24 yaşında ikən o cəhənnəm ocağından — soyuq və yad nəfəsli Qazaxıstandan baş götürüb Bakıya qaçdı. Nakam qız Bakıya gəlib çatdı. Amma az keçməmiş itkin düşdü. İndiyə kimi də harda olduğu bilinmir.

**Oğlu Rəsulu on doqquz yaşında güllələdilər.** Rəsulu 1937-ci ildə Novxanıdakı bağlarında gəlib həbs etdilər. Qardaşı Azərlə təzəcə şirin yuxuya gedəndə qanlı pəncələri ilə yazıq oğlanı silkələyib oyatdılar. Rəsul çox savadlı, çox da ağıllı oğlan idi. Rəsulu tanıyanların hamısı onun adı çəkiləndə göz yaşı tökür, ağlayırlar.

*Bibisi qızı Kübra xanımın xatirəsi:*

- Rəsul mühasiblik texnikumunu qurtarmışdı; O zaman Puşkində işləyirdi. Amma həmişə yay aylarını Novxanıdakı bağımızda keçirərdik. Uşaqlıqdan bir yerdə böyümüşdük. Bizi bir-birimizə ad etmişdilər... Amma qismət olmadı.

Rəsulun hələ şer yazmağı da vardı.

*Xalası oğlu Oqtayın xatirəsi:*

- Rəsulla uşaqlığımız bir yerdə keçib. Rəsul çox zarafatcıl idi. Yadımdadır ki, bizi başına yığıb hərdən özündən qorxulu nağıllar uydurub danışar, sonra da gülməli lətifələr söylərdi. Rəsulun gözəl tar çalmağı vardı. Tar çalmağı

içərişəhərli kor Həsənağadan öyrənmişdi. Rəsulun «Kürdü şahnaz» çalmağı indi də yaddaşımdan silinməyib.

*Yaxın qohumu Səyyarə xanımın xatirəsi:*

Rəsul çox mehriban, zarafatcıl oğlan idi. Bir dəfə məktəb dəftərimi Rəsula vermişdim. Azərlə Xalidə dəftəri cırırlar. Bu «münasibətlə» mənə bir üzrxahlıq məktubu yazmışdı: həmin məktubu özümdə yadigar saxlayıram.

Məni bağışla! İşdir, bir dəfə düşmüş! Ümidvaram ki, məni dinlərkən xəyanət işi halal edəcəksən. Fəqət, mənim o sağalmaz vərəqləri, günahsız yarpaqları heç də cırmağa qabiliyyətim gəlməzdi. Lakin Azər və Xalidə onun mənim olduğumu bilərək cırmışlar. Səyyarə adını eşidəndə canıma bir ox batır. Ölmüş insan dirilməz! Nə edim, çarəm nə? Əfv et. Müqəssirəm! Ey şikəst əllərim, sən o parlaq vərəqləri cırdın».

Rəsulu 1938-ci il martın 1-də güllələdilər.

**Bacısı Şəhrəbanu xanımı qorxudub öldürdülər.** Şəhrəbanu xanım Məmməd Əmin Rəsulzadənin yeganə bacısı idi. Bacısını o çox istərdi. Hələ yurdu işğal olunmayanda Azad Azərbaycan hökuməti zamanında tez-tez Novxanıya gedər, bacısının əhvalını soruşardı. Amma sonradan...

*Kübra xanım anasını belə xatırlayır:*

«O qədər qorxutmuşdular ki, anam dayımın adını çəkməyə belə qorxurdu. Hətta evimizin içində oturub söhbət edəndə deyərdi ki, yavaş danışın, eşidərlər. Divarın da qulağı var».

Şəhrəbanu xanımı qardaşına görə sonradan çox incitdilər. Yazıq arvadı «NKVD» işçiləri o qədər sorğu-suala çəkdilər ki, axırda ürəyi dözmədi... Əlli altı yaşında dünyadan köçdü.

Novxanılıları incidirdilər. Otuzuncu illərdə novxanılıları çox incitdilər. Gülünc bir məntiqlə deyirdilər: siz Məmməd Əmin Rəsulzadənin yerlisisiniz. Novxanı qocaları ağrı ilə danışırdılar ki, heç o zaman bizi işə də götürmürdülər. Hara gedirdiksə pasportumuza baxan kimi başlarını bulayıb deyirdilər: novxanılısınız, Məmməd Əmin Rəsulzadənin yerlisisiniz. Olmaz!.

## YOLUM QAZAXISTANA —KARAQANDAYADIR

Eşitmişəm ki, bir oğlu sağ qalıb, Karaqandada yaşayır. Bu xəbəri eşidəndən Karaqandaya getmək haqqında düşünürəm. Nəhayət, belə imkan yaranır.

Bakının qaranlıq bir axşamında «TU-154» təyyarəsi Karaqandaya istiqamət götürür. Bu təyyarə üç saatdan sonra məni Karaqandaya —Məmməd Əmin Rəsulzadənin yeganə sağ qalan oğlu Azərin əlli üç ildir ki, sürgündə, qürbətdə yaşadığı bir şəhərə çatdıracaq...

# ƏLLİ ÜÇ İL QÜRBƏTDƏ

«Bayatı-Şiraz»ın kədərli musiqisi dalğa-dalğa yayılıb, yarıqaranlıq otağa dolurdu. Ağsaçlı qoca içindən qopan sonsuz ağrıları, dünyanın bu amansız gərdişində itirdiyi atasını, anasını, qardaşını, bacısını, 53 il ayrı düşdüyü yurdunu yada salıb tarın ecazkar dili ilə dərdli-dərdli danışırdı.

«Bayatı-Şiraz» çalırdı...Qəfildən tarı sinəsindən endirib üzümə baxdı:

—Daha çala bilmirəm...

Stolustü lampanın işığı qocanın üzünü işıqlandırır və gözlərinin yaşla dolduğunu görürəm. Bir az dayanır, sonra yenidən tarı sinəsinə qaldırır. Yenə «Bayatı-Şiraz» çalır. Bu dəfə az, lap az çalır, hiss edirəm ki, dərdin ağırlığından, həyatda itirdiyi adamların göynək həsrətindən bədəni əsim-əsim əsir. Tarı bir kənara qoyub doluxsunmuş halda deyir:

—Yox, çala bilmirəm...

Uzaq Qazaxıstan elində, Karaqanda şəhərinin bu qaranlıq gecəsində «Bayatı-Şiraz» çalıb ağlayan qocanın dönük taleyini düşündükcə qəlbim parça-parça olur.

Düz 53 ildir ki, doğma Azərbaycanından uzaqlarda yaşamaq məcburiyyətində qalmış bu yetmiş yaşlı qoca xalqımızın mənəvi atası Məmməd Əmin Rəsulzadənin oğlu Azər Rəsulzadədir.

Dediklərimə əvvəlcə inanmır, təəccüblənir. Sonra Bakıdan apardığım sənədləri, şəkilləri, qəzetləri, «Azərbaycan Demokratik Respublikası» kitabını göstərirəm. Qəribə maraq içərisində materiallara baxır. Qəzetdə atasının böyük şəklini görəndə diksinən kimi olur. Bir az da yaxından, diqqətlə baxır şəklə. Hansı hissləri keçirdiyini bilmirəm.Tamam tutulmuş haldadır.

Sonra dərindən köks ötürür: Ehtiyatla soruşur:

—Bəs hökumət necə baxır bu işə?

—Hökumət də axır ki, icazə verdi, — deyə qəzetdəki qərarı göstərirəm.

Azər müəllim təəccüb içində, fikirli-fikirli deyir: — Qəribədir, çox qəribədir...

Sonra ötən günlərin söhbətinə başlayır..

Atası Məmməd Əmini xatırlamır. Atası onunla görüşüb vidalaşanda iki ay imiş ki, dünyaya göz açıbmış. Qaranlıq bir gecədə atası evə gəlir. Hamı ilə görüşdükdən sonra beşikdə dünyanın qovğasından xəbərsiz yatan körpə oğluna yaxınlaşır. Üzünü həyat yoldaşına tutur:

—Nə qoymusunuz bu uşağın adını?

Ümbul Banu xanım deyir ki, bəs adını Əliheydər qoymuşuq.

Məmməd Əmin oğlunu bağrına basıb narazılıq dolu coşğunluqla deyir:

—Yox, bu, Əliheydər olmayacaq. Bu Azəri oğludur: Azər olacaqdı bu.

Məmməd Əmin oğlu Azərlə belə görüşüb ayrılır. Və onlar bir daha görüşmürlər.

(Azər müəllim anasından eşitdiyi bu əhvalatı danışanda özünü saxlaya bilməyib ağladı.)

Atası Məmməd Əmin çıxıb getsə də onları unutmurdu. Vəziyyətin çətinliyinə baxmayaraq, bir neçə dəfə onlara Türkiyədən bağlama göndərmişdi. Atasının göndərdiyi parıltılı qara çəkmələr və başı qotazlı qırmızı papaq Rəsulun da (Məmməd Əminin böyük oğlu), Azərin də çox xoşlarına gəlmişdi. Lakin... zəmanənin üzü dönmüşdü. Həyatı öz təbii axarından çıxarıb eyni bir yola çəkənlər atanın bu kiçik hədiyyəsini də çox gördülər onlara. Anası və qohumları vəziyyətin çətinləşdiyini görüb Məmməd Əminə xəbər göndərdilər ki, bizim adımıza daha heç nə göndərmə.

Atası sonradan, başqa adamların adı ilə də kömək əlini uzatmışdı ailəsinə. Az keçməmiş bu yolu da bağlamışdılar.

Vəziyyət yaxşı deyildi. Böhtan və iftira dolu təbliğat maşını adamların şüurunu zəhərləyir, onları həqiqət işığından məhrum edirdi...

Azər müəllim o dövrü belə xatırlayır:

—Tez-tez bu sözləri eşidirdik: Məmməd Əmin sizi burada qoyub özü aradan çıxdı. İndi xaricdə kefi kök, damağı çağ yaşayır. Siz heç yadına da düşmürsünüz. Bu sözlərə anam əhəmiyyət vermirdi. O, atama inanırdı. Atamın heç bir günahının olmadığını da hərdən danışırdı. Bu söz-söhbət ən çox qardaşım Rəsulu dilxor edirdi. Məktəbdən gələn kimi hirslə çantasını bir küncə atıb deyirdi: «Müəllimlərim məni bezdiriblər. Hər gün dərsdə deyirlər ki, «Məmməd Əminlər belə etdi, Məmməd Əminlər elə etdi...». Anam sakitləşdirirdi Rəsulu. Deyirdi ki, elə sözlərə fikir vermə»...

Azər müəllim həyatında ən ağır zərbəni Rəsul həbs olunanda aldı. Rəsulu bağdan tutub apardılar. Rəsulun tutulmağı hamısının belini əydi. On yeddi yaşlı Azər hirsindən, acığından özünü bağlarındakı quyuya atmaq istəyirdi. Amma qoymadılar, tutub saxladılar. Az keçməmiş Rəsulun güllələnmək xəbərini eşitdilər....

Azər müəllim bu hadisəni xatırlayanda da dözə bilmədi, ağladı. Bu yetmiş yaşlı, başı müsibətlər çəkmiş qocanın faciəsinə, belə hıçqırtı ilə ağlamağına dözə bilmirdim...

Rəsulun ölümündən sonra ailənin sayı da getdikcə azalmağa başladı.

Gəldi 1937-ci il.

Həmin il qara paltolu, qara şlyapalı adamlar hansı evdə gur işıq yanırdısa ora qaranlıq dumanı çökdürürdülər. Hansı bacadan tüstü çıxırdısa gəlib torpaqlayıb gedirdilər. Evləri dağıdıb, ürəklərə dağ çəkirdilər. Xalqı həqiqət yolundan yayındırırdılar.

—Axşamüstü anam getmişdi xalamgilə,—Azər müəllim fikirli-fikirli danışır,—maşınla bizi aparmağa gəldilər. Əvvəl anamın harda olduğunu soruşdular. Sonra məni də maşına mindirib apardılar xalamgilə. Anamı götürüb gəldilər. Evdəki şeylərdən heç nəyi götürməyə qoymadılar. Evimizdə bir tar var

idi. Anam tarı o vaxtın pulu ilə 130 manata almışdı. Tarı götürmək istədim. İkisi etiraz etmədi, lakin üçüncüsü tarı əlimdən alıb bir qırağa atdı. (Anasının aldığı o yadigar tarı Azər müəllim sonradan soraqlayıb tapıb və bu günəcən özündə saxlayır). Sonra bizi maşına mindirib apardılar həbsxanaya. Yadımdadır ki, həmin günü güclü yağış yağırdı. «Azneft» meydanını su basmışdı. Bizi aparan maşın çətinliklə gölməçələri yarıb keçirdi. Əvvəl istədilər ki, hamımızı çoxlu kişilər olan kameraya doldursunlar, lakin bacım Xalidə etiraz etdi, qışqırıb hay-küy qopartdı...

Azər müəllim indi astadan, lap astadan deyir bu sözləri. Özü də qəribə təəccüb içində danışır. Yəqin təəccüblənir ki, «bolşevizm» bayrağını əllərində tutub insanlara guya «xoşbəxtlik, bərabərlik» gətirmiş o qara şlyapalı adamlar hansı dünyanın insanları idi? Sosialist inqilabının xoş sabahlarından yağlı-yağlı vədlər verən bu adamlar bəs niyə qoca qarıları, anaları, qızları, gəlinləri qaranlıq həbsxanalara salırdılar? Səbəb indi aydındır. Çünki bu tutulanların çoxu istiqlal və azadlıq şirinliyini dadmışdılar. Onların yaddaşında xoş bir xatirə kimi qalan 23 aylıq azadlıq günəşinin (Azərbaycan Demokratik Respublikasının mövcudluq dövrü) işığını qaranlığa bürümək mümkün deyildi. Çünki istiqlaliyyəti bu adamlar həyatda görmüşdülər. Və 1920-ci ilin aprelində mətbuatın yazdıqlarına inanmırdı, yanıb-yaxılırdı bu adamlar... Bunu xalqa «xoşbəxtlik» gətirmiş «yoldaşlar» da, «qara şlyapalılar» da yaxşı başa düşürdülər. Və buna görə kütləvi həbsə, qırğına başlamışdılar....

Azər müəllim o ağrılı günləri belə xatırlayır: -Ailəmizi həbs edəndən sonra bizi Gəncəyə apardılar. Düz bir ay Gəncə həbsxanasında qaldıq. Sürgünə göndərilənlər çox olduğundan biz növbə gözləyirdik. Nəhayət, gəlib sabah yola düşəcəyimizi dedilər. Vəziyyətimiz yaxşı deyildi. Özümüzlə demək olar ki, heç nə götürməmişdik. Başqa ailələrə pal-paltar, yorğan-döşək götürməyə imkan vermişdilər. Bizim ailəyə isə hər şey qadağan olunmuşdu. Düz 28 gün qatarda yol getdik. Şəraitimiz dəhşətli dərəcədə dözülməz idi. Hər vaqonda beş-altı ailə gedirdi. Qoca nənəm dindar adam idi. Özgə kişilərin yanında bayıra çıxmamaq üçün düz 28 gün heç nə yemədi, elə hərdən qəndi suya batırıb sümürürdü, aclığa tab gətirsin. Min bir əzablı, əziyyətli yol səfərindən sonra gəlib Qazaxıstana, Taldı-Kurqana çatdıq. Əvvəlcə bizi oradakı bir orta məktəbin siniflərinə doldurdular. Qazaxıstanın 40-50 dərəcə soyuğunda hamımız donurduq. Yerli qazax uşaqları gəlib maraqla bizə baxırdılar. Bəzən gətirib çörək də verirdilər. Həmin vaxt ikinci bir ağır zərbə aldıq. 28 gün çörək yeməyən Məryəm nənəm uzun müddətin aclığından və bizə verilən xörəyi yeyəndən sonra dünyaya göz yumdu..

19 yaşında oğlu güllələnən, yetmiş yaşında anası acından ölən Məmməd Əmin bu faciələri eşidirdimi görən?

Şübhəsiz ki, yüzlərlə, minlərlə azərilərin başına açılan müsibətlərdən xəbər tuturdu. «Həmvətənlərini zalımların qanlı pəncəsindən xilas etmək üçün çırpınır, ayrı-ayrı ölkələrdə təşkilatlar yaradır, qəzetlər açır, insanlara hürriyyət, azadlıq

deyirdi». Lakin üstünə qaranlıq çökmüş yurdunun başı üzərində yenidən o 23 aylıq hürriyyət günəşinin doğacağına inamını itirmişdi.

Hətta sürgündə belə çoxlarının «ərin indi xaricdə kef sürür» deməyinə baxmayaraq, Ümbul Banu xanım həyat yoldaşının gördüyü işlərin böyüklüyünə inanırdı. Savadlı, bacarıqlı bir qadın olan Ümbül Banu xanım bir dəstə qadını başına toplayıb Moskvaya—Kalininin yanına şikayətə getməyə hazırlaşırdı. Lakin amansız əcəl imkan vermədi.

—Anam soyuğa da dözərdi, aclığa da. Amma o qürbət elə gedən gündən Rəsulun adı dilindən düşmürdü. «Oğlumu nahaq güllələdilər» deyib ağlayırdı. Elə bu dərdlə də dünyadan köçdü.

Ananın ölümündən sonra qardaşla bacının (Azərlə Xalidənin) vəziyyəti daha da pisləşdi. Yenə necə olsa, anaları onlara dayaq idi, təskinlik verirdi, evə böyüklük edirdi. İndi demək olar ki, kimsəsiz qalmışdılar. Lakin başqa yol yox idi. Dözüb yaşamağa məcbur idilər.

Bir gün Azər müəllimin yaxşı rəsmlər çəkdiyini bilib məktəbə çağırdılar. Düşərgənin komendantı ilə danışıb məktəbdə rəsm dərsi deməyinə icazə aldılar...

Azər müəllimin sürgündə dərs dediyi şagirdlərdən biri olan əməkdar elm xadimi, professor Murtuz Sadıqov hazırda respublikada «Vicdan komissiyası»nın sədri kimi böyük iş aparır, Stalinizmin qurbanları olmuş yüzlərlə, minlərlə azərbaycanlıya bəraət qazandırır.

İşlərin bir qədər yaxşılaşmağını tale yenə çox gördü Azər müəllimə. Sevimli bacısı Xalidə yoxa çıxdı. Bacısını çox axtarıb soraqladı. Lakin heç bir məlumat öyrənə bilmədi. (Azər müəllim bu günə kimi də bacısının harda olduğunu, yaxud vəfat etdiyini öyrənə bilməyib. Bəlkə oxuculardan bu haqda kimsə məlumat verə biləcək? Məmməd Əminin bu didərgin övladlarını—qardaş ilə bacını 50 ildən sonra görüşdürəcək?)

Azər həyatda tək-tənha qalmışdı. Atası isə uzaq ellərdə yurduna azadlıq günəşi gətirmək üçün çırpınır, «Azərilərin yanıq ürəklərinə» xoşbəxtlik toxumu səpmək arzusu ilə alovlanırdı.

Qaldığı yerin qonşuluğuna Naxçıvandan bir ailə sürgün olunmuşdu. Ailənin cavan qızı Şölənin səmimiliyi, sadəliyi diqqətini cəlb etmişdi, söz-söhbətdən sonra razılığa gəlib ailə həyatı qurdular. Ramiz adlı bir oğlu oldu.

1942-ci ildə Azər müəllimi cəbhəyə göndərdilər.

Müharibədən sonra yenidən Qazaxıstana gəldi. Sonra ikinci oğlu dünyaya göz açdı. Ailə həyatı, iki sevimli övladı başına gələn faciələri az da olsa unutdururdu ona. Lakin...

Tale insandan üz döndərəndə çətin barışır. Ağrı-acı insanın ömrünə ayaq açanda bu vərdişindən asanlıqla əl çəkmir. Sanki çəkdiyi müsibətlərin zülmündən könül rahatlığı tapır. Səni belə «yavaş ölümlə» son mənzilə tələsdirir.

...Tale yenə güzaranına balta çaldı Azər müəllimin. Həyat yoldaşı Şölə vaxtsız-vədəsiz dünyadan köçdü..

1953-cü ilin martında Stalin öləndə, o da başqaları kimi ağlayıb göz yaşı tökdü. Stalinin onların başına açılan oyunlardan xəbəri olmadığına inanırdı.

1956-cı ildə qəribə hadisə baş verdi. Onu Dövlət Təhlükəsizliyi orqanına çağırıb dedilər: «Xəbərin varmı ki, atan Məmməd Əmin Rəsulzadə Türkiyədə vəfat edib?»

Əvvəl tutulmuşdu bu xəbərdən. Sonra ona dikilən qəribə ifadəli baxışların marağını, məqsədini bilib demişdi:

—Mən indi onun ölməyinə sevinirəm. Onun ucbatından qardaşımı güllələdilər. Anam, nənəm dözə bilməyib dünyadan köçdülər, bacım itkin düşdü, indiyədək harda olduğunu da bilmirəm. Evimiz, eşiyimiz dağıldı...

— Deməк atanın ölümünə sevinirsən? — DTK əməkdaşı bir də təkrar soruşmuşdu.

Bu dəfə suala cavab vermədi. DTK əməkdaşı da deyəsən verdiyi sualın — atanın ölümünə sevinib, kədərlənməyin—lazımsız cəfəngiyyat olduğunu hiss etmişdi.

Bu cəhənnəm otağından çıxıb sıxıntılı adamlardan yaxa qurtaranda rahatlıqla nəfəs almışdı. Yol boyu isə eşitdiyi sözləri xatırlayıb düşünmüşdü; «Demək o da dünyadan köçdü. Görəsən, bizi yadına salırdımı heç? Bilirdimi başımıza gətirilən oyunları? Hamısı onun ucbatından oldu. Onun adına görə bizi belə günə qoydular. Yazıq anam bir dəfə də ondan gileylənmədi: Elə hər dəfə söz düşəndə «atanız düz iş görür» deyirdi. Anamın son nəfəsinə kimi onu müdafiə etdiyini eşitdimi görən?

Azər müəllim bütün yol boyu bu ağrılı sualları vermişdi özünə. Atasının 1955-ci ildə uzaq Türkiyədə—Ankara şəhərində martın 6-da gecə saat on birə on beş dəqiqə qalanda son dəfə «AZƏRBAYCAN... AZƏRBAYCAN... AZƏRBAYCAN» deyə, həyata göz yumduğunu düz bir ildən sonra eşitdi. Azər müəllim o zaman atasının dünyaya göz yumanda hansı sözləri dediyini bilməmişdi. Ümumiyyətlə, atası haqqında uzun illər boyu heç bir həqiqəti bilməyib. Yalnız uzaqdan onun adını eşidib. Evlərində də çox az hallarda atasının adını çəkirdilər. Babası, nənəsi, anası bu adı həsrətlə, məhəbbətlə yada salırdılar. Sonradan nə evlərində, nə sürgündə «Məmməd Əmin» adını ucadan demədilər. Bu adı dövran, zəmanə qorxulu bir kabusa döndərmişdi. DTK və NKVD işçiləri bu adla bağlı hər şeyi dəhşətlə danışıb izah edirdilər. Bu addan sanki qorxurdular, çəkinirdilər. Azər müəllimə elə gəlirdi ki, atası özünü xilas etmək üçün xaricə qaçıb. Və hərdən fikirləşirdi ki, əgər burda yaşamırsa, çıxıb gedibsə, onda bizdən, onun özündən nə istəyirlər?

Azər müəllim çox şeydən xəbərsiz idi o vaxt. Bilmirdi ki, 23 ay azərilərin başı üzərində istiqlaliyyət bayrağını dalğalandırmış atası öz əqidəsindən dönməyib, yenə mübarizə aparır. Onun varlığı, sağ qalmağı «zülmət qartalları»nın işinə mane olur. Çünki o, hələ yüzlərlə, minlərlə adamın ümidgahıdır, inam yeridir.

Atasının doğma yurduna kənardan baxıb, ömrünün son illərində ürəyi parçalana-parçalana yazdığı sözləri də bilmirdi Azər müəllim: «Qızıl totalitarizmin istibdadı və mədəniyyət dünyasından təcrid edilmiş bir halda yaşamaq çəkilməz bir faciədir. Bu şərtlər altında yaratmaq isə faciələr faciəsidir. Sənətkar möhtac olduğu ən böyük nemətlərdən—hürriyyətdən məhrumdur. Dünya ilə ilgisi kəsilmiş bir durumdadır...

...Biz oraya getmərik: buraxmazlar. Onlar da buraya gəlməzlər; çünki göndərməzlər. Çünki hürriyyəti seçəcəklərindən qorxarlar».

Atasının ölümündən sonra vəziyyətin dəyişəcəyinə inanırdı. Taldı-Kurqandan sonra yaşamaq üçün Novosibirskə getdi. Orta məktəblərin birində müəllim işləməyə başladı. Həmin vaxtlar bütün məktəbliləri xam torpaqlara işləməyə aparırdılar. Bir gün rəhbəri olduğu sinfin şagirdləri gileyləndilər ona. Dedilər ki, bəs işlədiyimizin pulunu ala bilmirik. Azər müəllim söz verdi ki, onların zəhmət haqqını mütləq alacaq. Lakin iş asanlıqla həll olunmadı. Məktəbin direktoru mühasiblə əlbir olub ona maneçilik törədir, şagirdlərin pulunu vermirdilər. Azər müəllim prinsipial olduğundan və şagirdlərinə söz verdiyindən işin axırına kimi getdi. Moskvaya—Xruşşovun adına teleqram göndərdi. Tezliklə Moskvadan cavab gəldi: «Şagirdlərin haqqı özlərinə qaytarılsın».

Şagirdlər çox sevinirdilər pul aldıqlarına görə. Sevimli Azər müəllimə olan məhəbbətləri isə min qat artmışdı. Belə prinsipiallığına görə bütün müəllim kollektivinin də ona qarşı hörməti artmışdı. Tezliklə yığılıb pedaqoji şuranın iclasını keçirdilər. İslasda məktəbin direktorunu və mühasibini Azər müəllimdən üzr istəməyə məcbur etdilər.

Novosibirskdə işləri pis getmirdi. Amma doğma Azərbaycan intəhasız bir qüvvə ilə onu özünə çəkirdi. Novxanıdakı bağları, mavi Xəzər, gözəl Bakı göynək bir xatirə kimi qəlbində yaşayırdı.

Uzun illərin ayrılığından sonra Xəzərlə olan ilk görüşünü də unutmayıb Azər müəllim. Xəzərin mavi sularını görəndə özünü saxlaya bilmədi. Əvvəlcə əyilib torpaqdan öpdü, sonra elə paltarlı halda özünü suların qoynuna atdı. Kənardan baxanların çoxu onun qəribə hərəkətinə təəccüblənmişdi. Amma bilməmişdilər ki, torpağı belə qucaqlayıb öpən, Xəzərin sularını bağrına basan, ürəyi Vətən yanıqlı bu adam böyük bir xalqın başı üzərində azadlıq işığı yandırmış Məmməd Əmin Rəsulzadənin oğludur. Və şübhəsiz ki, Məmməd Əminə yurduna qayıtmaq qismət olsaydı, o da belə edərdi.

Bakıda tamam başqa vəziyyətlə qarşılaşdı. Hiss etdi ki, çoxları onunla ehtiyatla görüşür, dayanıb söhbət etməyə, danışmağa çəkinirlər. Bu vəziyyətə, soyuq baxışlara, yad münasibətə dözüb yaşaya bilərdi, təki ona ev verəydilər. Heç kim bu işə boyun olmadı. Bir az keçməmiş isə DTK-ya çağırıb burada qalmamağını, çıxıb getməyini tələb etdilər. Demək Vətəndə yaşamaq ona ömürlük qadağan olunmuşdu. Demək, Vətən havasını udmaq ona qismət olmayacaqdı. Həmin o ağrılı günlərdə həyatdan, adamlardan, hamıdan ürəyi sınmışdı. Baş

götürüb üzünə heç zaman gülməyən bu Vətən torpağından tez getmək, uzaqlaşmaq istəyirdi.

Bakıya sonradan, arabir gəlirdi. Amma bu gəlişlərin heç biri ona yurdunda qalıb yaşamaq imkanını vermirdi.

1988-ci ilin noyabr ayında, Bakının baş meydanında tonqallar alovlananda Azər müəllim Bakıda idi. Demək olar ki, şəhərdə olduğu müddətdə hər gün meydana gəlirdi. Azadlıq simvolu kimi alovlanan tonqallara baxırdı. Xalqın, adamların sükunət bataqlığından çıxdığını görüb sevinirdi.

1990-cı ilin ilk aylarında adına məktublar, teleqramlar gəlməyə başladı. Məktublarda, teleqramlarda hamı ona uzun ömür, cansağlığı arzulayır, atası Məmməd Əminlə fəxr etdiklərini bildirirdilər. 28 may münasibəti ilə çoxları onu təbrik edirdi.

Azər müəllim həmin məktubları, teleqramları əziz bir yadigar kimi saxlayır.

Sonra Azər müəllimə Bakıda Demokratik hökumətlə əlaqədar görülən işlərdən danışıram, köhnə parlament binasında, İçərişəhərin girəcəyində atası Məmməd Əminin böyük şəklinin asıldığını söyləyirəm. Təəccüblə soruşur:

— Yaxşı, bütün bu işləri görən kimdir?

— Xalqdır, camaatdır, - deyirəm.

Azər müəllim susur. Gözlərində təəccüblü bir işığın dolaşdığını görürəm. Sonra qəribə tərzdə deyir:

—Əgər belə qocalmasaydım, mən də xalq üçün bir iş görərdim. Vətənimizin başı qeylü-qaldan xilas olacaqmı?

Azər müəllimə baxıram. Və birdən mənə elə gəlir ki, qarşımda oturan bu ağsaçlı qoca Azər müəllim deyil, ruhuna həmişə alqışlar dediyimiz Məmməd Əmin Rəsulzadədir.

Sonra Azər müəllimi Bakıya dəvət edir, bütün camaatın, xalqın onu arzuladığını bildirirəm.

—Bəlkə gəlib Bakıda yaşayasınız?

Qəribə halda üzümə baxır:

—Bakıda mənə ev verərlərmi?

Susuram və Azər müəllimin bu sualına cavab vermirəm, keçirəm başqa söhbətə. Amma beynimdə bir sual dolaşır: 53 il qürbətdə yaşamaq məcburiyyətində qalmış Məmməd Əmin Rəsulzadənin 70 yaşlı oğlu Azərə, görəsən Bakıda ev verərlərmi?

...Aydın bir Karaqanda gecəsində ayrılırıq. Hər ikimizin gözləri dolub. Mehribanlıqla qucaqlaşırıq. Doluxsunmuş halda:

—Yaxşı yol: - deyir.—Sağ ol, gəlib camaat içində başımı uca elədin, məni göylərə qaldırdın.

...Maşına minib, aeroporta gedirəm. Bir az getmiş maşının pəncərəsindən dönüb geri baxıram. Uzaqdan ayın işığında, yolun düz ortasında dayanmış Azər

müəllimi görürəm. Düşünürəm ki, atası Məmməd Əmin Rəsulzadə də düz 35 il qürbətdən Vətənə belə həsrət içində dayanıb baxıb.

...Bakı aeroportunda isə ilk gözümə görünən tanklar, əli avtomatlı əsgərlər oldu.

## LAHICDA İKİ GÜN

Lahıca gedirəm. Onun burada keçən günləri ilə bağlı söhbətlər eşitmişəm. Bəzən dolaşıq məlumatlar da deyilir. Hər şeyi öyrənmək istəyi ilə Lahıca gedirəm. Lahıcda ümid bəslədiyim oranın qocalarıdır. Eşitdiyimə görə çoxlu yaşlı adamlar yaşayır Lahıcda.

«Lahıc gözəl və mənzərəli bir yerdə yerləşir. Hər yanı dağlıq, meşəlikdir. Gözəlliyindən doymaq olmur. Lahıcda ən çox ürəyimə yatan adamların qədim dədə-baba adətini qoruyub saxlamağıdır. Elə Lahıcın girəcəyindən burada ötənlərimizin ab-havasının yaşadığını, hələ qaldığını hiss edirsən. Lahıc həm də gözəl misgərlik sənətini yaşadan torpaqdır. Lahıclılar qonaqpərvər, mehriban camaatdır.

Yetmiş il bundan əvvəl qonaqpərvər lahıclıların qapısını bir adam döyüb. Lahıc camaatı onu da qonaq kimi qəbul edib göz üstə saxlayıblar.

İndi Lalıcda kiminlə söhbət edirəmsə, hamı onun Vətəni işğal ediləndən sonra gəlib burda sığınacaq tapmağından səmimiyyətlə danışır. Hətta haqlı olaraq iftixar hissi keçirirlər ki, Məmməd Əmin Rəsulzadə məhz onların yurduna etibar edib gəlib.

Lahıcın qocalarını—onu görən, evində saxlayan adamları soraqlayıram.

Lahıcın iki sakini—Haqverdi və Qurbanəli bu işdə böyük köməklik göstərirlər.

Lahıcın qocaları ötən illərin xoş xatirəsini həvəslə, məhəbbətlə danışırlar.

*Aqil Həsənov, 96 yaşında:*

—«Zəvərə» məscidində idik. Camaat toplaşmışdı ora. Mən də «Təkyə» çayı aparmışdım məscidə. Məşədi Səlim dedi ki, bizim evə də gətir. Mən padnosa qoyub o çaydan Məşədi Səlimgilə də apardım. Məşədi Səlim qabaqda gedirdi. Mən isə arxada. İçəri girəndə gördüm ki, otaqda iki nəfər səliqəli geyimli, yaraşıqlı qonaq var. Bizim yerin adamına oxşamırdılar. Amma onlardan biri elə xoş görünüşlü, nurlu simalı, yaraşıqlı idi ki, adam valeh olurdu. Yaman əntiqə kişi idi. Üzündən nur yağırdı... Sonradan öyrəndim ki, həmin adam Məmməd Əmin Rəsulzadə imiş.

*Sona Ələkbərova, 75 yaşında:*

Balaca uşaq idim. Getmişdim Məmməd Sadıq dayımgilə. Məmməd Sadıq Məmməd Əmin Rəsulzadənin dostu Ağabalanın qardaşıdır. Camaat ona «ərəbəmi» deyirdi. Məmməd Sadıq dayımgilin orta evlərinin qapısı həmişə bağlı olardı. Bir dəfə xəlvətcə deşikdən baxıb gördüm ki, lampa yanır, içəridə də adam var. Elə

qapını açmaq istəyirdim ki, dayı arvadım gəlib qoymadı. Dedi ki, açma, orda əjdaha var. Dedim axı içəridə lampa yanır. Dedi ki, o da əjdahanın gözüdür. Sonra otaqdan çıxıb bir müddət də zirzəmidə qalıblar. Sonradan bildim ki, o adam Məmməd Əmin Rəsulzadə imiş.

*Manaf Süleymanov, yazıçı, 80 yaşında:*

— Bir dəfə anamla getdik nənəmgilə. Bir az oturub çay içəndən sonra otaqdan səs eşidildi. Mən həmin səs gələn qonaq otağına getmək istədim. Nənəm qoymadı. Anama da acıqlandı. Biz xudahafizləşib gedəndə nənəm arxadan darvazanı qıfılladı. Malik adında bir dayım vardı. Sonralar nənəmə zarafatla deyərdi: «Əgər pul verməsən Məmməd Əmin Rəsulzadəni evinizdə gizlətdiyinizi deyəcəyəm».

*Münəvvər İsmayılova, 84 yaşında:*

— O zaman təxminən on üç yaşım vardı. Axşam vaxtı Məşədi Əliabbas evimizə gəlib dedi ki, Kəblə Sultan (dayımın adıdır), evimdəki qonaqları satıblar, gəlib tuta bilərlər. Gətirmişəm sizdə qalsınlar. Beş gün qaldılar bizdə. Az keçməmiş tutulmaq xəbərini eşitdik. Sonradan dayım gəlib dedi ki, evimizdəki qonağı Stalin özüylə aparıb. Qonağın Məmməd Əmin Rəsulzadə olduğunu sonradan öyrəndim.

Dayımı onu gizlətməyinin üstündə iki ilə kimi incitdilər.

## TÜRKİYƏYƏ GEDİRƏM

Uzun ayların həyəcan və gərginlik dolu intizarından sonra Türkiyəyə gedirəm. Dostum Yusif Gədikli dəvət göndərib. Amma hələ Bakıdakı görüşümüzdə Yusif bəyə demişdim ki, Türkiyəyə bir məqsədlə getmək istəyirəm. Türkiyəyə getməkdə məqsədim Məmməd Əmin Rəsulzadənin dostları ilə görüşmək, faktlar, materiallar toplamaqdır.

Batumdakı gömrükxanada bir nəzarətçi erməninin xoşagəlməz rəftarından dilxor olsam da, Türkiyə torpağına ayaq basan kimi qanqaraldıcı hadisəni unuduram. Elə ilk qarşılaşdığım adamlardan mehribanlıq görürəm. İlk gözümə dəyən türk polisidir. Heç yanı tanımadığımdan ona yaxınlaşıram. Salam verirəm. Mehribanlıqla salamımı alıb soruşur:

— Nerədənsən?

Cavab verirəm ki, Bakıdan.

Gülümsünərək deyir:

— Azəri qardaşımızsan ki!

Sonra əli ilə yuxarı tərəfi göstərib deyir: —Bax, İstanbul o yandadır. Burdan maşınla gedirsən Hopaya. Hopadan hər gün İstanbula avtobus gedir.

...Taksi sürücülərinə yaxınlaşıram. Danışığımdan azərbaycanlı olduğumu bilib birisi deyir:

— Burdan Hopaya üç dollara aparırlar. Amma Azəri qardaşım olduğuna görə səndən iki dollar alacağam.

Bir neçə gürcü müştərini də maşına mindirib yola düşürük.

Qaranlıq çoxdan düşüb. Maşın zülməti yara-yara azad türk torpağı ilə gedir. Bütün günü ora-bura qaçmağıma, iki gündür ki, yol gəlməyimə baxmayaraq özümü sakit hiss edirəm. Maşındakı maqnitafondan azad türk şərqiləri çalınır.

...Gecəni Hopadakı mehmanxanada qalıb səhəri günü «Ulusoy» şirkətinə məxsus yüksək xidmətli avtobusla İstanbula gedirəm. Yolun sağ tərəfində Qara dənizin gözəlliyi görünür. Avtobus Türkiyənin gözəl şəhərləri olan Trabzonun, Samsonun, Bolunun içindən ötüb keçir. Arada düşüb çay içirik, çörək yeyirik. Və hər yerdə insanları mehriban, səmimi görürəm.

«Ulusoy» gecənin qaranlığı ilə şütüyüb gedir. «Ulusoy» İstanbula aparır bizi.

Səhər saat yeddidə İstanbula çatırıq. Bərk yağış yağır. Gözləmə otağına keçirəm. Gəlməyim haqqında Yusif bəyə bildirməmişəm. Əvvəlcədən kimisə narahat etməyi xoşlamıram. Hələ tezdir. Gözləyirəm ki, bir az keçsin və saat səkkizdə Yusif bəyə zəng vurub gəldiyimi bildirim. Erkən zəng edib yuxudan oyatmaq da istəmirəm.

Saat səkkizdə Yusif bəyə zəng edirəm, sevinir. Deyir ki, gözlə, gəlirəm...

...On-on bir yaşlı bir türk oğlan yanımda əyləşir. Soruşur:

—Abi, müsafirsənmi?

—Müsafirəm, - deyə cavab verirəm.

—Mən şeylərinizi aparmaqda sizə kömək yaparam. Nerədənsiniz?

—Bakıdan.

—Hə, abi, xoş gəlmisiniz. Amma burada hər adama inanmayın. Bura İstanbuldur, abi, burda yaxşı adamlar da var, pis adamlar da. Sənə yaxşılıq da edərlər, pislik də....

Balaca türk oğlan həvəslə İstanbulun «sirrini» mənə açıb danışdığı zaman Yusif bəy içəri girir. Mehribanlıqla qucaqlaşıb görüşürük.

...Yusif bəyin evində də eyni mehribanlığı görürəm. Həyat yoldaşı səmimiyyətlə qarşılayır məni. Balaca, beş aylıq qızı Bötül qollarını açıb mənə sarı can atır...

Sabahı günü işə başlayırıq. İlk sorağını aldığımız adam *Əlirza Turandır*. Əlirza bəyə zəng edirik. Saat beşdə Milli Kültur Dərnəyində bizi gözləyəcəyini deyir.

Saat beş tamamda Əlirza bəy gəlib çıxır. Mehribanlıqla görüşür bizimlə. Əsli naxçıvanlıdır. Müharibədən sonra gəlib Türkiyəyə. Azərbaycandakı vəziyyəti soruşur, bir az məlumat verib, Məmməd Əmin Rəsulzadə haqqında xatirəsini danışmağı xahiş edirəm.

Əlirza Turanın xatirəsi:

- Emin bəylə 1945-ci ildə Almaniyada tanış oldum. Haqqında çox eşitmişdim. Amma özünü ilk dəfə 1945-ci ildə gördüm. Hadisə belə oldu. Stansiyada dayanıb qatar gözləyirdim. Qatar gələndə gördüm ki, bir adam tez qapını açıb məni səslədi. Baxdım ki, həmyerlim Məhəmməd Kəngərlidir. Dedi ki, Emin bəy də burda vaqondadır. Gedək tanış ol. Sonra Türkiyəyə gəldik. Ara-sıra görüşürdük onunla. 1952-ci il idi. Emin bəy gəlmişdi İstanbula. Yanına gedib görüşdüm. Dedim ki, sabah sizi evimdə plov yeməyə dəvət edirəm. Cavab verdi ki, yox, mən İstanbul plovu yemirəm. Soruşdum ki, niyə? Dedi:—Bu İstanbul plovu yeməməyimin maraqlı tarixçəsi var. 1911-ci ildə İrandan təzəcə Türkiyəyə gəlmişdim. Dostlarımla getdik yeməkxanaya plov yeməyə. Gətirib bizə saqqız kimi plov verdilər. Biz təəccübləndik. Axı bizim Azərbaycanda plova min bir ədviyyat vururlar. Ona görə də İstanbul plovundan yeyə bilmədim. Dostlarımdan biri dedi ki, eybi yox, Emin bəy, allah qoysa Azərbaycan milli hökumətimizi quranda Osmanlı hökumətinə bir bəyanat verərik ki, İstanbulda belə plov bişirməsinlər.

Hamımız gülüşdük. O zamandan bəri mənim İstanbul plovu ilə aram yoxdur.

Emin bəy geniş qəlbli, səmimi bir insan idi.

Növbəti görüşəcəyimiz adam *Sami Yavrucuq* bəydir. Bu adam haqqında məlumatı Türk dünyasını Araşdırmalar Vəqfinin sədri Turan Yazqan verib.

Sami bəy müşavir işləyir. Əvvəlcədən zəng etmişik. Saat ikidə İnönü caddəsində yerləşən iş yerində bizi gözləyəcəyini deyib.

...Səmimiyyətlə, mehribanlıqla görüşür bizimlə. Tez Yusif bəydən soruşur:—Yusifcan, qardaşımız çörək yeyibmi, ac deyil ki?

...Sonra Sami bəy ötən günlərin xatirələrini danışır:

—Müharibədən sonra Türkiyədə mühacirlərin siyasi bir iş görməyi çətin idi. Çünki o zaman vəziyyət gərgin idi. Turançılıq qadağan idi. Müəyyən adamlar da vardı ki, müstəqilliyini itirib Türkiyəyə gələnlərin geniş təbliğat aparmağını istəmirdi. Ona görə də məcbur olduq ki, mübarizəmizi qol götürüb oynamaqdan başlayaq. İlk vaxtlar ancaq mədəni tədbirlərlə işimizi məhdudlaşdırırdıq. Bax, bu sözləri ona görə deyirəm ki, rəhmətlik Emin bəyin necə çətin şəraitdə «Azərbaycan davası»nı apardığını biləsiniz. Emin bəyi ilk dəfə 1949-cu ildə Azərbaycan Kültur Dərnəyinin konqresində gördüm. Elə ilk görüşümüzdən də məndə xoş təəssürat oyatdı. Səmimi insan idi. Gözəl natiqliyi vardı. Əgər rəhmətlik bilsəydi ki, bir gün həmişə həsrətində olduğu Azərbaycandan gəlib onu soraqlayacaq, axtaracaqlar. Heç bilirsinizmi necə sevinərdi?

Görüşəcəyimiz növbəti adam ginekoloq-həkim *İldəniz Qurtulandır*. İldəniz bəy haqqında Yusif bəy dostlarının birindən öyrənib. İldəniz bəyə zəng edirik. Razılaşırıq ki, istirahət günü onun evində görüşək.

İldəniz bəyin qaldığı yer uzaqdadır. İstanbulda qaldığım bu neçə gündə ilk dəfədir ki, belə uzaq yol gedirik. «Qazlıçeşmə»də minirik qatara. «Eminönü»

limanına gəlirik. Limanda «Kadıgöy» gəmisinə minirik. 10 dəqiqəyə qədər Mərmərə dənizinin gözəlliyinə baxa-baxa gedirik. Kadıgöydə gəmidən düşüb avtobusla «Anadolu sitəsi»nə —İldəniz bəyin evinə üz tuturuq.

...İldəniz bəy evdə bizi gözləyir. Stolun üstündə çoxlu sənədlər, materiallar qoyub. Diqqət edirəm. Məmməd Əmin Rəsulzadənin çıxardığı jurnalların hamısı burdadır: «Yeni Qafqasiya», «Azəri türk», «Odlu yurd», «Qurtuluş»... İldəniz bəy deyir ki, bunlar hamısı Mirzə Balanın arxivindəndir. Rəhmətliklə bir yerdə çalışırdıq. Dünyadan köçəndən sonra arxivini qoruyub saxlamışam. Sonra Məmməd Əmin Rəsulzadənin dəfn mərasimindəki şəkilləri göstərir. Nədənsə halım pisləşir. Diqqətlə, diqqətlə baxıram matəm şəkillərinə. İldəniz bəy də, Yusif bəy də əhvalımın dəyişdiyini hiss edirlər. İçəri ağrılarıma bürünmüş halda astadan deyirəm: allah rəhmət eləsin.

Sonra İldəniz bəy Məmməd Əmin Rəsulzadənin «Azərbaycan cümhuriyyəti»ni yazarkan kağıza yazdığı qeydləri göstərir. Diqqətlə Məmməd Əmin Rəsulzadənin öz xətti ilə yazdığı qeydlərə baxıram: «Göyçay alayı imiş, Lənkəran deyil», «6-cı fəsil, 12-ci maddədə dəyişiklik etmək», «1918-ci il yanvarın 12-də Nuru Paşaya verilən ziyafətin təfsilatını Məmməd Əlidən istəmək!»

Bu onun qeydləridir. İlk dəfədir ki, öz dəst-xəttini görürəm.

Sonra Mirzə Balanın o dövrün materiallarını, jurnal və qəzetlərini neçə səliqə ilə toplamağına heyrət edirəm. Və düşünürəm ki, bu sənədlərin hamısında Azərbaycanın nəfəsi var. Mirzə Bala doğma yurdu üçün az yanmayıb ki! Amma indiyə kimi əsiri olduğumuz qanlı rejim qoyubmu ki, gəlib xalqımızın bu vətənpərvər oğullarının nakam taleyi ilə maraqlanaq!

Sonra İldəniz bəy Məmməd Əmin Rəsulzadə haqqında xatirələrini danışır:

— Atam Əjdər Babazadə əslən Bakıdan—Çəmbərəkənddəndir. 1920-ci il hadisələrindən sonra «gizli müsavat»ın üzvü olub. Vəziyyət pisləşdikcə onun da başı üzərində ölüm təhlükəsi dolaşıb. İş o yerə gəlib çatıb ki, sağ qalmağına ümidini tamam itirib. Bir təsadüf nəticəsində canını qurtaran atam sonradan həmişə adının yanında «Qurtulan» yazdırıb.

Emin bəyin adını da ilk dəfə atamdan eşitmişəm. Bax, bu albomumdakı uşaqlıq şəkillərimə diqqət edin. Burda üç rəngli milli Azərbaycan bayrağımız görünür. Atam bu bayrağı əziz bir xatirə kimi asar, həmişə də məhəbbətlə Emin bəydən danışardı. 28 mayı—Azərbaycanın istiqlal gününü atam evimizdə bayram kimi qeyd edərdi. O zamandan qəlbimdə Emin bəylə tanış olmaq, onunla görüşmək istəyirdim.

1953-cü ildə İstanbula getdim. Atamın həmyerlisi, yaxın dostu Mirzə Bala ilə görüşdüm. Nəhayət, Ankaraya getdim. Emin bəylə tanış oldum. Çox səmimi, xoşxasiyyət, şirin bir adam idi. Hərdən zarafatla deyərdi: «İldəniz xoşbəxt adamdır, çünki həm tibb universitetində oxuyur, həm də Mirzə Balanın universitetində».

Emin bəydə şəkər xəstəliyi vardı. Yadımdadır ki, ömrünün son illərində İstanbula gəlmişdi. Xaricə getməliydi. «Şehirparası» mehmanxanasında qalırdı.

Əhməd Cəfəroğlu, Mirzə Bala, Ağasibəy və Əlirza Turanla birlikdə getdik yanına. Səmimi söhbətdən sonra yemək təklif olundu. Emin bəy şikayətləndi ki, şəkərim var, olsaydı bir turş alma yeyərdim.

Emin bəyin ölümünü bir həftə sonra eşitdim. Mirzə Bala ilə birlikdə ölümünə acı-acı ağlayırdıq.

**Zöhrə Göygöl.** Azərbaycan Demokratik hökumətinin Baş naziri Yusif bəy Nəsibbəylinin qızının Türkiyədə yaşadığını bilirdim. Amma ünvanını əldə etməmişdim. İstanbulda görüşdüyümüz adamlar da onun harada yaşadığından xəbərsizdi. Dostum Yusif Gədikli Əli Mərdan bəy Topçubaşovun nəvəsi—Zərifə xanımın telefonunu öyrənib. Ümid edirik ki, Zərifə xanımdan Məmməd Əmin Rəsulzadə haqqında bir məlumat öyrənəcəyik. Axşam Zərifə xanıma zəng vururuq. Sabah saat ikidə evində bizi gözləyəcəyini deyir.

...Zərifə xanım mehribanlıqla bizi içəri dəvət edir. Otaqda yaşlı bir qadın da var: Zərifə xanım:

—Tanış olun, Zöhrə xanımdır, Yusif bəy Nəsibbəylinin qızıdır.

Təəccübdən donub qalıram. Zöhrə xanımı tapmaq üçün neçə ünvana üz tutub soraqlamışdıq. İndi qəribə təsadüf bizi görüşdürür.

Zöhrə xanım ötənləri xatırlayır:

—Mən o vaxt uşaq idim. Çox şey yadıma gəlmir. Amma sonradan bildim ki, atamla Məmməd Əmin Rəsulzadə möhkəm dost olublar. Mən Emin bəyin qızı Lətifə ilə yaxın olmuşam, demək olar ki, uşaqlığımız bir yerdə keçib. 1920-ci ilin 27 aprel faciəsi də yadımdadır. Atam gecə vaxtı evə gəlib həyəcanla dedi: «Biz bədbəxt olduq». Ondan sonra atamı görmədim. Sonradan faciəli ölümünü eşitdik. Bolşeviklər Bakıya girəndə biz gedib Məmməd Əmin Rəsulzadəgildə qaldıq. Hər gecə yük maşınları ilə gəlib camaatın evindəkiləri soyub, talayıb aparırdılar. O maşının uğultusu indi də qulağımdadır. O maşının səsi eşidiləndə evdə hamı həyəcan keçirirdi. Qıztamam adlı xidmətçimiz vardı. Evimizdəki pal-paltarları satıb bizi birtəhər dolandırırdı. Sonra min bir əziyyətlə Türkiyəyə gəldik.

Emin bəy haqqında isə həmişə eşidirdik. Bilirdik ki, dərgilər çıxarır, böyük işlər görür».

...Zöhrə xanımla ötən illərdən, Demokratik Respublika dövründə yadımda qalanlardan çox söhbət etdik. Zərifə xanım isə babası Əli Mərdan bəyin şəkli çap olunan «Prometey» jurnalını bağışladı bizə. Sonra Zöhrə xanım bizi evinə dəvət edir. Birlikdə gedirik Zöhrə xanımgilə. Yol boyu ötənlərdən danışırıq. Zöhrə xanım çox səmimi və mehribandır. Söhbətlərindən bir həqiqəti aşkarlayıram: Bu adamlar hamısı itirdikləri həqiqətin – Azərbaycanın ağrısını çəkir, onun yenidən azadlığa çıxacağı həsrəti ilə yaşayırlar.

**Ölümə məhkum edilmiş adam.** O, qəribə tərzdə üzümə baxıb sanki şübhələnirmiş kimi deyir: İncimə, sənə adımı deməyəcəyəm. Çünki ölümə məhkumedilmişəm. Əgər hökumətiniz sağ qalıb yaşadığımı bilsə, məni rahat

buraxmaz. Qabaqlar qondarma bir adım olub, gətir onu da yaz: Seyid İbrahim Əl Tahir. Amma Emin bəy haqqında xatirəmi danışacağam sənə.

—Hələ müharibə illərində Almaniyada olanda onun adını eşidirdim. Müharibədən sonra Stalin bizi aparıb güllələmək istəyirdi ki, niyə əsir düşübsünüz. O zaman Misir kralı Fərrux gəlmişdi Almaniyaya. Gedib yıxıldım ayaqlarına ki, məni xilas et, özünlə apar. Kral mənimlə bərabər çoxlu azərbaycanlını apardı Misirə. Bir müddət qalandan sonra gəldik Türkiyəyə, gəlmişəm, amma ağır vəziyyətdəyəm, heç nəyim yoxdur. Bir tanışım dedi ki, Məmməd Əmin Rəsulzadə Ankaradadır, ona məktub yaz, sənə kömək etsin. Ankaraya—onun adına məktub yazdım. Cavab gəldi ki, gəl Ankaraya, filan mehmanxanaya. Gəldim Ankaraya. Mehmanxana sahibi məni mehribanlıqla qarşıladı, yer verdi. Az keçməmiş gördüm mehmanxana sahibi məni çağırır yanına. Otaqdakı hündürboylu adamı göstərib dedi: Tanış ol, Məmməd Əmin Rəsulzadədir. Tez əlini öpmək istədim, qoymadı. Sonra dedi ki, iki gündən sonra toplantı olacaq, sən də gələrsən. Çox gözəl insandı. Xəfif gülməyi vardı. Son görüşümüz 1955-ci ildə oldu. Həsən İsmayıllı ilə birlikdə getmişdik görüşünə. Ölümünü eşidəndə hamımız ağladıq. Yığışıb getdik qəbri üstünə.

...«Ölümə məhkum edilmiş», vətənindən didərgin salınmış azərbaycanlı ilə görüşüb ayrılanda ağrılı-ağrılı göz yaşı içində dedi:

—Yolun bir də buralara düşsə, mənə bir ovuc Azərbaycan torpağı gətir. Çünki daha qocalmışam, öləndə üstümə atsınlar. Özümdə bir az qalmışdı, onu da bu yaxınlarda dünyadan köçən dostum Nağı bəyin üstünə atdım.

...Bu nakam taleli həmyerlimdən ürək ağrısı ilə ayrılıram. Bu adamların günahı nədir axı? Günahları odur ki, əsir Azərbaycanda yaşamağı qəbul etməyib, gəlib Məmməd Əmin Rəsulzadənin başına yığılıblar. Çünki onun Azərbaycanı işğaldan xilas edəcəyinə inanırdılar.

**Əkbər Yüzbaşıoğlu.** Əkbər bəyi bizə tanıdan adamlar deyirdilər: onu yalnız kazinolarda tapa bilərsiniz. Doğrudan da İstanbulda Bayazid meydanı tərəfindəki əksər kazinolarda Əkbər bəyi tanıyırdılar. Hansına getdiksə dedilər ki, burda idi, az əvvəl getdi. Axır ki, Əkbər bəyi tapırıq. Çox sakit görünüşlü adamdır. Əsli gəncəlidir. Türkiyəyə 1936-cı ildə gəlib.

Məmməd Əmin Rəsulzadə haqqında xatirəsi:

—Emin bəyi hələ 1948-ci ildən tanıyırdım. O zaman Türkiyəyə gələn mühacir azərbaycanlıları yerləşdirirdik. Bütün işlərə rəhbərliyi o edirdi. Bir görüşümüz isə lap yaxşı yadımdadır.

1953-cü il idi. Səlim bəy dedi ki, bəs Emin bəy səni görmək istəyir. Saat üçün yarısında getdik yanına. Əhməd Cəfəroğlu da onunla idi. Emin bəy təklif etdi ki, gəlin birlikdə gedək «Cümhuriyyət» kazinosuna. Getdik. Oturub söhbət edir, Azərbaycandan danışırdıq. Söhbət necə oldusa Stalindən düşdü. Emin bəy dedi ki, qulaq asın, Stalin haqda sizə bir lətifə danışım.

—Bir gün Stalinin bir dostu yeddiillik şərab dolu tuluğu eşşəyə yükləyib gedir Kremlə. Stalinə xəbər çatdırırlar ki, bəs bir dostun sənə şərab gətirib. Həmin adamı Stalinin yanına aparırlar. Günortaya kimi oturub şərab içirlər. Günorta zamanı eşşək aşağıda başlayır anqırmağa. Stalinin dostu tez qalxır ayağa ki, bəs eşşək açıb, gedirəm onun yemini verməyə.

Stalin gülüb deyir:

—Ay sağ olmuş, 180 milyon adam acından ölür, heç mənim vecimə deyil, sənin bir eşşəyin acıb, narahat olursan.

..Emin bəyin hərdən belə lətifələr danışmağı olurdu. Amma Bakıdakı ailəsi, uşaqları haqda bir söz soruşanda ağrıdan əsəbiləşib deyirdi: o söhbəti qapayın!

Ölüm xəbərini teleqrafla çatdırdılar bizə. Sabahı günü iyirmiyə qədər adam yığışıb getdik Ankaraya. Biz yola düşəndə axşamüstü idi. Radio onun ölüm xəbərini verirdi. Dəfnində çoxlu adam iştirak edirdi. Hamı ağlayırdı, göz yaşı tökürdü...

İndi Ankaraya gedirəm. İstanbulda işimi tam qurtarmamışam. Amma o adamlar Yeni ildən sonra gələcəklər İstanbula. Ona görə də vaxtı itirməməkdən ötrü Ankaraya tələsirəm. Ankara həmişə özünə çəkir məni. Türkiyəyə gəldiyim ilk gündən ora can atıram. Çünki orda qərib bir məzar var. Çünki orda ömrünü, gününü xalqının yolunda şam kimi əritmiş bir azadlıq fədaisinin ruhu yaşayır. Elə əslində onun o qərib məzarını ziyarətə gəlmişəm. Ankaraya tələsirəm. Səbrim tamam tükənib. Avtobusun nə zaman yola düşəcəyini həyəcanla gözləyirəm. Nəhayət, avtobus tərpənir.

Səhər erkən Ankaraya çatıram. Seyfəddin Altaylının bələdçiliyi ilə Azərbaycan Kültur Dərnəyinə gedirəm. İlkin olaraq Məmməd Əmin Rəsulzadənin yaxın dostu Məhəmməd Kəngərli ilə görüşmək istəyirəm. Zəng edirik. Saat ikidə görüşməyə razılıq verir.

Məhəmməd Kəngərlinin iş yeri Mənəkşə küçəsindədir. Məhəmməd bəy haqqında çox eşitmişəm. Deyilənə görə Məmməd Əmin Rəsulzadənin dünyadan köçdüyü son anlarda yanında olub. Məhəmməd bəydən çox söhbət eşidəcəyimə ümid edirəm.

...Məhəmməd bəylə mehribanlıqla görüşürük. Məmməd Əmin Rəsulzadənin güllələnmiş oğlu Rəsulun, Azərin, həyat yoldaşı Ümbül Banu xanımın şəkillərini ona verirəm. Şəkilləri görəndə çox həyəcanlanır. Xüsusilə həyatdan cavan getmiş Rəsulun taleyinə acıyır. Şəklinə dönə-dönə, ağrı ilə baxır.

Sonra Məmməd Əmin Rəsulzadə ilə bağlı xatirələrini danışır:

—Emin bəylə 1942-ci ilin martında tanış oldum. O zaman Krımda əsir düşmüşdüm, gətirmişdilər Berlinə. Emin bəy də orda idi. Emin bəy Azərbaycan milli mərkəzinin sədri idi. Sonra getdim xidmətə. Amma əlaqəmiz itmirdi. Məktublaşırdıq. Emin bəy Hitlerin «nasionalist» fikirlərinə qarşı çıxırdı, deyirdi bizə Azərbaycanın istiqlaliyyəti lazımdır.

Emin bəy Rumıniyada olanda da onunla görüşürdük. O Buxarestdə idi, mən isə Konstantsa şəhərində. Yanına gec gələndə deyərdi: səndən nigaran qalıram, Məhmətcik. Sonra məni əsir aldılar... 1945-ci ilin iyul ayında Almaniyada Emin bəylə görüşdük. 1947-ci ilə qədər Emin bəylə birlikdə Almaniyada qaldıq. Emin bəyin rəhbərliyi ilə «Azərbaycan Demokrat Birliyi»ni yaratdıq. Məqsədimiz əsir azərbaycanlıları Rusiyaya göndərməyə qoymamaq, onları Stalin gülləsindən xilas etmək idi. Çünki o zaman Stalin əsirləri aparıb güllələyirdi. Biz isə onları xilas etməyə çalışırdıq.

Sonra Türkiyəyə gəldik. Emin bəy azərbaycanlıların yerləşdirilməsi ilə məşğul idi. Biz də onun tapşırığı ilə işləyirdik. 1953-cü ildə Emin bəyin təklifi ilə «müsavat» partiyası Ankara komitəsinin sədri seçildi. Yenə Emin bəyin təklifi ilə «Müsavat» partiyası mərkəzi komitəsinin üzvü seçildim.

Emin bəy çox böyük insan idi. Uzun boyu, əsmər saçı, oval üzü vardı. Sifətindən nur yağırdı. Son dərəcə xoşniyyət adam idi. Kimsəyə pisliyi keçməzdi. Çalışardı ki, hamıya xeyirxahlığı dəysin. Güləndə alçaqdan, xəfifcəsinə gülərdi.

Emin bəyin bir xasiyyəti də vardı. Bir yerə qonaq çağırılanda hamıdan əvvəl gələrdi. Deyərdi ki, gec gedəndə oturan adamlar ayağa qalxıb narahat olar. Diqqətli, çox diqqətli adam idi.

Emin bəyin hərdən xoş zarafatları da olurdu. Bir dəfə doktor Həmid Ataman onun qulağını müalicə edirmiş. Müalicəni qurtarandan sonra soruşur ki, hə, Emin bəy, indi necə hiss edirsən özünü? Qulağın sağalıbmı? Emin bəy deyir: — Doktor, hələlik bir söz deyə bilmərəm. Burdan çıxan kimi gedirəm Kəngərlinin yanına. Əgər onun dediyini eşidə bilsəm, demək qulağım sağalıb, yox eşidə bilməsəm onda sağalmayıb. Emin bəy belə deyəndə mənim astadan, pıçıltı ilə danışmağımı nəzərdə tutubmuş. Çünki qabaqlar çox astadan danışan adam olmuşam.

Emin bəy ölümündən bir həftə əvvəl həyat yoldaşı Leyla xanımla bizə qonaq gəlmişdi. Ayın altısında isə... Yanında idim. Lap yaxında dayanmışdım. Son sözü «Azərbaycan» oldu...

..Sabahı günü Məhəmməd bəy və Selcuq bəylə birlikdə Əsri məzarıstanlığına—onun məzarı üstünə getməyi qərara alırıq. (Məhəmməd Kəngərlinin Ankarada mənə çox köməyi dəyir. Məmməd Əmin Rəsulzadə haqqında çoxlu sənədləri, faktları Məhəmməd bəy verir mənə).

..Əsri məzarıstanlığına gedirik. Qəribə həyəcan içindəyəm. O qərib məzarla görüşümün necə olacağını düşünürəm.

Bu da Ankaranın «Əsri» məzarıstanlığı. İkinci qapını açıb içəri giririk.

Qəmgin və soyuq məzarları görəndə içərimdən qəribə gizilti keçir. Deyirlər ki, məzarıstanlığın nəfəsi ağır olur. Haqq sözdür. Çünki həmişə məzarıstanlığa gedəndə əhvalımın dəyişdiyini, halımın pozulduğunu hiss etmişəm. Məzarıstanlığın qorxusunu ilk dəfə nənəmdən hələ uşaq olanda eşitmişəm. İndiki kimi yadımdadır. Əziz gün qabağı evimizdə babamın qəbri üstünə gedəcəkdilər. Getməyə bir gün qalmış axşamüstü yenə o söhbəti edirdilər. Dedim ki, məni də

aparın qəbir üstünə. Etiraz etdilər ki, səni ora aparmaq olmaz. İnadkarlıq edib əl çəkmədim ki, məni də aparın. Axır razılaşdılar. Rahat olub yerimə girdim. Yatmaq istəyəndə nənəmin pıçhapıçla dediyi sözü eşitdim. «Uşağı ora aparmaq olmaz. Qorxar!» Səhər yuxudan ayılanda gördüm ki, mənsiz qəbir üstə gediblər. O zamandan qəbirdən, məzarıstanlıqdan qorxmaq sözü yaddaşıma köçdü.

...Məzarlara baxa-baxa irəli gedirik. Lap qabaqda onun bu soyuq və qərib torpağa basdırılmağını gözü ilə görən Məhəmməd Kəngərli gedir. Birdən cığırdan sola dönüb bir qəbrin yanında dayanır. Odur, onun məzarıdır. Ömrü, günü zillətdə keçən, bir xoş gün görmədən dünyaya göz yuman, bütün işıqlı həyatı boyunca «Azərbaycan» deyən adamın qəbridir. Özümü saxlaya bilmirəm, məzara sarı atılıb, soyuq daşı öpürəm. Gözlərim dolub. İçərim isə hönkürür. Həyəcandan boğulan kimiyəm. Ürəyimdən qeyri-ixtiyari sözlər axır:

«Allah sənə rəhmət eləsin», qəbrin nurnan dolsun. Məzarın üstə gəlmişəm. Bilirsənmi niyə gəlmişəm? Gəlmişəm ki, sənə ağrılarımızı, dərdimizi danışım. Gəlmişəm deyim ki, başımıza hələ də oyunlar açılır. Xalqımızın günahsız oğullarının qanı axıdılır. Torpaqlarımız alınıb düşmənlərə verilir. Varımız, dövlətimiz yadların əlindədir. Əzilirik, qul kimi işlədilirik. Haqqımız tapdanır. Səsimizi eşidən yoxdur. Adamlar torpaqlarından, dədə-baba yurdundan qovulur. Evlərimizin ocağı söndürülür, yurdlarımız xaraba qalır. Gəlmişəm bu sözləri deyəm sənə. Deyəm və sonra da məzarın üstündə hönkür-hönkür ağlayam. Düşdüyümüz bu fəlakətdən bizi qurtarmaq üçün canın fəda etdin. Son nəfəsinə kimi amansız oldun onlara qarşı. Amma nigaran getdin bizdən. Çünki sən gedəndə biz manqurt halında ömür sürür, biabırçı, xəcalət təri tökən şüarlarla nəfəs alırdıq. Adını belə çəkmək qadağan idi yurdumuzda. Nə idi səbəbi? Çünki sən hürriyyət günəşi idin, azadlıq aşiqi idin. Çünki sənin adının çəkilməyi yatanların qəflət yuxusundan ayılmağı, qanlı rejim hökmranlarının yuxusuna haram qatılmağı demək idi. Yox, adını qoymazdılar heç zaman çəkilməyə. Çünki dediyin hər söz qorxunc istibdada, xalqı əsarətə və işğalda saxlayan quruluşa qarşı çarpılan qılınc zərbəsi idi. Qoymazdılar, bax elə buna görə qoymazdılar adın çəkilsin...

...Dərdin, qəmin ağırlığı üstümə çökmüş halda məzarın başına dolanıram. Düşünürəm ki, bu yalnız qərib bir Vətən fədaisinin məzarı deyil, bu dünyada əsarət və işğal altında inildəyən bütün əsir xalqların alovlanan məşəlidir. O məşəl ki, onun nurundan əsir xalqlar güc alıb qüvvətlənir, azadlığı və istiqlaliyyəti yolunda şanlı mübarizəyə qoşulur. Bu məşəlin işığını neçə illərdir ki, qaranlıq buludlarla örtüb bizdən gizləyirlər. Çünki qorxurlar bu məşəldən. Amma indi o məşəli Azərbaycanda gizlədə bilməzlər. O məşəlin odu yenidən Vətən torpağına yayılır, xalqı əsarət zəncirindən qurtarmağa səsləyir. O məşəl alovludur, günəş kimi zülmətləri əridəndir. Qara qüvvələrin, xalqın qanını soranların qənimidir. Özgə torpağını işğal edənlər ondan həmişə qorxurlar. O məşəl yanır, o məşəl alovlanır! Həmişəlik və əbədi!

...Məzarına baxıram. Mərmər daşların üstündə bu sözlər yazılıb: «İnsanlara hürriyyət, millətlərə istiqlal». «Bir dəfə yüksələn bayraq bir daha enməz!» Bu onun sözləridir. Elə bütün ömrü boyu bu sözlərin yolçusu oldu.

Məzarın yanında xatirə şəkilləri çəkdiririk, sonra vidalaşıb məzardan ayrılırıq. Bəli, vidalaşırıq, sağ ol, salamat qal deyirik. Onun əməlləri, xalqının istiqlaliyyəti yolundakı şərəfli işi bu gün bizə gəlib çatıbsa, demək o sağdır və aramızda yaşayır!

...Qəbristanlıqdan çıxanda qoruqçunu görürəm. Düz qapının yanında dayanıb. Bizimlə mehribanlıqla görüşür. Qoruqçudan soruşuram ki, siz hər günmü burda olursunuz? Yaşlı qoruqçu təəccüblənir və qəribə heyrət içində deyir: Bəli, nə olub ki?

Qoruqçuya baxıram, nədənsə bir söz demək istəyirəm ona. Eləcə demək istəyirəm ki, o məzardan muğayat ol! Gözlə o qərib məzarı!

Lakin heç nə demirəm. Sağollaşıb ayrılıram. Amma Ankaradan gedən günü bir dəfə də gələcəm bu məzarıstanlığa.

**M. Ə. Rəsulzadənin pasportu.** Sabahı günü Məhəmməd bəylə yenə görüşürük. Məhəmməd bəy çox qiymətli sənədlər verir mənə. Bu sənədlərin hamısı Məmməd Əmin Rəsulzadənin bütün ömrü boyu apardığı «Azərbaycan davası»nı təsdiqləyən sübutdur. Amma bir sənəd xüsusilə maraqlandırır məni: Məmməd Əmin Rəsulzadənin pasportu.

Bu xaricə getməyi üçün verilən pasportdur. 1954-cü il avqustun 24-də verilib. Pasportun nömrəsi: 383991. Pasportda atasının adı, harda və hansı ildə doğulmağı yazılmaqla yanaşı bəzi maraqlı qeydlər də var. Həmin qeydlər:

Vəzifəsi—məmur.

Boyu—1.70.

Gözünün rəngi—siyah.

Saçının rəngi—qumral.

Pasportu aldığı səkkiz ay müddətində Məmməd Əmin Rəsulzadə aşağıdakı ölkələrdə olub: Almaniya, İsveçrə. Gedəcəyi iki ölkənin də adı var: İtaliya, İngiltərə. Bu ölkələrin hamısına o bir məqsədlə gedirdi: Azərbaycanın işğal olunduğunu dünya dövlətlərinə çatdırmaq, onları bir zaman müstəqilliyini imzalayıb tanıdıqları Azərbaycana köməyə çağırmaq!

**Əhməd Qaraca.** Azərbaycan Milli Mərkəzinin Baş katibi. Əhməd bəylə bizi tanış edən Məhəmməd Kəngərlidir. Elə Məhəmməd bəyin iş kabinetində də Əhməd bəylə oturub söhbət edirik.

Əhməd bəy deyir:

—Emin bəyin əvvəl adını eşitmişdim. 1937-ci il idi. Qardaşım hüquq fakültəsini bitirmişdi. Atam bir azərbaycanlı həkimi qonaq çağırmışdı evimizə. Söhbət zamanı atam ona dedi ki, doktor, Emin bəyi unutmamaq lazımdır. Atamdan soruşdum ki, Emin bəy kimdir? Atam cavab verdi ki, o Azərbaycanın görkəmli şəxsiyyətidir.

Emin bəyi ilk dəfə 1949-cu il fevralın 2-də Azərbaycan Kültur Dərnəyinin I qurultayında gördüm. O vaxt Emin bəy Dərnəyin fəxri başqanı seçildi. Yadımdadır ki, fəxri başqan seçiləndə ayağa qalxdı, hörmətlə baş əyib təşəkkürünü bildirdi.

Bir gün Dərnəyin toplantısında oturmuşduq. Emin bəy üzünü doktor Həmid Atamana (Həmid Ataman o zaman Dərnəyin başqanı idi) tutub dedi:—Həmid bəy, bu gənclərə də söz haqqı verin, qoyun onlar da danışsın, fikirlərini öyrənin.

Emin bəyin bu təklifindən sonra toplantılarda biz gənclərə də söz verməyə başladılar. Rəhmətlik məndən tez-tez soruşardı: hə, yeni bir şer yazmamısan ki? Ölümündən qabaq Almaniyada çıxan bir dərgidə yazısı çap olunmuşdu. Həmin yazıda mənim də adımı çəkmişdi.

Emin bəy yanvarın 12-də Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması günündə Dərnəyə gələr, bu mühüm hadisədən danışardı. Çox yapışıqlı, mehriban rəftarlı insan idi. Ölümündən qırx ildən çox vaxt keçib, amma onun hər bir hərəkəti, sözü, xatirəsi yaddaşımda qalıb. Yolu gedəndə tələsməzdi, asta addımlarla gedərdi. Makinada da yaza bilirdi.

Özündən yox, başqalarından eşitmişdim ki, bir dəfə Yusif Vəzir Çəmənzəminli Fransadan ona məktub yazır, dolanışığının ağır olduğunu çatdırır. O zaman Emin bəy cibindəki iki qızıl puldan birini Çəmənzəminliyə göndərir. Son görüş isə martın 5-də xəstəxanada oldu. Əyninə mavi cizgili paltar geyinmişdi. Bizimlə xoş danışdı. Əhvalı yaxşı idi. Sabahı günü gecə ölüm xəbərini eşitdik...

Emin bəyin ölümü hamımızı ağrıdırdı.

**Feyzi Aküzüm. Türkiyə torpaq məhsulları müəssisəsi Baş müdirliyinin Yönətim üyərsi:**

- Emin bəylə ilk dəfə 1948-ci ildə tanış oldum. O vaxta kimi isə haqqında eşitmişdim. Həmin vaxtlar Emin bəy Türkiyəyə gələn azərbaycanlıları yerləşdirir, onlara şərait yaradırdı. Hələ o vaxtlar tez-tez deyərdi ki, belə dağınıq halında olmaz, bir cəmiyyət qurmaq lazımdır.

Sonradan «Azərbaycan» dərgisini çıxarmağa hazırlıq görəndə Emin bəylə tez-tez görüşərdik. Min bir çətinliklə o dərgini çıxardıq. Dərginin adını «Azərbaycan» olmağını da mən təklif etdim. 1953-cü ilin mart ayı idi. Emin bəyin evində söhbət edirdik. Ona dedim:

—Siz çox uzun illərdir çalışırsınız, çoxlu əsərlər yazırsınız. Dəyərli fikirlərinizlə bizi öyrətmisiniz. Hər lider öz xalqının gənclərinə tövsiyyələr edir. İndiyə qədər yazdığınız əsərlərdə mən belə bir şeyə rast gəlməmişəm. Biz və bizdən sonrakı gəncliyə deyiləcək bir sözünüz olmayacaqmı?

Emin bəy güldü və «yazdıqlarım, söylədiklərim istəyinə cavab vermirmi? Bunların ki, içərisində axtardıqlarını tapa bilərsən»—deyə cavab verdi.

Mən dedim: «Doğru buyurursunuz, araşdırdığımız təqdirdə tapa bilərik, amma mən gəncliyə istiqamət verən bir sözünüzün olmadığını nəzərdə tuturam».

Emin bəy daha heç nə demədi, fikrə dalıb uzun müddət düşündü. Sonra biz söhbətin istiqamətini dəyişdik.

Vəfatının ildönümündə, 1956-cı ilin martında çap olunan Azərbaycan dərgisində Emin bəyin gəncliyə müraciətini gördüyüm zaman çox pərişan oldum. Gözlərim yaşardı. Dəfələrlə oxudum yazını. O zamankı söhbətimizi Emin bəyə gəncliklə bağlı «niyə bir şey yazmadığını» deməyimi xatırladım. Deməli Emin bəy sonradan öz tövsiyyəsini ayrıca bir şəkildə yazıb çatdırıb gəncliyə.

**Heydər Atak.** Təqaüdçü. Heydər bəylə görüşümüz Milli Kültur Dərnəyində oldu. Səmimi bir insandır. Məmməd Əmin Rəsulzadə ilə bir neçə il birgə çalışıblar.

Heydər bəyin dedikləri:

—İlk tanışlığımız 1946-cı ildə oldu. Doktor İbrahim Bədəl dedi ki, milli hökumətimizin başçısı burda Almaniyadadır, gedək görüşək. Birlikdə gəldik Emin bəyin qaldığı evə. Qapını bir qadın açdı. Rusca soruşdu ki, kimi istəyirsiniz? Dedik ki, Emin bəyi görməyə gəlmişik. Elə bu zaman içəridən Emin bəyin səsini eşitdik. Sonra içəri girib görüşdük. İlk tanışlığımız belə oldu. Sonradan «Azərbaycan Demokrat Birliyi»nin yaradılmasında, əsirlərin Türkiyəyə göndərilib yerləşdirilməsində birgə çalışır, tez-tez görüşürdük.

Almaniyada olduğumuz zaman Emin bəyin «Azərbaycan tarixindən» kitabını çap edib yaydıq. O kitabın çap olunmasında çox əziyyətlər çəkildi.

Müharibədən sonra Emin bəyin əsas fikri düşündüyü azərbaycanlı əsirlərin taleyi idi. Çünki Stalinin Ruzvelt və Çörçillə hələ Yaltada ikən qarşılıqlı razılaşmasına əsasən 1936-cı ilə qədərki bütün sovet vətəndaşları sovet hökumətinə qaytarılmalıydı. Geri qaytarılanları isə Stalin güllələyirdi.

Emin bəy hər vasitə ilə bu işə mane olmağa, azərbaycanlı əsirləri xilas etməyə çalışırdı. 1949-cu ildə gəldik Ankaraya. Gələn kimi bizə yardım göstərdi.

Emin bəyin xoş hazırcavablığı da vardı. Ömrünün sonlarında şəkər xəstəliyi güclədiyindən hərdən tüpürməyə məcbur olurdu. Bir dəfə də yolda gedəndə tüpürür: Bir qadın yaxınlaşıb deyir: heç inanmaq olmur ki, sizin kimi adam yola tüpürür: Emin bəy deyir: «Xanım, bu dünyaya tüpürə-tüpürə gəlmişik, tüpürə-tüpürə də gedirik».

Dünyadan köçən günü yanında idim! Ölümü hamımızı yandırırdı. Acı-acı ağlayırdıq.

**Şəfiqə Ataman.** Təqaüdçü. Həmid Atamanın həyat yoldaşı Şəfiqə Atamanla görüşmək bir az çətin olur, ünvanını, harada yaşadığını Milli Kültur Dərnəyində öyrənə bilmirəm. Nəhayət, dostum Yunus Lənkəranlı bu işi həll edir. Hardansa Şəfiqə xanımın telefonunu öyrənir. Şəfiqə xanımgilə İrfan Nəsrəddin oğlu ilə gedirəm. Evləri Ankaranın təzə məhəlləsində olduğundan çətinliklə tapırıq. Əvvəlcədən zəng edib danışmışıq Şəfiqə xanımla.

Bizi gülərüzlə qarşılayır. Əvvəlcə həyat yoldaşı Həmid Ataman haqqında soruşuram. Çünki Həmid Atamanı məhz Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Cümhuriyyət hökuməti xaricə oxumağa göndərib. Həmid Ataman o zamankı azad Azərbaycanın xaricə təhsil almağa göndərdiyi 100 tələbədən biri olub. Şəfiqə xanım danışır ki, Həmid Ataman Almaniyada tibb fakültəsini bitirdikdən sonra

Türkiyəyə gəlib, burda özünün müalicəxanasını açıb. Pis də dolanmayıb. Elə bu zaman Həmid bəyin qızı Narınc xanım girir içəri. Bizimlə səmimi görüşür. Şəfiqə xanım deyir ki, qızım Azərbaycanla çox maraqlanır. Sonra Şəfiqə xanım bizə ev albomunu göstərdi. Məmməd Əmin Rəsulzadə ilə Həmid bəyin ailəsinin birgə şəklini göstərir. Həmid Ataman, Şəfiqə xanım, Məmməd Əmin Rəsulzadə və balaca Narıncın birgə şəklində qəfildən bir şey aşkarlayıram: Leyla xanım gülümsünən halda balaca Narıncı qucağına götürüb. Məmməd Əmin Rəsulzadə kədərli bir halda sanki həsrət və ağrı içində Narınca baxır. Düşünürəm ki, bu övlad ağrısıdır, övlad acısıdır ki, onu belə hala salıb. Yəqin Məmməd Əmin Rəsulzadə bu xoşbəxt körpəyə baxanda dustaqlıqda qalan, əzab çəkən istəkli balalarını düşünüb. Axı onun da qəlbi doğma övladını belə mehribanlıqla bağrına basmaq, oxşamaq istəyirdi. Amma iblisanə qatillər onu bu yaşamaq haqqından məhrum etmişdilər.

Şəfiqə xanım deyir:

- Məmməd Əmin Rəsulzadə 1948-ci ildə Ankaraya gələndən sonra Həmid Atamanla tez-tez görüşürdülər. O zaman hələ Dərnək qurulmamışdı. Ona görə də toplantılarının söhbətlərini tez-tez bizim evdə edərdilər. Həmid bəylə çox mehriban və səmimi idilər. Hərdən Leyla xanımla bizə qonaq gələrdilər. Emin bəy çox səmimi insan idi. Onun ölümü Həmid bəyə çox pis təsir etmişdi. Həmid bəy ölənə kimi hər il onun məzarı üstə gedib xatirəsini yad edərdi...

Bu gün Ankaradan İstanbula gedirəm: Avtobusun vaxtına var hələ. Onun bir zamanlar yaşadığı evə bir də baxmaq istəyirəm. Həmin yeri Heydər Atak göstərib. Kənardan dayanıb baxmışıq. Amma indi tək-tənha o yerə üz tuturam. Otuz beş il əvvəl o burada—Sakariyyə caddəsində yaşayıb. Evini çoxdan söküblər. İndi o evin yerində hündür bina ucaldıblar. Binanın dörd yanını gəzib dolaşıram. Yoldan ötüb keçən adamlardan təəccüblə mənə baxanlar da olur. Yəqin düşünürlər ki, görən nəyinisə itirib orda. Amma mən itik axtarmıram. İstəyirəm ki, onun hələ də nəfəsini yaşadan torpağa ayaq basım. Ömrünün neçə ilini yaşadığı bu yeri ziyarət edim. Fikirli halda Sakariyyə caddəsini gəzib dolaşıram. Sakariyyə caddəsində ömrünün son illərini yaşayıb. Xalqımızı istiqlaliyyətə çağıran qəlbi burda alovlanıb yanar məşələ dönüb. Sakariyyə caddəsini dolaşıram. Sakariyyə caddəsi bu neçə gündə gəzib dolaşdığım Ankarada mənə ən doğma bir yer kimi görünür.

Məndən az aralıda, kiçik asfalt düzənlikdə Sakariyyə caddəsinin balaca uşaqları top-top oynayır. Onlar da hərdən təəccüblə mənə baxır, yəqin ki, yaşadıqları bu yerdə qərib qonağın kimi gözlədiyini düşünürlər. Arada top əllərindən çıxıb mənə sarı diyirlənir. Topu götürüb xoşbəxt türk övladına verirəm. Gülümsünüb təşəkkürümü bildirir. Sonra yenə dostları ilə oynamağa qaçır.

Sakariyyə caddəsini dolaşıram. Sakariyyə caddəsi indi doğma ana torpağım kimi məni özünə bağlayıb.

Amma bir azdan ayrılıb getməliyəm...

Vağzala gəlirəm, gecə saat on birdir. Yarım saatdan sonra avtobus İstanbula gedəcək. «Artvin» şirkətinə məxsus avtobus on ikinin yarısında Ankaradan yola düşür. Nədənsə qəribə hal keçirirəm, Ankaradan heç getmək istəmirəm. Mənə elə gəlir ki, böyük xəyanət edirəm, o məzarı tək-tənha qoyub gedirəm. İçərimdə qəribə hisslər dolaşır. Son dəfə avtobusun şüşəsindən şəhərə baxıram. Sayrışan işıqlar getdikcə azalır. Şəhərin işıqları yavaş-yavaş qaranlıqda əriyib görünməz olur. Sonuncu işıq da gözdən itəndə bərk darıxmağa başlayıram və qəmli halda o soyuq məzarıstanlıqda qalan qərib məzarı düşünürəm.

Avtobus dərdlərimdən xəbərsiz halda, heç nə olmamış kimi, irəli şütüyür.

Yenə İstanbuldayam. Yusif Gədikli ilə İstanbulun məşhur «Qapalı çarşı» bazarına gedirik. Orda bizi Həsən İsmayıllı gözləyir. Həsən bəylə çoxdan görüşmək istəyirdik. Amma Polşaya getdiyindən görüşə bilməmişdik. Oğlu Muradla artıq görüşüb tanış olmuşuq. Murad «Qapalı çarşı»nın hörmətli zərgərlərindəndir. Satış dükanında da ilk diqqətimi cəlb edən üç rəngli bayrağımız, bir də onun altında yazılan: «Bir dəfə yüksələn bayraq bir daha enməz» sözləri olmuşdu. Əsilləri Azərbaycandan, Cəbrayıl rayonundandır, İstanbulda doğulub boya başa çatan bu cavan oğlan Azərbaycanla, Məmməd Əmin Rəsulzadə ilə çox maraqlanır. Bu da təsadüfi deyil. Axı atası bir çox illər Məmməd Əmin Rəsulzadə ilə yaxınlıq edib.

..Elə ilk görüşümüzdən Həsən bəyin səmimi, mehriban insan olduğunu hiss edirəm. Qonşu dükanda bizə yer boşaldılıb. Oraya keçib söhbətə başlayırıq.

Həsən İsmayıllı:

—Məmməd Əmin Rəsulzadə ilə ilk tanışlığım 1948-ci ilin yanvar ayında oldu. Türkiyəyə yenicə gəlmişdik. 15 günə kimi qarantində qaldıq. Soruşub öyrənirdilər ki, kim nə sənəti bacarır. Belə bir vaxtda eşitdim ki, İstanbuldakı «Park» otelində azərbaycanlılar bir gecə keçirir. Bir neçə həmyerlimizlə oraya getdik. Qapıda dayanan bir azərbaycanlı üzünü bizə tutub dedi:—Keçin, keçin içəri, indi sizi Azərbaycan allahı, peyğəmbəri olan bir adamla—Məmməd Əmin Rəsulzadə ilə tanış edəcəyik.

Elə bu vaxt həmyerlimizin arxasında dayanan ucaboylu, səliqəli geyinmiş bir adam etirazla bildirdi: yox, yox, mən Azərbaycanın nə allahıyam, nə də peyğəmbəri. Sizin qardaşlarınızdan biri olan Məmməd Əmin Rəsulzadəyəm.

Emin bəylə ilk tanışlığımız belə oldu. Öyrəndik ki, gecəni də onun özü təşkil edib. Məqsədi də Türkiyəyə yeni gələn azərbaycanlıları bir yerə toplamaq, onları birləşdirmək, şərait yaratmaqdır. O gecədə dediyi sözlər indiki kimi yadımdadır. Deyirdi ki, Azərbaycanın sizə çox ehtiyacı var. Azərbaycan bayrağı yenə yüksələcək. Bundan ötrü sizin birliyiniz gərəkdir. Zəfər qüvvətli birlikdə əldə edilir. Sizin birliyinizdən qüvvət qopar.

Məmməd Əmin Rəsulzadə ilə sonradan əlaqəmiz daha da möhkəmləndi. O vaxt İstanbula gələndə Məmməd Sadığın evində qalardı. Həmişə də görüşərdik. Bir dəfə yenə İstanbula gəlmişdi. Görüşüb söhbət etdik. Azərbaycanlılarla bağlı

gördüyümüz işlə maraqlandı. Azərilərin ayrı-ayrılıqda «Azərbaycan varlığı», «Azərbaycan külturu» adlı təşkilatlar yaratdığını ona deyəndə bərk narahat oldu. Dilxorçuluqla dedi:—Belə olmaz Həsən bəy! Belə bölünmək, parçalanmaq zəiflədər bizi. Bir təşkilatda birləşmək lazımdır.

Emin bəy böyük insan idi. Elə buna görə ölümündən sonra bir müddət işimizdə boşluq yarandı...

**Təyyarə qaçıran adam.** İstanbulun yağışlı bir günüdür. Yusif bəylə Həsən Zeynallının evinə gedirik. Həsən bəyin evi qaldığımız yerdən çox uzaqdır. Həsən bəy «Məzhərbəy» küçəsində, hüzur apartmanında yaşayır.

Yağış yağır. Hər ikimiz islanmışıq. Yusif bəydən ötrü çox narahatam. Saf ürəkli, xeyirxah adamdır. Neçə gündür ki, işini, gücünü atıb, mənimlə gəzib dolaşır. O olmasa idi bu qədər adamla görüşə bilərdimmi? Səkkiz milyona yaxın əhalisi olan, tanımadığım İstanbulda kimisə arayıb axtarmaq asanmı işdir?

Yağış yağır. İstanbulun ağ evləri, geniş küçələri yağış suyu ilə yuyunub şəffaflaşırlar. Biz isə bu yağışın altında islana-islana Sovet İttifaqından qırx səkkiz il əvvəl Türkiyəyə təyyarə qaçıran adamla görüşə gedirik.

..Görüşə bir saat geciksək də Həsən bəy səmimiyyətlə qarşılayır bizi. Böyük həvəslə Məmməd Əmin Rəsulzadə haqqında söhbətə başlayır.

**Həsən Zeynallı.** Təqaüdçü:

Emin bəyin adını çoxdan eşitmişdim. Amma ilk görüşümüz 1948-ci ildə Ankarada oldu. Elə ilk görüşümüzdən hiss etdim ki, o «Azərbaycan davası»nı necə davam etdirmək əzmindədir. Sonradan Ankarada Kültur Dərnəyi yaradıldı. Mən o Dərnəyin genel sekretarı seçildim. Emin bəy də fəxri başqanımız idi. Tez-tez görüşürdük. Xoş söhbətləri olurdu hərdən. Bir dəfə dedim ki, Emin bəy, necə məsləhət bilirsən, səndən sonra yerində kimi görmək istərdin? Gülüb dedi: «Məni belə tezmi öldürmək istəyirsən?» Rəhmətliyin xəfif-xəfif gülməyi vardı.

Bir dəfə Emin bəyə dedim ki, özümlə bir neçə yüz təyyarəçi götürüb, hücum edib Azərbaycanı xilas edək (o zaman Türkiyə ordusunda təyyarəçi idim). Emin bəy acıqlandı bu sözdən. Dedi imperiyanı bir neçə yüz təyyarə ilə dağıtmaq olmaz. Ümumiyyətlə, Emin bəy Azərbaycanın xilası yolunu yalnız güclü təbliğat aparmaqda, xalqı bu yolla ayağa qaldırmaqda görürdü. Hətta o zaman bir neçə dəliqanlı cavanlardan imperiyanı saxlayanlara qarşı terrora başlamağı da təklif edənlər olurdu. Lakin Emin bəy bunları qəbul etmirdi. Mənə isə həmişə deyərdi:

- Sən çox odlu-alovlusan. Lap köhlən at kimisən. Gərək cilovunu tez-tez çəkəsən.

Bir dəfə yenə maraqlı hadisə oldu. Emin «Qurtuluş» radiosu ilə Azərbaycan xalqına müraciət etməyə hazırlaşırdı. Bizi başına toplayıb dedi: «Mən radioda çıxış etməliyəm. Özü də Azərbaycan şivəsində danışmalıyam. Ona görə də gəlin bir az Azərbaycan şivəsində danışaq». Elə təzəcə oturmuşduq ki, üzümü Emin bəyə tutub dedim: «Emin bəy, biz şimdi söhbəti nədən başlayaq?» Emin bəy gülüb dedi:

«Durun dağılışaq. Biz heç söhbətə başlamamışıq, indidən «şimdi, şimdi deyirsiniz».

Xoşxasiyyət adam şəkər xəstəliyindən əziyyət çəkirdi. Ciddi dieta saxlayırdı. İspanax, limon, apelsin yeyirdi tez-tez.

Rəhmətə getməyini sonradan eşitdim. İkimiz də eyni xəstəxanada yatırdıq. Bir-birimizdən xəbərsiz. Mən huşsuz və ağır vəziyyətdə olduğumdan ölümündən xəbər tutmamışam. Xəstəxanadan çıxandan sonra məzarı üstünə gedib acı göz yaşı tökdüm. (Sonra Həsən bəy əlini ürəyinin üstünə qoyub «Emin bəyin qəbri bax burdadır, burda» deyərək ağlayır).

Bu gün böyük sevinc içərisindəyəm. Türkiyəyə gəldiyim ilk gündən arzuladığım bir istəyə çatmışam. Məmməd Əmin Rəsulzadənin səsi yazılmış lenti əldə etmişəm. Bu lent hansı əziyyətlər bahasına tapılıb! Bu lenti almaq üçün günlərlə intizar içində yaşamışam. Yusif Gədikli ilə bərabər saatlarla küçələri gəzib dolaşmışıq, onlarla ünvana üz tutub qapılar döymüşük. Amma həmişə bir inam hissi tərk etməyib məni: onun səsinə qulaq asacağam! Budur o səs! Budur o azadlıq fədaisinin səsi! Bu sözləri deyən odur! O kəsdir ki, xalqımı bir dəfə əsarətdən qurtarıb başı üzərində üç rəngli istiqlaliyyət bayrağını qaldırıb! Bu səsdə «o Azərbaycan»ın nəfəsini, qüdrət və əzəmətini duyuram. Dönə-dönə, təkrarən o səsə qulaq asıram.

Bu onun yeganə, yadigar qalan səsidir. 1953-cü ildə lentə alınıb bu səs. Azərbaycan Demokratik Respublikası yaradılmasının 35 illiyi münasibəti ilə Məmməd Əmin Rəsulzadə xalqa müraciət edir:

## MƏMMƏD ƏMİN RƏSULZADƏNİN «AMERİKANIN SƏSİ» RADİOSU İLƏ AZƏRBAYCANA XİTABI

*ƏZİZ VƏTƏNDAŞLARIM!*

*«Amerikanın səsi» radiosunun verdiyi imkanlardan istifadə edərək bu gün Azərbaycan tarixinin ən böyük günü olan 28 Mayısda sizlərə xitab edirəm. 100 il sürən çar əsarətindən sonra bundan 35 il əvvəl Azərbaycan Şurayi-Millisi Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün dünyaya elan etdi. O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq bir dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır. Mədəni bütün bir tərəkəyə (mirasa) malik olan Vətənimiz siyasət sahəsində çox böyük və dəyərli həmlələr göstərmişdir. İstiqlal uğrunda yapılan tarixi savaşların ən qanlısı XIX əsrin başlarında Rusiya çarlığına qarşı yapılmışdır. 30 ilə qədər sürən bu savaş qəhrəmanlıqlarla doludur. Cavad xanın 1804-də Gəncədəki şanlı qəzası dillərdə dastandır. «Ölmək var, dönmək yoxdur». Bu, həqiqi vətənpərəstlərin tətbiq etdikləri ən müqəddəs bir şüardır.*

*28 Mayıs 1918-də istiqlalını elan etməklə Azərbaycan tarixinin təbii bir nəticəsini fikirdən işə keçirdi. Eyni zamanda o, zamanəyə hakim olan əsrin böyük*

*şüarından istifadə ediyordu. «Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyətdardır» düsturunu xalqın ümumi rəyinə uyaraq istiqlalını elan edirdi. İstiqlal elanı üzərinə qurulan milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü. 100 ildən bəri əsgərlikdən mən edilən Azərbaycanda bir ordu yaratdıq. Çarlıq zamanında dövlət idarəsinə yaxın buraxılmayan azərbaycanlılardan zabıta və əmniyyət qüvvətləri vücuda gətirilib. Sosial sahədə əsaslı islahata girişdik. Kəndlilərə torpaq vermək üçün qanunlar hazırladıq. Fəhlələrin haqlarını qorumaq üçün tədbirlər aldıq. Xalqı az zamanda oxutmağa başladıq. Türkcəni dövlətin rəsmi dili elan etdik. Orta və ali məktəblər açdıq. Qərbi Avropa demokrasiyaları tipində xalq nümayəndələri cavabdeh bir hökumət üsuli-idarəsi yaratdıq. Hakimiyyət Milli Məclisinin əlində idi. Parlamentodan etimad aldıqca heç bir hökumət iş başında qala bilməzdi. Məmləkətdə tam bir azadlıq vardı. O zaman indi Sovet zamanında olduğu kimi terror denilən şeydən heç bir əsər yoxdu. Şəxslər də, məskənlər də əmir və amanda idi. Vətənin qapıları şimdi olduğu kimi bütün dünyaya qapalı deyildi. Hər azərbaycanlı istədiyi zaman hara istərsə gedərdi. Qonşu və Avropa dövlətləri ilə dostluq münasibətləri təsis edilmişdi. Bütün millətlərlə alış-veriş vardı. Bütün bunların nəticəsində idi ki, cümhuriyyətimizin istiqlalı Avropa dövlətlərə ilə Birləşik Amerika tərəfindən tanındı. Onları təqibən böyük bir çox dövlətlər daha istiqlalımızı tanıdılar.*

*HEYHAT! Qədər imtahanları tamam deyildi. Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu. Belə azadlıq istiqlalımız qızıl istilaçıların ayaqları altında əzildi. Müqavimət edən məmləkətdə qan gövdəyə çıxdı. Bundan bir ay əvvəl 28 Apreldə Sovet propaqandaçıları bir qanlı istila hərəkatını sizə azadlıq və istiqlal hadisəsi kimi göstərdilər. Sizdə sizə dünyanın ən azad və demokrat rejimi kimi qələmə verilən Sovet quruluşu işdə qəddar və ən yalançı bir istibdad rejimidir. Müqayisə etmək imkanında olsaydınız bunun nə qədər doğru olduğunu gözünüzlə görərdiniz. Azadlığımızı əlimizdən alan millətdən qorxmuyorlarsa dəmir pərdəni qaldırsınlar, azadlıq elan etsinlər. Edə bilməzlər. Çünki ağla qara meydana çıxır. Onlar şəbhərə kimidirlər, günəşdən qaçırlar.*

*VƏTƏNDAŞLAR! Üç rəngli istiqlal bayrağını döşlərində gəzdirən buradakı Vətən ayrısı bizlərdən, orada hər türlü qorxu və təhdid altında qəlbləri istiqlal eşqi ilə çırpınan azadlıq ayrısı sizlərə çoxdan salamlar göndərir, 28 Mayıs istiqlal qurbanlarının əziz ruhları hüzurunda hörmətlə əyilirəm.*

İndi qəlbimdən bir istək keçir. Bu lenti tezliklə Bakıya aparmaq. Xalqa onun səsini eşitdirmək! Qoy bu ağır günümüzdə onun inamlı, istiqlaliyyət nəfəsli səsi xalqımıza dayaq olsun!

...İstanbulda sonuncu günümdür. Sabah Bakıya gedəcəyəm. Axşam Yusif bəyin evində oturub söhbət edirik. Bu vaxt Yusif bəyin xanımı balaca qızı Bötülü otağa gətirir. Beş aylıq uşaq qollarını açıb mənə sarı can atır. Balaca Bötülü qucağıma götürürəm. Sonra Yusif bəyə deyirəm:

—Yusif bəy, xoşbəxtdir bu qızın. Xoşbəxtdir ki, azad bir ölkədə böyüyür. Əsarətin, mənəvi işgəncənin nə olduğunu bilməyən bir torpaqda dünyaya göz açıb. Xoşbəxt olsun, salamat olsun.

Yusif bəy gülümsünür..

Bu da İstanbulun «Topqapı»sı. Burdan avtobusa minib Hopaya, ordan isə sərhədi keçib Bakıya gedəcəyəm. Ayrılıq məqamı yaxınlaşır. Yusif bəylə görüşüb ayrılırıq. Ona necə təşəkkür edəcəyimi bilmirəm. Onun xeyirxahlığını, səmimiyyətini heç zaman unutmayacağam. Ayrılırıq. Özünü, xanımını və balaca qızı Bötülü Bakıya dəvət edirəm.

«Süzer» şirkətinə məxsus avtobus yola düşür. Azad türk elinin gözəl şəhəri İstanbul arxada qalır. Mən isə əsarət və işgəncələr içində inləyən dustaq Vətənimə — Azərbaycana gedirəm....

## O MƏZARDAN QORXMAYIN!

...Türkiyədə olanda Məmməd Əmin Rəsulzadənin dostları ağrılı bir söz dedilər. Dedilər ki, dünənki bir neçə ilə kimi Azərbaycandan Türkiyəyə gələnlər, xüsusilə də hökumət adamları bizdən uzaq qaçırdılar. Hətta bəziləri Türkiyə torpağına ayaq basan kimi deyirmiş: bizi onlarla görüşdürməyin, bizi onlardan uzaq edin!

Kimlərdən? Kimlərdən uzaq edin deyirdi bu hökumət adamları? Məmməd Əmin Rəsulzadənin əməl dostlarından, onun «Azərbaycan davası»nı davam etdirənlərdən. Çünki onlar hələ də Məmməd Əmin Rəsulzadə adından ehtiyatlanır, qorxu keçirirdilər. Onun məzarı üstə getməyə isə qəti razılıq verməmişdilər. Nəhayət, 70 ildən sonra sükut buzu hərəkətə gəldi. 1990-cı ildə Azərbaycan hökumətinin nümayəndələri cəsarətə gəlib o məzara üz tutdular. İlk sükut buzunu sındıran, qorxu pərdəsini çəkib kənara atan Azərbaycan respublikasının Baş naziri Həsən Həsənov oldu. 1990-cı ildə Türkiyədə olanda Baş nazir Məmməd Əmin Rəsulzadənin həmişə nifrət etdiyi və son nəfəsinə kimi lənətləyib mübarizə apardığı bir quruluşun rəsmi hökumət başçısı mənafeyini müdafiə etdiyi dövlətə qarşı duran adamın məzarı üstə gedir, gül dəstəsi qoyurdu.

Bir təsadüfi görüşümüzdə Baş nazir Həsən Həsənov o hadisəni belə danışırdı:

—Bir dəfə Türkiyəyə gedəndə dedim ki, məni aparın Məmməd Əmin Rəsulzadənin qəbri üstünə. Mənimlə gedənləri də götürüb getdim onun məzarını ziyarət eləməyə. Heç «DTK»-dən də qorxmadım. Eləcə getdim...

Baş nazir hadisəni böyük coşğunluqla, həvəslə danışırdı. Mən isə acı-acı düşünürdüm: O bütün ömrü boyu indi sizin başçılıq etdiyiniz hökumətə nifrət etdi. Və indi hamınız onun dediyi həqiqətə gəlib çıxmısınız. Bilirsiniz ki, belə rejimli quruluşda respublikanın Baş naziri, lap elə prezidenti olmaq da hələ xoşbəxtçilik deyil. Xoşbəxtçilik o zaman mümkündür ki, müstəqil olasan, Məmməd Əmin

Rəsulzadə isə bütün ömrü boyu Azərbaycanın müstəqilliyi uğrunda mübarizə apardı. Gec də olsa indi hamımız, adi işçidən tutmuş Baş nazirə, prezidentə kimi bu həqiqəti dərk etmişik. Bax, elə buna görə o qərib və nurlu məzarı ziyarətə can atırıq.

## AYRILIQ MƏQAMINDA

Ankaradan çıxan günü Əsri məzarıstanlığına — Məmməd Əmin Rəsulzadənin məzarı ilə vidalaşmağa getdim. Məzarın yanında dolanarkən qəfildən bir qoca yaxınlaşdı mənə. Sorğusuz, sualsız sözə başladı. Dedi:

- Keçən il bu vaxtlar (mən Ankarada olanda yanvar ayı idi) məzarıstanlığa gəlmişdim. Elə bu qəbrin yanından birdən inilti səsi eşitdim. Yaxınlaşıb bir az da diqqətlə qulaq asdım. Yanılmamışdım, səs bu qəbirdən gəlirdi. Ağrılı, şikayətli bir inilti səsi idi. Mən xoflanıb bu qəbirdən uzaqlaşdım. Bir müddət özümə gələ bilmədim. Əhvalatı kimə danışdımsa inanmadılar. Dedilər səni qara basıb. Amma məni qətiyyən qara basmırdı. O qəbirdən inilti səsi gəlirdi:

Qəribə heyrət içində qocadan soruşdum:

— Siz keçən il yanvarın neçəsində olmuşdunuz burda?

Qoca dedi:

—Ayın ya on doqquzu idi, ya da iyirmisi. Çünki mən belə vaxt gəlib yaxın adamımın qəbrini ziyarət edirəm. Amma indiki kimi o səs yadımdadır. Qəbirdən ağrılı, şikayətli bir inilti səsi eşidilirdi.

Qoca bu sözləri deyib çıxıb getdi.

Mən isə acı bir həqiqətin ağrısına bürünərək Ankaranın Əsri məzarıstanlığında, onun qəbri yanında donub qalmışdım. Və dərdli-dərdli düşünürdüm: Demək ayın 20-si günü o qanlı yanvarda xalqımızın günahsız qanı axıdılanda qəbirdə rahatlıq tapmamısan. İgid oğullarımız düşmən gülləsinə nahaqdan hədəf tutulanda dözə bilməyib soyuq məzarda inildəmisən. Qeyrətli cavanlarımız al qan içində çırpınanda, analar ağu deyib fəryad qoparanda dayana bilməmisən, ağlayıb şikayətlənmisən.

Düşünürəm, acı-acı düşünüb ağlayıram: qəbirdə də rahat buraxmırlar, soyuq məzarda da incidirlər səni! Sən hələ sağsan, bizimlə yaşayıb, bizimlə də xalqımızın azadlığı yolunda, istiqlaliyyəti uğrunda mübarizə aparırsan!

**FEVRAL-MART. 1991.**
**BİLGƏH**



*M.Ə.Rəsulzadə gənclik çağında.*



*M.Ə.Rəsulzadənin həyat yoldaşı Ümbulbanu xanım qızı Lətifə ilə.*



*M.Ə.Rəsulzadəyə silah gəzdirmək üçün verilən sənəd.*




*M.Ə.Rəsulzadənin İstanbulda nəşr etdiyi "Odlu yurd" jurnalı.*



***M.Ə.Rəsulzadəyə Türkiyədə verilən səyahət vərəqəsi.***


İnsanlara Hürriyet, Milletlere İstiklâl!

# KURTULUŞ

Azerbaycan Millî Kurtuluş Hareketinin Organı

AYLIK MECMUA

Sayı 1

II-nci Teşrin — 1934 — November

Birinci Yıl

„Die Befreiung"

Das Organ der nationalen Verteidigung von Aserbeidschan

„La Délivrance"

Organe de défense nationale d'Azerbaidjan

Millî Azerb. Neşr. mevkute serisinden: Nr. 324

Adresse: Berlin-Charlottenburg 2, Postfach Nr. 16

*M.Ə.Rəsulzadənin Almaniyada nəşr etdiyi "Qurtuluş" jurnalı.*



***M.Ə.Rəsulzadə Türkiyədə yaşayan Azərbaycanlı dostları ilə.***



***M.Ə.Rəsulzadə azərbaycanlı mühacirlər arasında.***

# AZERBAYCAN

Aylık Kültür Dergisi.

Yıl: 1. Sayı: 1 — Birlik - Diriliktir. — 1/Nisan/1952

Sahibi: Azerbaycan Kültür Derneği.• Sorumlu Müdür: Dr. Ahmet Yaşat

Türkleşmek — Muasırlaşmak — İslâmlaşmak




Azerbaycan Cumhuriyeti haritası

*M.Ə.Rəsulzadənin Ankarada nəşr etdiyi "Azərbaycan" jurnalı.*



*M.Ə.Rəsulzadə Atatürkün məzarını ziyarət edir.*



№ 383991

№ 383991

*M.Ə.Rəsulzadənin xaricə getmək üçün pasportu.*

-2-

Dede-Korkut destanları

Türk halk edebiyatının şaheseri bu destanlar, son yılların siyasi günlük bir mevzuunu teşkil ettiler. Azgınlaşan Bolşevik Ruslaştırma siyaseti gereğince, bunlar, Azerbaycanlı aydınları yeniden eleyip kızıl kalbuddan geçirmeye vesile oldular.

«Kitab-ı Dede-Korkud ala lisan-ı taife-i Oğuzan» adını taşıyan XVI.ncı yüzyılda yazılmış bir nushaya, ilk defa Almanya kıralları kitaplığının fihristini tanzim eden Fleischer rasladı. Daha sonra Barthold, Diz, Nöldke ve saire gibi bilgin müsteşrikler tarafından incelenen bu destanlardan bir kısmı türlü Avrupa dillerine çevrildi. 12 destanı ihtiva eden bu Kitap hakkında mütalaalar yazıldı ve münakaşalar yapıldı. Neticede Dede-Korkut veya Korkut-Ata'nın, tarihi değil, Hızır gibi, efsanevi bir şahsiyet olduğu üzerinde duruldu; destanların da Azerbaycan sahasında ve Azerbaycan halkı tarafından yaratılan bir eser olduğu kanaatına varıldı.

X-XI.nci yüzyıllarda Orta Asya'dan Azerbaycan'a külliyetli Türkmen taifeleri geldiler. Bunlar kendileriyle beraber Oğuz kahramanlık hatıralarını da getirmişlerdi. Yerli şartlara uyan bu hatıralar bedii edebiyat ve destanlar şeklini aldılar. Dede-Korkut destanları işte bu destanlardandır.

*M.Ə.Rəsulzadənin öz xətti ilə yazdığı "Dədə Qorqud" dastanları məqaləsinin əlyazması.*



***M.Ə.Rəsulzadə polyak qızı Vanda (Leyla) xanımla.***



***M.Ə.Rəsulzadə ömrünün son illərində.***



***M.Ə.Rəsulzadənin güllələnmiş oğlu Rəsul.***



***M.Ə.Rəsulzadənin yeganə sağ qalan oğlu Azər.***



***M.Ə.Rəsulzadənin tabutu Əsri məzarıstanlığına aparılır.***



***Dəfn mərasimində.***

## MÜNDƏRİCAT

YADDAŞ İŞIĞINDA....................3
İLK «TƏHLÜKƏ»....................6
ARAZIN O TAYINDA....................26
İSTANBULDA İLK GÖRÜŞ....................32
DOĞMA BAKIDA....................41
AZAD VƏTƏN....................64
AZAD AZƏRBAYCANDA....................74
İBLİS QORXULUDUR....................110
YOXDUR HƏQİQƏT!....................117
«GİZLİ MÜSAVAT»....................119
GƏNCƏ QAN İÇİNDƏDİR....................124
LAHIC DAĞLARINDA....................125
PANKRATOV. «OSOBI OTDEL». STALİN....................128
DUSTAQ BAKI....................130
QAN ATƏŞLİ MOSKVA....................132
İSTANBULDA....................136
27 APREL MATƏM GÜNÜDÜR....................144
İNTİQAM....................152
DUSTAQ VƏTƏN....................155
28 MAY – İSTİQLAL GÜNÜDÜR....................156
ATATÜRK NARAZIDIR....................161
HİTLERLƏ ÜZ-ÜZƏ....................175
ANKARADA....................185
AİLƏSİNİN FACİƏSİ....................216
YOLUM QAZAXISTANA —KARAQANDAYADIR....................218
LAHICDA İKİ GÜN....................226
TÜRKİYƏYƏ GEDİRƏM....................227
O MƏZARDAN QORXMAYIN!....................244
AYRILIQ MƏQAMINDA....................245

Yeniyetmələr üçün
Ягублу Насиман Кара оглы
МАМЕД ЭМИН РАСУЛЗАДЕ
(на азербайджанском языке)
Баку. Гянджлик. 1991.

Nəşriyyatın direktoru: *Ə.T.Əliyev*
Mətbəənin direktoru: *Ş.M.Cəfərov*
Rəssamı: *F.Əfəndiyev*
Bədii redaktoru: *T.Qasımov*
Texniki redaktoru: *N.Şərifova*
Korrektoru: *A.Quliyeva*
ИБ № 512

Yığılmağa verilmiş 28.08.91. Çapa imzalanmış 30.10.91.
Kağız formatı 60x90 $^{1}/_{16}$. Mətbəə kağızı № 2. Ədəbi qarnitur.
Yüksək çap üsulu. Şərti ç.v. 19,25. Rəngli şərti ç.v. 22,75. Uçot nəşr v. 20,58.
Tirajı 30.000. Sifariş № 191.
Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi
"Gənclik" nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.
3 №-li Bakı kitab mətbəəsi. Bakı, Ə.Tağızadə küçəsi, 4.